A2Z
A36

Pərviz Axundbəyli



# Şuşa həsrəti



19857

84(Az)-4
Az2
A36

PƏRVİZ AXUNDBƏYLİ

# ŞUŞA HƏSRƏTİ

MƏCBURİ NÜSXƏ
F. Köçərli adına Azərbaycan Dö·lət Uşaq KITABXANASI
İNV. № 19857
2015-fond
Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin hədiyyəsi

Bakı - 2005

BBK 46.3,1

A-95

**Pərviz Axundbəyli. Şuşa həsrəti. Azərnəşr, Bakı, 2005. 460 səh.**

**Nəşriyyat redaktoru: Hacıbala Əbilov**

A-95 Kitaba müəllifin 1962-2005-ci illərə kimi qələmə aldığı məqalə və oçerkləri, satirik yazıları daxil edilmişdir. Bu topluda doğma yurdumuza – Şuşaya müəllifin dərin məhəbbətindən, adət və ənənələrimizdən, klassik irsimizdən, görkəmli elm və mədəniyyət xadimlərimizin həyat və yaradıcılığından, musiqi və sənət adamlarımızdan, müasirlərimizin elmi-pedaqoji və ədəbi irsindən ətraflı bəhs edilmişdir.

Müəllifin kitaba daxil edilən elmi-publisist məqalələri xüsusi əhəmiyyət kəsb edir. Həmin məqalələrdə müəllif bir iqtisadçı alim və muzeyşünaslıq sahəsində səriştəli mədəniyyət işçisi kimi özünü büruzə vermiş, bununla yanaşı onun ədəbi-bədii görüşləri açıqlanmışdır.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

4603010000
———————— Qrifli nəşr
M-651 (07)

© P.Axundbəyli , 2005



## Şuşa həsrətli Pərviz

Külli Qarabağda, İllah da ki, Qarabağın gözünün nuru olan Şuşada Pərviz Xosrov (Şaiq) oğlunun mənsub olduğu Axundbəylilər nəslinin böyük hörməti, urvatı-izzəti olmuşdur, var və yenə də olacaqdır.

Pərviz Axundbəylini biz, şəxsən mən keçən əsrin 70-ci illərindən tanıyıram. O, bir iqtisadçı alim olmaqla yanaşı, həm də torpağın, yurdun, el-obanın qeyrətini çəkən əsl vətəndaş, yazıçı-publisistdir. Kitabın əvvəlindəki müəllif sözündə və eləcə də yazıçı-publisist-naşir Adil Qüldrətoğlunun ön sözündə Pərviz Axundbəylinin bu yeni fundamental toplumu barədə geniş danışıldığına görə, mən təkrarçılığa yol vermirəm. Qısaca demək istəyirəm ki, «Şuşa həsrəti» adı simovlikdir. Bu kitabda müvəqqəti də olsa itirdiyimiz gözəl Qarabağ həsrəti gözdağı kimi asılıb ürəyimizin sinəsindən. Pərviz bir çox böyük şəxsiyyətin ömürlüklərinin mümkün zaman kəsiyində portret cizgilərini vermiş, yadda qalan deyim-duyumlarla xalıqımızın misilsiz xidmətlər göstərmiş böyük övladlarının xatirəsini əbədiləşdirməyə çalışmış və nail olmudur.

«Şuşa həsrəti» monumental toplum olaraq, Vətən-torpaq itirmiş bir kişinin qeyrətindən süzülən düşmənə nifrət selidir, torpağa məhəbbət çeşməsidir. İnanıram ki, bu kitab sevilə-sevilə oxunacaq və qardaşımız Pərviz Axundbəyliyə başucalığı gətirəcəkdir.

**Əhməd ELBRUS**
**Şair, filologiya doktoru,**
**Beynəlxalq Ekoenergetika**
**Akademiyasının akademiki**

# Ön söz

Oxuculara təqdim olunan «Şuşa həsrəti» kitabı müəllifin 45 illik yaradıcılıq fəaliyyətinin nəticəsində işıq üzü görmüşdür. Kitab müəllifin həyatı boyu gördüyü, şahidi olduğu hadisələr fonunda xalqımızın həyatının, məişətinin, ideya-siyasi dirçəlişinin salnaməsi kimi çox maraqlıdır. P.Axundbəyli kitabda həyat səhifələrindən xatirələrini, məqalə və oçerklərini, satirik yazılarını və s. səlis bir dillə təsvir edir. Məlumdur ki, xatirə janrı memuar ədəbiyyatının fəal nümunələrindən biri olub material zənginliyi, tarixi hadisələrə, şəxslərə münasibətdə dəqiqliyi, obyektivliyi ilə diqqəti cəlb edir. Bu cəhətdən o, yaxın keçmişimiz haqqında təsəvvürlərimizi xeylı genişləndirir və bəzi mübahisəli və qaranlıq məsələlərin düzgün işıqlandırılmasına köməklik göstərir. Hər şeydən əvvəl nəzərə almaq lazımdır ki, kitabın müəllifi Azərbaycanda baş verən ictimai-siyasi və mədəni hadisələrin müşahidəçisi yox, onların fəal iştirakçısı, olaraq torpaqlarımızın azadlığı uğrunda canlarını fəda verənlərin «Qanlı yanvar» və «Xocalı faciələrin»dən ətraflı bəhs edir. 1962-ci ildən bəri qələmə aldığı yazıları Pərviz Axundbəylinin səmərəli fəaliyyətinin məhsuldar dövrünə qədəm qoymasına bir sübutdur.

«Xatirələr»də görkəmli elm və mədəniyyət xadimlərimiz və müasirlərimiz haqqında maraqlı faktlara və təəssüratlara rast gəlirik.

Nəticə etibarı İlə P.Axundbəylinin yaradıcılıq fəaliyyətini əsasən 3 mərhələyə – iqtisadiyyat elmi sahəsindəki fəaliyyətinə, pedaqoji ədəbi yaradıcılığına və muzeyşünaslıq fəaliyyətinə ayırmaq olar.

P.Axundbəylinin yazdığı kitab çox dəyərli bir əsərdir. Müəllif kitabı müqəddəs Ramazan, Qurban və Novruz bayramları ilə başlayıb soy kökü ilə bitirir. Kitabda Müqəddəs bayramlar çox müdrikliklə izah edilir. O, adları çəkilən bayramların əhəmiyyətindən ətraflı bəhs edir.

Qeyd etmək olar ki, milli adət-ənənələrimiz xalqımızın mənəvi dəyərinin ayrılmaz bir hissəsidir. Hər bir xalqın



mədəniyyəti, milli iftixar hissi, estetik zövqü, mənəviyyatı onun adət-ənənələrində öz əksini tapmasındadır. Bununla əlaqədar olaraq, kitabda çərşənbələr haqqında maraqlı məlumatlar verilir.

Kitabda müəllif Azərbaycanın Konservatoriyası sayılan doğma yurdu Şuşadan ətraflı bəhs edir. Şuşanı Azərbaycanın mədəniyyət mərkəzi olduğunu göstərərək özünün təbii gözəlliyi, saf iqlimi və ab-havası ilə məşhur olan bu şəhər ədiblərin, bəstəkarların mahir pedaqoqların və incə səsli xanəndələrin vətəni olduğunu qeyd edir. Belə bir hərbi-strateji, əhəmiyyəti olan şəhər 1992-ci ilin may ayından etibarən erməni qəsbkarlarının əlində bir oyuncağa çevrilmişdir. Müəllif bu işdən çox kədərlənir və təssüflənir. Gecələr yüxusunda doğma yurdu – Şuşanı görür. Artıq 13 ildir ki, o, Şuşa həsrəti ilə yaşayır. Burada atası, görkəmli pedaqoq və şair Mirzə Xosrov Şaiqin bir bayatısını xatırladır:

*Əzizinəm sən Şuşa,*
*Şairlər yurdu Şuşa,*
*Cənnət məskənim olsa,*
*Çıxmaz yadımdan Şuşa.*

P.Axundbəyli iqtisadçı-alim olmasına baxmayaraq, eyni zamanda ömrünün 43 ilini atası Mirzə Xosrov Axundzadənin həyat və yaradıcılığına sərf etmişdir. Buna görə də onun yaradıcılığının əsas bir hissəsi də Mirzə Xosrov irsi ilə bağlıdır. Bununla əlaqədar olaraq 1976-cı ildə «Gənclik» nəşriyyatı tərəfindən onun ilk dəfə «Mənalı həyat» monoqrafiyası çapdan çıxmışdır.

1993-cü ildə Mirzə Xosrov Axundzadənin «Ömürdən səhifələr» ədəbi toplusu «Yazıçı» nəşriyyatı tərəfindən, 2000-ci ildə isə «Pedaqoji mülahizə və təcrübələrim» əsəri «Maarif» nəşriyyatında işlənilmiş və Azərbaycan Dövlət İqtisad Universitetinin mətbəəsində çap olunmuşdur. O, həmin kitabların tərtibatçısidir.

Pərviz müəllimi mən 1975-ci ildən «Gənclik» nəşriyyatında işlədiyim dövrdən tanıyıram. Onun ədəbi-bədii yaradıcılığı o vaxtdan mənə məlumdur. O, çox talantlı bir insandır.

1976-cı ildə Pərviz müəllimin gərgin əməyinin bəhrəsini mən onun ilk dəfə «Mənalı həyat» monoqrafiyasının nəşr olunmasında gördüm. Pərviz müəllim heç vaxt yorulmaq nədir bilmir, yaradıcılığını daima davam etdirir, gecənin şirin yuxusunu həmişə özünə haram edir. O, çox böyük fədakarlıq əzmi göstərib 460 səhifədən çox iri həcmli və məzmunlu bir kitab yazmışdır.

Kitabda maraq doğuran bölmələrdən biri də «Xatirələr və memuarlar»dır. Bu bölmədə müəllif həyat səhifələrindən xatirələri çox dolğunluğu ilə təsvir edir. O, burada uşaqlıq və gənclik və tələbəlik illərini xronoloji şəkildə verir. Yazdıqlarından görünür ki, onun həyatı zəhmətlə qurulmuşdur. Atasının vəfatından sonra Pərviz müəllim böyük bir ailəyə başçılıq etmişdir. Ona görə də o, gec evlənmişdir. Hətta onun dostu müəllim və şair Əjdər Qiyaslı Pərviz Axundbəyliyə «Bəsdir, subaylığın gəl at daşını!» şerini də həsr etmişdir:

*Bir mehriban dostum söylədi mənə,*
*Nə kömək lazımsa qoy edim sənə,*
*Yaxın dostum kimi, deyirəm, yenə,*
*Bəsdir, subaylığın gəl at daşını!*

Pərviz Axundbəylinin yaradıcılığının bir hissəsi də muzeyşünaslıq fəaliyyətilə bağlıdır. Mədəniyyətimizin bir incisi olan muzeylər xalqın yaddaşında əhəmiyyətli bir iz buraxmışdır. Bu baxımdan müəllif muzey işinə ciddi diqqət vermiş və muzeyşünaslıq sahəsində bir sıra diqqətəlayiq işlər görmüşdür. Onun uşaqlıq və gənclik dövrlərindən incəsənətə və mədəniyyətə çox həvəsi olmuşdur. O, xatirələrində qeyd edirdi: «Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin orqanı olan «Mədəni maarif işi» jurnalının 1984-cü ilin 3-cü nömrəsində mənim barəmdə «Nəcib yolun carçısı» başlığında geniş bir material dərc olunmuşdu. O gündən etibarən müzeyşunaslıq işinə rəğbətim daha da artdı. Nəticədə isə, heç kəsin köməyi olmadan muzeyşünaslıq sənətinə yiyələndim.

1985-ci ilin yanvar ayının 2-dən etibarən işlədiyim institutun rektoru, professor Zeynal Ələkbərovun, əmrilə



D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun «Tarix muzeyi»nin direktoru vəzifəsinə təyin olundum. O vaxtdan hal-hazıra kimi muzeyşünaslıq fəaliyyətimi davam etdirirəm».

Pərviz Axundbəylinin muzeyşünaslıq fəaliyyəti respublikamızın ziyalılarının həmişə diqqət mərkəzində olmuşdur. Budur qarşımızda bir kitab var. «Azadlıq yoluna çıxsana millət» kitabının müəllifi istedadlı ziyalılardan biri, şair Sahib Dadaşdır. O, Pərviz müəllimin muzeyşünaslıq fəaliyyətini yüksək qiymətləndirərək belə yazır:

-«Səmimi dost, alim, müəllim, görkəmli muzey təşkilatçısı kimi Siz məni çox sevindirirsiniz. Siz ən yaxşı tərbiyəçi atasınız.

Mən Sizə möhkəm can sağlığı, xoşbəxtlik və muzeyşünaslıq işinizdə müvəffəqiyyətlər arzu edirəm.» Mənəvi dünyamın bir yazılı parçasını unudulmaz xatirə kimi Sizə həsr edirəm:

*Sevirəm insanı-sevirəm səni,*
*Vətənə, xalqına bağlanan Pərviz.*
*Müəllimlər müəllimi Xosrov Mirzəni,*
*Yenidən xalqına qaytaran Pərviz.*

* * *

*Şaiqin qəzəli, Cabbarın səsi,*
*İsinin, Hüsünün itmiş nəğməsi.*
*Natəvan diyarı-Şuşa çeşməsi,*
*İslamdan, Seyiddən danışan Pərviz.*

* * *

*Min zəhmət, əzabla dil öyrənibdi,*
*Sənəddən yan düşüb gileylənibdi,*
*İqtisad elminə yiyələnibdi.*
*Müəllim, gənc ədib, şux insan Pərviz!*

Müəllifin yaradıcılığında əsas yerlərdən birini də saf ailə məhəbbəti tutur. O, yazılarında saf məhəbbətin və təmiz ailə eşqinin hər bir kəsə lazım olduğunu dönə-dönə vurğulayır və qeyd edir ki, gənclərimizin bir qismi düzgün ailə bünövrəsi yarada bilmirlər. Buna görə də yüz ölçüb, bir biçmək lazımdır.

Kitabda maraq doğuran məsələlərdən biri də paxıllıq haqqında mülahizələrdir. Müəllif göstərir ki, insanın özünə qənim çıxan, məninə, mənliyinə, şəninə, şərəfinə, əqidəsinə, amalına, bütövlükdə varlığına heçlik gətirən qəddar bir düşmən varsa, o da paxıllıqdır. Paxıllıq xain ürəklərdə qərar tutur, qanda dolanır, gözlərdə parıldayır. Müəllif qeyd edir ki, hətta məzar daşları arasında da paxıllıq vurnuxur, gözləri təmtəraqlı yaşlarda böyüyür paxılların.

P.Axundbəylinin kitabında Böyük Vətən müharibəsində azərbaycanlı cəsur döyüşçülərdən ibarət olan 223-cü Belqrad diviziyasının mübarizəsinin hünər salnaməsindən ətraflı bəhs olunur. Müəllif burada mayor Ələsgər Qasımovun, Xəlil Fazilovun, mayor Baxış Mehdiyevin, Zabit Aşurovun, Məhərrəm Ağayevin, leytenant Əli Əliyevin göstərdikləri igidlikdən söhbət açır. Hazırda 223-cü diviziyanın silahdaşlarının keçdiyi şərəfli qəhrəmanlıq yolu gənclərimizə bir örnək olmalıdır. Tariximizin gələcək nəsillərə düzgün və dəqiq çatdırılması yolunda gənclərin üzərinə böyük məsuliyyət düşür. Vətən uğrunda canlarını qurban vermiş şəhidlərimizin parlaq xatirələrini 223-cü Belqrad diviziyasının keçdiyi rəşadətli yolun davamı hesab etmək olar.

Pərviz Axundbəyli təbiətin vurğunudur. O, əslən Şuşa qalasındandır. Şuşanın əsrarəngiz təbiətinin qoynunda boya-başa çatdığı üçün təbiətin füsunkar gözəlliyini daim izləmişdir. Ona görə də müəllif bir anlığa təbiəti seyrə çıxaraq, ilin fəsillərində təbiətdə baş verən maraqlı hadisələri qələmə almış və kitabda ətraflı təsvir etmişdir.

Beləliklə də, qeyd etmək olar ki, yaradıcılığının keşməkeşli bir dövründə Pərviz Axundbəyli böyük bir iş görmüş və Azərbaycan ədəbiyyatı tarixində danılmaz iz qoymuşdur. Müəllifin «Şuşa həsrəti» kitabında bugünkü günümüz üçün gərəkli və zəruri məsələlərə dərindən toxunulur. Bütün bunların Şuşanın həsrətində olanlar üçün maraq doğuracağına şübhə etmirik.

**Adil QÜDRƏTOĞLU**

**Azərbaycan Jurnalistlər Birliyinin üzvü.**



# Müəllifdən

***Bu kitabı görkəmli maarif fədaisi, xəttat və ədəbiyyatşünas, Qarabağın tarixini yazanlardan biri, atam Mirzə Xosrov Mirzə Əli oğlu Axundzadənin və həyatdan nakam köçmüş anam Zümrüd xanımın xatirəsinə həsr edirəm.***

Gənclik illərində ədəbiyyat sahəsində ilk addım atdığım dövrdən bir sıra görkəmli insanlarla səmimi görüşlərim, söhbətlərim, bəziləri ilə yaxın dostluğum xəyalımda dərin iz buraxmışdır. Həmin insanlarla yaxın münasibət və ünsiyyət mənə onların xarakterinin bəzi cəhətlərini öyrənməyə imkan vermişdir. Belə insanlarla hər dəfə görüşdə onların şəxsiyyəti, sənəti və tutduğu peşə haqqında məndə yeni təsəvvürlər oyadırdı.

İnsan yaşa dolduqca xatirələr ona daha əziz və şirin görünür. Tələbəlik dövrümü bitirdikdən sonra təbii bir hiss məni narahat etməyə başlamışdır. Bu hiss şahidi olduğum hadisələr, müşahidə etdiyim tanınmış şəxsiyyətlərin həyatı haqqındakı və həyatımda rastlaşdığım maraqlı hadisələr haqqında xatirələrimi qələmə almağa məni vadar etdi. Nəhayət, hafizəmdə yaşayan unudulmaz xatirələri toplayıb toplu halında sanballı bir kitab hazırlamağı qərara aldım.

Yeni nəslin təlim-tərbiyəsinin düzgün yol tutmasında müasir dövrün şair və yazıçılarının publisist yazıları mühüm rol oynayır. Buna görə də onların həyat və yaradıcılığı ilə gənc nəslin yaxından tanışlığı vacib bir məsələdir.

Bəzən gənclər yeni yazanların yazdıqları ilə maraqlanmırlar. Bu da onların dünyagörüşünün formalaşmasına mənfi təsir edir.

Oxucuları əmin etmək istərdim ki, 1962-ci ildən başladığım «Həyat səhifələrimdən xatirələrim, məqalə və oçerklərim»in toplusu sizin nəzər-diqqətinizi cəlb edəcəkdir. Kitabda eyni zamanda uşaqlıq və gənclik həyatımdan maraqlı

epizodlar verilir. Əlyazmalarımda bir sıra mühüm məsələlərə toxunulmuşdur. Belə ki, ilk əvvəl həyat səhifələrimdən və atam Mirzə Xosrov Axundzadə haqqında xatirələrimi toplamaq mənim üçün şərəf işi olmuşdur.

Bu yazılardan sonra mənim fikrimi əsas cəlb edən məsələlərdən biri də ana vətənim Şuşa şəhərinin çiçəklənməsi idi. Bunun üçün Şuşa haqqında düşüncələrimi qələmə almışam. Digər yazılarımdan birində Şuşada tanınmış şəxsiyyətlərin yaşadıqları tarixi binaların diqqətlə qorunub mühafizə olunmasından söhbət açmışam.

Oçerk və məqalələrimdə həyatımda qarşılaşdığım müxtəlif elm və sənət adamlarından bəhs etmişəm. Maraqlı satirik yazılarım, eləcə də paxıllıq haqqında bəzi mülahizələrim də diqqətinizi cəlb edəcəkdir. Digər tərəfdən mən təbiətin vurğunu olduğum üçün Ramazan, Qurban və Novruz bayramları haqqında qeydlərimdə milli adət-ənələrimizdən bəhs etmişəm.

Sonra yazılarımla musiqi aləminə qədəm qoymuşam, yaradıcı insanlardan bəhs etmişəm, muğam ifaçılığı barədə özümün mülahizələrimi bildirmişəm.

Qeydlərimdə ədəbi mühitə qapılmağımın əsas səbəbkarları haqqında qələmimi sınamışam.

Ailə məhəbbəti, saf ailə qurmaq məsələsi də mənim diqqətimdə ön cərgədə olmuşdur. Buna görə də şahidi olduğum bir sıra məsələlərə özümün xeyirxah münasibətimi bildirmişəm.

Qələmə aldığım əhəmiyyətli mövzulardan biri də 223-cü Azərbaycan diviziyasının hünər salnaməsindən bəzi sətirləri yazmaqdır. Buna da az da olsa nail olmuşam.

Bundan başqa yazılarımda insanlara şəfa verən tibb işçilərinin xeyirxah əməllərindən bəhs etmişəm.

Ümumiyyətlə, qeyd edə bilərəm ki, həyat səhifələrimdən xatirələrim məqalə və oçerklərim, satirik yazılarım ilk toplum olduğuna görə onların içərisində zəifləri də məncə olacaqdır. Bəlkə də oxucuya o qədər də xoş gəlməyən qeydlərim də vardır. Buna görə də bu barədə oxucularımdan əvvəlcədən üzr istəyirəm.

Güman edirəm ki, toplumu oxuduqdan sonra oxucular özlərinin münasibətlərini bildirəcəklər.

# ADƏT VƏ ƏNƏNƏLƏRİMİZ

**Bismillahir-Rəhmanir-Rəhim**
***Kim fəzlinə inanıb və əcrini umaraq oruc tutsa onun günahları bağışlanar.***
***Həzrəti Məhəmməd Peyğəmbər (s)***

## Müqəddəs Ramazan bayramı haqqında qeydlərim

**Ramazan bütün ayların ən şərəflisidir** – Müqəddəs kitabımız – «Qurani Kərim» Peyğəmbərimiz Məhəmməd Salavatullaha məhz bu ayda, «Qədr» gecəsində nazil olmuşdur. Deməк Allaha bir addım da yaxınlaşdıq. Bu ay təkcə ibadət ayı deyil, həm də bizim sınaq ayımızdır. Eyni zamanda iradəmizin, insafımızın, vicdanımızın, saf əməllərimizin imtahan ayı deməkdir.

Bəli çoxumuz bir aylıq orucla ibadət səfərini başa çatdırdıq. Allah qarşısında bəndə borcunu yerinə yetirdik.

**Ramazan – nəfsi qorumaq ayıdır** – Oruc tutmaq insani ucalığın nümayişidir. Məhz Ramazan ayında bütün müsəlmanlar nəfsinin nəcibliyini nümaiş etdirməklə birləşir, daha şəfqətli olurlar. Cünki Qurani-Kərimin Bəqərə surəsində deyildiyi kimi, «İdman edən kimsələrin Allaha olan sevgisi daha qüvvətli, daha davamlıdır». Allah isə bütün varlığı və yer üzünün əşrəfi olan insanları yaratdığı üçün hamı onun bəndəsidir. O, hamıya eyni gözlə baxır.

**Ramazan bərabərlik, qardaşlıq ayıdır** – Məhz Ramazan ayında oruc tutmaqla insanlar arasında fərq götürülür, bir daha dərk edirik ki, acın halını özü ac qalan bilər, çünki qarnı tox olan acın qədrini bilməz.

**Ramazan şəriət və nizam ayıdır** – Allah-Təala bütün varlığı ədalətlə yaratdığı kimi, onun rəsulu olan peyğəmbərimiz də insanları yığdığı mal-dövlətdən, ucaldığı mərtəbədən, qazandığı güc – qüvvətdən asılı olmayaraq, ədalətdən, mizan-tərəzini gözləməyə çağırmışdır.



Müqəddəs Qurani-Kərimdə buyurulur: «Əgər insanlar Ramazan ayının feyzindən, xeyir-bərəkətindən xəbərdər olsalar, bütün ayların Ramazan olmasını istərlər. Oruc tutmaq həm mənən, həm də cismən paklaşdırır. Ən əsası isə oruc ona görə tutulur ki, onu Uca Tanrımız buyurub».

Ulu Yunis İmrə deyir ki, «Ruh canda, can bu dünyada kirədir». Bu doğrudan da belədir. Onun üçün də ehtiyacı olanlara - kimsəsizlərə, əlsiz-ayaqsızlara canımızın və malımızın fitrəsini verməliyik. Biz onları etməliyik ki, Allah da bizlərin günahlarını bağışlasın, bizi əməlisalehlərdən eləsin.

Peyğəmbər Salavatullah buyurur ki, bayram namazlarını bir yerdə qılın. Yəni bu gün oruc olanlar da, olmayanlar da məscidə tələsib bir yerdə namaz qılmalıdır. Axşamdan çıxartdığınız fitrə pulunu bu gün ləngimədən sahiblərinə çatdırın.

Ramazan ayı təzə ayın (hilal) görünməsi ilə başlanır. Bu zaman ay qövz, aypara şəklində olur. Hilal gözlə görülmədən və mötəbər bir şəxs tərəfindən təsdiq edilmədən, əvvəlcə aparılmış hesablamalara görə, Ramazan ayını başlanmış hesab etmək olmaz.

Şaban ayının otuzuncu gecəsi bir bölgədən hilalın görünməsi bütün dünyada orucun başlanması deməkdir.

Oruc fəxri-sadiq vaxtı, yəni dan yerinin ağarması ilə başlanır. Bunun üçün bir müsəlman Ramazan orucu tutmasını qəlbində niyyət edir. Bunun dil ilə söylənməsi də savabdır.

Oruclu ikən bilərəkdən orucunu pozmaq haramdır, günahdır. Hər pozulan orucun əvəzini oruc tutmaqla ödəmək lazımdır. Buna orucun qəzası deyilir. Ramazan orucunu üzürlü səbəb olmadan pozanlar başqa günlərdə həmin günə gün olaraq tutmaqla pozduqları orucu ödəməli və həm də pozduqları orucun qəzası olaraq kəffarət orucu tutmalıdırlar. Kəffarət orucu, orucu bilərəkdən pozmaqla etdiyi günahın bağışlanması üçün tutulan orucdur. Bu oruc Ramazan ayına təsadüf etmək şərtilə vermədən iki ay müddətində tutulur.

Oruc ailələrin Rəbbi Ulu Tanrıya qarşı bir ibadət olduğundan oruca niyyət edilməsi lazımdır. Oruca gecədən dan yerinin ağarmsınadək niyyət edilə bilər.

Ömrümün ixtiyar çağlarında olan, ölüncəyə qədər Ramazan orucunu və ya qəza oruclarını tutmaq iqtidarında olmayanlar və sağlamlıqlarına ümidi olmayan xəstələr maddi imkanları olduğu təqdirdə hər gün üçün 1750 qram buğda və ya un, yaxud onun dəyəri qədər bir ya bir neçə yoxsul şəxsə pul verməlidirlər.

**Fitrə** - Zəngin sayılan hər bir müsəlmanın fağırlara 1460 qram buğda və ya 2920 qram arpa, quru üzüm və xurma və ya bunların əvəzi olan pul verilməsi vacibdir. Buna fitrə Sədəqəsi deyilir. Fitrə Sədəqəsi fağır müsəlmanlara verilir. Fitrə Sədəqəsini bayram namazından öncə vermək lazımdır.

**Zəkat** - Dində zəngin sayılan kişi, qadın hər bir müsəlmanın ildə bir dəfə malının qırxda birini kasıblara verməsi borcdur.

Qeyd etmək lazımdır ki, oruc tutmaq sağlamlığın rəhnidir. Belə ki, oruc tutmağın insan bədəninə və ruhuna faydası böyükdür. Tibb elminin inkişafı nəticəsində bir sıra mütəxəssislər və həkimlər qənaətə gəliblər ki, çox yeməkdən və içməkdən çəkinmək orqanizm üçün ən yaxşı müalicə növüdür. Oruc tutduqda mədə turşusu yemək əvəzinə öd ilə qoşalanır, yara əmələ gəlmir, bu isə mədənin istirahətinə səbəb olur.

Oruclu olan bir kimsənin qəlbi dinlənir. Ramazan ayı boyunca suyun miqdarı aclıq və susuzluğa görə azalır. Bu da ürəyin həddən artıq döyünməsi deməkdir, yəni oruc ürəyin istirahəti üçün müəyyən fürsət verir. Oruc tutanın qara ciyəri gündə 6 saat istirahət edir. Oruc sinir sisteminin tənzimi üçün ən gözəl fürsətdir. Bu fürsət şəxsin qulluq vəzifəsini yerinə yetirərkən gərginlikləri və işləməsini də gözəl tənzimləyir.

Sağlamlığın nə olduğu bilinməyən bir dövrdə (yəni 14 əsr öncə) sevimli Peyğəmbərimizin hədisləri XXI əsrdə də və qiyamətə qədər də orucluğun faydalı olduğunu bir daha sübüt edir.

**Vəəsalamu əleykum və rəhmətullahi və bərəkatahu.**
**16.02.2001-ci il**



**Bisimillahir – Rəhmanir – Rəhim!**

## Müqəddəs Qurban bayramı haqqında qeydlərim

Qurbanlıq haqqında Qurani-Kərimin Əs-Saffat surəsində belə deyilir: «Ya İbrahim! Artıq sən röyanın düzgünlüyünü (Allah tərəfindən olduğunu) təsdiq etdin. Sənə yuxuda nə əmr olunmuşdursa, onu yerinə yetirdin. Allah sənə lütv edəcək oğlunun yerinə bir qoç kəsməyi buyurur. Biz yaxşı işlər görənləri belə mükafatlandırırıq. Şübhəsiz ki, açıq-aydın bir imtahan idi. Biz ona böyük bir qurbanlıq (Habilin qurbanlıq qoçunu) əvəz veririk».

Qurban bayramı bilavasitə Həzrəti İbrahim Xəlulullahla əlaqədardır. Belə ki, İbrahim Əleyhissalam artıq yaşa dolmuşdu. Övladı isə yox idi. Üzünü Rəbbinə tutaraq ondan bir övlad diləyirdi. Qadını Sara ona kənizi Həcərlə evlənməyi məsləhət bildi. İbrahim də onunla razılaşır. Onun duaları müstəcəb olur, ikinci dəfə evləndiyi Həcərdən Allah-Təala ona mehriban bir oğul bəxş edir. Körpənin adını İsmayıl qoyurlar. Lakin Sarada qısqanclıq baş qaldırır və uşaqla anasını başqa yerdə saxlamağı tələb edir. İbrahim Əleyhissalam Həcərlə İsmayılı götürərək Məkkəyə gəlir. İsmayıl artıq xeyli böyümüş, 12-13 yaşına çatmışdı. Bir gecə İbrahim Xəlilullah yuxusunda görür ki, Böyük yaradan ondan oğlunu qurban kəsməsini istəyir. O, bu yuxunu bir neçə dəfə təkrar görür.

Həzrəti-İbrahim gördüyü yuxuya o qədər də əhəmiyyət vermir. Növbəti gecə yenə də yuxuda görür ki, oğlu İsmayılı qurban kəsir. Nəhayət, üçüncü gecə də yuxunu gördükdən sonra bu işin bir ilahi əmr olduğunu başa düşüb, bu əmri yerinə yetirmək üçün oğlu İsmayılı da götürüb yola çıxır. Səfərə çıxmazdan əvvəl İsmayıla ip və bıçaq götürməyi tapşırır. Bu an şeytan gah Həzrəti-İbrahimin, İsmayılın anasının, gah da İsmayılın öz qəlbinə girərək onları bu yoldan daşındırmağa çalışır. Onlar isə «Əgər onu Allah buyurmuşdursa, yerinə yetirilməlidir» deyirdilər. Həzrəti-İbrahim itilənmiş bıçağı oğlu İsmayılın boğazına çəkmək istəyəndə bıçaq kəsmir ki, kəsmir. Bu vaxt «Allahu-əkbər» sədaları eşidilir.

İbrahim peyğəmbər başını qaldıranda görür ki, Həzrəti - Cəbrayıl iri bir qoç gətirib gəlmişdir. Və o mübarək mələk deyir ki, ey İbrahim, sən Allah-Təalanın bu sınağından da üzü ağ çıxdın, artıq bu uşağı incitmə, Allah-Təalanın göndərdiyi bu qoçu qurban kəs. Bayaq İsmayılın boğazını cızmağa belə kəsəri olmayan bıçaq bir anın içində qoçun başını üzüb atır…

«Qurban» sözünün mənası yaxşılıq deməkdir. Bir-birinə qurban olmaq sözünün mənası da buradan götürülübdür. Qurban bayramında heyvan qanı ona görə axıdılır ki, insan qanı axıdılmasın.

Ən qədim çağlarından bəri mövcud olmuş qurban kəsmə adətinə dinimiz tamamilə yeni bir məzmun qazandıraraq bu adəti insanların xidmətində tutmuşdur. Belə saysız vasitələrdən hər biri özlüyündə gözəl bir ibadət olaraq mənəviyyatımızı zənginləşdirir, imanımızı kamilləşdirir, bizləri isə Rəbbimizə yaxınlaşdırır. Bu ibadətlərdən biri də Qurban kəsməkdir. Allah-Təala Kəfsər surəsində buyurmuşdur: «Rəbbim üçün namaz qıl və qurban kəs».

Neçə əsrdir ki, İbrahim sədaqətinə, İbrahim inamına biz də sahib olduğumuzu sübut etmək məqsədilə hər il Allah yolunda təmənnasız, niyyətsiz qurban kəsirik. Elə Qurban bayramının mahiyyəti, dəyəri də bundadır. Heç olmasa ildə bir dəfə o böyük Yaradandan heç nə arzulamadan, əvəzini gözləmədən malımızdan keçirik…Qurban kəsən zaman bu duanı oxuyurlar:

-«Vəccəhtü vəshiyyə lilləzi fəthərəs-səmavati vələrzə hənifən müslimən və ma ənə minəl – müşçikin. İnnə səlati və nusiki və məhyayə və məmati lillahi rəbbil-aləminə la şərikə ləhu və bizalikə ümirtü və əna ninəl-müslimin. Allahummə minkə və lək. Bismillahi vəllahu əkbər».

«Mən göyləri və yeri yaradana tərəf ixlasla üzümü çevirdim. Mən Allaha şərik qoşanlardan deyiləm. Mənim namazım, qurbanlığım. aləmlərin Rəbbi olan Allah üçündür. Onun şəriki yoxdur. Mənə belə əmr olunmuşdur. Və mən müsəlmanlardanam. İlahi bu qurbanlıq səndədir. Və sənin üçündür. Allahın adı ilə, Allah böyükdür!»

Müqəddəs kitablar buyurur ki, heç bir quş heyvanlarından qurban kəsmək olmaz. Qurban qoyun, keçi, inək, camış və



dəvədən kəsilir. Qurban kəsiləcək heyvanın – yəni qoyun və ya keçinin ən azı bir yaşı, inək və camışın isə iki yaşı olmalıdır. Kəsiləcək heyvanlar kor və ya xəstə olmamalıdır. Müqəddəslərimiz onu da buyurur ki, qurbanlıq kəsiləcək heyvanlar üç yerə bölünməlidir. Onun bir hissəsi yaxın qonşulara, qohumlara, bir hissəsi kasıblara, kimsəsizlərə paylanmalı, bir hissəsi isə evdə saxlanmalıdır. Yaxud da qurban ətini bütövlükdə kasıblara paylamaq olar. Bütün bu qaydalara əməl edənlərə qurbanlıq bax bu zaman böyük Yaradanın hüzurunda ofsanata keçir. Qurban kəsiləndən sonra bu cümləni deyirlər:

-«Allahümmə təqəbbəl minni».

-«İlahi, bu qurbanlığı məndən qəbul et!»

Xatırlatmaq olar ki, Qurban bayramı hər il Məkkəyə ziyarət mərasiminin başa çatdığı bir vaxta düşür. Müsəlmanların dini bayramından biri hesab olunan Orucluqdan – Ramazan bayramından 70 gün sonra, hicri - qəməri təqvimi ilə, zilhəccə ayının 10-cu günündə dünyanın hər yerində biz müsəlmanlara ilahi bir tapşırıq kimi buyurulmuşdur. Müsəlmanlar İbrahimin oğlunu Allaha qurban verməyə hazır olmasına xatirə kimi qurbanlıq heyvanlar kəsirlər.

**11.02.03-cü il.**

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 19857

# Novruz bayramı və adət-ənənələrimiz haqqında qeydlərim

## Uzaq keçmişin novruzlu günləri

Novruz insanların təsis etdikləri bayram deyil, təbiətin özünün onlara bəxş etdiyi yeni gündür və onu bir xalqın, bir ulusun adı ilə bağlamaq olmaz. Novruz bütün Şərqin, bütün İslam dünyasının və bütün türkdilli xalqların bayramıdır. Novruz bizi birləşməyə, bir-birimizi sevməyə səsləyən bayramdır.*

Tədqiqatçıların göstərdiyi kimi, Novruz bayramını Zərdüşt peyğənbərimizin yaşadığı dövrlə bağlayırlar. Onun yaşını ən azı 3700, ən çoxu 5000 ilə bərabər edirlər. Bayramın keçirilməsi barədə ətraflı məlumata biz yalnız 2000 il bundan əvvəl qələmə alınmış yazılarda təsadüf edirik.

Ümumiyyətlə, bayram tədbirlərinin tarixini ardıcıllıqla izlədikdə, maraqlı faktlarla üzləşməli olursan.

Belə ki, uzaq keçmişdə taxt-tac sahibi bayram günündə adi günlər geydiyi qırmızı libasının müqabilində bərli-bəzəkli rəngli rəsmi paltar geyir, başına «novruzlu» deyilən ağ rəngli xüsusi bir papaq qoyurdu. Bundan əlavə, adət-ənənəyə görə, bayram gününün səhəri hökmdarın önünə gümüş kürsüdə yeddi ağ kasa və təzəcə kəsilmiş yeddi ağ sikkə düzürdülər. ardınca ona yenə gümüş sinidə ağ şəkər və təmizlənmiş hind qozu gətirilərdi. bir sözlə, dövlət başçısı bayram gününü süddan qabının içəridə xurma üzən təzə sağılmış südü içməklə başlar və hind qozunun «südü»ndə isladılmış xırda xurmalar daddıqdan sonra bunlardan əzizlərinə də yedirdərdilər.

Təsadüfi deyildir ki, sonrakı il inamına görə, kim novruzun ilk günü, sübh çağı ağzını açıb bir kəlmə belə demədən, şəkər (yaxud bal) dadarsa, o üzə gələn ildə bütün azar-bezardan xilas

* Qeyd: Novruz bayramı və çərşənbələr haqqında Elçin Aslanovun yazdıqları çox dəyərlidir. Biz bəzi məlumatların toplanılmasında onun yazılarına da istinad etmişik.



olar. bu da uzaq keçmişimizin Novruz adət-ənənəsindən bizə gəlib çatmış bir yaddaş nümunəsidir.

Hökmdarın gulus mərasimindəki rəsmi keçidlərdə Novruz «bayram yürüşü»nün önündə və ilk sıralarda aparılan gümüş «atəşdan»ın ardınca, bir ilin günlərinə müvafiq qırmızı bürüncəkli, başlarında çələng, əllərində ucuna qızıl və gümüş, nar, alma və heyva fiqurları sancılmış xüsusi nizələr tutan 365 nəfər cavan addımlayırdı. Onların dalınca Səma Odunun səkkiz ata qoşulmuş ikitəkərli arabası yeriyərdi. Daha sonra hamını heyrətə salan iri cüssəli, «günəş nurlu» bəyaz at «xində» irəliləyirdi.

Həmin dövrdən 600 il sonra Azərbaycanda xanlıqlar çağı Qarabağda Novruz bayramını təsvir edən Y.V.Çəmənzəminlinin «Qan içində» romanında bayram yürüşündəki at üstə yeriyən bəylərin Şuşada Cıdır düzünə yollanmasından danışılır. İzdihamın önündə yolları xınaya boyanmış, ağ atda, əyninə ağ çuxa, ağ arxalıq geyib başına ağ dəridən papaq qoymuş Qarabağ xanı irəliləyirdi. Qafilə Cıdır düzündəki təpədə qurulmuş çadıra çatdıqda hamı atlardan enib çadırlara keçərdi və s.

Qədim astroloji təsəvvürə görə, martın 21-i ulu Günəş «balıqlar» bürcündən ayrılıb qoç bürcünə daxil olur. Qalib Səma Odunun qoç bürcünə keçməsi və onun «taxta qalxıb hakimiyyəti ələ alması», saf ağ İşığın təntənəsi, həm də ötən ilin qurtarıb təzə ilin başlanmasıtək qiymətləndirilir və bu «keçid anı» «iltəhvil» və ya «təhvil saatı» adlanırdı. Həmin məqama bir az qalmış, həm saraylarda, həm də ayrı-ayrı evlərdə bayram süfrələri açılardı. Adət üzrə həmin mübarək süfrələr, üzərinə ağ yumurta qoyulmuş bir güzgü (yumurta – həyat başlanğıcının rəmzi, güzgü isə günəş işığının inikası deməkdir) yerləşdirilib onun önünə bir az da buğda səpərdilər. sonra onun hər iki tərəfində və ya hər qab-qaşıq yanında ailə üzvlərinin (bəzən, yalnız uşaqların) sayına müvafiq şamdan yaxud çıraq düzərdilər.

Bir azdan səbirsizliklə gözlənilən «ilin təhvil saatı» yaxınlaşır və onu saraylarda münəccimlərin mürəkkəb hesablaşmaları, evlərdə isə, süfrədəki su qabında yarpağın diksinməsi, güzgü üzərindəki yumurtanın hərlənməsi və qırmızı balıqların donuq bir vəziyyətdə dayanması ilə müəyyən edirdilər. Bu zaman

evin, ailənin böyüyü «Səməni, saxla məni, ildə göyərdərəm səni» – deyərək, süfrədəki səmənidən bir az qayçılayıb, qayçını yaşca özündən kiçiyə ötürür, o da bu hərəkəti təkrarlayırdı. Bu yolla bütün ailə üzvləri səmənidən bir az qayçılayardı. Kiçiklər yaşlıların əlindən öpərək, yaxud onların əlini ovcunun içinə alıb bərk-bərk sıxıb deyərdilər:

«Novruz bayramın mübarək olsun, üzünə gün doğsun, günün gündən işıqlı olsun, inşallah!».

Beləliklə də, Novruzlu günlərimizin yaşadılması – uzaq keçmişimizin də adət-ənənələrinin yaşadılması deməkdir. Eyni zamanda, onun altıncı gününün Zərdüşt peyğəmbərimizin anadan olduğu gün kimi bayram edilməsi olduqca zəruri və əhəmiyyətli tarixi faktdır.

Xalq arasında mart ayı ilə bağlı müxtəlif nəğmələr, deyimlər, rəvayətlər vardır. Təqvimə görə mart ən uzun aydır. Gecə ilə gündüzün tarazlaşması, gündüzün ömrünün uzanması da bu aya təsadüf edir. İnsanlar axır çərşənbədə tonqalların üstündən hoppanıb «ağrım-uğrum burada yansın» deyərək yeni ilə qədəm qoyurlar. Ona görə də «mart çıxdı, dərd çıxdı, keçilər yaza çıxdı» zərb–məsələsi indiyə kimi öz qüvvəsini itirməmişdir.

Ulu babalarımızın təbiətdə nə varsa hər şeyi olduğu kimi adətdə saxlayıb qorumuş və həmin adət-ənənələrini, su, od, hava, torpaq, çərşənbələri bayramı kimi həyata keçiririk.

**Su çərşənbəsi** – fevralın son həftəsi novruzun pişvazına çıxan ilk çərşənbə kimi özünü göstərir.

Rəvayətə görə bu bayramın gecəsi qışda bir-birindən soyumuş və bir il həsrətdə yaşamış od nəfəsli Xızır qardaşı – sular tanrısı İliyaz ilə görüşüb qucaqlaşaraq birləşirlər. Deyilənə görə Xızır – İliyaz yer səthində qışdan yığılmış buzla örtülmüş bütün çirkab suları, azar- bezarı yuyub aparır. Bu çərşənbə barəsində başqa rəvayətlər də vardır.

Xalq təqvimində qeyd olunur ki, su çərşənbəsində övladı olmayan qadının başından qırxaçar camdan su töksək övladı olar. Yaxud da su çərşənbəsində diksinən adamın başından üç dəfə sağdan, üç dəfə soldan su atsan qorxusu çıxar. Eyni zamanda su çərşənbəsində qorxan adama qorxduğu yerdə su içirdərdilər.



Mart ayının 5-nə düşən **od çərşənbədə** cavan kişilər və yeniyetmələr əsas rol oynayır. Həmin gecədə oğlan uşaqları məşəl alışdıraraq «Xızırha-xızır» mahnısını oxuya-oxuya qaranlıq küçələri gəzib şənlənərdilər. Mərasim başa çatdıqda hamı bir-birini təbrik edir – «od alovun ömrü uzun olsun», «ocağın odlu, qazanın qaynar olsun» arzu-diləklər diləyərək evlərinə qayıdardılar. Bu mübarək gecədə ocağı boş qoymazlar, hökmən qazan qaynamalı idi. Ailə üzvləri Xızırın adına bir şam sancılmış «üsgü xonçası» hazırlayar, şirniyyat və ləziz yeməklərlə dolu çəpşənbə süfrəsi ətrafında əyləşib şənlənərdilər.

**Yel çərşənbəsi** – hava – yel varlığı ilə əlaqələndirilir. Bu çərşənbəyə bəzən «Küləkli və ya yelli çərşənbə» də deyilir. Yəni oyanan hava-külək çox qısa bir müddətdə yer üzünü gəzib dolaşır və ondan bir az əvvəl ayrılmış su, od və torpağı hərəkətə gətirir. Rəvayətə görə, bu çərşənbə gecəsi sübhə bir az qalmış gözəgörünməz Xızır yel gedişli Bozatını minib sonuncu dəfə göydən yer üzünə enir, hava-külək məbudu Nəbi qardaşı ilə görüşüb öpüşdükdən sonra artıq Xızır-Nəbi adı ilə Yel çərşənbə bayramını himayə edir.

Yel çərşənbəsi ilin son çərşənbəsi olmaqla yanaşı, bir qayda olaraq, «ilin ən ağır günü» sayılır və bu səbəbdən də çox vaxt ona «Qara çərşənbə» də deyilir.

**Torpaq çərşənbəsi** – elin ən böyük sərvətidir. Torpaq ən böyük sərvət və ən böyük nemətdir. Torpaq insanın dayağıdır. Mart ayının 20-21-də artıq ana torpaq hərarətləşir, yatmış ağacların kökləri isinir, sular durulur və əkilən bitir.

Torpaqla bağlı bir sıra deyimlər və inanclar mövcuddur. Məsələn, «öldür məni, dirildim səni», «Sən mənə tər ver, mən sənə zər verim», «Torpaq ovuclayan qızıl ovuclayar» və s.

Novruzla bağlı el adətlərimiz də çox maraqlı keçir. Belə ki, həmin günü ana torpağın naz-neyməti ilə bəzənmiş süfrəyə müxtəlif meyvə və xuruşlar düzülür. Bir də görürsən ki, qapı döyülür, qapını açanda kimisi torba, kimisi isə papağını qapının ağzına atıb kənara qaçmışdır. Adət-ənənəyə görə torbanı boş qaytarmazlar. Bu anda Şəhriyarın «Heydər babaya salam» poeması

yada düşür. O, bayram şənliklərini bütün incəlikləri ilə qələmə almışdır:

*Qızlar deyər: Atıl-matıl çərşənbə,*
*Ayna təkin bəxtim açıl, çərşənbə.*

Bir sözlə, Novruz xalqın zəngin mənəviyyatı olaraq adət-ənənələrimizi ulu bayram kimi yaşadıb və yaşadacaqdır!·

*20.02.2003-cü il.*

## Baharın ilk əlamətləri

Qeyd etmək olar ki, indiyə kimi, təkcə Novruz bayramı astronomik ölçü ilə nəzərə alınır. Belə ki, gecə ilə gündüz bərabər olanda başlanır. Ancaq baharın gəlişini əksər yerdə dörd çərşənbə ilə qarşılayırlar: Su, od, torpaq və hava. Xüsusən, su və od şərəfinə indiyədək ibadətgahlar ucaldılıb.

Boz ayın girməsiylə ilaxır çərşənbələr təntənələri də başlanır. Çərşənbə axşamlarında tonqal üstündən atılmaqdan əlavə, «mərə-mərə», «çırtı-çırtın», «Yoldaş, səni kim apardı?», «Bənövşə», «Artırma», «Gözbağlayıcı» və s.el oyunları oynanılırdı. Xüsusilə, qızlar və gəlinlər su falında, qapı pusmada, niyyət yozmada öz bəxtlərini sınayırdılar.

Fevralın 21-də qurtaran kiçik çillədən yazın ilk gününün Novruz bayramınadək olan müddəti boz aydır. Ayın bu cür adlanması onun buludlu, yağışlı, küləkli, isti-soyuq, bir sözlə dəyişkən olması ilə bağlıdır. El içində «Boz ay bozara-bozara keçər» deyirlər. Ancaq yazın nəfəsini hiss edən el-oba bu «bozarmadan» heç də qorxuya düşmür. Onlar buna cavab olaraq rişxəndlə deyirlər: «Mart gözünə barmağım, yaza çıxdı oylağım!».

Boz ay dörd həftəyə – çillərə bölünür. Bu müddətdə təbiətdə və cəmiyyətdə canlanma, oyanma, dirilmə prosesi gedir. Bu ayda, yəni, qurtaran ilin çərşənbələrində hər bir ailə tonqal

· Qeyd: Faktların əldə edilməsində Elçin Aslanovun yazılarına istinad etmişik.



yandırmalıdır. Fərziyyəyə görə, həmin tonqal üçün ayrılmış çırpının içində mütləq tikanlı kol olmalıdır. Adamlar tonqalın üstündən hoppanarkən aşağıdakı nəğməni oxuyardılar:

*Ağrım-uğrum tökülsün,*
*Oda düşüb kül olsün.*
*Yansın, alov saçılsın,*
*Mənim baxtım açılsın.*

Beləläiklə də, sədası eramızdan əvvəllərdə gələn Novruz nəğmələri bu günümüzdə də özünün fundamental əhəmiyyətini itirməmişdir.

## Axır çərşənbənin bəzi sınanmış inancları

1. Axır çərşənbə günü o başdan, gün çıxmamış axar su üstündən «Ağırlığım-uğurluğum, ağrım-acım, tökül», deyərək, üç dəfə o tərəf-bu tərəfə hoppanardılar. Bəzi yerlərdə isə, bayram gecəsindən səhər günəş doğana qədər cavan qızlar, oğlanlar və uşaqlar bulaq başına gəlib bir-birilərini sulamaq, gün çıxmamış heyva çubuğu kəsmək və çubuqdan düzəltdikləri muncuğu bəd gözdən, qada-baladan qorunmaq məqsədilə üstündə gəzdirərdilər.

2. Azərbaycanda axır çərşənbə günü qəbirüstünə gedər və rəhmətə gedənlərin ruhuna Quran oxudardılar. Bəzilərinin isə axır çərşənbə günü qəbirüstündə şam, məşəl və çıraq yandırılması adət halı almışdır.

Bayram axşamı qadınlar əlvan xonçalarla qəbiristanlığa gedər, öz ölüsünün üstündə ağı deyib, ağlardılar:

Gəlmişəm görəm səni,
Dərmişəm hörəm səni.
Əlimdə açarım yox,
Bir açım, görəm səni.

3. Subay qızlar axır çərşənbə axşamı sağ başmağını götürüb, qapı ağzında başının üstündən atırlar. başmağın pəncə hissəsi üzü üstə qapıya tərəf düşürsə, həmin qız bu il nişanlanacaq. Əgər evə tərəf düşsə, elçisi çox olsa da, nişanlanmayacaq.

4. Axır çərşənbədə gözə gələn adamın gözə gəlməsini aydınlaşdırmaq üçün xəmir yoğurulur. Yeddi dənə qozdan kiçik kündələr tutub, peçin üstünə atırlar. Kündələr göz-göz olursa, deməli, həmin adam gözə gəlib, adi qaydada qızarırsa, deməli, göz dəyməyib.

5. Axır çərşənbə axşamı yaxın adamın nişan məclisindən bir neçə şirni götürüb, yatanda başının altına qoyursan. Üç gündən sonra öz qismətini yuxuda görəcəksən.

6. Axır çərşənbədə qızın nişanlısı tərəfindən çox istənilməsini yoxlamaq üçün sapa bir neçə düyün vurub qıza verirlər ki, düyünü açsın. Qız düyünləri aça bilsə, demək oğlan onu çox istəyir. Əgər aça bilməsə, deməli, əksinədir.

7. Axır çərşənbə axşamı süfrənin ortasına qırağı 7 şamla bəzədilmiş qabda səməni qoyurlar. Bayram süfrəsinin baş yeməyi plov (döşəmə plov, səbzi-qovurma plov, südlü plov və s.) idi. Yeri gəlmişkən, deməliyəm ki, axır çərşənbə sehrli 7 rəqəminə xüsusi hörmət mövcud idi. Belə ki, xonça 7 növ çərəzlə bəzədilərdi. Səməni yeddi evə pay verilərdi.

Tonqalın üstündən 7 dəfə tullanardılar, süfrədə 7 şam yandırardılar. Rəvayətə görə, güya kimi çərşənbə axşamı evdə olmasaydı, 7 il dərbədər düşərdi.

8. Axır çərşənbə axşamı ürəyində niyyət tutub hava qaralandan sonra xəlvətcə gedirsən, qonum-qonşudan birinin qapısına. Qapı dalında durub, ayağının altına açar atıb içəriyə qulaq asırsan. İçəridən ağzını açıb ilk kəlmə kəsənin dediyi söz niyyətin yerinə yetməyinə nişan verir. Belə ki, ilk kəlmə xoş mətləbə, yaxşı bir istəyə bağlıdırsa (məsələn, «işığı yandır», «yaxşı olacaq» və s.) demək, niyyətin baş tutacaq. əgər pis söz, narazılıq, nigarançılıq bildirən kəlmə dilə gəlsə (məsələn, «söndür», «viran qalsın» və s.) onda istəyinə yetməyin müşkül işdir.

9. Axır çərşənbə axşamı gec yatırlar, yatmazdan qabaq təndirin içərisinə bir yumurta, iki karandaş – qara və qırmızı karandaş qoyurlar. Səhər yumurtanın üstündə xətt olur (güya yumurtaya Xıdır Nəbi xətt çəkir). Əgər xətt qırmızı karandaşla çəkilibsə, yumurta kimin bəxtinə qoyulubsa, o, xoşbəxt olacaq. Qara xətt çəkilibsə, əksinə olacaq.



10. Axır çərşənbə gecəsi cavan qızlar bir qaba su tökürlər. Üzüklərini çıxarıb saçlarına sürtürlər. Niyyət tutub üzüyü suyun üstündən keçirirlər. Üzük fırlanmağa başlayır və qabın divarına dəyir. Üzük neçə dəfə dəyirsə, sayırsa, demək o yaşda da gəlin köçəcəksən.

11. Axır çərşənbədə su dolu kasa götürüb, onun ucuna pambıq dolanmış iki iynə atırlar. Əgər kasanın dibinə çatanda iynələrin pambıq dolanmış ucları bir-birinə tərəf dursa, onda ürəyində niyyət tutan adam tezliklə istəyinə yetər.

12. Axır çərşənbə gecəsinin səhəri evin damına buğda atırlar ki, il bərəkətli olsun.

13. Axır çərşənbədə un çuvalının ağzını açıq qyurlar ki, bərəkət paylananda bağlı qalmasın.

14. Axır çərşənbə gecəsi qızlar xeyli aralıdan arxası qapıya durub ayaqqabının bir tayını geriyə doğru atırlar. Əgər ayaqqabının burnu qapıya tərəf düşərsə, demək, həmin qız yaxın vaxtlarda ərə gedəcək.

16. Axır çərşənbə axşamında ağac yanıb axıra çatanda, onun dövrəsinə dəmir şişlə üç dəfə cızıq çəkirlər. Deyərlər, belə etməsən evin bərəkəti dağılar.

16. Axır çərşənbədə evdə subay qız varsa, onun anası, bacısı və yaxud gəlinləri evi süpürərkən qızı da itələyə-itələyə süpürgəylə çıxarır qapıdan bayıra. Onlar deyir ki, «çıx get, bəsdir oturdun ata evində. Get, gələn Novruza kimi səsin öz evindən gəlsin».

## Axır çərşənbə adətləri

1. Axır çərşənbədə gün çıxmamış su üstündən atdanarlar;
2. Axır çərşənbədə tonqal yandırarlar;
3. Axır çərşənbədə qorxanın başına su töküb qorxuluğunu götürərlər;
4. Axır çərşənbədə kəlin buynuzuna qırmızı bağlayarlar;
5. Axır çərşənbədə toy üçün ayrılmış qoçların buynuzuna qırmızı lent bağlayarlar;

6. Axır çərşənbədə evdən pul, ələk, borc un, ağartı, çörək, kibrit və ağ neft verməzlər;

7. Axır çərşənbə günü şamı yarımçıq söndürməzlər;

8. Axır çərşənbə günü ailə üzvlərinin sayına görə şam yandırarlar;

9. Axır çərşənbə günü zahı üstünə getməzlər;

10. Axır çərşənbə gecəsi tez yatmazlar;

12. Axır çərşənbə gecəsi vəfat etmiş yaxın adamları yada salarlar;

14. Axır çərşənbə günü ertədən lampa yandırarlar.

Yazdıqlarımızı uzun illər nənə-babalarımız sınaqdan keçiriblər. Süfrələriniz açıq, bərəkətli, eviniz işıqlı, könlünüz şad və arzularınız çin olsun, əzizlərimiz. Ömrünüz su kimi axar, od kimi yaxar, torpaq kimi baxarlı olsun!

# ŞUŞA HAQQINDA MÜLAHİZƏLƏRİM

## Novruzlu Şuşa həsrəti

1964-cü ildə Şuşanın keçmiş baş bilənləri ata mülkümüzü qanunsuz olaraq viran qoyduqdan sonra ailəmizdə çaşqınlıq yarandı. Bir müddət ailəmiz yaşamaq sarıdan çox əziyyət çəkdi. Nəhayət, mənzil növbəsi əsasında Şuşanın keçmiş Sovetski (sonradan "20 Yanvar" adlandırılmışdır) küçəsində 3 nömrəli binanın ikinci mərtəbəsindən bir otaqlı hökumət mənzili aldıq. Bu da bizə böyük sevinc bəxş etdi.

Mən demək olar ki, üç aydan bir Şuşanı seyrə çıxmasaydım, yaşaya bilməzdim. Ailəm isə uşaqlar dərs ilini başa çatdırdıqdan sonra yay fəslində demək olar ki, 3 ay Şuşada dincələrdi. Novruzu Şuşada qarşılamaq, doğma Vətəndə baharın ətrini almaq, çərşənbə tonqallarının sehrini seyr etmək, papaq atan uşaqları sevindirmək bizdə adət olmuşdu.

İndi, neçə-neçə illərdir ki, əsl şuşalılar Şuşadan ayrı düşmüş, Şuşaya həsrət qalmışlar.

Bakı da Novruzu gözəl qarşılayır, ancaq doğma yurd həsrəti ayrı dərddir. Hər çərşənbə axşamı tonqal görəndə həm baharın gəlməsinə sevinirəm, həm də Şuşa tonqallarının dərdi ilə ürəyimin başı göynəyir. Fikirləşirəm ki, Şuşa da bayram tonqallarının həsrətini çəkir. Neçə ildir ki, Şuşada xonçalar bəzənmir. Neçə ildir ki, Şuşada nə papaq atan uşaqlar var, nə də uşaq sevindirən. Neçə ildir ki, Şuşada Novruz nəğmələri oxunmur.

Bu günlər vətən həsrəti xəyalən də olsa, məni Şuşaya aparır. İnanın, bu xəyali görüşə də uşaq kimi sevinirəm.

Budur, bir anlığa Şuşanı seyrə çıxıram... Bakı-Şuşa avtobusu Ağdama çatdıqca sevincimin həddi-hüdudu olmur. Ağdamdan Xankəndinə tərəf şütüyən avtobus artıq Ağa körpüsündən Şuşanın dolayı yollarına qədəm qoyur. Oxay... Novruzda Şuşanı seyr etmək nə qədər xoşdur... Çünki Şuşanın bayram axşamları daha sehirli olur. "Bazar-başı"ndan "Meydan bulağı"nadək uzanan küçə gündüz kimi işığa qərq olmuşdur. Gövhər ağa məsçidinin qoşa minarəsinin qülləsini bəzəyən işıqlar



şəhərə xususi görkəm verir. Hər yerdə çal-çağırdır... Hər həyətdə, hər məhəllədə tonqal yanır.

Tonqallar alışdıqca oğlanlar, qızlar əl-ələ verib oynaya-oynaya Novruza xeyir-dua verirlər:

*Axır-uxur çərşənbə,*
*Bəxtim açıl çərşənbə...*
*Təzə ilin mübarək,*
*Bəxtəvər illər görək...*

Hər yerdə tanış, istəkli adamlarla görüşürəm. Bir-birimizi təbrik edirik. Deyirik, gülürük... Novruz bayramı Şuşaya necə də yaraşır...

Hanı o gün, hanı o gün ki, Şuşa həsrətilə qovrulan, əsl şuşalıların xəyalı həqiqətə çevriləcək? O günü deyən adama mən Novruzun ən bəzəkli bayram xonçasını verərdim...

Hər Novruz bayramı and mərasiminə çevrilir. And içirik ki, hökmən, hökmən Şuşaya qayıdacağıq. Şuşa yenə bizim olacaqdır. Şuşa bizim doğma anamızdır.

- Sən yenə öz Novruz günlərini yaşayacaqsan, Ana! Buna and içirik!

---

Qeyd: Məqalənin mətni «İqtisadiyyat» qəzetinin 19 mart 2000-ci il tarixli nömrəsindən götürülmüşdür.

## Hardasan, ay Şuşa?

*Şairlərin yatağı,*
*İncəsənət ocağı,*
*Olmuş xanəndələrin,*
*Şuşa qoynu, qucağı.*
*/Xosrov Şaiq/*

Şuşa şəhəri hər tərəfdən 400-600 metrə yaxın dərinliyi olan dərələrlə əhatə olunmuşdur. Şuşanı əhatə edən Qırxqız, Kirs, Murov, Bağırqan, Sarıbaba dağlarıdır. Şuşanın yerləşdiyi sahə 350 hektardır.

Şuşa şəhərinin ərazisi qədim abidələrlə zəngin idi. Elmi mənbələrdən məlum olur ki, Şuşada 549 qədim bina, ümumi uzunluğu 1.203 metr olan daş döşənmiş küçə, 17 məhəllə, 17 bulaq, 17 məscid, 6 karvansara, 3 turbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O cümlədən şəhərdə 72 mühüm sənəd və tarixi abidələr, dövlət xadimlərinin, şairlərin və başqa mötəbər simaların evləri olmuşdur.

Bu abidələrin çoxu Şuşanın XIX əsrdə yaşamış ən bacarıqlı memarı Kərbəlayı Səfixan tərəfindən tikilmiş və həmin dövrün ən səliqəli nəqqaşı Kərbəlayı Səfərəli tərəfindən nəqşlənmişdir. Bu abidələr içərisində Xurşudbanu Natəvanın, İbrahim xanın, Gövhər ağanın, Nəvvabın, Üzeyir Hacıbəyovun, Zakirin, Bakinin, şahzadə Bəhmən Mirzənin, Məhəmməd bəyin, Uğurlu bəyin və başqalarının evləri tarixi əhəmiyyətə malik məscidlər, hamamlar, bulaqlar «Məclisi-Fəramuşan»ın binası, saqqaxanalar və b. xüsusilə qeyd etmək vacibdir.

Bu abidələr son dərəcə gözəl və sənətkaranə nəqşlərlə bəzənmişdir. Bütün abidələr üzərində ən gözəl xəttatların yazıları vardır. Məsələn, Şuşada Qurdlar adlanan məhəllədə yerləşən bulağın daşında olan hörmətli müəllim, musiqişünas və xəttat Mirzə Əli Aşiq Zeynalabdin oğlunun xəttatlığı öz rəngini hələ də itirməmişdir.

Toplanılan elmi məlumata görə XIX əsrdə Şuşa şəhərində 95 şair, 22 musiqişünas, 38 xanəndə, 12 nüsxəbənd, 19 xəttat, 16 nəqqaş, 18 memar, 5 astronom, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Bu böyük ziyalı dəstəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə və burada mədəniyyəti inkişaf etdirməkdə mühüm rol oynamışdır. Onların hər biri öz ixtisasını kütlə arasında yaymaq və inkişaf etdirmək üçün çalışmışlar. Odur ki, XIX əsrdə Şuşada «Məclisi fəramuşan»/rəhbəri Mir Möhsün Nəvvabdır/, «Məclisi-üns» /rəhbəri Mirzə Rəhim Fəna və Natəvandır/ adlı ədəbi məclis, musiqişünaslar məclisi /rəhbəri Hacı Hüsü və Nəvvabdır/, xanəndələr məclisi /rəhbəri Hacı Hüsüdür/, nüsxəbəndlər məclisi /rəhbəri Məşədi Əkbərdir/, xəttatlar məclisi /rəhbəri Kərbəlayı Səfixandır/, nəqqaşlar məclisi /rəhbəri Kərbəlayı Səfərəli və Nəvvabdır/, memarlar məclisi /rəhbəri Kərbəlayı Səfixandır/ və s. məclislər olmuşdur.



«Məclisi-fəramuşan» və «Məclisi-üns»dən məqsəd şairlərin birliyini artırmaq, yeni şairlər yetişdirmək, şer sənətini kütlə arasında yaymaq və klassik Azərbaycan şerindən səmərəli istifadə etmək olmuşdur. Bu məclislər tamamilə bir ədəbi məktəb və yaxud şairlər ittifaqı rolunu oynamışdır. Məclislərin ilk adları «Məclisi-xamuşan» imiş. Məclislərdə iştirak edənlərin əqidəsincə burada danışılan sözlər kənarda söylənməməli, məclisdə iştirak edənlər məclisin sirrini gizli saxlamalıdır. «Məclisi-fəramuşan» Gövhər ağanın böyük məscidinin həyətində və «Məclisi-üns» isə Natəvanın imarətində olurmuş. Qarabağda olan şair və ədiblər bu məclislərdə həvəslə iştirak edirdilər.

«Nüsxəbəndlər məclisi» dağlardan və çəmənliklərdən otlar toplayaraq dərman hazırlar və xəstələri müalicə edərlərmiş. Bunların özlərinin dərman otaqları və müalicə binaları olmuşdur. XIX əsrdə yeni dərman bitkisi tapmaqda və xəstələri müalicə etməkdə nüsxəbəndlər böyük xidmət göstərmişlər. Bundan əlavə nüsxəbəndlər səhiyyə elmini kütlə arasında yayırdılar. Ən məharətli və məşhur nüsxəbənd Məşədi Əkbərin adı xüsusilə qeyd edilmiş və onun yaradıcılığı öyrənilmişdir.

XIX əsrdə Şuşada çox zəngin və gözəl səsə malik xanəndələr yetişmişdir. Bu xanəndələrin hərəsi bir və ya iki muğamat oxumaqla mütəxəssis olmuşdular. Məşhur xanəndə və musiqişünas Hacı Hüsü «Şüştər» və «Zəminxarə», Dəllək Qasım

«Zabul», Məşədi Dadaş «Bayatı Şiraz», Dəli İsmayıl «Heyratı», Mirzə Muxtar «Rast»ı böyük ustalıqla oxuyarmışlar. Bu da Şuşada xanəndəlik sənətinin son dərəcə inkişafından irəli gəlmişdir. Hacı Hüsünün, Molla Vəlinin, Zərgər Kərbəlayı Muxtarın, Cabbar Qaryağdıoğlunun, Məşədi Dadaşın, Şəkər oğlu Kərimin və başqalarının çəkdiyi uzun zəngulələri bütün əsrlər boyu Azərbaycan xalqı yad etməkdədir.

Musiqişünaslardan Sadıqcan, Papışbəy, Zeynal və Bağdagülün gözəl sənətini xüsusilə qeyd etmək lazımdır. Bunların tarda və qarmonda işlətdiyi barmaqları heç kəs işlədə bilməmişdir.

Şuşada yaşayıb-yaratmış görkəmli pedaqoq, şair və Qarabağın tarixinin müəlliflərindən biri Mirzə Xosrov Axundzadə-Şaiq belə yazır:

*Vətənim musiqinin mərkəzi şəhri olmuş,*
*Oxuyanlar, çalanlar bu yurduma dolmuş.*
*Tarçalan Sadıq ilə həm oxuyan Hacı Hüsü,*
*Çox gözəlcə oxuyardı o zaman Məşədi İsi.*
*Tar çalan vaxt Sadıq, tara qonardı bülbül,*
*Dinləyərdi o gözəl musiqini aşiqi bil.*
*Toxunanda Sadıqın mizrabı əldə tarə,*
*Bülbülü eyləyər imiş o zaman avarə.*
*Ram idi barmağına öz tarının pərdələri,*
*Barmağı ilə yaradardı oxunan pərdələri.*

Beləliklə, Sadıqcan kimi tarçılar, Kərbəlayı Səfixan kimi memar və xəttatlar və Hacı Hüsü kimi xanəndələr Qarabağda xalq yaradıcılığına keçmiş və onlar haqqında bir sıra əfsanələr yaranmışdır. Belə ki, Qarabağda deyilənlərə görə, Sadıqcan tar çalarkən, bülbüllər gəlib onun tarının üzərinə və çiyninə qonarmış.

Mir Möhsün ağa Nəvvabın həyat və yaradıcılığına nəzər saldıqda, görürük ki, o, XIX əsrin ən mədəni və irəlidə gedən şəxsiyyəti olmuşdur. O, həm şair, həm astronom, həm kimyagər, həm hipnozçu, həm xarrat, həm dülgər, həm də riyaziyyatçı olmuş və «Məclisi-fəramuşan» ədəbi dərnəyinə rəhbərlik etmişdir. Nəvvab əhalinin savadlanması, mədəni olması və



Şuşanın inkişaf etmiş mədəniyyət mərkəzinə çevrilməsi üçün çox çalışmış, eləcə də Gövhər ağa tərəfindən açılan qiraətxana, məktəb, xəstəxana və başqa ictimai yerlərin təşkilatçısı olmuşdur. O, qiraətxanaya müxtəlif ölkələrdə çap olunan qəzetlər gətirdərmiş.

Nəvvabın kustar çap maşını olmuşdur ki, bu maşında da şairlərin yazılarını çap edər və əhali arasında yayarmış.

Nəvvab məclis şairlərinə rəhbərliklə bərabər, oğlu Miriş ağanın da dövrünün elmli insan olmasına var qüvvəsilə çalışmışdır.

İbrahim xanın qızı Gövhər ağanın Şuşa camaatı üçün çox əməyi olmuşdur. Bu qadın Şuşa şəhərində 4 məscid, 2 məktəb, 2 xəstəxana, 2 körpü, 2 hamam və s. tikdirmişdir. Məktəbdə yoxsul uşaqlar Gövhər ağanın xərci hesabına oxyardılar, xəstəxanada onun hesabına yemək verilərmiş. Gövhər ağa insanpərvər və mədəni bir qadın olmuşdur. O, gəlirinin çox hissəsini xalqın mənfəətinə xərclərmiş.

Gövhər ağa ədalətli bir şəxs olaraq xalq arasında şöhrət tapmış və onun həyatı xalq yaradıcılığıyla keçmişdir.

Şuşa şəhərində mədəniyyətin inkişafında və böyük sənətkarların yetişməsində gözəl və sadə təbiətli bir insanın - Xurşudbanu Natəvanın rolu xüsusilə diqqətəlayiqdir. Onun yazdığı şerlər incə və məharətlə qələmə alınmışdır. Natəvan özü «Məclisi-üns»ə rəhbərlik etmişdir. Onun zəkası iti, düşüncəsi dərindir. Natəvan Şuşa əhlinin dərdinə şərik olan bir Azərbaycan qadını olmuşdur. Şuşa əhalisinin sudan korluq çəkdiyini görən Xan qızı 1873-cü ildə Sarıbaba dağlarından saxsı borularda Şuşaya şirin su kəməri çəkdirmişdir. 1992-ci ilə kimi Şuşadakı «Xan qızı» bulağı saf və göz yaşı kimi şəffaf suyu ilə ürəklərə şəfa verirdi. Çox təəssüf ki, bulağın suyundan hazırda şuşalıların istifadə etməyə imkanları yoxdur... Şuşa şəhəri və onun tarixi abidələri erməni terrorizminin əlində oyuncağa çevrilmiş və xəyanətin qurbanı olmuşdur. Xəyanət adı bu 13 ildə dilimizi, dodaqlarımızı qabar etmişdir. Biz indi Şuşa haqqında, onun tarixi abidələri barəsində məlumatları yalnız xarici nümayəndələrdən alırıq. Bu özümüzə təhqir deyilmi? İndiyə kimi Şuşaya gedib ata-babalarımızın uyuduqları Mirzə Həsən və Mir Fəseh qəbiristanlıqlarının,

şəhid məzarlarının salamat olub-olmamasını heç kim dəqiq deyə bilmir. Çünki o abidələr, tarixi şəxsiyyətlərimizin məzarları düşmən tapdağına məruz qalıbdır. İndi yağış yağanda güzgü kimi ağappaq mərmər daşları öpüb oxşamaq həsrətindəyik. Görün o mərmər yumru daşların üstündə kimlər gəzir? Şuşalılar o dağların saf havasından çox, abidələrlə, keçmişlərlə nəfəs alırdılar. İndi o tarix ayaqlar altına düşübsə, namusdan, qeyrətdən dəm vurmağa haqqımız yoxdur. Keçmişimizi düşmən əlindən tezliklə qurtarmasaq, o müqqəddəslərin ruhu bizi bağışlamyacaq!

Bəzən «havadarlarımız» mətbuat səhifələrində və televiziya kanallarında yekə-yekə çıxış edib özlərini Şuşanın əsl vətənpərvər şəxslərinə və qəhrəmanlarına bənzədirlər. Onlardan soruşmaq lazımdır ki, harda qalıb «Şuşanın tarixi muzeyi»nin, «Qarabağ tarix muzeyi»nin, «Şuşa Rəsm qalereyası»nın, «M.M. Nəvvabın ev muzeyi»nin, «Üzeyir Hacıbəyovun ev muzeyi»nin, «Bülbülün ev muzeyi»nin, «Yaşıl aptek muzeyi»nin, «Xalçaçılıq muzeyi»nin eksponatları? Bu muzeylərin bütün qiymətli eksponatları özümüzdən dağıdıldı və yerdə qalanı isə düşmən əlinə keçdi. İndi də hay çəkib deyirik: «Haradasan, ay Şuşa?!..»



## Yadigarlar qorunmalıdır...

Şuşa Qafqazın gözüdür. Sıldırım qayaların sinəsində qərar tutmuş bu şəhər Azərbaycanın təbii konservatoriyası, musiqi sənətimizin ocağı olmuşdur. Şuşa həm də qədim abidələri ilə məşhurdur. Ustad memarların, məharətli nəqqaşların əli ilə yaradılmış bu əsl sənət nümunələri Şuşanın qədim mədəniyyətindən xəbər verir.

Xurşudbanu Natəvanın, İbrahim xanın, Gövhər ağanın, Mir Möhsün Nəvvabın, Qasım bəy Zakirin, Nəcəf bəy Vəzirovun, Əbdürrəhim bəy Haqverdiyevin, Bakinin, şahzadə Bəhmən Mirzənin, Məhəmməd bəyin, Uğurlu bəyin, Kərim bəy Mehmandarovun, Haşım bəy və Azad bəy Vəzirovların və başqalarının evləri, tarixi əhəmiyyətə malik məscidlər, hamamlar, bulaqlar, «Məclisi-fəramuşan»ın binası, saqqaxanalar və s. belə abidələr sırasına daxildir.

Vaxtı ilə Şuşa şəhərində 17 məhəllə, 17 hamam, 17 bulaq və 17 məscid olmuşdur. İndi həmin bulaqlardan bir neçəsi və bir şirin su hamamı yadigar qalmışdır.

Tarixi sənədlərdə göstərilir ki, XIX əsr Şuşasında təxminən 95 şair, 22 musiqişunas, 38 xanəndə, 12 nüsxəbənd, 19 xəttat, 16 nəqqaş, 18 memar, 5 astronom, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur.

Şuşa şəhərinin yetişdirdiyi tarixi şəxsiyyətlərdən ağız dolusu ilə danışmaq olar. Belə ki, Sovet İttifaqı qəhrəmanları Xəlil Məmmədovun, Aslan Vəzirovun, tibb elmində böyük xidmətləri olan professor Azad Əmirovun və başqalarının vətənimizə xidməti az olmamışdır. Bununla yanaşı Məlik Muradovun, Mirzə Şükürün, Mirzə Hüseynin, Mirzə Heydərqulunun, Mirzə Cavadın, Kərim bəy Mehmandarovun və başqalarının Şuşa şəhər əhalisinin sağlamlığında böyük xidmətləri olmuşdur. Ancaq onların bəzilərinin yaşadıqları evlər şuşalılara məlumdur. Bəs qalanlarının malikanələri necə qorunub mühafizə olunmuşdur?

Böyük inqilabçı və mütəfəkkir yazıçı Cəlil Məmmədquluzadə və onun həyat yoldaşı Həmidə xanım Şuşada uzun müddət

yaşamış və yaradıcılıq dövrü keçirmişlər. Məgər belə mütəfəkkiri yaddan çıxarmaq olarmı? Hələ indiyə kimi Cəlil Məmmədquluzadənin yaşadığı binaya xatirə lövhəsi vurulmamışdır.

Yaxşı olardı ki, Həmidə xanımın köməyilə Şuşada ilk dəfə çadralı qızları cəlb etdiyi «Toxuculuq emalatxanası» yerləşən binaya xatirə lövhəsi həkk olunaydı və Mirzə Cəlil Məmmədquluzadənin adına xiyaban salınaydı və büstü ucaldılıb Şuşa əhalisi qarşısında canlandırılaydı.

Budur, bir anlığa ürəklərə dərman, səfalı Cıdır düzü adlanan yeri seyrə çıxırıq. Görkəmli alim, musiqişünas və rəssam Mir Möhsün Nəvvab Qarabağinin qəbrini ziyarət edirik. Adama qəribə görünür ki, dövlət tərəfindən xərc qoyulub düzəldilmiş mərmər obeliskin yanları nə üçün dağıntı halındadır. Bunun səbəbi xiyabana nəzarətçinin olmamasıdır. Ona görə də uşaqlar müxtəlif dəmir alətlərlə büstü zədələyirlər. Acınacaqlı haldır ki, Şuşadakı Mir Fəsseh və Mirzə Həsən adına tarixi qəbiristanlıqları bəzi vaxt mal-qaralar «ziyarət» edirlər. Bunun nəticəsində isə, natəmizlik artır. Bir sözlə arzularımız böyükdür. Səfalı Cıdır düzü və Topxana meşəsi, necə deyərlər, «Canlı tarixim memarlıq abidəsi»dir. Burada elə bir yaşıllıq salınmalıdır ki, ora şəhər əhalisinin «Sağlamlıq zonası»na çevrilsin. Vaxtı ilə Şuşada Cıdır düzünü Topxana meşəsi ilə birləşdirmək üçün nəzərdə tutulan kanat yolu tikilib, vaxtında istifadəyə verilsəydi, təbiət muzeyinin hazırki acınacaqlı vəziyyətinin şahidi olmazdıq. Belə ki, təbiət muzeyi turistlər üçün ekskursiya mənbəyinə çevrilərdi.

- Şuşanın girəcəyindəki yaşıllığa bürünmüş təpəlikdə Çanaqqala deyilən yerdə («ərimgəldi»də) dövrümüzün məşhur bəstəkarı və incəsənət xadimi Üzeyir Hacıbəyovun əzəmətli heykəlinin ucaldılması və onun adına mədəniyyət və istirahət parkı təşkil olunması həll olunası məsələlərdən biridir;

- Şuşada Gövhər ağanın aşağı məscidində təmir işləri 4 ildən artıq bir müddətdir ki, ləngidilir. Hələ indiyə kimi məscidin qəsdən dağıdılmış minarəsinin başlığı təmir olunmamışdır. Bu da bizim nankorluğumuzdan irəli gəlir;

- Görkəmli müğənni Cabbar Qaryağdıoğlunun yaşayıb-yaratdığı bina çox bərbad bir vəziyyətdədir. Həmin binanı



C.Qaryağdıoğlunun «Ev muzeyi»nə çevrilməsinin vaxtı çoxdan çatmışdır.

-Kimin yolu Xoca Əmircanlı məhəlləsindəki M.Ə.Sabir adına küçədən düşsə tarixi-memarlıq abidəsi hesab olunan məhəllə məscidinin viranə qalmasının şahidi ola bilərdi. Belə ki, məsciddə qorunan tariximizin yadigarları - yəni kitabələr yanıb külə dönmüşdür. Divarlarda hansı xəttatınsa əl işləri yerlə-yeksan olmuşdur.

-Tarixi Şuşada görkəmli maarif xadimləri də yetişmişdir. Hələ 1920-ci ildə Şuşada təşkil edilmiş Nərimaniyyə və Haşimiyyə məktəblərində əhalinin maariflənməsində və eyni zamanda, təlim-tərbiyə sahəsində ciddi iş aparmış, həmin məktəblərin təşkilində qocaman müəllim və maarif xadimlərindən Hüseyn Qayıbov, Hacı Zalov, Əbülfət Nuriyev, Zülfüqar Abdullayev, Mircabbar Vəzirov, Mirzə Xosrov Axundzadə və başqalarının diqqətəlayiq işləri olmuşdur. Həmin maarif xadimlərindən bəziləri 1920-ci ildə Qarabağ mahalında kəndlilər arasında təşkilati və siyasi-tərbiyə işləri aparırmışlar. Əfsuslar olsun ki, bu maarif xadimlərinin yaşadığı evləri biz Şuşada görüb yad edə bilmirik.

-Bir faktı da göstərmək istərdim ki, XIX əsrin məşhur musiqişünaslarından, xanəndə Cabbar Qaryağdıoğlunun musiqi müəllimi olmuş, klassik şərq muğamlarını dərindən bilən Mirzə Əli Aşiq Zeynalabdin oğlunun yaşadığı bina 1965-ci ildə Şuşa şəhər Sovetinin İcrakomunun qərarı ilə plana salınıb dağıdılmışdır. Məgər musiqişünaslar və maarifpərvərlər ocağını dağıtmaq düzgündürmü? Qeyd edə bilərəm ki, həmin binada Mirzə Əlinin oğlu 50 il pedaqoji sahədə çalışmış, Mir Həsən Vəzirov və Hüsü Hacıyev kimi mətin mübarizlərə «Əlifba» öyrətmiş, şair təbli Mirzə Xosrov Şaiq də yaşamış və yaratmışdır. Hal-hazırda kimin yolu Şuşaya düşsə Xosrov Axundzadənin yaşadığı iki mərtəbəli binanın yerində boş torpaq görərlər. Heç mənasını başa düşmək olmur ki, belə bir tarixi şəxsin evini nə üçün durğunluq dövrünün qurbanı ediblər?

Əgər şəhərin yenidən planlaşdırılmasına yaxşı göstəriş verilsəydi, hazırda Mirzə Xosrov Şaiqin yaşadığı binanın otaqları /Kommunist küçəsi №22/ tikilən yeni orta məktəbə «Təcrübə

emalatxanası» və yaxud da gənc nəslə elm öyrədən müəllimlər üçün «Pedaqoji təcrübə» sahəsi olardı. Qeyd etmək olardı ki, 1959-cu ildə Şuşa şəhərinin yerli Komunal Təsərrüfatı İdarəsi tərəfindən şəxsi təqaüdçü Xosrov müəllimin yaşadığı binanın yeni görkəm alması üçün onun təmirinə 12,155 manatlıq vəsait buraxılmışdır. Nəticədə isə rayon ZDS İcraiyyə Komitəsinin keçmiş sədri İdris Məhərrəmovun Xosrov müəllimin ailəsinə cavabı bu olmuşdur: «Heç ürəyinizi qısmayın, verilən layihəni daha pozmaq olmaz, bu lahiyəyə mən çox fikir verməmişəm, bunun əsas icraçısı şəhər Sovetinin sədri Fərrux Hüseynovdur.

- Əşi, əvəzində evin pulunu alın, bizdən əl çəkin də»...

Lakin vəzifələrindən sui-istifadə edən Şuşa rayon ZD Sovetinin və şəhər Sovetinin keçmiş rəhbərləri Xosrov müəllimin ailəsinə evin dəyərinin 50 faizini məcburi qəbul etdirərək ailəni köçürtmüşlər. Onu da qeyd etmək olar ki, Mirzə Xosrov müəllimin şəxsi mülkü sökülərkən binanın tikinti materialları bütünlüklə dövlətin ixtiyarında qalmışdır. Şəhər Sovetinin sədri F.Hüseynovun imzası ilə 10 may 1965-ci il tarixli 193№-li məktubunda[x)] deyilir:

-«Şuşa rayon ZDS-nin İcraiyyə Komitəsi Sizə məlum edir ki, sizin yaşadığınız bina şəhərin baş planına əsasən sökülüb yerində məktəb binası tikilməlidir. 3 gün müddətində yaşadığınız binadan köçməlisiniz. Əks təqdirdə, Siz inzibati qaydada köçürüləcəksiniz». Hansı ki, Xosrov müəllimin ailəsi şəxsi mülkünün və həyətyanı sahəsinin /Ümumi yaşayış sahəsi 965,16 kv.m.-dir/ dövlətin ixtiyarına keçməsinə özlərinin razılıqlarını vaxtında bildirmişdilər, hətta evin və həyətyanı sahənin dəyərinə verilən 50 faiz puldan da əvvəlcədən imtina etmişlər. Bu barədə 1964-cü ilin yanvar ayında Azərbaycan KP-nin keçmiş 1-ci katibi V.Axundov və 1965-ci ilin iyun ayında Azərbaycan KP MK-nın keçmiş katibi X.Vəzirov yoldaşlara yazılan ərizələrdə ətraflı şərh edilmişdir.

[x)]QEYD: Həmin məktub hal-hazıra kimi Xosrov Şaiqin arxivində saxlanılır.



Lakin respublikanın partiya təşkilatının Mirzə Xosrovun ailəsinin ərizəsinə verdikləri müsbət cavabı rayonun rəhbərləri qovluqlarda gizlədib fikirlərindən dönməmişlər. Onlar öz xeyirləri üçün düşünmüş və əvvəlcədən layihədə nəzərdə tutulmayan sahədə məktəb binasının tikilməsinə sərəncam vermişlər. Buna görə də hal-hazıra kimi Şuşanın Böyük qurdlar məhəlləsində tikilmiş orta məktəbin /Üzeyir Hacıbəyov adına I №-li orta məktəb/ binasının idman zalı dəfələrlə əsaslı təmir olunmasına baxmayaraq onun döşəməsi çürüməkdədir. Maraqlıdır ki, vaxtı ilə Xosrov müəllimin şəxsi mülkünün söküldüyü sahədə başqa yaşayış binasının tikilməsi qəti qadağan olunmuşdur. Lakin bunun əksinə olaraq 1987-ci ilin axırlarından etibarən Şuşa rayon XDS İcraiyyə Komitə-sinin sədri Rasim Hacıyevin sərəncamı ilə Mirzə Xosrovun mülkünün yerində şəhərin başqa sakini iki mərtəbəli şəxsi yaşayış binası tikdirmişdir. Göstərdiyimiz həmin faktdan məlum olur ki, Mirzə Xosrovun yaşadığı şəxsi mülkünün sökülməsi şəhərin baş layihə planında əvvəlcədən nəzərdə tutulmamışdır.

Budur, qarşımızda 1969-cu ildə yazılmış bir rəsmi məktub vardır. Məktubun müəllifləri Azərbaycan KP Şuşa Rayon Komitəsinin keçmiş katibi A.Y.Ağakişiyev, Şuşa rayon ZDS İcraiyyə Komitəsinin keçmiş sədri İ.M.Məhərrəmov yoldaşlardır. Həmin məktubda onlar mənə belə yazırlar: - «Biz Şuşada yaşayıb-yaratmış, musiqi beşiyində anadan olmuş həmyerlilərimizlə – mahir sənətkarlar, görkəmli incəsənət xadimləri, mübariz inqilabçılar, müəllimlər və həkimlər, partiya, sovet və komsomol işçiləri ilə həmişə fəxr etmişik

Biz əminik ki, respublikada ilk dəfə «Mədəniyyət muzeyi»nin Şuşada açılması xəbəri Sizi də sevindirmişdir...

Mədəniyyət muzeyinin Sizin köməyinizə də böyük ehtiyacı vardır. Siz atanızın əlyazmalarını, əsərlərini və bəzi zəruri əşyalarınızı muzeyə verməklə çox xeyirxah iş görmüş olarsınız. Ümidvarıq ki, xahişimizi nəzərə alacaqsınız».

Bu məktubu oxuyandan sonra doğrudan da mən nə qədər sevindim və xeyirxah əməllərimi əsirgəmədim. Atamın qiymətli ev əşyalarını və şəxsi arxivindəki materialları həvəslə toplayıb

onlardan 49 ədədini yenicə adını dəyişmiş Şuşanın «Tarixi muzeyi»nin keçmiş direktoru Novruz Həsənova təqdim etdim.[x)] Lakin təəssüf ki, tarixi muzeyin fonduna bağışladığım qiymətli əşyalardan cəmi 17 ədəd qalmışdır. Bu da muzeyin yeni direktoru Vaqif Əbilovun mənə təqdim etdiyi 5 avqust 1983-cü il tarixli rəsmi qəbzlə təsdiq edilmişdir.

Sual olunur: - Bəs hanı muzeyin əməkdaşlarının vətənpərvərliyi? Şəhərin tarixi ilə əlaqədar tarixi əşyalar görəsən kiminsə mənzilində özünə sığınacaq tapmışdır. Axı bütün bunlar mədəni irsimizin və zəngin tariximizin aşkar olunmasında mühüm rol oynayır. Belə qiymətli əşyaları da oğurlamaq düzgündürmü?

Hazırda sosial ədalət prinsiplərinə dönmədən əməl olunması yenidənqurmanın əsas tələblərindən biri hesab olunur. Lakin belə ədalət prinsipləri Şuşanın keçmiş rəhbər işçiləri arasında pozulmuşdur. Belə ki, Şuşa rayonu XDS İcraiyyə Komitəsinin keçmiş rəhbər işçiləri öz işlərini sosial ədalət prinsipləri əsasında qurmamış və buna görə də onlar yenidənqurma dövrümüzdə güclü irəliləyişimizin arxasınca sürünmüşlər.

Qeyd etmək olar ki, Şuşa rayonu XDS İcraiyyə Komitəsinin keçmiş rəhbər işçilərinin fəaliyyətindəki ciddi nöqsanlar Azərbaycan KP MK-nın plenumlarında dəfələrlə tənqid olunmuşdur. Lakin bu tənqiddən rayon XDS İcraiyyə Komitəsinin sədri Rasim Hacıyev heç bir nəticə çıxarmamışdır. O, əksinə dövlət mətbuatında yerinə yetirdiyi «keyfiyyətli» iş göstəricilərindən tam ağız dolusu ilə müsahibə vermişdir.

Nəhayət, Şuşa Rayon Partiya Komitəsində keçirilən 21 iyul 1988-ci il tarixli növbəti büro iclasında onun işindəki nöqsanlar ciddi tənqid olunmuş və ona ədalətsiz işlərinə görə uçot vərəqəsinə yazılmaqla şiddətli töhmət verilmişdir. Buna görə də Rasim Hacıyev tutduğu vəzifədən azad edilmişdir.

Bütün bu göstərdiyimiz nöqsanlara görə Qafqazın konservatoriyası adlanan, özünün müalicəvi əhəmiyyəti ilə dünya

---

[x)] –Həmin əşyalar və arxiv materialları üçün tərtib olunan 10 iyul 1970-ci il tarixli rəsmi Akt Mirzə Xosrovun şəxsi arxivində saxlanılır.



şöhrəti qazanmış tarixi Şuşanın Ümumittifaq kurort şəhərinə çevrilməsi indiyə kimi ləngidilir.

-Vaxtı ilə Şuşada yaşayıb-yaratmış tarixi şəxsiyyətlərin yaşadıqları binalara və yaxud da yerlərə xatirə lövhəsinin vurulması vaxtı çoxdan çatmışdır. Bunun da şair və yazıçıların, pedaqoqların, musiqişunasların, xanəndələrin, incəsənət ustalarının, memarların, nüsxəbəndlərin həyat və fəaliyyəti ilə əlaqədar sənədlərin üzə çıxarılmasında və Qarabağın tarixinin öyrənilməsi baxımından çox mühüm əhəmiyyəti vardır.

Bizə belə gəlir ki, Şuşanın keçmiş rəhbər işçiləri respublikamızda yaşayıb-yaratmış əsl xalq sənətkarlarının yaşadığı binaların tarixi abidə olaraq qorunub saxlanılması barəsində partiya və hökumətin qəbul etdikləri müvafiq qərarları unutmuşlar. Belə qərarlardan biri də Azərbaycan KP MK-nın 1976-cı il 4 okyabr tarixli qərarıdır. Həmin qərarda deyilir: - «Şuşa şəhərinin kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında»kı Azərbaycan KP MK-nın və Azərbaycan SSR Nazirlər Sovetinin 1976-cı il 4 oktyabr tarixli qərarı yarıtmaz yerinə yetirilir...

Ümidvarıq ki, Şuşa rayon Partiya Komitəsinin və rayon XD Sovetinin İcraiyyə Komitəsinin yeni rəhbərliyi Şuşanın Ümumittifaq kurort şəhərinə çevrilməsində və Şuşada tarixi şəxsiyyətlərin malikənələrnin qorunub saxlanılmasında və onların yaşadıqları yerə xatirə lövhəsinin vurulmasında yeni təşəbbüs göstərəcəklər.*

***11.08.1988-ci il.***

---

* Qeyd: Məqalənin mətni «Ədəbiyyat və incəsənət» qəzetinin 12 oktyabr 1990-cı il tarixli 40-cı nömrəsindən götürülmüşdür.

## Şuşa haqqında düşüncələrim

*Behişti axtaran gəlsin,*
*Cənnət Pənahabaddır…*
*/Xosrov Şaiq/*

Bir vaxtlar cənnət yuvası hesab edilən Azərbaycanın dilbər guşəsi sayılan Şuşa /Pənahabad/ təəssüf ki, hazırda getdikcə bir sıra qüsurları ilə özünün füsünkar gözəlliyini itirməkdədir…

Biz 1991-ci ildə Şuşada olarkən bu cür şəhərə ziyan vuran nankor adamların nəfsini duyduq, lakin onlara lənət yağdırdıq. Budur, bir anlığa şəhərin ən görkəmli yerlərindən biri Çanaqqalada seyrə çıxırıq. Çanaqqalanın şimal hissəsi bir vaxtlar kurort məskəni idi. Lakin indi onlardan əsər-əlamət qalmamışdır. İstirahət evlərinin və sanatoriyanın pansionatlarının həyətlərində füsunkar yaşıllıqlar düşməncəsinə məhv edilir və təbiətə gözəllik bəxş edən ağaclar kəslib aradan çıxarılır. Bir sözlə özümüz–özümüzə bilərəkdən göz dağı çəkirik.

Başı bəlalı Şuşa…, sənin adına neçələri ləkə vurmağa çalışdı, sanki sən səbirli oldun. 33 gün mühasirədə qaldın, yenə də yağılara baş əymədin. Dörd ildir ki, yolların dağılır, körpülərin partladılır, meşələrin qırılır. İndi də Şuşaya pənah gətirmiş didərginlər meyvə ağaclarını qırırlar. Deyirlər ki, qış mövsümündə didərginlərin məskən saldığı Şuşanın istirahət evlərində mavi yanacaq olmadığına görə onlar məcbur olub, əzəmətli yaşıl ağacları qırıb-talamışlar. Bizə belə gəlir ki, kurort şəhərində belə vəhşiliyə yol vemək olmaz. Hazırda istirahət evlərinin yaşıl meşəliyində bir sıra nəhəng ağaclar qırılıb tələf olmuş və qış mövsümündə odun əvəzində yandırılmışdır.

- Biz sanatoriyada başqa hallarla da rastlaşdıq. Qeyd etmək olar ki, istirahət evinin sahəsində Qulam şahın evi, Bəhmən Mirzənin və Firidun bəy Köçərlinin malikanələri, Köçərli məscidi, XIX əsr yaşayış binası, Köçərli məhəllə bulağı, içməli su qalereyası /«Turş su qalereyası»/ və kompleks qala divarları diqqəti cəlb edir. Lakin həmin abidələr məhv olmaq üzrədir. Elə



götürək Çanaqqalanın üst hissəsindəki «Köçərli məscidi»ni. Memarlıq üslubuna görə çox qiymətli binadır və bunun əsaslı təmirində şəhərin bərpa-istehsalat idarəsinin rəisi İlhami Fətəliyevin və idarənin baş mühəndisi Elxan İsmayılovun əməyini xüsusilə qeyd etmək olar.

Hazırda həmin məsciddə «Qarabağ Dövlət Tarixi muzeyi» yerləşir. Lakin hələlik muzeyin qapıları sakinlərin üzünə bağlıdır. Dəfələrlə muzeyin otaqlarının quruluş tərtibatı ilə maraqlansaq da, təəssüf ki, muzeyin içərisini görə bilmədik. Qeyd etmək olar ki, doğrudan da belə bir adda muzeyin təşkil olunması təqdirəlayiq bir işdir. Yaxşı olardı ki, Şuşanın tarixi muzeyinin eksponatları da «Qarabağ Dövlət tarixi muzeyi»ndə cəmləşdirilsin. Lakin muzeyin binasına baxımsızlıq üzündən istirahət evlərində yerləşdirilən didərginlər sanatoriyanın əhəmiyyətli meyvə ağaclarını qırmaqdan doymayıb, yeni təşkil olunmuş muzeyin kənarlarındakı yağış suyu üçün nəzərdə tutulmuş dəmir turbaları da çıxardıb istifadə etmişlər. Eyni zamanda, tarixi abidə kimi qorunan Köçərli məhəllə bulağının su axan kranına da «əl gəzdiriblər».

- İstirahət evinin həyətindəki anti-sanitariya vəziyyəti haqqında da bəhs etmək istərdik. İstirahət evinin bağı zibilxanaya çevrilmişdir. Bir tərəfdə mal-qaranın yığıncağı, digər tərəfdə zibil yığıncağı, istirahət evinin ucsuz-bucaqsız meşəliyinə sanki «gözəllik» verirdi… Bir sözlə, yaşıl çəmənliklər mal–qara otlağına çevrilmişdir. Buna görə də «Qarabağ Dövlət Tarixi Muzeyi»nin foyesi qoyun-quzu yaylağı olmuşdur. «Nəcib heyvanlar» özlərinin istirahətini muzeyin foyesində keçirirdilər.

Yaxşı olardı ki, muzeyin ətrafı səliqə-səhmanla hasarlansın. Muzeyin təşkili barədə şəhərin «20 yanvar» küçəsində xüsusi işarəli lövhə vurulmalıdır. Eyni zamanda istirahət evinin bağının gözətçisi olmalıdır. Yoxsa əks təqdirdə «Qarabağ Dövlət Tarixi Muzeyi»nin eksponatları da mal-qara yığıncağına çevriləcəkdir.

Muzeydən bir az aralı «Turş su» qalereyası yerləşir. Demək olar ki, qalereyanın keçmiş görkəmindən əsər-əlamət qalmamışdır. Didərginlər sanki öz əsəblərini qalereyanın divarlarını dağıtmaqla və şüşələrini sındırmaqla sakitləşdirmişlər. Hələ istirahət evinin binalarının vəziyyətini demirik. Binalar demək olar ki, xarabalığa

çevrilmişdir. Binaların içərisinin döşəmələrini və taxtapuşlarını söküb qışda yanacaq əvəzində işlətmişlər.

Bir sözlə, tarixi Şuşanın adına ləkə vurmaq cinayət işi görmək deməkdir. Onsuz da vaxtı ilə Şuşada 17 məhəllənin 17 bulağından, 17 hamamından və 17 məscidindən cəmi bir neçəsi qalmışdır. Tarixi abidə olan hamamlar, məscidlər və bulaqlar sökülüb yerlə yeksan edilmişdir. Bazar başından meydan bulağına kimi iki tərəfli tağlı səkilər düşməncəsinə məhv edilmişdir.

-Biz Cıdır düzündən Daşaltı çayına baxmağa ehtiyat edirik. Elə bil Cıdır düzü bizdən üz döndərib. Görkəmli bəstəkar Üzeyir Hacıbəyovun yanında xəcalətli qalmışıq. Şəhərdə onun başını uca tuta bilməmişik. Ona Şuşanın yüksək bir zirvəsində möhtəşəm abidə qurmamışıq. Şuşada yaşayıb-yaratmış Qarabağ tarixçilərinin, mahir pedaqoqların xatirəsini hələ indiyə kimi əbədiləşdirə bilməmişik...

Sual olunur: Kimi gözləyirik? Bu məqsədlə Şuşa şəhərinin gələcək inkişaf və sosial obyektlərinin, didərginlər üçün yaşayış binalarının tikintisinə respublika hökuməti hər vasitə ilə köməklik göstərməlidir. Təəssüf ki, hökumət bu fürsətdən də istifadə edə bilmədiyinə görə erməni terrorçuları bizi doğma yurd- yuvalarımızdan didərgin saldılar...

Bizim fikrimizcə, tezliklə Şuşa şəhərinin sanatoriyasında, istirahət evlərində məskən salan didərginlərin yaşayış şəraitinə yenidən baxılmalı və onlar istirahət evlərindən köçürülüb münasib yerlərdə yerləşdirilməlidirlər. Əks təqdirdə, cənnət yuvası olan Pənahabad «cəhənnəm» ə qərq olacaqdır.

-Şuşanı bir vaxtlar memarlıq üslubu cəhətincə şəhərin özünün ağ mərmər daşı ilə yonulmuş tağlı səkilərlə başqa şəhərlərdən fərqləndirmək olurdu. Lakin şəhərin bütün abidələri düşməncəsinə məhv edildi. İndi həmin tağlı səkilərin yerində Lenin küçəsi yerləşir. Həmin küçənin problemləri də çoxdur. Budur, Lenin küçəsinin yuxarı döngəsində «rabitə evi»nə gedən küçə «Pənah xan» küçəsi və ondan sağa dönən küçə isə «20 yanvar» adlanır. Sanki adları çəkilən küçələrdən keçmək mümkün deyildir. Tozanaq adamı keyləşdirir. Eyni zamanda, nəqliyyat vasitələri adamların gediş-gəlişinə maneçilik törədir. Yaxşı olardı



ki, şəhərin mərkəzi küçəsi sayılan «20 yanvar», Pənah xan və Lenin küçələrində nəqliyyat vasitələrinin hərəkəti dayandırılsın. Nəqliyyatın gediş-gəlişi üçün şəhərin dairəvi magistral yolunun çəkilməsi nəzərdə tutulsun. Bizə belə gəlir ki, bütün Şuşa əhli bizim fikrimizə şərik olacaqdır və özlərinin səsini vaxtında qaldıracaqlar.

-Son illərin ən ciddi problemləri içərisində ekologiya məsələləri ön yerlərdən birini tutur. Məsələn, Xəzər bu gün bütün Azərbaycan üçün görünməmiş, sonu bilinməyən bir təhlükəyə çevrilmişdir. Bu baxımdan biz kiçik Şuşa şəhərinə böyük Xəzərin problemləri səviyyəsində yanaşmalıyıq. Əksinə indi də Şuşanın füsunkar yaşıllığını məhv edib onu quru səhraya çevirmək istəyirik.

-Son zamanlar şuşalıları, xüsusən yaşlı nəsli çox ciddi narahat edən və təəccübləndirən məsələlərdən biri şəhərdə ağcaqanadın əmələ gəlməsidir. Şəhərdə natəmizlik və çirkab sularının gölməçə əmələ gətirməsi ağcaqanadların olmasına şərait yaratmışdır. Bunun əsas mənbəyi 60-cı illərdə şəhər qəbiristanlığının kənarı ilə çəkilən magistral yolun alt hissəsinin düzgün planlaşdırılmamasıdır. Yolun altına qoyulan borunun diametri şəhərdən axıdılan ümumi kanalizasiya suyunun həcminə uyğun gəlmir. Buna görə də hazırda istismarda olan boruların ağzı tutulmuş və nəticədə Böyük Vətən müharibəsində həlak olanların xatirəsini əbədiləşdirən abidənin arxa hissəsində çox gözəl mənzərəli bir yerdə çirkab sulardan «gölməçə» əmələ gəlmişdir. Deyilənə görə əgər bu gölməçənin suyu çoxalarsa, Şuşanın ekologiyasını korlamaqla yanaşı, həm də şəhərdə epidemiya təhlükəsi yaradacaqdır. Bizə belə gəlir ki, əlaqədar təşkilatlar bu barədə ciddi düşünməlidirlər.

-Şuşada həll olunası əsas problemlərdən biri də əhalinin içməli su ilə təmin olunmasıdır. Əfsuslar olsun ki, bu məsələnin həlli mürəkkəb olaraq qalmaqdadır. Bir vaxtlar Şuşada hər ailənin həyətində yerin dərinliklərindən çıxan, göz yaşı kimi şəffaf suya malik quyular vardı. Məsələn, elə götürək atam Mirzə Xosrov Axundzadənin şəxsi malikanəsini. Onun malikanəsi Şuşada Böyük qurdlar məhəlləsində yerləşirdi. Hazırda onun malikanəsinin

həyətyanı sahəsində Üzeyir Hacıbəyov adına 1 saylı orta məktəb yerləşir/. Məktəbin idman sahəsinin sol cinahında təxminən 40 metr dərinlikdə təbii suyu olan quyu vardır. Sol cinahında isə 10 metr dərinlikdə ehtiyat su saxlamaq üçün su quyusu /anbar/ olmuşdur. Lakin Şuşanın keçmiş /1960-1970-ci illərdə/ başbilənləri ensiklopedik şəxsiyyət olan, «Qarabağ tarixi»nin müəlliflərindən biri Mirzə Xosrov Axundzadənin şəxsi malikanəsini viranə qoyub, eyni zamanda, suya dərindən ehtiyacı olan orta məktəbin həyətindəki su quyularının içərisini daş-kəsəklə doldurtdurub ağzını qapatdırmışlar. İndi bəzi vaxtlarda dərin quyunun suyu coşub torpağın üst qatına çıxır və onun ağzını qapayanlara lənət yağdırır. Belə quyular Şuşada hər həyətdə olmuşdur. Lakin təsəvvür edin ki, hazırda Şuşa əhli sudan necə də korluq çəkir.

Yaxşı olardı ki, Şuşa əhlinin sudan korluğunun müvəqqəti qarşısını almaq üçün şəxsi həyətyanı sahələrdə olan su quyuları yenidən təmir olunub həyata qaytarılsın.

- Bir məsələni də qeyd etmək istərdik ki, Xankəndi /Stepanakert şəhəri/ DQMV-nin mərkəzi kimi özünün idarəçilik funksiyasını itirmişdir. Buna görə də Azərbaycanın keçmiş mədəniyyət mərkəzi Şuşa şəhərinin sosial obyektlərini tezliklə tikib istifadəyə vermək və şəhərin keçmiş şöhrətini özünə qaytarmağın vaxtı çoxdan çatmışdır. Ümidvarıq ki, cənnət məskəni sayılan Şuşanı /Pənahabadı/ Qarabağ vilayətinin mərkəzi şəhəri kimi görməyimizə az vaxt qalmışdır.

*15.08.1991-ci il.*



## Şuşadan yadigar

Mən ana vətənim Şuşanı o qədər ürəkdən sevirəm ki, hətta Şuşanın torpağından bir çəllək gətirib indiyə kimi göz bəbəyim kimi qoruyurdum*.

On bir ildir ki, Qarabağ uğrunda müharibə getməsinə baxmayaraq Şuşanın səfalı Cıdır düzünün qırxbuğum və kəklikotu hələ də bizim evdə yaşamaqdadır. Hərdən qırxbuğum kəklikotunun torbasının ağzını açdıqda onun ətirli qoxusu məni xəyalən bir anlığa Cıdır düzünə aparır.

1991-cı ildə mən Şuşadakı hökumət otağımızı məhkəmə yolu ilə yenidən əldə edə bildim. Həmin mənzil bazar başındakı «20 yanvar» küçəsindəki beşmərtəbəli binanın 2-ci mərtəbəsində yerləşirdi. Mənzili Şuşa rayon ZD Soveti İcraiyyə Komitəsinin qərarı ilə ata mülkümüzün yerinə vermişlər. Onu da qeyd edim ki, otağımızı keçmiş rayon başçıları /Rasim Hacıyev başda olmaqla/ iki dəfə satmışlar.

Respublika Ali Məhkəməsinin sədrinə /həmin dövrdə ali məhkəmənin sədri Hüseyn Talıbov idi/ dəfələrlə şikayət ərizəsi yazandan və 6 illik məhkəmə prosesində iştirak edəndən sonra 965 kvadrat metrlik sahəyə malik (həyətyanı torpaq sahəsi də daxil olmaqla) şəxsi mülkümüzün yerinə yuxarıda göstərdiyim ünvanda bir otaqlı mənzili nəhayət əldə edə bildim.

1991-ci ilin avqust ayında bir otaqlı mənzilin orderini rayon İcraiyyə Komitəsindən alan kimi mənzilin bayır qapısına təzə zamok saldırıb otağın içərisini isə sanitar-epidemioloji stansiyanın vasitəslə dezinfeksiya elətdirdim. Mənzilimin olmasına görə sevincimin həddi-hüdudu yox idi. Səhəri sübh tezdən şəhərin mərkəzi kolxoz bazarına yollanıb Bakıya hazırlıq məqsədilə ailə üçün səfalı Şuşanın tər meyvəsindən alıb tədarük etdim. Eyni zamanda biz qalalıların ən ləzzətli xörəyi sayılan «Qırxbuğum

* Çox təəssüf ki, gətirdiyim torpaq Şuşanın erməni quldurlarının əlində bir oyuncağa çevrilməsinə dözməyib «ömrünü başa vurdu».

plovu» bişirtdirmək məqsədilə qırxbuğum otu və bir az da kəklikotu alıb avtovağzala yollandım.

Onu da qeyd edim ki, 1992-ci ilə kimi hər ilin bütün fəsllərində mən Şuşanı seyr etməkdən doymazdım. Şuşanın bütün fəslləri gözəl idi. Bahar fəslində Şuşada olarkən çox maraqlı «dolu yağışlar» yağardı. Mən bir otaqlı mənzilimizdə dincələrək Sədinin «Gülüstan» və «Bustan»ını, Hafizin, Ömər Xəyyamın, Şah İsmayıl Xətainin əsərlərini dönə-dönə mütaliə edərdim. Bu anda bahar yağışı başlardı. Hər dəfə iri dolular binanın taxtapuşuna düşdükcə sanki elə bil ki, musiqi səslənərdi. Bu da mənə xüsusi ruh verərdi. Eyni zamanda, Şuşada baş verən təbiətin müxtəlif hadisələri mənim yaddaş kitabçamda silinməz izlər buraxmışdır. Bax buna görə də Şuşanın və Cıdır düzünün ətrini almaq üçün qırxbuğum və kəklikotunu indiyə kimi yadigar saxlayıram.

***Bakı, 10.05.2003-cü il***

# XATİRƏLƏR VƏ MEMUARLAR

## Həyat səhifələrimdən xatirələrim

**(Birinci hissə)**

Mən anadan olandan əzabla böyümüşəm. İki yaşında olanda, yəni 1940-cı ildə anam Zümrüd xanım xəstəlik nəticəsində cavan ömrünü əbədilik təhvil vermişdir.

Məni atam Mirzə Xosrov qucağında böyütmüşdür. Böyük bacım Matan /Matəban/ dörd il məktəb üzü görməyərək məni böyütmüşdür. Buna görə də o, 4-cü sinfə qiyabi olaraq birdən daxil edilmişdir.

Yadımdadır, mən ana südü ilə təmin olunmadığım üçün çox əsəbi idim, özüm də bədən cəhətcə olduqca zəif idim. Atam Mirzə Xosrov məni qucağına alıb, həzin-həzin «lay-lay balam, lay-lay» bayatısını oxuyardı. Hərdən bir də muğamatın bəzi növlərindən pəstdən zümzümə edərdi. Onu da deyim ki, atam muğamatın bütün növlərini dərindən bilirdi, lakin onun istənilən qaydada səsi yox idi.

Nəhayət, Mirzə Xosrov ailə vəziyyətimizi nəzərə alıb 1945-ci ildən etibarən yenidən evlənməyə məcbur oldu. Həmin ildən etibarən ailə vəziyyətimizdə müəyyən dönüş yarandı. Analığımız Hürü Allahverdiyeva bizi öz öhdəsinə götürmüşdü.

1946-cı ildə atam məni 7 yaşında öz sinfinə qəbul etdi. Mən boyca kiçik, bədəncə zəif, çox utancaq bir uşaq idim. Məsələn, mənim yanımda, partada, yəni qız xeylağının oturmasını mən özümə günah sayırdım. Buna baxmayaraq, atam məni bir qızla lap qabaqda oturtdu. Qızın adı Dilarə, familiyası Kazımova idi. Qız mənimlə tənəffüsdə dərsdən söhbət etmək istəyərkən mən ağlamağa başladım. Müəllimim /atam/ bunu görcək çox pərişan oldu və üzündə gülərüzlü bir təbəssüm yarandı. Dilarə də mənim ağlamağımdan çox pərt olmuşdu. Onu da qeyd edim ki, biz hər ikimiz sinfin əlaçıları sayılırdıq. Həmin qız Şuşada böyük ailə sahibi olmuşdur. Şuşa şəhəri zəbt edildikdən sonra Dilarə ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Dilarə zərgər Cahangirlə ailə



həyatı qurmuşdur. Hərdən qarşılaşanda bir-birimizə uşaqlığımızı yada salıb gülürdük.

Mən Şuşada 7 illik ibtidai təhsilimi əyani bitirib sonra axşam fəhlə-gənclər orta məktəbində təhsilimi davam etdirməyə başladım. Onu da qeyd edim ki, gündüzlər işləyib, axşamlar təhsil almağa çox həvəsim vardı. Atam isə buna razı deyildi. Çünki mən bədəncə çox zəif idim. Nəhayət, bir təhər yalvar-yaxarla mən atamdan işləməyim barədə razılığını aldım. Bu anda Mirzə Xosrov mənə üzünü tutub dedi:

-Oğul, hansı sənətin sahibi olmaq istəyirsən?

Mən bir az fikirləşdikdən sonra çəkinə-çəkinə cavab verdim:

-Ağa, /biz atamızı hörmət naminə «ağa» çağırardıq/ anam Zümrüd xanımın əl tikiş maşını vardır. Yaxşı olardı ki, məni dərziliyə düzəlt, gedim dərzilik sənətini öyrənim.

Atam çox ciddi şəkildə başını tərpədərək /elə bil bu sözü yerində demişəm/ tam razılığını bildirdi.

1953-cü ilin yay fəsli idi. Atam Mirzə Xosrov məni özü ilə birlikdə /o vaxta qədər mən bazarbaşını tanımırdım/ dərzi Bəşirin yanına apardı. O, tikiş sexinin rəisi vəzifəsində işləyirdi.

Atam məni ona təqdim edib əlavə etdi ki, sabahdan oğlumu şagird qəbul etməyinizi Sizdən xahiş edirəm. Onun bu sənətə çox böyük həvəsi vardır. Dərzi Bəşir atamın xahişini qəbul edib məni dərzi Əyyubun şagirdi olmağıma razılıq verdi və onu çağırtdırıb dedi:

-Əyyub, sənə şagird olmaq üçün gör kimin oğlunu gətirmişəm.

Əyyub əmi atamla səmimi görüşərək çox şad olduğunu bildirərək əlavə etdi:

-Mirzə Xosrov, bir vaxt biz Sizin şagirdləriniz olmuşuq, indi də bizim borcumuzdur ki, Sizin övladınız Pərvizə biz öyrədək.

Mirzə Xosrov gülümsünərək – çox sağ ol, Əyyub, sabah Pərvizi göndərəcəyəm yanına – deyərək birlikdə evə qayıtdıq.

Sabahı günü mən həvəslə dərzi Əyyubun yanına gəlib özümü təqdim etdim*. Qeyd edə bilərəm ki, üç aydan sonra ustam mənim işimdən razı qaldığını bildirdi. Bundan sonra mən həvəslə sənətkar olmağa can atdım.

Mən o qədər həvəslə işləyirdim ki, ilk əmək haqqımı atama sevinə-sevinə təqdim etdim və atama bildirdim ki, nə istəyirsənsə evə alım. Demək olar ki, ilk dəfə olaraq evimizə nikelli çarpayı, su parçı və ağ çaydan aldım. Onu da deyim ki, o vaxtlar nikelli çarpayı almaq böyük bir məsələ sayılırdı.

İkinci əmək haqqımı alanda isə evimizə elektrik işığı və radio çəkdirdim.

**Haşiyə:** Bizim Böyük Qurdlar məhəlləsində o vaxta qədər heç bir qonşunun evində nə elektrik işığı və nə də radio vardı. Yaxşı yadımdadır, evimizə radio, elektrik çəkdirmək üçün elektrik çəkən Kar Ənvəri, İldırımı və Cəmili bizə dəvət etdik. Qonşularımız eşidəndə də ki, Mirzə Xosrovun oğlu evlərinə elektrik işığı və radio çəkdirir, bəziləri sevinmiş, bəziləri kədərlənmişdir. Adlarını çəkdiyim şəxslər çox çətinliklə bizim evə elektrik və radio naqili çəkmişlər.

O vaxtlar yaşadığımız Kommunist küçəsinin yuxarı hissəsində, yəni «Körpələr evi»nin qarşısındakı taxta şalbanda elektrik və radio xətti qurtarırdı. Ondan aşağıda olan qonşuların hamısı çıraq, lampa və fanar işığı yandırırdılar. Həmçinin bizim otağımızda da atam Mirzə Xosrov xüsusi kürsülü, ağ neftlə işləyən çıraq yandırıb işlədərdi. Onu da qeyd edim ki, Mirzə Xosrov uzun gecələrdə yuxusuz qalaraq çıraq işığında pedaqoji və ədəbi yaradıcılıqla həvəslə məşğul olardı. Bunun da nəticəsində onun şəxsi arxivində beş sanballı əsəri /əlyazması/ vardır.

Artıq bizim otaqlar elektrik nuruna qərq olmuşdu... Kədərlənən qonşularımız bizə həsəd aparırdılar. Bir müddətdən sonra onlar da otaqlarına elektrik işığı çəkdirdilər.

1956-cı ildə mən Şuşa fəhlə-gənclər orta məktəbini əla və yaxşı qiymətlərlə bitirdim. Elə həmin ildə atam məzuniyyət

* Ustamın yanında oturub öyrəndiyim yerdə çəkilən şəkil indiyə kimi şəxsi arxivimdə saxlanılır.



dövrümdə /payız fəsli idi/ ilk dəfə olaraq 1957-ci ildə məni Bakıya böyük qardaşım Əlinin yanına göndərdi. Artıq iki ilə yaxın idi ki, böyük bacım Matan da Bakıda qardaşı Əlinin yanında qalırdı. Bakı mənim üçün əvvəllər çox sıxıntılı görünürdü. Özümü o qədər də yaxşı hiss etmirdim. Lakin sonralar getdikcə Bakı mühitinə uyğunlaşmağa başladım.

Bakıda 1957-ci ildə atam Mirzə Xosrov səmimi dostlarının köməyi ilə məni Kommunist küçəsindəki (indiki İstiqlaliyyət küçəsi) 28 Aprel adına 2№-li tikiş fabrikinə dərzi vəzifəsinə düzəltdi. 1988-ci ilə kimi həmin fabrik fəaliyyətdə olmuşdur. Çox maraqlıdır ki, 50 nəfər dağlı qızının içində tək bir oğlan uşağı mən idim. Əvvəllər o qədər utanırdım ki, hətta bəzən gözəl qızlar mənim işimlə maraqlananda mən qızarıb gözlərimi qıyaraq başımı aşağı salıb tikiş maşınını daha da sürətlə işə salırdım.

Fabrikin direktoru /familiyası yadımda deyildir/ mənim belə utancaq olduğumu görüb sərbəst paltar tikməyi məsləhət gördü. Bu məqamlar mənə çox ağır gəlirdi. Fabrikanın direktorunun göstərişilə «bumajnı» parçadan şalvarlıq biçilib mənə təqdim olunaraq tikməyimi tələb etdilər və mənə bildirildi ki, əgər özünü doğrulda bilsən bundan sonra sənə biçilmiş şalvarlıqlar ayrıca veriləcək ki, tikəsən. Mən tez bir zamanda özümü doğruldaraq tikdiyim səliqəli və keyfiyyətli şalvarlarımla kollektiv arasında hörmətimi qazandım.

1957-ci ilin ortalarında mən Bakı şəhərinin Əli Bayramov küçəsindəki 1 №-li fərdi tikiş atelyesinə dəvət olundum. Atelyenin müdiri Ramiz çox əsəbi bir şəxs idi, /hazırda o vəfat etmişdir/. Ramiz əsəbi olmağına baxmayaraq mənimlə səmimi rəftar edirdi. O, mənim əl qabiliyyətimi yoxlamaq üçün mənə kostyumun pencəyini təqdim edib onun petləsini tikməyi təklif etdi. Mən pencəyin petləsini tələb olunan səviyyədə tikib iynə yerlərini çox zərif vururdum. Ramiz mənim əl işimə diqqətlə baxıb dedi:

-Pərviz, səndən dərzi çıxar.

Həmin gündən etibarən o, mənə şalvar biçib verdi, mən də öz işimə başladım.

1958-ci ildə atam Mirzə Xosrov bacım Matanla bizə birgə yaşamaq üçün Mirzə Ağa Əliyev küçəsi, dalan 6-da /köhnə

vaxtlarda küçəyə Çadrovı adı verilmişdir/ xüsusi otaq aldı. Otağımızın Gülsüm adında «ağası», yəni xozeyni var idi.

**Haşiyə:** Gülsümün elə bəd xasiyyəti var idi ki, heç kim onunla dolanmırdı. Ancaq bizə nisbətən sakit rəftar edirdi. Belə ki, Gülsüm eyvana çıxanda kirayənişinlər özlərini yığışdırardılar. Heç kim onun bir sözünü iki etməzdi. Onu da qeyd edim ki, Gülsümün bir neçə kirayənişini var idi. Atam köhnə pulla /15 min manat/ /yeni pulla 1500manat/ verib müqavilə bağladı. Müqaviləni bir neçə qonşu imzaladılar.

Göstərdiyim dövrlərdə Bakıda xüsusi mənzil almaq çox böyük iş sayılırdı. Yaşadığımız mənzildə demək olardı ki, heç bir avadanlıq yox idi. Mən otağımıza kənardan taxta gətirtdirib stol və stul düzəltməyə məcbur oldum. Bu işdə atam Mirzə Xosrovun yaxın dostlarından biri Kəlbəlayı Qara adlı bir şəxs mənə köməklik etmişdir. O, mənim dülgərlik bacarığımı görüb otağımıza stol və taburetka düzəltməyim üçün lazımi taxta ləvazimatı ilə təmin etmişdir. Hətta mənə işlənmiş bir ədəd mişar da bağışlamışdır. Nahar etmək üçün düzəltdiyim stol və taburetka dəsti bizi hələlik mebel almaqdan xilas etdi. Bacım Matanla mən uzun müddət onlardan istifadə edib hətta qonaqlıq da təşkil edirdik.

Onu da qeyd edim ki, mən təkmilləşmiş bir dərzi olduğuma görə qonşularım, hətta «xozeyin»imizin qardaşları da mənə şalvar tikdirmək üçün sifariş verirdilər. Bir sözlə, bir sənətkar kimi özümün yaşayış vəziyyətimlə fəxr edərək firavan həyat keçirirdim. Hətta Şuşada yaşayan ailəmizə də köməklik göstərirdik.

1957-ci ildə sənədlərimi K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna verib qəbul imtahanlarını müvəffəqiyyətlə başa vurub iqtisad fakültəsinin I kursuna daxil oldum. Bu dövrlərdə mən əyani təhsil almaqla bərabər, eyni zamanda boş vaxtlarımda tələbə yoldaşlarıma paltar da tikirdim. Bir sözlə tələbə yoldaşlarım arasında hörmətim getdikcə artırdı.

Qeyd etmək istərdim ki, mən həm də rəssamlıq etməyi bacarırdım. Şagird dövrlərimdən adi akvarel kraska ilə hətta rəhbərlərin şəklini çəkirdim. Hal-hazıra kimi çəkdiyim şəkilləri şəxsi arxivimdə saxlayıram.



Bir gün Azərbaycan Respublikasının Xalq rəssamı, Dövlət mükafatı laureatı Lətif Kərimov həyat yoldaşı ilə birlikdə bizə qonaq gəlmişdi. Onu da qeyd edim ki, 1955-1959-cu illərdə Lətif Kərimov hər yay fəslində ailəsi ilə birlikdə Şuşaya istirahətə gələrdilər. Onun ən yaxın dostlarından biri də atam Mirzə Xosrov Axundzadə olmuşdur.

Lətif Kərimov həmin illərin yay fəsillərində tez-tez bizə gələr və Qarabağın tarixinə dair Mirzə Xosrovdan ətraflı məlumatlar toplayardı. Bunun nəticəsində də o, Azərbaycanda xalçaçılıq sahəsində yüksək mütəxəssis olaraq Qarabağ xalçalarının çeşidlərində bəzi tarixi eskizlər yaratmışdır.

1956-cı ildə Lətif Kərimov bizdə qonaq olarkən mən də həvəslənib, ona hörmət əlaməti olaraq həyat yoldaşı ilə birlikdə onların portretlərini çəkdim. Bu işdən onlar çox razı qaldıqlarını atama bildirmişlər. Lakin əfsuslar olsun ki, rəssamlıq sahəsində Lətif Kərimov mənə istiqamət vermədi. Atam ona müraciət etsə də o mənə nədənsə köməklik etmədi. Buna görə də mən sənədlərimi Bakı rəssamlıq məktəbinə təqdim edə bilmədim.

Mən dərzilik sənətini bacardığım üçün sənədlərimi K. Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna verməli oldum.

1959-cu ildən etibarən İnstitutumuz bəzi səbəblər üzündən bağlandı. Onu da qeyd edim ki, İnstitutumuzun bağlanması respublikamıza çox böyük zərbə vurdu. Daha doğrusu iqtisadçı kadrların çatışmamasına gətirib çıxardı. Oxuduğum iqtisad fakültəsi S.M.Kirov adına ADU-ya verildi.

1963-cü ildə universiteti müvəffəqiyyətlə bitirdim.

**Haşiyə:** 1960-cı ilin may ayında, mən ikinci kursda oxuyarkən atam Mirzə Xosrov qəflətən vəfat etdi. Ailədə böyük çətinliklər baş verdi. Ögey qardaşım və ögey bacım kiçik yaşlı idilər. Ögey qardaşım Fikrət 7-ci sinifdə və bacım Mehparə isə 5-ci sinifdə təhsil alırdılar. Doğrusu, mənim də ailəni idarə etmək təcrübəm yox idi. Lakin buna baxmayaraq bütün qüvvəmi səfərbərliyə alıb uşaqları öhdəmə götürdüm. Uşaqların böyüməsində mərhum bacım Ramizənin böyük əməyi vardır. 1965-ci ilə kimi uşaqların təlim-tərbiyəsi ilə bacım Ramizə məşğul olmuşdur.

Biz, yəni bacım Matan və mən həmin dövrlərdə Bakıda canıdildən işləyib öz əməyimizin bəhrəsini götürərək əmək haqqımızın bir hissəsini toplayıb bacım Ramizənin ağır yükünü nəzərə alıb ona maddi yardım edirdik. Ayda bir dəfə Şuşaya ögey bacı və qardaşımıza geyim və yemək şeyləri göndərərdik.

Bir sözlə bacım Ramizə ömrünün axırına kimi uşaqların təlim-tərbiyəsində həqiqi bir insan və tərbiyəçi kimi mühüm rol oynamışdır.

1964-cü ildə ailəmizdə ikinci bir çətinlik baş verdi. Ata mülkümüz yerli hökumət tərəfindən plana salındı. Şəxsi mülkümüzün yerinə orta məktəb tikilməsi qərara alındı. Yerli hökumət bizi yaşadığımız yerdən köçürərək Hacı Yusifli məhəlləsində sığınacaq üçün köhnə mülklərdən birini müvəqqəti olaraq ailəmizə istifadəyə verdi.

**Haşiyə:** 1956-63-cü illərdə bacım Matan N.Nərimanov adına corab-trikotaj fabrikasının «sap açan» sexində briqadir işləyirdi. O, özünü işdə doğruldaraq nəticədə fabrikanın ən qabaqcıl işçilərindən birinə çevrilmişdir. Hətta Matan xanım «Kommunist əməyi zərbəçisi» adına layiq görülmüşdür. O, qabaqcıl bir işçi və kommunist əməyi briqadasının üzvü kimi 1962-64-cü illərdə iki dəfə Bakı Şəhər Sovetinin deputatı seçilmişdir.

Biz bacı-qardaş ailə üzvlərimiz içərisində fərasətli çıxmışdıq. Əl-ələ verib əmək cəbhəsində çalışırdıq. O vaxtlar bacım Matan fabrikada üç növbədə də işləyirdi. Mən hər gün onun yolunu gözləyirdim. Bizim Mirzəağa Əliyev /keçmiş Çadrovı/ küçəsindəki mənzildə həyatımız çox maraqla keçirdi. Belə ki, küçəyə yaxın olan M.F.Axundov döngəsində dayım arvadı Gülarənin qohumu qolu kəsik Məhəmmədin və /onun doğrudan da bir qolu yox idi/ atamın qohumu altı barmaq Cümşüdün /onun da altı barmağı vardı/ ailəsi yaşayırdı. Bir sözlə bizim onlara, onların isə bizə gediş-gəlişimiz vardı. Ancaq biz bilmirdik ki, qolukəsik Məhəmməd kişi bizə başqa fikirlə yanaşır. Təfsilatı müfəssəl danışmaq istərdim.



**Haşiyə:** Məmməd kişinin həyasız və ağızdan «harfa» Mərcan adında arvadı vardır. Onun milliyyəti yəhudi idi. Ancaq insafən o, bizə qarşı münasibətdə çox diqqətli olmuşdur.

Məhəmməd kişinin qapı qonşusu Zümrüd arvadın ailəsi yaşayırdı. Həmin ailənin başçısı çoxdan vəfat etmişdir. Ailəyə ancaq Zumrüd arvad başçılıq edirdi. Onun iki oğlu və iki qızı var idi. Onların həyatı o qədər də firavan keçmirdi.

Zümrüd arvadın böyük oğlu Orucəli idi. O, gündüzlər vaqon təmiri zavodunda işləyirdi. Onun ailəsi gecələr Məhəmməd kişinin evinə toplaşardılar. Orucəlinin qardaşı Nadir isə dərzilik sənətini öyrənmək üçün Bakıda bir atelyedə şagird işləyirdi. Nadir, 1984-cü ilin avqust ayında uzun sürən xəstəlikdən sonra vəfat etmişdir.

Xülasə, biz nə vaxt Məhəmmədgilə gələrdiksə həmin ailə də onlarda cəm olub televiziya verlişlərinə baxardılar. O vaxtlar Bakıda ekranı çox kiçik, lakin gövdəsi iri, yüksək qiymətli «Rekord» markalı televizorlar mağazalarda satışa buraxılmışdır. Məhəmməd kişi imkanlı olduğundan həmin televizoru qonşuların içərisində ilk dəfə o, almışdır. Onu da qeyd edim ki, Məhəmməd kişi məşhur alverçi idi. O, kağız «kulok»lar satmaqda mahir idi. Onun Bakının Hüsü Hacıyev küçəsində yerləşən «Pasaj» üstüörtülü kolxoz bazarının yuxarı hissəsində xüsusi yeri vardır. O, həmin yerə bir ədəd kiçik stol və bir ədəd stul qoyub alver edərdi. Nə başınızı ağrıdım, şəhərdə Məhəmməd kişini tanımayan az adam tapılardı. Kimin nə dərdi olardısa, onu məsləhət almaq üçün Məhəmməd kişinin yanına göndərərdilər.

Məhəmməd kişi kağız kuloklardan başqa cürbəcür ədviyyat malları, çay və s. qiymətli məmulatlar satardı. Bir sözlə o, xeyirə, şərə yarayan şəxs idi. Ancaq o, axşamlar evə gələndə arvadı Mərcan çox deyinərdi. Axırda Məhəmməd kişi 150 qram araq vurub solaxay əlinə ağac alıb onun canına düşərdi. Vur ki, vurasan... Nəticədə isə, Mərcan hönkürtü ilə ağlayıb qəbahətlərini başa düşərdi. Onu da qeyd edim ki, Mərcan əri Məhəmmədi «sidqi ürəklə» sevirdi. Bu da Məhəmməd kişinin qazancından asılı idi. Axşamlar Məhəmməd kişi gətirdiyi metal pulları Mərcanla sayıb şüşə balonlara doldurardılar. Kağız pullar

isə ayrıca toplanardı. Hərdən Məhəmməd kişi rəhmdil olduğundan qonşusu Zümrüd arvadın uşaqlarına da köməklik edərdi. Bu hərəkətin nəticəsində də qonşular arasında Məhəmməd kişinin hörməti birə-beş artardı.

Qərəz...Mərcan arvad pulları sayıb qurtarandan sonra üzünün qırışıqları açılar və gülərüzlə ərinə «müştəri» gözü ilə baxıb deyərdi:

-Mamedcan, dur ayağa, suda təmizlən, mən səni çimdirərəm.

Məhəmməd kişi bu sözdən ruhlanıb vanna qəbul edərdi. Onların vanna otağı olmadığından Mərcan sevimli ərini böyük iri həcmli dəmir vannada çimizdirərdi.

Məhəmməd kişi təmizlikdən sonra bir anlığa özünü «cənnət bağı»nda hiss edərdi. Yumşaq divanda uzanar və dünya hadisələrindən Orucəliyə danışardı. Hərdən bir fasilə edib 150 qram araq vurar və keyfini sazlayardı. Sonra Mərcan onun qarşısına ləzzətli yeməklər gətirərdi. Bu minvalla da onun həyatı çox şən keçərdi.

Mərcan Məhəmməd kişinin qazancına heç də arxalanmayıb özünə çox gözəl, yüngül və şəhərin mərkəzi hissəsində iş yeri tapmışdır. Onun əsl sənəti «süpürgəçi» idi. O, Bakının Kirov prospektini süpürərdi. Səhər saat $6^{30}$ radələrində yuxudan durar və səhər saat 8-ə kimi öz vəzifəsini canla-başla yerinə yetirərdi.

Mərcanın süpürgəsi də çox «görkəmli» idi. Sanki süpürgənin ağzının eni bir metr olardı. Süpürgənin yuxarı hissəsinə /qulpuna/ hamar şam ağacından /təqribən uzunluğu 2 metr olardı/ çubuq salıb, çox həvəslə həmin küçəni təmizləyərdi. Sonradan «süpürgəçilik» sənətində xeyli pul qazandığından Mərcan şəhərin başqa yerlərində də əlavə olaraq süpürgəçilik edərdi.

Bir sözlə, Mərcanın bəxti gətirmişdi... Qazanc-qazancın ardınca gəlirdi. Bu da onun müasir dəbdə geyinməsinə səbəb olurdu. Sizə necə təsvir edim, Mərcan geyinib küçəyə çıxanda, sanki qonşular onun «gülməxmər» parçadan tikdirdiyi paltara heyran qalardılar. Həmin paltara iri süpürgəsinin rəngi uyğun gəlməsə də, sanki Mərcanın nazik sifətinə və qara çatma qaşlarına işıq verirdi. Hərdən söz düşəndə deyirdi:



- Ərim Mamedcan, artıq qocalıb, mən gələcəyimi düşünürəm. Eh, görəsən necə olacağam, mən də bir cürə bədbəxtəm, bu cürə canım bir qocanın əlində çürüdü... Amma onu da deyim ki, Mamed yaxşı adamdır, bilirsən o, məni necə sevir? Ona görə mən də ona sadiq olmalıyam.

1965-ci ilin yayında ailəmizdə yeni bir hadisə baş verdi. İstəkli bacım Ramizə uzun sürən xəstəlikdən sonra 33 yaşında vəfat etdi. Həmin vaxtda bacım Matanla mən Bakıda idik. Ramizənin ölüm xəbərin eşitcək necə də kədərləndik, sanki huşumuzu itirdik.

**Haşiyə:** Ramizə savadlı, ərəb əlifbasını bilən bir qız idi. Onun yaxşı tikmələri hal-hazıra kimi bizdə qalmaqdadır. O, atası Mirzə Xosrovun ərəb əlifbası ilə olan əlyazmalarının bəzilərini kiril əlifbasına köçürmüşdür. Ramizə eyni zamanda bir tərbiyəçi kimi də evdə özünə hörmət qazanmışdır. Əfsuslar olsun ki, belə bir qızın ömrü tezliklə başa çatdı. Mənim Ramizənin həyatına həsr etdiyim «Qısa ömrün baharı» oçerkim vardır. Hazırda həmin əlyazmalar şəxsi arxivimdədir.

Nə etmək olar... Həyatın qanunudur. Lakin ailəmizdə yenidən çox böyük bir çətinlik əmələ gəldi. Bu da uşaqların təlim-tərbiyəsinə rəhbərlik etmək idi. İndi bizə lazım gəlirdi ki, Bakıda bir yerə toplaşıb yaşayaq. Bizim fikrimiz o idi ki, ögey anamızı, qardaşımızı və bacımızı öhdəmizə götürək və uşaqları boya-başa çatdırıb bir sənət sahibi edək. Atam vəfat edəndə mən İnstitutun II kursunda oxuyurdum.

Qohumlarımız və qonşularımız ögey qardaş və bacımı öhdəmizə götürməyimizə şəxsən narazı idilər. Doğrusu buna da əsas vardır. Belə ki, onsuz da biz özümüz cavan və təcrübəsiz idik.

Bir gün dayım Xuduş İsmayılov /uzun müddət Şuşada məktəb direktoru vəzifəsində işləmişdir/ Bakıya bizə qonaq gəlmişdi. O, xeyli oturub söhbətdən sonra bizim çıxılmaz vəziyyətimizi hiss edib dedi:

-Matan, Pərviz bala! Siz hələ cavansınız, mənim həyatda başıma hər cür iş gəlib. Yaxşı yadınızda saxlayın mənim bu tövsiyəmi. Bir vaxt olar ikiniz də peşman olarsınız. Ona görə də

indidən özünüzə bir tədbir görün. Bu ögey uşaqlardan sizə qardaş-bacı olmayacaqdır. Yaxşı olardı ki, onları nə qədər gec deyil, internat məktəbinə təhvil verin, qoy hökumətin ixtiyarında olsunlar.

Doğrusu, biz dayımızın dediyi bu sözdən xeyli pərt olub əsəbiləşdik və mən ona cavabında belə dedim:

-Dayı, Siz düzgün fikirdə deyilsiniz. Biz onları doğmadan da artıq istəyirik. Biz razı ola bilmərik ki, atamızın uşaqlarını kimsəsiz buraxaq. Ona görə də biz bundan sonra var qüvvəmizi sərf edib onları boya-başa çatdıracağıq.

Dayım dedi:

-Onda özünüz bilərsiz, vaxt gələr peşman olarsız və onda mənim sözüm Sizə haqq qazandırar...

Biz uzun müddət dayımızın bu sözünə görə ondan inciyib, hətta onu bir müddət danışdırmadıq.

Bir haşiyə çıxmaq istərdim ki, mən və Matan atam Mirzə Xosrovun qəbrinin üstündə ögey qardaş və bacımızı böyüdüb başa çatdırmaq üçün əlavə olaraq and da içmişdik.

Doğrudan da, sonradan öz-özümə fikirləşirdim. Bəlkə də dayımın dediyi sözlərində bir həqiqət vardır. Sonra da özümə təsəlli verirdim:

-Yox bu olan iş deyil, dayım ağsaqqal olsa da, bu məsələdə səhvə yol vermişdir. Bunu həyat göstərər, yaşayarıq, görərik...

1963-cü ilin may ayında çoxdan növbəyə durduğumuz ev uçotu əsasında bacım Matana işlədiyi fabrik tərəfindən Bakı şəhərinin 5-ci mikrorayonunda bir otaqlı mənzil verildi. Bu da bizim sevincimizə səbəb oldu.

Onu da qeyd edim ki, şəhərin M.A.Əliyev küçəsindəki 6 №-li dalanda yaşadığımız otağın «ağası» /xozeyni/ Gülsüm Əliyeva bu xəbəri eşitcək, necə deyərlər, huşu başından çıxdı. Həmin gecə o, demək olar ki, səhərəcən yatmadı, eyvanda sağa-sola getməkdən yorulmurdu.

**Haşiyə:** Gülsüm Əliyeva iri gövdəli, yoğun bədənli, enli və qırmızı sifətli bir qadın idi. Onun dediyinə görə, ərini vaxtı ilə evlərində zəhərli siçovul dişləmiş və bunun nəticəsində də əri vəfat etmişdir. Gülsüm ərinə sadiq qalaraq ondan sonra ərə



getməmiş və dul qalmışdır. Onun üç qardaşı və iki bacısı var idi. Böyük qardaşının adı Böyükağa, ortancıl qardaşının adı Ağasəlim, kiçik qardaşının adı Nəriman və kiçik bacısının adı isə Stella idi. Gülsümün ortancıl qardaşı Ağasəlim, necə deyərlər, «qabağından yeyən adam» deyildi. Bacısı Gülsüm onunla heç yola getmirdi, həftəbir savaşırdılar. Bir neçə dəfə az qalmışdı ki, Ağasəlim Gülsümə xətər yetirsin.

Gülsüm arvad savaşan vaxtda elə qızarırdı ki, az qalırdı üzündəki yumru ətlər şişib partlaçsın. O, savaşıb qurtarandan sonra acığını kirayənişini Gövhərdən çıxardı.

**Haşiyə:** Gövhər milliyyətcə yəhudi idi. O, kiçik boylu, bədəncə normal qadın idi. Onun vur-tut kiçik bir qızı vardı. Bizimlə qapı-qonşu idi. Kiçik bir otaqda qalırdılar. Əvvəllər həmin otaqda biz kirayənişin yaşamışdıq.

Gövhər bir azca pəltək danışırdı. Elə ki, Gülsümün yuxarıdan hənirtisini eşidirdi, tez qızını yanına çağırıb qapını bağlayıb içəridə səs çıxarmazdı.

İnsafən Gülsüm təkcə bizə dəyib toxunmazdı. Bunun da səbəbi atam Mirzə Xosrovun hörmətli bir şəxs olmasına görə idi. O, bizə hörmət edər və hərdən aşağı enib bizimlə dərdləşərdi.

Qərəz, biz bacı-qardaş yavaş-yavaş otağımızdakı əşyaları 5-ci mikrorayona köçürürdük. (Ünvanımız belə idi: Tiflis şossesi, 5-ci mikrorayon, bina «Q-1», mənzil 14.) Xozeynimiz Gülsüm bir də xəbər tutdu ki, biz yeni mənzilə köçmüşük. Bu işdən o, xeyli pərt olmuşdu. Az qalırdı ki, Matanı diri-diri dişi ilə parça-parça etsin.

Ev əşyalarımızı tamam köçürüb qurtardıqdan sonra Gülsümə xəbər verdik ki, biz artıq sənin otağında yaşamırıq, otağı gəlib təhvil ala bilərsən. Əslinə baxsan, qanunla /müqaviləyə görə/ biz otağa verdiyimiz 15 min manat pulu/ kirayə haqqından başqa, ayda 15 manat əlavə kirayə haqqı verirdik/ geri almalı idik. Lakin Gülsümün xasiyyəti tünd olduğundan ehtiyat edib həmin məbləği ondan istəmədik. Gülsüm bizim bu qayğıkeşliyimizi duyub bizimlə şirin dillə danışmağa başladı və axırda bizə uğurlu yollar arzuladı.

Beləliklə də, bizim həyatımızda yeni, mühüm bir mərhələ baş verdi. Sanki özümüzü xoşbəxt hiss edirdik. Hər bazar günü bacı-qardaş əmək haqqımızdan toplanan pulları götürüb şəhərin mağazalarına yollanar, yeni mənzilimizə lazımi şeylər alardıq.

**Haşiyə:** Sən demə, qolukəsik Məhəmməd kişi bacım Matanın qonşusu Orucəliyə nişanlanmağının məndən razılığını almaq üçün çoxdan plan qurmuşmuş. Onlar öz aralarında, necə deyərlər, him-cim etmişdilər. Bu işdən həqiqətən də bizim xəbərimiz olmamışdı.

Bir bazar günü evdə oturub dincəlirdik. Qəflətən qapımız döyüldü, içəriyə birinci Mərcan və onun ardınca Məhəmməd kişi, Orucəlinin dayısı arvadı və bacıları daxil oldular. Biz məəttəl qalmışdıq. Məsələni Məhəmməd kişi və Mərcan açdı. Doğrusu bu işdən mən çox pərt oldum və əsəbiləşdim. Onlar mənim bu vəziyyətimi görüb məcburiyyət qarşısında qalıb getdilər.

Bu münvalla sonrakı həftənin bazar günü onlar 2-ci dəfə bizə gəldilər. Çox götür-qoydan və mübahisədən sonra məndən bir çətinliklə də olsa razılığımı aldılar.

## Toy məclisinə hazırlıq

1964-cü ilin əvvəllərində Matan xanıma dəm-dəstgahla nişan gəldi. Ona nişan üzüyü taxıldı. Əlbəttə, bir qardaş kimi /həm də böyük kimi/ bacımın xoşbəxtliyi mənə də ruh verirdi. İndi mənim əsas vəzifəm toya hazırlıq görmək idi. Bundan ötrü biz Bakının Əli Bayramov küçəsindəki mebel mağazasına gedib ilk cehiz əşyaları alaraq 5-ci mikrorayona yollandıq. Sonralar isə Matanın qalan cehizini alıb düzəltdim. Bir sözlə bir otaqlı mənzilimiz əşya ilə dolmuşdu.

**Haşiyə:** Onu da qeyd edim ki, Matanın nişanlısı Orucəli kasıb ailədən idi. Atasız böyümüşdü. Toyuna yaxın onun anası da vəfat etdi. Daha doğrusu o, kimsəsiz hesab olunurdu. Orucəlinin təkcə dayıları qalmışdı.

1964-cü ilin oktyabr ayının 10-da Matanın toy şənliyi oldu. Dayım İsmayıl və böyük qardaşım Əli məclisə şənlik gətirmişdilər. Nəhayət, Matanın, necə deyərlər, ata evindən



köçməsi vaxtı gəlib çatdı. «Volqa» maşını həyətdə fit verməkdən yorulmurdu... Məclisdəkilər və qonşularımız Orucəliyə və Matana xeyir-dua verirdilər.

-Xoşbəxt olsunlar, qoşa qarısınlar!

Bacım Matan ata evindən köçdükdən sonra ona ürəyi istədiyi «cehiz əşyaları»nı da verdim. Demək olar ki, iynə-sapa kimi o, yaşadığımız mənzildən apardı. Lakin, Matan aldığı mənzildə daimi qeydiyyatda qalmayaraq, tezliklə ərizə verib mənzil-yaşayış idarəsinin dəftərindən könüllü silindi. Bunu belə etməkdə əsas məqsədi ögey anaya, qardaşa və bacıya sığınacaq yeri düzəltmək idi. Matan və mən öz xoşbəxtliyimizdən çox atadan qalan uşaqların xoşbəxtliyini istəyirdik. Bizim ailədə «ögey» kəlməsi işlənmirdi. Çünki bizə tərbiyə çox köklü verilmişdi. Hətta bizim yanımızda «ögey» kəlməsini işlədənə acığımız tutardı.

Nə isə... 1966-cı ilin sentyabr ayından etibarən analığımız ögey qardaş və bacımız 5-ci mikrorayondakı binada mənimlə birgə yaşamağa başladılar.

Bacım Matanın köçdüyü mənzil o qədər də fərli deyildi. Onun əri Orucəli özünü mənim yanımda sındırmamaq üçün 3-cü mikrorayonun aşağı «Naxalstroy» hissəsində, hərbi hospitala yaxın /oraya «Xutor» da deyilirdi/, çox da münbit olmayan kirayə otağı tutmuşdu. Nə etmək olar... Həyatda gərək əziyyət çəkəsən ki, bəhrəsini də görəsən. Bəli, Matan xanım özünün halal zəhməti hesabına 5-ci mikrorayonda aldığı mənzili ögey anasına, qardaş və bacısına verib, özü isə qeyri-münasib bir otaqda həyat sürürdü.

Qərəz... Bir gün el adətimizə görə bacım Matan və Orucəli ağsaqqal kimi «ayaq açdı» məqsədilə məni yaşadıqları mənzilə qonaq dəvət etdilər. Əlbəttə mən onların xahişini yerinə yetirməli idim. Elə də etdim.

* * *

Bacım Ramizənin vəfatından sonra bizim qarşımızda məsuliyyətli vəzifə dururdu. Şuşada hökumət evini təhvil vermək və uşaqları Bakıya köçürmək. Elə də etdik.

1966-cı ilin avqust ayından analığımızı, ögey qardaş və bacımızı Bakıya köçürdük. Onu da qeyd edim ki, həmin ildən etibarən 5-ci mikrorayondakı bir otaqlı mənzilimizi çox çətinliklə analığımız Hürünün adına yazdırdım. O vaxta kimi həmin mənzil mənim adımda idi və mən mənzildə tək yaşayırdım. Mənzili analığımızın adına keçirdikdən sonra işlədiyim idarədə mənzil uçotuna durdum.

Beləliklə də, biz Bakıda birgə həyat sürməyə başladıq. Həmin ilin sentyabrından ögey bacı və qardaşımızı 5-ci mikrorayondakı orta məktəbin 5 və 7-ci siniflərinə yerləşdirdim.

* * *

Yaşadığımız mənzildə Şuşadan gətirdiyimiz əşyalar və yorğan-döşəklər elə yığılmışdı ki, otağımız bizə darısqallıq edirdi. Mən otağın baş tərəfində yorğan-döşəkləri və digər əşyaları elə yerləşdirmişdim ki, az qalırdı ki, lampəyə çatsın. Təsəvvür edin... 100 illik tarixə malik olan bir mülkün əşyaları... Ayrı yolum da yox idi.

Hələ atamın şəxsi mülkündəki bir sıra tarixi əşyaları onun adından respublikanın bir neçə dövlət muzeylərinə hədiyyə vermişdim. Onun şəxsi arxivindəki əlyazmalarını isə çox çətinliklə Bakıya gətirdim. 1964-cü ildən etibarən atamın həyat və yaradıcılığı ilə əlaqədar tədqiqat aparmağa başladım.

Həqiqətən də mənim formalaşmağımda və kamil bir insan olmağımda atam və ilk əlifba müəllimim Mirzə Xosrov Axundzadənin böyük əməyi olmuşdur. Buna görə də mən heç vaxt onun əməyini itirməyərək, həyat və yaradıcılığı ilə 40 ildən artıqdır ki, məşğul oluram. Belə ki, 1976-cı ildə ilk dəfə olaraq «Gənclik» nəşriyyatı tərəfindən Mirzə Xosrovun həyat və yaradıcılığına aid «Mənalı həyat» adlı kitabçam kütləvi surətdə satışa buraxılmışdır. Əlbəttə, mən bununla fəxr edirəm!

* * *

Mən artıq həddi-buluğa çatmışdım. Həmin dövrdə mənim 28 yaşım var idi. Böyük bacım Matan xanım hərdən məni məzəmmət edirdi ki, evlənmək lazımdır. Mənim xoşbəxtliyimi



mərhum bacım Ramizə səbirsizliklə gözləyirdi. Təəssüf ki, o, bunu görə bilmədi.

Məni hərdən dost-tanışlar da məzəmmətləyirdi. Hətta bir gün dostum, gənc şair Əjdər Qiyaslı bizdə qonaq olanda mənim subaylığıma bir şer də həsr etmişdi. Həmin şeri əlyazmama daxil edirəm:

**Bəsdir, subaylığın gəl at daşını!**

*Bir mehriban dostum söylədi mənə,*
*Nə kömək lazımsa qoy edim sənə,*
*Yaxın dostun kimi, deyirəm, yenə,*
*Bəsdir, subaylığın gəl at daşını!*

*Dedi saçlarına əgər düşsə dən,*
*Onda olmayacaq səni bəyənən,*
*Gəl çıxma dostunun məsləhətindən,*
*Dostum, subaylığın gəl at daşını!*

*Subaylıq sultanlıq olsa da əgər,*
*Qiymətli nə olar evlənmək qədər;*
*Onsuz bu dünyada yaşamaz bəşər,*
*Dostum, subaylığın gəl at daşını!*

*Keçirib boynuma nənəm qolunu,*
*Dedi, gəlib çatır ömrümün sonu,*
*Görmək istəyirəm sənin toyunu*
*Oğlum, subaylığın gəl at daşını!*

*Daraya-daraya anam saçını,*
*Dedi çox görmüşəm şirin-acını,*
*Sevindir, atanı, qardaş-bacını,*
*Oğlum, subaylığın gəl at daşını!*

*Sevirəm əzəldən qara gözləri,*
*Mənə uymasa da hər gözəl pəri,*
*Duydum baxışlardan mən bu sözləri*
*Oğlan, subaylığın gəl at daşını!*

*Eşitdim bu sözü uzaq, yaxından,*
*Qarabağ düzündən, gül yarpağından,*
*Cavab da almışam gənclik çağından,*
*Oğlan, subaylığın gəl at daşını!*

*Bir an ayrı belə düşməmişəm mən,*
*Öz təmiz eşqimdən, saf diləyimdən,*
*Ucaldı bu sözlər öz ürəyimdən,*
*Vaxtdır, subaylığın gəl at daşını!*

Mənə həsr edilən bu şer mənim evlənməyimə böyük təsir etdi. 1973-cü ildən etibarən ailə həyatı qurdum.

**(1-ci hissənin sonu)**



## Universitet həyatımdan xatirələrim
## (İkinci hissə)

1959-cu ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu ləğv olunduqdan sonra bizim «Əmtəəşünaslıq" fakültəsini Azərbaycan Dövlət Universitetinin tərkibinə verdilər. Həmin ilin sentyabr ayından etibarən universitetdə təhsil almağa başladıq. Doğrudan da, belə nəhəng bir institutun dağıdılması bütün respublikaya böyük bir zərbə idi. Bunun nəticəsində də institutun ziyalı kollektivi pərən-pərən oldu. İçərimizdə olan bir qrup nankor adamlar indi də Azərbaycan Dövlət İqtisad Universitetini dağıtmaq istərdilər. Lakin artıq gücləri çatmır. Çünki, universitetə tanınmış iqtisadçı alim, iqtisad elmləri doktoru, professor Şəmsəddin Hümmət oğlu Hacıyev başçılıq edir.

***

Mən Azərbaycan Dövlət Universitetində təhsil aldığım illəri heç vaxt unuda bilmirəm. Doğrudan da, universitet həyatı tamam başqa bir şeydir. Bizim dövrümüzdə universitetdə təhsil almaq sanki tələbələrin fəxri sayılırdı. Ona görə ki, 60-cı illərdə Azərbaycanda, eləcədə SSRİ-nin böyük şəhərlərində universitetlər barmaqla göstərilirdi.

İndi isə şəhərlərdə, xüsusilə də Azərbaycanda nə qədər istəsən universitet sadalamaq olar. Buna görə də Bakı Dövlət Universiteti özəl universitetlər içərisində itib batır...

Qərəz... fikrimi bir az uzaqlışdırdım... Sözümün kökü vardır. Əsas məqsədim tələbəlik illərindən gedir. Bu illərdə ki, tələbələr hazırki tələbələrə nisbətən daha fəallıq göstərirdilər. Universitetin başqa fakültələrində olduğu kimi bizim «Ticarətin iqtisadiyyatı» fakültəsindən də qabaqcıl tələbələri irəli çəkirdilər. Belə fəal tələbələrdən biri də mən idim. 1961-ci ildən etibarən təşkilatçılıq fəaliyyətimi nəzərə alıb məni Universitetin Həmkarlar İttifaqı Komitəsinin büro üzvü seçdilər. Həmkarlar Komitəsində mən «Mədəni-kütləvi işlərə» sədrlik edirdim.

1962-1963-cü illərdə mənim təşkilatçılıq bacarığımı nəzərə alıb Həmkarlar İttifaqı Komitəsinin sədri Fəridə xanım Sultanzadə məni universitetin «Akt zalı»nın müdiri təyin etdi. O vaxta kimi «Akt zalı»nın nəzdində fəaliyyətdə olan kluba Ağaismayıl rəhbərlik edirdi.

Həmkarlar İttifaqı Komitəsi «Təhvil-təslim komissiyası» təşkil edib klubun maddi vəsaitlərini mənə təhvil verdi. Həmin illərdən mən geniş fəaliyyətə başladım. Demək olar ki, bir ilin içində klubda böyük bir canlanma əmələ gəldi. Belə ki, universitetin «Sevinc» ansamblı (rəhbəri respublikanın xalq artisti Əlibaba Abdullayev idi), xalq çalğı alətləri ansamblı (rəhbəri Məmmədağa Məmmədov idi) və «Gənclik» teatrı özlərinin repertuarları ilə tamaşaçıların rəğbətini qazanmışdılar. Onlar qış tətili günlərində Moskvanın ali məktəblərində təhsil alan tələbələr qarşısında çıxışlar edərdilər. Ansamblın konsert proqramının əsasını xalq musiqisi əsasında hazırlanmış «Dostluq suitası» təşkil edirdi.

1963-cü ilin 12 fevral tarixli Azərbaycan Dövlət Universitetinin çox tirajlı qəzetində dərc olunan «Sevinc sevinc gətirdi» məqaləsində yazılmışdı:

-Azərbaycan xalqının bu günkü firavan həyatı haqqında bəstəkar Qara Qarayevin mahnısı əzəmətlə səslənir. Bu mahnını Sovet İttifaqı xalqlarının və həmçinin bir çox başqa ölkələrin milli geyimində olan oğlan və qızları oxuyurdular. Yanvar ayının 30-da Moskvanın Patris Lumumba adına Xalqlar Dostluğu Universitetinin klubunda «Sevinc» rəqs ansamblının birinci konserti həmin mahnı ilə başlandı.

Gənclərin və tələbələrin IV Ümumdünya festivalının laureatı adına layiq görülmüş bu ansambl Moskvada böyük şöhrət qazanmışdır. Təsadüfi deyildir ki, Xalqlar Dostluğu Universitetində təhsil alan 80 ölkənin tələbələri kollektivin çıxışlarına böyük maraq göstərmişlər.

Qeyd etmək olar ki, universitetin istedadlı tələbələri çox həvəslə adını çəkdiyim ansambllara üzv yazılırdılar. Belə tələbələrdən biri də ADU-nun «Filologiya» fakültəsinin I



kursunda təhsil alan (hazırda Respublikanın xalq artisti) İlhamə Quliyeva idi.

***

Təhsil aldığımız illərdə Tələbə Elmi Cəmiyyəti xətti ilə maraqlı tədqiqatlar aparmışıq və buna görə də aldığımız təhsil yüksək səviyyədə olmuşdur.

Biz təhsil müddətində əsl tələbəlik həyatı keçirirdik. Günümüzün çox hissəsi «Əmtəəşünaslıq» fakültəsinin əsaslı kitabxanasında (o vaxtlar fakültəmizin binası Bakının keçmiş Kirov prospektində yerləşirdi) keçirdi. Laborator dərslərimiz 4 saat müddətində aparılırdı. Bizim 294 saylı qrupun dərslərini baş müəllim Adil Kazımov keçirdi.

Biz təhsilə o qədər məsuliyyətlə yanaşırdıq ki, laboratoriya məşğələsində elə bil ki, bir problem üzrə tədqiqat aparırdıq. Elə buna görə də mənim diplom işim müdafiə vaxtı «əla» qiymətə layiq görülmüşdür. Belə ki, mən diplom işimdə elə təkliflər irəli sürmüşdüm ki, həmin təkliflərdən insan sağlamlığı üçün istifadə olunmuşdur. Buna təkcə bir misal çəkmək kifayət edərdi.

-Bildirmək istərdim ki, mənim diplom mövzum «Azərbaycan balı, tərkibi və keyfiyyət göstəriciləri» adlanırdı. Mən bunu Qarabağ balının misalında yazırdım. Bu məqsədlə də ana vətənim Şuşadan bir qədər təbii bal gətirib onu laboratoriyamızda təhlil etdim. Nəticədə Şuşa balından 87% təbii şəkər aşkara çıxardım. Hətta maraqlı və sanballı tədqiqatımla əlaqədar olaraq 1963-cü ildə «Bal ye, sağlam ol!» başlığında dövlət mətbuatında məqaləm də nəşr olunmuşdur.[x)]

-1963-cü ilin iyun ayında diplom müdafiəsi zamanı «Əmtəəşünaslıq» fakültəsinin dekanı dos. Soltan Salmanov arı zəhərinin müalicəvi əhəmiyyəti haqqındakı qeydlərimə diqqətlə qulaq asırdı. Birdən o, ayaq üstə durub əlavə etdi:

–Pərviz bala, çıxışların çox xoşuma gəldi. Sənin diplomunda arı zəhərinin mualicəvi əhəmiyyəti deyəsən mənim də işimə

x) Qeyd: Həmin məqaləm «Azərbaycan qadını» jurnalının 1963-cü il, 3 saylı nömrəsində nəşr olunmuşdur.

yarayacaq. Əgər mümkünsə arı «nəcisi»ndən bir azca mənə gətirərsən.

Mən arı «nəcisi»ndən bir az tapıb Soltan müəllimə gətirdim. Bir neçə gündən sonra Soltan müəllimin boyun nahiyyəsindəki «çiban» tamamilə ləğv olundu və mənə öz təşəkkürünü bildirdi. Müdafiəmdən sonra 2-ci bir məqaləm universitetin çox tiraclı qəzetində dərc olundu*.

Bir sözlə, bütün bunlar Universitet həyatımda silinməz izlərlə bağlıdır. Arzu edirəm ki, indiki tələbə gənclərimiz də elmi biliklərə yiyələnməkdə bizim yolumuzu davam etdirsinlər!

**(2-ci hissənin sonu)**

* Həmin məqaləm «Əhəmiyyətli qida məhsulu» başlığında ADU-nun «Lenin tərbiyəsi uğrunda» qəzetinin 19 iyun, 1963-cü il tarixli nömrəsində dərc olunmuşdur.



## Kiyev xatirələrim
### *(üçüncü hissə)*

1979-cu ildən 1981-ci ilin axırına kimi mən Ukrayna Respublikasının paytaxtı Kiyev şəhərində ayrı-ayrı fəsillərdə dissertasiya işimlə əlaqədar olaraq yaşamışam. Demək olar ki, həyatımda mənə Kiyev kimi iz buraxan şəhər olmamışdır.

Əvvəla, onu deyə bilərəm ki, Kiyev təmizliyinə və yaşıllığına görə Avropada 2-ci şəhər hesab olunurdu. Həmin illərdə Kiyevdə həyat sürmək nə qədər də xoşbəxtlik sayılırdı. Belə ki, ərzaq məhsulları ucuz və keyfiyyətli idi. Nə istəyirsən şəhərdə tapmaq mümkün olurdu.

Şəhər başdan-başa çilçıraqla yanırdı. Xoşbəxtlikdən mənim yaşadığım bina şəhərin şimal-qərbində – «Pionerski» metro stansiyasına yaxın yerləşirdi. Yaşadığım ünvan Milyutenko küçəsindəki 2 №-li tələbə olimpiya yataqxanasının birinci mərtəbəsində yerləşirdi.

Mən Kiyev şəhərinin gözəlliyinə o qədər aludə idim ki, onun ab-havasını seyr etməkdən sanki doymurdum. Yaşadığım 2 №-li tələbə yataqxanasında tədqiqatımı aparmaq üçün mənə ayrıca olaraq, 3 otaqlı mənzil verilmişdi. Demək olar ki, həmin müddətdə mən dissertasiya işimi Ukrayna Respublikasının materiallarına uyğunlaşdırmışdım.

Onu da qeyd edim ki, ixtisasım üzrə müdafiə şurası Moskva tərəfindən ləğv olunduğuna görə mənim iki şəhərdə (Moskva və ya Kiyevdə) müdafiə etmək hüququm vardı. Buna görə də mən Kiyev şəhərində müdafiə etmək qərarına gəldim.

1979-cu ilin avqust ayının 3-də elmi rəhbərim, iqtisad elmləri namizədi, professor Məmmədəli Zeynalov qəflətən vəfat etdi. Əlbəttə, bu faciəli hadisə hamıdan çox mənə ağır təsir etdi. Xoşbəxtliyim onda olmuşdur ki, elmi rəhbərim dissertasiyama rəsmi rəy yazıb vermişdir.

Bununla əlaqədar olaraq, sənədlərimi hazırlayıb 1979-cu ildə ezamiyyət vərəqəsi ilə Kiyevə yola düşdüm.

Kiyev Ticarət-İqtisad İnstitutunun «Ticarətin təşkili» kafedrasında müvəqqəti dissertant təyin olundum. Həmin kafedranın müdiri, iqtisad elmləri namizədi, dosent Korolkov İvan İvanoviç idi.

Mən kafedra ilə ilk tanışlıqda özümü həddindən artıq məsuliyyətli sayırdım. Onu da qeyd edə bilərəm ki, mənim mütəxəssis kimi yetişməyimdə kafedranın çox mühüm rolu olmuşdur.

Dissertant olduğum müddətdə keçdiyim «Ticarətin təşkili» və «Ticarətin texnikası» fənlərindən mühazirə aparan alimlərin dərslərində iştirak edirdim və bəzən də məşğələ dərslərini özüm aparırdım.

**Haşiyə:** Həyatımda birinci ən çətin an 1968-ci ilin yay fəslində Şuşanın Daşaltı çayından keçərkən İbrahim Xəlil xanın malikəsindən çıxıb Üç mıxa doğru qalxıb sıldırım qayanın ucqar nöqtəsindən keçmək olmuşdur. Həmin anda gözlərim qaralmış, qorxudan ayaqlarım titrəmişdi. Soyuq tər məni basmışdı.

Həyatımın ikinci çətin anı 1980-ci ilin noyabr ayının 21-də dissertasiyamın müdafiə günündə olub. Həmin gün Kiyev Ticarət-İqtisad İnstitutunun akt zalında yerlər tamamilə tutulmuşdu. 15 dəqiqədən sonra müdafiə edəcəkdim. Məndən əvvəl vyetnamlı aspirant müdafiə etdi. Birdən yadıma düşdü ki, Elmi şuranın üzvlərinə hörmət əlaməti olaraq avtoreferat gətirməmişəm. Xoşbəxtlikdən yaşadığım yataqxana İnstitutdan o qədər də uzaq deyildi.

Avtoreferatımın yataqxanada qalması məni çaş-baş salmışdı. Həmin günü Kiyev şəhəri başdan-başa qarla örtülmüşdü. Hava o qədər sakit idi ki, yolu yüyürdükcə ağ qar aramla xışıldayaraq səsindən elə bil musiqi sədası əks olunurdu.

Bir anlığa yataqxanadakı mənzilimdən 30 ədəd avtoreferat götürüb İnstituta təcili qayıtdım. Müdafiə zalının qapısına çathaçatda hiss edirdim ki, müdafiə şurasının üzvləri artıq məni gözləyirlər.

Təsəvvür edə bilmirəm ki, mən necə xitabət kürsüsünün qarşısına çıxdım. Yataqxanadan İnstituta necə çatmışdımsa soyuq və isti tər məni basmışdı. Qəflətən qaçış ürəyimi də titrətmişdi.



Bu anda 1-ci apponentim, Ukrayna Respublikasının əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Liniyçuk Yakov Ustinoviç pərişan vəziyyətimi hiss edib mənə toxtaqlıq verdi. Mən bütün enerjimi toplayıb çıxış etməyə başladım. Xitabət kürsüsündə artıq ayaqlarımın diz oynaqları tutulmuşdu.

Nəhayət, həsrətində olduğum dəqiqə gəlib çatdı... xoşbəxtlik ulduzu mənə qismət oldu... Kiyev Ticarət-İqtisad İnstitutunun müdafiə şurasının sədri İvanitski Aleksandr İvanoviç gizli səsvermənin nəticəsini elan etdi. Sonra isə mənə iqtisad elmləri namizədi alimlik dərəcəsi verilməsi qərara alındı.

Bu anda mənim sevincimin həddi-hüdudu yox idi... mən pilləkənlərlə şütüyüb Xreşatik küçəsindəki mərkəzi şəhərlərarası avtomat danışıq məntəqəsindən Bakıya zəng edib ailəmə şad xəbəri verdim. Həmin günün axşamı isə Kiyevin Passaj kolxoz bazarına yaxın bir alimin evində (həmin alim vyetnamlı aspirantın elmi rəhbəri idi) vyetnamlının və mənim şərəfimə təntənəli yığıncaq keçirildi.

Deməki olar ki, sevincimdən və iztirabdan ayaqlarımın oynaqlarının tutulmasının nəticəsi hal-hazıra kimi də mənim ayaq-damar sistemində arada bir özünü biruzə verir. Lakin Kiyev şəhərindəki şərəfli müdafiə günümü xatırladıqca mənim elmə olan həvəsim daha da artır.

**(3-cü hissənin sonu)**

***27.11.1994-cü il.***

## Çexoslovakiya Respublikasına turist səfərim haqqında

1983-cü ilin yay əmək semestrində «Ticarət-83» dəmir yolu tələbə dəstəsinin qabaqcıl bir komissarı kimi fəaliyyət göstərməyimə görə Azərbaycan LKGİ MK-nın Respublika Tələbə Dəstəsi Qərargahının rəhbərliyi məni Çexoslovakiya Respublikasına turist səfərinə göndərilməyi məsləhət bilmişdi. Bununla əlaqədar olaraq, mən 1984-cü ilin fevral ayının 19-dan mart ayının 5-nə kimi Çexoslovakiya SSR-də turist səfərində olmuşam. Demək olar ki, bu səfər Avropa sosialist ölkələrinə ilk səfərim idi. Turist xəritəmizdə Praqa, Bıstrisa, Karlovı-Varı və Banskim-Bıstrisa şəhərləri nəzərdə tutulmuşdu. Bizim qrupun rəhbəri Azərbaycan LKGİ MK-nın şöbə müdiri Rafiq Əli oğlu Məmmədov təyin olunmuşdu. Mən isə onun müavini idim.

Ümumiyyətlə, Çexoslovakiyanı turistlər diyarı adlandırmışdılar. Buraya hər il dünyanın müxtəlif ölkələrindən on minlərlə turist gəlirdi.

Biz fevral ayının 22-də SSRİ ilə Çexoslovakiya Respublikası arasında sərhəd şəhəri olan Çopa kimi qatarla gəldik. Sonra isə qrupumuza ayrılan «İkarus» avtobusuna minib Çexoslovakiyanın bir sıra şəhər və kəndlərinə seyrə çıxdıq. İlk dayanacağımız Koşitse Bıstriça və Trançik şəhərləri oldu. Həmin şəhərdə «Fimma» adlı mehmanxanada gecələdik. Sonra növbəti səfərimiz Çexoslovakiyanın dünyada məşhur kurort şəhərlərindən biri olan Karlovı-Varı şəhərinin «Alise» mehmanxanasında demək olar ki, iki gün istirahət etdik.

Doğrudan da, nə gözəl şəhərdir. Biz qış mövsümündə getdiyimizə görə şəhəri başdan-başa tam təsəvvür edə bilmirdik. Lakin buna baxmayaraq şəhər özü-özünü turistlərə göstərirdi. Mehmanxanamız Atel parkına bilavasitə həmahəng idi. Parkda aşağı endikdə, adam sanki özünü bir anlığa cənnətdə hiss edirdi. Nə qədər qar yağsa da təbiətin füsunkar gözəlliyi turistləri özünə cəlb edirdi.



Karlovı-Varı kurort şəhərini məşhurlaşdıran əsas amillərdən biri də mövsümdən asılı olmayaraq onun göz yaşı kimi parlaq və suyunun rəngi mavi səmaya bənzər su hövzəsinin olmasıdır. Burada hərtərəfli şəraiti olan çimərlik təşkil olunmuşdur. Hər kəs orada çiməndən sonra kənara çıxırsa elə bil doğrudan da bədənindəki bütün ağrıları yoxa çıxardı.

Karlovı-Varı şəhərinin əhalisi təqribən 60 min nəfərdir. Şəhər sıldırım dağlarla əhatə olunmuşdur. Bu şəhərdə hər addımda insana şəfa verən su bulaqları vardır.

Məsələn, biz «Atel» parkından aşağı, şəhərin mərkəzinə doğru irəlilədikcə çox maraqlı isti suyu olan təbii «şəfa bulağı» ilə rastlaşdıq. Deyilənə görə, həmin bulaqdan kim əl-üzünü yuyar-sa, onun ürəyindəki bütün dərd-qəmlər yox olardı. Yaxud da qa-dınlar ərə gedər və ya uşaqdan məhrum olan qadınların tezliklə uşağı olardı və s. Maraqlıdır ki, termometrin sütunu mənfi selsini göstərən şəhərdə şəfa bulağının suyu heç vaxt soyumazdı.

Karlovı-Varı şəhərindən sonra 30 minlik əhaliyə malik Sokol şəhərinə yollandıq. Fevral ayının 26-da Mariana-Lazni şəhərinə gəldik. Bu şəhərin də ab-havası və ümumi görünüşü çox gözəl idi.

Fevral ayının 27-dən martın 2-nə kimi Çexoslovakiyanın mərkəzi Praqa şəhərində qaldıq. Biz «Uniem» mehmanxanasında dincəlirdik.

Praqa şəhərinin ümumi görkəmi, sanki bizim Bakını xatırladırdı. Şəhərdəki köhnə binaların daşları eyni ilə Bakıdakı kimi qaralmışdı və şəhərin havası tutqun görünürdü.

Praqa şəhəri əbədi gənclik şəhəri adlanırdı. Şəhərin görkəmli və gəzməli yerləri necə də çoxdur… Kim istəməzdi ki, XIV əsrin Praqasının bir hissəsini görməsin. Əsrin yadigarı kimi qədim şəhərdə monumental kilsə yerləşir. Monumental kilsənin pəncərəsindən çıxan Karlov körpüsündən biz təkraredilməz qədim şəhərin binalarını gördük. Onu yaxın vaxtlarda arxitektura doktoru Oldrcix Qora yenidən rekonstruksiya etmişdir. Həmin kilsə 1900-cü ildə tikilmişdir.

Praqa şəhərində indiyə kimi qədim qala mədəniyyəti ilə bağlı kilsə və saraylar, XIX əsrin ikinci yarısının orijinal binaları

qorunub saxlanılır. Təkcə şəhərin mərkəzində 2 min arxitektura abidələrinin olması hesablanmışdır. Xalq hökuməti onları dövlət abidə qoruğuna çevirmişdir. 1971-ci ildə hökumət Praqanın tarixi mərkəzinin 90 hektar sahəsini arxitektura qoruğu yerinə çevirmək üçün xüsusi qərar qəbul etmişdir.

Biz Aneja monastrlığında olduq. Onun zalı XIX əsr Çexoslovakiya rəssamı tərəfindən ekspozisiya ilə zənginləşdirilmişdir. Binanın pəncərəsi iki stildə – Roma və Avropada çox geniş yayılmış arxitektura stili ilə yerinə yetirilmişdir. Elə buradan da Çexoslovakiyanın arxitektura epoxası başlanır.

Praqa şəhərində mən ÇSSR-nin Qara Metallurgiya Sənayesinin direktoru Miloslav Doleyş yoldaşın qəbulunda oldum. O, mənim ata qohumum, əməkdar neftçi Ənvər Həsənovun dostu idi. Buna görə də mən Bakıdan çıxanda Ənvərin yoldaşlıq məktubunu ona çatdırmalı idim. Elə də etdim. Miloslav Doleyş yoldaşın idarəsi Praqa şəhəri Ferromet, Opletalova küçəsi № 27-də yerləşirdi. Mən özümlə qrupumuzdan Yaşar adında bir nəfər də aparmışdım. Miloslav Doleyş bizim Ba-kıdan gəlməyimizi eşidib çox sevindi. Əvvəlcə onun köməkçisi Milada adında qadın bizim qarşımıza çıxdı.

Milada Kotsorkova mühəndis vəzifəsində işləyirdi. O, bizi təqdim etdikdə Miloslav Doleyş bizə yer göstərib, əyləşməyimizi təklif etdi. Sonra o dedi:

- Mən Bakını və onun adamlarını çox sevirəm, onlar çox mehribandılar.

Xeyli mehribancasına söhbət etdikdən sonra gətirdiyim məktubu və «kiçik suveniri» ona və Miladaya hədiyyə verdim. Bu da bizim Çexoslovakiya – Azərbaycan dostluğunun rəmzi idi.

Miloslav Doleyş yoldaş nahar etmək üçün bizi Praqanın İndirxcitsa küçəsində yerləşən «Drujba» restoranına dəvət etdi. Həmin restoran şəhərin ən iri və birinci kateqoriyalı qızıl restoranı adlanırdı. Bu da ondan irəli gəlirdi ki, restoran arxitektura cəhətdən tarixi abidə binası idi və binanın başlığında qızıldan düzəltdirilmiş milli ənənə rəmzi vardı. Doğrudan da, restoranda bizə çox əla mədəni iaşə xidməti göstərildi.



Biz axırda Miloslav Doleyş və Kotsorkova Milada yoldaşlarla birlikdə Praqanın Vatslavratslavska meydançasında şəkil də çəkdirdik*.

Mart ayının 2-də Slovakiya Respublikasının mərkəzi Bratislava şəhərinədə olduq. Orada bizi «Sputnik-SKM» gənclik mehmanxanasında yerləşdirdilər. Biz orada bir gün dincəldikdən sonra martın 4-də SSRİ Ali Sovetinə seçkilərlə əlaqədar olaraq yenidən Praqa şəhərinə qayıdıb Sovet-Çexoslovakiya səfirliyində səsvermədə iştirak etdik. Gecəni «Metal» mehmanxanasında qaldıqdan sonra yenidən vətənə yola düşdük. Biz Praqa şəhərindən ayrıldıqda yolumuz başqa şəhər və kəndlərin içərisindən keçirdi. Yollar necə də geniş və yaraşıqlı idi. «İkarus» markalı avtobusumuzda kimisi dama, kimisi domino oynayır, kimisi maqnitofon lenti oxudurdu. Sanki musiqi sədaları altında yollar getdikcə qısalırdı... Avtobusumuz Çexoslovakiyanın Slatina kəndində nasazlıq səbəbindən dayandı. Biz avtobusdan düşüb kəndlə və onların adamları ilə tanışlığa başladıq. Mən kəndin əməkçiləri ilə, onların məşğul olduqları təsərrüfatla maraqlandım. Onların bizə olan dostluq münasibətlərini hiss etdim. Mən kəndin bir ailəsinin bağçılıq təsərrüfatı ilə yaxından tanış oldum. Həmin ailənin başçısı Moyzec Karol adında şəxs mehribançılığımızı hiss edib bizi evinə qonaq dəvət etdi. Doğrusu, avtobumuzdan uzaqlaşmaq istəmirdik. Çox götür-qoydan sonra Karolun xahişini qəbul etdik. Doğrudan da, həmin ailənin şəxsi təsərrüfatından olan məhsullar mənə çox böyük təcrübə verdi. Biz yarım saat söhbətləşdikdən və xörək yedikdən sonra Karol və onun ailəsi ilə vidalaşdıq. Avtobusumuz artıq Çexoslovakiya-Sovet sərhədindən ke-çərək Çop şəhərinə üz tutdu. Biz Çopda yenidən qatara minib Ki-yev şəhərinə yan aldıq. Martın 6-da Kiyevə çatdıq. Biz artıq vətə-nimizdə idik. Lakin gördüklərim və müşahidələrim heç vaxt unudulmayacaqdır...

***Bakı-Çexoslovakiya, mart, 1984-cü il.***

---

* Həmin şəkilin neqativini və onların mənə bağışladığı hədiyyəni şəxsi arxivimdə saxlayıram.

# Atam Mirzə Xosrov – Şaiq haqqında şəxsi xatirələrim

Mirzə Xosrov zəhmətkeş ziyalı bir ailədə anadan olmuşdur. Atası Mirzə Əli Aşiq çar zamanı həyatını xalq maarifinə həsr etmiş, sədaqətlə xalqın balalarına savad öyrədib tərbiyə vermiş bir müəllim idi.

Xosrov müəllimin yorulmaz səyi, ciddi əməyi hələ o zaman yüzlərlə mütəxəssislərin nəzərini cəlb etmişdir. Təbiidir ki, öz övladlarına da yaxşı hisslər və duyğular aşılamağa çalışmış, onları zəhmət sevən, xoş xasiyyət, xeyirxah və səbrli olmağa çağırmışdır. Bütün atalar, övladlarının yaxşı insan, xeyirli vətəndaş olmasını istər. Yalnız o atalar xoşbəxtdir ki, bu arzunun yerinə yetirildiyini görür, övladını bu cür böyüdə bilir. Xosrov müəllim belə atalardan idi.

Biz ailəmizdə iki qardaş və iki bacı idik. Atamızın ən böyük arzusu bizdən heç olmazsa birimizi müəllim görmək idi. Yadımdadır, bir dəfə ailəmizdə «Hansı sənət yaxşıdır?» sualı ətrafında mübahisə edirdik. Atam da söhbətimizin üstünə gəlib çıxdı. O, söhbətimizə bir qədər qulaq asdıqdan sonra:

Sənətlərin, peşələrin hamısı yaxşıdır. Həkim, aqronom, mühəndis, rəssam, təyyarəçi, hüquqşünas olsun, fərqi yoxdur. Amma mənə görə müəllimlik sənəti daha üstündür. Müəllimlik şərəfli peşədir, müəllim el ağsaqqalıdır. Mənim də arzum budur ki, iki oğlumdan biri – Pərviz müəllim olsun. Həm də elə bir müəllim olsun ki, hamı ona əhsən desin…

Hələ mən, Şuşada orta məktəbdə oxuduğum illərdə Azərbaycan ədəbiyyatının görkəmli şair və yazıçılarının əsərlərini sevə-sevə oxuyardım. Atam Mirzə Xosrov mənə ədəbiyyat aləminin sirlərini öyrədər, gələcəkdə oğlunun da bu sahədə çalışmasını arzu edərdi.

Yaxşı yadımdadır, bir dəfə məktəbimizdə ədəbi gecə keçirirdik. Mən də şer deməli idim. Atam da bu gecədə iştirak edirdi. Növbə mənə çatdı. Səhnəyə çıxdım. Füzulinin «Məni candan usandırdı, cəfadan yar usanmazmı?» rədifli qəzəlini özüm bilən kimi ucadan oxudum. Bu anda atam səhnədə göründü, gülümsəyərək Füzulinin qəzəlini yüksək bir ustalıqla oxudu və əlavə etdi ki, oğul şeri belə vurğu ilə oxuyarlar. Salondakılar atamı alqışladılar. O gündən sonra mən klassiklərimizin şerlərini sevə-sevə, zövqlə oxumağa başladım.



Mən atam haqqında çox söz deyə bilərəm. O, mənim xatirimdə sadə, dəbdəbəli geyinməyi sevməyən bir adam kimi qalmışdır. Eyni bir kostyumu və köynəyi uzun müddət elə geyərdi ki, sanki elə bil ki, dünən mağazadan alınmışdı. Atam heç vaxt bahalı yun parçadan kostyum geyməzdi. Belə başa düşməyin ki, o, xəsislik edirdi. Heç də yox. Əksinə, övladlarının yaxşı və səliqəli geyinməsini istərdi. Atamdan soruşduqda nə üçün kostyumlarını geyinmirsən? O, belə cavab verərdi:

-Siz yaxşı geyinin, mənimlə işiniz yoxdur. Qoy mənim pambıq parçadan olan kostyumuma gülsünlər, təki savadsızlığıma gülməsinlər. Bilik hər kəsin yanında adamı hörmətə qaldırır. Doğrudan da atam nə vaxt Bakıya bizim evə qonaq gələrdi, onun gəlməsini eşidən və ona dərindən hörmət bəsləyən alimlər gəlib onu evimizdən həmişə aparardılar. Onun mənalı və duzlu söhbətindən həzz alardılar. Belə şəxslərdən biri də akademik Həmid Araslı idi.

Mirzə Xosrov həmişə şirin yuxunu özünə haram edərdi. Gecələr hamının işığı sönür, küçədə ayaq səsləri kəslir; ancaq Xosrov müəllimin işığı səhərə kimi yanırdı. Ağ kağız üzərində gəzdirdiyi qələminin incə səsi ona musiqi kimi fərəh gətirir, qoluna qüvvət, iradəsinə mətinlik verirdi. Xosrov müəllim bir qayda olaraq dərsin planını həmişə qabaqcadan tutur, istifadə edəcəyi ədəbiyyatı müəyyənləşdirir, mövzunu hərtərəfli hazırlayırdı. Şagirdlərin mövzu ilə əlaqədar verə biləcəyi sualları təxmini müəyyənləşdirər və dərs zamanı bunları əhatə etməyə çalışardı. Onun belə səyi nəticəsində dərs dediyi siniflər həmişə yüksək mənimsəmə ilə fərqlənərdi.

Xosrov müəllim həyatının 71 ilini başa vurmuşdur. Bu illərin hər biri mənalarla ötüşmüş, sevimli müəllimin ömür təqvimini gözəl işlərlə, müqqədəs əməllərlə bəzəmişdir. Bu illər

Xosrov müəllimi elmin daşlı–kəsəkli cığırları ilə qaldırmış, onu arzularına doğru aparmışdır.

Xosrov müəllimin özünün zəngin kitabxanası var. Bu kitabxanada olan kitabların sayı 200-dən yuxarıdır. Onun kitabxanasından əgər istifadə edən varsa, həmin vaxt Xosrov müəllimə əhsən deyəcəkdir. Çünki, yaxşı kitabları oxumaq, keçmişin ən yaxşı adamları ilə söhbət etmək deməkdir.

Bəli, Xosrov müəllim xalq maarifi üçün doğulmuşdur. Azərbaycanda hələ sovet hakimiyyətinin ilk günlərindən qabaqcıl ziyalılar, müəllimlər məktəblərin, maarifin yenidən qurulması işinə can-başla qoşuldular. Maarif xadimləri içərisində Xosrov müəllim də var idi. Həmin illərdə o, Qarabağın bir çox qəzalarında savadsızların savadlandırılması üçün kursların açılmasında yorulmadan çalışmışdır. Şuşada «Ünas» və «Zükür» məktəblərinin təşkilində də Xosrov Axundzadənin əməyi az olmamışdır.

Xosrov Axundzadə dediyi dərslərin, oxuduğu mühazirələrin metodikasına böyük diqqət yetirərdi. Onun dərslərini başa düşməmək mümkün deyildi. Belə ki, Xosrov müəllim şagirdləri fəal işə cəlb etməyi və onların istedad və qabiliyyətlərindən istifadə etməyi bacarırdı. O, dərsdən xaric vaxtının çoxunu dərs dediyi sinifdə əyani vəsaitlərin təşkilinə sərf edərdi.

Xosrov müəllim çox ehtiras və həyəcanla dərs deyərdi. Onun mimikası, hərəkətləri dərsin əsas məzmununa uyğun olardı. O, eyni zamanda şagirdlərin də intizamlı olmasını, dərsi diqqət və ehtirasla dinləmələrini tələb edərdi. Sinfin intizamını dərsin keyfiyyəti üçün ən əsas şərtlərdən biri hesab edərdi.

Xosrov Axundzadə yaxşı müəllim olduğu kimi, yaxşı müəllim hazırlamağa da xüsusi diqqət yetirərdi. Sözün qısası desək, o, xalqa xidmət üçün, şagirdlər üçün, dünyada ən müqəddəs saydığı və pərəstiş etdiyi müəllimlik üçün yanmışdır.

Mən bir övlad kimi atam Mirzə Xosrov haqqında deyilən xatirələri və xoş sözləri toplamağı özümə borc bilmişəm. Mənə məlum olan faktlar göstərir ki, atam Mirzə Xosrov Şaiq təxəllüs, azəri ədəbiyyatı və azəri mədəniyyəti uğrunda kifayət qədər işlər görmüşdür. Qədir bilən xalqımız yeri gəldikcə Xosrov



müəllimin bu fəaliyyətini qiymətləndirmiş və onun adını ölməz sənətkarlar sırasında çəkmişdir.

O, canlı bir tarix kitabı kimi Şuşanın keçmiş və hazırki vəziyyətindən mənə çoxlu maraqlı sözlər danışardı... Onun aram-aram söhbətlərindən məlum olurdu ki, həqiqətən də keçdiyi şanlı həyat yolu həm mürəkkəb, həm də maraqlı olmuşdur.

Şəhər əhalisi Xosrov müəllimə hörmətlə yanaşardılar. Kimn nə çətinliyi olsa atam öz köməyini əsirgəməzdi.

Xosrov müəllim böyük bir nəslin tərbiyəçisi olmuşdur. O, 50 il pedaqoji fəaliyyətlə məşğul olmuş və 54 il ədəbi yaradıcılıq dövrü keçirmişdir. Mən xalqımızın sevimlisi Cəlil Məmmədquluzadə, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Süleyman Sani Axundov, Firudin bəy Köçərli, Mir Möhsün Nəvvab, Üzeyir Hacıbəyov haqqında kitablarda, mətbuatda oxuduqda və verilişləri radioda dinlədikdə özümü nə qədər xoşbəxt sanıram. Axı bir vaxt atam da adlarını çəkdiyim şəxslərlə ədəbi mühitdə olmuşdur. Buna görə də mən atamla fəxr etməyə haqlıyam. Bəziləri deyəcəkdir ki, əlbəttə, oğul atası ilə fəxr etməlidir də, ona görə ki, ona ata qayğısı göstərmişdir... Doğrudur, o, mənim həqiqi atamdır, lakin onun həyat və yaradıcılığı haqqında tədqiqat işi apardıqda onu atam kimi yox, xalqının carçısı kimi vətən naminə çalışmış bir pedaqoq və şair, tarixçi kimi göstərmişəm.

Mən bir də ona görə atamla fəxr edirəm ki, onun həyat yolu xalqın azadlığı uğrunda yorulmadan mübarizə aparan Hüsü Hacıyevlə bağlıdır. Mətin mübariz ilk «əlifba»nı Xosrov müəllimdən öyrənmişdir. Eləcə də respublikamızın yüzlərlə məktəb və elm ocaqlarında, idarə və müəssisələrində Xosrov müəllimin ilk «əlifba carçıları» vardır.

## Ədəbiyyat aləminə ilk addımım

1964-cü ilin iyun ayında mən atam Mirzə Xosrov Axundzadənin həyat və yaradıcılığına aid onun şəxsi arxivində olan real sənədlər əsasında böyük bir elmi məqalə hazırlamışdım. Doğrusu oğulun atanı qələmə alması və onun haqqında yazısı, ictimaiyyət qarşısında daha məsuliyyətli olmağı tələb edirdi. Heç özüm də başa düşə bilmirdim ki, atam haqqında /məqaləmin adı» Mirzə Xosrov Şaiq» adlanırdı/ yazdığım məqaləni «Ədəbiyyat və incəsənət» qəzeti redaksiyasına (bir müddət həmin binada «Ulduz» jurnalının redaksiyası yerləşdi) necə gətirdim.

Məni qəzetin məsul katibi, yazıçı Əlfi Qasımov qəbul etdi. Məqaləni ona təqdim etdim və o, oxumağa başladı. Sən demə 1959-cu ildə Mirzə Xosrov haqqında Əlfi Qasımov «İsa bulağı» radio oçerkini yazmışdı. Elə bil onun ürəyindən xəbər vermişdim.

Əlfi müəllim məqaləmi axıra qədər diqqətlə oxuduqdan sonra mənə «əhsən, Pərviz!» deyib, başı ilə razılığını bildirdi. Sonra şöbə müdiri vəzifəsində işləyən Əkbər Ağayevə /filologiya elmləri doktoru, professor/ üzünü tutub dedi:

- Əkbər müəllim, bax oğul belə olar, elə bil ki, atası Mirzə Xosrovu yenidən həyata qaytarıbdır.

Əkbər müəllim üzü gülər halda cavab verdi:

-Əlfi müəllim, Pərvizin atası mənim ən sevimli müəllimim olmuşdur. Sonra o, mənə yer göstərib əyləşməyimi təklif etdi. Mən utancaq halda çəkinərək əyləşdim. Əkbər müəllim də məqaləmi tez nəzərdən keçirib axırda əlavə etdi ki, mütləq məqalənin çıxmasına köməklik edərik. Əlfi Qasımov dedi ki, qəzetimizdə «Açılmamış səhifələr» rubrikası altında məqaləni verəcəyik.

Həmin gün mənə nə qədər sevindirici olmuşdur. Bu günü heç vaxt yaddan çıxarmaram... Mən hər ikisinə təşəkkürümü bildirib evə qayıtdım.

Doğrudan da Əlfi Qasımovun və Əkbər Ağayevin mənə göstərdikləri etimadı mən iyul ayının əvvəllərində bir daha yenidən hiss etdim. 1964-cü ilin iyul ayının 11-də «Ədəbiyyat və incəsənət» qəzetində «Mirzə Xosrov Şaiq» adlı ilk elmi məqaləm «Açılmamış səhifələr» rubrikasında nəşr olundu. Sevincimin həddi-hüdudu yox idi...



Bu da həyatımda ədəbiyyat aləminə ilk addımım oldu.

*15.07.1983-cü il.*

## Atam Mirzə Xosrovun həyat və yaradıcılığına həsr etdiyim monoqrafiyam haqqında

Mirzə Xosrov Axundzadə – Şaiq təxəllüsə həsr etdiyim «Mənalı həyat» adlı monoqrafiyanı 1969-cu ilin iyun ayından etibarən yazmağa başlayıb 1973-cü ilin iyun ayında dəqiq yoxlanışdan sonra tam makina yazısı ilə bitirib «Gənclik» nəşriyyatına təqdim etmişəm. Deməк olar ki, dörd il ərzində müxtəlif arxiv sənədlərindən istifadə edərək, əsərin müasir dövrün tələbatına cavab verməyi və eləcə də əsərdə demokratik prinsipi əsas götürmüşəm. Doğrudan da özümə inanmırdım ki, mən belə bir əsər yazmağa qabil olum. Əsəri yazdıqca sənədlərdən istifadəyə çox məsuliyyətlə yanaşmışam.

Siz, hörmətli oxucular! Elə hesab etməyin ki, mən atam üçün, yaxud atamı tərifləməyə çalışmışam. Əsla yox. Mən əsəri yazmaqda bir tədqiqatçı kimi özümü doğrultmağa çalışmışam. Nəticədə «Gənclik» nəşriyyatı real rəy verilməsi üçün əsərimi birinci dəfə V.İ.Lenin adına Azərbaycan Pedaqoji İnstitutunun «Pedaqogika» kafedrasına, ikinci dəfə isə M.F.Axundov adına Azərbaycan Xarici Dillər İnstitutunun laboratoriya müdiri, filologiya elmləri doktoru, professor Zeynal Tağızadənin adına göndərmişdir.

Üçüncü rəy verilmək üçün nəşriyyat əsəri Azərbaycan SSR EA-Respublika Əlyazmaları Fondunun direktoru, filologiya elmləri doktoru Məmmədağa Sultanova göndərməyi məsləhət bildi. Məmmədağa müəllim özünün rəyində çox əhəmiyyətli fikirlər irəli sürmüşdür.

Demək olar ki, verilən hər üç rəy əsərin keyfiyyətli yazılmasını təsdiq edən əsas sənəddir. İndi bu rəylərdən sonra mən öz istedadıma inanıram. Ona görə ki, mən nə ədəbiyyat və nə də pedaqogika elmi sahəsində dəqiq ixtisasa malik deyildim.

Qeyd edə bilərəm ki, «Gənclik» nəşriyyatının 1974-1976-cı illərin təsdiq olunmuş tematik planında monoqrafiyamın 5 çap



vərəqi həcmində nəşr olunması nəzərdə tutulmuşdur*. Lakin çox təəssüf ki, nəzərdə tutulan həcmdə əsər nəşr olunmadı. Bu da əlbəttə, əsərin keyfiyyətinə təsir etdi. Belə ki, monoqrafiyada Mirzə Xosrov Şaiqin ədəbi fəaliyyətinə aid olan hissə nəşriyyat işçiləri tərəfindən əsassız olaraq ixtisar edilmişdir. Sonralar «Gənclik» nəşriyyatının direktor müavini vəzifəsində işləmiş İlyas Tapdıq əsərin 1974-1976-cı illərin tematik planında nəzərdə tutulan 5 çap vərəqi həcmində nəşr edilməməsinə çox peşiman olduğunu şəxsən mənə bildirmişdir.

Mən ilk mərhələdə əsərimin adını «Xosrov Şaiq» qoymuşdum**. Lakin nəşriyyat əsərin adının «Mənalı həyat» qoyulmasını məsləhət bilmişdir.

Onu da qeyd edim ki, əsəri 5 çap vərəqi həcmində «Gənclik» nəşriyyatına təhvil verdim. Nəşriyyatın müvafiq şöbəsi Mirzə Xosrov müəllim atam olduğuna görə əsərin redaktoru nəzərdə tutulmuş pedaqoji elmləri doktoru, professor Yusif Talıbovu birinci müəllif qoyulması üçün mənim razılığımı aldı. Həqiqətdə də mən pedaqogika sahəsində heç bir ixtisasa malik deyildim. Əlbəttə, Yusif Talıbovun əsərin birinci müəllifi təyin olunması tam məqsədəuyğun idi.

Qeyd etməliyəm ki, Yusif müəllimin, bir insan və alim kimi monoqrafiyanı yazıb başa çatdırmağımda çox böyük rolu vardır. Belə ki, əsərin «Giriş» hissəsinin yenidən işlənilib mənə təqdim edilməsində onun əməyi vardır.

Demək olar ki, mən öz oğulluq borcumu tarixdə şərəflə yerinə yetirdim. Arzu edərdim ki, öz xalqının səadəti uğrunda, bütün qəlbi və ruhilə fədakarcasına çalışan ataların övladları da atalarının adlarını həyat nəşəsi, gözəllik və səadət doğuran günəşin şüaları kimi işıqlandırsınlar! Qoy onların xatirəsini əbədi, xoş və parlaq tutsunlar!

*19.06.73-cü il.*

* Həmin tematik plan kitabını indiyə kimi şəxsi arxivimdə saxlayıram.
** Şəxsi arxivimdə həmin adla əlyazmanı saxlayıram.

## Dissertasiya işim haqqında

1966-cı ildən etibarən yenidən təşkil olunmuş D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda mühasib kadrların seçilməsi məqsədyönlü bir məsələ kimi qarşıda durmuşdur. Bununla əlaqədar olaraq 1967-ci ilin yanvar ayından məni institutda baş laborant vəzifəsində işləməyə dəvət etdilər. Həmin ilin sentyabr ayından isə müəllimlik fəaliyyətinə başlamışam.

İlk dəfə dissertasiya mövzusu üzərində fikirləşəndə mənə çox təəccüblü görsənirdi. Hələ 1967-ci ilin sentyabrında ilk müəllimliyə başlayanda «Ticarətin iqtisadiyyatı və təşkili» kafedrasının dosenti, iqtisad elmləri namizədi Məmmədəli Zeynalov mənə yanaşıb dedi:

-Pərviz müəllim, sənə dissertasiya mövzusu fikirləşmişəm, xoşun gəlsə götürüb yavaş-yavaş işləyərsən. Mövzunun adı «Azərbaycanda kolxoz ticarəti və onun təkmilləşdirilməsi yolları»dır. Çox perspektivli mövzudur. Respublikada bu sahəni heç kim işləməyibdir.

Mən bir az düşündükdən sonra cavab verdim:

-Məmmədəli müəllim, bir həftə mənə möhlət verin, mövzu ətrafında dərindən fikirləşim və Sizə axırıncı sözümü deyim.

Mən həmin gündən başlayaraq kolxoz ticarətinin sosial – iqtisadi əhəmiyyətinə və onun yaranma tarixinə aid ədəbiyyatlar axtarıb araşdırmaq fikrində oldum. M.F.Axundov adına Respublika kitabxanasına üzv yazıldım. Kitabxananın iqtisadiyyat və jurnal-qəzetlər şöbələrində ədəbiyyat mənbələri ilə tanış olmağa başladım. Demək olar ki, kolxoz ticarətinin yaranma tarixini araşdırmaq məqsədilə –1930-cu illərin materiallarını nəzərdən keçirərək əsaslı fondlarında iki il çalışmalı oldum.

Respublika kitabxanasında ilk ədəbiyyat mənbələri ilə tanışlıqdan sonra mən qərara gəldim ki, bu mövzunu işləmək doğrudan da vacibdir. Bir həftədən sonra Məmmədəli müəllimə öz razılığımı bildirdim.



Nəhayət, 1968-ci il mart ayının 1-də «Azərbaycanda kolxoz ticarəti və onun təkmilləşdirilməsi yolları» mövzusu İnstitutumuzun Elmi Şurasında təsdiq olundu. Bundan sonra kolxoz ticarətinin yaranma tarixi ilə əlaqədar olaraq Azərbaycan SSR Oktyabr İnqilabı və Sosializm quruculuğu adına Mərkəzi Dövlət Arxivində işləməli oldum. Arxiv materialları ilə tanış olmaq mənim xeyli vaxtımı aldı. Demək olar ki, 3 il də arxiv materiallarını axtarıb araşdırdım.

Dissertasiyanı yazıb qurtaran dövrə kimi əlyazmamda çox dəyişikliklər oldu. 1969-cu ilin iyul ayında işin birinci fəslinin əlyazmasını başa çatdırdım. Həcmi 246 səhifə idi. 1973-cü ildən sonra SSRİ Ali Attestasiya Şurasının yeni qərarında dissertasiyaların tam mətni rus dilinə tərcümə olunmaqla, ümumi həcmi maksimum 150-160 səhifəyə çatdırmaq nəzərdə tutulmuşdur. Buna görə də dissertasiyamın I fəslini yenidən işləməli oldum.

İkincisi, atam Mirzə Xosrov Axundzadənin pedaqoji və ədəbi irsinin öyrənilməsi qarşımda ən mühüm bir vəzifə kimi durmuşdur. Buna görə də təxminən 12 illik /1964-1976/ tədqiqatım nəticəsində 1976-cı ildə «Gənclik» nəşriyyatı tərəfindən «Mənalı həyat» adlı kitabçam çapdan buraxılmışdır.

Nəhayət, 1978-ci ilin iyul ayında SSRİ Ali Attestasiya Şurasının yeni «Qaydaları»na uyğun olaraq dissertasiyamın ümumi həcmini makina vərəqi ilə 184 səhifəyə çatdırdım. Əlbəttə, bu da tələb olunan səviyyədən artıq hesab olunurdu. Onu da qeyd edim ki, dissertasiya işimin ayrı-ayrı fəslləri kafedramızda bir dəfə müzakirə olunmuşdur. 1979-cu ilin may ayının 28-də /on illik tədqiqatım/ dissertasiya işim axırıncı dəfə olaraq «Ticarətin təşkili və texnikası» və «Ticarətin iqtisadiyyatı» kafedralarının birgə iclasında müzakirə olunmuş və müvəffəqiyyətlə müdafiəyə buraxılmışdır. Müzakirədə Azərbaycan SSR Ticarət Nazirliyinin və Respublika Kolxoz Bazaları İdarəsinin rəsmi nümayəndələri də iştirak etmişdir.

*06.02.80-cı il*

KLASSİK İRSİMİZDƏN



## Mirzə Əli Aşiq Axundzadə

Qarabağda yaşayıb-yaratmış, şair, xanəndə, müəllim və xəttat Mirzə Əli Aşiq haqqında indiyə kimi sanballı tədqiqat aparılmamışdır. Lakin onun həyat və yaradıcılığı haqqında qısa da olsa məlumatlar və şerlərindən nümunəni Firidun bəy Köçərli, Mir Möhsün Nəvvab, Növrəs Ələsgərli, Məhəmmədağa Müctəhidzadə, Ağalarbəy Əliverdibəyov özlərinin əsərlərində vermişlər. Bundan əlavə, Azərbaycan musiqiçilərinin tədqiqatçısı Firidun Şuşinski «Cabbar Qaryağdıoğlu», «Seyid Şuşinski», «Azərbaycanın xalq musiqiçiləri» əsərlərində Mirzə Əli Aşiqin musiqişünaslıq və xanəndəlik sənətinin incəliklərindən bəhs etmişdir.

Buna görə də uzun müddətli tədqiqatımla əlaqədar olaraq Mirzə Əli Aşiq haqqında oxuculara daha ətraflı məlumat vermək istərdim:

Füzuli ədəbi məktəbinin görkəmli nümayəndələrindən biri, müəllim, şair, musiqişünas, xanəndə və xəttat Mirzə Əli Aşiq Axundzadə özünün fitri istedadı ilə Qarabağ mahalında ad-san qazanmışdır. Mirzə Əli Aşiq, «Sağəri» təxəllüsü ilə tanınan Mirzə Zeynalabdinin oğludur. Sağəri də şair, musiqişünas və müəllim olmuşdur. Ağalarbəy Əliverdibəyov özünün «Musiqi tarixi» əsərində Azərbaycan musiqisinin şərhindən danışarkən göstərir ki, Qarabağın mədəniyyət mərkəzi Şuşa şəhərinin musiqişünaslarından birinci Şuşanın Böyük qurdlar məhəlləsində yaşayan məşhur şair Sağəri və şəbehkərdan Molla Zeynalabdin olmuşdur*. Sağərinin oğlu Mirzə Əli Aşiq 1846-cı ildə Şuşa şəhərinin Böyük qurdlar məhəlləsində anadan olmuşdur. O, Mirzə Rəhim Fənanın təşəbbüsü və Xurşudbanu Natəvanın rəhbərliyi ilə 1864-cü ildə Şuşada təşkil edilmiş «Məclisi-üns» ədəbi dərnəyinin fəal üzvlərindən biri idi.

Qarabağda çox böyük hörmət qazanan «Məclisi-üns» ədəbi dərnəyi istedadlı şairləri bir yerə cəm edib onların poeziyaya

*Çox güman ki, həmin şəxslərin hər ikisi Mirzə Zeynalabdin «Sağəri» təxəllüsüdür - P.A.

istəklərini aşkar etdi. Firudin bəy Köçərli Şuşa ədəbi məclislərinin ümumi şerlərimizin inkişafındakı əhəmiyyətindən danışarkən yazmışdır: «Xüsusilə, Qarabağ şairləri nəhəng qartallar kimi Şuşa dağlarının poetik zirvəsində məskən salaraq, öz fövqlərindən poeziyaya ton verirdilər».

Xurşudbanu Natəvanın «Məclisi-üns» ədəbi dərnəyinin üzvü olan Mirzə Əli Aşiq musiqi aləminə çox dərindən bələd idi. O, hətta özünün qeyd dəftərçəsində də bu barədə məlumat verir. Xurşudbanu Natəvanın musiqiyə çox meyli olduğundan dövrünün məşhur musiqişünaslarını və xanəndələrini öz evinə tez-tez dəvət edərdi. Belə musiqiçilər arasında Mirzə Əli Aşiq də var idi. Deмək olar ki, o, özünün məlahətli səsilə məclis üzvlərini valeh edərdi.

Doğrudan da, Şuşadakı ədəbi və musiqi məclislərinin səs-sədası nəinki Qarabağda, hətta Tiflisdən, Buxaradan, Tehrandan və başqa şəhərlərdən gəlirdi. O zaman Tiflis bir musiqi mərkəzi kimi də bütün Qafqazda şöhrət qazanmışdır. Hələ 1871-ci ildə ölkədə musiqi təhsilini yaymaq və inkişaf etdirmək məqsədilə şəhərdə «Qafqaz musiqi cəmiyyəti» yaradılmışdır. Bununla yanaşı, Tiflisdə musiqi dərnəkləri də təşkil olunmuşdur.

Qarabağda fəaliyyətdə olan ədəbi və musiqi məclislərinin üzvlərindən tez-tez adlarını çəkdiyimiz şəhər və mahallarda Şuşa xanənədələri özlərinin fitri istedadı ilə çıxış edərək şöhrət qazanmışdılar. Belə ki, həmin dövrün məşhur xanəndələrindən Səttar, Allahverdi, Ələsgər, Cəfər, Əbdülbağı Zülalov (Bülbül-can), Yevanqul, Levon Alikoşvili, Mirzə Əli və başqaları xalq şənliklərində, teatr tamaşalarının fasilələrində və Şərq konsertlərində çıxış etmişlər.

Mirzə Əli Aşiq musiqi ustadı kimi özünü göstərmiş və həm də musiqi məclislərinə rəhbərlik etmişdir. Məsələn, 1886-cı ilin dekabr ayının 29-da Tiflisin «Arsuruni» teatrının binasında M.F. Axundovun «Dərviş Məstəlişah» komediyası tamaşaya qoyulmuş



və tamaşanın fasiləsində məşhur tarzən Sadıqcan çalmış və xanəndə Mirzə Əli isə oxumuşdur*.

Şair, müəllim, musiqişünas və xanəndə adı ilə tanınan Mirzə Əli Aşiq Qarabağ əhli arasında layiqli bir yer tutaraq Şuşada əsas etibarı ilə müəllimlik vəzifəsində də çalışmışdır. Mirzə Əlinin oğlu Xosrov Şaiq özünün «Xatirələrim» əlyazmasında yazır:

-Atam Mirzə Əli Aşiq məşhur xanəndə Cabbar Qaryağdıoğluna 10 yaşından başlayaraq müəllimlik etmiş və 15 yaşına kimi ona musiqi elminin dərinliklərini öyrətmişdir. Mirzə Əli Aşiq fars və türk dillərini mükəmməl bilən, geniş və hərtərəfli biliyə malik şair və musiqişünas idi. Buna görə də Cabbar Qaryağdıoğlu öz müəllimindən hərtərəfli musiqi təhsili alaraq, fars dilini də mükəmməl öyrənmişdir. Bunun nəticəsində də Cabbar gənc yaşlarında poeziyaya həvəs göstərmiş və yeri gəldikcə şer də yazmağa başlamışdır.

Cabbar Qaryağdıoğlunun yaşadığı bina Seyidli məhəlləsində idi. Həmin məhəllə Böyük qurdlar məhəlləsinə qonşu sayılırdı. Buna görə də Cabbarın müəllimi Mirzə Əli Aşiq bu məhəllələrdə tez-tez toy şənliklərində iştirak edərdi. Şair Mirzə Ələsgər Növrəs isə həmin toylara rəhbərlik edərdi.

Cabbar Qaryağdıoğlu öz xatirələrində yazır:

-Bir gün şəhərin Qurdlar məhəlləsində, böyük bir toy olur. Toyda o dövrün məşhur xanəndələri Hacı Hüsü, Məşədi İsi, İstedadlı tarzən Sadıqcan, Cavadbəy Əlibəy oğlu və kamançaçı Mirzə iştirak edirmişlər. On altı yaşım yenicə tamam olmuş mən də öz müəllimim Mirzə Əli ilə həmin toya qonaq gəlmişdik. Məclis qızışır. Hacı Hüsü «Şüştər», Məşədi İsi «Mahur» oxuduqdan sonra Mirzə Əli toyun «padşahı» şair Növrəs Ələsgərdən mənim oxumağıma icazə verməyi xahiş edir. Mən, tarzən Cavadbəyin müşayəti ilə «Kürdü-şahnaz» oxudum*.

* Həmin faktlar Azərbaycan musiqiçilərinin tədqiqatçısı Firudun Şuşinskinin məqalə və əsərlərində də nəzərimizə çarpmışdır.
* Bu faktlar F. Şuşinskinin kitablarında da şərh olunur.

Mirzə Əli Aşiq xanəndəlik sənətini getdikcə təkmilləşdirib və özü üzərində daima elmi axtarışlar aparırdı. O, nəinki xalq arasında, eyni zamanda ailəsi içərisində də məlahətli səsi ilə zümzümə edərdi. Xosrov Şaiqin qızı Ramizə xanım atasının ona söylədiyi xatirələri qələmə alaraq belə yazmışdır:

-«Bir gün axşamüstü Mirzə Əli öz mənzilində züm-zümə edirdi. Bir an içərisində həyət çəpərimizin ətrafı camaatla dolmağa başladı. Həyətə toplaşanlar içərisində səs əlaməti hiss olunmurdu. Mirzə Əli oxuyub qurtardıqdan sonra «Əhsən Mirzə Əli» səsləri ucaldı və bir nəfər ucadan dedi ki, əgər imkanım olsa idi, heç bir vaxt belə məlahətli səsdən ayrılmazdım».

Mirzə Əli Aşiqin Şuşanın Seyidli məhəlləsindəki məsciddə mədrəsəsi var idi. O, həmin mədrəsədə müəllimlik edib Şuşa əhlinə elm öyrədərdi. Bu da təxminən 1885-ci illəri əhatə edir. Həmin vaxtlarda Molla Kazımın Təzə məhəllədəki məktəbinin şagirdləri Mirzə Əli Aşiqin dərs dediyi məktəbə beytləşməyə gələrdilər. Bu da ondan irəli gəlirdi ki, Mirzə Əli Aşiqin əlaçı və talantlı şagirdləri vardı. Onun mədrəsəsində dərs alıb elm öyrənən şagirdlər çox savadlı olaraq şəhər camaatının xeyli hissəsini təşkil edirdi.

Mirzə Əli Aşiq, Mirzə Fətəli Axundovun yaxın tanışlarından biri idi. 1857-ci ildə M.F.Axundov ərəb qrafikası əsasında yeni əlifba tərtib etmiş və əlifba islahatı uğrunda fəal mübarizə aparmağa başlamışdır. Bu məqsədlə o, həmin dövlərdə bir sıra yerlərdə olmuş və o cümlədən Azərbaycanın mədəniyyət mərkəzlərindən biri olan Şuşa şəhərinə də getmişdi.

M.F.Axundov müəllim, şair, musiqişünas Mirzə Əli Aşiqlə Şuşada tanış olmuş və onunla dostluq etmişdir. «Novoye obozreniye» qəzetinin 26 avqust (7 noyabr) 1884-cü il tarixli, 226-cı nömrəsində M.F.Axundovun qısa tərcümeyi halından bəhs olunarkən aşağıdakıları sitat gətirmək istərdik:

«...Ana dilində müəyyən savad alandan sonra, o, gənclik illərində Şuşaya gəlmiş, xan evlərinin birndə müəllim-mürəbbi kimi çalışmış və beş-altı il orada yaşamışdır». Təsadüfi deyildir ki, həmin dövrdə M.F.Axundov Şuşada olarkən Qarabağlı Mirzə Əli



Aşiqi yeni əlifba uğrunda şəhər əhalisi arasında təbliğat aparmağa çağırmışdır*.

Mirzə Əli Aşiq mükəmməl istedada malik şair idi. Onun oğlu Xosrov Şaiq atası Mirzə Əlinin şerlərinin dərin məzmunundan ruhlanaraq yazırdı:

*Aşiqi kitab Aşiqdə sərr nəhanı var,*
*Asan deyildir Aşiqin dərin imtahanı var.*
*Aşiqlik iddia edən olmuş cahanda çoxları,*
*Aşiq əhlinə təhəllüq olan qəhrəmanı var.*

*Vardır kitabi-Aşiqdə çox incə nöqtələr.*
*Hər kəs düşünməz onları, çün nüktədanı var.*
*Zövq əhli Şaiq olmalı, eşqi həqiqətə,*
*Sadiq Müaşiqin*** *nə gözəl dastanı var.*

Xurşudbanu Natəvanın rəhbərlik etdiyi «Məclisi-üns» ədəbi dərnəyi öz fəaliyyətini dayandırdıqdan sonra Şuşada Mir Möhsün Nəvvab Qarabağinin (1831-1918) təşəbbüsü və rəhbərliyi ilə «Məclisi-fəramuşan» və ya «Məclisi-xamuşan» adı ilə ikinci bir ədəbi məclis təşkil olundu. Bu məclislərdə Firdovsinin, Xəyyamın, Xəqaninin, Nizaminin, Füzulinin, Sədinin, Hafizin, Nəvainin və başqa klassiklərin əsərlərindən hissələr oxunar və onlara nəzirələr yazılardı. Ədəbi məclisdə bəzən şer, sənət, fəlsəfə və sair məsələlər ətrafında dəyərli mübahisələr gedərdi. «Məclisi-fəramuşan» dərnəyinin üzvlərindən Asi, Baki, Vəfa, Katib, Məxfi, Salar, Hadi, Mirzə Həsən Qarabağı, Mirzə Ələsgər Növrəs, Mirzə Rəhim Fəna, Hacı Abbas Agah, Mamo bəy Məmai, Mirzə Əli Aşiq və başqa şairlər özlərinin qəzəlləri və şer deyişmələri ilə məclisin şöhrətini artırırdılar. Şair Mirzə Ələsgər Növrəs deyişmələrinin birində Mirzə Əli Aşiqə yazırdı:

---

* Bu barədə «Azərbayjan klassik ədəbiyyatında işlədilən adların şərhi» (B., «Maarif» nəş-tı, 1974) kitabçasında da qeyd olunmuşdur

** Qeyd: Mirzə Sadiq Müaşiq, Xosrov Şaiqin ulu babasıdır-P.A.

*Könül sərmayəsin, Aşiq, çü zülfi-müşq var etdin,*
*Keçib islam dinindən özünü küfrə düçar etdin.*

* * *

*Həvadis təlxikam etmişdi hərçəndi məni zari,*
*Vəli, aşar ilə bu könlünü xoş ruzigar etdin.*

* * *

*Nədir bais kim, oldun xatiri – arif fəramuşan,*
*Həqiqi bəndəlikdən Növrəsi axir kənar etdin?!*

Mirzə Əli Aşiqin pedaqoji, ədəbi və musiqişünaslıq irsi indiyə kimi ətraflı tədqiq olunmamışdır. Ancaq onun qəzəllərindən bir neçəsi Qarabağ şairlərinin qəzəl və şerlərini bir yerə toplayan Məhəmmədağa Müctəhidzadənin «Riyazül-aşiqin» (İstanbul, 1910) əsərində, bir hissəsi isə Mir Möhsün Nəvvab Qarabağinin «Təzkireyi-Nəvvab» əsərində (Bakı, Orucov qardaşlarının mətbəəsi, 1913) çap olunmuşdur. Həmin qəzəllərdən nümunələri aşağıda göstəririk:

**«Riyazül-aşiqin»dən:**

*Yenə ey mehriban, noldu cüdalıq ixtiyar etdin,*
*Bəni sərgəştəni hər ləhzə kuyindən kənar etdin.*

*Nigara, qıl tərəhhüm, firqətə tabi-təvanim yox,*
*Fələkdən bəd bənimlə bimürivvət kəc mədar etdin.*

*Necə məşuqisən, məşuqə rəsmin bilmədin əsla?*
*Əcəb hərcadisən sirrimi xəlqə aşikar etdin.*

*Görəndə gül üzün bülbül gərək şoqin ziyad etsin,*
*Necə gülsən ki, bülbül könlünü sən tarimar etdin.*

*Sənə yüz yol dedim, Aşiq, çək əl sən bivəfalərdən,*
*Sözümə baxmayıb sən, öz-özünü şərmsar[1] etdin.*

[1] Şərmsar - utanmadın



Mir Möhsün Nəvvabın təzkirələrinin əlyazmasının 843-cü vərəqəsində «Əhvali Mirzə Əli Aşiq» sərlövhəsi altında şairin qısa tərcümeyi halı və şerlərindən səkkiz qəzəli nümunə göstərilmişdir. Nəvvab qeyd edir ki, Mirzə Əli Aşiq öz şerlərindən divan bağlamamış, lakin 1891-ci ildə yazdığı bir neçə şeri onun əlində olmuşdur. Həmin qəzəllərdən ikisini aşağıda veririk:

**«Təzkireyi Nəvvab» dan:**

*Surətkər nə yaxşı çəkib, surəti afərin,*
*Səd afərin, bu surətə, ey surəti afərin!*

*Məxluqlar hamı yaranıb abi xakədən,*
*Adəmlər içrə yoxdur belə xilqəti afərin!*

*Bu qaş, gözdə, hüsndə, həm naz-qəmzədə,*
*Yusif yetirməyib səni bir şirkət afərin!*

*Xoş xülq, xoş təbiət, xoş ləhcə, xoş zəban,*
*Öyrətdi səni nə gözəl sənət, afərin!*

*Öldürməyi fəraqidə əhyası vəslidə,*
*Heç kəsdə yoxdur dəhridə bu xisləm afərin!*

*Bu ziynət ilə getsən əgər payi məhşərə,*
*İqrar edər bu hüsnünə yüz cənnət afərin!*

*Adətdi lütf «Aşiqə» məşuqə etməyi,*
*Gəl eyləmə bu adəti sən, bədət afərin!*

*Nazi fəraq ilə məni yandırdın ey sənəm,*
*Kəsdin nədən bu Aşiqdən vəslət afərin!*

**2-ci qəzəl:**

*Fələk məni eylədi qəmlərə düçar ölürəm,*
*Şikəstə könlümü dərd etdi tarimar ölürəm.*

*Məni qurtar bu bəladan özün, xudavənda,*
*Fəraci qut* ilə gəlsin o növbahar ölürəm.*

*Mənim kimi görsən var cahanda bir bədbəxt,*
*Olubdur qəmim xəlqə aşikar ölürəm.*

*Bu dərdə yoxdur dəva, dərdimiz dəvasızdır,*
*Əlacıdır belə dərdin o türfə yar ölürəm.*

*Nə yaxşıdır verəsən dil*, könül sevən yarə,*
*Ürəkdə olmaya bir intizar ölürəm.*

*Amandır Qeys, sifəth qılmasın bu Leylanı,*
*Salıb bu dağlara qılma dağıdır ölürəm.*

*Nə çatmaz əl, eyləyim ərzi dərdi-hali dili,*
*Nə yoxdur təbi-təvan dildə bərqərar ölürəm.*

*O zülfüdən mənə bir tel səbayə ver göndər,*
*Muraddır, aparın qəbrə yadigar ölürəm.*

*Könlüm bir özgə nigarə olubdur bənd Aşiq,*
*Çəkilsə görçi bu söz küçələrdə car ölürəm.*

Mirzə Əli Aşiq 1903-cü ildə Şuşada vəfat etmişdir. Nədənsə onun vəfatı tarixini ədəbiyyatşünas alimlərimiz, təxəllüsünü isə musiqi tədqiqatçılarımız düzgün şərh etməmişlər. Hətta Mir Möhsün Nəvvabın «Təzkireyi-Nəvvab» əsərində Mirzə Əli Aşiqin vəfatı hicri tarixi ilə 1312-ci ilə və yeni tarixlə 1894-cü ilə təsadüf edilir. Eləcə də, filologiya elmləri namizədi Nəsrəddin Qarayevin tərtibatı əsasında 1987-ci ildə «Yazıçı» nəşriyyatı tərəfindən buraxılmış «Poetik məclislər» kitabında da Mirzə Əli Aşiqin 1894-cü ildə vəfat etdiyi göstərilir.

* qut – ürəyə dayaq
* dil - ürək



Mirzə Əli Aşiqin oğlu Xosrov Şaiq özünün dəsti-xətti ilə göstərir ki, o, 1903-cü ildə Şuşa şəhərində vəfat etmişdir. Bu fakt tamam inandırıcıdır. Buna görə də Mirzə Əli Aşiqin vəfatı gününün bundan sonra həmin tarixdən götürülməsi daha real olardı. Mirzə Əli Aşiq müəllim, şair, musiqişünas, xanəndə olmaqla bərabər və həm də xəttatlıq sənəti ilə də məşğul olmuşdur. Şuşa şəhərinin bəzi tarixi abidələrinə onun dəsti-xətti ilə həkk olunan yazılar hal-hazıra kimi qalmaqdadır. Təkcə bunu göstərmək kifayətdir ki, Şuşanın Böyük qurdlar məhəlləsində (sovet dövründə Telman adına küçə adlandırılmışdır) yerləşən bulağı üzərindəki yazılar Mirzə Əli Aşiqin xəttatlıq sənətinə bir nümunədir.

Təəssüflə qeyd etmək olardı ki, Şuşada yaşayıb-yaratmış XIX əsrin dan ulduzlarının bir çoxunun yaşadıqları bina vaxtı ilə Şuşanın rəhbər işçilərinin taqsırı üzündən dağıdılmış və şəhərin tarixi abidəsi kimi saxlanılıb qorunmamışdır. Bu da, əlbəttə, Qarabağın tarixi və memarlıq abidələrinin tədqiqi ilə məşğul olan alimlərimizin yaradıcılığına çətinlik törətmişdir. Eyni zamanda, ermənilərin əlinə girəvə verilmişdir. Ona görə də Şuşanı erməni daşnaqlarının büstləri və heykəlləri bəzəyirdi.

Hazırda Mirzə Əli Aşiqin əlyazmalarından bir qismi Azərbaycan Milli EA-nın Respublika Əlyazmaları İnstitutunun əsaslı fondunda, bir qismi isə ayrı-ayrı vətəndaşların şəxsi arxivində saxlanılır. Yaxşı olardı ki, həmin əlyazmaları da Respublika Əlyazmaları İnstitutunun fonduna təhvil veriləydi*.

*11.10.1988-ci il.*

* Qeyd: Məqalə qısaldılmış halda «Azərbaycan» qəzetinin 17 fevral 1999-cu il nömrəsində dərc olunmuşdur.

## Mirzə Xosrov - Şaiq Axundzadə

Dağlar qoynunda yerləşən qocaman Şuşa şəhəri, Azərbaycanın mədəniyyət mərkəzlərindən biri, öz təbii gözəlliyi, saf iqlimi və ab-havası ilə məşhur olan bu şəhər ədiblərin, görkəmli bəstəkarların, şairlərin, maarif xadimlərinin vətəni sayılır, musiqişünasların incəsənət beşiyi adlanır:

*Şairlərin yatağı*
*İncəsənət ocağı*
*Olmuş xanəndələrin*
*Şuşa qoynu-qucağı.*

Bir vaxt bu sətirlərin müəllifi görkəmli pedaqoq və şair Mirzə Xosrov Şaiq ən çox sevdiyi səfalı Cıdır düzünü seyr edərkən xəyala dalmış, bəzən kədərlənmiş, bəzən də sevinmişdir.

O, canlı bir tarix kitabı kimi, Şuşanın keçmişi və hazırki vəziyyətindən maraqlı hadisələr danışardı. Axı onun həyatının 71 ili tarixi Şuşa ilə bağlı idı. Bu illərin hər biri mənalarla ötüşmüş, qayğıkeş müəllimin ömür təqvimini gözəl işlərlə, müqəddəs əməllərlə bəzəmişdir.

Xosrov Mirzə Əli oğlu Axundzadə 1889-cu il iyun ayının 13-də Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur. Onun atası Mirzə Əli Zeynalabdın oğlu müəllim olmaqla bərabər, şair və gözəl sövqə malik məşhur musiqişünas olub, xalqımızın sevimlisi Cabbar Qaryağdıoğlunun və Cabbar dövrü xanəndələrinin musiqi müəllimi olmuşdur.

Xosrov Axundzadə 1905-ci ildə Şuşanın «Qorodskoy» məktəbini qurtarıb 1906-cı ildən 1956-cı ilə kimi Şuşada ibtidai siniflərdə dərs demişdir.

1920-ci ildə Şuşada təşkil edilmiş Nərimaniyyə və Haşimiyyə məktəblərində əhalinin maariflənməsində müstəsna rol oynamışdır və eyni zamanda, təlim – tərbiyə sahəsində ciddi iş aparmış, həmin məktəblərin təşkilində qocaman müəllim və maarif xadimlərindən: Hüseyn Axundov, Mirzə Camal Yusifzadə,



Hüseyn Qayıbov, Hacı Zalov, Mirzə Bəşir Yusifzadə, Zülfüqar Abdullayev, Mircabbar Vəzirov və başqalarının diqqətəlayiq işlərilə bərabər Xosrov müəllimin də rolu böyük olmuşdur.

Xosrov Axundzadənin 50 illik pedaqoji fəaliyyətini nəzərə alaraq DQMV və Şuşa şəhərinin maarif ocaqları 1956-cı ildə ona şəhər mədəniyyət evində təntənəli yubiley keçirmişlər. Bu yubileydə, yubilyar Xosrov Axundzadəyə respublikamızın ən mühüm elmi idarələri və təşkilatları tərəfindən: Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat və dil istitutunun kollektivi, Nizami adına Azərbaycan ədəbiyyatı tarixi muzeyinin elmi əməkdaşlarından və eləcə də onun yetişdirmələrindən təbrik teleqramları alınmışdır. Respublikamızın elə bir rayonu yoxdur ki, orada bu qocaman müəllimin yetişdirmələrindən olmasın. Xosrov müəllimin sabiq şagirdləri içərisində xalq azadlığı uğrunda mübarizə edən Mir Həsən Vəzirovu və mətin inqilabçı Hüsü Hacıyevi qeyd etmək yerində olardı. Vətəninin və xalqının səadəti uğrunda çalışan, eləcə də qəhrəmanlıq nümunələri göstərən belə sabiq şagirdlərinin layiqli xidmətini eşidən Xosrov müəllim özünü xoşbəxt sanardı.

Xosrov Axundzadənin elmi-pedaqoji fəaliyyəti /1946-1956/ daha maraqlıdır. O, bu dövrdə elmi-metodik əsərlərilə müəllim kütləsinə tanınır. Onun «Pedaqoji mülahizə və təcrübələrim» əsəri 2000-ci ildə «Maarif» nəşriyyatı tərəfindən çapdan buraxılmışdır. Əsər gənc müəllimlər üçün mühüm metodik vəsaitdir.

Xosrov Axundzadə təkcə pedaqoji irslə kifayətlənməmişdir. Onun yaradıcılıq fəaliyyətinin bir sahəsi də ədəbi irsimizlə əlaqədardır. O, 54 il ədəbi yaradıcılıqla məşğul olaraq ədəbiyyat aləmində «Şaiq» təxəllüsü ilə tanınmışdır.

Xosrov Şaiq ilk şer təlimini atası Mirzə Əli Aşiqdən almış və fars dilini mükəmməl öyrənmişdir:

*Aşiqi kitab Aşiqdə səhrümanı var,*
*Asan deyildir, dərin imtahanı var.*
*Aşiqlik idda edən olmuş cahanda çox,*
*Aşiq əhlinə təhliq olan qəhrəmanı var.*

XIX əsrin qabaqcıl şair və yazıçılarından olan Xurşud Banu Natəvanın, Mir Möhsün Nəvvabın, Süleyman Sani Axundovun, Əbdürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun, Firudin bəy Köçərlinin, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin və Həmidə xanımın gənc Xosrova böyük təsiri olmuşdur.

Xosrov Şaiq 1906-cı ildən Mir Möhsün Nəvvab Qarabağinin rəhbərlik etdiyi «Məclisi-Fərəmuşan»ın üzvü olmuşdur. Onun ilk əvvəl yazdığı şerlərindən biri «Təzkireyi-Nəvvab» kitabının 244-cü səhifəsində çap olunmuşdur. Həmin şerdə Şuşa şəhərində maarif və mədəniyyətin inkişafından bəhs olunur. Müəllif bu şerində ümumiyyətlə xalqın, xüsusilə gənclərin maariflənməsi və savadlı olmasından danışır:

*Ey vətəndaşlar gəlin elm əxz edib aqil olaq,*
*Qeyri millətlər kimi hər elmdə kamil olaq.*
*Elm Xurşuda məsəldir çün ziya bəxşi cahan,*
*Cəhil zülmətdən çıxıb elmə tərəf mayil olaq.*
*Elmə müştaq olmayan insan deyil vallahı bil,*
*Elm ilə lazımdır bil, məqsədlərə nail olaq.*
*Elmdən qeyri bizə bir çarə yox, qardaşlarım,*
*Şoq ilə təhsili elmə uyub hamı qabil olaq*
*Talib ol, elmə kənar ol cahili nadandan,*
*Biz neçün təhsili-elmə bu qədər kahil olaq.*
*Hər zaman elmə bizi əmr eyləyib xətm rəsl,*
*Bizlərə lazım gəlir fərmaninə amil olaq.*
*Əcnəbilər elm ilə getdi qabağa bir baxın,*
*Bəs məgər insafdır biz, bu qədər qafil olaq?*
*Bal elm ilə uçur əflakə məsli şahbaz,*
*Nə rəva biz nur elmsə cəhlilə hayil olaq.*
*«Şaiqə» əslamidə lazımdır olsun itfaq,*
*Cəhil bəsdir, təbaki cəhlə uçub cahil olaq.*

Xosrov Axundzadə uzun müddət Mirzə Cəlil Məmmədquluzadənin öz evində uşaqlarına dərs verib elm öyrətmişdir.

1919-cu ildə Həmidə xanımın xahişi ilə Mirzə Xosrov, Cəlil Məmmədquluzadənin «Ölülər» və «Anamın kitabı» əsərinin üzünü köçürüb Həmidə xanıma təqdim etmişdir. Həmidə xanım Mirzə Cəlil haqqında xatirələrində yazır:



1919-cu il fevral ayının sonunda Mirzə Cəlil «Anamın kitabı» pyesini yazıb qurtardı və mənə oxudu. O, pyesi çox gözəl avaz və ifadə ilə oxuyurdu. Mən onu maraqla dinləyirdim. Əsər məni elə tutmuşdu ki, aludəliklə dinləyir, pyesdə cərəyan edən hadisələrlə yaşayırdım. Mirzə Cəlil pyesi oxuyub qurtardıqdan sonra gözlərim yaşardı və bir neçə dəqiqə fikrə dalıb danışa bılmədim. Mirzə Cəlili təbrik elədim, ona öz minnədarlığımı bildirdim və əsərin surətini çıxartdırıb özümdə yadigar saxlamağa icazə istədim. O, razılıq verdi. Uşaqlarımızın müəllimi Mirzə Xosrov «Ölülər» və «Anamın kitabı» pyeslərinin surətini çıxartdı. Həmin əlyazmalar hazırda Azərbaycan SSR EA əlyazmalar fondunda saxlanılır.

Xosrov Şaiqin yuxarıda qeyd olunan şair və yazıçılar haqqında geniş təsəvvürü vardır. O, XIX və XX əsrdə Şuşada yaşayıb-yaratmış Azərbaycan ədəbiyyatı və incəsənəti nümayəndələri haqqında xatirə yazmağı unutmamışdır. Onun «Şuşada XIX əsr Azərbaycan yazıçı və şairlərilə əlaqədar olan tarixi yerlər» və «Xatirələr» əsərləri əlyazması bir çox cəhətdən təqdirə layiqdir. Bu əsərlər həyatımızın müəyyən dövrləri, bəzi xarakterik xüsusiyyətləri haqqında müəyyən təsəvvür verir, Azərbaycan maarifi və mədəniyyətinin inkişafında böyük rol oynayan ziyalıların fəaliyyəti şirin bir dillə təsvir edilir. Qocaman müəllimin xatirələri əsəri bir növ Qarabağın tarixi şəxslərinin yaradıcılığındakı yenilikləri oxuculara təqdim edir.

Yarım əsrdən artıqdır ki, Xosrov Şaiq də lirik şerin, qəzəl, bayatı və s. formasında yazıb-yaratmışdır. Onun aşiqanə, həkimanə, ibrətamiz qəzəlləri, yüksək tərbiyəvi, əxlaqi əhəmiyyətə malik olan beytləri vardır. Xosrov Şaiqin qəzəlləri məzmun müasirliyilə və xalqımızın həyatı ilə sıxı surətdə əlaqədardır. O, həmişə xalq və vətən məhəbbətilə yaşayırdı:

*Şaiqəm, çox sevirəm mən də vətən güllərini,*
*Güllərə aşiq olan bülbülü şeydası budur.*

*Vətənin gülləri bil Xosrov üçün Şirindir,*
*Könlü Şirin ilədir şəhdi-müsəffası budur.*

Xosrov Şaiqin hər hansı bir məhəbbət mövzusunda yazılmış qəzəlini götürsək, orada olan dərin məhəbbətin sənətkar dili ilə tərənnüm edildiyini görərik:

*Nə qədər xoşdur cahanda tapıla sevgili yar,*
*Bir səadətdir əgər olsa, həqiqi dildar.*
*Əyləşib söhbəti canan ilə məşğul olasan,*
*Qəmzəli çeşminə baxacaq olasan məsti-xumar.*

Xosrov Şaiq sevgilisini eşqdə vəfalı, sədaqətli və dəyanətli olmağa çağırır:

*Əzizim, sevgili yarım, sənə ancaq gümanım var,*
*Mənimlə bir təkəllüm et, sənin tək həm zəbanım var.*
*Vəfasız olma əsla, ey vəfa mülkündə soltanım,*
*Fəraqində edər nalə könül ahi fəğanım var.*
*Sənə heç vaxt şayistə deyildir bivəfa olmaq,*
*Mənə istəklisən, sən tək mənim əbru kəmanim var.*

Xosrov Şaiq gözəlliyyə pərəstiş edir, xüsusən əsrimizin, vətənimizin gözəlliyini tərifləyir. O, cavanlara zahiri gözəlliyə aldanmamasını, əsl həyat qurmaq üçün dözümlü olaraq əziyyət çəkib bəhrəsini görməyi məsləhət edir:

*Bəh-bəh gözəlim sən kimi bir can ola bilməz,*
*Bu hüsnü məlahətdə bir insan ola bilməz.*
*Hər bir kəsi cəzb etmədədir çeşmi xümarin,*
*Kimsə gözünə mən kimi heyran ola bilməz,*
*Dözsün gərək aşiq nə qədər çəksə əziyyət,*
*Aşiqlərə əmr eyləmək asan ola bilməz.*
*Bel bağlama hər bir gözələ eyləmə qəflət,*
*Hər sevgili bil, Yusifi-Kənan ola bilməz.*



*Hər bir gözəli sevmə onu, sanma vəfalı,*
*Hər süni gözəl sevgili canan ola bilməz.*
*Zahir bəzəyə aldanaraq könlünü vermə,*
*Hər Leyliyə, Məcnun biyaban ola bilməz.*
*Ol Şaiq, ona əhli vəfa dilbəri tapsan,*
*Hər sevgilidə əhdinə peyman ola bilməz.*

Klassik ədəbiyyatlarda görkəmli sənətkarlar bayatı janrına yüksək qiymət vermiş və onu öz yaradıcılıq təcrübəsindən keçirmişlər.

Xosrov Şaiq də öz yaradıcılığında bayatı janrına və qoşmalara xüsusi yer vermişdir. Sevgi və məhəbbət motivlərini ifadə edən Xosrov Şaiqin saysız-hesabsız bayatılarında aşiq və məşuqənin ürək çırpıntıları və səmimi münasibətləri öz ifadəsini tapmışdır:

*Dağlardan qar xəyalı*
*Bağbanın bar xəyalı*
*Nə dağlardan qar gedər*
*Nə məndən yar xəyalı.*

Xosrov Şaiqin yaradıcılığında onun nəsihətli şerləri xüsusi əhəmiyyətə malikdir. Müəllif «Nəsihətləri»ndə dostluqda sədaqətli olmağı, doğru danışmağı, xoş əhval, ağıllı və fərasətli olmağı, yersiz danışmamağı, xalqını sevməyi, yoldaşlığa qiymət verməyi, ədalətli və nəzakətli olmağı, məsləhət görür:

*İnsansan əgər səndə ləyaqət gərək olsun,*
*Layiq olan adəmdə sədaqət gərək olsun.*
*Qoli ilə felində gərəkdir ola sadiq,*
*Doğru danışıb, düzlüyə adət gərək olsun.*
*Qəlbində gərək hiylə-kələk olmasın əsla,*
*Şərrindən onun kütlə səlamət gərək olsun.*
*Bəlguliq edib olmasın heç bir kəsə bədxah,*
*Xoşxulq, xoş əhval, xoş halət gərək olsun.*
*Yersiz söz ilə xəlqi yorub eyləməsin dəng,*

*Nitqində bəlağətlə-səlasət gərək olsun.*
*Sağ-sol tərəfə əsməyə heç badi-səba tək,*
*Sərt kuhi kimi onda mətanət gərək olsun.*
*Rəftarı kobud olsa əgər, xasiyyəti bəd,*
*Hər yerdə belə şəxsə məlamət gərək olsun.*
*Kəndiyinə rəva bildiyini xəlqə rəva bil,*
*İnsaf elə, insanda ədalət gərək olsun.*
*Qiymət verməz şerə o kəs, olmasa «Şaiq»,*
*Söz müştərisi əhli-nəzakət gərək olsun.*

Böyük Vətən müharibəsində cəsur döyüşçülərimizin misilsiz qəhrəmanlığı Xosrov Şaiqin yaradacılığında da öz əksini tapmışdır. Buna Xosrov Şaiqin «Şuşanın çayı», «Qarabağın təsviri» poemaları, «Döyüşçü Müzəffərə», «Dağlıq Qarabağın müəllimləri», «Azərbaycan» və s. şerlərini misal göstərmək olar.

Xosrov Şaiq, Qarabağ-Şuşa haqqında geniş və hərtərəfli məlumata sahib idi. Filologiya elmləri doktoru, professor Kamran Məmmədovun yazdığı ifadə ilə desək, Xosrov Şaiq həqiqətən də «Şuşanın canlı tarixi» idi. O, tez-tez Şuşa əməkçilərinə, Şuşada istirahət edənlərə Şuşanın canlı tarixi haqqında maraqlı mühazirə, çıxışlar və söhbətlər edərdi. Onun «Qarabağın tarixi» əsərinin əlyazması da diqqətəlayiqdir.

Xosrov Şaiqin «Qarabağın tarixi» əsəri 1738-ci ildən 1807-ci ilə kimi bir dövrü əhatə edir. O, bu əsərində görkəmli realist şair Molla Pənah Vaqifin həyat və yaradıcılığından da geniş bəhs etmişdir.

Xosrov Şaiqin satira və təmsilləri də diqqəti cəlb edir. Onun müxtəlif mövzulara həsr edilmiş bir sıra satirik şerləri vardır. Bunlardan «Haray-aman müftəxorlar əlindən», «İnsaflı diş həkimi», «Əkinçi və ulaq», «Ağa və nökər», «Pezəvəng» və başqalarını göstərmək olar.

Xosrov Şaiq «Xatirələrim» əsərində yazır ki, Şuşada məscid mollalarının Mirzə Cəlil kimi məni də görməyə gözləri yox idi. «Haray-aman müftəxorlar əlindən» adlı satirik şerində Şuşadakı məscid mollalarını, müftəxorları, dindarları Xosrov Şaiq kəskin ifşa edir:



*Haray-aman müftəxorlar əlindən,*
*Müftə yeyin Azərbaycan elindən.*
*Yalan düşməz heç bunların dilindən,*
*Zəhərlənsin görüm vəba yelindən…*

*Nə etdiniz görüm siz bu millətə,*
*Düçar olmuş əksər dərdi, zillətə,*
*Xor baxırlar elmə, mədəniyyətə,*
*Düşmənsiniz xalqa, insaniyyətə…*

*Əbəs yerə Şaiq, yorma özünü,*
*Onlar sevməz sənin doğru sözünü,*
*Deyir onlar: dinmə, sən yum gözünü,*
*İstəmirlər görə sənin üzünü.*

Öz incə və lirik şerləri ilə istər yaşlılar, istərsə də gənclər tərəfindən sevilə-sevilə oxunan, pedaqoji və ədəbi fəaliyyəti gündən-günə oxuculara tanınan Xosrov Axundzadənin yaradıcılığı da şübhə yoxdur ki, azəri pedaqogikası və poeziyasında özünə layiqli yer tutacaqdır.

## Mirzə Xosrov Şaiqin Mir Möhsün Nəvvab haqqında tədqiqat xarakterli xatirələri

*(Nəvvabın anadan olmasının 170 illiyi münasibətilə Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyində keçirilən yığıncaqdakı çıxışımın mətni)*

Azərbaycan xalqının görkəmli ədibi, müəllimi, rəssamı, nəqqaşı, xəttatı, astronomu, riyaziyyatçısı və musiqişünası olan Mir Möhsün Seyid Mir Əhməd oğlu Nəvvab Qarabaği /833-1918/ ensiklopedik biliyə malik bir şəxs idi. O, dövrünün tərəqqipərvər, uzaqgörən alimi hesab olunurdu.

Mir Möhsün Nəvvab Qarabaği öz yaradıcılıq yolunda bir çox çətinliklərə rast gəlsə də, şərəfli, ibrətamiz bir yol keçmişdir. Buna baxmayaraq o, bir sıra əsərlər yazıb xalqımıza nümunə qoymuşdur. Onun 20-dən artıq kitabı və bir sıra rəsm əsərləri vardır.

Qeyd etmək olar ki, Şuşada Mir Möhsün Nəvvabın «Məclisi-fəramuşan» ədəbi dərnəyi öz qüdrətinə görə Qarabağda böyük şöhrət qazanmışdır. Nəvvab Şuşada yuxarı məscidin həyətində xüsusi bir mənzil düzəltdirmişdir. Onun bu mənzili «Məclisi-fəramuşan» ədəbi dərnəyinin qışlağı olub, yay fəslində isə Cıdır düzündə, sıldırım qayalar arasında «Ağzı yastı kaha» deyilən yerdə təşkil edilərdi. Ədəbi məclisin üzvlərindən Həsənəli xan Qaradaği, Abış bəy, Mirzə Əli Aşiq, Məşədi Əyyub Baki, Abdulla bəy Asi, Növrəs Ələsgər və başqaları ora toplaşaraq, müxtəlif mövzularda söhbətlər edər və yazdıqları əşarı müzakirəyə qoyardılar. Bundan başqa məclis üzvlərinin suallarına, şikayətlərinə müxtəlif cavablar yazmaqla öz məharətlərini bildirərdilər.

1906-cı ildən Mir Möhsün Nəvvabın «Məclisi-fəramuşan» ədəbi dərnəyinə üzv seçilən, Şuşada 50 illik pedaqoji fəaliyyəti olmuş, pedaqoq, şair və Qarabağın tarixçisi Mirzə Xosrov Axundzadə-Şaiqin Nəvvabın həyat və yaradıcılığına aid Azərbaycan Milli EA-nın Əlyazmaları İnstitutunun fondunda və onun şəxsi arxivində müfəssəl əlyazmaları vardır.



1913-cü ildə Mir Möhsün Nəvvabın Orucov qardaşlarının mətbəəsində çap olunmuş «Təzkireyi-Nəvvab» kitabi yüzə qədər Qarabağ şairləri haqqında məlumat və onların həyatından səhifələr verir. Həmin kitabda Xosrov Şaiqin maarif və mədəniyyətin inkişafından bəhs olunan «Ey vətəndaşlar gəlin elm əxz edib aqil olaq» misrası ilə başlanan şeri çap edilmişdir:

*Ey vətəndaşlar gəlin elm əxz edib aqil olaq,*
*Qeyri millətlər kimi hər elmdə kamil olaq.*
*Elm Xurşuda məsəldir çün ziya bəxşi cahan,*
*Cəhli zülmətdən çıxıb elmə tərəf mail olaq.*

*Elmə müştaq olmayan insan deyil, vallahi bil,*
*Elm ilə lazımdı bil, məqsədlərə nail olaq.*
*Elmdən qeyri bizə bir çarə yox, qardaşlarım,*
*Şövq ilə təhsili elmə uyub hamı qabil olaq.*

Xosrov Şaiq, özünün ədəbi yaradıcılığında Mir Möhsün Nəvvabın həyat və fəaliyyətinə xüsusi yer vermişdir. Bu baxımdan Xosrov Şaiqin Azərbaycan Milli EA-nın Əlyazmaları İnstitutunun fondunda qorunan «Xatirələrim» adlı əlyazmaları daha çox əhəmiyyətə malikdir.

Qeyd etmək olar ki, Xosrov Şaiqin «Mir Möhsün Nəvvab Qarabaği haqqında xatirələrim» fəslində şairin həyatından qısa məlumat verərək, onun yaradıcılığına keçmişdir. Burada o, Nəvvabın qiraətxanasından, çapxanasından, çap üsulundan, cildxanasından, ədəbi məclisindən, ixtirasından, musiqi elminə aid əsərlərindən bəhs etmişdir. Bundan əlavə, əsərdə Nəvvabın xalqa xidmətindən, zəhməti sevməsindən ətraflı danışaraq, onu təbiətşünas alim kimi də işıqlandırmışdır. Bununla yanaşı, Mirzə Xosrov Şaiq əsərində Mir Möhsün Nəvvabın mollalar haqqında şerlərini də vermişdir.

Mir Möhsün Nəvvab, Bağçasarayda çıxan «Tərcüman» və Tiflisdəki, «Qafqaz» qəzetlərinin müxbiri olmuşdur.

Mirzə Xosrov «Xatirələrim» əsərində yazır:

- Mir Möhsün Nəvvabın mətbuatın xalq kütləsi içərisində yayılmasında böyük rolu olmuşdur. 1903-cü ildə Şuşada məscid həyətində onun təşəbbüsü ilə bir mərtəbəli binada qiraətxana təşkil olunmuşdur. Qiraətxanaya Bakıdan «Əkinçi», Tiflisdən «Ziya», «Kəşkül», «Qafqaz», Moskvadan «Pravda» və «İskra» qəzetləri ilə bərabər müxtəlif jurnallar da gətirdərdi. Hətta Hindistandan «Həblülmətin», İstanbuldan «Səba», Tehrandan «Nasiriyyə», Parisdən, Berlindən, Vyanadan, Peterburqdan xəritələr, Krımdan «Tərcüman» qəzeti gətirtməklə Şuşa əməkçiləri arasında mətbuatı yayardı. Qiraətxanaya o dövrün maarif və tərəqqipərvər ziyalıları gələrdilər. Belə ziyalılardan Haşım bəy Vəzirov, Fərhad Ağazadə, Mirzə Cəlil Məmmədquluzadə, Yusif Əliyev, Məmməd Həsən bəy, Kərim bəy Mehmandarov və başqa şəxslər qiraətxanadan istifadə etməklə, qəzet və jurnallara da abunəçi idilər. Qəzet və jurnalların gəlməsi haqqında çar jandarmları məlumat alaraq dəfələrlə Nəvvabın qiraətxanasını və yaşadığı mənzili axtarmışlar.

Mirzə Xosrov Şaiqin şəxsi arxivində Mir Möhsün Nəvvabın xatirəsinə həsr etmiş olduğu «Şuşanın çayı» poeması da diqqəti cəlb edir. Poema yeddi fəsildən ibarətdir. «Fikrim quşu seyr etmədə sürətlə fəzanı» misrası ilə başlayan birinci hissədə Xosrov Şaiq bir dəqiqəlik xəyalən səmanı seyrə çıxır, sürətlə gedib parlaq olan nöqtəyə çatır:

*Sürətlə gedib parlaq olan nöqtəyə çatdım,*
*Bir kölgə görər-görməz özümü ora atdım.*
*Baxdım tanıyıb mən ona təkrimlər etdim,*
*Nəvvabı bilərkən ona təzimlər etdim.*

*Gözlərəm əmrinizi söyləyin eyləyim ifa,*
*Hazıram göstərişin eyləməyə mən icra.*
*Söylədi qayıt yer üzünə tez mənə Nəvvab,*
*Sən uçub Mirfəssehə bu işə eylə şitab.*

Poemanın «Basmışdı bu yer qoynuna bir çox üdabani» misrası ilə başlanan ikinci fəslində Xosrov Şaiq 86-ya kimi Şuşada yetişmiş istedadlı ədiblərin, arifi – kamil adamların adlarını çəkir və onların xalqımıza göstərdikləri xidmətdən bəhs edir. Eyni



zamanda XIX əsrin qabaqcıl şairəsi olan Xurşudbanu Natəvandan və onun rəhbərlik etdiyi «Məclisi-üns» ədəbi dərnəyindən ətraflı söz açır. Molla Pənah Vaqif, Mir Möhsün Nəvvab kimi şairlərin həyatdan ayrılmasına çox təəssüf edir:

*Basmışdır bu yer qoynuna bir çox üdəbanı,*
*Almışdı öz ağuşinə bir çox şüəranı.*
*Olmuşdur vətən torpağı alimlərə məskən,*
*Almış mədəni mərkəz adını bu yer erkən.*

*Bu yerdə ədiblər yetişib həddü – kəmala,*
*Bir çoxları nail olaraq fikrü – məala.*
*Vaqifləri, Nəvvabiləri Şişə yetirmiş,*
*Əfsus belə şəxsləri Şişə itirmiş.*

*Natəvan şairəyə şerdə gəldi diqqət,*
*Əmr edir nöqteyi hissim ona eylə diqqət.*
*Natəvan şer səmasında günəş tək parlaq,*
*Xalqımız içrə belə şairəyə vardır maraq.*

*İncəliklə doludur sözləri bu şairənin,*
*Çoxdur şerində dərinlikləri bu mahirənin.*
*Şairə şəxsən özü «Məclisi-ünsə» rəhbərlik edib,*
*Çox yazışma hər iki dərnək arasında gedib.*

Xosrov Şaiq poemanın üçüncü fəslində Şuşanın keçmiş loğman və həkimlərinin adlarını çəkir. Müəllif burada məşhur həkim Mirzə Sadığın, Kərim bəy Mehmandarovun və professor Azad Əmirovun xalqa göstərdikləri xidmətdən bəhs edir.

Poemanın dördüncü fəslində Xosrov Şaiq, Azərbaycanın klassik musiqi ənənələrindən ürək dolusu ilə danışaraq xalqımızın fəxr etdiyi bəstəkar – professor Üzeyir Hacıbəyovun və xalq musiqimizin inciləri sayılan Cabbar Qaryağdıoğlunun, Məşədi Dadaş Muradxanovun, Seyid Şuşinskinin, Molla Vəlinin, Bülbülün, Xan Şuşinskinin, Hacı Hüsünün, Şəkər oğlu Kərimin, Məşədi İsinin, Sadıqcanın, Məşədi Zeynalın və başqalarının muğam ustalıqlarından bəhs edir:

*Şuşanın saysam əgər minlər ilə bülbülü var,*
*Musiqi gülşəninin türfə açılmış gülü var.*
*Vətənim musiqinin mərkəzi şəhri olmuş,*
*Oxuyanlarla, çalanlar bu yurduma dolmuş.*

*Tərifə gəlməz inan, Molla Vəlinin boğazı,*
*O boğazdan çıxarardı nə gözəl avazı.*
*Cabbarın vardır bizim ölkədə yüksək adı,*
*Musiqi elminin olmuşdur gözəl ustadı.*

*Var iki bülbülümüz-Xan, birisi Bülbüldür,*
*Hər biri ölkəmizdə gül, həmi də bülbüldür.*
*İki bülbül: biri Xandır, digəri Bülbüldür,*
*Xanda bülbüldür, fəqət Bülbül özü bülbüldür.*

Poemanın beşinci fəslində Şuşa şəhərinin bani əslisi olan Pənah xan hakimiyyətindən danışılaraq Xosrov Şaiq «Qarabağın tarixçisi» kimi çıxış edir:

*Şişənin bani əslisi Pənahxan olmuş,*
*Hakimiyyətdə onun hökmünə imkan olmuş.*
*Şəhərin ətrafını möhkəmcə hasar etmişdir,*
*Az zaman içrə o, öz istəyinə yetmişdir.*

«Şuşanın çayı» poemasının altıncı fəsli Böyük Vətən müharibəsi illərində sovetlər ittifaqının alman faşistlərindən azad edilməsində iştirak edən Şuşanın qəhrəman övladlarından bəhs edilir:

*Növbə gəldi vətənin qəhrəman oğlanlarına,*
*Qalxaraq göylərə tərlantək uçan qızlarına.*
*Qəhrəman Ənvərimiz, yurdumuzun şir balası,*
*Fəxr edir Ənvərə həm xalqımız həm öz anası.*

*Belə yazmışdı: mən ölsəm də ana qəm eləmə,*
*Dərdlənib ağlayaraq hanı Ənvər sözü demə.*
*Vətənim min dəfə qiymətləndirir məndən də ana,*
*Çox şərafətlidir məndən də və səndən də ana.*



Poemanın axırıncı yeddinci fəslində yeni quruculuğa qədəm qoymuş xalqımızın əldə etdiyi nailiyyətlər tərənnüm edilir:

*Yenə parlaq vətənim şəmsi kimi parlayacaq,*
*İncəsənət, mədəniyyət daha parlaqlanacaq.*
*Açacaq qırmızı güllər bağa ətri dolacaq,*
*Yenə bizim küçədə qırmızı bayram olacaq.*

Xosrov Şaiq, «Şuşanın çayı»poemasını yenə də Mir Möhsün Nəvvabın əziz xatirəsilə bitirir:

*Şad edərdi səni Nəvvab bizim işlərimiz,*
*Mədəni yüksəlişimiz, ədəbi gedişimiz.*
*Çox böyük xidməti var ölkəmizə Nəvvabın,*
*Var g özəl tövsiyəsi xalqımıza Nəvvabın.*

*Diridir, ölməyəcək beylə böyük simalar,*
*Var həkimanə kəlamında onun imalar.*
*Beylə simaları ancaq yetirən Şişəmdir,*
*Yetirən Şişəm isə hək ikrəm Şişəmdir.*

Xosrov Şaiq bundan başqa digər əlyazmalarında da Mir Möhsün Nəvvabın həyat və yaradıcılığına və yaşadığı yerə dair məlumat xarakterli sətirlər verir. Bu baxımdan, onun Azərbaycan Milli EA-nın Əlyazmaları İnstitutunun fondunda saxlanılan «Şuşada XIX əsr Azərbaycan yazıçı və şairlərilə əlaqədar olan tarixi yerlər» əlyazması təqdirəlayiqdir. Əsərdə o, Molla Pənah Vaqifin, Xurşudbanu Natəvanın, Məmməd bəyin, Gövhər ağanın, Nəcəfqulu ağanın, Qasım bəy Zakirin, Süleyman Sani Axundovun, Əbdürrəhim bəy Haqverdiyevin, Nəcəf bəy Vəzirovun, Firidun bəy Köcərlinin, Üzeyir Hacıbəyovun, Zülfüqar Hacıbəyovun, Məşədi Əyyub Bakinin, Mirzə Cəlil Məmmədquluzadənin, Mir Möhsün Nəvvabın və Cabbar Qaryağdıoğlunun yaşadıqları yerlər haqqında ətraflı məlumat vermişdir. Eyni zamanda o, bu

əlyazmasında da Mir Mövsün Nəvvabın həyat və yaradıcılığını tədqiq etmişdir.

Qeyd etmək olar ki, Xosrov Şaiqin «Xatirələrim» əsəri Nəvvabın həyat və yaradıcılığını əhatə edən tədqiqat işidir. Bu da Nəvvabşunas alimlərimiz üçün mühüm elmi mənbədir. Buna görə də Mir Möhsün Nəvvabın əsərlərinin müvafiq nəşriyyatlarımız tərəfindən vaxtında çapdan buraxılması zənnimizcə oxucularımızı alimin həyat və yaradıcılığı ilə daha yaxından tanış edərdi.

Zəmanəsinin görkəmli alimi və rəssamı Mir Möhsun Nəvvabın həyat və yaradıcılığına aid yazılan elmi əsərlərin çap olunmasının və Nəvvab irsinin tədqiq edilməsinin vaxtı çoxdan çatmışdır.

*Bakı şəhəri, 23. 04. 2003-cü il.*



## Səməd Vurğunun Xosrov Şaiqlə görüşü

Hər kəsin öz xatirəsində maraqlı təəssüratları olur. Belə xatirələrdən biri də Mirzə Xosrov Şaiqin xalq şairimiz səməd Vurğunla görüşü idi. Doğrudur, Mirzə Xosrovun həmin xatirələri qələmə alması barəsində əlyazması yoxdur. Lakin onun Səməd Vurğunla Şuşada görüşü haqqında danışıqları mənim yadımdan hələ də silinməmişdir. Buna görə də həmin xatirələrdən yadımda qalanları oxuculara çatdırmaq istərdim.

Azərbaycan Milli ədəbiyyatımızın klassiki, görkəmli şair və dramaturq, böyük nəzəriyyəçi Səməd Vurğunun anadan olmasının 90 illik yubileyinin əlamətdar bir dövründə onun haqqında və Səmədlə əlaqədar yadda qalanları açıb söyləmək, əlbəttə, yerində olardı.

Təxminən 1930-cu illərdən Şuşa şəhərində «Yazıçılar evi» fəaliyyət göstərirdi. Bina Şuşanın səfalı bir sahəsində yerləşirdi. Çox təəssüf ki, baxımsızlıq ucbatından bina, nəhayət, sıradan çıxmış və bir müddətdən sonra həmin bina sökülmüşdür.

1938-ci ilin axırlarında görkəmli xalq şairi Səməd Vurğun Şuşaya gəlmiş və bir qrup yazıçılarla həmin binada dincəlmişdir. Onun yazmış olduğu «Vaqif» pyesi ilk dəfə olaraq Şuşada müzakirə olunmuşdur.

Səməd Vurğun Şuşada hörmətli şəxslərdən eşitmişdir ki, Şuşanın tarixini dərindən bilən Mirzə Xosrov Şaiq adlı bir müəllim vardır. O, Şuşanın yerli hökumətindən xahiş edir ki, həmin şəxsi «Yazıçılar evi»nə dəvət etsinlər. Mirzə Xosrov bu dəvəti məmnuniyyətlə qəbul edib «Yazıçılar evi» nə gəlir. O, ilk baxışdan Səməd Vurğunu tanıyır. Bu anda Səməd ayağa durub Mirzə Xosrova yer göstərir. Məclisdəkilər hamı arıq bədənli, orta boylu, iri gözlü, sanki sifətindən təbəssüm hiss olunan bu kişiyə diqqət edirdilər.

Mirzə Xosrov qəlyanına tənbəki doldurub aram-aram tüstülətməyə başladı. Hərdənbir baş barmağı ilə tənbəkini

qəlyanının içərisinə yeridirdi. O, səbrsizliklə gözləyirdi ki, görəsən Səməd Vurğun hansı məsələdən ona sual verəcəkdir.

Səməd Vurğun Mirzə Xosrova yaxınlaşıb onu çox mehribanlıqla süzdü. Mirzənin üzünə çoxdankı dost kimi gülümsəyərək, ona aram-aram suallar verməyə başladı. Onun hansı məktəbdə müəllimlik etdiyini soruşdu.

Səməd Vurğuna Mirzə Xosrovu Qarabağ tarixini dərindən bilən bir şəxs kimi tanıtmışlar. O, buna görə də Xosrov müəllimdən 1938-ci ildə yazıb tam başa çatdırdığı «Vaqif» pyesində cərəyan edən hadisələr haqqında soruşmağı qarşısına əsas məqsəd qoymuşdur.

Səməd Vurğun Vaqif haqqında uzun müddət düşünmüş və onun bədii obrazını yaratmaq üçün bir neçə dəfə təşəbbüs göstərmişdir. Buna görə də əsərdəki surətlərin dərhal real şəkildə səslənməsi məqsədilə, o, Qarabağ tarixinə dair tarixçilərin əsərlərini dönə-dönə nəzərdən keçirmiş və Qarabağa, xüsusən Şuşaya dərindən bələd olan ağsaqqalların kəlamlı sözlərinə diqqətlə qulaq asmışdır. O, bu mənada Mirzə Xosrov Şaiqlə görüşməyi məsləhət bilmişdir. Səməd Vurğun Mirzə Xosrovu yenidən suala tutur:

- Mirzə, bəlkə yazdığım «Vaqif» dramı haqqında öz fikirlərinizi bildirəsiniz? Əsərdə iştirak edən surətlərin fəaliyyətinə necə münasibət bəsləyirsiniz? Bu barədə öz fikirlərinizi deyə bilərsinizmi?

Mirzə Xosrov bu sualların qarşısında Səməd Vurğundan bir qədər çəkinərək belə cavab verdi:

- Hörmətli şairimiz, Sizə bildirmək istəyirəm ki, «Vaqif» pyesində bəzi tarixi təhriflərə yol verilsə də, Sizin əsərdə dövrün pafosu və ruhu düzgün əks etdirilmişdir.

Xalqımızın mübarizəsini, şəxsən Vaqif rolunda Siz düzgün əks etdirmişsiniz. Lakin bununla yanaşı, əsərdəki bəzi surətlər barəsində öz fikrimi bidirmək istərdim:

- əvvəla, Vaqifin oğlu Əli bəyin öz sağlığında toyu olmamışdır;

- ikincisi, Vaqifin həyat yoldaşının adı Xuraman yox, Qızqayıt adlanır;



- üçüncüsü, Vaqifin arvadı Qızqayıt Vaqifdən sonra bir neçə dəfə ərə getmişdir;

- dördüncüsü isə, Qızqayıt özünü Cıdır düzü qayasından atmamışdır.

Səməd Vurğun gülümsünərək, Mirzə Xosrova öz təşəkkürünü bildirib demişdir:

- Mirzə, əlbəttə, Siz dedikləriniz doğrudur. Lakin yadda saxlamaq lazımdır ki, dram əsərini realizm ruhunda səsləndirmək üçün əsərdəki surətlərin adlarını və fəaliyyətini dəyişdirmək daha faydalıdır.

Görkəmli şairimiz Səməd Vurğunla olan bu görüşü Mirzə Xosrov müəllim ömrünün axırına kimi məclis dostları arasında xatırlayıb danışardı.

## Mirzə Xosrovun Əliağa Vahidlə ədəbi əlaqələri

1958-1959-cu illərdə Mirzə Xosrov Axundzadə-Şaiq milli ədəbiyyatımızın iftixarı, qəzəlxan Əliağa Vahidlə Bakı şəhərinin beşmərtəbəli binasının qarşısındakı bağda görüşüb tanış olmuş və dostluq müddətində onları bir-birinə bağlayan poeziya aləmi olmuşdur.

Həmin müddətdən də Əliağa Vahid ilə Mirzə Xosrov-Şaiq arasında qarşılıqlı ədəbi mübadilə yaranmışdır. Buna görə də Əliağa Vahid «Naz edir bülbülə gül, bil belə mə'nası nədir?» rədifli qəzəlini Mirzə Xosrov Şaiqə vermiş və cavab yazmağını ondan xahiş etmişdir.

Xosrov Şaiq də həmin qəzələ aşağıdakı kimi nəzirə yazmışdır. Əliağa Vahidlə Mirzə Xosrov-Şaiq arasında qəzəl deyişməsi:

**Əliağa Vahid:**
Naz edir bülbülə gül bir belə mə'nası nədir?
Bülbülün bəs gülü sevməkdə təmənnası nədir?
**Xosrov Şaiq:**
Naz edir bülbülə gül nazlıdı, mə'nası budur,
Bülbülün vardır gülə eşqi, təmənnası budur.
**Əliağa Vahid:**
Aşiq hər cövrə dözər, bəlkə də bir hikməti var,
Bu işin fikr elə gör əsl müəmması nədir?
**Xosrov Şaiq:**
Etsə gör aşiqinə xoşdu fəraqilə nigar,
Firqətin ləzzəti var əsl müəmması budur.
Hər şeyin ayrılığı həzzilidir vəslindən,
Ömrü ümmidilədir qabili icrası budur.
Vəsl ümmid ilə ayrılığın ləzzəti var,
Ömr saatlarının qiyməti əlası budur.



**Əliağa Vahid:**
Öldürür, gündə dirildir, məni öz cananım,
Keçmişin indi mənə mö'cüzi İsası nədir?
**Xosrov Şaiq:**
Çeşmi canandır bu qüvveyi mot ilə həyat
Keçmişin indi bilin mö'cüzi İsası budur.
**Əliağa Vahid:**
Bülbülün bu qədər naləsi dünyanı tutur,
Kimsə bilmir hələ qəlbindəki sevdası nədir?
**Xosrov Şaiq:**
Bülbülün naləsi gülşəndə tutub dünyanı,
Qəsti gül vəslidə qəlbindəki sevdası budur.
**Əliağa Vahid:**
Mən olan yerdə mənim tək ola bilməz Məcnun,
Sən olan yerdə onun sevdiyi Leylası nədir?
**Xosrov Şaiq:**
Yarına eşq həqiqəsi olan Məcnundur,
Yar əgər olsa vəfalı, ona Leylası budur.
**Əliağa Vahid:**
Qoyma incitsin ipək köynək o nazik bədəni,
Hansı güldə bu lətafət? Onun ə'zası nədir?
**Xosrov Şaiq:**
Qoymaram inciyə fəxrilə deyir pirəhəni,
Qucmuşam incə təni fəxrimin mənası budur.
**Əliağa Vahid:**
Sən də, Vahid, vətənin güllərinin aşiqisən,
Sən ki, varsan, çəmənin bülbülü-şeydası nədir?
**Xosrov Şaiq:**
Şaiqəm, çox sevirəm mən də vətən güllərini,
Güllərə aşiq olan bülbülü şeydası budur.
Vətənin gülləri bil Xosrov üçün Şirindir,
Könlü Şirin ilədir, şəhdi müsəffası budur.

## Təntənəli gecədə

1995-ci il noyabr ayının 7-də Şəhriyar adına mədəniyyət mərkəzində görkəmli qəzəlxan Əliağa Vahidin anadan olmasının 100 illik yubileyi münasibətilə Bakı şəhər Mədəniyyət İdarəsinin təşkil etdiyi gecədə mən də çıxış etdim. Əliağa Vahidin «Naz edir bülbülə gül, nazlıdı mənası nədir?» rədifli qəzəlinə atam Mirzə Xosrov Şaiqin cavabını - daha doğrusu, Əliağa Vahidlə Mirzə Xosrovun deyişmə qəzəlini tamaşaçılar qarşısında oxudum. Məni gurultulu alqışlarla qarşıladılar.

Bir sözlə, həyatımda ilk dəfə idi ki, bu cür məclisdə əruz vəznilə çıxış edirdim. Həmin gecədə xalq artisti İslam Rzayev, Əlibaba Məmmədov və başqa müğənni qadınlar da özlərinin repertuarları ilə çıxış etmişlər.

# GÖRKƏMLİ ELM VƏ MƏDƏNİYYƏT XADİMLƏRİ

## Akademik Mehdi Mehdizadə haqqında xatirələrim

Arxiv materiallarına nəzər saldıqda Mehdi Mehdizadənin atam Mirzə Xosrov Axundzadə ilə pedaqoji əlaqələrinin 1946-cı ildən başladığını ayırd etmişəm. Bu sənədləri atamın 50 illik pedaqoji fəaliyyətini tədqiqat apararkən aşkara çıxarmışam.

M.X.Axundzadənin pedaqoji fəaliyyəti onun sağlığında və vəfatından sonra respublikamızın tanınmış pedaqoqlarının, o cümlədən, akademik M.Mehdizadə, professorlardan Ə.Seyidovun, Y.Zeynalovun, A.Abdullayevin, K.Məmmədovun, Ə.Qarabağlının, Y.Talıbovun, Ə.Ağayevin, Y.Kərimovun və başqalarının diqqətini cəlb etmişdir. Belə ki, Mehdi Mehdizadə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tədris hissəsi üzrə direktor müavini vəzifəsində işlədiyi dövrdə (1948-ci ildə) Şuşa şəhərində yaşayıb yaratmış pedaqoq Mirzə Xosrovun ünvanına İnstitutun direktoru, pedaqoji elmlər doktoru, əməkdər elm xadimi, professor Əhməd Seyidovla birlikdə, rəsmi məktub (3 səhifədən ibarət) göndərmiş və pedaqoji təcrübələrini yazıb İnstituta göndərməyi ondan xahiş etmişlər, əlyazmalarının çap olmasına köməklik göstərəcəyini qətiyyətlə bildirmişdir.

Həmin məktubda deyilirdi:

- «Klassiklərin tərbiyə haqqındakı tə'liminə istinad edərək məktəblərimiz gənc nəslin təlim-tərbiyə işində yüksək dərəcədə dəyərli nəticələr qazanmışdır. Məqsədimiz məktəblərin həm sayca inkişafını, həm də kamilləşdiyini işıqlandırmaq, 30 il ərzində gənc nəslə tərbiyə vermək işində qazanmış olduğu qiymətli təcrübələrini ümumiləşdirmək və yekunlaşdırmaqdır. Bu məsələləri doğru və həqiqətə uyğun bir surətdə öyrənmək siyasi və elmi əhəmiyyəti olan böyük bir məsələdir. Ona görə də Siz və Sizin kimi qabaqcıl müəllimlərin məktəblərimizin bilavasitə qurucularının iştirakı, köməyi olmadan bu ağır vəzifəni layiqincə yerinə yetirmək çox çətindir. Məhz bu mülahizələrə əsasən



məktəblərimizin tarixinə dair öz xatirələrinizi təqdim etməklə bizə yardım göstərməyinizi xahiş edirik»*.

M.X.Axundzadə 1946-cı ildən başlayaraq 50 illik (1906-1956) pedaqoji təcrübə və mülahizələrini qələmə alıb bir yerə cəmləşdirərək «Pedaqoji mülahizə və təcrübələrim» adında 4 çap vərəqi həcmində əsər yazıb gənc nəslə yadigar qoymuşdur. Onun vəfatından sonra əsərin çap olunması üçün 1968-ci ildə respublikanın keçmiş Maarif Naziri, akademik Mehdi Mehdizadəyə müraciət etmişdim. O, məni çox diqqətlə dinləmiş və «Maarif» nəşriyyatının keçmiş direktoruna rəsmi məktub göndərərək M.X. Axundzadənin «Pedaqoji mülahizə və təcrübələrim» əsərinin 4 çap vərəqi həcmində nəşriyyatın gələcək tematik planına salınmasına göstəriş vermişdir.

Lakin Nazirliyin həmin məktubu nəşriyyatın baş redaktoru tərəfindən uzun müddət əsassız olaraq gizlədilmiş və əsərin müvafiq ilin tematik planında nəzərdə tutulması təxirə salınmışdır.

Mən uzun müddət bu haqsızlıqla mübarizə apararaq, nəhayət, 1990-cı ildə əsərin «Maarif» nəşriyyatının tematik planına salınmasına nail olmuşam.

Akademik Mehdi Mehdizadənin mənə olan səmimiyyətini heç vaxt unutmaram. Keçmiş SSRİ Pedaqoji EA-nın həqiqi üzvü, akademik Mehdi Mehdizadə ilə ikinci dəfə görüşüm 1981-ci ilin mart ayında olmuşdur. Belə ki, Azərbaycan Sovet Ensiklopediyasının VI cildinə Mirzə Xosrovun haqqında mə'lumat daxil edilmək üçün Ensiklopediyanın baş redaktor müavini, filologiya elmləri doktoru, professor Araz Dadaşzadə, pedaqoq Mirzə Xosrovun «Pedaqoji mülahizə və təcrübələrim» əlyazmasına rə'y verilməsi üçün əsəri akademik Mehdi Mehdizadənin ünvanına göndərdi. Mehdi müəllim həmin ilin mart ayının 28-də əsərə qısa, lakin məzmunlu rə'y yazmışdır. Mehdi müəllim Araz Dadaşzadədən xahiş etmişdir ki, Mirzə Xosrovun oğlunu onun yanına

---

*Həmin sənəd hazırda respublikanın «Xalq Təhsili Dövlət muzeyi»ndəki Mirzə Xosrov Axundzadənin şəxsi fondunda qorunub saxlanılır.

göndərsinlər və gəlib rəyi redaksiyaya aparsın. Həmin gün Araz Dadaşzadə məni Mehdi müəllimin ünvanına göndərdi.

Mehdi müəllim İçərişəhərin «Qız qalası»na - keçmiş «Xalçaçılıq muzeyi»nə yaxın (hazırda məsciddir). Mirzə Şəfi küçəsi 19-da yerləşən binada yaşayırdı. Verilən ünvandakı binanı tapıb 2-ci mərtəbəyə qalxdım. Qapının zənginin düyməsini basıb gözlədim. Məni qarşılayan Mehdi müəllim idi. O, qapını açıb məni mehribancasına içəri dəvət etdi. Mənimlə təvazökarcasına salamlaşıb yaradıcılıq otağına apardı. Mirzə Xosrovun oğlu olduğuma çox məmnunluğunu bildirdi. Mənə əyləşməyimi məsləhət gördü. Sonra Mirzə Xosrov haqqında yazdığı rə'yi mənə oxuyub və qeyd etdi ki, Mirzə Xosrov Axundzadənin «Pedaqoji mülahizə və təcrübələrim» əsəri pedaqogika tariximizin öyrənilməsində çox əhəmiyyətlidir. Mirzə Xosrov Axundzadə zəmanəsinin çox görkəmli, məharət və fədakarlıqla yarım əsr ibtidai məktəbdə çalışan pedaqoqlarından olmuşdur. Ona görə də Mirzə Xosrovu ASE-yə daxil etməyə mən də tərafdaram.

Mehdi müəllimin göstərdiyi təşəbbüs nəticəsində Mirzə Xosrov Mirzə Əli oğlu (Axundov) - Axundzadə ASE-nın VI cildində öz yerini tutmuşdur*.

---

* Qeyd: Bu məqalənin digər forması «Azərbaycan müəllimi» qəzetinin 18 dekabr 1997-ci il tarili nömrəsində «Böyük təəssüfkeş» başlığı ilə dərc olunmuşdur.



## Akademik Ziya Bünyadov haqqında xatirələrim

Ziya müəllim zəmanəsinin böyük alimi, elmin iste'dadlı təşkilatçısı və görkəmli ictimai xadimi idi. Ona verilən adda da bir hikmət vardır. O, həqiqətən də mərd və cəsur insan idi.

Mən Ziya müəllimlə 1992-ci ildə yaxından tanış oldum. 1990-cı ildə İnstitutumuz yenidən bərpa olunmuşdur. Daha doğrusu, İnstitut yeni status – Azərbaycan Dövlət İqtisad İnstitutu adını almışdır. Biz İnstitutun adının Azərbaycanın məşhur iqtisadçı alimlərindən birinin adına verilməsini qərarlaşdırmışdıq.

Mən bu məqsədlə İnstitutun muzeyinin əsaslı fondunu yenidən araşdırdım. Azərbaycanda ilk iqtisadçı alim Həsənbəyov Balabəy Cabbar oğlu haqqında akademik Ziya Bünyadovun «Elm» qəzetinin 18 aprel 1990-cı il tarixli nömrəsindəki «Sledstvennoe delo № 12493» adlı məqaləsini pərişanlıqla oxudum.

Azərbaycan SSR Daxili İşlər Xalq Komissarlığının Dövlət təhlükəsizlik İdarəsinə daxil olan 28 yanvar 1937-ci il tarixli arayışında iqtisadçı-professor Həsənbəyov Balabəy Cabbar oğlunun Azərbaycan Dövlət Universitetinin rektoru vəzifəsində işlədiyi göstərilir. Akademik Ziya Bünyadov professor Balabəy Həsənbəyovun Dövlət təhlükəsizlik İdarəsindəki ədalətsiz istintaq işinin gedişatını tam təfsilatı ilə tədqiq etmişdir.

1990-92-ci illərdə İnstitutun rektoru vəzifəsində işləmiş professor Fuad Ələsgərovla məsləhətləşərək İnstitutu professor Həsənbəyov Balabəy Cabbar oğlunun adına verilməsi barədə vəsadət hazırlanması üçün akademik Ziya Bünyadovdan məsləhət almağı məqsədəuyğun hesab etmişdik. Bu məqsədlə 1992-ci ilin may ayında mən Azərbaycan SSR EA-nın vitse-prezidenti, akademik Ziya Bünyadovun yanına getdim. Onun iş otağı Akademiyanın əsas binasının 3-cü mərtəbəsində yerləşirdi. O, başında bozumtul rəngli araqçın stolunun arxasında əyləşmişdi. İçəri daxil olmağımı görüb tez ayağa durub mənimlə salamlaşdı və stulu çəkib mənə əyləşməyimi göstərdi.

Mən Azərbaycan Dövlət İqtisad İnstitutundan gəlməyimi bildirib məqsədimi açıqladım. Sonra Ziya müəllimə yenidən yaradılmış İnstitutmuzun Balabəy Həsənbəyovun adına verilməsi haqqında rektorluğun fikrini bildirdim. Buna görə də Həsənbəyov haqqında mə'lumat verməsini Ziya müəllimdən xahiş etdim. O, məni dinlədikdən sonra qeyd etdi ki, Həsənbəyov dövrünün çox hörmətli şəxsiyyəti olub, iqtisadçı-alim kimi tanınmış bir insandır. 37-ci illərin ağır dəhşətləri onu sıramızdan silmişdir.

Lakin müstəqil respublikamızın fəaliyyətində Balabəy Həsənbəyov, nəhayət, bəraətini qazandı. Artıq gizli arxivlər açıldı.

Mən onun haqqında Dövlət Təhlükəsizlik Komitəsinin arxiv materiallarını ətraflı araşdırmışam. Oxuduğun «Elm» qəzeti Sizə yaxşı mə'lumdur. Bir sözlə institunuzun Balabəy Həsənbəyovun adına verilməsi təqdirəlayiq bir iş olardı.

Mən akademik Ziya Bünyadovla ilk tanışlığıma çox məmnun qaldım. O, doğrudan da Azərbaycan torpağının parası idi.

Mən Ziya müəllimi Böyük Vətən müharibəsi illərində cəsur bir qəhraman olduğu haqqında oxumuşdum. Biz ilk tanışlıq əsasında elə mehribanlaşmışdıq ki, hətta ona yarı zarafatla dedim:

- Ziya müəllim, bizim torpaqlar havayı erməni qəsbkarlarına qismət oldu. Düşmənlərimiz bizim Müdafiə Nazirliyində əyləşən maymaq başçılarmızdan istifadə etdilər. Yuxarıda əyləşənlər Sizin təcrübənizdən istifadə edə bilmədilər. Gərək Sizi Müdafiə Naziri tə'yin edəydilər. O, mənə cavabında dedi:

- Pərviz müəllim, mən vəzifə güdən deyiləm. Başçılarımızın heç məni görməyə gözləri də yoxdur. Sən nədən danışırsan? Bir vaxt gələcək onlar çox peşiman olacaqlar...

Doğrudan da, Ziya müəllimin sözündə bir hikmət var imiş. O, necə demişdir, elə də oldu. Müdafiə Nazirliyində çaşqınlıq baş verdi. Qoşunlarımız plansız qaydada cəbhə xəttində döyüşürdülər. Buna görə də qoşunlar uğursuz halda geri çəkilirdilər. Bunun da nəticəsində torpaqlarımız heç nədən erməni qəsbkarlarına qismət oldu...

Ziya Bünyadov böyük bir ömür yolu keçib. Doğma yurdunun qərəzsiz tarixini, Azərbaycanın əsl həqiqətlərini



bəşəriyyətə sübut edib. Məmləkətmizin ulu keçmişini dünyaya tanıtdırıb. Millət vəkili kimi Ziya Bünyadov ancaq millətinin dərdi ilə yaşamışdır. 1997-ci il fevralın 21-də böyük alim və görkəmli ictimai-siyasi xadim xaincəsinə qətlə yetirilmişdir. Öz şəxsiyyətində ən yüksək insani keyfiyyətləri birləşdirən, dünya miqyasında tanınan nəcib bir ziyalıya əl qaldırmaq xalqa və insaniyyətə qarşı ən ağır cinayətlərdəndir.

Sənə əl qaldırıb güllə atan Azərbaycan elminə qəsd edəndir. Həmin şəxslər aydın məsələdir ki, erməni terrorizminə xidmət edən adamlardır. Torpaqlarımızın verilməsində şübhəsiz ki, onların əli vardır. Onlar erməni uydurmalarını ört-bastır edənlərdir. Sən, əsrlərin dərinliyində toz basan tariximizin sirlərini açan səhifə idin. Bizi bağışla ki, səni qoruya bilmədik. Sənin faciən də millət üçün dərs oldu.

Böyük alim, böyük qəhrəman, böyük vətəndaş, böyük bəşər oğlu Ziya Bünyadov, sənin ruhun qarşısında baş əyir və diz çökürük! Biz ziyalılar bəşəriyyət qarşısında danılmaz xidmətləri olan Ziya Bünyadovun əziz xatirəsini həmişə yad edib xatırlayacağıq!

## Akademik Püstəxanım Əzizbəyova haqqında xatirələrim

Görkəmli tarixçi alim, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü, əməkdar elm xadimi, uzun müddət Azərbaycan tarixi muzeyinin direktoru olmuş, tarix elmləri doktoru, professor Püstəxanım Əzizağa qızı Əzizbəyova respublikada tarix elminin mühüm problemlərinin öyrənilməsi və tədrisi sahələrində böyük xidmətlər göstərmişdir. 300-dən artıq monoqrafiya, kitab və elmi məqalənin müəllifi olan alim bir çox ölkələrdə elmi konfrans, simpozium və qurultaylarda Azərbaycanı layəqətlə təmsil etmişdir.

Azərbaycanda muzey işinin təşkili və inkişafında Püstəxanımın əvəzsiz xidmətləri olmuşdur. Xalqımızın muzeylərdə saxlanılan maddi-mədəniyyət incilərinin geniş təbliğində, onlar haqqında məlumatların xususi bir seriya şəklində çap etdirilərək dünya sənətsevərlərinə çatdırılmasında onun əməyi böyükdür. Elə buna görə də muzeyşünaslıq sahəsində mən onunla ünsiyyət bağlaya bildim.

1970-ci ilin iyun ayında mən atam – Mirzə Xosrov Axundzadənin şəxsi mülkündəki ev əşyalarından 21 ədədini «Azərbaycan Tarixi muzeyi»nə təhvil verdim. Elə bir əşyalar idi ki, hazırda onların qiyməti danılmazdır. Həmin əşyalar tariximizə, mədəniyyətimizə, xalq sənətinə diqqət və qayğının parlaq təzahürüdür. Əgər tariximizi bu gün gənclərimiz öyrənmirsə, müəllimlərimiz dərs alan şagirdlərə və tələbələrə onu çatdırmırsa, yenə də çox böyük qəbahətlərimiz olur. Halbuki hazırda orta və ali məktəblərimizdə tədris olunan milli tariximizin tərkibində Şuşa şəhərindən yadigar qalan milli ornamentlərimizin, geyim formalarımızın, miskərlik abidələrimizin öyrənilməsi diyarşünaslıq tarixində yeni bir örnək olardı.

**Haşiyə:** Püstəxanım çox təmkinli bir şəxs idi. Onun iş otağı Hacı Zeynalabdin Tağıyevin yaşadığı binanın ləmpəsinin gözəl qızıl ornamentlərlə bəzədilmiş otağında yerləşirdi. 1985-ci ildə mən Püstəxanımın yanına getməyi qərarlaşdırdım. Muzeyin aşağı



mərtəbəsindən polis işçisi Püstəxanıma zəng edib mənim gəldiyimi bildirdi. Mən ikinci mərtəbəyə qalxıb onun iş otağına daxil oldum. Püstəxanımın baxışında nə isə bir canlanma hiss olunurdu. O, məni səmimiyyətlə qarşılayaraq əyləşməyimi xahiş etdi.

Püstəxanımın danışığından aydın oldu ki, Azərbaycanın milli mədəniyyətinin vurğunu idi. Tez ayaq üstə durub gəlməyimin səbəbini soruşdu.

Mən 1970-ci ildə ata mülkündən miras qalmış əşyaları tarix muzeyinə təqdim edərkən rəsmi akt almamışdım. Bu məsələ barəsində Püstəxanıma mə'lumat verdim. O, müvafiq şö'bədən əşyaların aktlaşdırılması ilə məşğul olan Ulduz xanımı çağırtdırıb ona tapşırıq verdi ki, Mirzə Xosrovun ev əşyalarının müfəssəl siyahısını tərtib etsin və aktlaşdırıb surətini mənə versin.

Söhbət əsnasında Qarabağ tarixçisi Mirzə Xosrov Axundzadənin oğlu olduğuma Püstəxanım sevindi və əlavə etdi ki, çox şadam ki, atanın irsini yaşadırsan.

## Akademik Cəmil Quliyev haqqında qeydlərim

Mən onunla 1975-ci ildə «Azərbaycan Sovet Ensiklopediyası»nın baş redaktoru təyin edildikdən sonra tanış oldum. O, çox ciddi şəxs idi. Ensiklopediyanın İçərişəhərdəki binasının ikinci mərtəbəsində onu görmək üçün qəbul otağında növbəyə dayandım.

Vaxtımdam istifadə edib baş redaktorun müavini filologiya elimləri doktoru, professor Araz Arif oğlu Dadaşzadə ilə görüşdüm. O, məni çox səmimiyyətlə qarşıladı. Gəlməyimin səbəbini ona təfsilatı ilə danışdım. Əsas məqsədim atam Mirzə Xosrov (Axundovun) Axundzadənin adını Azərbaycan Sovet Ensiklopediyasına saldırmaq idi.

**Haşiyə:** Akademik Cəmil Bahadur oğlu Quliyev 1927-ci il dekabrın 16-da Şuşada anadan olmuşdur. O, tarix elmləri doktoru, professor, əməkdər elm xadimi, dövlət mükafatı laureatı, görkəmli tarixçi, Azərbaycan Respublikası Elmlər Akademiyasının akademikidir.

Cəmil müəllimin Azərbaycan Ensiklopediyasının yaradılmasında xidməti böyükdür. Belə ki, 1935-ci ildən etibarən respublika hökuməti Azərbaycan Sovet Ensiklopediyasının nəşri üzrə komissiyanın yaradılması haqqında qərar qəbul etmişdir. Lakin əvvəlki illərdə bu istiqamətdə heç bir tədbir yerinə yetirilməmişdir. Yalnız 1975-ci ildən başlayaraq Ensiklopediyanın yaradılmasına başlanılmışdır. Həmin vaxtlarda Ensiklopediyanın baş redaktoru vəzifəsinə xalq şairi Rəsul Rza tə'yin olunmuşdur.

1987-ci ildən başlayaraq, 55 minə kimi termini əhatə edən on cildlik «Azərbaycan Sovet Ensiklopediyası» işıq üzü gördü. Demək olar ki, akademik Cəmil Quliyev Ensiklopediyanın baş redaktoru tə'yin olunduqdan sonra, Azərbaycan tarixində birinci ensiklopediyanın nəşri kimi mühüm, mürrəkkəb və ağır zəhmət tələb edən bir iş müvəffəqiyyətlə başa çatdırıldı və Azərbaycan Sovet Ensiklopediyası dünya ensiklopediyaları sırasına daxil oldu.



Mən Azərbaycan Sovet Ensiklopediyasının yenidən təşkil olunmasını eşidən kimi ensiklopediyanın redaksiyasına yollandım. Onsuz da keçmiş baş redaktor Rəsul Rzanın vaxtında da atam Mirzə Xosrov Axundzadə Şaiq təxəllüsün Azərbaycan pedaqogikası və poeziyası tarixində tutduğu yerdən ətraflı mə'lumat yazıb redaksiyaya təqdim etmişdim. Mən bu məsələni yenidən rəsmləşdirmək üçün yeni tə'yin olunmuş baş redaktor Cəmil Quliyevin qəbuluna getdim.

Nəhayət, akademik Cəmil Quliyevin qəbulunda oldum. Cəmil müəllim məni çox səmimiyyətlə qarşıladı və diqqətlə dinlədi.

Mən atam Mirzə Xosrov Axundzadə haqqında mə'lumat verib onun həyat və yaradıcılığından qısa danışdım. Mirzə Xosrovun ensiklopedik bir şəxs olduğunu sübut etdim.

Cəmil müəllim atamın ensiklopedik bir şəxs olması barəsində məndən qısa və dəqiq faktlar tələb etdi. Mən həmin mə'lumatları baş redaktora təqdim etdim. O, faktları aldıqdan sonra qeyd etdi ki, verilən mə'lumatlar yoxlanılacaq və ensiklopediyaya yararlı olub-olmaması barəsində nəticə çıxarılacaq.

Cəmil müəllim mənə bildirdi ki, ensiklopediyanın «A» hərfi tamamilə dolduğuna görə «M» hərfində nəzərə alınacaqdır. Bu da «Mirzə Xosrov (Şaiq) Mirzə Əli oğlu Axundov» başlığında ensiklopedik mə'lumatlarda yerləşdiriləcək.

Qeyd edə bilərəm ki, bu məsələ barəsində baş redaktor çox təmkinlə və aram-aram danışırdı. Onun danışıq tərzi də başqalarından tamamilə seçilirdi. Hər cümləsində mübtəda və xəbərə çox dəqiqliklə yanaşırdı. Onda həddindən yüksək nitq mədəniyyəti vardı. Sözlərində bir hikmət hiss olunurdu.

Mən Cəmil müəllimi çox diqqətlə dinlədikdən sonra o, mənə Mirzə Xosrovla əlaqədar bir neçə əlavə rəsmi sənədləri redaksiyaya təqdim etməyimi bildirdi.

Cəmil müəllim mənim atam haqqında yazdıqlarıma o qədər də inanmırdı. Çünki o, fikirləşirdi ki, bəlkə atam olduğu üçün onu tə'rifləmişəm, bəlkə də faktlara müraciət etməmişəm. Buna görə də bir müddət mənim atam haqqında verdiyim materialları o, dərindən yoxlatdırmalı oldu. Eyni zamanda baş

redaktorun müavini, filologiya elmləri doktoru, professor Araz Dadaşzadəyə Mirzə Xosrov haqqında faktların dəqiqləşdirilməsinə xüsusi göstəriş verdi.

Araz müəllimlə görüşdükdə o, mənə mə'lumat verdi ki, Mirzə Xosrovun pedaqoq və ensiklopedik bir şəxs olduğunu təsdiqləmək məqsədilə onun haqqında rə'y verilməsi üçün akademik Mehdi Mehdizadəyə müraciət etmişik.

Nəhayət, 1982-ci ildə «Azərbaycan Sovet Ensiklopediyasının» 6-cı cildinin 590-cı səhifəsində «Mirzə Xosrov (Şaiq) Mirzə Əli oğlu Axundov» başlığı ilə ensiklopedik mə'lumat dərc olunmuşdur. Bu məni çox sevindirdi. Ona görə ki, uzun müddətlik yaradıcılıqla məşğul olduqdan sonra atamı ensiklopedik şəxs kimi tanıtmağım mənə nə qədər sevinc bəxş etmişdir.

Bir müddətdən sonra baş redaktor, akademik Cəmil Quliyevlə Akademiyanın köhnə binasının qarşısında qarşılaşdım. O, məni təbrik edib əlavə etdi ki, Pərviz, sən əsl oğulsan, apardığın mübarizə öz bəhrəsini verdi.

Buna görə də Cəmil Quliyev haqqında qeydlərimi yazmağı özümə borc bildim.

*25.07.1999-cu il*



## Rusiya Federasiyası Kommersiya Elmlər Akademiyasının ilk azərbaycanlı akademiki

Azərbaycan elmi XX əsrdə çox böyük və şərəfli bir yol keçmişdir. Bu qədim xalqın bəşər tarixində yadda qalan, ömürlərini xalqın maariflənməsinə, vətən torpağının çiçəklənməsinə və tərəqqisinə həsr etmiş müdrik insanların adları bu gün də qürur hissilə çəkilir. Bir elm sahəsi kimi, XVIII əsrdə formalaşmağa başlayan iqtisad elmi bu gün geniş məkanda özünə layiqli yer tutan sahələrdən hesab edilir. Azərbaycanda iqtisad elminin inkişafı və təşəkkül tapması XX əsrə təsadüf edir. Ümumiyyətlə hər bir elmin tarixini araşdırmaq, onun keçdiyi mərhələləri təhlil etmək, bu elmin inkişafına xidmət edən alimlərin yaradıcılığını tədqiq etmək, onların apardıqları elmi tədqiqatları təsnifləşdirmək və cəmiyyətdəki rolu baxımından qiymətləndirmək ən məsuliyyətli və vacib məsələlərdən sayılır.

Ona görə də respublikada iqtisadi dirçəliş məsələlərini daha sistemli həll etmək üçün iqtisadçı alimlərimiz tərəfindən beynəlxalq maliyyə qurumlarının ayrı-ayrı ölkələrdəki fəaliyyəti, uğurları, təklif etdikləri layihələrin ekspertizasında milli maraqlar, real sektorun inkişafına təsiri məsələlərinin də dərindən araşdırılması zəruri hesab edilir.

Etiraf etmək olar ki, iqtisadiyyat elminin araşdırılmasında lazım gələn bir sahə də kommersiya xarakterli kadrların elmi-praktiki mütəxəssislərin hazırlanması sayılırdı. Respublikada bu sahə üzrə yetişən elm adamlarından biri də iqtisad elmləri doktoru, professor Aydın Hidayət oğlu Səmədovdur.

A.H.Səmədov 1951-ci il iyulun 23-də Bakı şəhərində anadan olmuşdur. O, orta məktəbi qurtardıqdan sonra bu sahəyə dərin maraq göstərmiş və D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun «Ərzaq malları əmtəəşünaslığı və ticarətin təşkili» ixtisasına daxil olmuşdu. 1972-ci ildə indiki kommersiya ixtisaslarının varisi olan həmin ixtisası fərqlənmə diplomu ilə bitirmişdir.

Tələbəlik dövründə onda elmi-tədqiqat işlərinə böyük həvəsin yaranması A.Səmədovu TEC-ti xətti ilə elmi-tədqiqat işləri aparmağa və bu sahədə tədricən püxtələşməyə istiqamətləndirmişdir. Bununla da o, elm və tədris yoluna ilk qədəmlərini atan gənc mütəxəssis kimi özünü göstərmişdir.

A.Səmədov, 1974-1978-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun «Ticarətin təşkili və idarə edilməsi» kafedrasının aspirantı olmuş, 1979-cu ildə isə Kiyev Ticarət-İqtisad İnstitutunda «Ticarətin idarə edilməsinin təşkili strukturunun təkmilləşdirilməsi» mövzusunda iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün dissertasiya müdafiə etmiş, az sonra isə dosent vəzifəsinə layiq görülmüşdür.

1982-1983-cü illərdə A.Səmədov Avropa ölkələrinin qabaqcıl iqtisadiyyat və kommersiya İnstitutlarında, o cümlədən Praqa Ali İqtisadiyyat məktəbində, Praqa İdarəetmə İnstitutunda, Bratislava Ali İqtisadiyyat məktəbində, Bratislava İdarəetmə İnstitutunda, Vyana, Budapeşt İdarəetmə və Kommersiya İnstitutlarında elmi təcrübə və ezamiyyətlərdə olmuş, elmi-tədqiqat və tədris işləri aparmış, müxtəlif səviyyəli elmi forumlarda elmi nəticələri ilə çıxışlar etmiş və məqalələr çap etmişdir.

Apardığı geniş diapazonlu elmi-tədqiqat işlərinin nəticəsində 1992-ci ildə Moskva Kommersiya İnstitutunda «Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan Respublikasında ticarətin idarə edilməsinin təşkilinin təkmilləşdirilməsi problemləri» mövzusunda doktorluq və 1996-cı ildə isə professor diplomlarına sahib olmuşdur.

A.Səmədovun iqtisadiyyat elminin və xüsusən onun ayrılmaz sahəsi olan kommersiya elminin müxtəlif problemlərinə dair 100-ə yaxın monoqrafiya, kitab, broşura, tədris vəsaiti, məqalə, tezis və s. elmi əsərləri Azərbaycan, rus, slovak, çex, türk, fransız və ingilis dillərində nəşr edilmişdir. 20-dən artıq beynəlxalq və respublika simpoziumlarında, konfranslarında və yığıncaqlarında elmi məruzələrlə çıxışlar etmişdir. O, elmi fəaliyyəti ilə yanaşı tədris işinə də xüsusi diqqət yetirmişdir. Belə ki, müxtəlif illərdə



dekan vəzifəsində işləmiş, ali məktəb tədrisinin təşkilatçısı kimi tanınmışdır.

Apardığı dərin elmi-tədqiqatların nəticəsində A.Səmədov ilk dəfə olaraq ABŞ-da yaşayan, dünyada tanınmış, milliyyətcə azərbaycanlı olan professor V.Zadə metodikasını tədqiq etmiş və elmi yeniliklərə nail olmuşdur. Onun bu sahədə əldə etdiyi nəticələr Rusiya və Azərbaycan alimləri tərəfindən yüksək qiymətləndirilmişdir. V.Zadə nəzəriyyəsi ilk dəfə olaraq məhz professor A.Səmədov tərəfindən kommersiya elmləri sahəsində tətbiq edilmişdir.

Prof. Aydın Səmədovun həm Azərbaycan və həm də Rusiya Kommersiya Elmləri sahəsindəki xidmətləri, elmi yenilikləri və elmi-tədqiqat işlərinin nəticələri dünyada tanınmış böyük kommersiya elmi mərkəzi sayılan Rusiya Kommersiya Elmləri Akademiyası tərəfindən yüksək qiymətləndirilərək, Azərbaycan Respublikasından ilk dəfə olaraq o, 1998-ci ildə Rusiya Kommersiya Elmləri Akademiyasının müxbür üzvlüyünə və 1999-cu ildə isə Akademiyanın həqiqi üzvlüyünə layiq görülmüş və həmin ildə isə akademik vəzifəsinə seçilmişdir. Bu, Azərbaycan iqtisadiyyatı və xüsusən Azərbaycan kommersiya elminə verilən yüksək qiymətdir.

Hazırda A.Səmədov Azərbaycan Dövlət İqtisad Universitetinin «Marketinq və ticarət» kafedrasının professorudur. Onun həyat səhifələri getdikcə şaxələnir, elmi potensialı getdikcə artır. Bunun nəticəsidir ki, indi A.Səmədov 10 nəfər aspirant və dissertantın elmi rəhbəridir. Onlardan 5 nəfəri artıq özlərinin dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişlər.

Biz akademik Aydın Səmədova gələcək elmi fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayırıq!

## Həyat səhifələrimlə bağlı bir alimin ömür yolu

İnsan ağlı, kamalı, əməlləri ilə ucalıqda olur. Ucalmaq, zirvəyə qalxmaq isə hər adamın ömür, tale payına nəsib olmur. Şair demişkən, «Yaşamaq-yanmaqdır, yanasan gərək». Belə yaşayıb yaradan, şam kimi yanan insanların sırasında Şəmsəddin Hacıyevin xüsusi yeri vardır.

O, bənzərsiz və xoşbəxt taleyi olan bir alimdir. Şəmsəddin müəllim boya-başa çatdığı Ucar rayonunun Lək kəndinin torpağından güc, qüvvət alıb, onun min bir naxışlı əsrarəngiz gözəlliyindən ilhamlanıb, doğma el-obada yaşayıb-yaratmaqdan qürur hissi keçirib.

Şəmsəddin Hacıyev İnstitutda təhsil aldığı illərdə ixtisasına, onun tədris metodikasının incəliklərinə həssaslıqla və böyük səylə yiyələnmişdir. Pedaqoji və psixoloji qanunauyğunluqları, müddəaları, sistemləri əsaslı surətdə öyrənməyə böyük əmək sərf etmişdir. Pedaqoji fəaliyyətə başladığı gündən bu günə kimi o, bu istiqamətdə özünün mütaliəsinə, tədqiqatlarına demək olar ki, heç vaxt fasilə verməmişdir.

Sənətin, peşənin pisi yoxdur, onların hamısı yaxşıdır, gərəkdir, əgər həkim xəstəyə şəfa verib, onu ölümün caynağından alıb həyata qaytarırsa, inşaatçı yaraşıqlı binalar ucaldır, memar yeni şəhərlər salır, rəssamın ecazkar fırçasından yaranan rəsmlər insanın zövqünü oxşayırsa, şair qələmindən çıxan sehirli misralar ona xoş ovqat gətirir, həyata məhəbbətini artırır, alim elmin qapalı sirlərini açıb bəşər övladının ixtiyarına verirsə... Bir sözlə, bütün peşələr lazımdır. Amma onların hamısından yüksəkdə bir peşə də var. Bu da müəllimlikdir. Çünki, bütün peşə, sənət sahiblərinin hamısı müəllim əməyinin mayası ilə qidalanıb.

Müstəqil respublikamızın təhsil ocaqlarında belə böyük və yüksək ada layiq yüzlərlə, minlərlə şərəfli peşə sahibi çalışır. Onlardan biri də Şəmsəddin Hacıyevdir.

**Haşiyə:** Şəmsəddin Hümmət oğlu Hacıyev 1950-ci ilin noyabr ayının 8-də Ucar rayonunun Lək kəndində anadan olmuşdur.



1966-cı ildə Lək kənd orta məktəbini bitirib həmin ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun «Ticarət-iqtisad» fakültəsinə daxil olmuşdur. 1970-ci ildə həmin İnstitutu əla qiymətlərlə başa vurmuş və təyinatı üzrə Azərbaycan Dövlət Plan Komitəsi yanında ETİİ-na iqtisadçı vəzifəsində işləməyə göndərilmişdir. 1971-ci ildə həmin İnstitutun aspiranturasına qəbul olunmuş və 1974-cü ildə aspirantura təhsilini başa vurmuşdur. 1974-1976-cı illərdə ordu sıralarında hərbi xidmətdə olmuşdur.

1980-cı ildə Plexanov adına Moskva Xalq Təsərrüfatı İnstitutunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və iqtisad elmləri namizədi, alimlik dərəcəsi adını almışdır. 1992-ci ildən dosent vəzifəsini daşımışdır.

2001-ci ildə Şevçenko adına Kiyev Milli Universitetinin Beynəlxalq Münasibətlər İnstitutunda doktorluq dissertasiyasını müdafiə etmiş «Dünya təsərrüfatı və Beynəlxalq İqtisadi münasibətlər» ixtisası üzrə iqtisad elmləri doktoru, alimlik dərəcəsinə layiq görülmüşdür. 2004-cü ildən etibarən professor vəzifəsinə seçilmişdir.

Avropanın tanınmış iqtisad məktəblərindən biri olan Ukrayna iqtisad məktəbi alimlərinin Şəmsəddin Hacıyev haqqındakı fikirləri insanda milli fərəh və qürur hissi doğurur. Belə ki, o, respublikamızdan «Beynəlxalq iqtisadi münasibətlər» ixtisası üzrə ilk dəfə olaraq iqtisad elmləri sahəsində doktorluq dissertasiyasını müdafiə edirdi. Müdafiə zamanı məşhur Beynəlxalq iqtisadçı alimlərdən Ukrayna Respublikasının Dövlət Elm və Texnika Mükafatı Laureatı, prof. V.S.Butkin, Kiyev Beynəlxalq Münasibətlər İnstitutunun «Beynəlxalq iqtisadi münasibətlər» kafedrasının müdiri, iqtisad elmləri doktoru, prof.E.İ.Flipenko, Ukrayna Milli Elmləri Akademiyası ETİİ-nun direktoru, akademik İ.İ.Lukinov, UMEA-nın «Dünya iqtisadiyyatı və Beynəlxalq İqtisadi Münasibətlər» İnstitutunun direktoru, akademik Q.Paxomov və b. Ş.Hacıyevin müdafiəsini «Böyük qələbə müdafiəsi», özünü isə müasir dövrün tanınmış «beynəlxalq iqtisadçısı» adlandırmışlar.

1981-ci ilə kimi Ş.Hacıyev Azərbaycan Dövlət Plan Komitəsi yanında ETİİ-da kiçik və baş elmi işçi, bölmə müdiri

vəzifəsində işləmişdir. 1981-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda «Ticarətin təşkili və texnikası» kafedrasında baş müəllim və 1986-cı ildə isə dosentlik vəzifəsinə müsabiqə yolu ilə seçilmişdir.

1989-cu ildən başlayaraq Şəmsəddin Hacıyevin elmi yaradıcılıq yolları daha da çiçəklənməyə başlayır. Belə ki, həmin ildə o, «Ticarətin iqtisadiyyatı və idarə edilməsi» kafedrasının müdiri vəzifəsinə seçilir. Ş.Hacıyev vəzifəsinin öhdəsindən müvəffəqiyyətlə gəldiyinə görə yenidən (1993-1996-cı illərdə) «Marketinq və xarici iqtisadi əlaqələr», 1996-cı ildə «Marketinq və BİM» və 2001-ci ildən hal-hazıra kimi isə «Beynəlxalq iqtisadi münasibətlər» kafedrasına rəhbərlik edir.

Prof.Ş.Hacıyev həyatının çiçəkləndiyi bir dövrdə iqtisad elmində görkəmli nailiyyətlər qazanmağa başlamışdır. Onun 100-dən çox elmi əsəri çap olunmuşdur. Bundan başqa Ş.Hacıyevin 2 monoqrafiyası, 10-a qədər kitabçası, 3 dərsliyi və dərs vəsaiti, 50-yə qədər elmi məqaləsi, tezisləri və s. nəşr olunmuşdur.

Müəllim kimi doğulmaq, ziyalı kimi yaşamaq heç də hər kəsin alın yazısı, tale dəstəyi olmur. Belə ömür zəhməti ilə tanınanların, min bir əzaba qatlaşanların payına düşür. Belələri yazıb-yaratmaq və sevib-sevilmək üçün doğulur. Bildiyindən pay bölür, öyrətdiyinin uğuruna sevinir, çətin məqamında da üzündə, gözündə sevinc, gülüş gəzdirir. Müəllimlik adi peşə deyil, onun üçün gərək canında, varlığında sönməz, alovlu bir həvəs, tükənməz enerji ola. Ömrünün 54-cü baharını addımlamağa hazırlaşan Şəmsəddin müəllim də belə ziyalılardandır.

Müəllim ömrünü bəzən Günəşə, parlaq ulduzlara da bənzədirlər. Bu bir həqiqətdir ki, Günəş bütün Yer üzünü, müəllim isə həyatımızın davamçıları olan gənc nəslin ömür yollarını nura qərq edir.

Müəllim əməyindən söz düşəndə bu narahat dünyamızda arzu və istəyinin dalınca düşüb xalqına, elinə, obasına həm gərəkli, həm şərəfli bir peşəni seçərək səmimiyyəti, qağıkeşliyi, ən başlıcası isə zəhmətsevərliyi sayəsində yaxşı insan adını hələ cavan ikən qazanmış, xalq arasında sevilən, yaxşı müəllim kimi



tanınan bir insan haqqında söz açmaq, onun ömür tarixini vərəqləmək mənim üçün bir fərəh hissi doğurur.

Mən Şəmsəddin müəllimlə bir də ona görə fəxr edirəm ki, o, mənim sevimli tələbələrimdən biri olmuşdur. Onun ömür yolu bilavasitə mənim həyat səhifələrimlə bağlıdır.

Ş.Hacıyevin elmi araşdırmalarında iqtisadi problemlər mühüm yer tutur. Belə ki, onun «Azərbaycanın xarici iqtisadi strategiyasının formalaşması və inkişafı» mövzusunda doktorluq işi yüksək ixtisaslı mütəxəssislər hazırlanmasının konseptual cəhətdən həllinə ciddi təsir göstərmişdir.

Elmi-pedaqoji kadrların hazırlanmasında da Ş.Hacıyevin xidmətləri böyükdür. Onun rəhbərliyi ilə 7 nəfər iqtisadçı alim hazırlanmışdır. Hazırda o, 10-dan çox aspirantın və dissertantın elmi rəhbəri və 4 doktorluq dissertasiyası işinin elmi məsləhətçisidir. O, eyni zamanda qədər respublikada və xarici ölkələrdə keçirilən 40-a qədər elmi-nəzəri konfranslarda elmi məruzələrlə çıxış etmişdir.

Kafedranı idarə etdiyi müddətdə Ş.Hacıyev özünün elmi səviyyəsini daim artırmağa çalışan tələbkar kafedra müdiri, müəllim, təcrübəli pedaqoq və nümunəvi mühazirəçi kimi göstərmiş, tələbə və müəllim heyətinin, eləcə də kafedranın əməkdaşlarının dərin hörmətini qazanmışdır.

Ş.Hacıyev, işlədiyi Azərbaycan Dövlət İqtisad Universitetinin ictimai işlərində, tələbələr arasında təlim-tərbiyə işlərinin aparılmasında və digər tədbirlərdə də yaxından iştirak edir.

Ş.Hacıyevin çoxcəhətli elmi-pedaqoji fəaliyyəti onun səmərəli ictimai işi ilə sıx əlaqədardır. Belə ki, o, Universitetdə fəaliyyət göstərdiyi müddətdə Universitetin Həmkarlar Komitəsinin sədri vəzifəsində çalışmışdır. Hazırda isə Universitetin Elmi və dissertasiya Şurasının sədri, həmçinin Tiflis Dövlət Universitetinin dissertasiya Şurasının üzvüdür.

3 noyabr 2004-cü il tarixində Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə professor Şəmsəddin Hümmət oğlu Hacıyev Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru təyin olunmuşdur. Onun ilk əvvəl yerinə yetirəcəyi işlər aşağıdakılardan ibarət idi:

1. Müəllimlərin, tələbələrin və ümumiyyətlə, universitet əməkdaşlarının sosial rifahının yaxşılaşdırılması. Elə rektorun ilk əmri də xüsusi vəsait hesabına universitet əməkdaşlarına hər ay ödənilən maddi yardımın məbləği 2004-cü ilin dekabr ayının 1-dən etibarən 30% artırılması olmuşdur;

2. Universitetdə struktur dəyişikliyinin aparılması. bu da möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən universitet qarşısında qoyduğu vəzifələrdən irəli gəlir;

3. Tədrisin bütün sahələrini yeniləşdirmək və keyfiyyət parametrlərini yüksəltmək və müasir standartlar səviyyəsinə qaldırmaq;

4. Universitetin maddi-texniki bazasını və texniki təchizatını möhkəmləndirmək;

5. Universitetdə mövcud olan paralelliyin və idarəetmədə paralelliyin aradan qaldırılması;

6. Magistratura təhsil sisteminin köklü surətdə dəyişdirilməsi.

Ş.Hacıyev öz üzərində daim çalışır, elmin zirvəsinə doğru ciddi addımlar atır. Onun bu çalışqanlığının mən bu gün şahidiyəm. Çünki rəhbərlik etdiyim universitetin muzeyi Şəmsəddin müəllimin kafedrası ilə üzbəüz qonşuluqda yerləşir.

Şəmsəddin müəllimin bu günə qədər qazandığı müvəffəqiyyətlərə və onun potensial imkanlarına əsaslanaraq, biz ümidvarıq ki, bundan sonra da o, elmdə, tədrisdə və eləcə də digər sahələrdə daha böyük nailiyyətlər qazanacaqdır. Biz bu yolda Şəmsəddin müəllimə böyük uğurlar diləyirik!



## Vətən torpağının övladı

Sakit bir gecədir. Şəhər yuxuya dalıbdır. Moskvanın Volqoqrad prospekti, Yerusəlim döngəsi, ev № 4... Burada bir nəfər gənc gecənin keçməsinə baxmayaraq stol arxasında oturub nə isə yazır... Elə bu an Kremlin saatı iki dəfə səslənir. Saatın zəngi onu işdən ayırır. Pəncərəyə yaxınlaşıb xəyala dalır. Fikrindən Azərbaycan, ana yurdu Şuşa, bir də mavi gözlü Xəzər keçir. Gəlin onunla tanış olaq. Bu gənc alim Qabil İsmayılovdur.

O ilk təhsilini Şuşada almışdır. Məktəb illərini yada salarkən Qabil İsmayılov ilk müəllimi Mirzə Xosrov Axundzadə haqqında ağız dolusu danışdı. Bir anlığa da olsa ötən günləri gözünün önünə gətirdi.

1946-cı ilin sentyabr ayı...

Bu il onun həyat səhifəsində silinməz izlər buraxmışdı. Səhər tezdən balaca Qabil atası ilə məktəbə gəldilər. Məktəbdə onları qocaman bir müəllim qarşıladı. O, mehribancasına Qabilin başını sığalladı, adını soruşdu. Müəllim adını eşitcək gözlərində sevinc duyuldu. Diqqətlə Qabili süzdükdən sonra sözə başladı:

-Adın Qabildir, çox gözəl, çalış həyatda da qabil insan olasan. O sözlər indi də Qabilin qulağında səslənir. O, həmişə sevimli müəlliminin nəsihətini yerinə yetirməyə çalışmışdı.

Qabil orta məktəbi qurtardıqdan sonra 1959- cu ildə Azərbaycan Politexnik İnstitutuna daxil olub, 1965- ci ildə «Çay qurğularının və su elektirik stansiyalarının Hidrotexniki şöbəsi»ni bitirmişdi.

1966-cı ildə istehsalatdan ayrılmaq şərti ilə SSRİ Elmlər Akademiyasının Su Problemləri İnstitutunda aspiranturaya daxil olmuşdur.

1969-cu ildə aspiranturanı qurtarmış və 1971- ci ildə namizədlik dissertasiyasını müdafiə edib, texnika elmləri namizədi alimlik dərəcəsini almışdır. Aspiranturanı qurtardıqdan sonra müsabiqədən müvəffəqiyyətlə keçərək Moskva Hidromeliorasiya İnstitutunun elmi bölməsində elmi işçi vəzifəsində

işləyir. Qabil İsmayılov gələcək planlarından ruh yüksəkliyi ilə danışıraq deyirdi:

-Ölkəmizdə ağır sənaye sahələrinin tikintisi çox böyük miqyasda aparılır. Partiya və dövlətimiz bu tikintilərə yüksək məbləğdə pul sərf edir. Tikintilərin texniki cəhətdən əlverişli olması üçün elmin nailiyyətlərindən də bacarıqla istifadə etmək lazımdır. Alimlərimizi düşündürən, əsas etibarı ilə Xəzər dənizinin suyunun səviyyəsinin aşağı düşməsi məsələsidir. Suyun enməsinin səbəbləri araşdırılmaqdadır. Çox zəngin olan Sibir çayının enerjisindən, xalq təsərrüfatının ayrı-ayrı sahələrində, çayların bol suyundan məhsuldar Orta Asiya çöllərində isifadə etmək kimi məsələlər hidrotexniklərin ən mühüm vəzifələrindəndir.

O, danışdıqca fərəhlənir. Ona görə ki, hidrotexniklərin əldə etdiyi müvəffəqiyyətlərdə az da olsa onun da payı vardır.

Volqoqrad prospektində bir bina var. Başqa binalardan fərqlənməyən bir bina... Yalnız onun bir fərqi vardır. Bu binanın 4 saylı mənzilində olarkən sanki oradan Azərbaycan torpağının, bir də Şuşanın vüqarlı dağlarından əsən küləyin, dağ çiçəklərinin ətri duyulur. Həmin duyğuları gətirən Qabil İsmayılovdur.

Hazırda o, artıq doktorluq dissertasiyasını da müvəffəqiyyətlə müdafiə edib, texnika elmləri doktoru adını almışdır. Onun rəhbərlik etdiyi bölmənin elmi içiləri ölkəmizdə su problemləri üzrə mühüm məsələlərlə məşğuldurlar.

Profesoor Qabil İsmayılov hal-hazırda SSRİ EA-nın Su problemləri üzrə bölmə müdiri vəzifəsində çalışır.

Biz ona öz işində yeni müvəffəqiyyətlər arzulayırıq!

***18.08.1985-ci il***



## Şərəfli həyat yolu

Qəribə dünyada yaşayırıq. Özü üçün çalışanların, sərvət toplamaq üçün özünü oda-közə vuranların, təmənna güdənlərin sayı artır, təmənnasız xidmət göstərənlərin, xeyirxahlığı özünə bayraq edənlərin sayı isə azalır. Bunu tək mən yox, bir çoxları da hiss edir, oğul odur ki, dünyanın belə ağır, keşməkeşli vaxtlarında insanlığı, mürvət və insafı, yaxşılığı qoruyub saxlasın. Belə oğullardan biri də Telman Əlihüseyn oğlu Hüseynovdur.

Telman müəllimi mən 36 ildir ki, tanıyıram. O, respublikamızın ziyalıları içərisində öz dəst-xətti ilə, ləyaqəti və səmimiliyi ilə seçilən alimlərdən biridir.

Telman müəllim mənəvi sərvətlərimizi yaşadan, elmin zirvəsinə doğru irəliləyən, davranış və rəftarı, ünsiyyət tərzi ilə seçilən şəxsiyyətlərdəndir. Bu gün Azərbaycanın sənaye sahələrində çalışan minlərcə mütəxəssis Telman müəllimin mühazirə söylədiyi auditoriyasından çıxmışdır. Onun onlarca elmi əsərlərindən, sənayenin iqtisadiyyatı dərsliyindən xalq təsərrüfatının müxtəlif sahələrində çalışan tələbə-mütəxəssislər istifadə etmişdir.

Telman müəllim eyni zamanda səmimi dost, sözübütöv və sədaqətli, yüksək insani keyfiyyətlərə malik elm fədaisidır. Deyə bilərəm ki, indiyə qədər heç kəsdən Telman müəllim haqqında xoşa gəlməyən bir söz eşitməmişəm. Bu da onun milli dəyərlərimizə yiyələnmiş bir şəxsiyyət olması ilə bağlıdır desəm səhv etmərəm. O, həmçinin təvazökar bir insan kimi onu tanıyanların nəzərində daha da ucalmışdır.

**Haşiyə** – Telman Əlihüseyn oğlu Hüseynov - 1934-cü il dekabr ayının 28-də Cəbrayıl rayonunun Quycaq kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. O, 1941-si ildə Cəbrayıl rayonu M.Qorki adına orta məktəbinin 1-ci sinfinə daxil olmuş və 1951-ci ildə məktəbi bitirmişdir. Həmin ildə Bakıya gələrək Azərbaycan Sənaye İnstitutuna qəbul olunmaq üçün imtahan vermişdir. Lakin müvafiq miqdarda bal toplaya bilmədiyindən İnstitutun qiyabi şöbəsinə qəbul edilmişdir. Buna baxmayaraq o, öz sənədlərini

İnstitutdan geri alıb Bakı Neft Texnologiya Texnikumuna vermişdir. Texnikumu bitirdikdən sonra T.Hüseynov 1955-ci ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutuna daxil olmuş, 1959-cu ildə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin «Sənayenin iqtisadiyyatı» ixtisasını fərqlənmə diplomu ilə bitirmişdir. Elmi axtarışlar sahəsində fəallıq göstərdiyinə görə o, 1958-ci ildə İnstitut tələbə elmi cəmiyyətinin sədri seçilmişdir.

T.Hüseynov İnstitutu başa vurduqdan sonra əvvəlcə «Bakı fəhləsi» zavodunda normalaşdırıcı, 1960-cı ildən 1962-ci ilə kimi isə Azərbaycan Elmi-Tədqiqat Neftayırma İnstitutunun «Texniki-iqtisadi tədqiqat» şöbəsində baş iqtisadçı vəzifəsində işləmişdir. 1962-ci ildə Azərbaycan SSR EA-nın İqtisadiyyat İnstitutunun aspiranturasına daxil olmuşdur. 1965-ci ildə aspirantura müddəti qurtardıqdan sonra, 1967-ci ilə kimi İnstitutda kiçik elmi işçi vəzifəsində çalışmışdır.

1967-ci ildə «Neft maşınqayırma sənayesinin əsas fondları və onlardan istifadənin yaxşılaşdırılması yolları» mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Həmin ildə o, D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda baş müəllim vəzifəsində işləməyə başlamışdır.

1968-ci ildə T.Hüseynov İnstitutda ilk dəfə yaradılan «Maddi-texniki təchizatın iqtisadiyyatı» kafedrasının müdiri vəzifəsinə seçilmişdir. Bundan sonra o, daha 2 dəfə kafedra müdiri vəzifəsinə seçilmiş və burada 23 il fəaliyyət göstərmişdir. Onun kafedra müdiri olduğu dövrdə 3 nəfər elmlər doktoru, 15 nəfərə kimi elmlər namizədi və maddi-texniki təchizat üzrə yüzlərcə iqtisadçı mütəxəssis hazırlanmışdır.

1973-cü ildə T.Hüseynov «Ticarət-iqtisad» fakültəsinin dekanı seçilmiş və 1978-ci ilədək həmin vəzifədə çalışmışdır. Bu dövrdə o, habelə ictimai əsaslarla doktorluq və namizədlik dissertasiyalarının müdafiəsi üzrə Şuranın elmi katibi olmuşdur.

1988-ci ilin sentyabrında «Maşınqayırmanın inkişafı və səmərəliliyinin yüksəldilməsinin sosial-iqtisadi problemləri» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. Lakin 1989-cu ilin aprel ayında o, SSRİ ALİ Attestasiya Komissiyasının


Ekspert şurasına dəvət olunmuş və təkrarən dissertasiyasını müdafiə etmiş və elmlər doktoru alimlik dərəcəsi adına layiq görülmüşdür.

1989-cu ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu N.Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun filialına çevrildi. Bir neçə il sonra professor T.Hüseynov direktorun tədris işləri üzrə müavini təyin edilmişdir. Bir qədər sonra ardıcıl olaraq yenidən «Sənayenin iqtisadiyyatı» kafedrasının müdiri seçilmişdir.

1991-ci ildə isə «Sənayenin iqiqtisadiyyatı» kafedrası üzrə ona SSRİ Xalq Təhsili Komitəsinin qərarı ilə professor elmi rütbəsi verilmişdir.

1991-ci ilin aprel ayından İnstitutun statusunun geri qaytarılmasında filialın direktoru, professor F.Ələsgərovla yanaşı professor T.Hüseynovun da xüsusi əməyi olmuşdur. Onun rəhbərliyi altında tədrisin keyfiyyəti yüksəldilmiş, tədris-metodiki işlər təkmilləşdirilmiş və kadr hazırlığı yaxşılaşdırılmışdı. Filialın İnstituta çevrilməsi münasibətilə fərqlənən əməkdaşlardan 4 nəfəri Təhsil Nazirliyinin təqdimatı ilə respublika hökuməti tərəfindən mükafatlandırılmış və o cümlədən professor T.Hüseynov Azərbaycan Respublikasının «Əməkdar iqtisadçısı» fəxri adına layiq görülmüşdür.

Onu da qeyd etmək olar ki, professor T.Hüseynov 1969-cu ildə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin iştirakçısı olmuş və sərginin bürünc medalı ilə mükafatlandırılmışdır.

Leninqradın Bakı filialının Azərbaycan Dövlət İqtisad İnstitutuna çevrilməsindən sonra professor T.Hüseynov əvvəlcə tədris işləri üzrə prorektor, sonra isə birinci prorektor vəzifəsinə təyin edilmişdir.

Professor T.Hüseynov 1976-1987-ci illərdə nəşr olunmuş ilk Azərbaycan Ensiklopediyası üçün iqtisadiyyata aid məqalələrin yazılmasında fəal iştirak etmişdir. Telman müəllim sabiq SSRİ – nin bir çox şəhərlərində Moskva-Leninqrad, Kiyev, Tiflis, Alma-Ata və s. yerlərdə elmi simpozium və konfranslarda iştirak etmiş və elmi məruzələrlə çıxış etmişdir. O, hal-hazırda 120 elmi əsərin,

o cümlədən 4 monoqrafiyanın, 1 dərsliyin və 4 dərs vəsaitinin, bir neçə kitabçanın müəllifidir.

Telman müəllim uzun illər Azərbaycan Dövlət Maddi-Texniki Təchizat Komitəsinin kollegiyasının, Azərbaycan EA İqtisadiyyat İnstitutunun, Azərbaycan Dövlət İqtisad Universitetinin, Bakı Dövlət Universitetinin, Azərbaycan Elmi-Texniki Kənd Təsərrüfatının İqtisadiyyatı İnstitutunun namizədlik və doktorluq dissertasiyaları müdafiəsi üzrə daimi və birdəfəlik elmi şuralarının üzvü olmuşdur. O, 4 il (1989-1992-ci illər) Azərbaycan Dövlət İqtisad İnstitutunun Tədris Metodiki Şurasına rəhbərlik etmişdir.

Professor T.Hüseynov universitetin yeganə əməkdaşıdır ki, iki müxtəlif kafedranın, əvvəlcə «Maddi-texniki təchizatın iqtisadiyyatı» sonralar isə «Sənayenin iqtisadiyyatı» kafedralarının müdiri vəzifəsində işləmişdir.[1]

Professor T.Hüseynovun 2000-ci ildə Azərbaycan dilində nəşr olunmuş, ilk sanballı (42 çap vərəqəsi həcmində) «Sənayenin iqtisadiyyatı» adlı dərs vəsaiti son illərdə kafedra əməkdaşlarının nəşr etdirdikləri əsərlər arasında xüsusi yer tutur.

2004-cü ilin fevral ayından etibarən Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, akademik Əli Abbasovun yeni vəzifəyə keçməsi ilə əlaqədar olaraq professor T.Hüseynov 3 noyabr 2004-cü ilə kimi universitetin rektor əvəzi vəzifəsini icra etmişdir.

Telman müəllim çox səmimi və təmkinli bir insandır. Respublikanın iqtisadçı alimləri onu müdrik, ağsaqqal, lakin həmişə mübariz, prinsipial, xeyirxah bir alim-pedaqoq kimi tanıyır və ona xüsusi hörmət bəsləyirlər.

Telman müəllimin istedadının bəhrələrindən hələ lazımınca istifadə olunmamışdır. Buna görə də respublikamızın müasir iqtisadi həyatında belə alimlərə böyük ehtiyac vardır. O, respublikada sənaye iqtisadiyyatının incəliklərinə bələd olan, onu yüksək professionallıqla tədqiq edən alim-pedaqoqdur. Onun

[1] Məlumatlar i.e.n. Mətanət Xıdırovanın «Zirvəyə qovuşan ömür yolu» məqaləsindən götürülmüşdür.



zəngin elmi-pedaqoji təcrübəsi və yüksək təşkilatçılıq qabiliyyəti əksəriyyətimizə nümunə ola bilər.

Telman müəllimin əməli işi, amalı və fəaliyyəti bir-birini tamamlayır. Onun ən başlıca fərqləndirici xüsusiyyətlərindən biri də özünə və ətrafdakılara qarşı son dərəcə tələbkar olmasıdır. Bu səciyyəvi xüsusiyyətlər Telman müəllimə xasdır. O, bütün mənalı ömrü boyu heç vaxt əziyyətdən və zəhmətdən qorxmamış, məhz əməksevərliyi, inadkarlığı, fitri istedadı, işi və kəskin qələmi, vaxtdan səmərəli istifadə etmək bacarığı sayəsində belə bir zirvəyə yüksələ bilmişdir.

2004-cü ilin dekabr ayında Telman müəllimin anadan olmasının 70 illik baharı tamam olmuşdur. O, getdikcə elmin yüksək zirvəsinə doğru cəsarətlə irəliləyir.

Telman müəllim bu gün ömrünün ən gözəl və səmərəli çağlarını yaşayır.

Telman müəllim!

Qoy sizin o həssas, zərif, xeyirxah ürəyiniz xasiyyətiniz kimi dözümlü və vəfalı olsun! Sizə şərəfli həyat yolunda can sağlığı, uzun ömür və iqtisad elminin inkişafında yeni nailiyyətlər arzulayıram!

## Pedaqogika elminin fədaisi

Respulikanın tanınmış pedaqoqu, ömrünün 46 ilə yaxın bir dövrünü elmi-pedaqoji fəaliyyətlə məşğul olmuş, pedaqoji elmlər doktoru, professor, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının «Psixologiya və pedaqogika» kafedrasının müdiri Yusif Talıbovun 2000-ci ilin noyabr ayında 70 yaşı tamam olmuşdur.

**Haşiyə:** Yusif Rəhim oğlu Talıbov 1929-cu il noyabr ayının 28-də Füzuli rayonunun Gecə-gözlü kəndində kəndli ailəsində anadan olmuşdur. O, ibtidai təhsilini doğma kəndindəki ibtidai məktəbdə almışdır. 1949-cu ildə orta məktəbi bitirən Yusif o vaxtlar yenicə fəaliyyətə başlayan Xarici Dillər Pedaqoji İnstitutunun «İngilis dili» fakültəsinə daxil olmuşdur. 1953-cü ildə həmin İnstitutu bitirib təyinatı ilə Cəbrayıl rayonuna göndərilmişdir.

1955-ci ilin avqustunda Yusif müəllim Füzuli rayonuna göndərilir. 1956-cı ilin sonuna kimi Qarabağlı kənd orta məktəbində işləyir. 1956-cı ildə böyük müsabiqə yolu ilə (1 yerə 14 nəfər) V.İ.Lenin adına APİ-nin (indiki N.Tusi adına APU-nun) pedaqogika kafedrasının aspiranturasına daxil olur. Bu müddətdən də onun həyatının yeni bir dövrü başlanır.

Yusif müəllim aspiranturada oxuduğu illərdə maarifimizin və pedaqogika elmimizin məşəlləri Ə.Seyidov, M.Mehdizadə, M.Muradxanov, habelə gənc, istedadlı pedaqoqlar Q.Əfəndiyev, İ.Vəlixanlı, V.Mustafazadə, M.Məmmədov, psixoloqlar, professor Ə.Zakuyev, dosent A.Abdullayev və başqalarından məsləhətlər alır, səylə tədqiqatını davam etdirirdi. O, 1962-ci ildə namizədlik dissertasiyasını müdafiə edib alimlik dərəcəsi adına layiq görülür. Bu illər mübaliğəsiz demək olar ki, Yusif müəllim yaradıcılığının çox qaynar bir dövrünü əhatə edir.

1975-ci ildə o, «Şagirdlərin belnəlmiləlçilik tərbiyəsinin nəzəriyyə və praktikası» mövzusunda doktorluq dissertasiyasını müdafiə edib pedaqoji elmlər doktoru alimlik dərəcəsi adını aldı.



Yusif Talıbov, 1979-cu ilin mart ayından indiyə kimi Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının «Psixologiya və pedaqogika» kafedrasına rəhbərlik edir. O, 1960-cı ildə professor elmi adına laiq görülmüşdür.

Yusif müəllimin elmi-pedaqoji fəaliyyətində ən çox əxlaq tərbiyəsi, beynəlmiləlçilik, humanizm, dostluq, yoldaşlıq, düzlük və doğruçuluq, vətəndaşlıq ləyaqəti, habelə estetik tərbiyə məsələləri əsas yerlərdən birini tutur. Beynəlmiləlçilik və humanizm tərbiyəsinin prinsipləri, onların komponentləri, beynəlmiləlçilik və humanizm əqidəsinin formalaşmasına təsir edən amillər pedaqoji ədəbiyyatda ilk dəfə olaraq Yusif müəllimin əsərlərində, məqalələrində şərh edilmişdir. Ümumiyyətlə, tərbiyənin qüdrətli vasitələri olan ölkəşünaslıq işləri, mütaliənin, disputların təşkili və sairə məsələlər haqqında Yusif müəllim öz əsərlərində geniş bəhs etmişdir.

Y.Talıbov respublikada ilk dəfə olaraq «Pedaqogikadan məsələ və suallar» əsərini nəşr etdirmiş, oradakı materialların bəzisini özü yazmış, xeyli hissəsini isə pedaqoji ədəbiyyatdan götürmüşdür. Məsələ və suallar tələbələrin əqlinə və düşüncəsinə qida verir, onları səfərbərliyə alır, gələcək hadisələrlə dolu olan həyata hazırlayır. Tələbələr dərk edirlər ki, həyatın özünəməxsus çətinlikləri və dəmir tikanları vardır.

Y.Talıbovun əsas tədqiqatlarından biri də pedaqoji fikir tarixinə aid yazılarıdır. O, «Nizaminin pedaqoji görüşləri», «Kamenskinin pedaqoji sistemi», «Russonun pedaqoji görüşləri», «Klassik ədəbiyyatda fiziki kamillik» və «Azərbaycan folklorunda fiziki tərbiyə» haqqında məqalə və kitablarında insan şəxsiyyətinin formalaşması, elm və təlim haqqında, təhsilin məzmunu haqqında, əxlaq tərbiyəsi, fiziki kamillik, müəllim və ailə tərbiyəsi haqqında fikirlərini geniş təhlil etmişdir.

Y.Talıbovun üçüncü tədqiqat obyekti ailə tərbiyəsi məsələlərinin tədqiqidir. Bu baxından onun «Uşaqlarımızın səadəti naminə» adlı əsəri diqqətəlayiqdir. Bununla əlaqədar olaraq 1968-ci ilin noyabr ayından etibarən «Bakı» qəzetində «Vətəndaş – valideyn» mövzusunda açdığı müzakirə bir ilə qədər davam etmiş, pedaqoji ictimaiyyət, valideynlər məqalədə

qaldırılan fikirləri müdafiə etmiş, orta və ali məktəblərdə gənclərə ailə həyatına dair biliklərin verilməsi zəruri sayılmışdır.

Y.Talıbovun dördüncü tədqiqat obyekti ixtisasartırma məsələləridir. O, Azərbaycan MMTİ-də işlədiyi illərdə müəllimlərin ixtisasartırma və təkmilləşdirmə məsələlərinə xüsusi əhəmiyyət vermiş, rayonlar üzrə təkmilləşmə kurslarına dəvət olunan müəllimlərin ixtisasları üzrə kartotekanın işlənib hazırlanmasına rəhbərlik etmişdir. Bununla əlaqədar olaraq onun «Rayon (şəhər) metodkabinetlərinin iş sistemi», «Pedaqoji yaradıcılığa yol özülü təhsildən başlayır», «Söhbət ixtisasartırmadan gedir» və sair əsər və məqalələri nəşr olunmuşdur.

Yusif müəllim respublikada ilk dəfə V.A.Suxomlinski adına Pavlın orta məktəbi muzeyi ilə əlaqə saxlamış, V.A.Suxomlinskinin respublikamızda nəşr olunan əsərlərini, habelə onun haqqında yazılan məqalələri həmin muzeyə göndərmişdir. O, yorulmaq bilmədən V.A.Suxomlinskinin pedaqoji ideyalarını müəllimlər arasında geniş tətbiq etmiş və hal-hazırda da bu işi davam etdirir.

Y.Talıbovun beşinci tədqiqat obyekti təlim məsələlərinin tədqiqidir. O, ən çox tərbiyə məsələlərini geniş diapazonda tədqiq etsə də, təlim məsələləri - təlim prosesinin mahiyyəti, təlim metodları, dərs haqqında da maraqlı məqalələr yazmış, pedaqogikanın qanunları və qanunauyğunluqlarına dair elmi mübahisələrdə iştirak etmişdir. Bununla yanaşı «Təlim metodlarının tədqiqi tarixindən», «Dərsin təkmilləşdirilməsi həyatın tələbidir», «Məktəb islahatı və təlim keyfiyyətinin yüksəldilməsi məsələləri», «Yaxşı oxumalı və yaxşı da tərbiyə etməli», «Pedaqogika və təlim prosesinin qanunları haqqında» və sairə məsələləri ətraflı təhlil etmişdir.

Y.Talıbovun altıncı tədqiqat obyekti müəllim və onun hazırlığı haqqındadır. O, qeyd edir ki, müəllim elm yolunun bələdçisi, məktəbin düşünən ürəyidir. Bu baxımdan onun «Müəllim layəqəti», «Cəmiyyətdə müəllimin yeri və rolu», «Pedaqoji təmkin» və s. məqalələrində müəllimə yüksək qiymət verir. O, yazır ki, hər bir müəllimin sənət əsəri onun yetişdirdiyi, 



insanlıq ləyaqətini yüksək qiymətləndirdiyi adamlardır. Hər bir yetişən kamil vətəndaş müəllimin neçə-neçə illər ərzində zəhmət çəkib, yuxusuz gecələr tamamladığı nəhəng «İnsan-vətəndaş» kitabının parlaq bir səhifəsidir. Bu nəhəng kitabın hər bir səhifəsində müəllim barmaqlarının izi, müəllim nəfəsinin hərarəti duyulur. Belə bir kitabı yaradan müəllim əbədi məhəbbətə layiqdir.

Yusif müəllim işləməkdən, mütaliə etməkdən zövq alır. Hər axşam əbədiyyətə qovuşmuş insanlara həsr edilən cildlənmiş kitablara, bugünkü adamlarla, həyat eşqi tərbiyə edən insanlarla söhbət etmədən yatmır, oxumayanda, yazmayanda, kitabları vərəqləməyəndə özünü əzgin, yorğun hiss edir.

Yusif müəllimin təbiətində bir romantiklik var. Bunu onu tanıyanlar aydın duyur. Bəzən kövrəlir, bir azca uşaqlaşır da. Bəzən xəyala dalır, arzulara qovuşur. Onda həyata sonsuz ümid var.

Yusif müəllim xeyirxah, humanist, uşaq kimi pak, sadə və nəcibdir. Bu sadəlik, insanpərvərlik, xeyirxahlıq onu tələbələrin də, müəllimlərin də əzizi, sevimlisi etmişdir. Onun ideya, fikir əleyhdarı ola bilər, lakin onun şəxsi düşməni, istəməyəni yoxdur. Onun paxılı az, qibtə edəni isə çoxdur.

Yusif müəllimin ən böyük sevinci yazıb-yaratmaq, arayıb-axtarmaq, xeyirxah əməllərlə yaşamaqdır. Ömrünün yetkin çağlarını yaşayan Yusif Talıbov bu gün də gənclik eşqi, həvəsi ilə yazıb-yaradır, yorulmaq bilmədən çalışır.

Xalqımızı düşdüyü bəladan qurtarmaq, torpaqlarımızın erməni işğalçılarından azad edildiyi günü görmək onun ən müqəddəsç arzusudur. Arzun çin olsun, Yusif müəllim!

**29.10.2000-ci il**

## Təhsil islahatları zamanın tələbidir

Azərbaycan Respublikasını müstəqil bir dövlət kimi dünyanın 200-ə yaxın dövləti tanımışdır. Müstəqil dövlətin mühüm atributlarından biri də onun təhsil sistemidir. Bu gün Azərbaycan dövləti öz təhsil sitemini yaradır, islahatlar aparır, gənc nəslin təlim-tərbiyə işinə xüsusi diqqət yeirir. Belə bir şəraitdə pedaqogika elminin, təhsil və tərbiyənin məzmununda yeniləşmə baş verir, yeni pedaqoji anlayışlar yaranır. Bununla əlaqədar olaraq redaksiyamız aşağıdakı suallarla pedaqoji elmlər doktoru, professor, Azərb. BTİ-nin «Pedaqogika və psixologiya» kafedrasının müdiri Yusif Talıbova müraciət etmişdir.

**M.- Yusif müəllim, hazırda respublikamızda yeni təhsil sistemi yaranır, təlimin, tərbiyənin məzmununda əsaslı dəyişikliklər, yeniləşmə baş verir. Bu dəyişikliyin, yeniləşmənin mahiyyəti və istiqaməti nədən ibarətdir?**

**Y.T.** - Azərbaycan müstəqil dövlət kimi bütün sahələrdə olduğu kimi təhsil, təlim, tərbiyə sahələrində də ciddi yeniləşmə islahatları aparır, bütövlükdə təhsil sistemini yenidən qurur. Bu yeniləşmə, əsaslı yenidənqurmanın mahiyyətini təhsil və tərbiyənin məzmunu təşkil edir. Bir neçə ildir ki, Respublika Təhsil Nazirliyi görkəmli alimlərin, metodistlərin, pedaqoq və psixoloqların köməyi ilə yeni tədris planları, proqramlar və dərsliklər hazırlayır. Bu sənədlər təhsilin, tərbiyənin məzmununu əks etdirdiyindən yeniləşməni həmin sənədlərdə asanlıqla görmək olar.

Tədris planına yeni fənlər daxil edilir. Məsələn, «İnsan və cəmiyyət», «Din tarixi» və s.

Proqramlarda xalqımızın milli kökünə, adət-ənənələrinə, dini etiqadlarına, Şərq dünyası elminin qabaqcıl alimlərinin elmi kəşf və ixtiralarına, görkəmli tarixi şəxsiyyətlərin həyat və fəaliyyətinə geniş yer verilməsi, milli qürur ilə ümumbəşəriliyin tam vəhdətdə işıqlandırılması bu yeniləşməyə parlaq misaldır.

Dərsliklər proqram əsasında yazıldığına görə həmin məsələlərin şərhi dərsliklərin fəqərə sütununu təşkil edir. İbtidai



siniflər üçün nəşr edilmiş «Əlifba», «Oxu-2», «Oxu-3», «Oxu-4», «Türk dili», «Rus dili», «Riyaziyyat» dərslikləri, V-VII siniflər üçün «Azərbaycan tarixi», «Riyaziyyat», IX-X siniflər üçün «İnsan və millət», «Həndəsə» və s. dərsliklər bu yeniləşməni təsdiq edir. Bu dərsliklərdə xalqımızın mübarizə tarixi, ədəbi qaynaqları, indiyə kimi adı heç bir dərsliklərdə çəkilməyən dastanları, elm adamları haqqında, dini dəyərləri, inancları haqqında, tarixi şəxsiyyətləri, məğlubiyyətləri və qələbələri haqqında ermənilərin hələ çox-çox qədimdən xalqımıza qarşı hiyləgər, məkrli hərəkətləri haqqında ətraflı məlumat verilir.

Yeniləşmə tərbiyənin məqsədi, komponentləri, məzmunu sahəsində də baş verir. İndi neçə-neçə onilliklər qadağan edilən milli mənlik şüurundan, milli ləyaqət və iftixar hissindən elmi məqalə və əsərlərdə fəxarətlə söz açılır. İndi vətənpərvərlik tərbiyəsinin mahiyyəti və məzmununda ciddi yeniləşmə gedir. Bu sahədə respublkamızda aparılan elmi, pedaqoji, psixoloji tədqiqatları qənaətbəxş hesab etmək olar. Bununla belə, başlıca vəzifə baş verən yeniləşməni düzgün elmi əsaslarla işləməkdən ibarətdir.

**M. - Yusif müəllim, məktəblilərin respublikamızda raket sürətilə qiymətləri artan alış-verişdə iştirakına necə baxırsınız?**

**Y.T.** – Bəri başdan deyim ki, uşaqların alverdə iştirakı çox pis, qarşısıalınmaz epidemiyadır. Hazırda uşaqlar da, böyüklər də az işləyib çox qazanmaq xəstəliyinə düçar olmuşlar. Məktəblilərdə təlimə maraq aşağı düşmüş, elmə, öyrənməyə həvəs azalmışdır. Bunun da başlıca səbəbi müəllimlərin, elm adamlarının güzəranının pisləşməsidir. Dövlət müəllimlərə müəyyən güzəştlər etsə də onların əmək haqqı qiymətlərin sürətlə artdığı bazarla ayaqlaşmır. Dərsliklər, məktəbli ləvazimatı çox baha qiymətə satılır. Müəllimlər tədris etdiyi fənnə dair dərslikləri ala bilmir. Vaxtılə 2 qəpiyə aldığı dəftəri müəllim 250 manata, 44 qəpiklik dəftəri isə 650-800 manata alır. Müəllimlər elmi-metodiki, pedaqoji-psixoloji məlumatlardan məhrum olmuşlar. «Azərbaycan müəllimi» qəzeti ayda bir dəfə də nəşr olunmur. «Azərbaycan məktəbi» jurnalı çoxdan satışda görünmür, ildə 1,2

№-si ancaq çap olunur. Dərslikləri 6-8 min manata əldən alınca müəyyən edilmiş qayda ilə məktəblərin özündən almağı təşkil etmək vacibdir. Artıq əldə edilmiş pul onsuz da dövlət bankına deyil, kiminsə cibinə gedir. Müəllim hamıdan yaxşı güzəran keçirsə şagirdlər təhsildən, elmdən, oxumaqdan bərk yapışarlar. Alman xalqının gözəl bir kəlamı vardır: «O xalq xoşbəxtdir ki, onun yaxşı müəllimi var». Azərbaycanda yaxşı müəllimlər çoxdur. Onları qorumaq, onlara qayğı göstərmək vacibdir. Mənə elə gəlir ki, çox güclü bir əl xalqımızın gələcəyinə balta vurur. Biz alış-verişdə məktəblilərin iştirakının əzabını sonralar çəkəcəyik. Ayılıb görəcəyik ki, ölkəni idarə edə biləcək yaşlı nəsli əvəz edəcək kadrlarımız yoxdur. Onda isə gec olacaqdır. «Həyəcan təbili» bu gün çalınmalıdır. Bu gün məktəblərdə müəllimlər şagirdlərlə iş aparmaqda tək qalmışlar. Onlara kömək edəcək uşaq təşkilatları yoxdur. Məktəblilərin asudə vaxtının təşkili unudulmuşdur. Bir çox sivilizasiyalı ölkələrdə ingilis generalı Baden Paulen yaratdığı «Skaut uşaq təşkilatı» fəaliyyət göstərir. Pioner təşkilatından imtina etdik, komsomolu da bəyənmədik. Məktəblilərlə, gənclərlə iş aparan bir orqan olmalıdır, ya yox? Fikrimizcə, olmalıdır. Bütün məsələləri güzəranı onsuz da ağır olan müəllimlərin kürəyinə şələləmək olmaz. Pedaqoji ictimaiyyət məktəblilərlə iş aparan təşkilatlar haqqında fikirləşməlidirlər.

**M.-Respublikada pedaqogika elminin inkişafında və şagirdlərin təlim-tərbiyəsində mühüm xidmətləri olan hansı pedaqoqların, müəllimlərin təcrübəsini örnək hesab edirsiniz?**

Y.T.-Azərbaycanda pedaqoji fikrin tarixi çox qədimdir. Hər bir dövrün görkəmli məktəb ustaları, müəllimləri, elm xadimləri olmuşdur. Nizami, N.Tusi ən böyük ustad psixoloq və pedaqoqdur. Ə.Təbrizi, Ə.Marağalı, M.Füzuli böyük söz ustaları olmaqla, həm də gözəl tərbiyəçidirlər. Bu qızıl həmayil silsiləsinin Bakıxanov, M.Kazımbəy, M.Topçubaşov, M.F.Axundov, H.B.Zərdabi, F.B.Köçərli, H.Cavid kimi onlarca incilərini sadalamaq olar. Lakin XX əsr Azərbaycan pedaqogika elminin qızıl sacayağı Ə.Seyidov, M.Mehdizadə və M.Muradxanovdur. Onların həyatı, fəaliyyəti, yaradıcılığı əsl tərbiyə məktəbidir. Praktik müəllimlərdən Z.Şöyübovun, M.Quliyevin, Y.Bünyadovun, H.Hüseynovun, M.Məcidovun və yüzlərcə qabaqcıl müəllimlərin adlarını iftixarla çəkmək olar.



**M. - Gənc nəslin təlim-tərbiyəsində ailə, məktəb və mühitin /şəraitin/ rolunu nədə görürsünüz? Bunların hansını başlıca amil hesab edirsiniz?**

Y.T. - Bu sual mənə «Azərbaycan gəncləri» qəzetinin 1955-ci il sentyabr ayında yoxlayıcı M.Ağayevin «Gəlin nəzakətdən danışaq» adlı məktubu ilə əlaqədar açdığı müza-kirəni xatırlatdı. Mən o vaxt Füzuli rayonu Qaradağlı kənd orta məktəbində müəllim işləyirdim. Həmin müzakirədə mən «Günah böyüklərdədir» adlı yazı ilə çıxış etmişdim. Hələ o vaxt mən yazmışdım ki, uşaqların tərbiyəsində böyüklər mühüm rol oynayır. «Böyüklər» anlayışına mən həm valideynləri, həm də bütün yaşlıları daxil etmişdim. Uşaqların tərbiyəsində məktəb də, ailə də, şərait də, mühit də mühüm rol oynayır. Şübhəsiz ki, bu üçlüyün içərisində məktəb üstün mövqeyə malikdir. Bu üstünlüyü isə məktəb valideynlərlə, ictimaiyyətlə sıx əlaqədə qoruyub saxlaya bilər.

**M.-Müəllim-şagird, müəllim-tələbə münasibətlərini necə görmək istərdiniz?**

Y.T.-Müəllim-şagird, tələbə-müəllim münasibətləri təlim prosesinin aparıcı amillərindən biridir. Bu münasibətlər qarşılıqlı anlaşma, hörmət, qayğı və məhəbbət üzərində qurulduqda təlim prosesi mütəşəkkil və məqsədyönlü təşkil olunur, əks təqdirdə münaqişələr baş verir, narazılıqlar yaranır. Müəllim-şagird, tələbə-müəllim münasibətlərində fəallıq, yaradıcılıq, tərbiyə və elmi zəminə əsaslanan nəzakətli mübahisə, bir-birinə hörmət və ehtiram hökm sürməlidir.

**M.-Hazırda respublikamızda özəl təhsil müəssisələri durmadan artır. Bu müəssisələrin çoxunun isə maddi bazası yoxdur. Müəllimlərin əksəriyyəti həmin müəssisələrdə saat hesabı işləyir. Tələbələrlə lazımı səviyyədə tərbiyə işi apara bilmirlər. Özəl təhsil müəssisələrinə münasibətiniz.**

Y.T.-Özəl təhsil müəssisələri Azərbaycan Respublikasının Təhsil Qanunu əsasında yaradılmışdır. Doğrudur, belə təhsil müəssisələrinin əksəriyyətinin maddi bazası yoxdur. Lakin onlar

özlərinə bina almağa, laboratoriyalar yaratmağa, kitabxanalar təşkil etməyə xüsusi qayğı ilə yanaşırlar. Belə münasibətlərdə təlim-tərbiyə işlərinin təşkili xüsusiyyətləri yenicə öyrənilir. Tədris planları, proqramlar təkmilləşdirilir, dərsliklər, dərs vəsaitlərinin yazılması, nəşri planlaşdırılır. Fikrimizcə belə təhsil müəssisələrinin həyatiliyini zaman özü təsdiq edəcəkdir. Mənim özəl təhsil müəssisələrinə münasibətim belədir: Həmin müəssisələrdə şagirdlərə, tələbələrə dərin elmi biliklər verilməli, ali mənəvi keyfiyyətlər tərbiyə edilməlidir. Özəl ali təhsil müəssisələrində təhsil alan gənclər özlərinin mədəniyyəti, elmi, biliyi, mənəviyyatı ilə seçilməlidir.

**M.-Siz bir çox kitabların, elmi əsərlərin müəllifisiniz. «Pedaqogika» dərs vəsaitini də bir neçə müəlliflə nəşr etdirmisiniz. Hazırda yaradıcılıq planlarınız nədən ibarətdir? Tədqiqatlarınızı hansı istiqamətdə aparırsınız?**

**Y.T.**- Mən son illərdə Azərbaycanda pedaqoji fikrin tədqiqinə daha çox diqqət vermişəm. «Klassik ədəbiyyatda fiziki tərbiyə», «Klassik ədəbiyyatda fiziki kamillik», «Nizaminin pedaqoji görüşləri», «Azərbaycan folklor nümunələrində fiziki tərbiyə» əsərlərini nəşr etdirmişəm. «Məktəblilərin mənəvi tərbiyəsi» monoqrafiyam bu il «Maarif» nəşriyyatında çapdan çıxıb. «Mini pedaqogika», «Pedaqogikanın tədrisi metodikası» adlı kitablar üzərində işləyirəm. Məni çoxdan narahat edən «Görkəmli şəxsiyyətlərin son sözləri»ni, bir də «İki, on iki» adlı kitabı /tərtib/, habelə öz həyatımdan bəhs edən «Sabah gec olar» /Acılı-şirinli xatirələr/ sənədli pedaqoji əsər üzərində işləyirəm

**M.-Azərbaycan gənclərinə sözünüz?**

**Y.T.**-Azərbaycan gənclərinə sağlamlıq, səadət, gümrahlıq, ən ümdəsi isə vətən torpağının azadlığı, Azərbaycanın üç rəngli köksü hilallı və ulduzlu bayrağının Laçın, Şuşa şəhərləri üzərində dalğalandığını görmələrini arzulayıram.

***Müsahibəni apardı: Müəllif.***
***10.12.1994-cü il***

— Qeyd: Müsahibənin mətni «Azərbaycan müəllimi» qəzetinin 29 dekabr, 1994-cü il tarixli nömrəsindən götürülmüşdür.



## Xəlil Rza Ulutürk haqqında xatirələrim

Mənim onunla tanışlığım 1985-ci ilə təsadüf edirdi. Onun çox gözəl insani xasiyyətləri var idi. Xəlil Rza şəxsiyyətinə, Xəlil Rza poeziyasına mənim çoxdan hörmətim vardır. Xəlil Rzanın şəxsiyyəti onu tanıyanların xatirəsindən heç vaxt silinmir. Onda dostlara qarşı insanlıq münasibətində də başqalarına nisbətən bir pillə yüksək keyfiyyət hiss olunurdu. 80-cı illərdə də Xəlil Rza özünün realist üslubundan çəkinməyərək mübariz bir şair kimi özünü həmişə biruzə verərdi.

1985-ci ilin aprel ayının 17-də Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutu, Respublika Yazıçılar İttifaqı və Azərbaycan Dövlət Universiteti ilə birgə görkəmli ədəbiyyatşünas-alim, tənqidçi və pedaqoq, filologiya elmləri doktoru, pofessor Əkbər Ağayevin anadan olmasının 70 illik yubileyinə həsr olunmuş geniş Elmi Şura keçirilirdi. Məni də yubiley gününə dəvət etmişdilər.

Şuranın yığıncağını giriş sözü ilə filologiya elmləri doktoru, əməkdar elm xadimi Yaşar Qarayev açıq elan etdi. Yubilyarın həyat və fəaliyyəti haqqında görkəmli tənqidçi-alim, filologiya elmləri namizədi Şamil Salmanov ətraflı məruzə söylədi. Sonra çıxışlar başladı. Söz Əkbər müəllimin qələm dostlarına verildi. Bu anda Xəlil Rza xitabət kürsüsünə yaxınlaşdı. Onun realist bir şair kimi çıxışı yubiley iştirakçılarını sanki heyrətə gətirmişdi. O, çıxışını yubilyara həsr etdiyi şeri ilə bitirdi. Yubiley iştirakçıları onu hərarətlə qarşıladılar.

**Haşiyə:** Professor Əkbər Ağayev atam Mirzə Xosrov Axundzadənin sabiq şagirdlərindən biri idi. O, özünün ilk «Əlifba» müəllimi haqqında xatirələrini də yazıb mənə təqdim etmişdir. Buna görə də Elmi Şuranın yığıncağında mən də söz alıb çıxış etdim. Hətta Əkbər müəllimin atam haqqında yazdığı xatirələrin maraqlı bir hissəsini də oxudum. Salondakılar məni gurultulu alqışlarla qarşıladılar.

Mənim çıxışımı bəyənənlərdən biri də Xəlil Rza Ulutürk olmuşdur. Elmi Şuranın işi qurtardıqdan sonra Xəlil Rza mənə yaxınlaşıb dedi ki, əhsən Pərviz müəllim, əsl övlad kimi səni bağrıma basıram. Atanın ruhunu belə yad edərlər! Elə o vaxtdan da Xəlil Rza ilə ünsiyyətimiz başladı.

Həmin dövrlərdə mən Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda müəllimlik fəaliyyəti ilə məşğul idim. Dərslərim qurtardıqdan sonra İnstitutun yerləşdiyi Kommunist küçəsindən /indiki İstiqliliyyət küçəsi/ üzü aşağı piyada səmanı seyr edərək M.Ə.Sabir adına bağda boş vaxtlarımda dincələrdim. Çox vaxtlar həmin bağda Xəlil Rzanı görərdim. O, həmişə adəti üzrə bağdakı su budkasının qarşısındakı oturacaqda əyləşərdi. Mən onu görcək salamlaşıb hal-əhval tutardım. Xəlil Rza məni görcək vətənpərvər bir şair kimi qarşılayardı. O dəmdə mənə şerlə cavab verərdi və deyərdi ki, Pərviz bala, sən həqiqətən də atana oxşamısan. Sənin gələcəyin vardır. Bütün Azərbaycan xalqı mahir pedaqoq Mirzə Xosrovun ruhunu həmişə əziz tutmuşlar. Biz də vətənpərvər bir şair qarşısında baş əyirik.

1993-ci ildə atam Mirzə Xosrov Axundzadənin ədəbi yaradıcılığına dair əlyazmaları toplusu «Ömürdən səhifələr» adı ilə «Yazıçı» nəşriyyatı tərəfindən çapdan çıxmışdır. Əsərin tərtibçiçsi mən idim. Eyni zamanda, kitaba «Ön sözü» filologiya elmləri doktoru, professor Nazim Axundovla birlikdə yazmışdıq.

Bir müddətdən sonra mən yenə də Sabir bağında Xəlil Rza ilə rastlaşıb kitabın bir nüsxəsini ona bağışladım. Onun əlində yaraşıqlı, xalis dəridən hazırlanmış palıd rənginə çalan portfeli vardı. Portfelin içərisi həmişə əlyazmalarla, kitablarla dolu olardı. Xəlil Rza bəzən mütaliəni təmiz havada edərdi.

Xəlil Rza kitabı məndən alıb çox məmnun olduğunu bildirdi və əlavə etdi ki, Mirzə Xosrov Şaiq haqqında, onun əsl pedaqoqa layiq olan şəxsiyyətinə həsr edəcəyim şer məni bundan sonra daha çox düşündürəcək. Mirzə Xosrov irsini öyrənmək biz şairlərə böyük örnək olardı.



1988-ci ildən sonra Xəlil Rza Ulutürk özünün mübarizliyini daha da artırdı. O, erməni qəsbkarlarının fitnəkarlığına qarşı küçə nümayişlərini və küçə yürüşlərini təşkil edirdi.

Amansız ölüm ölkəsinin müstəqilliyi yolunda hər cür məhrumiyyətlərə sinə gərən, azadlıq carçısı Xəlil Rzanı əlimizdən aldı. 1994-cü ildə onun ürəyi əbədi dayandı. Lakin allahın sevimli bəndəsi sayılan, o mərd xisləti və bənzərsiz istedadı xalqımız heç vaxt unutmamalıdır. Əks təqdirdə Xəlil Rza Ulutürkün nurlu ruhu bizi bağışlamaz!

## Əliyar Qarabağlı haqqında xatirələrim

Əliyar Məhəmməd oğlu Qarabağlı 1901-ci ildə Gürcüstanın Borçalı (hazırda Marneuli) rayonundakı Nəcməddin kəndində anadan olmuşdur. Qiymətli elmi əsərləri ilə respublikamızda şöhrət tapan Əliyar Qarabağlı həm də görkəmli pedaqoq kimi tanınmışdır. O, 1941-ci ildən ömrünün axırına qədər Azərbaycan Dövlət Universitetində «Azərbaycan ədəbiyyatı və onun tədrisi metodikası»ndan mühazirələr oxumuş, tələbələrin pedaqoji təcrübəsinə rəhbərlik etmişdir.

Əliyar müəllim Azərbaycan ədəbiyyatşünaslığının, xüsusən şifahi xalq ədəbiyyatının, orta məktəblərdə ədəbiyyat tədrisi metodikasının ən mühüm və aktual problemlərinə dair dəyərli məqalə və əsərlərin müəllifidir.

Əliyar Qarabağlı bütün elmi-pedaqoji fəaliyyətini xalq maarifinin inkişafına, gənc nəslin tə'lim-tərbiyəsinə, elmi kadrların yetişdirilməsinə həsr etmişdir. O, mahir pedaqoq və iste'dadlı alim olmaqla yanaşı, həm də son dərəcə nəcib bir insan idi. Onun belə nəcib hərəkətlərindən bə'zilərini misal gətirmək mənim üçün şərəflidir.

Əliyar Qarabağlı 1959-1960-cı illərdə atam Mirzə Xosrov Axundzadə ilə yaxından tanışlıq etmiş və onun şifahi xalq ədəbiyyatına dair fikirlərini öyrənmişdir. Buna görə də o, Xosrov müəllimlə sıx əlaqə yaratmış və onun Qarabağ tarixinə dair dəyərli mülahizələrindən istifadə etmişdir.

Mirzə Xosrov, özünün əlyazmalarında Əliyar Qarabağlı ilə görüşləri və məktublarını ətraflı şərh etmişdir. Hətta 1959-cu ilin yay fəslində Mirzə Xosrov, Əliyar Qarabağlı, Azərbaycan və Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi Murad Tutayuqla Şuşanın səfalı guşəsi sayılan «İsa bulağı»nda olarkən birlikdə şəkil də çəkdirmişlər*.

* Həmin şəkil və məktublar hazırda mənim şəxsi arxivimdə saxlanılır.



Beləliklə də, professor Əliyar Qarabağlı Mirzə Xosrovun kəlamlı sözlərinə və onun Qarabağın tarixinə dair çıxışlarına o qədər aludəliklə qulaq asardı ki, hətta ondan ayrılmaq istəməzdi.

1960-cı ildə Mirzə Xosrov Axundzadə vəfat etdi. Əliyar müəllim sadiq bir dost kimi onun övladlarına çox sədaqətli olmuş və xüsusən də mənə səmimi münasibət bəsləmişdir. Buna görə də mənim çətinliyim olsaydı, Əliyar müəllimin evinə gedib ona öz dərdimi açardım. Əliyar Qarabağlı Mirzə Xosrovun əlyazmalarını qorumağımı dəfələrlə mənim nəzərimə çatdırardı. O, atamın pedaqoji və ədəbi irsinə çox böyük qiymət verərdi.

1965-ci ilin may ayında Əliyar Qarabağlını, Murad Tutayuqu və Əli Kürdüstanlını 5-ci mikrorayonda yaşadığımız bir otaqlı mənzilə qonaq də'vət etdim. Onlar mənim də'vətimi mənmuniyyətlə qəbul etdilər. Həmin gün üçün mən lazımi hazırlıq görmüşdüm ki, atamın sabiq dostlarının səslərini maqnitofon lentinə yazım. Bunu da yerinə yetirdim. Mənzilimizdə «Aidas» markalı maqnitafonumuz var idi. Əliyar Qarabağlı və Murad Tutayuq Mirzə Xosrov haqqında həyəcanla və çox şirin-şirin çıxış etdilər. Onu bir mahir pedaqoq, ədəbiyyatşünas və Qarabağın tarixçisi kimi qiymətləndirdilər. Hətta mən gələcək nəsil üçün yadigar olaraq onların şəklini də çəkdim. Doğrudan da, indi həmin şəkillərə baxdıqca biz tarixi şəxsləri yad etmiş oluruq, hər ikisi artıq dünyasını çoxdan dəyişmişlər.

Həmin gün Əliyar müəllim Mirzə Xosrov Şaiqin «Şe'rlər məcmuəsi» ilə maraqlandı. Mən məcmuəni Əliyar müəllimə təqdim etdim. Məcmuənin həcmi 364 səhifə idi. O, məcmuəni vərəqlədikcə onun hər bir sətrinə xüsusi diqqət yetirirdi. Lakin əlbəttə, bir neçə saatda məcmuəni oxuyub qurtarmaq mümkün deyildi. Məcmuəni diqqətlə nəzərdən keçirdikdən sonra axırda Əliyar müəllim bir səhifəlik rəyini də yazıb mənə verdi. Onun əlyazmasını indiyə kimi Mirzə Xosrovun şəxsi arxivində saxlayıram. Eyni zamanda Əliyar Qarabağlı və Murad Tutayuqun səs yazılarını Dövlət Səsyazmalar Arxivindəki Mirzə Xosrovun fonduna təhvil vermişəm.

Mən Əliyar müəllimin əziz xatirəsini qəlbimdə həmişə yad edib əbədi yaşadıram. Allah ona rəhmət etsin, qəbri nurla dolsun!

## Bacarıqlı yurd başçısı
## Qəşəm Aslanov haqqında xatirələrim

Qəşəm müəllim bir neçə il Şuşa şəhərində Şuşa Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləmişdir. Onun işlədiyi dövr ərzində Şuşa şəhəri çiçəklənmiş və Şuşanın əsas avtomobil yollarına (Şuşadan Xankəndinə kimi, – 7 dolamasına) asfalt döşənmişdir. O, bir sözlə Şuşanı Azərbaycanın füsunkar güşəsi kimi Ümumittifaq kurort şəhəri görmək arzusu ilə yaşayırdı. Bu məsələnin həllində Qəşəm Aslanov keçmiş DQMV-nin birinci katibi Boris Kevorkovla baş-başa döyüşmüşdür. Nəticədə isə, onunla düz gəlmədiyinə görə Şuşa Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsindən azad olunmuş və Mərkəzi Komitə onu İsmayıllı rayonunun partiya komitəsinin birinci katibi vəzifəsinə təyin etmişdir. Bir il çəkməmiş Qəşəm müəllim Azərbaycan KP MK-nın «Təbliğat və təşviqat şöbəsi» müdirinin birinci müavini vəzifəsinə təyin olunmuşdur. Onun bu vəzifəsi dövründə bir məqamı qeyd etməyi özümə borc bilirəm.

1987-ci ildə Şuşada boya-başa çatmış, görkəmli alim, riyaziyyatçı, xəttat, «Məclisi-Fəramuşan» ədəbi dərnəyinin rəhbəri Mir Möhsün Nəvvab Qarabağinin anadan olmasının 150 illik yubileyinin keçirilməsinə respublikada böyük hazırlıq işləri aparılırdı. Yubileylə əlaqədar olaraq, atam Mirzə Xosrov Axundzadə-Şaiq təxəllüsün «Mir Möhsün Nəvvab-Qarabaği haqqında xatirələr» əlyazmasını işləyib hazırlamışdım. Həmin xatirələrin tərtibçisi idim.

Mən Mir Möhsün Nəvvabın yubileyi ilə əlaqədar olaraq atamın onun haqqında olan xatirə əlyazmalarını bir yerə toplayıb bir başa MK-nın təbliğat və təşviqat şöbəsinə aparmaq istəyirdim ki, Qəşəm Aslanov onu oxusun və məsləhət bilsə nəşriyyatların birində yubiley qabağı çap olunsun. MK-nın binasının qapısında duran növbətçi milis işçisindən Qəşəm Aslanovun yanına getməyimi bildirdikdə o, mənə dedi ki, MK-nın binasından bir qədər aralıda qəbul otağı var, gedib həmin otaqdan telefonla pulsuz zəng edərsən.



Mən Qəşəm Aslanovun telefonunu öyrənib ona zəng etdim. Bu anda o, telefonun dəstəyini qaldırıb məni dinlədi, lakin telefon danışığında onun çox əsəbi olduğunu hiss etdim. Qəşəm müəllim mənim ümidimi puça verməyib atamın «Mir Möhsün Nəvvab Qarabaği haqqında xatirələri»ni MK-nın 2-ci qapısında növbətçiyə təqdim etməyimi bildirdi və qeyd etdi ki, onunla telefon əlaqəsi saxlayım. Qəşəm müəllim, birdən telefonda əsəbi halda başqa bir məsələni mənə açıqladı:

-Pərviz müəllim, get vətənpərvər qarabağlılarına bildir ki, daşnak Aşot Arzumanyan özünün məqaləsində Şuşa şəhərini Ermənistanın bir guşəsi adlandırır*.

Qəşəm müəllim jurnalın adını və nömrəsini mənə dedikdən sonra başqa bir daşnak erməni yazıçısının yazdığı pyesin adını çəkdi, bu Ararat Barseqyanın 1983-cü ildə Moskvada «Sovetskiy pisatel» nəşriyyatında buraxılmış «Mozaika lyubvi» kitabı idi. O, qeyd etdi ki, kitabı Azərkitabın bazasında satışa buraxdırmamışam. Əgər kitabdan əldə etmək istəsən, Dövlət Mətbuat Komitəsinə gedib nəşriyyat şöbəsindən mənim adımı verib bir ədəd alarsan. Telefon danışığından sonra mən geri qayıdıb kitabxanadan adı çəkilən jurnalı tapdım. Jurnalın 28-ci səhifəsində Aşot Arzumanyan "Скулптор Акоп Гюрдьян" adlı məqaləsində yazır:

«Далеко от родины протекали годы становления и зрелости скульптора Акопа Гюрдъяна. Он родился 5-го декабря 1881 года в городе Шуша - в центре одного из красивейших уголков Армении, Нагорного Карабаха».

Doğrudan da, bu sətirləri oxuduqca çox pərt oldum. Düşündüm ki, birdən-birə haçandan Şuşa şəhəri Ermənistanın bir guşəsi oldu? Sən demə, Daşnaksütun partiyası Şuşa şəhərini talan etmək üçün uzun müddətdir ki, planlaşdırıblar. Bu da 1938-ci ildən özünü biruzə verməyə başlamışdır. Lakin bizim bəzi «vəzifəpərəst başçılarımız» da Azərbaycanın füsunkar təbiətli Şuşa şəhərini və başqa şəhərlərimizi erməni millətçilərinə satdılar.

---

* Bax "Oqonyok" jurnalı, № 50, səh. 28,1982-ci il.

Qəşəm Aslanovun ikinci tapşırığını yerinə yetirmək məqsədilə Dövlət Mətbuat Komitəsinə yollanıb Ararat Barseqyanın «Mozaika lyubvi» kitabını da əldə etdim. Kitabda «Pılı puti» «qəhrəmanlıq» komediyasını oxudum. O, burada Pənah xanı pozğun bir şəxsiyyət kimi qələmə vermiş və onu hərəmxananın başçısı hesab etmişdir. Həmin kitabı Qəşəm Aslanov «Azərkitab»ın mağazalarında satışa buraxdırmamışdır.

Bacarıqlı yurd başçısı Qəşəm Aslanov MK xətti ilə getdikcə irəli çəkilirdi. Bir müddətdən sonra o, Abşeron rayonu Partiya Komitəsinin birinci katibi vəzifəsinə təyin olundu. Təəsüf ki, bu vəzifə də onun axırıncı iş yeri oldu.

Qeyd etmək istərdim ki, Qəşəm Aslanovla mənim yaxından tanışlığım yox idi. Lakin Şuşada olarkən onun şəhərin abadlaşdırılmasına necə can yandırdığının canlı şahidi olmuşdum o, ölümdən heç vaxt qorxmamışdır. Buna görə də bacarıqlı yurd başçısının çalışqanlığını gözü götürməyənlər də olmuşdur. Onun faciəli sürətdə ölümü də (avtomobil qəzasına uğraması) indiyə kimi qəlbimizdə əbədi həkk olmuşdur. Ömrünün yetkin çağında qəfil qəza Qəşəm müəllimi xalqdan ayırdı. O vaxtdan xeyli müddət keçməyinə baxmayaraq ona dərindən hörmət bəsləyən dost-tanışlar hərdən «fəxri xiyaban»dan yolunu salır və ona ulu Tanrıdan rəhmət diləyirlər.



## Milli mədəniyyətimizin carçısı - Güllü xanım!

Əgər məndən soruşsaydılar ki, xalqın, millətin tərəqqisi, onun mədəni inkişafı nə ilə ölçülür, tərəddüd etmədən belə cavab verərdim: qadına münasibətdə! İndi qadınlarımız xalq təsərrüfatının, elm və mədəniyyətin bütün sahələrində özlərinə şöhrət qazanmışlar. Hazırda respublikamızda əməkçi qadınlar arasında əmək qəhrəmanları, Dövlət mükafatı laureatları vardır. Respublikanın ali məktəblərində və elmi-tədqiqat İnstitutlarında qadınlar çalışır. Həkimlər, müəllimlər və mühəndislər arasında çoxlu qadın vardır. Onların arasında elmlər doktoru, elmlər namizədi çoxdur. Belə qadınlardan biri də Azərbaycan Mədəniyyət Fondunun İdarə Heyətinin sədr müavini vəzifəsində işləmiş, tarix elmləri namizədi Güllü xanım Əbilovadır. Güllü xanım hələ uşaq vaxtlarında əsrlərin yadigarı olan nəhəng qədim abidələrlə maraqlanmış, onların hündür bürclərinə, oval şəkilli gümbəzlərinə və yaraşıqlı naxışlarına saatlarla tamaşa etmişdir. Ona bu abidələrin yaşı barəsində nə ata-anası, nə nənəsi, nə də başqa qocalar söyləyə bilirdi. Güllü gördüyü abidələrin tarixini uşaqlara xas olan bir məntiqlə eşitdiyi və oxuduğu nağıllardan divlərlə və əsrarəngiz qəhrəmanlarla əlaqələndirirdi.

Güllü Əbilova 1924-cü il, sentyabr ayının 16-da Bakıda-«Qara şəhər»də dünyaya göz açmışdır. Güllü böyüdükcə uzaq keçmişlərin sirlərini açmağa olan marağı daha da artırdı. Onun atası Əbil Abdul Əli oğlu Bakı şəhərinin «Qara şəhər» adlanan rayonunda (indiki Xətai rayonunda) 1903-cü ildən bəri 50 il neft sahəsində çalışmışdır. O, məşhur neftçi idi. Anası Kübra xanım Abdullayeva evdar qadın olmuşdur. Müharibə illərində Bakının indiki Xətai rayonunda Aşıq Ələsgər adına mədəniyyət evində baş nəzarətçi vəzifəsində işləmişdi. Eyni zamanda Bakı Sovetinin deputatı seçilmişdi.

Güllünün uşaqlıq fərziyyələri artıq onu qənaətləndirmirdi. Bu məqsədlə, «qıfıllı sirləri» elm adlı bir açarla açmağı qət edir.

## Aspirantura təhsili

Güllü Əbilova orta və ali təhsilini böyük bir arzu ilə başa vurdu. O, bu arzu ilə də 1950-ci ildə aspiranturaya daxil oldu. Elmi fəaliyyətə başlayaraq Zaqafqaziyanın meqalitik qədim abidələri ilə yaxından tanış oldu, onları öyrəndi. Nəhayət, Güllünü ən çox həyəcanlandıran gün gəldi... 1954-cü il yanvarın 14-də Azərbaycan Dövlət Universitetinin böyük salonu professor və müəllimlərlə, aspirant və tələbələrlə dolu idi. Hamı sakit oturub aspirant Güllü Əbilovanın həyəcanlı çıxışına qulaq asırdı. O, tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün «Zaqafqaziyanın meqalitik abidələri» mövzusunda dissertasiya müdafiə edirdi. Güllü xanım danışdıqca keçmişin qaranlıq sirləri açılır, qədim abidələrin tarixi dinləyicilərin gözü önündə bir kino lenti kimi keçirdi...

Universitetin Böyük Elmi Şurasında əyləşmiş professor E.A.Paxomov daha fərəhli idi. Axı Güllü Əbilovanın işinə o rəhbərlik etmişdi. Gənc Güllünün yeni elmi pilləyə qalxmasında onun əməyi böyük idi. Güllü mövzu ətrafında aldığı suallara cavab verdikdən sonra çıxışlar başlandı. Tarix elmləri doktoru, professor E.A.Paxomov, tarix elmləri namizədi S.M.Qazıyev, İ.M.Cəfərzadə və başqaları çıxış edib müdafiə olunan elmi əsərin Zaqafqaziyadakı abidələri öyrənməkdə böyük əhəmiyyəti olduğunu göstərdilər.

Zaqafqaziya qədim abidələr məskənidir. Bu abidələrin tarixini öyrənmək bütün arxeoloqların vəzifəsidir. Güllü Əbilova bu işə böyük həvəslə yanaşmış və təqdirəlayiq bir əsər yazmışdı. Elmi Şura gizli səsvermə yolu ilə Güllü xanıma yekdilliklə tarix elmləri namizədi adını verdi. Professor E.A.Paxomov Güllü Əbilovanın əlini sıxıb ona gələcək elmi fəaliyyətində böyük müvəffəqiyyətlər arzu etdi.

Onu da qeyd etmək vacibdir ki, Güllü Əbilova Azərbaycanda arxeologiya sahəsi üzrə ilk alim qadın idi.

Güllü Əbilova aspiranturada təhsil dövründə müəllimlik fəaliyyəti ilə də məşğul olmuşdur. Belə ki, 1967-ci ilə kimi ADU-



nun tarix fakültəsinin baş müəllimi vəzifəsində çalışmışdır. 1954-1960-cı illərdə müəllimliklə yanaşı Azərbaycan Respublikası EA-nın Tarix muzeyinin «Qədim dövrlər və ibtidai icma dövrləri» şöbəsinin müdiri vəzifəsində işləmişdir. Azərbaycan Dövlət Tarix muzeyinin «Qədim dövrü»nün ekspozisiyasının təşkil olunması da məhz onun adı ilə bağlıdır. Bunlarla yanaşı, Güllü xanım elmə yeni qədəm qoyan gənc alimlərlə də əlaqəsini kəsmirdi. O, Universitetdə müəllim işlədiyi dövrlərdə bir neçə aspirantın rəsmi opponenti olmuşdur.

## Təvazökar və xeyriyyəçi qadın

Doğrudan da, nə vaxt Güllü xanımla qarşılaşardımsa, onun davranışı və mənə olan səmimi münasibəti nəticəsində məndə onun həyat səhifələrini açmaq hissi oyanırdı... Çox təəssüf ki, bu mənə onun ölümündən sonra qismət oldu.

Güllü xanım çox təvazökar, sadə təbiətli, aristokrat və uzaqgörən bir ziyalı qadın idi. Onun üzündə elə bil ki, insanlara qarşı insanlıq hissi əbədilik həkk olmuşdu. Ürəyində nigarançılıq olsa belə heç vaxt büruzə verməzdi. Sanki bu qadına Allahdan vergi verilmişdi. Onunla tanış olanlar Güllü xanımın insani keyfiyyətlərindən və mehribançılığından məmnun olardılar.

Güllü xanım ömrünün 40 ildən çoxunu dövlət idarələrində yüksək vəzifələrdə çalışmış və bu müddət ərzində gəncləri, istehsalat qabaqcıllarını gələcəyin xoş sədasına səsləyərdi. Onu xalq sevirdi. Güllü xanım Azərbaycan Respublikası Mədəniyyət Nazirinin müavini vəzifəsində işləyərkən mən dəfələrlə onun qəbulunda olmuşdum. Necə də xeyirxah insan idi. Mən onun iş otağına daxil olarkən, o, adəti üzrə ayağa qalxıb mənimlə səmimi qəlbdən görüşərdi. Elə Güllü xanımın mədəniyyət xadimi kimi bu adəti onun təvazökar bir qadın olmasına dəlildir.

Bir sözlə, Güllü xanım məni diqqətlə dinləmiş və mənə lazım olan məsləhətləri vermişdir. Elə o vaxtdan da biz onunla ali məktəblərdə muzey işinin tərəqqisi naminə bir sıra problem məsələlərə toxunmuşduq.

Güllü xanım özünün xeyriyyəçilik işinə görə, zəhmət adamlarının hərbi-vətənpərvərlik və beynəlmiləl tərbiyəsində fəal iştirakına görə respublika Müharibə və ƏməkVeteranları, Bakı Müharibə Veteranları komitəsinin fəxri fərmanına, təşəkkürünə və mükafatlarına layiq görülmüşdür.

## Fədakar insan

1961-ci ildə Güllü xanım Azərbaycan KP MK-nın «Təbliğat və təşviqat şöbəsi»nin müdir müavini və eyni zamanda Respublika Siyasi Maarif evinin müdiri vəzifəsində çalışmışdır. O bu dövrdə böyük siyasi tədbirlərlə məşğul olmuşdur. Belə ki, ilk dəfə olaraq Güllü xanım təbliğatçılırın birinci respublika toplanışını keçirmişdir. Onun dövründə bir qrup fəal təbliğatçı Azərbaycan Respublikasının Fəxri fərmanı ilə təltif olunmuşdur.

Güllü xanım həmin vəzifədə işlədiyi müddətdə Respublika Siyasi Maarif Evi partiya fəalları və təbliğatçıları üçün təlim - təhsil ocağı idi. Burada ideoloji işçilərin hər dərəcəsi üçün işin öz forması və üsulu var idi. Belə ki, daimi fəaliyyət göstərən seminarlar ayrı-ayrı fəallar üçün çox faydalı, mənalı və maraqlı keçirdi. Burada partiya komitələrinin, siyasi maarif kabinetlərinin, partiya kitabxanalarının müdirləri, təbliğatçıların şəhər (rayon) seminar rəhbərləri, siyasi maarif kabinetlərinin, metodik şura sədrləri, siyasi və iqtisadi təhsil üzrə məsləhətçilər, nəzəri seminar rəhbərləri və digər dərəcəli fəallar iştirak edirdilər. Seminarların yüksək səviyyədə keçirilməsini Güllü xanım özü təşkil edirdi. Mühazirəçilər kimi seminarlara alimlər, dövlət xadimləri, MK-nın katibləri, şöbə müdirləri, nazirlər, baş idarələrin rəhbərləri dəvət olunurdu. Dövlət xadimləri, güc nazirliklərinin rəhbərləri və bu təbliğatçıların suallarına mükəmməl cavab verirdilər. Bu anda seminar iştirakçıları səbirsizliklə Güllü xanımın çıxışını gözləyirdilər... Onun parlaq çıxışı, verilən suallara cavabı, siyasi mədəniyyəti, öz fikirlərini düzgün izah etməsi seminar iştirakçıları üçün bir məktəb və örnək idi.



Güllü Əbilovanın beynində həmişə yeni ideyalar, təşəbbüslər dolanırdı. Məhz onun təşəbbüsü ilə keçmiş Sovetlər İttifaqında ilk dəfə olaraq Azərbaycanda təbliğatçıların birinci respublika toplanışı keçirilmişdi. Təbliğatçıların mükafatlandırılması, respublika Ali Sovetinin Fəxri fərmanlarının təqdim edilməsi də Güllü xanımın təşəbbüsü ilə olmuşdur.

Respublikada Siyasi maarif evinin əhəmiyyəti getdikcə artmağa başlamışdır. Onun fəaliyyəti ideoloji işin gücləndirilməsində mühüm yer tuturdu. Belə ki, Güllü xanımın təklifi ilə yerlərdə partiya komitələrinin nəzdində ideoloji işçilərin fəallar məktəbi təşkil olundu və fəaliyyətə başladı. Respublika Siyasi Maarif evinin işçiləri, başda Güllü Əbilova olmaqla hər ay mühazirəçilər dəstəsi ilə və ya bilavasitə özləri zona müşavirələri, şəhər (rayon) seminarları keçirirdilər. Bu kimi tədbirlər ideoloji fəallar, ictimai əsaslarla işləyən siyasi maarif kabinetinin müdirlərini, metodiki şura sədrlərini, təbliğatçıları, siyasi məlumatçıları, əyani təşviqat üzrə komissiyaların sədrlərini əhatə edirdi. Bütün tədbirlər maraqlı, nəticəli və yüksək səviyyədə keçirdi.

Güllü xanımın fədakar bir insan olmasını onunla birgə işləyən əməkdaşları daha aydın xarakterizə edirlər. Azərbaycan Mədəniyyət Fondunun təşkilati işlər üzrə eksperti Aklima Boqoudinova Güllü Əbilova haqqında özünün təəssüratlarını belə qeyd edir:

- Mən, Güllü xanımı 1962-ci ildən əqidəli, sadə, işgüzar bir insan kimi tanıyıram. Sonralar iş elə gətirdi ki, mən onunla bir kollektivdə işləməli oldum. Siyasi Maarif Evinin məsləhətçisi təyin ediləndən sonra Güllü xanım məni çox səmimi qarşıladı və Maarif Evinin iş xüsusiyyəti barədə məlumat verdi.

Beləliklə, gülərüzlü, səmimi, mənalı daxili dünyası olan, istiqanlı Güllü xanımla bir yerdə, onun rəhbərliyi altında işləmək mənə qismət oldu. Güllü xanımın prinsipiallığı hamıda ona qarşı hörmət hissi oyadırdı. İşçilərin hamısı onu sevir, bir sözünü iki etmirdi.

Mən Güllü xanımdan çox şey öyrəndim və öz işimdə tətbiq etməyə çalışdım. Ömrünün axırına kimi Güllü xanımla birlikdə

işləmək yenə də mənə nəsib olmuşdur. Bir sözlə, vəzifəsindən, işindən asılı olmayaraq, Güllü xanım həmişə sadə, ürəyi açıq, xeyirxah insan, ehtiyacı olanlara təmənnasız yardım edən, dünya nemətində gözü olmayan, fədakar bir insan kimi qalır. Onun Siyasi Maarif Evində işlədiyi müddətdə təbliğatçılara həsr edilmiş bir neçə metodiki vəsaitləri İttifaq jurnallarında nəşr olunmuşdur.

## Güllü xanım mədəniyyət xadimi kimi

Onun həyatındakı keşməkeşli yollar izsiz keçməmiş, buna baxmayaraq o, ömrü boyu səmimilik və insanilik kimi xüsusiyyətləri itirməmişdir. Həyatı boyu öz ailəsinə görə yüksək məsuliyyət hissi daşımış, çox ciddi və təkidlə ali təhsilini davam etdirmişdir, elmi fəaliyyətində isə çətin bir cığırla getmişdir.

Güllü xanımın dövlət və siyasi xadim kimi qazandığı müvəffəqiyyət onun bilik və təcrübədən başqa təbii istedada malik olduğunu bir daha sübuta yetirir.

Azərbaycan Elmlər Akademiyası, Dövlət Tarix muzeyi, Bakı Dövlət Universiteti Güllü xanımın istedadının sərhədlərini genişləndirmişdir və nəhayət o, ən böyük mədəni-maarif mərkəzinin rəhbəri və respublika Ali Soveti Rəyasət heyətinin katibi seçilmişdir. Güllü Əbilova Ali Sovetdə işləyərkən «Bizim Sovetdə» başlığı ilə rubrika yaratmış və bir aparıcı qadın kimi televiziya verlişlərinə çox vaxt rəhbərlik etmişdir. Qısa bir müddətdə respublika Siyasi Maarif Evi Güllü xanımın səyi nəticəsində əyalət mərkəzindən müasir tipli, texniki cəhətdən təchiz olunmuş bir mərkəzə çevrilir və orada bir çox mühüm ictimai-siyasi tədbirlər keçirilir.

Güllü xanım alim, ictimai-siyasi xadim, mədəniyyətin təbliğatçısı kimi uzun illər Azərbaycanın mədəni dəyərlərinin və tarixi keçmişinin təbliği ilə məşğul olmuşdur. İlk tarixçilərdən biri kimi Dağlıq Qarabağın tarixi keçmişi, onun Azərbaycan ərazisinin ayrılmaz hissəsi olduğunu elmi faktlarla əsaslandırmışdır.

Güllü xanımın həyatının son dövründə çalışdığı Azərbaycan Mədəniyyət Fondunun kollektivi milli mədəniyyətimizin dirçəlişi sahəsində mühüm işlər görür. Onun əməkdaşları özünün uzunmüddətli proqramını hazırlamış və buna əsasən bir sıra mədəni-maarif işlərini, eyni zamanda xeyriyyəçilik aksiyalarını həyata keçirmişlər. Belə ki, xarici ölkələrdəki Mədəniyyət Fondları ilə əlaqələrin genişləndirilməsi, mədəniyyətimizin təbliğinə və iş təcrübəsinin zənginləşdirilməsinə şərait yaratdı.



Güllü xanımın fəaliyyəti yalnız Mədəniyyət Fondunda işləməklə məhdudlaşmır. 1987-ildən ömrünün sonunadək o, Respublika Əmək, Müharibə və Silahlı Qüvvələrin Veteranları Şurasının ictimai-kütləvi komissiyasına ictimai əsaslarla rəhbərlik etmiş və bu təşkilatın Rəyasət heyətinin üzvü olmuşdur. Güllü xanımın rəhbərlik etdiyi komissiya öz ətrafına görkəmli elm və mədəniyyət xadimlərini, əmək və müharibə veteranlarını toplayaraq özlərinin əməli fəaliyyətində müxtəlif iş üsullarından istifadə etmişlər. Onun iş təcrübəsində hərbi hissələrdə xidmət edən əsgərlərlə, qospitallardakı xəstələrlə, hərbi məktəblərdə təhsil alan şagirdlərlə, əmək və müharibə veteranları ilə görüşlər, respublika üzrə keçirilən seminarlarda müxtəlif mövzulardakı çıxışlar, əlil evlərində yaşayan xəstələrlə görüşlər, konsertlərin təşkili, humanitar yardım və s. işlər mühüm yer tutur. Buna görə də Güllü xanım bir mədəniyyət xadimi kimi xatirələrdə qalmışdır. Budur, onunla uzun müddət bir yerdə işləyən, Əmək, Müharibə və Silahlı Qüvvələrin Respublika Şurasının Rəyasət heyətinin üzvü Tamara Semyonova özünün qeydiyyatlarında yazır:

-Güllü xanımı mən 25 ildən artıq bir müddətdir ki, tanıyıram və bütün bu illər ərzində öz taleyində onunla rastlaşmış bir çox adamlar kimi əlaqədə olmuşam. Bu qadının təbiətin ona bəxş etdiyi qeyri-adi xüsusiyyətləri - insanları özünə cəlb etmək xüsusiyyətləri vardır. Onunla bu və ya digər səbəbə görə rastlaşmış adam ürəyində yenə də ziyalı və mədəni qadının diqqət mərkəzində olmağı arzulamışdır.

Güllü xanım harada işləməsindən asılı olmayaraq hər yerdə özünün dəst-xəttini və xeyirxah əməllərinin izini qoymuşdur. Xüsusilə onun Əmək və Muharibə Veteranları ilə sıx əlaqəsi əhəmiyyət daşıyır. Belə ki, Güllü xanım rəhbərlik etdiyi komissiya ilə birlikdə Böyük Vətən müharibəsində qələbəmizin 50 illiyi qeyd olunan müddətdə böyük iş aparmışdır.

1996-cı il sentyabr ayının 1-də respublika ictimaiyyəti ağır itki ilə qarşılaşdı. Tanınmış ictimai-siyasi xadim, görkəmli mədəniyyət işçisi Güllü Əbil qızı Əbilova vəfat etdi. Bu barədə «Azərbaycan» qəzetinin 3 sentyabr tarixli nömrəsində verilən nekroloqda yazılır:

-Güllü Əbilova 1969-cu ildə Bakı şəhər Xalq Deputatları Sovetinin, sonralarsa səkkizinci və doqquzuncu çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş, 1971-1980-cı illərdə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin katibi vəzifəsində işləmişdir. O, 1980-1989-cu illərdə Respublika Mədəniyyət Nazirinin müavini, 1990-cı ildən ömrünün sonunadək Respublika Mədəniyyət Fondu İdarə heyətinin sədr müavini vəzifəsində çalışmışdır. Bu müddət ərzində Güllü xanım Əbilova özünün prinsipiallığı, obyektivliyi və tələbkarlığı ilə fərqlənmişdir. Deputat olduğu dövrdə o, seçicilərlə tez-tez görüşər, onların qayğıları, seçildiyi ərazinin sosial problemləri ilə yaxından maraqlanardı.

Güllü xanım, bir sözlə müxtəlif səviyyəli beynəlxalq tədbirlərdə də respublikamızı layiqincə təmsil etmişdir.

Güllü Əbilova ictimai-siyasi xadim, pedaqoq, mədəniyyət işçisi kimi gənc nəslin təlim-tərbiyəsi işlərinə də böyük diqqət göstərmişdi. Buna görə də Güllü xanımın əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, bir sıra orden və medallarla təltif olunmuşdur.

Bu kitabçanı o insana həsr etmişik ki, o, həqiqətən də respublika qarşısında, onun əməksevər insanları qarşısında, milli mədəniyyətimizin inkişafı naminə var qüvvəsini əsirgəməmişdir. Biz əməksevər xalqımız adından ona çox sağ ol deyirik!

Güllü xanım Əbilovanın əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır!

***Bakı, 1997-ci il***

---

**Qeyd: Bu məqalələr Azərbaycan Mədəniyyət Fondunun 1997-ci ildə nəşr etdirdiyi «Güllü xanıma məhəbbətlə» kitabçasından götürülmüş və kiçik redaktə olunmuşdur.**

# MUSİQİ VƏ SƏNƏT ADAMLARIMIZ

## Bülbülü xatırlayarkən

1961-ci ildə yay imtahan sessiyamı müvəffəqiyyətlə başa vurub istirahət etmək üçün ana vətənim Şuşaya qayıtdım.

Yaxşı yadımdadır, 1961-ci ilin avqust ayında professor Bülbül Qarabağa konsert səfərinə çıxmışdı. Respublikanın xalq artisti Kərim Kərimov, kinooperator Nəriman Şıxəliyev və Bülbülün oğlu Polad da onunla birlikdə Şuşaya gəlmişdilər. Bülbül Şuşaya daxil olduqda birinci növbədə anadan olduğu ata mülkünə baş çəkmək üçün tələsirdi. Onun maşınını Polad idarə edirdi.

Bülbülün ata mülkü şəhərin Quşçular məhəlləsində, mənim ata mülküm isə Böyük Qurdlar məhəlləsində yerləşirdi. Demək olar ki, Bülbülün evi ilə bizim evimizin arasında o qədər də məsafə uzaq deyildi. Küçənin bir tərəfi Cıdır düzünə baxırdı.

Bülbül məhəlləyə çatdıqda nə görsə yaxşıdır... Əfsuslar olsun ki, belə bir hörmətli şəxsin ata mülkünü viranə qoymuşdular. Həyətində isə tərəvəz məhsulları əkmişdilər. Belə bir qanunsuz işə o dövrdəki rayon partiya komitəsinin və eləcə də rayon ZD Sovetinin rəhbərləri əncam çəkmək əvəzinə, laqeyd yanaşıb göz yummuşdular.

**Haşiyə:** «Ədəbiyyat və incəsənət» qəzetinin 12 oktyabr, 1990-cı il tarixli nömrəsində «Yadigarlar qorunmalıdır» başlığında böyük bir tənqidi yazım dərc olunmuşdur. Məqalədə Şuşa şəhərində yaşayıb-yaratmış görkəmli maarif və mədəniyyət xadimlərimizin yaşadıqları mülklərinin tarixi abidə kimi qorunub-saxlanılmasından bəhs etmişəm və hətta Şuşanın tarixi abidələrini viranə qoyan rayon rəhbərlərinin adını da çəkmişəm. Bu məqalənin üstündə az qalmışdır ki, mənə cəza da verdirsinlər. Lakin qəzet redaksiyasının məsul əməkdaşları faktlarımın doğru olduğunu təsdiq etdikdən sonra mən töhmətdən yaxamı qurtara bildim.

Şuşanın tarix və mədəniyyət abidələrini vaxtı ilə viranə qoyan rayonun rəhbər işçilərindən bəziləri hərdən bir mətbuat səhifələrində məqalələr dərc etdirib özlərini «əsl vətənpərvər»



kimi göstərirdilər. Belə şəxslər erməni daşnaklarından heç də geri qalan deyildirlər.

* * *

Biz hiss etdik ki, Bülbül ata mülkünün bərbad vəziyyətdə olmasına çox həyəcanlı idi. O, yəqin ürəyində düşünürdü ki, Şuşanın əsas küçələrinin bəzəyi olan Nelson Stepanyanın heykəli, İvan Tevosyanın büstü, Aleksandr Məlik-Paşayevin mərmərdən vurulmuş lövhəsi, erməni millətçilərinin adına olan küçə, bağ, bağça, məktəb olan yerdə Azərbaycanın və SSRİ-nin xalq artisti Bülbülün uşaqlıq illəri keçirdiyi ata mülkü belə viranə qalsın... Bu rayonun rəhbərlərini məgər düşündürmürmü? Əsla yox...

Axşam Şuşanın 3 saylı internat məktəbində Bülbülün konserti oldu. Konsertə o qədər tamaşaçı gəlmişdi ki, oturacaq yerləri tamamilə tutulmuşdu. Mən çox müsibəitlə həmin konsertə bilet tapa bildim. Biz cavanlar məktəbin zalının arxa hissəsində ayaq üstündə durub çox həsrətlə gözəl müğənni Bülbülün çıxışını gözləyirdik.

Birdən gurultulu və sürəkli alqışlarla Bülbül konsert zalına daxil oldu. Konsertdə MK-nın və Nazirlər Sovetinin məsul işçilərindən də iştirak edirdi.

Bülbül konsert verməmişdən əvvəl tamaşaçıların qarşısında çıxış edərkən milli mədəniyyətimizin incisi olan Şuşanın tarixi abidələrinin dağılmasından, görkəmli şəxsiyyətlərimizin xatirələrinin əbədiləşdirilməməsindən həyəcanla danışdı və axırda qeyd etdi ki, bu biganəlik gələcəkdə bizə böyük zərbə olacaqdır. Nəticədə Şuşanı əldən verə bilərik. Bu sözlər bizə məgər həyəcan təbili deyildimi? Lakin o vaxtdan 27 il keçəndən sonra 1992-ci ildə Bülbülün dediyi kimi oldu. Yenə də qəflət yuxusundan ayılmadıq və nəhayət, Azərbaycanın konservatoriyası Şuşanı əldən verdik.

* * *

Tələbəlik dövrümdə Dövlət Universitetinin Akt zalında bir sıra mədəni-kütləvi tədbirlər keçirilirdi, belə tədbirlərdən biri də professor Bülbülün tələbələri ilə görüş gecəsi idi.

Azərbaycan Dövlət Konservatoriyasının professoru Bülbül konservatoriyada vokal sənəti sahəsində bilik və təcrübəsini həvəs

və şövqlə tələbələrinə öyrədirdi. Onun səyi nəticəsində bir çox istedadlı müğənnilər yetişmişdir.

1961-ci ilin dekabr ayında universitetin Həmkarlar Komitəsi Bülbülün yaradıcılıq gecəsini təntənəli surətdə keçirməyi qərara aldı. Akt zalı ağzınacan professor - müəllim və tələbələrlə dolmuşdu. Gecədə universitetin partiya komitəsinin katibi, professor Kəriş Köçərli iştirak edirdi. Gecəni professor Cəfər Xəndan açdı. Bu anda professor Bülbül səhnədə görsəndi. Onun ardınca sabiq tələbələri solistlərdən (hazırda onlar Azərbaycan Respublikasının əməkdar artistləridir) mərhum Məmməd Salmanov, Firudin Mehdiyev, Mobil Əhmədov və Rəcəb Mahmudov səhnəyə daxil oldular. Cəfər Xəndan Bülbül haqqında danışdıqdan sonra ona söz verdi. Bülbül universitetin tamaşaçıları qarşısında tələbələrinə imtahan keçirdi.

Yadımdadır, M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının solisti Məmməd Salmanovun ifaçılıq fəalliyətindən imtahan keçirdi. Məmməd Nizaminin sözlərinə yazılmış «Vəslin həvəsi» romansını ifa etdi. Bülbül isə royalda onu müşayiət edirdi. Lakin Məmməd mahnının ifasında bəzi səhvlərə yol verdi. Ustadı Bülbül tez mahnının ifasını dayandıraraq Məmmədin səhvlərini ona düzəltmək üçün özü ifa etdi. Beləliklə də, Bülbül axırda onun ifasını qiymətləndirərək ona «kafi» qiymət verdi. Bu da professor Bülbülün əsl pedaqoq olduğunu sübut edirdi. Onun tələbəsi Məmməd Salmanova verdiyi «kafi» qiyməti «əla» qiymət yerində idi. Buna görə də sabiq tələbəsi öz ustadını heç vaxt unutmamışdır.

Bülbül gözəl musiqiçi, müəllim, təşkilatçı, ictimaiyyətçi, eyni zamanda azəri və dünya musiqisinin yorulmaz təbliğatçısı idi. Azərbaycan xalq ifaçılıq mədəniyyətinin tarixi Bülbülü pedaqoji fəaliyyətə başlamazdan xeyli əvvəllər də maraqlandırırdı. O, Azərbaycan vokal məktəbinin inkişaf yollarını məhz xalq müğənnilərinə xas olan ünsürlərini professional vokal məktəbinin metodik göstərişləri ilə qarşılıqlı münasibətində görürdü.

1995-ci ilin dekabr ayının 29-da Respublika Mədəniyyət fondunda «Xeyriyyə marafonu» keçirilirdi. Həmin gecəyə məni də dəvət etmişdilər. Mən orada təsadüfən Azərbaycan Respublikasının əməkdar artisti Məmməd Salmanovla rastlaşdım. Xeyli söhbətdən sonra mən 1961-ci ildə keçirilən professor Bülbülün görüş gecəsini qələmə alacağımı söylədim. O, çox məmnun olduğunu bildirdi. Buna görə də professor Bülbülü xatırlamaq mənim üçün böyük şərəfdir.*



* Qeyd: Məqalə qısaldılmış halda «Azərbaycan müəllimi» qəzetinin 6 yanvar, 1998-ji il tarixli nömrəsində dərc edilmişdir. Eyni zamanda, «Bizim Bulbul – dünyanın Bülbülü» kitabının (Bakı, 2004) 406-408-ci səhifələrində «Ustadlar ustadı» başlığı ilə çap olunmuşdur.

## Sevimli bəstəkar Üzeyir Hacıbəyovun iş otağında görüş

1993-cü ilin mart ayında bəstəkar Süleyman Ələsgərovla görüşməli idim. Bu görüş, əlbəttə, səbəbsiz deyildi. Oğlum Şaiqin musiqi bacarığını yoxlatdırmaq istəyirdim. O, Asəf Zeynallı adına Azərbaycan Dövlət Musiqi Texnikumunun son kursunu – xalq çalğı alətlərinin tar şö'bəsi ixtisasını bitirmək üzrə idi.

Mən bəstəkar Süleyman Ələsgərovdan xahiş etdim ki, Şaiqin bacarığını yoxlasın. Süleyman müəllim çox səmimiyyətlə məni qəbul etmişdir. Xoşbətlikdən bəstəkarın ilk əlifba müəllimi Mirzə Xosrovun «Ömürdən səhifələr» əsəri həmin ildə «Yazıçı» nəşriyyatı tərəfindən çapdan çıxmışdı. Mən kitabdan birini Süleyman müəllimə bağışladım. O, əlinə ilk dəfə qələm tutmağı öyrədən müəlliminin əsərini məndən aldıqda çox fərəhləndi. Doğrudan da, Süleyman Ələsgərovun hər bir tərpənişi, iş metodu, bəstəkarlıq istedadı bütünlüklə sevimli bəstəkar Üzeyir Hacıbəyovun yolunu davam etdirmək idi. Mən hətta Süleyman bəyə zarafatla dedim ki, əgər bığın olsaydı tamamilə Üzeyir bəyə oxşayardın. Bu dəqiqələrdə Süleymanın sifətində bir təbəssüm yarandı. Həmin gün Süleyman müəllim oğlumla məşhur tarzən, professor Oqtay Quliyevin məşğul olmasını məsləhət gördü. Mart ayının 13-də mən oğlum Şaiqlə birlikdə Üzeyir bəyin iş otağına yenidən gəldik. Otaqda professor Oqtay Quliyev, Azərbaycan Respublikasının xalq artisti, xanəndə Arif Babayev və musiqişünas, pedaqoji elmlər namizədi, dosent Nazim Kazımov əyləşmişdilər. Arif Babayev məni professor Oqtay Quliyevə təqdim etdi. Tarzən mənim tanışlıq üçün ilk sözlərimi eşitcək Süleyman Ələsgərovun oğlum Şaiq haqqında tapşırığından xəbərdar olduğunu bildirdi. Bu anda Oqtay Quliyev Şaiqə tələbəsinin tarı ilə muğam çalmaq üçün göstəriş verdi. Şaiq özünün tarını götürmədiyinə görə başqasının tarı ilə çalmağa öyrəşməmişdi. Həm də professorun və məşhur xanəndə Arif Babayevin qarşısında qəflətən muğam çalmağını özünə sığışdıra bilmirdi. Çox



istirab çəkirdi. Daha doğrusu tələş içində idi. Düşünürdü ki, görəsən mənim çalacağım muğam professoru və xanəndəni razı salacaqmı? Bir sözlə Şaiq tələbənin tarı ilə çalmaq istəmirdi. Lakin professor Oqtay Quliyev və xanəndə Arif Babayev Şaiqdən tələb edirdilər ki, tələbənin tarını əlinə götürüb bir muğam çalsın. Nəhayət, Şaiq tarı alıb «Zabul-segah» muğamını çalmağa başladı. Otaqdakılar diqqətlə qulaq asırdılar. Bu anda Arif Babayev Şaiqə ruh vermək üçün qəflətən oxumağa başladı. Bir anda Şaiq elə bil yuxudan ayıldı. O, özünə inanmadı ki, xalq artisti oxuyacaqdı. Şaiq, özünü yığışdırdı, doğrudan da əsl tarzən kimi özünü göstərməyə çalışdı. Özünü çəmləşdirib tarı dilə gətirdi. Sanki bir anlığa musiqi beşiyi Şuşa gözümün qarşısında canlandı... Arifin məlahətli səsi Oqtay Quliyevi və məni uşaq kimi kövrəltdi. Bilmədik Arifə necə təşəkkür edək. Arif oxuyub qurtardıqdan sonra professor Oqtay Quliyevə Şaiq barəsində öz fikrini bildirib dedi:

- Oqtay müəllim, bir mütəxəssis kimi Şaiqə biz qiymət verməliyik. Təkcə onu deyə bilərəm ki, Şaiqin barmaqları tara uyğundur. Muğam çalmaqda müsbət cəhəti vardır.

Beləliklə, biz Üzeyir bəyin iş otağındakı ilk görüşümüzü belə başa çatdırdıq. Həmin gündən etibarən Şaiq muğamlarımızın tarixini dərindən öyrənməyə və ifaçılıq bacarığını artırmağa daha da səy göstərirdi ...

**27.03.1993-cü il**

## Bəstəkarla ikinci görüş

1996-cı ilin oktyabr ayında mən bəstəkar Süleyman Ələsgərovla yenidən görüşdüm. O, məni evinə dəvət etdi. Onun evi Bakı şəhərinin Hüsü Hacıyev küçəsində yerləşirdi. Süleyman müəllim məni çox mehribanlıqla qarşıladı. Xüsusilə o, atama görə mənə daha çox nəvazişlə yanaşırdı. Bu dəfəki görüşümün əsas məqsədi 1984-cü ildə müəllim-şair Sahib Dadaşın mənə həsr etdiyi «Pərviz» şerinə oğlum Şaiqin musiqi bəstələməsi idi.

1995-ci ilin fevral ayında Şaiq atasının xatirəsinə həsr edilən «Pərviz» şerinə musiqi bəstələyib nota köçürmüşdür. O, bu illərdə Bakı Dövlət Musiqi Akademiyasının «Xalq çalğı alətləri» şöbəsində musiqi təhsili alırdı. 1997-ci ildə Şaiq Musiqi Akademiyasını bitirdi. Həmin illərdə Şaiqin yazdığı musiqi yaradıcılıq fəaliyyətində ilk təşəbbüs hesab olunurdu. Mən Şaiqin yazdığı musiqinin nə dərəcədə məqsədəuyğun olduğunu ayırd etmək məqsədilə Süleyman müəllimə müraciət etməli oldum. O, məni mehribanlıqla qəbul etdi və dedi:

- Pərviz müəllim, mənim əziz müəllimim Mirzə Xosrov Axundzadə – Şaiqin nəvəsinin musiqi yaradıcılığını nəzərdən keçirmək mənə böyük şadlıqdır.

Bu anda Süleyman Ələsgərov Şaiqin yazdığı musiqi notunu alıb çox diqqətlə nəzərdən keçirməyə başladı və arabir sadə karandaşla not yazılarında qeydlər etdi...*

Süleyman müəllim notu tam nəzərdən keçirdikdən sonra Şaiqə üzünü tutub dedi:

- Oğlum, yazdığın musiqi notu mənə müsbət təsir bağışladı. Əlbəttə, ilk yaradıcılığındır, yazdığında nöqsanlar vardır, onlara düzəliş vermişəm.

Qeydiyyatlarımı nəzərə alıb notu yenidən işləməlisən, mənə belə gəlir ki, müsbət nəticə alınacaqdır. Ancaq sənə

* Hal-hazırda oğlum Şaiq həmin qeydlər üzərində işləməklə musiqinin notunu yenidən tamamlamaq üzrədir.



tövsiyəm budur ki, özün üzərində ciddi çalış, onda sənin gələcəyin olar.

Əfsuslar olsun ki, Süleyman müəllim Şaiqin əsl yaradıcılığını görə bilmədi. O, 2000-ci ildə dünyasını dəyişdi.

*25.08.01*

## Mirzə Xosrov Şaiqin qəzəllərinin ilk ifaçılarından biri

1983-cü ilin əvvəlində mən Azərbaycan radio verilişləri idarəsinin musiqi şö'bəsinin müdiri Hacı Məmmədovun yanına getdim. Əsas məqsədim atam Mirzə Xosrovun həyat və yaradıcılığına həsr olunmuş musiqili-ədəbi veriliş təşkil etməkdən ibarət idi.

Hacı müəllim məni diqqətlə dinləyib yazdığım verilişin mətnini oxuyub mənə bir neçə gündən sonra şö'bəyə yenidən gəlməyimi tapşırdı.

Mən Hacı müəllimin dediyi kimi etdim. Bir neçə gündən sonra şö'bəyə gəldim. Hacı məni musiqi verilişlərini hazırlayan istedadlı ədəbiyyatşünas və musiqi tədqiqatçısı professor Rəfail Hüseynovla tanış etdi və verilişin hazırlanmasını ona tapşırdı.

Rəfail məndən verilişin mətnini alıb oxudu və Mirzə Xosrova aid lazımi materialları toplamağımı mənə tapşırdı. Mən hətta 1915-ci ildə Mirzə Xosrov Şaiqin «Ey vətəndaşlar! Gəlin elm əxz edib aqil olaq» rədifli şe'rinin ilk dəfə Cabbar Qaryağdıoğlunun ifasındakı səs yazısını tapıb musiqi şö'bəsinə təqdim etdim. Həmin valdan köçürmə hazırda Azərbaycan Dövlət Səsyazmalar Arxivində saxlanılır.

Beləliklə, 1983-cü ilin mart ayında radio verilişin adı «Musiqimizin keçmişindən soraqlar» başlığı ilə hazırlanmışdır. Verilişi keçirmək məqsədilə Mirzə Xosrov Şaiqin qəzəlini muğamda oxumaq üçün mən məlahətli səsə malik xanəndə, Azərbaycan Respublikasının xalq artisti, professor Arif Babayevi təklif etdim. Arifin səsinə Şuşada istirahət evində istirahətçilər qarşısında oxuduğu vaxtlardan (1961-65-ci illərə təsadüf edir) vurğun idim. Hacı müəllim Arif Babayevə zəng edib Mirzə Xosrovun qəzəlinə muğam oxuyacağını bildirdi. Səhəri gün mən Ariflə görüşüb Mirzə Xosrov Şaiqin bir neçə qəzəlini ona verdim.

1983-cü ilin mart ayının ortalarında müğənni Arif Babayevlə Bakının keçmiş Fioletov küçəsindəki səsyazmalar



studiyasında görüşdük. Həmin gün Arifin oxuyacağı muğamın lentə yazılması qərarlaşdırılmışdı.

Arif Babayev «Zabul-segah» muğamını məlahətlə oxumağa başladı. Onu tarda respublikanın əməkdər artisti Sərvər İbrahimov və kamançada Elman Bədəlov müşayiət edirdilər. Sizi inandırım ki, Arif Mirzə Xosrovun qəzəlini elə məlahətlə oxuyurdu ki, özümdən asılı olmayaraq gözlərimdən yaş damlaları axmağa başladı.

Veriliş həmin ilin mart ayının 28-də efirə buraxıldı. Mirzə Xosrovun pərəstişkarları evimizə zəng edib məni ürəkdən təbrik etmişdilər.

Hazırda mahir ifaçı, Seyid Şuşinskinin tələbəsi professor Arif Babayevin səs yazısı radio verilişləri idarəsinin qızıl fondunda qorunub saxlanılır. Bu da Arifin muğam yaradıcılığında yeni tarixi səhifə açdı. Çünki o, Mirzə Xosrov Şaiqin qəzəllərinin ilk ifaçılarından biridir.

1983-cü ilin mart ayında «Musiqimizin keçmişindən soraqlar» verilişi üçün hazırlanan oçerkimdən qısa məlumat Azərbaycan Televiziyası və radiosu proqramında öz əksini tapmışdır. Həmin məlumatı olduğu kimi aşağıda verməyi məsləhət bildik:

### Musiqimizin keçmişindən soraqlar

Uzun illər azadlıq həsrətilə yaşamış Azərbaycan xalqı XX əsrin əvvəllərində maarif, mədəniyyət, elm və incəsənət sahəsində bir sıra görkəmli şəxsiyyətlər yetişdirdi. Belə şəxsiyyətlərdən biri də şuşalı müəllim Mirzə Xosrov Axundov olmuşdur.

Ədəbiyyat aləmində «Şaiq» təxəllüsü ilə tanınan Xosrov Axundov 1906-cı ildən Mir Möhsün Nəvvabın «Məclisi-fəramuşan» ədəbi dərnəyinin üzvü seçilmişdir.

Mirzə Xosrov Axundov mahir pedaqoq olmaqla bərabər, Qarabağın tarixini mükəmməl bilirdi. O, eyni zamanda, musiqini də çox sevərdi. Mirzə Xosrov gənclik illərini Keçəçi Məhəmməd,

Seyid Şuşinski, Molla Vəli, Məşədi Dadaş Muradxanov, Hacı Hüsü və başqa xanəndələr arasında keçirmişdir.

Hörmətli dinləyicilər, martın 28-də saat 20.05 dəqiqədə «Araz» proqramı ilə Xosrov Şaiqin Azərbaycanın incəsənət ustaları və xanəndələri haqqında «Xatirələr»i dinləyə bilərsiniz. Eyni zamanda, Azərbaycan SSR əməkdar artisti Arif Babayevin məlahətli ifasında Xosrov Şaiqin qəzəllərini eşidəcəksiniz.

Verilişi alimin oğlu iqtisad elmləri namizədi, tədqiqatçı Pərviz Axundov aparacaq.*

**Bakı, 21.08.1994-cü il**

---

* Az.Tel və rad.proqramı 28 mart – 3 aprel, 1983-cü il



## Mirzə Xosrov və Azərbaycan musiqiçiləri

Azərbaycanın maarif və mədəniyyəti tarixində xüsusi yeri olan pedaqoq, şair və Qarabağın tarixçisi Mirzə Xosrov Şaiqin şahidi olduğu XIX əsrin qabaqcıl şair və yazıçıları olan Azərbaycanın görkəmli mütəfəkkirləri Xurşudbanu Natəvan, Süleyman Sani Axundov, Əbdürrəhim bəy Haqverdiyev, Nəcəf bəy Vəzirov, Firidun bəy Köçərli, Yusif Vəzir Çəmənzəminli, Cəlil Məmmədquluzadə, Mir Möhsün Nəvvab, Üzeyir Hacıbəyov, Zülfüqar Hacıbəyov və başqaları haqqında xatirə və məlumatları vardır. Eyni zamanda Mirzə Xosrov Şaiq Qarabağın adlı-sanlı xalq musiqiçilərinin həyatından səhifələr yazmağı da unutmamışdır.

Onun «Xatirələrim» əsəri əlyazmasının beşinci fəslində Azərbaycan musiqi incəsənətinin baniləri və xanəndələri haqqında yeni təəssüratlara rast gəlirik. Əlyazmasında Azərbaycanın musiqi mədəniyyəti tarixində görkəmli rolu olan bəstəkarlar Üzeyir və Zülfüqar Hacıbəyovlardan, xanəndələrdən – Mirzə Əli Aşiqdən, Cabbar Qaryağdıoğlundan, Seyid Şuşinskidən, Molla Vəlidən, Məşədi Dadaş Muradxanovdan, Məşədi İsidən, Hacı Hüsüdən və başqalarından xatirələr şirin bir dildə təsvir olunur. Bu fəsildə Xosrov Şaiqin Azərbaycan operasının banisi Üzeyir Hacıbəyovla bağlı olan tələbəlik dövrünə aid təəssüratlarını xüsusilə qeyd etmək istərdik.

Mirzə Xosrov Şaiqin atası Mirzə Əli Aşiq də məşhur musiqişünas, şair, müəllim, xanəndə və xəttat olmuşdur. O, fars və türk dillərini mükəmməl bilirdi.

Məşhur xanəndə Cabbar Qaryağdıoğlu 15 yaşına kimi xanəndəlik sənətini Mirzə Əli Aşiqdən öyrənmişdir.

Cabbar Qaryağdıoğlunun yaşadığı bina Şuşanın «Seyidli» məhəlləsində yerləşirdi. O, musiqi müəllimi Mirzə Əli Aşiqin qonşusu olduğundan ustadının evinə tez-tez gedər və ondan musiqinin dərinliklərini öyrənərdi. Mirzə Əlinin oğlu Mirzə Xosrov Şaiq də Cabbar Qaryağdıoğlu ilə dostluq edib onunla

beytləşərdi. Təsadüfü deyildir ki, 1913-cü ildə Mir Möhsün Nəvvab Qarabağinin «Təzkireyi-Nəvvab» kitabında nəşr olunan «Ey vətəndaşlar gəlin elm əxz edib aqil olaq» şerini 1915-ci ildə Cabbar Qaryağdıoğlu «Zabul-segah» muğamı üstündə oxumuş və səsini vala yazdırmışdır. Hal-hazıra kimi gözəl səslər silsiləsində Cabbar Qaryağdıoğlunun səs yazısı öz təravətini saxlayır.

Mirzə Xosrov Axundzadə mədəni-maarif sahəsində də çalışmış, xalqın savadlanması yolunda onun xidməti böyük olmuşdur. Belə ki o, Şuşada savadsızların savadlandırılmasında mühüm rol oynamışdır. 1936-1938-ci illərdə Şuşa rayonu üzrə FKKO sıralarına hazırlıqlı getmək üçün 6 nəfər savadsız çağrışçını bir ay müddətində savadlandırmışdır. Xosrov müəllim həmin müddətdə «Çağrışçılar məntəqəsinə müdir» təyin olunmuşdur.

1935-ci ildən başlayaraq Xosrov Axundzadə müəllim olmaqla bərabər bir neçə il Şuşa şəhər «Kütləvi kitabxanası»nın müdiri vəzifəsində işləmişdir.

Respublikanın görkəmli alim, ədib, şair, rəssam, musiqişünas, bəstəkar, həkim və dövlət xadimləri arasında Xosrov müəllimin yüzlərlə yetirməsi vardır. Belə ki, bəstəkar, respublikanın əməkdar incəsənət xadimi Süleyman Ələsgərov və Əşrəf Abbasov indi də ilk dəfə onlara dəftər və qələm tutmağı öyrədən Mirzə Xosrovu unutmamışlar:

-Hörmətli və əziz müəllimimiz Mirzə Xosrov!

Siz öz sənətinizi sevən və həmişə tələbələrinizin müvəffəqiyyətləri ilə fəxr edən qayğıkeş müəllim, gözəl insan olmuşsunuz, əlaçı şagirdlər sırasında bizə həsr etdiyiniz şeri qəlbən yad edirik. Gözəl işlənmiş hündür binalar möhkəm təməlində dayana bildiyi kimi, etimadlarınız da Sizin verdiyiniz ilk bilik bünövrəsilə arzularına müvəffəq olmuşdur, – deyən istedadlı bəstəkar Süleyman Ələsgərovun bu sözlərinin altında Xosrov müəllimin bütün tələbələri məmnuniyyətlə imza atarlar.

1970-ci ildən Mirzə Xosrovun bir sıra qiymətli şəxsi arxiv materialları və qiymətli ev əşyaları respublikanın 13 dövlət muzeyində qorunur. Bunlardan Azərbaycan Dövlət Tarix və Musiqi mədəniyyəti muzeylərində, Xalq təhsili, Azərbaycan Xalçası və



Xalq Tətbiqi Sənəti Muzeyləri, Üzeyir Hacıbəyovun xatirə ev muzeyində, Bülbülün memorial və başqa muzeylərdə Mirzə Xosrov Axundovun şəxsi kolleksiyasından nümunələr mühüm yer tutur. Belə ki, Azərbaycanın xalq musiqiçilərindən və məşhur xanəndələrindən Cabbar Qaryağdıoğlunun, Məşədi İsinin, Hacı Hüsünün, İslam Abdullayevin, Məşədi Məmməd Fərzəliyevin, Məcid Behbudovun, Seyid Şuşinskinin, İbrahim Əfəndinin, Ələsgər Abdullayevin, Davud Səfiyarovun, Əlövsət Sadıqovun, Şirzadın, Xan Şuşinskinin, Bülbülün və başqa sənətkarların səs yazısının vallarının nadir nüsxələri Azərbaycan Dövlət Musiqi Mədəniyyəti muzeyinin qızıl fonduna təhvil verilmişdir.

Mirzə Xosrov Şaiq Azərbaycan Ensiklopediyasında özünə layiq mühüm yer tutmuşdur. Bizə belə gəlir ki, onun xatirəsini əbədiləşdirmək məqsədilə Şuşa şəhərində Mirzə Xosrovun adına küçə, orta məktəb verilməsi və yaşadığı yerə xatirə lövhəsinin vurulması müvafiq təşkilatlar tərəfindən nəzərə alınmalıdır.

*Şuşa, iyun, 1986-cı il.*

## Şuşa şəhərinin «Tarix muzeyi»ndən qeydlərim

Xalqımızın adət və ənənələrinin qorunub saxlanılmasında respublikamızın muzeylərinin böyük əhəmiyyəti vardır. Belə muzeylərdən biri də Şuşa şəhərinin «Tarixi muzeyidir». Muzey Gövhər ağa məscidində təşkil olunmuşdur. Bu yaxınlarda muzeyin bir yaşı tamam olur. Bu da Şuşanın həyatında əlamətdar hadisədir. Muzeydə xalqımızın diqqətlə qoruyub saxladığı qiymətli əşyalar mühafizə edilir, mədəni irsimizi şəhər əməkçilərinə tanıdır, zəngin tariximiz, xalq yaradıcılığı təcəssüm etdirilir.

Təsadüfi deyildir ki, xalqımız Şuşada yaşayıb-yaratmış, musiqi beşiyində anadan olmuş həmyerlilərimizlə-mahir sənətkarları ilə, görkəmli incəsənət xadimlərilə, mübariz inqilabçılarla, pedaqoqlarla, həkimlərlə, partiya və dövlət xadimlərilə fəxr etmişlər.

Hazırda muzeyin fondu getdikcə zənginləşdirilir. Muzeydə tarixi Şuşanın keçmişi və indisi göz qabağında canlanır. Molla Pənah Vaqifin, Nəcəf bəy Vəzirovun, Qasım bəy Zakirin, Yusif Vəzir Çəmənzəminlinin, Əbdürrəhim bəy Haqverdiyevin, Xurşud banu Natəvanın, Mir Möhsün Nəvvabın, Üzeyir Hacıbəyovun, Həkim Kərim bəy Mehmandarovun, görkəmli müğənnilərdən Bülbülün, Seyid Şuşinskinin, Xan Şuşinskinin, bəstəkarlardan Süleyman Ələsgərovun, Fikrət Əmirovun, o cümlədən Dövlət mükafatı laureatı, Azərbaycan SSR-nin xalq rəssamı Lətif Kərimovun, Azərbaycan SSR-nin əməkdar artisti, aktyor Heydər Şəmsizadənin və başqalarının həyat və yaradıcılığına dair məlumatlar vardır.

Bundan başqa muzeydə xalqımızın inqilabçı və qəhrəman oğulları olan Hüsü Hacıyev, Mir Həsən Vəzirov haqqında da qiymətli sənədlər diqqəti cəlb edir.

Bu yaxınlarda muzeyin fonduna yeni əşyalar və sənədlər təqdim olunmuşdur. Bunlardan Şuşada uzun müddət yaşayıb-yaratmış, görkəmli pedaqoq Mirzə Xosrov Axundzadənin 48 ədəd



şəxsi ev əşyası və onun pedaqoji fəaliyyətinə və ədəbi yaradıcılığına aid olan müxtəlif məlumatlar və foto sənədləri göstərmək olar.

Muzeydə xalqımızın milli geyim mədəniyyəti tarixi də əks olunmuşdur. Məlumdur ki, Azərbaycan xalqının milli geyimləri, bədii tikmələri etnoqrafiya işində mühüm rol oynayır.

Bununla bərabər, muzeydə təsviri sənət əsərləri təcəssüm etdirilən xalq bədii sənətkarlğının nümunələri Azərbaycan xalqının gözəl zövqə və böyük ustalığa malik olduqlarını sübut etməklə, həm də xalq sənətkarlarının yüksək məharətini göstərir. Muzeydə nümayiş olunan dəmir alət və əşyalardan aydın olur ki, respublikamızda olduğu kimi Şuşada da dəmirçilik sənətinin qədimdən mövcud olması bunu bir daha sübut edir.

Qeyd etmək olar ki, Şuşanın keçmiş bir çox şair, yazıçı və alimlərinin ailə üzvləri babalardan yadigar qalmış sənət nümunələrini muzeyə bağışlamışlar. Bunlardan Mir Möhsün Nəvvabın qızı Rəxşəndə Ağayeva, Nəcəf bəy Vəzirovun nəvələri Leyla xanım Axundova və Validə xanım Vəzirova, Hüsü Hacıyevin bacısı, Yusif Vəzir Çəmənzəminlinin oğlanları, Mirzə Xosrov Axundzadənin övladlarını misal göstərmək olar. Bu da həmin şəxslərin vətənə, xalqa hədsiz məhəbbətinin rəmzidir!

Arzu edək ki, Şuşa şəhərinin Tarix muzeyinin qızıl fondu gündən-günə daha da zənginləşsin!

Lakin bu müvəffəqiyyətlərlə bərabər muzeyin bir sıra çatışmamazlıqları da vardır. Bunlar aşağıdakılardan ibarətdir:

1. Muzeyə təqdim olunan ev əşyaları və müxtəlif şəxslərin sənədləri açıqlıqdadır. Bu da həmin əşya və sənədlərə istənilən şəxslərin toxunmasına, sənədlərin tozlanmasına və havanın nisbi rütubətindən xarab olmasına gətirib çıxarır;

2. Muzeydə lazımi avadanlıqlar çatışmır. Buna görə də təqdim olunan sənədlər komplektləşdirilməmişdir.

3. Muzeyin rəssamı və foto laboratoriyası yoxdur. Onun təşkil edilməsi məqsədəuyğun olardı. Bunu göstərmək kifayətdir ki, muzeydə təqdim olunan əşyaların hansı şəxsə aid olduğu açıqlanmır və bəzən də çox primitiv halda yazılır. Bu da muzeyin pərəstişkarlarını heç də qane etmir.

4. Muzeydə yazıların hamısı standart şriftlərlə olmalıdır.

5. Muzeyin üst mərtəbəsinə çıxmaq üçün ora çıxış yolu düzəldilsə pis olmazdı. Yaxşı olardı ki, məscidin minarəsinə də qalxmaq üçün şərait yaradılaydı. Bu da şəhərin ümumi görünüşünə baxılmasında turistlərin marağını artırardı.

6. Muzeydə «Etnoqrafiya fondu»nun yaradılması məqsədəuyğundur. Məsələn, bəzi əşya və sənədlər vardır ki, onu muzeyin şöbəsində yox, etnoqrafiya fondunda saxlamaq lazım gəlir.

Bütün bu işlərin nizama salınmasında respublika Mədəniyyət Nazirliyinin muzeyə köməyi gözlənilir. Əgər göstərilən faktlar yerinə yetirilərsə, onda Şuşa şəhərinin Tarix muzeyi respublikanın muzeylərindən heç də geri qalmayacaqdır.

Biz bütün həmvətənlilər Şuşa şəhərinin Tarix muzeyinin avqust ayında bir yaşı tamam olması münasibətilə onun yaradılmasında böyük xidməti olan yaradıcı işçilərə və ümumiyyətlə bütün təşəbbüskarlara öz minnətdarlığımızı bildirib, muzeyin gələcəkdə şöhrətinin artmasına və xoş sədasının respublikadan uzaqlarda gəlməsini arzulayırıq.

***Şuşa, 3 iyul 1970-ci il.***

# MÜASİRLƏRİMİZ

## Qarabağ – maarif səmasının parlaq ulduzu

*Müəllimlik müqəddəs bir sənətdir həyatda,*
*Müəllimlik şüarı həqiqətdir həyatda.*
*Üz-gözü, pal-paltarı mürəkkəbli körpələr,*
*Çırpınan ürəkləri xoş məktəbli körpələr,*
*İlkin Vətən sözünü müəllimdən öyrənir.*
*Mənliyini, özünü müəllimdən öyrənir.*
***/Süleyman Rüstəm/***

Yaxşı müəllimlərdən, bütün həyatlarını gənc nəslin təlim-tərbiyəsi işinə sərf etmiş adamlardan söz düşəndə, hökmən hamının hörmətlə yad etdiyi Mirzə Xosrov Axudzadəni xatırlamamaq olmur. Bu nəcib insanı, qayğıkeş müəllimi xatırladıqca gözlərimiz qarşısında sanki qocaman bir dağ canlanır. Belə bir müqayisə heç kimə təəccüblü gəlməsin. Mirzə Xosrov Axundzadə ömrünün 50 ilini məktəbdə keçirmiş, körpə balalrımızın təlim və tərbiyəsi ilə məşğul olmuşdur.

Hələ Azərbaycanda sovet hakimiyyəti qurulmamışdan əvvəl Xosrov müəllim pedaqoji işlə məşğul olaraq həmin dövrdə qabaqcıl pedaqoq kimi, şagirdlərin tərbiyəsində mütərəqqi üsullardan istifadə etmiş və onlara savad təlimini öyrətmişdir. İnqilabdan sonra Xosrov Axundzadə bir pedaqoq kimi şərəfli yol keçərək, həmişə özünü işgüzar, səliqəli, əməksevər bir müəllim, qayğıkeş bir insan kimi göstərmişdir. Zəngin pedaqoji təcrübə və böyük metodiki bacarığa malik olan bu qocaman müəllim keçdiyi dərsləri yüksək səviyyədə qurmuş, hər bir mövzunu şagirdlərə dərindən mənimsətməyə çalışmışdır. Budur, 1923-cü ildə «Yeni fikir» qəzeti yazır:

-«Yoldaş Axundzadə Şuşa türk-lisan müəllimləri arasında birincilik qazananlardandır.

Bu yoldaş, hüzara arasında savadsızlığın tövsiyyəsi uğrunda artıq fədakarlıq etmişdir...

1907-ci ildən Şuşada türkcə tədrisi görənlərin 80 faizi ondan dərs almışdır. Bu zəhməti sayəsində bu gün bir qaç ziyalı (türkcə bilən) yetişmişdir. Hal-hazırda Şuşada məşğul olan türk müəllimlərindən qism ezamı Xosrov müəllimin şagirdlərindəndir.»



Bunun da nəticəsində Mirzə Xosrov Axundzadənin pedaqoji fəaliyyəti, onun təcrübələri hələ öz sağlığında respublikamızın pedaqoqlarının diqqətini cəlb etmişdir.

1948-ci ildə V.İ.Lenin adına APİ-nin direktoru vəzifəsində işləmiş Ə.Seyidov APİ-nin «Tədris və elmi işlər» üzrə direktor müavini M.Mehdizadə Xosrov müəllimə məktub yazmış və ondan öz təcrübə və xatirələrini instituta yazıb göndərməsini xahiş etmişlər.[x] Məktubda göstərilir.

«...Hökumətimizin məktəblər haqqındakı tarixi qərarlarına istinad edərək məktəblərimiz, gənc nəslin təlim-tərbiyə işində yüksək dərəcədə dəyərli nəticələr qazanmışdır. Bu məsələləri doğru və həqiqətə uyğun bir surətdə öyrənmək siyasi və elmi əhəmiyyəti olan böyük bir məsələdir. Ona görə də Siz və Sizin kimi qabaqcıl müəllimlərin məktəblərimizin bilavasitə qurucularının iştirakı və köməyi olmadan bu ağır vəzifəni layiqincə yerinə yetirmək çox çətindir.»

Xosrov Axundzadə bacarıqlı, qayğıkeş, uşaq psixologiyasına dərindən bələd olan bir müəllim idi. O, uşağın yaxşı oxuyub ev tapşırığının yerinə yetirilməsində ailə ilə əlaqə saxlamağa xüsusi əhəmiyyət verərək yazmışdır:

-«Mən ailəyə görüş təşkil edib uşağın valideyni ilə söhbət aparardım. Nəticədə məlum oldu ki, ailədə uşağı çox ərköyün böyüdürlər və onun hər bir şıltaqlığına danışıqsız əməl edirlər. Uşağın nənəsi mənim pedaqoji məsləhətlərimlə razılaşaraq verdiyim göstərişlər və məsləhətlərə əməl olunmasını öhdəsinə götürdü. Uşağın məktəbdə gündəlik davranışı haqqında əlaqə dəftəri təşkil olundu. Bu vasitə ilə uşaq düzəlməyə başladı».

Xosrov Axundzadə ibtidai təhsil sahəsində bilavasitə metodik rəhbərlik işinin məsuliyyətini yaxşı dərk edər, öz metodik və siyasi hazırlığı üzərində yorulmadan çalışar, öyrədə-öyrədə özü də

[x] Qeyd: Həmin məktub Respublika Xalq Təhsili muzeyinin fondunda saxlanılır.

öyrənərdi. Qocaman müəllim metodik ədəbiyyatı həmişə diqqətlə izləyər və gənc müəllimlərə məsləhətini bildirərdi. Onun ibtidai siniflər dairəsində pedaqoji və metodiki təcrübəsi çox əhatəlidir.

Buna görə də ibtidai məktəblər üzrə görkəmli mütəxəssislərdən mərhum Y.Zeynalov, Ə.Qafarlı və başqaları Xosrov Axundzadənin pedaqoji təcrübəsinə xüsusi qiymət vermişlər.

Xosrov müəllim Şuşada müəllimlərə tez-tez ibtidai təhsilin müxtəlif məsələlərinə dair mühazirə və məruzələr oxuyar, məsləhətlər verər, bilavasitə «açıq dərs» keçirər və öz təcrübəsini gənc müəllimlərə öyrədərdi. Məktəblərin yaxşı işinin öyrənilib geniş yayılmasında mühüm rol oynayan pedaqoji mühazirələrin təşkilində Xosrov müəllimin də xidməti olmuşdur. Onun söylədiyi mühazirələr və məsləhətləri, açıq dərsinin keyfiyyətli gedişi haqqında dəfələrlə dövlət mətbuatında və yerli rayon qəzetlərində işıqlandırılmışdır. Budur Tofiq Əfəndiyevin «Şuşa məktəblərində» adlı məqaləsi qarşımızdadır. O, yazır:

-«Məktəbin nəzdindəki, metodbirləşmədə maraqlı mühazirələr keçirilir. Qocaman müəllim Xosrov Axundzadənin oxuduğu mühazirə də çox maraqlı olmuşdur».[x)]

Mirzə Xosrov Axundzadənin qayğıkeşliyi və səmimi insan olmasını respublikanın mədəniyyət və incəsənət xadimləri onun pedaqoji ustalığına yüksək qiymət vermişlər. Respublikanın xalq rəssamı, Dövlət mükafatı laureatı, Azərbaycan SSR EA-nın Memarlıq və İncəsənət İnstitutunun şöbə müdiri Lətif Kərimov özünün xatirələrində yazır:

-«Mirzə Xosrovu yaxşı tanımaq üçün gərək onun duzlu-mənalı lətifələrini, ağıllı, hikmətli sözlərini eşidəsən, məclisi idarə etmək məharətinin şahidi olasan və avaz ilə oxuduğu şerləri dinləyəsən».

Göründüyü kimi, Xosrov müəllim ömrünü ən şərəfli və ən müqəddəs vəzifə saydığı xalq maarifinə həsr etmişdir. Respublikada gənc müəllim kadrlarının yetişdirilməsində çox mühüm rolu olan şəxsiyyətlərdən biri də Mirzə Xosrov Axundzadədir.

---

x) «Azərbaycan müəllimi» qəzeti 20 mart 1947-ci il.



Xosrov müəllim məktəb müəllimlərinə uşaqlarda əməyə həvəs, doğruluq, yoldaşlıq, mütəşəkkillik, intizam, öz işində məsuliyyət daşımaq və s. bu kimi gözəl sifətlər tərbiyə etməyi aşılayırdı. O, qeyd edirdi ki, ibtidai məktəb şagirdlərini, xüsusən I sinif şagirdlərini təlim-tərbiyə etməkdə müəllimin üzərinə böyük məsuliyyət düşür, müəllimdən böyük iş, bilik və pedaqoji ustalıq tələb olunur. Pedaqoji təlim-tərbiyə metodunu yaxşı başa düşən və bunu öz gündəlik işində tətbiq edən müəllimlər gözəl nəticələr əldə etmişlər. Belə müəllimlər ilk gündən başlayaraq dərs prosesində uşaqlara adamların gözəl əxlaqi sifətlərini aşılayırlar.

Xosrov müəllim göstərirdi ki, məktəbə gəlmiş 7 yaşlı uşaqlarla işləmək çox ustalıq tələb edildiyi üçün onlarla ciddi məşğul olmaq lazımdır. O, öz təcrübəsində belə qeyd edirdi:

-Mən əvvəlcə uşaqları dərindən öyrəndikdən sonra şagirdləri sevməyimi onlara bildirərək özümə nisbətən dərin məhəbbət oyadıram. Tənəffüs vaxtı intizam vərdişini möhkəmlətmək üçün onlara ciddi nəzarət edirəm, müəllim otağına girmirəm, birinci gündən sinif növbətçilərinin işini ciddi qururam, şagirdlərin və sinfin təmizliyinə son dərəcə diqqət edirəm. Buna görə də mənim sinifimdə çirklilik adında heç bir şey tapılmazdı. Yay dövründə dərsliyi nəzərdən keçirərək lazım olan əyani vəsaiti əldə edərdim. /ana dili və hesabdan/. Əyani vəsait dərsin mənimsənilməsində böyük rol oynayır.

Xosrov müəllim əlyazmalarında göstərir ki, şagirdlərin ata-anaları ilə iş aparmaq da böyük tələbkarlıqdır. Mən dərs ili müddətində bütün şagirdlərin evlərinə gedərək onların yaşadıqları şəraitlə, güzəranları ilə hətta şagirdlərin dərs öyrəndikləri otaq, masa və sair ilə dərindən tanış oluram. Mən görüşə gedərkən uşaqdan şikayətlənmirəm.

Xosrov Axundzadənin uzun müddətli əldə etdiyi pedaqoji təcrübələri göstərmişdir ki, şagirdlərin təlim-tərbiyə işində müəllim tam mənası ilə mənəvi bir fiquradır. Çünki şagirdlərin gələcək səadətləri və gənc nəslin mühüm və şərəfli tərbiyə işi müəllimlərin üzərinə düşür. Bu nöqteyi-nəzərdən Xosrov müəllim öz müqəddəs sənətini odlu bir məhəbbətlə sevirdi. O, dərs dediyi ibtidai sinif şagirdlərini gələcəkdə elmin yüksək nailiyyətlərini

əldə etmək üçün, onların ibtidai sinif həcmində tam savadlı yetişdirilməsinə var qüvvəsi ilə bir pedaqoq kimi çalışmışdır.

Xosrov müəllim hər şeydən əvvəl gənc nəslin lap uşaqlıqdan biliyə alışdırılması və eyni zamanda tərbiyə verilib böyüdülən məktəb şagirdlərinin dərindən biliyə yiyələnməsi üçün həmişə əla qiymət almaq lazım olduğunu şairlik istedadı ilə də tövsiyə edərdi:

*Gənclərə tövsiyəm olsun yadigar,*
*Eşidin, olarsız yəqin bəxtiyar.*
*Dərindən təhsilə məhəbbət edin,*
*Həmişə vaxtında məktəbə gedin.*
*Oxuyun diqqətlə, geri qalmayın,*
*Çalışıb pis qiymət əsla almayın.*

Mirzə Xosrov Axundzadə əsrimizin 50-ci illərində komsomol və pioner hərəkatı problemini dərindən öyrənmişdir. Buna görə də Xosrov Axundzadəni tez-tez pioner və komsomolçular arasında görmək olardı. O, pionerlərin toplanışında məktəblilərin ürəyincə çıxış edər və onların maraqlandığı suallara ətraflı cavab verərdi. Buna görə də pionerlər Xosrov müəllimi ürəkdən sevər və onun boynuna qırmızı qalstuk bağlayardılar.

Xosrov müəllim həyatı boyu gənclərə böyük ümid bəsləyərək şerlərinin birində yazmışdır:

*Möhkəmdir qüdrətlidi gənclər ordumuz,*
*Onlarla tərəqqi edir yurdumuz.*
*Gənclərdir həmişə qələbə çalan,*
*Texnika, həm elmin qalasın alan.*

Respublikamızda xalq maarifinin inkişafında Xosrov müəllimin də rolu az olmamışdır. Şagirdlərin siyasi-məfkurəvi tərbiyəsi, onların təlim-tərbiyəsi işinin yüksək milli vətənpərvərlik ideyası ilə, milli iftixar duyğusu ilə zənginləşdirmək təməli birinci sinifdən qoyulur. Müəllimlər gənclərimizə, vətənimizə sonsuz sədaqət, əməyə məhəbbət, möhkəm iradə, mərdlik və qəhrəmanlıq tərbiyə edir. Birinci sinif şagirdlərinə yazıb-oxumaq



öyrətmək, onlara məktəbi sevdirmək işi müəllimlərdən ustalıq tələb edir.

Xosrov müəllim pedaqoji fəaliyyəti ilə bərabər, eyni zamanda bir sıra şerlərin, qəzəllərin, bayatıların və qoşmaların müəllifidir. Onun 364 səhifəlik «Divanı» əlyazması öz dəsti-xətti ilə yazılmış memuar bir əsərdir. Xosrov Axundzadə ədəbiyyat aləmində «Şaiq» təxəllüsü ilə tanınmış bir şəxsiyyətdir.

Xosrov Şaiqin xidmətlərindən biri də onun Azərbaycanın maarif və mədəniyyət tarixini tədqiq etməsidir. Belə ki, o, əlyazmalarında Xurşudbanu Natəvanın, Mir Möhsüm Nəvvabın, Üzeyir Hacıbəyovun, Cəlil Məmmədquluzadənin həyatı, fəaliyyəti və xidmətləri haqqında müfəssəl məlumatlar vermişdir. Hətta, xalqa, vətəninə xidmət etmək arzusu Xosrov müəllimi həmişə düşündürdüyündən, o, öz şerlərinin bir çoxunda oxuculara müraciət edərək, onlarda vətənə və xalqa məhəbbət hissini aşılamağa çalışırdı. Xosrov Axundzadə şerlərinin birində yazırdı:

*Əlli il etmişəm xalqıma xidmət,*
*Bu böyük şərəfdir, mənə həqiqət.*
*Gənc nəsli tərbiyə etmişəm müdam,*
*Çox ağır zəhmətə etmişəm davam.*

Müəllimlik – şərəfli bir adın respublikamızın yüzlərlə qabaqcıl müəllimləri kimi, Xosrov müəllimin də daşıması onun həmişə fəxri olmuşdur. Buna görə də o, müəllimlik şərəfini vicdanla qoruyaraq uzun bir pedaqoji yaradıcılıq illəri keçirmişdir.

Təəssüf ki, amansız ölüm Xosrov müəllimin yaradıcılıq axtarışlarını dayandırdı. O, 1960-cı il may ayının 10-da Şuşaşda qəflətən vəfat etmişdir.

Xalqımızın sevimlisi, ibtidai məktəb işinin ustası, Xosrov müəllimin vəfatı haqqındakı xəbəri respublikamızın zəhmət adamları dərin hüznlə qarşılamışdılar.

Mirzə Xosrov Axundzadənin atalıq qayğısı ilə tərbiyə verdiyi şagirdləri gül-çiçək dəstələri ilə onun tabutunun qarşısında vidalaşıb özlərinin ürək sözlərini demişlər. Budur, Xosrov

müəllimin sabiq şagirdi, gənc şair İsa QuliyevŞuşalı özünün «Daim qəlbimizdə yaşayacaqsan!» şerini oxuyur:

*Dedilər ölübdür əziz müəllimim,*
*Varlığım sarsıldı bir an içində.*
*Artdı həyəcanı bu gənc qəlbimin,*
*Özümü hiss etdim al-qan içində.*
*Varlığım sarsıldı bir an içində.*

***

*Necə ağlamayım, kədərlənməyim,*
*Mən səni həyatdan ayrı görəndə.*
*Titrəyir qələmim, titrəyir əlim,*
*Ürəyim şiddətlə vurur sinəmdə.*
*Mən səni həyatdan ayrı görəndə.*

***

*Tək müəllim deyil, hər kəsə ata,*
*Hər kəsə mehriban insan olmusan.*
*Özün olmasan da bu gün dünyada,*
*Adını unutmaz xalqım heç zaman,*
*Daim qəlbimizdə yaşayacaqsan!*

Mehriban insanın nəbzi dayansa da onun təlim-tərbiyə sahəsində olan metodları indi də özünün təravətini saxlamışdır. Hazırda onun bu maraqlı pedaqoji təcrübəsindən respublikamızın gənc müəllimlərinin istifadə edib öyrənməsinin mühüm əhəmiyyəti vardır.

Mirzə Xosrov Axundzadənin həyat və yaradıcılığına aid bir sıra dəyərli arxiv materialları da diqqəti cəlb edir. Belə ki, 1981-ci ildə Respublika Mərkəzi Dövlət Səsyazmaları arxivində və 1987-ci ildən etibarən isə Respublika Dövlət Ədəbiyyat və İncəsənət arxivində Mirzə Xosrov Axundzadənin şəxsi fondları yaradılmışdır. Səsyazmaları arxivində onun 1960-cı ildə yeni il münasibətilə orta məktəb şagirdləri qarşısında çıxışının, onun sabiq şagirdlərinin və Mirzə Xosrov Axundzadənin həyat və fəaliyyəti haqqında radio və televiziya verilişlərinin nadir lent yazıları qorunub saxlanılır.



Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət arxivində yaradılmış şəxsi fondunda isə Xosrov müəllimin pedoqoji mülahizə və təcrübəsinə, ədəbi yaradıcılığına və Qarabağın tarixinə dair bir sıra elmi məqalələr toplusu, monoqrafiya və onun həyat və yaradıcılığını əks etdirən qısa biblioqrafiya əlyazmaları mühafizə olunur. Bundan başqa, fonda Mirzə Xosrovun adı ilə bağlı müxtəlif qiymətli kitablar da bağışlanılmışdır.

Lakin təəssüflə qeyd edə bilərik ki, Azərbaycanın Makarenkosu adlandırılan Mirzə Xosrov Axundzadənin pedaqoji fəaliyyətinin incəliklərinə durğunluq dövründə DQMV-nin rəhbər işçiləri lazımi qiymət verməmişlər. Buna görə də Xosrov müəllim vəfatına kimi Azərbaycan SSR-nin «Əməkdar müəllimi» adına layiq görülməmişdir. Əksinə, onun yaşadığı Şuşa şəhərinin Böyük qurdlar məhəlləsindəki /Kommunist küçəsi 22№-li bina/ 954 kv sahəsi olan iki mərtəbəli şəxsi mülkünü 1964-cü ildə qeyri-qanuni plana salıb viranə qoymuşlar. Hətta Mirzə Xosrov müəllimin şəxsi mülkünün sökülməsinin dayandırılması barədə Azərbaycan KP MK-nın rəsmi göstərişi də olmuşdur.

Başqa bir misal: 1969-cu il iyun ayının 2-də Şuşa rayon ZDS İcraiyyə komitəsi Şuşadakı 3№-li internat məktəbinə Mirzə Xosrov Axundzadənin adının verilməsi barədə rəsmi qərar qəbul etmiş, lakin həmin qərar kağız üzərində qalıb öz rəngini itirmişdir.

Nəhayət, respublikamız müstəqillik qazandıqdan sonra M.X. Axundzadənin Azərbaycanın maarif və mədəniyyət tarixindəki xidmətləri nəzərə alınmışdır. 1989-cu ildə Respublika miqyasında onun anadan olmasının 100 illik yubileyi keçirilmiş və Şuşa şəhərinin 3 saylı orta məktəbinə Mirzə Xosrovun adı verilmişdir.

Şuşa şəhərinin erməni təcavüzkarları tərəfindən işğalı ilə əlaqədar olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 27 sentyabr 1993-cü il tarixli 516 saylı qərarına əsasən Bakı şəhərinin Binəqədi rayonundakı 102 saylı orta məktəbinə M.X.Axundzadənin adı verilmişdir.

Beləliklə də, qeyd etmək olar ki, M.X.Axundzadənin zəngin pedaqoji irsi, publisist əsərləri bu günkü təlim-tərbiyə işində istifadə edilməyə layiqdir.

**Haşiyə:** Hazırda M.X.Axundzadənin adını daşıyan məktəbin maddi-texniki bazasının vəziyyətini qənaətbəxş hesab etmək olmaz. Belə ki, məktəbin binasının vəziyyəti görkəmli pedaqoqun ruhuna layiq deyildir. Demək olar ki, uzun illərdən bəri baxımsızlıq ucbatından məktəb bərbad vəziyyətə düşmüşdür.

Bu baxımdan, Binəqədi rayon təhsil şöbəsinin müdiri vəzifəsinə yeni təyin olunmuş dosent Hüseyn Əsgərov rayonun məktəblərinin pərvəriş etməsinə və məktəblərdə tədrisin keyfiyyətinin yüksəldilməsinə var qüvvəsi ilə çalışır.

Ümidvarıq ki, 102 saylı məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsi və məktəbin sahəsində M.X.Axundzadənin büstünün ucaldılması məsələlərini vətənpərvər bir alim kimi Hüseyn müəllim müvafiq təşkilatlar qarşısında qaldırılmasına təşəbbüs göstərəcəkdir.

***Bakı şəhəri, 27.03.2005-ci il***



# Qocaman alim, qayğıkeş müəllim

Azərbaycanda sovet hakimiyyəti qurulduğu ilk günlərdən başlayaraq Bakı neftçiləri köhnə neft sənayesi əvəzinə yeni qabaqcıl neft sənayesi yaratmağa başladı. Dağılmış neft sənayesini bərpa edib dirçəltmək qəhrəman Bakı fəhlələrinin müqəddəs vəzifəsi oldu. Lenin rayonu 6-cı mədəninin neftçi-operatoru Məmmədəli Zeynalov da öz müqəddəs vəzifəsini yerinə yetirməklə, yaxşı bilirdi ki, çıxarılan hər bir ton sovetlər ölkəsi sənayesinin canlanması və inkişafı deməkdir.

1920-ci ilin may-dekabr aylarında Bakı neftçilərinin çıxardığı 160 milyon pud neftdə Məmmədəlinin də əməyi vardır. Axı, onun fəhləlikdən baş operator vəzifəsinə keçməsi asan olmamışdır. Neft mədənlərində çəkdiyi ağır günlərin nişanəsi onun əllərindən getməmişdir. Məmmədəlinin sağ əlinə baxdıqda onun çəkdiyi ağır günləri bir daha yada salmaq olur. Onun üç barmağı o ağır günlərin qurbanı olmuşdur.

Məmmədəli Məlik oğlu Zeynalov 1909-cu il dekabr ayının 2-də neftçi fəhlə ailəsində anadan olmuş, Zaqafqaziyanın ən böyük proletar mərkəzində böyüyüb yetişmişdir. Onun keçdiyi həyat yolu heç də asan olmamış, hər cür ziddiyyətlərlə dolu olmuşdur.

Azərbaycanda sovet hakimiyyətinin qələbəsi Məmmədəli Zeynalovun həyatında dərin izlər buraxmışdır. 1928-ci ildə Sov. İKP sıralarına daxil olan M.Zeynalov həmin ilin oktyabr ayından etibarən Lenin Rayon Partiya Komitəsinin qərarı ilə Bakı Kooperativ Texnikumuna oxumaq üçün göndərilir.

1932-ci ildə texnikumu müvəffəqiyyətlə başa vuran Məmmədəli Zeynalov Azərbaycan İstehlak Cəmiyyətləri İttifaqında işləməyə ezam olunur. O, bu təşkilatda məsul icraçı vəzifəsinə təyin olunur.

Məmmədəli Zeynalov hələ neft mədənlərində işləyərkən kooperativ hərəkatında iştirak etmişdir. Təsadüfi deyildir ki, o, 1928-ci ildən etibarən kooperativ cəmiyyətinin büro üzvü seçil-

mişdir. Məmmədəli işlədiyi dövrlərdə əhali arasında Azərbaycan kooperasiyasının məqsəd və vəzifələrindən təbliğat aparmışdır.

1929-cu ildə o, Beynəlxalq Kooperasiya günü münasibəti ilə respublikanın Astara, Lənkəran, Boradiyə, Qırmızı Nəriman (hazırda Lerik rayonudur) və s. rayonlarında «Kooperasiyanın tarixi əhəmiyyəti haqqında» mövzusunda çıxışlar etmişdir. Həmin dövrdə Göyçay, Qaraməryəm, İsmayıllı, Kürdəmir, Ağsu və başqa rayonlarda kooperativ cəmiyyətləri üzrə «Yoxsullar komitəsi»ni təşkil etmişdir.

Məmmədəli Zeynalov Ağcabədi və Hindarx rayonu kooperativlərinin hesabat-seçki yığıncaqlarının Azərittifaq üzrə nümayəndəsi olmuşdur. Dəfələrlə o, Azərbaycan kooperativlər qurultayının nümayəndəsi seçilmişdir.

1933-cü ildə Azərittifaqın qərarına əsasən Məmmədəlini Azərbaycan Sovet Ticarəti İnstitutuna oxumağa göndərirlər. O, burada təhsilini davam etdirməklə yanaşı, İnstitutun «Ticarətin təşkili və texnikası kabinəsi»nin müdiri vəzifəsində işləmişdir.

1937-ci ildə Məmmədəli Məlik oğlu Zeynalov Karl Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu əla diplomla bitirib elminənginliklərinə doğru irəliləyərək biliyini zənginləşdirir. Böyük həvəs və məhəbbətlə pedaqoji işə girişən gənc Məmmədəli özünün maraqlı dərsləri ilə az bir zamanda tələbələrin hörmət və nüfuzunu qazanmışdır.

İnstitutu qurtardıqdan sonra, keyfiyyətli işinə görə Məmmədəli Zeynalovu İnstitutun Fəhlə fakültəsinin direktoru vəzifəsinə təyin edirlər. Məmmədəli Zeynalovun elmi fəaliyyətinin məhsuldar dövrü bu illərdən başlanır. 1938-ci ildə o, K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun aspiranturasına daxil olur. Namizədlik minimumlarını müvəffəqiyyətlə başa vuran gənc alim 1941-ci ildə aspirantura təhsilini başa çatdırır.

Böyük Vətən Müharibəsi Məmmədəli Məlik oğlu Zeynalovun həyatında bir sıra çətinlik yaratdı. Həmin günlər o, «Sovet hakimiyyətinin yaradılmasından əvvəl Azərbaycanda ticarət» mövzusunda namizədlik dissertasiyasını qurtarmaq üzrə idi.



Nə etməli?! Qarşıda dinc yaradıcı əməyi mübarizə ilə dəyişmək dururdu.

1941-43-cü illərdə Azərbaycan KP və respublika Nazirlər Soveti tərəfindən Məmmədəli Zeynalov Bakı şəhərinin müdafiəsində xüsusi işlərə təhkim olunur. Həmin dövrdə o, «Müdafiə tikintisi məntəqəsi»nin rəisi olmuşdur. Dövlət tapşırığını nümunəvi yerinə yetirdiyinə görə o, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyəti tərəfindən Fəxri vərəqə ilə təltif edilmişdir. Məmmədəli Zeynalov müharibədən sonra K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda baş müəllim kimi «Ticarətin iqtisadiyyatı» və «Ticarətin təşkili və texnikası» fənlərindən mühazirələr oxumaq hüququ qazanır. Həmin vaxtdan etibarən «Ticarətin təşkili və texnikası» fənlərindən müstəqil mühazirələr oxuyan Məmmədəli müəllim eyni zamanda Azərbaycanda ilk dəfə olaraq istehlak kooperasiyasının inkişafından və ticarətin meydana gəlməsindən elmi-tədqiqat işi aparmışdır.

1954-cü ildə «Sovet hakimiyyətinin yaradılmasından əvvəl Azərbaycanda ticarət» mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edən Məmmədəli müəllim iqtisad elmləri namizədi alimlik dərəcəsini almışdır. Həmin ildə o, K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun Elmi Şurasının qərarına əsasən müsabiqə yolu ilə «Ticarətin iqtisadiyyatı və təşkili» kafedrasına baş müəllim keçirilir.

Məmmədəli müəllim yuxarıda göstərilən illərdə İnstitutun əmtəəşünaslıq fakültəsinin dekanı və dekan müavini, həmçinin qiyabi təhsil şöbəsinin dekan müavini vəzifəsində işləmişdir.

M.Zeynalov 1968-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun «Ticarətin təşkili və texnikası» kafedrasının müdiri təyin olunur. O, ömrünün axırlarına kimi həmin kafedranın müdiri vəzifəsində çalışmış və yüksək ixtisaslı elmi kadrlar yetişdirmək üçün bütün qüvvəsini sərf etmişdir. Onun yetişdirmələri hazırda respublikamızın bir çox idarə və müəssisələrində çalışırlar. Buna misal olaraq göstərmək olar ki, indiyə kimi Məmmədəli müəllimin rəhbərlik etdiyi kafedranı (hazırda «Marketinq və ticarət» kafedrası adlanır) 3 nəfər professor, 10 nəfərə kimi dosent və bir neçə baş müəllim, müəllim təmsil edir.

15 ilə yaxın bir müddətdir ki, kafedranı onun yetişdirmələrindən biri olan dosent Tofiq Məmmədov idarə edir.

Məmmədəli Zeynalov xeyli elmi məqalələrin və 80 çap vərəqi həcmindən çox «Tədris metodiki vəsaiti»n müəllifi və «Ticarətin təşkili və texnikası» dərsliyinin redaktoru olmuşdur. Məmmədəli müəllim yüksək hazırlıqlı mütəxəssis, bacarıqlı müəllim olmuşdur. O, dəfələrlə SSRİ Ticarət Nazirliyinin Baş Məktəblər İdarəsi və RSFSR Ticarət Nazirliyinin Məktəblər İdarəsi tərəfindən ali məktəblər üçün «Ticarətin təşkili və texnikası» dərsliyinin və texnikumlar üçün proqram və tədris vəsaitinin müzakirəsinə dəvət olunmuşdur.

Respublikanın bir sıra elmi işçiləri özlərinin doktorluq və namizədlik dissertasiyalarında Məmmədəli Zeynalovun elmi axtarışlarından istifadə etmişlər. Məmmədəli müəllim S.M.Kirov adına Azərbaycan Dövlət Universitetində və Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda müdafiəyə buraxılan dissertantların rəsmi opponenti olmuş və eyni zamanda bir çox elmi-tədqiqat işlərinin müzakirəsində iştirak etməklə rəsmi rəylər vermişdir.

1969-cu ilin dekabr ayında alim-müəllimin anadan olmasının 60 illiyi və elmi pedaqoji fəaliyyətinin 40 illiyini yaradıcı kollektiv ləyaqətlə qeyd etmişdir. Yaşının çox olmasına baxmayaraq o, yaşadığı dövrdə elmi-ticarət kadrları hazırlamaq sahəsində mühüm problemlər üzərində gənclik həvəsi ilə çalışmışdır. 1977-ci ildə Məmmədəli Zeynalova professor elmi adı verilmişdir. 1979-cu ilin avqust ayında respublikanın elmi ictimaiyyətinə ağır itki üz vermişdir. D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun qocaman alimi və qayqıkeş müəllimi, «Ticarətin təşkili və texnikası» kafedrasının müdiri, professor Məmmədəli Məlik oğlu Zeynalov 70 yaşında qəflətən vəfat etmişdir.

İqtisad elminin inkişafında və elmi-pedaqoji kadrlar hazırlanmasında M.Zeynalovun böyük xidmətləri vardır. Onun elmi tədqiqatları və elmi-metodiki araşdırmaları alimlər, müəllimlər və tələbələr üçün böyük bir örnəkdir və qiymətli bir vəsaitdir.

*Bakı şəhəri, 1969-cu il*



# Humanist insan və müdrik ağsaqqal

Günəş öz nurunu bütün yer üzünə təmənnasız payladığı kimi xeyirxah insanlar da öz biliyini, bacarığını, həyat təcrübəsini, təşkilatçılıq qabiliyyətini başqalarına minnət qoymadan verir, onların ən yaxın köməkçisi və məsləhətçisinə çevrilir. Belə xeyirxah insanlardan biri də bizim tanıdığımız professor Kamil Səmədovdur.

Mən Kamil müəllimi 1966-cı ildən tanıyıram. Artıq 35 ildir ki, mən onunla çiyin-çiyinə birgə tədris müəssisəsində işləmişəm.

Kamil Səmədov kimdir? Mən bu suala birmənalı cavab verməzdim. Kamil müəllim – qəlbi xeyirxah duyğularla çırpınan, zəhmətlə qazandığı halal çörəyi şahlar kimi yeyən, kollektivin şadlığına sevinən, kədərinə qüssələnən və ağlayan, narahat olan, səmimiyyət və mehribanlıq yayan ülvi bir insan, iqtisadiyyat elmini yüksək idealı, məzmunlu kəlamları ilə zənginləşdirən görkəmli pedaqoq-alimdir. O anadan xeyirxaq insan kimi doğulmuş, əsl müəllim və iqtisadçı alimdir.

Professor K.Səmədovu fərqləndirən cəhət, hər şeydən əvvəl, onun əsl pedaqoqa xas olan xarakterik xüsusiyyətlərə malik olmasıdır. O, xaraktercə çox mülayim, mehriban, sədaqətli, xoşxasiyyət, tərbiyəli, mənəvi cəhətdən təmiz şəxsiyyətdir. Həm də tələbkardır.

Bununla yanaşı, mən Kamil müəllimin gözəl bir xarakterik xüsusiyyətindən danışmaya bilmərəm. Belə ki, onun böyük Elmi Şurada, məclislərdə mərdliyinə və təmkinliyinə qibtə etməmək olmaz. Buna mən iştirak etdiyim Elmi Şuranın bəzi yığıncaqlarındakı çıxışlarında onun müdrikliyinin, obyektivliyinin, qorxmazlığının və ədalətliyinin şahidi olmuşam.

Kamil müəllimin mətinliyinin kökləri daha qədimdən, tələbəlik dövründən başlayır. Burada tanınmış tarixçi bir alimin ifadəsi yadıma düşdü: «Hər adamın öz dövrü, hər dövrün öz adamı var». Bu ifadəni işlətməkdə əsas məqsədim 50-ci illərin tələbələri, məzunları haqqında söhbət açmaqdır. O dövrün tələbələri səviyyəcə, dünyagörüşcə, ümumi biliklə xeyli fərqlənirlər. Kamil

müəllim də o dövrün tələbələr nəslindəndir. Belə ki, K.Səmədov respublikamızda «Siyasi iqtisad» ixtisası, üzrə hazırlanan ilk məzunlardan biridir.

Kamil müəllim hər bir çıxışına çox böyük heyranlıq yaradan həyati fikirlər, hikmətli kəlamlar, epizodlarla başlaya bilir, özü də sakit, cəlbedici tonlardan, ritmlərdən hərtərəfli istifadə etməyi bacarır.

Professor K.Səmədov alicənab insan, mahir pedaqoq, sədaqətli dost, etibarlı məsləhətçidir. Bu və ya digər məsləhətlərlə bağlı ona müraciət edənləri naümid qaytarmır, faydalı məsləhətlərini və xeyirxaqlığını əsirgəmir.

Sadəlik, səmimilik, təvazökarlıq Kamil müəllimin mənəvi keyfiyyətlərinin şah damarıdır. Bunu çox adam təsdiq edə bilər ki, K.Səmədov bir dəfə də olsun, nə özündən, nə də yazdıqlarından danışan, əsərlərini çap etdirmək üçün kiməsə əyilən, mükafatlara, təltiflərə nail olmaq üçün qapılar döyən olmamışdır. Bunlar hamısı onun nəticəsidir ki, Kamil müəllim təbiətən pedaqoq, böyük istedad sahibidir, insanlıq tərcümanıdır, gözəl müəllim, qayğıkeş və səmimi yoldaş və insandır.

Kamil müəllimin hər bir mühazirəsi, çıxışı, söhbəti insanı daxilən təlatümə gətirir, düşündürür, insanları paklıq zirvəsinə səsləyir. Onun çox gözəl fikir ifadə etmə qabiliyyəti vardır. K.Səmədov ən şiddətli, ən kəskin fikri, tənqidi, ya təklifi, eyni zamanda faydalı sözlərini elə şəkildə dinləyicilərinə çatdırardı ki, heç kəsin qəlbinə toxunmasın.

Kamil müəllim heç zaman tələbələrindən şikayətlənmir, onları yüksək mədəniyyət və tərbiyə səviyyəsinə qaldırmaq səyləri göstərirdi. O, uzun illərdən bəri sözün əsl mənasında müəllim adını şərəflə daşıyan, vətəndaşdır. Tələbələrlə münasibətdə qazandığı hörmət onun əməyinin məhsuludur. Tədris zamanı əldə etdiyi nailiyyətlər onun böyük pedaqoji ustalığının bariz nümunəsidir. Kamil müəllim hər bir insana qayğı ilə yanaşır, dinləməyi bacarır, məsləhət verir və onlara həmişə düzgün yol göstərir və mənəvi dayaq olurdu. Tədris zamanı aram-aram danışığı, səlis və aydın pedaqoji dili, hər hansı problemə və elmi fikrə hərtərəfli yanaşmağı onun böyük müəllim, gözəl insan


olduğunu göstərir. Ulu xalqımızın mənəvi dəyərlərinin gənc nəslə həvəslə öyrədilməsi, onlara doğru yol göstərilməsi onun həyat amalıdır.

Kamil müəllimə hansı prizmadan baxılsa, fərqi yoxdur, o insanlara hörmət və kömək etməyi bacaran, prinsipial, təşəbbüskar, idrakı yetkin, əxlaqı saf, mənfi hallara qarşı barışmaz, sözünün sahibi olan, sosial həyat prinsiplərinə həmişə sədaqəti, obyektivliyi, mübarizliyi ilə fərqlənən bütöv bir şəxsiyyətdir. Qədim yunan filosofu Sokratın kəlamı ilə desək:

-Kamil müəllim özü-özünü dərk etmiş kamil bir insandır. O, özünə kənardan baxmağı bacaran şəxsiyyətdir.

Kamil müəllimin yaradıcılıq fəaliyyətinin bir səhifəsi də onun təşkilatçılıq bacarığının olması ilə bağlıdır. Demək olar ki, o, uzun müddətdir ki, Universitetin Azad Həmkarlar Komitəsinin sədrinin birinci müavini vəzifəsini ömrünün axırına kimi icra etmişdir. Bu müddət ərzində K.Səmədov Həmkarlar Komitəsinin büro üzvlərinə özünün çoxillik təcrübəsini öyrətməyi əsirgəmir, həmişə hər zaman faydalı məsləhətləri ilə kollektivin ümumi işinə düzgün istiqamət vermişdir. Buna, görə də onun aramsız köməkliyi sayəsində komitənin işi Universitetin rəhbərliyinin nəzər-diqqətini həmişə cəlb etmişdir. Bunu göstərmək kifayətdir ki, K.Səmədov kollektivimizdə bəzi xeyirxah işlərin ilk təşəbbüskarlarından biri idi, o, cümlədən, vaxtı ilə təşkil olunmuş «Qayğı» cəmiyyətinin sədr müavini vəzifisini icra etmişdir.

Kamil müəllim universitetdə qaçqın və köçkünlərə yardım üçün yaradılan fondun təşkilatçılarından olaraq, həmin fonda öz əmək haqqının 5%-ni köçürən əməkdaşlarımızdan biridir. O, 1991-ci ilin noyabrında Naxçıvan Ali Məclisinin sədri cənab Heydər Əliyevin müraciətinə cavab olaraq «Milli müdafiə qüvvələri üçün» yaradılan fonda öz aylıq əmək haqqından 340 manat həcmində pul vəsaiti köçürmüşdür. Bununla yanaşı Kamil müəllim qonşu ölkələrdə baş verən müxtəlif fəlakətlər zamanı həmin ölkələrə kömək məqsədilə qismən olsa da əmək haqqından yardım göstərmişdir.

Universitetdə əməkdaşların sosial vəziyyətinin yaxşılaşdırılması ilə həyata keçirilən bütün tədbirlər-belə ki, əmək

haqqına əlavə, 60-a qədər əməkdaşlarımızın övladlarının təhsil haqqından azad olunması və sairə Kamil müəllimin adı ilə bağlıdır. Eyni zamanda, kollektivin 5 günlük iş həftəsinə keçməsi məsələsinin təşəbbüskarlarından biri də Kamil müəllim olmuşdur.

Bir tarixi həqiqəti də deməmək olmaz. Ədalət naminə qeyd etmək olar ki, Dağlıq Qarabağ həqiqətlərini digər dövlətlərə yaymaqda K.Səmədov müstəsna rol oynamışdır. Belə ki, Dağlıq Qarabağla əlaqədar yazılmış çox saylı qəzetləri, jurnalları və kitabları bir sıra respublikalara və xarici dövlətlərə yaymaq işində fəal iştirak etmişdir.

Bundan əlavə, Quba rayonunun 2-ci Nügədi kəndində yerləşən «İdman-sağlamlıq zonası»nda əməkdaşlarımızın istirahətinin təşkilində də Kamil müəllim təkan verənlərdən biri olmuşdur.

Qəlbən universitet əməkdaşlarına bağlı olan K.Səmədovun böyük bir xidmətini də qeyd etmək yerində olardı. Belə ki, kollektivdə yeganə şəxsiyyətdir ki, Universitetimizin 70 illik yubileyinin təntənəli qeyd olunması üçün çalışmış və bir neçə il Universitetin böyük elmi Şurasında rektorluğun qarşısında bu məsələni qoymuşdur. Məhz Universitetin keçmiş rektoru, akademik Əli Abbasov onun bu təşəbbüsünü bəyənmiş və məsələ dövlət səviyyəsinə qaldırılmışdır. Nəticədə isə müsbət həllinə nail olmuşdur.

Bütün bunları nəzərə alıb mən Kamil Səmədovu humanist bir insan adlandırsam zənnimcə səhv etmərəm, çünki, o, həm də təvazökardır. Ciddi təvazökar insan isə həmişə doğru danışır. O, nəinki başqalarının, lazım gəlsə, özünün nöqsanlarını da deməkdən çəkinmir. Belə bir ürəyi olan insanın sözünə inanmamaq olarmı? Burada iqtisadçı alim və şair İsa Mürsəloğlunun «Ağsaqqal» şerindən iki bəndi göstərməklə fikirimi bitirmək istərdim:

*Şax üzə deyirsən sözün olanda,*
*Tonqala dönmüsən közün olanda,*
*Yoluna şam tutur obyektivliyin,*
*Fərqinə varmırsan kimin, kimliyin...*
*Heç kimin önündə əyməyərək baş,*
*Haqsız bədxahlığa salırsan təlaş.*



* * *

*Kamil, əziz dostum, əziz həmkarım.*
*Belə xəlq edibdir səni yaradan,*
*Arzumdur həmişə belə qalasan!*
*Cəsarət, sarsılmaz cürət naminə,*
*Çoxları götürsün səndən nümunə!*

Kamil müəllim əməkdaşı olduğu Həmkarlar Komitəsində yeni xeyirxah əməlləri barəsində hey düşünürdü. Heç adamın ağlına gəlməzdi ki, axırıncı xeyirxah əməli onun ömrünün tamamlanması ilə nəticələnəcəkdir. Elə bil ki, Univesitetdə «Xeyir-şər fondu»nun təşkil olunması onun özünə də gərək olacaqdır. Fond yaradıldıqdan bir neçə ay sonra 2003-cü il ərəfəsində o, dünyasını dəyişdi. Kamil Səmədovun bu xeyirxah əməlləri və əziz xatirəsi universitetin əməkdaşlarının qəlbində əbədi yaşayacaqdır!

Allah sənə rəhmət etsin, qəbrin nurla dolsun!

*23.02.2003-cü il*

## İqtisadçı alim

Onun haqqında yazmaq çoxdan fikrimdən keçirdi. O, həm iqtisadçı alim, həm müəllim və həm də bir insan kimi məni düşündürürdü. 1989-cu ilin avqust ayında televiziya verliişlərinin birində respublikamızda xalq təhsilinin iqtisadi potensialının daha da artırılması barəsində onun çıxışı mənə nə qədər xoş təsir bağışladı.

Yəqin ki, oxucular bu şəxsin kim olduğu barəsində maraqlanacaqlar. Haqqında söhbət açdığımız şəxs Bəybala Aslan oğlu Xankişiyevdir. O, 1956-cı ildə Sabirabad rayonunun Qalaqayın kənd orta məktəbini bitirmişdir. Təhsilini artırmaq məqsədilə Bakıya gəlmiş və Bakı Maliyyə Kredit Texnikumuna daxil olmuşdur. 1958-ci ildə texnikumu fərqlənmə diplomu ilə bitirmiş Bəybala, təyinatla doğma Sabirabad rayonuna qayıdıb sığorta idarəsində baş muhasib vəzifəsində işləmişdir.

1960-cı ildə Bəybala, S.M.Kirov adına ADU-nun «İqtisad» fakültəsinə daxil olmuş və 1965-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. 1970-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun mühasibat uçotu ixtisası üzrə aspiranturasının qiyabi şöbəsinə daxil olmuşdur.

1974-cü ildə B.Xankişiyev, «Büdcə idarəsində mühasibat uçotunun təkmilləşdirilməsi yolları» mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş və iqtisad elmləri namizədi, alimlik dərəcəsinə layiq görülmüşdür. O, 1966-cı ildən başlayaraq əvvəlcə D.Bünyadzadə adına Azərbaycan XTİ-da və sonra isə N.A.Voznesenski adına LMİİ Bakı filialında əvəzçilik üzrə mühazirələr oxumuşdur.

1964-cü ildən Bəybala Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi sistemində muxtəlif vəzifələrdə işləmiş və sonralar isə respublikanın Xalq Təhsili Nazirliyində «Plan-iqtisad idarəsi»nin rəisi vəzifəsində çalışmışdır.

Bu illərdə Bəybala müəllim çox səmərəli işlərlə məşğul olmuşdur. Belə ki, buna 1989-1990-cı illərdə orta ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi sahəsində nəzərdə



tutulmuş tədbirləri, əhalinin məşğulluğu probleminin həllinin yerinə yetirilməsini, istehsalın yeni strukturuna yiyələnməni, fəaliyyətin yaradıcılıqla əlaqələndirməsini, inkişafın başlıca istiqamətlərini dinamik mənimsəməklə dövrümüzün aktual tələbi kimi qalmasını və s.misal göstərmək olar. Bu da eyni zamanda xalq təsərrüfatı üçün yeni keyfiyyətli kadrların hazırlanmasını, bu sahədə iş sisteminin əsaslı şəkildə təkmilləşdirilməsini tələb edir. Bununla əlaqədar olaraq Bəybala müəllim, respublikanın xalq təhsili nazirliyi sistemində istər orta, texniki-peşə, istərsə də orta ixtisas və ali məktəbləri qurtaran gənclərin meylləri, eyni zamanda ixtisasları üzrə xalq təsərrüfatının müxtəlif sahələrində intensiv yerləşdirilməsi problemləri ilə məşğul olmuşdur.

Onun hal-hazırda respublikada fasiləsiz təhsil problemləri – (məsələn: uşaq bağçası, məktəb, texniki-peşə, orta ixtisas məktəbləri və ali məktəblərdə ixtisası artırma şöbələri) daha çox düşündürür.

Respublikada orta və ali ixtisaslı mütəxəssislərin hazırlanmasının quruluşunun təkmilləşdirilməsi də Bəybala müəllimi illərlə düşündürmüşdür. Bununla əlaqədar olaraq, gələcəkdə bir sıra mühəndis və pedaqoji ixtisasları üzrə qəbulun daha çox ixtisar edilməsi əvəzində xalq təsərrüfatının kəskin ehtiyac duyduğu elm və texnikanın mütərəqqi sahələri üzrə yeni ixtisaslara qəbulun başlanılması nəzərdə tutulmuşdur. Eyni zamanda, müsabiqədənkənar və məqsədli qəbulun planlaşdırılmasına diqqət artırılmışdır. Bu da Bəybala müəllimin rəhbərlik etdiyi kollektivin xalq təhsili sistemində planlaşdırmanın yeni iqtisadi metodlarla işləməsindən irəli gəlir.

Mütəxəssis kadrların hazırlanması haqqında müəssisə, təşkilat və idarələrlə müqavilələr bağlanması ali və orta ixtisas məktəblərinin fəaliyyətini keyfiyyətcə yeni mərhələyə qaldırmışdır. Əgər əvvəllərdə xalq təsərrüfatı sahələrinin və ərazilərin kadrlara olan tələbatının öyrənilməsi ixtisas təhsili məktəblərinin öz təşəbbüsü ilə əlaqədar idisə, hazırda xalq təhsili direktiv qərarlar əsasında öyrənilir. Belə ki, hökumətin veridiyi qərarların tələblərinə uyğun olaraq yaxın gələcəkdə respublikada

kadrların hazırlanmasının planlaşdırılması yalnız müqavilələr əsasında aparılacaqdır.

1990-2000-ci illərdə Azərbaycan SSR-nin xalq təhsili məktəblərində müəssisələrə olan tələbatını öyrənmək məqsədilə Bəybala müəllimin rəhbərlik etdiyi plan-iqtisad idarəsi, Respublika Dövlət Plan Komitəsi ilə birgə gərgin fəaliyyət göstərmişdir. Bununla əlaqədar, respublikanın bütün ali məktəblərində ekspert komissiyaları yaradılmışdır. Həmin komissiyaların tərkibinə fakültə və kafedra rəhbərləri, təcrübəli pedaqoqlar daxil edilmişdir.

B.Xankişiyev, bir iqtisadçı alim kimi də özünü doğrultmuşdur. O, 41 çap vərəqi həcmində elmi məqalələrin, metodiki və 2 tədris vəsaitinin müəllifidir. 1979-cu ildə respublikada ilk dəfə olaraq, onun Azərbaycan dilində «Büdcə idarələri müəssisələrində mühasibat uçotu» və 1987-ci ildə isə «Budcə uçotu və hesabatı» mövzularında tədris vəsaitləri çapdan çıxmışdır.

1988-ci ildə Bəybala müəllimin bir sıra müəlliflərlə birlikdə «Respublika təhsilində kadrların hazırlanması sisteminin inkişaf perspektivlərinin planlaşdırılması» mövzusunda çox mühüm əhəmәiyyətə malik elmi məqaləsi dərc olunmuşdur. Əlbəttə, belə bir planlaşdırmanı işləyib başa çatdırmaq respublikanın xalq təhsili sistemində Bəybala muəllimin rəhbərlik etdiyi kollektivə həvalə edilmişdir.

Bununla yanaşı, həmin illərdə Azərbaycan SSR Nazirlər Sovetinin razılığı ilə «Kadr hazırlığında təhsilin proqnozlaşdırılması və planlaşdırılması problemi» üzrə B.Xankişiyevin rəhbərlik etdiyi Plan-İqtisad İdarəsinin nəzdində Elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərmişdi.

1999-cu ilin iyul ayında B.Xankişiyev respublika Maliyyə Nazirliyində nazirin müşaviri vəzifəsinə, 1999-cu ilin noyabr ayında isə nazirliyin müşavir xidmətinin rəhbəri – baş müşavir vəzifəsinə təyin olunmuşdur.

2000-ci ilin sentyabr ayında struktur dəyişikliyi ilə əlaqədar müşavir xidmətinin bazasında «Analitik informasiya xidməti» təşkil olunmuş və B.Xankişiyev xidmətin rəhbəri vəzifəsinə təsdiq edilmişdir. 2003-cü ildə yeni struktur dəyişikliyi ilə



əlaqədar əvvəlcə «Analitik informasiya şöbəsi»nə, sonra isə «Analitik təhlil şöbəsi»nə rəhbərlik etmişdir.

2004-cü ilin avqust ayından hal-hazıra kimi «Dövlət sığorta nəzarəti şöbəsi»nin müdiri vəzifəsində çalışır. O, eyni zamanda, Maliyyə Nazirliyinin mühasibat uçotu üzrə Metodoloji Şuranın və «Maliyyə və uçot» jurnalının redaksiya heyətinin üzvüdür.

Professor B.Xankişiyevin 2000-2004-cü illərdə bir sıra dərslik və kitabları nəşr olunmuşdur. Bunlara «Büdcə uçotu», «Büdcə prosesi və büdcə təsnifatı», «Maliyyə nəzarəti» və «Sığorta işi» kitablarını misal göstərmək olar.

Gəlin biz Bəybala müəllimə yeni yaradıcılıq müvəffəqiyyətləri arzulayaq!

***30.09.04-cü il.***

## Mən onunla fəxr edirəm!

Azərbaycan Dövlət İqtisad Universitetinin əməkdaşı «Beynəlxalq iqtisadi münasibətlər» kafedrasının dosenti Həsən İsrafilov 1970-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun «Ticarət-iqtisad» fakültəsini bitirdikdən sonra həmin ildən «Ticarətin iqtisadiyyatı» kafedrasında saxlanılmışdır.

1975-78-ci illərdə aspiranturanı müvəffəqiyyətlə bitirmiş, 1981-ci ildə Kiyev Ticarət İqtisad İnstitutunda namizədlik dissertasiyası müdafiə etmiş və ona iqtisad elmləri namizədi alimlik dərəcəsi verilmişdir. 1991-ci ildən dosent vəzifəsini daşıyır.

O, 1987-89-cu illərdə «Ticarət-əmtəəşünaslıq» fakültəsində dekan əvəzi, 1989-1996-cı illərdə dekan müavini vəzifəsində çalışmışdır. 1996-2000-ci illərdə «Kommersiya» və «Beynəlxalq iqtisadi münasibətlər» fakültələrinin dekanı vəzifəsində çalışmışdır.

Dos.H.İsrafilov işlədiyi dövrdə dəfələrlə pambıq yığımı kompaniyasında müəllim kimi tələbələrə rəhbərlik etmiş, bir neçə dəfə tələbə-inşaat dəstəsinin komandiri olmuşdur. Dəstənin əldə etdiyi nailiyyətlərə görə ona dəfələrlə rektorluq tərəfindən şəxsi işinə yazılmaqla təşəkkür elan edilmişdi.

Dos.H.İsrafilov 50-dən çox elmi-metodik və didaktik əsərlərin, məqalələrin, o cümlədən, dərslik və dərs vəsaitlərinin müəllifidir. Buna təkcə 2001-ci ildə müəlliflər birliyi ilə «Zaman» nəşriyyatı tərəfindən çapdan çıxmış «Beynəlxalq ticarət işi» dərsliyini göstərmək kifayətdir. Bütün bunlarla yanaşı, Həsən müəllim həm də gözəl insan, qayğıkeş ailə başçısı, vicdanlı, əqidəli, təvazökar, təmiz, eyni zamanda, həm özünə, həm də tələbələrinə qarşı tələbkar, prinsipial bir insandır. Onun nəinki mənsub olduğu gənc və orta, hətta yaşlı nəslin nümayəndələri, eləcə də mübaliğəsiz demək olar ki, universitetin professor-müəllim və tələbə heyəti arasında böyük hörməti vardır.

Belə ki, Həsən İsrafilov «Elm və Təhsil Mərkəzi» Təfəkkür Universitetində tədris işləri üzrə prorektor vəzifəsində



çalışarkən, böyük etimad göstərilərk ona professor elmi adı verilmişdir.

Həsən müəllim Təfəkkür Universitetində Azərbaycan Dövlət İqtiisad Universitetini ləyaqətlə təmsil etmişdir. Belə ki, o, öz işgüzarlığı, tələbkarlığı, tədrisi gözəl bilməsi, səriştəli müəllim və ədalətli, qayğıkeş olması ilə universitet əməkdaşlarına nümunə olmuşdur. Həsən müəllim kollektivin bütün üzvlərinin xeyir və şərində iştirak edən bir ziyalıdır. O, həyatda heç bir sahədə heç kəsə əziyyət verməyi xoşlamır. Sanki o, dostlarını hər şeydən qorumağa, əlavə xərclərdən çəkindirməyə çalışır. Həsən müəllim yaz bünövrəsi kimi yumşaq, Qobustan qayaları qədər sərt, mətin və əyilməzdir. Yumşaqlıqla ondan bütün istədiklərini əldə edə bilərsən, zor göstərməklə onu qorxutmaq mümkün deyil.

Belə deyirlər ki, hər bir insanın fəaliyyəti, onun mahiyyəti haqqında açıq bir kitabdır. Mən, Həsən müəllimin ailəsinə ağır kədər üz verəndə onunla bir yerdə oldum. Əvvəla onu qeyd edim ki, Həsən müəllim gözəllikdə, ağıl-kamalda, savadda misli-bərabəri olmayan, namaz əhli Elçin balamızı itirməsinə baxmayaraq, özünü necə dinli-imanlı, müdrik aparırdı. O, daxilən «qorğa» kimi qovrulsa da, ətrafdakı insanlara sarsıntı etməmək üçün yanğısını büruzə verməməyə çalışırdı.

Çox da böyük vəzifəsi olmadığı halda, onun bu mərasimində on minlərlə say-seçmə insanların iştirak etməsi, bizə zahirən sadə, təvazökar görünən bu insanın respublika miqyasında, xüsusən işlədiyi kollektivlərdə nə qədər böyük nüfuza malik olduğundan, onun mənsub olduğu nəslin nəcibliyindən, alicənablığından xəbər verirdi.

Yeri gəlmişkən, qeyd edim ki, Həsən müəllimin qızı Şəhla xanım da Azərbaycan Dövlət İqtisad Universitetində «Xarici dillər» kafedrasında müəllimə vəzifəsində çalışır. O, çox savadlı, mehriban, gülərüz, əsl Azərbaycan xanımlarına xas olan gözəl xüsusiyyətləri özündə cəmləşdirən bir insandır.

Göründüyü kimi, həyat öz axarını davam etdirir. Bu gün Həsən müəllim də AzDİU-nun «Beynəlxalq iqtisadi münasibətlər» kafedrasında özünün müəllimlik fəaliyyətini davam etdirir.

Kafedra kollektivinin qayğısı ilə qarşılıqlı şəkildə onlara sevgi və sayğılar bəxş edərək yaşayır və yaradır.

Onu da qeyd edim ki, Həsən müəllim mənim ən ləyaqətli, savadlı, ictimaiyyətçi tələbələrimdən biri olmuşdur. Belə ki, fakültə tələbə elmi cəmiyyətinin sədri və oxuduğu 904 saylı qrupun nümayəndəsi kimi o, tələbələr içərisində xüsusi nüfuza malik idi.

Professor H.İsrafilovun təşkilatçılıq bacarığı nəzərə alınıb 2005-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetinin Magistr Hazırlığı Mərkəzinin direktoru vəzifəsinə təyin olunmuşdur.

Həsən müəllim BİM fakültəsinin dekanı olarkən, qeyd edirdi ki, həyatda qazandığım bütün müvəffəqiyyətlərimə görə müəllimlərimə borcluyam və mən ən yaxşı müəllimlərimlə fəxr edirəm!

Mən də professor Həsən İsrafilovun müəllimi kimi onun müxtəlif səviyyələrdə xoş sədalarını eşitdikcə fərəhlənir və onunla fəxr edirəm!



## Qayğıkeş insan, peşəkar təşkilatçı

İnsanın, xüsusilə müəllimin gözəlliyi onun daxili aləmində özünü göstərməsindədir. Belə xüsusiyyətlər hər adama nəsib olmur. Bu cür xüsusiyyətlərin yüksək zirvəsində dayanan müəllimlərdən biri də Hacı Müzəffər Məmmədovdur. Müzəffər müəllimin amalı yaxşılıqdan və qayğıkeşlikdən yoğrulub. Buna görə də onun şəxsində əsas üç əlamət fərqləndirilir. Əsl insan, qayğıkeş müəllim və peşəkar təşkilatçı.

Bunların içərisində qağıkeşlik Hacı Müzəffər müəllimin sanki qanında və damarlarındadır.

**Haşiyə:** Müzəffər Qulu oğlu Məmmədov 1947-ci ilin dekabrında Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Gənzə kəndində, ziyalı ailəsində dünyaya göz açmışdır. İbtidai təhsilini Ordubad şəhər 1 saylı orta məktəbində almışdır.

1965-ci ildə Azərbaycan Dövlət Universitetinin İqtisadiyyat fakültəsinə daxil olmuş və 1969-cu ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun «Sənaye malları əmtəəşünaslığı və ticarətin təşkili» ixtisasını bitirmişdir.

1969-cu ildən 1992-ci ilə kimi «Ticarətin təşkili və texnikası», «Ticarətin təşkili və idarə edilməsi» kafedralarında pedaqoji sahədə çalışmışdır.

1992-ci ildən başlayaraq hal-hazıra kimi Azərbaycan Dövlət İqtisad Universitetinin «Beynəlxalq iqtisadi münasibətlər və marketinq» kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində işləyir. Bununla yanaşı, «Beynəlxalq iqtisadi münasibətlər» fakültəsinin dekan müavini vəzifəsində çalışır. Hazırda isə, həmin fakültənin dekanıdır.

Müzəffər müəllim 35 ildən artıq bir müddətdir ki, universitetdə pedaqoji fəaliyyətlə məşğuldur. O, özünün elmi, pedaqoji, ictimai, təşkilatçılıq və insani keyfiyyətləri ilə universitet kollektivi və respublika ictimaiyyəti tərəfindən tanınmış bir insandır. Buna görə də Müzəffər müəllimlə onun yetirmələri və tələbələri fəxr edirlər.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra gözlənilmədən yeni-yeni problemlər ortaya çıxmağa başladı. Belə ki, respublikanın qarşısında duran əsas vəzifələrdən biri də özünün xarici siyasətini və onun əsasını təşkil edən beynəlxalq iqtisadi münasibətlərini yenidən təşkil etmək olmuşdur. Həmin dövrdə respublikada bu sahədə kadr hazırlayan elm və tədris müəssisəsi yox idi. Keçmiş SSRİ dövründə bu sahə üzrə kadrlar yalnız Moskvada ildə 2-3 nəfər hazırlanırdı. Onlar da əsasən qarışıq millətlərdən olduqları üçün vətənə qayıtmırdılar. Odur ki, yalnız doğma respublikamıza ümid qalırdı. Bu çətin işi üzərinə götürən ancaq həyata yeni vəsiqə alan «Beynəlxalq iqtisadi münasibətlər» kafedrası, onun müdiri, prof. Şəmsəddin Hacıyev və kafedranın əməkdaşı Müzəffər Məmmədov olmuşlar.

Azərbaycanda «Beynəlxalq iqtisadi münasibətlər» ixtisasının formalaşdırılmasında onların əməyi böyükdür. Belə ki, Ş.Hacıyevin və M.Məmmədovun gərgin zəhməti nəticəsində bu ixtisasın proqramı tərtib olunub nəşr edildi. Tədris planı isə respublikada fəaliyyətə başlayan bütün dövlət və özəl universitetlərə örnək oldu.

Beləliklə də, özünün elmi potensialına uyğun olaraq həmin ixtisas 10 il ərzində respublikanın ən perspektivli ixtisasına çevrildi. Prof. Ş.Hacıyevin rəhbərlik etdiyi kafedra universitetdə elmi potensialına görə irəlidə gedən kafedralardan biri sayılır. Fakültəyə hər il respublikanın orta məktəblərini bitirən şagirdlərin ən yüksək bal toplayanları bu ixtisasa daxil olurlar. Bunun da nəticəsində fakültəni yüksək biliyə malik olan tələbələr təmsil edirlər. Fakültənin məzunları özünün peşəkarlıqlarına, elmi səviyyələrinə və mütəxəssis keyfiyyətlərinə görə ABŞ, Qərbi Avropa və dünyanın inkişaf etmiş bir sıra ölkələrinin magistratura və doktoranturalarında təhsil alırlar. Onlar Beynəlxalq təşkilatlarda, dövlət və hökumət orqanlarında, xarici şirkətlərdə fakültəni layiqincə təmsil edirlər.

Belə tələbələrlə Müzəffər müəllim də fəxr edir. Tələbələr onu özlərinə ümid yeri hesab edirlər. Kimin nə dərdi varsa, Hacı Müzəffər müəllimin yanına gedir və heç vaxt naümid qayıtmırlar.



Müzəffər Məmmədovun mühüm xüsusiyyətlərindən biri də onun təşkilatçılığıdır. Təşkilatçılıq isə insanın qabiliyyətinin təzahür formasıdır. Müzəffər müəllim bu formanı özünə örnək seçmişdir. Belə ki, o, ali məktəblər arasında uzun illər mövcud olmuş Tələbə İnşaat Dəstəsində çox səmərəli işlər görmüşdür. 80-85-ci illərdə onun tələbə inşaat və ticarət dəstələrində fəaliyyəti çox əhatəli olmuşdur. Bunun da nəticəsində Müzəffər müəllimin rəhbərlik etdiyi dəstə dəfələrlə birinci yeri tutmuş, keçici bayraqlara, fəxri fərmanlara, rektorluğun təşəkkürlərinə və pul mükafatlarına layiq görülmüşdür. Bununla əlaqədar tələbə inşaat dəstələrindəki nailiyyətlərinə görə o, aldığı mükafatlarla demək olar ki, dünyanın 40-a yaxın ölkəsində olmuş və təcrübə mübadiləsi aparmışdır.

Müzəffər müəllimin əmək fəaliyyəti nə qədər geniş olsa da, onun bütün varlığı gənc nəslin təlim-tərbiyəsinə, tələbələrin mütəxəssis kimi yetişməsinə həsr olunmuşdur. Elə bil ki, o, tələbələrlə işləmək, onlarla bir yerdə olmaq, onlara düzgün yol göstərmək və gələcək üçün yetişdirməkdən ötrü doğulmuşdur. Savadlı və tərbiyəli, mədəniyyətli, nizam-intizamlı və təşəbbüskar tələbə onun gözünün işığı və ilham mənbəyidir. İntizamsız, savadsız və laqeyd tələbə isə onun gözündə tikandır.

Müəllimin güzgüsü məhz tələbə birliyidir. Buna görə də, müəllimə də qiyməti tələbələri verir. Bu baxımdan Müzəffər müəllimin şərəf və ləyaqəti, vicdan və qeyrəti, nüfuz və mövqeyi tələbə birliyi arasında həddindən ziyadə yüksəkdir.

Müzəffər müəllim müəllimlik peşəsinə o qədər aludə olmuşdur ki, dissertasiyasını vaxtında müdafiə etməyi unutmuşdur. Onsuz da ona hamı alim kimi baxırdı. Atalar məsəlində deyildiyi kimi: «Alim olmaq asandır, insan olmaq çətindir». Müzəffər müəllim həyatda insani keyffiyyətləri özünə rövnəq sayırdı.

O, eyni zamanda, böyük bir elin ağsaqqalıdır. Hazırda icra etdiyi vəzifə ona zəhmət naminə qismət olmuşdur.

Şair və müəllim Nüsrət Nüvədili demişkən: «Müzəffər müəllimin xəmiri zəhmət suyundan yoğrulub». O, şerlərinin birində yazır:

*Qədim el-obanın, böyük bir nəslin,*
*Müdrik və sevimli ağsaqqalısan.*
*Xəmirin yoğrulub zəhmət suyundan,*
*Əməlin salehdir, Hacı Müzəffər!*

12 mart 2004-cü il… Universitetin kiçik iclas zalında böyük canlanma vardı… Həmin gün Müzəffər Məmmədov «Bazar iqtisadiyyatına keçid şəraitində Azərbaycan Respublikasının dünya iqtisadiyyatı sisteminə inteqrasiya problemləri» mövzusunda dissertasiya müdafiə edirdi.

**Haşiyə:** 1967-1968-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda Müzəffər Məmmədov mənim tələbəm olmuşdur. Elə tələbəlik dövründə Müzəffər özünü ən yaxşı oxuyan və fəal bir təşkilatçı kimi göstərirdi. Onun Tələbə Elmi Cəmiyyətindəki çıxışları bunu bir daha sübuta yetirirdi. Təhsil aldığı müddətdə onun adı həmişə qabaqcıllar sırasında çəkilərdi. Dəfələrlə elmi işinə və təşkilatçılıq bacarığına görə, Müzəffər Məmmədova fəxri fərmanlar verilmiş və təşəkkür elan edilmişdir. Xitabət kürsüsündə Müzəffər müəllimin çıxışı o qədər sərbəst və məntiqli idi ki, adamların Müzəffər müəllimə rəğbəti birə on qat artırdı. O, Müdafiə Şurasının üzvlərinin suallarına çox təmkinliklə cavab verirdi. Belə ki, Müzəffər müəllim tədqiqatının məqsəd və vəzifələrinə, işin elmi yeniliyinə, tədqiqatın nəzəri-metodoloji əsaslarına çox dəqiqliklə yanaşmışdır. Buna görə də onun rəsmi opponentləri iqtisad elmləri doktoru, professor, Ukrayna Respublikasının əməkdar elm və texnika xadimi Budkin Viktor Sergeyeviç və iqtisad elmləri namizədi, dosent Oktay Yusif oğlu Yusifov Müzəffər müəllimin dissertasiya işinə yüksək qiymət vermişlər. Eyni zamanda Universitet tarixində ilk dəfə olaraq Müzəffər müəllim 08.00.14 «Dünya iqtisadiyyatı» ixtisas şifrəsi ilə dissertasiya işini müdafiə edirdi. Çıxış edən Müdafiə Şurasının üzvləri hətta öz təkliflərində göstərirdilər ki, Müzəffər müəllim birdəfəlik doktor adına layiq olan bir şəxsdir. Bir sözlə, öz peşəsinin vurğunu olan Müzəffər müəllim bundan sonra iqtisadçı alimlər arasında «Doktor Müzəffər» deyə çağırılacaqdır.



## Mənalı ömür

«Qabusnamə»də deyildiyi kimi, kimə bu üç keyfiyyət verilibsə, o, Allah-Təalanın xüsusi bəndəsi hesab edilməlidir. Bunlar aqillik, düzlük və insanlıqdır. İqtisad elmləri namizədi, dosent Məhərrəm Ağamalıyevdə bu qiymətli keyfiyyətlərin üçü də vardır. Tanıyanlar onun mərdliyini və insanlığını, xeyirxahlığını, yoldaşlıqda sədaqətliyini, arxasıza arxa durmasını sonsuz ehtiramla xatırlayırlar. Onunla kimlər ünsiyyət bağlayıbsa heç vaxt peşman olmayıblar. O, aram-aram danışmağı sevir və xoşu gəlmədiyi adamın nöqsanını üzünə deyir.

Həyatının bir hissəsini elmə və yurdumuzun övladlarının maariflənməsinə sərf etmiş Azərbaycan Dövlət İqtisad Universitetinin «Kommersiya» kafedrasının müdiri vəzifəsində işləmiş, dosent Məhərrəm Ağamalıyev ömrünü mənalı yaşamaqdan zövq alan bir alimdir.

**Haşiyə:** Məhərrəm Qaibqulu oğlu Ağamalıyev 1942-ci ildə İrəvan şəhərinin Sisian rayonunun Comərdli kəndində anadan olmuşdur. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun məzunudur.

1964-cü ildə keçmiş SSRİ-nin Novosibirsk vilayətinin Barnaul şəhərində hərbi xidmətdə olmuş və həmin dövrdə təyyarəçilik-mexanika kursunda bir il oxumuşdur.

1970-1975-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun «Ticarətin iqtisadiyyatı» kafedrasında assistent və baş müəllim vəzifəsində işləmişdir.

1984-cü ildə Tiflis şəhərində namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş və alimlik dərəcəsinə layiq görülmüşdür.

1990-cı ildən etibarən Bakı Əmtəəşünaslıq - Kommersiya İnstitutunda «Kommersiya və idarəetmə» kafedrasının dosenti vəzifəsində çalışmışdır.

1995-ci ildə «Əmtəə bazarında və xidmət sahəsində kommersiya fəaliyyəti» ixtisası üzrə «Koommersiya» kafedrası təşkil olunmuş və dos. M.Ağamalıyev həmin kafedranın müdiri vəzifəsinə təyin olunmuşdur.

«Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli 349 saylı fərmanına əsasən Azərbaycan Dövlət İqtisad İnstitutunun və Bakı Əmtəəşünaslıq-Kommersiya İnstitutunun bazasında Azərbaycan Dövlət İqtisad Universiteti yaradıldı. Həmin İnstitutlar birləşdirildikdən sonra dos. M.Ağamalıyev yenidən «Kommersiya» kafedrasının müdiri vəzifəsinə seçilmişdir. 2004-cü ilin dekabr ayından etibarən universitetdə struktur dəyişikliyi ilə əlaqədar olaraq, «Kommersiya» kafedrası və «Marketinq və ticarət» kafedrası ilə birləşdirilmiş və buna görə də, Məhərrəm müəllim həmin kafedrada pedaqoji fəaliyyətə başlamışdır.

Bazar iqtisadiyyatı şəraitində yaşamaq və işləmək, bu mərhələnin tələblərinə uyğun gələn iqtisadi təfəkkürün formalaşmasını tələb edirdi. Bu təfəkkürün formalaşması isə iqtisadiyyatın inkişafı ilə başlayırdı. Bu baxımdan da texniki fənlər üzrə iqtisadiyyat sferasında kommersiya işini tələbələrə aşılayan Məhərrəm müəllimin rəhbərlik etdiyi keçmiş kafedrası elmi kadrların hazırlanmasında yüksək nailiyyətlər əldə etmişdir.

Məhərrəm müəllimin tələbələri öz ixtisasını böyük məhəbbətlə sevirlər. O, əmin olur ki, onlar gələcəkdə yüksək elmi potensiala malik mütəxəssis kimi hazırlanacaqlar. Bütün bunlarla bərabər kafedrada peşəkar müəllimlər hazırlanması işi də sürətləndirilmişdir.

Elmə böyük marağı Məhərrəm müəllimi təyyarəçilik-mexaniklik kursundan kafedra müdirliyinə gətirib çıxarmışdır. O, enerjili və gənc iqtisadçı alim kimi elmi fəaliyyətə başlamış və tədqiqat işini davam etdirmişdir.

Müntəzəm surətdə öz üzərində çalışan, bilik və pedaqoji ustalığını daim artıran Məhərrəm müəllim getdikcə daha dərin elmi araşdırmalara can atırdı. Belə ki, o, 50-yə qədər elmi məqalənin və bir dərsliyin müəllifidir. «Kommersiya fəaliyyətinin təşkili» dərsliyi 2004-cü ildə «Səda» nəşriyyatı tərəfindən çapdan çıxmışdır və «Əmtəə bazarında və xidmət sahəsində kommersiya fəaliyyəti» ixtisas qrupları üçün isə dərslik yazıb hazırlamışdır.



Məhərrəm müəllimdə elmə böyük həvəs var, yazıb-yaratmaq eşqilə yaşayır. O, öz üzərində daim çalışır və hər dəfə atdığı addımda bir yenilik yaratmağa cəhd göstərirdi.

Dos. M.Ağamalıyev tədrisin keyfiyyətini yüksəltmək üçün var qüvvəsini əsirgəmir. Bununla əlaqədar olaraq o, bir sıra proqram və metodik göstərişlər yazıb çap etdirmişdir.

Tədris işində yüksək nəticələr əldə etdiyinə görə Azərbaycan Dövlət İqtisad Universitetinin sabiq rektoru, akademik Əli Abbasov dos. M.Ağamalıyevi universitet üzrə «Məqbul imtahan sessiyasının nəzarət-qərargahı»nın sədri təyin etmişdir. O, qış və yay imtahan sessiyalarında buraxılan bəzi nöqsanları aradan qaldırmışdır.

Hamı bir ömür yaşayır. Biri az, biri çox. Biri qısa ömürdə çox iş görür, digəri nə qədər yaşasa da, yatır, mürgüləyir, gün keçirir. Lakin belələrinin aqibəti heç də uğurlu olmur. Məhərrəm müəllim birincilərin işini yerinə yetirir. Mənim ilk tələbələrimdən olan M.Ağamalıyev cəmiyyətin inkişaf prosesində hey qurub-yaratmaqdan həzz alır, mənalı ömür sürməyə can atır.

Bu yolda ona uğurlar diləyirik!

**01.12.2004-cü il**

## Müəllimlik şərəfli peşədir

Peşəsindən asılı olmayaraq xalq arasında layiqli hörmət qazanan şəxsə müraciət edəndə dilinə gətirilən ilk sözü müəllim olur. Heç bir sənət və peşə adamı cəmiyyətin inkişafında müəllim qədər rol oynamır. Buna görə də bəşəriyyət müasir intellektual inkişaf səviyyəsinə görə öncə müəllimlərə borcludur. Həyat yollarında müəllimlik peşəsi ilə yol yoldaşı olan insanlardan biri də Teymur Hacıxan oğlu Qədirağayevdir.

Teymur Qədirağayev orta təhsilini Qusar rayonunun Düztahir kənd orta məktəbində alıb. 1956-1958-ci illərdə ordu sıralarında hərbi xidmətdə olub. Ehtiyatda olan zabitdir. O, 1959-cu ildə Bakı Kooperativ Texnikumuna daxil olmuş və 1961-ci ildə texnikumu fərqlənmə diplomu ilə bitirmişdir. Həmin müddətdə Teymur müəllim texnikumun komsomol təşkilatı katibi işləmişdir.

T.Qədirağayev 1961-ci ildə Mərkəzi İstehlak Cəmiyyətləri İttifaqının (Sentrosoyuz) Moskva Kooperativ İnstitutuna daxil olub, 1965-ci ildə İnstitutun pedaqoji fakültəsini müvəffəqiyyətlə bitirmişdir.

1965-ci ildə Moskva Şəhəri Mərkəzi İstehlak Cəmiyyətləri İttifaqının təyinatı ilə Bakı Kooperativ Texnikumuna müəllim göndərilir. 1972-1977-ci illərdə Bakı Kooperativ Texnikumunun tədris işləri üzrə direktor müavini vəzifəsində işləyir. Texnikumun ictimai işlərində fəal iştirakına görə Azərbaycan LKGİ MK-nın və Azərittifaqın fəxri fərmanları ilə təltif olunmuş, və «Əlaçı kooperator» nişanına layiq görülmüşdür.

1965-ci ildən 1996-cı ilin sentyabr ayına kimi Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Dərbənd filialında baş müəllim vəzifəsində işləmişdir.

1996-cı ildən Azərbaycan Beynəlxalq Universitetində və hal-hazırda isə Bakı Biznes-Kooperasiya Kollecində ştat vahidilə və Azərbaycan Dövlət İqtisad Universitetində saat hesabı ilə baş müəllim vəzifəsində fəaliyyət göstərir.

Teymur müəllim indiyə kimi bir sıra elmi-metodiki məqalələrin müəllifidir. Yaxın dostları və həmkarları onun zəngin



biliyə, incə qəlbə, fəlsəfi müdrikliyə, geniş məlumata, müstəqil fikir və cəsarətli mühakimələr yürütməyə həvəs göstərən bir ziyalı kimi tanıyırlar. Dərs dediyi təhsil ocaqlarının məzunlarının xoş sorağı respublikamızın və dünyanın müxtəlif bölgələrindən gəlir. Elmin və təsərrüfatın bir sıra sahələrində çalışan bu insanlar öz doğma məktəblərini və dərs deyən müəllimlərini heç vaxt unutmurlar. Bakıya qayıdanda Teymur müəllimdən xeyr-dua alırlar.

Müəllimə hörmət və nüfuz gətirən amillərdən biri də onun ictimai-siyasi fəaliyyətidir. Belə fəaliyyətində Teymur müəllim də xeyirxah əməlləri ilə özünü büruzə verir. Müəllim adını, onun şərəfini uca tutan Teymur müəllim çalışır ki, müəllim sözü cəmiyyətdə yüksək bir zirvədə dursun, müəllim şəxsiyyəti, müəllim nüfuzu qorunsun. Bu şərəfli peşə sahibinə malik olan Teymur müəllim həmişə sanki öz peşəsi ilə fəxr edir.

## Qarabağın «Qızıl qələm»li jurnalisti

Mən yaradıcı insanlarla çox rastlaşmışam, bir sıra istedadlı adamlarla oturub-durmuşam, lakin «Şuşa» nəşriyyatının direktoru və «Günəş» jurnalının baş redaktoru Vasif Quliyev kimi jurnalist – qələm əhli görməmişəm. Vasif hələ qələmini Şuşada sınamış və Bakıda isə nəşriyyat işində daha da püxtələşmişdir.

Yaradıcılığının çiçəklənən dövründə Vasif Quliyevin həyatında kriminal hadisələr çox olub, bir neçə dəfə erməni gülləsi altında doğma Şuşasına gedərkən ölüm təhlükəsi ilə üzləşib, lakin heç vaxt qələmini yerə qoymayıbdır.

Şuşanın tarixi keçmişi, ululardan yadigar qalmış abidələrin taleyi – el camaatının güzəranındakı milli-etnoqrafik cizgilər, eləcə də bu yerlərin söz və musiqi dünyası Vasifi hələ tələbəlik illərindən maraqlandırırdı. O, bu işə ürəkdən girişərək hələ ilk yazılarını Qarabağın tarixi abidələrinə, şəxsiyyətlərinə həsr etmişdir. Elə buna görə də məzmunlu və mənalı yazılarına görə Vasif «Qızıl qələm» mükafatına layiq görülmüşdür.

Vasif Quliyevin Şuşanın tarixi-mədəni mühitindən bəhs edən oxunaqlı yazıları mətbuatda vaxtaşırı çap olunurdu. O, bununla əlaqədar olaraq «Qarabağın tarixi»ni yazan müəlliflərin əsərlərinə, Mir Möhsün ağa Nəvvabın və Məhəmməd ağa Müctəhidzadənin 100-ə qədər Qarabağ şairlərinin həyat və yaradıcılığına həsr olunmuş «Təskireyi-Nəvvab» və «Riyazül-Aşiqin» kitablarını həvəslə oxuyub nəzərdən keçirmişdir. Bəzən ərəb əlifbasından və ya əruz vəznindən çətinliyi olduğundan ərəbşünas alimlərə müraciət edərdi.

Vasif Quliyev Şuşanın vurğunu idi. Şuşanın əsrarəngiz təbiəti, allı-güllü mənzərəsi, heyrətamiz yamacları, Cıdır düzü, İsa bulağı, Dovtələb, Səkili bulaq və digər yerlər sanki ona ruh verirdi. Belə bir səpgidə onun yazdığı «Enək İsa bulağına» kitabı diqqətimizi cəlb edir. Bu kitabda onun müxtəlif mövzularda oçeklər və publisist yazıları toplanılmışdır.

Vasif Quliyev qəlbinin bütün telləri ilə vətəninə, xalqına, göz açıb boya-başa çatdığı doğma Şuşa şəhərinə bağlı bir insandır.



Buna görə də o, «Şuşa» nəşriyyatında mədəniyyətimizin tərəqqisi naminə tarixi keçmişimizin dəyərli insanlarının üzə çıxarılması məqsədilə mühüm işlər görmüşdür. Təkcə onu qeyd etmək olar ki, Vasifin «Şuşa nəğmələri» kitabı milli mədəniyyətimizin inkişafında dəyərli bir abidədir. Vasif Quliyevin belə qiymətli əsərlərindən biri də «Ötən günlərimi qaytaraydılar...» kitabıdır. Bu kitab yazıçı-jurnalistin 8-ci əsəridir. Müəllif öz şəxsi yaradıcılıq ənənəsinə yenə sadiq qalaraq yazılarında şanlı tarixi keçmişimizi, Qarabağın yetirdiyi görkəmli şəxsiyyətlərin həyat və fəaliyyəti haqqında söz açır, onların mənəvi aləmini oxuculara publisistik bir dillə çatdırır.

Vasif Quliyevin oçerk və məqalələrini oxuyarkən onun Qarabağın elm və sənət adamlarından, mahir pedaqoqlarından, indiyə qədər məlum olmayan bəzi məlumatların toplanmasının şahidi oluruq, Qarabağın tarixinin açılmamış səhifləri ilə tanış oluruq. Demək olar ki, onun yazılarında tarixi keçmişimizdən, tarixi şəxsiyyətlərdən və müasir sənət adamlarından ətraflı bəhs olunur.

Vasif kitablarında həyat və fəaliyyətindən bəhs etdiyi şəxsiyyətlərin ailə üzvlərini, nəvə və nəticələrini axtarıb araşdırır və nəhayət, çox çətinliklə də olsa onlarla rastlaşır.

**Haşiyə:** O, mənimlə görüşdə heç də çətinlik çəkməmişdir. Çünki, biz ikimiz də Şuşada - «bazarbaşı»nda rastlaşmışdıq. İlk tanışlığımız da atam Mirzə Xosrov Axundzadə-Şaiq təxəllüsün şəxsi arxiv materiallarının onu maraqlandırmasıdır. Demək olar ki, Vasifi mən 1979-cu ildən tanıyıram. O, Xurşud Banu Natəvanın bağında çay içdikcə aram-aram suallar verirdi. Onun baxışlarından hiss edirdim ki, Vasifin gələcəyi vardır. O, danışdıqca yanındakılar da ona çox həvəslə qulaq asırdılar. Hərdən bir Şuşada yaşayıb-yaratmış Azərbaycan şairlərinin, yazıçılarının və pedaqoqlarının adını çəkərdi. Bu da onu sübut edirdi ki, o, hansı sahədəsə tədqiqat aparmağa meyl göstərir. Şahidi olduğum adamlardan bəziləri də Vasifin belə bir işə girişməsinə şəkk-şübhə ilə yanaşırdılar...

Budur... indi Vasif Quliyevin yaradıcılığına diqqət yetirək... Artıq o, 8 kitabın müəllifidir. Eyni zamanda hərəsi 800

səhifədən ibarətdir. II cildlik «Şuşa nəğmələri» kitabının müəllifi və redaktorudur.

Bir sözlə Vasifin jurnalistlik fəaliyyətinin əhatə dairəsi çox genişdir. Lakin onu bir jurnalist kimi daha çox fərdiləşdirən axtarış və tədqiqat sahəsinin məzmunlu olmasıdır. O, heç vaxt yorulmaq bilmədən uzaq səfərlərə çıxmaqdan çəkinmir, toz basmış arxiv sənədlərini araşdırmaqdan mənəvi zövq alır. Buna görə də xəyalında olan məsələləri reallaşdırıb xalqa çatdırır.

Bu yolda sənə müvəffəqiyyətlər diləyirik!



## Tədqiqatçı-alim və jurnalist

Abid Tahirlini mən 1988-ci ildən «Odlar yurdu» qəzetinin redaktor müavini vəzifəsində işlədiyi müddətdən tanıyıram. O, öz jurnalist qələmi ilə sınanmış əməkdaşlardan biridir. «Odlar yurdu» yalnız «Vətən» Cəmiyyətinin yox, geniş mənada bütün cəmiyyətin orqanı sayılırdı. Sanki, cəmiyyət bu qəzetdən nəfəs alırdı. Qəzet də öz növbəsində cəmiyyətin nəbzini tutmuşdu, onu maraqlandıran, düşündürən mövzulardan bəhs edirdi.

«Odlar yurdu» elə ilk nömrələrindən nəinki qürbətdə yaşayan, eləcə də respublikamızın oxucuları arasında bu sahədə faydalı və təsirli işə başladı. Qəzetin səhifələrində xalqımızın ən böyük milli, mənəvi sərvətlərindən bəhs olunurdu. Oxucunu öz tarixi mədəniyyəti və ədəbiyyatı ilə yaxından maraqlanmağa, onunla fəxr etməyə, onu qorumağa və zənginləşdirməyə səsləyirdi.

Qəzet ölkədə gedən ictimai-siyasi prosesləri izləyir, onunla nəfəs alır, xalqı düşündürən, onu narahat edən problemlərdən söhbət açırdı. «Odlar yurdu» qəzetinin səhifələrində cənub mövzusu heç bir yerdə görünmədiyi kəskinliyilə qoyulmağa başladı.

«Odlar yurdu» hələ 1988-ci ilin əvvəllərində xalqın keçmişindən, tarixindən, onun maddi-mənəvi xəzinəsindən ən dəyərli nümunələri milli şüura və düşüncə tərzinə təsir etmək, onu dirçəltmək, inkişaf etdirmək vasitəsi kimi cəsarətlə oxucuların diqqətini cəlb edəcək geniş oxucu kütləsi arasında azadlıq, müstəqillik toxumu səpirdi. Eyni zamanda bir sıra rubrikalarda çıxışlar edirdi. Məsələn, «Redaksiyanın qonağı» və «Açılmamış səhifələr» rubrikası ilə verilən yazılarda Azərbaycanın əbədi və əzəli bir hissəsi olan Qarabağa aid tarixi materiallar dərc olunur, Qarabağın tarixi, maddi, mədəniyyət sərvətləri barədə geniş oxucu kütləsində dolğun təsəvvür yaradırdı.

Qeyd edə bilərəm ki, mən də bu qəzeti dönə-dönə oxumaqdan doymurdum.

**Haşiyə:** «Xoşbəxtlikdən Abid Tahirli ilə 1990-cı ildən etibarən qonşuluq etməyə başladım. Bəxtimizin uğurlu olması

nəticəsində hər ikimiz Yeni Yasamalda bir binanın 4 və 5-ci blokunda qonşu olduq. O vaxtdan peşəkar jurnalist kimi Abidə böyük hörmətim vardır.

1990-cı ildə «Odlar yurdu» qəzetinin «Açılmamış səhifələr» rubrikasında babamın həyat və yaradıcılığına həsr etdiyim «Mirzə Əli Aşiq Axundzadə» adlı məqaləm dərc olundu. Mirzə Əli Aşiqin həyat və yaradıcılığından ilk məlumatlar olduğuna görə məqalə geniş oxucu kütləsinə müsbət təsir bağışlamışdı. Qəzetin redaktor müavini Abid Tahirli məqalənin ilk tədqiqat xarakterli olduğuna görə məni təbrik etdi.

Abid Tahirli 500-dən çox məqalənin, «Sözlə yarananlar, sözü yaşadanlar», «Azərbaycan mühacirəti», «Azərbaycan mühacirat mətbuatı» (I və II hissə) «Deyilən söz yadigardır» və «Kitabi Dədə Qorqud illüstrasiyalarda» kitablarının müəllifidir. Təsadüfi deyildir ki, o, ömrü boyu yaradıcılığı uzun illər xalqdan gizlədilmiş və mühacirətdə olan Ceyhun Hacıbəylinin həyat və yaradıcılığını araşdırmış, onun ədəbiyyat, mədəniyyət və ictimai fikir tariximizdə yeri və rolunun elmi dəqiqliklə müəyyənləşdirilməsinə cəhd göstərmişdir. Buna görə də Abid Tahirlinin tədqiqat işini xalqımızın mütəfəkkir ziyalısı Ceyhun Hacıbəylinin həyat və fəaliyyətinin kompleks araşdırılmasının birinci cəhdi kimi qiymətləndirmək olar. Abid Tahirlinin mühacirət mövzusundakı məqalə və oçerkləri də ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanmışdır. Fakt və hadisələri məharətlə işıqlandırmaq, özünəməxsus publisistik ritimlərlə vermək qabiliyyəti Abidin mühacirətlə bağlı yazılarının təsirli alınmasında və oxucu qəlbinə yol tapmasında mühüm bir amildir.

Abid Tahirli məhsuldar bir tədqiqatçı-jurnalistdir. Həyatının 50-ci baharında o, Azərbaycan mühacirətinin öyrənilməsinə həsr olunmuş elmi məqalə və oçerklərini tarixin xronikasına uyğunlaşdırmış, onu daha da reallığa çevirmişdir. Buna görə də həmin məqalə və oçerklər mühacir şəxsiyyətlərin həyat və fəaliyyəti barədə çox dəyərli bir tədqiqat əsəridir.

Bu yolda sənə uğurlar diləyirəm, qardaşım!



## Mənalı həyat yolu...

*(Qayğıkeş və xeyriyyəçi insan haqqında qeydlərim)*

İnsan ömrü var ki, barlı ağacdır. Bu ağacın barından hamıya pay düşər. Ömür var ki, şam kimi gecə-gündüz yanar, işıq saçar. Ömür var ki, dağ şəlaləsi kimi çağlayar, daşar. Ömür də var ki, elə bil nəğmədir, asanlıqla qəlblərə, könüllərə yol tapar.

İnsan övladı dünyaya gələndə təkcə yemək-içmək, hava almaq, necə deyərlər, elə-belə adi qaydada yaşamaq üçün gəlmir. İnsanı başqa canlılardan fərqləndirən əsas cəhəti də öz ömrünü şüurlu şəkildə yaşamasıdır. İnsan ürəyi həmişə qurmaq, yaratmaq, özündən sonra nişanə qoymaq üçün döyünür. Qurub yaratmaq eşqi insanların ömür yoluna həmişə günəş kimi şəfəq salır, ona səadət, fərəh gətirir.

Haqqında söhbət açacağımız, ömür kitabını səhifələyəcəyimiz Əli Abuzər oğlu Əliyevin də həyat yolu acılı-şirinli xatirələrlə doludur. Ancaq bir şeyi də etiraf etməliyik, insan ömrü elə bir sirli dünyadır ki, bir kitaba sığan deyil. Əli müəllimin də həyat yolu mənalı və yaddaqalandır. Həmişə etibarlı bir dost kimi zəhmətlə qoşa addımlayıb. Beləcə arzuları çin olub, yaz çiçəkləri kimi açılıb, yollarına səpələnib, muradına çatıb. Həyatın, taleyin sınağından uğurla çıxıb.

Əli Əliyev 1951-ci ildə oktyabrın 14-də Ordubad rayonunun Gənzə kəndində, qızıl bir payız günündə dünyaya göz açıb, 8-ci sinfi doğma Gənzədə bitirib, 9-10-cu sinifləri isə Ordubaddakı 1 saylı orta məktəbdə oxuyub.

Gənzə kəndi ilə Ordubad arasındakı yol 6 kilometr idi. Əli də başqa yoldaşları kimi bu uzun yolu gedib-gəlməli olub. Yağışlı-palçıqlı günlərdə, qışın şaxtasında, boranında, soyuğunda bu boyda yolu gedib-gəlmək asan deyildi. Çox vaxt bu yolu kolxozun yük maşınlarında gedib-gələrdilər. Sürücülər Həsən və İbadulla məktəbə gedən uşaqları və rayon mərkəzində işləyən camaatı «Qaz-51» markalı maşınlarda aparardılar. Böyüklərdən 20, uşaqlardan isə 5 qəpik pul alırdılar. Qış vaxtı güclü qar yağanda maşın olmurdu, 6 kilometr yolu piyada gedib-gəlməli olurduq.

Qabaqlar çox güclü qar yağardı. Uşaqlar əl-ələ tutub köməkləşə-köməkləşə gedərdilər. Qar lap çox olanda kənd sakinləri Kərəməli, Həsən, Əvəz Fəttahov, dəllək Hüseyn, Abuzər qabaqda gedər, qarda iz açar, onların dalınca isə şagirdlər bir-birinə qar topu vura-vura gedib Ordubada çatardılar...

Əli məktəbdə oxuyanda ədəbiyyat fənninə daha çox maraq göstərərdi. Orta məktəbdəki təhsil illərindən söhbət düşəndə o, deyir:

-«Biz orta məktəbdə oxuyanda müəllimə Allah kimi baxırdıq. Bu ondan irəli gəlirdi ki, onlar kənddə ali təhsilli, savadlı olan yeganə adamlar idilər. Bu günün müəllimləri qoy inciməsinlər. O vaxtın müəllimləri çox savadlı və məsuliyyətli idilər. Tələbkarlıq çox yüksək idi. Müəllimlər bizim üçün həyat norması, etalon, nümünə idilər. İnşa yazanda da şagirdlərin 90-95 faizi müəllim olmaq arzusunu bildirərdilər. Müəllimlər çox həvəslə dərs keçər və şagirdlərini öyrətməyə çalışardılar. Onu da demək olar ki, onlar buna nail olurdular da.

Orta məktəb illərim xatirələrlə doludur. Ədəbiyyat müəllimim Yadulla Qəniyev olub. O, ədəbiyyata məndə xüsusi maraq oyatmış və mənə sevdirə bilmişdir. Çox savadlı, ədəbiyyatı sevən bir adam idi. Coğrafiyanı Həsən Əliyev, kimya-biologiyanı Nadir İmanov və Əkbər Quluzadə, riyaziyyatı isə Xumar Abbasova tədris edirdi. Xumar müəllimə mənim ən istəkli, ən sevimli müəllimim olub.

Ümumiyyətlə, bütün müəllimlərimi dərin hörmət hissi ilə xatırlayıram. Müəllim peşəsi çox şərəfli və müqəddəsdir. Əsl pedaqoq olmaq hər adama nəsib olmur. Müəllim ömrünü şama bənzədirəm. Bu şam yandıqca onun işığından, ziyasından şagirdlərinə pay düşür. Bu şam əriyir, amma öz ziyasını, nurunu başqasında yaşadır».

Gənzə kənd səkkizillik məktəbində oxuyarkən Əligilin sinfində 12 uşaq vardı. Səkkizinci sinfi bitirdikdən sonra Ordubad 1 saylı orta məktəbində yalnız 3 qız, 4 oğlan təhsilini davam etdirə bildi. Qalanları isə təhsilini yarımçıq kəsməli oldu. Həmin 7 nəfərdən Valeh Məmmədov hazırda fizika-riyaziyyat elmləri



namizədi və Elşad Məmmədov isə Ordubad rayon istehlak cəmiyyətinin sədridir.

Həyat Əlini elə uşaq yaşlarındaca imtahana çəkib. Onun uşaqlıq illəri çox ağır keçib. O, da kasıb uşaqlardan biri idi. Atasının ona verdiyi 20 qəpik pula məktəbdə qatıq və çörək alıb yeyərdi, amma çətinliyə dözüb oxuyardu. Çətinlik, ehtiyac yolunu kəsdi, amma taleyin sərt üzü onun ümidini qıra bilmədi. Başıaçıq, ayaqyalın olsa da, yamaqlı şalvar geysə də ümidsizlik onu sarsıtmadı. Zəmanənin ağır zamanı idi, dövran özgə dövran idi. Atası Abuzər Ordubad «Barama-toxum zavodu»nda aqrotexnik işləyib. Ailədə beş uşaq var idi. Bütün ağırlıq da əsasən atanın üzərinə düşürdü. Anası Səkinə isə ev işləri ilə məşğul olur və ailənin digər qayğılarını çəkirdi. Qıtlıq idi. Əlinin və bacı-qardaşlarının uşaqlıq illəri müharibədən sonrakı bərpa illərinə düşüb. Çətinliklər çox idi.

O vaxtlar Əli dördüncü sinifdə oxuyurdu. Anası xəstəxanada müalicə olunurdu. Ev işlərinin böyük ağırlığı Əlinin üstünə düşmüşdü. Anası həmişə pəhriz yeməkləri ilə yaşayırdı. Ev işlərində həmişə Əli anasına kömək edərdi.

Orta məktəb illəri arxada qaldı... Əli sənədlərini hazırlayıb Bakıya getdi. O, böyük arzularla, amallarla yaşayırdı. 1969-cu ildə sənədlərini Azərbaycan Xalq Təsərrüfatı İnstitutuna verdi. İmtahanlarının dördündən də müvəffəq qiymət almasına baxmayaraq, müsabiqədən keçə bilmədi. O zaman ali məktəblərə daxil olmaq üçün çox yüksək bal toplamaq lazım idi. Bir yerə 20-25 nəfər sənəd verirdi.

Bu Əlinin Bakıya ilk gəlişi idi. O, yenə Ordubada – öz kəndinə - Gənzəyə qayıtdı. Ancaq bilirdi ki, yenə Bakıya dönəcək və mütləq ali məktəbə daxil olacaqdır.

Əli ruhdan düşmədi, Ordubadda atasının işlədiyi baramatoxumçuluq zavodunda işə düzəldi. Bir müddət işlədikdən sonra hərbi xidmətə çağırdılar. Əvvəlcə Kazan, sonra Moskvaətrafı Elektrostal şəhərində, bir müddətdən sonra isə Qorki və Dzerjinski şəhərlərində hərbi xidmətdə oldu. Hərbi bilikləri öyrənməyə səy göstərməsi, yüksək nizam-intizamı və səliqə-səhmanı hissənin siyasi şöbəsinin rəisi, podpolkovnik V.Kukuşinin diqqətindən

yayınmır. O, Əlini yanına çağırıb söhbət edir. Əlinin hazırcavablığı onun xoşuna gəlir.

Beləliklə, o, Kommunist Partiyası üzvlüyünə namizəd qəbul edilir. Bundan sonra Əli hərbi hissənin bütün partiya yığıncaqlarında iştirak edir. Əlinin partiya sıralarına daxil olmasının əsas səbəbi bir hadisə ilə əlaqədardır. O, bu hadisəni həmişə belə xatırlayır:

**Haşiyə:** Şaxtalı qış günlərindən biri idi. Əli növbədə dayanmışdı. Podpolkovnik Kukuşin tək postu yoxlamağa gəlir. Əli irəli çıxıb, parolu soruşur. Zabit parolu demədən irəliləyir. Əli bir daha komanda verir:

- Dayan, atəş, açacağam!

Kukuşin isə yenə də irəli gəlirdi. Doğrudur, Əli onu tanıyırdı, bilirdi ki, o, siyasi şöbənin rəisi, podpolkovnik Kukuşindir. Ancaq fərqi yoxdur. Nizamnaməyə görə o parolu bilmirsə, posta yaxınlaşa bilməzdi. Əli çox fikirləşmədi, komandanlığın tapşırığını bir daha təkrar edib, avtomat silahından göyə atəş açdı. Zabit qorxudan qarın üstünə sərildi. Əli telefonla zəng edib həyəcan siqnalı çaldırdı. Hərbi hissədən növbətçilər gəldi. Onlar podpolkovniki yerdə uzanan görəndə özlərini itirdilər. Əli yalnız onları parolu dedikdən sonra yaxına buraxır. Sabahı gün Əliyə təşəkkür elan edilir. Beləcə sıravi əsgərin bu cəsarətli hərəkəti zabitin xoşuna gəlir. Əlini yanına çağırıb partiya sıralarına qəbul etmək üçün ona təklif edir.

Qeyd etmək lazımdır ki, o vaxt hərbi xidmətdə partiyaya keçmək hər adama qismət olmurdu. Hər yoldan ötəni partiyaya qəbul etmirdilər. Bunu hansısa xidmətə görə edərdilər.

1972-ci ilin noyabrında Əli hərbi xidmətini başa vurdu. Əsgərlik həyatı onun dünyagörüşünün formalaşmasında böyük rol oynadı. Hərbi xidmətdən qayıtdıqdan sonra Ordubaddakı konserv zavodunda işə girib, oçaqçı işləyir. Sonra nəzarətçi briqadir vəzifəsinə təyin edilir. O vaxtlar zavodun direktoru Hüseyn Babayev idi. Partiyanın üzvü və yaxşı işçi olması nəzərə alınaraq 1974-çü ildə zavodun partiya təşkilatı Əlini Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun hazırlıq şöbəsinə göndərir. O, müsabiqə yolu ilə İnstituta qəbul edilir. Bir il burada təhsil alır. Qeyd etmək



lazımdır ki, onda hazırlıq kursuna daxil olmaq da asan iş deyildi. Çünki bir ildən sonra bu kurslarda oxuyanların 90-95 faizi İnstituta çox rahat qəbul olunurdular. Yəni əsas çətinlik hazırlıq şöbəsinə daxil olmaq idi.

Əli hazırlıq kursuna daxil olmasını belə xatırlayır:

-Hazırlıq şöbəsinə göndəriş alandan sonra dayım Məzəddindən 42 rubl borc pul aldım. Bakıya gəldim. Bibim oğlu Müzəffərə də ömrüm boyu minnətdaram, çünki mənə ağıllı məsləhətlər verib, yol göstərib.

Hazırlıq şöbəsinə daxil olub, bu haqda arayış aldım və kəndə qayıtdım. Atam həyətdə idi. Məni görən kimi soruşdu:

-Nə oldu, a bala?

Atam elə bil məndən pis xəbər eşidəcəyindən qorxurmuş kimi səsi titrədi. Atama dadaş deyirdim.

-Qəbul oldum, dadaş,-dedim.

Atam kövrəldi, gözlərində sevinc yaşları parladı.

-Gözün aydın, ay oğul! Allah əziyyətini itirməsin, çox zəhmət çəkmisən.

O gün evimizdə toy-bayram oldu. Dost-tanış, qohum-qonşu gəlib məni təbrik elədilər. Atama, anama gözaydınlığı verdilər. Çox sevinirdim, həm də qürrələnirdim. Ona görə ki, mən Bakıya gedəndə ağız büzənlər də tapılmışdı.

-Ayə, get işini işlə, İnstituta girmək hər oğulun işi deyil, -deyib rişxənd eləyənlər də olmuşdu.

Bir il hazırlıq kursunda oxuduqdan sonra Əli İnstitutun I-ci kursuna daxil olur. Tələbə vaxtı yataqxanada qalırdı. Özünü fəal ictimaiyyətçi kimi tanıtmışdı. Yataqxana üzrə tələbə sovetinin sədri idi. Gündüzlər əyani şö'bədə təhsil alır, gecələr Dərnəgüldə yeməkxanada gözətçi işləyirdi. Sonra ikinci bir yerdə də - yataqxanada, üç gündən bir gözətçi işləməyə başlamışdı. Əli dərslərini gecələr elə burada hazırlayırdı. İki işdən bir yerdə 120 rubl maaş alırdı.

Yataqxanada ordubadlı Zöhrab Əyyub oğlu ilə bir otaqda yaşayıblar. Zöhrab çox ləzzətli yeməklər bişirirdi. Hətta bir dəfə yeməyin iyi tələbələri məst eləmiş və mətbəxdən tavanı oğurlamışdılar.

Təhsil müddətində Əli və onun qrup yoldaşları Dövlət Plan Komitəsində istehsalat təcrübəsi keçmişdilər. Şəmkirli Nazim, bakılı İftixar Axundov, şəkili Hikmət Məmmədov, zaqatalalı Yeganə və başqa rayonlardan olan tələbələrlə birlikdə təhsil almışdır. İnstitutda oxuyanda da Əlinin ən sevimli çoğrafiya müəllimi Əlihüseyn Əsədzadə idi.

1979-cu ildə Əli Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib təyinatla Əhmədlidəki Bakı ixtisaslaşdırılmış avtomobillər zavoduna göndərilir. Burada əməyin elmi təşkili üzrə mühəndis vəzifəsinə təyin edilir. O vaxt zavodda 2 mindən yuxarı adam işləyirdi. Direktor Qulam Nəsirzadə idi. Bir müddətdən sonra Əli zavodda istehsalın təşkili və idarə edimləsi şöbəsinin müdiri olub.

Həyatın qəribə dönümləri vardır... Bu, bəzən düşərli olur, bəzən də uğursuz. Həyatın inkişafı sürətlə axan dağ çayı kimidir. İnsan həyatda əgər bu sürətlə ayaqlaşa bilmirsə, tək qalır, özünə mövqe tuta bilmir. Əli daha ali arzularla yaşayır, böyük işlərin qulpundan yapışmaq istəyirdi. Öz güçünə, qüvvəsinə bələd idi. Daxili enerjisi aşıb-daşır, arzuları ayları-illəri qabaqlayırdı. Mə'nasız keçən bir gününü ömründən saymırdı. Heç nəyə laqeyd qala bilmirdi. Bu barədə onun öz fikri belə idi: «Laqeydlik elə bir bəladır ki, insanı həvəsdən salır, ruhunu şikəst edir»- deyirdi.

Əli Əliyev səbrli, təmkinli adamdır. Tez əsəbiləşib özündən çıxan deyil. Adamlarla səmimi münasibət yaratmağı bacarır. Bu mənəvi keyfiyyətləri ona adamlarla işləmək imkanı verdi. İnsanlarla öz arasında inam körpüsü yaratdı. Əvəzində çöhrələrdə özünə qarşı məhəbbət gördü.

Sosial Təminat Nazirliyi sisteminə gəlişini Əli Əliyev belə xatırlayır:

-Günlərin birində Bakıda dostum Əli ilə rastlaşdım. Görüşüb hal-əhval tutduq. Onda dostum Kənd Təsərrüfatı Nazirliyində işləyirdi. Yanında da bir yoldaşı vardı. Söhbət əsnasında o, məndən soruşdu:

-De görək nə işlə məşğulsan?

İş yerimi bildirdim. Əhvalımdan başa düşdülər ki, işimdən razı deyiləm.

Həmin şəxs məndən soruşdu?



-Bizim sahədə işləmək istəyərdinizmi?

-Hansı sahədə? – deyə soruşdum.

-Sosial Təminat Nazirliyində, - deyə cavab verdi.

-Fikirləşərəm, dedim.

Əli Əliyev bir neçə gün fikirləşdikdən sonra qərara gələrək həmin adamla görüşüb razılığını bildirir. Bu şəxs o zaman Sosial Təminat Nazirliyində Təftiş İdarəsinin rəisi Kamal Məmmədov idi. Bu anda, Kamal Məmmədov nazir müavini Roksana Əmiraslanovaya Əli barədə məlumat verir və o da Əlini qəbul edir.

Roksana xanım işini bilən və sevən bir qadındır. Əli müəllim deyir ki, mənə göstərdiyi qayğı və münasibətə görə ömrüm boyu ona minnətdaram. O vaxtdan Əli Əliyev həmin nazirliyin təftiş şö'bəsində çalışmağa başlayır.

1993-cü ilin may ayında Ə.Əliyev Yasamal rayonu Əhalinin Sosial Müdafiə Mərkəzində «Pensiya və müavinətlər şö'bəsi»nin müdiri təyin edilir. Təzə işində Əliyə insanlarla daha yaxın təmasda olmaq imkanı yaranır. Əvvəlcə fikirləşirdi ki, birdən baçarmaram. Fikirlər arı kimi üstünə hücum çəkirdi. Dincliyini, istirahətini də unutmuşdu. Əli işin ağırlığını yaxşı başa düşürdü. Bilirdi ki, əhalinin pensiya ilə təmin olunması, ahıl və kimsəsizlərə xidmət, əlil və ailə başçısını itirənlərə pensiya tə'yin edilməsi, Qarabağ əlillərinə və şəhid ailələrinə xidmət göstərilməsi kimi çətin bir işin altına girmişdir.

Bu fikirlər içində qovrularkən qulağına bir səs gəldi. Ətrafa boylandı, heç kəs yox idi. Ürəyi idi, vicdanının səsi idi, ona təsəlli, ürək-dirək verirdi: «Səbrli, təmkinli ol! Axı, səbrli olmaq insanın ikinci sifətidir, deyiblər. Eşit və agah ol! Həyatda insanın bacarmadığı, öhdəsindən gələ bilmədiyi iş yoxdur. Özünü ələ al, qollarını çırmala, işə giriş. Eşitməlisən, qələbə həmişə, zəhmət çəkənin, əmək sərf eləyənlərin olur!»

Əli o gündən ürəyinin səsinə qulaq asdı, işə başladı. İndi Əli tanıdığı və tanımadığı adamlarla görüşməli idi. Onların dərd-sərini öyrənməli, problemlərini həll etməli idi. Heç kimin ürəyini sındırmaq olmaz. Bir də ki, ürək sındırmağa nə var ki, məsələ onu sevindirməkdir.

1993-cü ildə Yasamal rayonunda vəziyyət çox acınacaqlı idi. Əli Əliyev İcra Hakimiyyəti qarşısında məsələ qaldırır. Onun təşəbbüsü ilə kimsəsiz insanların pulsuz çörəklə təmin olunması üçün «xeyriyyə fondu» yaradıldı. O vaxtdan 321 nəfər kimsəsiz şəxs pulsuz çörəklə təmin olunur. Elə buna görə də Ə. Əliyev bu və digər xeyriyyə işlərinə görə Hacı Zeynalabdin Tağıyev adına «Azərbaycan Milli mükafatı»na layiq görülmüşdür.

Əli Əliyev bu işlərin öhdəsindən müvəffəqiyyətlə gəldi. Bacarığı, səriştəsi ona irəli getməyə imkan verdi. 1988-ci ildə Əli Abuzər oğlu Əliyev Nizami rayon əhalinin sosial müdafiəsi mərkəzinin direktoru vəzifəsinə təyin olundu. Onun üzərinə düşən məsuliyyət birə-beş artdı. Bu rayon üzrə 27.331 nəfər pensiyaçı vardır. Onların qayğı və problemləri daima Əli müəllimin diqqət mərkəzində olmuşdur. O, ürəyinin hərarətindən ondan kömək uman insanlara pay vermək istəyirdi. Bu, sadə təbiətli, xoş xasiyyətli, mehriban insan üçün bir həqiqət gün kimi aydındır. İnsan taleyi ilə oynamaq olmaz. Axı, ona üz tutub gələnlər ümidsiz, çarəsiz insanlardı. Bəziləri ona «oğlum», bəziləri «qardaş», bəziləri də «ağsaqqal», - deyə müraciət edirdilər. Əlinin qəlbi tərəzi kimidir. Onlara fərq qoymur, onları eyni gözlə görür.

Əli Əliyev həssas adamdır. Adamlarla, ona üz tutana, pənah gətirən kimsəsizlərlə onların öz dilində danışmağı, qəlbinə yol tapmağı bacarır. Yeri düşəndə deyib-gülür, onların ürəyində bir ümid şamı yandırır. Mehriban, qayğıkeş və digər gözəl insani keyfiyyətləri sayəsində insanların qəlbində özünə yuva tikir.

Beləcə illərdən pillələr hörüldükcə, yaş üstə yaş gəldikcə bəşər oğlu yetkinləşir, püxtələşir. Əli Əliyev indi ömrünün yetkinlik çağını yaşayır. El arasında hörmət qazanmaq, insanlara özünü sevdirərək, mənsəb sahibi olmaq hər kəsə qismət olmur. Bu hörmət-izzət zəhmətlə, damla-damla, qətrə-qətrə yaranır.

Əli Əliyevə sualım belə oldu:

-Bəs insan üçün ən gözəl xüsusiyyət nəyi hesab edirsiniz?

O, belə cavab verdi:

-Səmimiyyət, təvazökarlıq, insaniyyət, mehribançılıq, sadəlik və gülərüzlük. Ümumiyyətlə, adamın ürəyini isindirən hər şey gözəldir.



-Mənim işim elədir ki, müxtəlif adamlarla qarşılaşmalı oluram. Neçə-neçə adama təsəlli verirəm, ovundururam, könüllərini alıram. Onlar təsəlli tapıb, sakitləşəndə mən də rahat oluram. Burada işləmək sizə elə də asan gəlməsin.

-Ürəyi qubarlı, niskilli qadınları, qocaları, çox erkən yaşlarında əlil qalmış gəncləri sakit dinləmək mümkün deyil. Bunun üçün gərək möhkəm iradə sahibi olasan. Səsi qırılıb sözünün gerisini deyə bilməyən, qəhərdən boğulan insanların dərd-sərini kövrəlmədən dinləmək mümkün olmur. Onlar sənə ümidlə baxırlar. Gərək bu ümidləri doğrultmağa çalışasan. Mən onların döyünən ürəyinin səsini eşidirəm, nə demək istədiklərini baxışlarından başa düşürəm.

Mən, sən, o – hamımız belə adamlara kömək əlimizi uzatmalıyıq. Əks təqdirdə, Məmməd Araz demişkən: «məndən, səndən yan ötən Vətənə dəyir».

Əli Əliyev təbiətin vurğunudur. Təbiəti özünün ikinci evi sayır. Təbiətin qoynunda rahatlıq tapır, dincini alır. Bütün fəsilləri sevir. Hər fəslin öz gözəlliyi barədə onun fikirləri vardır:

-Təbiətin qoynunda, yaşıllıq əhatəsində insanı işıqlı fikirlər öz ağuşuna alır. Xoş əhval-ruhiyyə yaradır, yaşamaq, qurub-yaratmaq eşqi güclənir. Təbiətin gözəlliyini, romantikasını duy-maq, ondan həzz almaq, mənəviyyatca zənginləşmək, kamilləşmək yüksək daxili keyfiyyətdir. Təbiətin dilbər güşəsinin seyrinə dalmaq, onun özünəməxsus hüsnünün gözəlliyini dərk etmək elə insanın mənəvi zənginliyidir.

İnsan gündəlik gümrahlığını saxlamaq üçün təbiətlə yaxın təmasda olmalıdır. Özüm bu gümrahlığı saxlamaq üçün tez-tez təbiətin qoynuna çıxıram. Onun səfalı, füsunkar guşələrindən, güllü-çiçəkli çəmənlərindən estetik zövq alıram. Mavi Xəzərin havası, bol günəş, narın qumu insana sanki həyat verir. Dünyada tayı-bərabəri olmayan Azərbaycan təbiəti qışda da gözəldir, cazibədardır, yayda da. Təbiət bu torpaqdan öz gözəlliklərini, ən gözəl nemətlərini əsirgəməyib. Tanrı bizə bol günəş, quru iqlim, təmiz hava və ən ləzzətli meyvələri bəxş eləyib. Elə Axundovun əsərlərinin qəhrəmanlarından biri, fransız botaniki, alimi Müsyo

Jordanı da Azərbaycana çəkib gətirən əfsanəvi Azərbaycan təbiəti olub.

Ana təbiət şerimizin ilham mənbəyi, sağlamlığımızın rəhni, yurdumuzun bəzəyidir. Dünya gözəli Göygöl, başı çalmalı, şiş qayalı dağlarımız, altı xəzinə, üstü açıq muzey olan torpağımız, çan dərmanı olan mineral sularımız, Dəli Kürümüz, Xan Arazımız musiqi, şer, sənət, ilham çeşməsidir.

Bu gözəlliklər zaman-zaman insanların daxili aləminə, ruhuna, canına-qanına hopub. Bu qədər sərvəti olan xalq xoşbəxtdir, ancaq gərək bütün bunların hamısının qədrini bilək, ondan səmərəli istifadə edək. İsrafçılığa yol vermək olmaz, bunu gələcək nəsil bizə bağışlamaz.

Əlinin söhbətlərinə qulaq asdıqca sanki adam özünü təbiətin qoynunda hiss edir. Sürətlə axıb gedən dağ çayının səsini eşidirsən, sal qayaların arasında süzülən şəlalənin şırıltısına, zümzüməsinə qulaq asırsan, əlini gözünün üstünə qoyub Şahdağın qarlı zirvəsinə boylanırsan. Ovçunu sərin bulağın gözünə tutursan. Doldurub diş sızladan buz kimi suyundan içirsən. İçindəki yanğı sönür elə bil. Təmizlənirsən, saflaşırsan, mənən zənginləşirsən.

Əli Əliyev mehriban və qayğıkeş ailə başçısıdır. 1981-ci ildə ailə qurub, bir müddət kirayədə yaşayıb. İki oğlu vardır. Elgin və Günər.

Bütün atalar kimi Əli müəllim də övladlarını çox sevir, onların qayğısına qalır. Ata üçün dünyada ən böyük səadət övladlarının ağıllı-kamallı olması, savad, təhsil alması, həyatda özünə mövqe, mənsəb qazanması, xalq işinə yaramasıdır.

Arzularınız çin olsun, Əli müəllim!



## Bizim Həmid müəllim!...

Mən onu 1966-cı ildən bəri tanıyıram. Bir vaxtlar o, Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun «Gənclik» ansamblında iştirak edirdi. Ansamblda onun rəqsinə söz ola bilməzdi. 1967-ci ildə Moskvada Kremlin Qurultaylar sarayında «Gənclik» ansamblının üzvləri ilə birlikdə böyük konsert vermişlər. Onunla ünsiyyətdə olmaq istəyənlər mütləq onun tərpənişinə, hərəkətinə, duruşuna diqqət yetirməlidirlər. Bu da onun həyat yolunun maraqlı keçməsindən irəli gəlir. O, özü də çox həlim davranışlı bir insandır. Gülərüz sifəti onu başqalarından həmişə fərqləndirirdi.

Haqqında bəhs etdiyim şəxs Universitetin Azad Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Həmid Səfər oğlu Zeynalovdur.

Məlumdur ki, Həmkarlar təşkilatları bütün dünyada zəngin tarixə malik olan ictimai təşkilatlardandır. Belə təşkilatlardan biri də Azərbaycan Dövlət İqtisad Universitetinin Azad Həmkarlar İttifaqı Komitəsidir. Ali təhsil ocağımızın mövcud olduğu bütün tarixi mərhələlərdə Həmkarlar Komitəsi də Universitetin təhsil, təlim-tərbiyə, sosial-mədəni sahələrin təşkili və inkişafında aktual rol oynamışdır.

Azərbaycan SSR Nazirlər Sovetinin 1966-cı il, 19 mart, 104 saylı qərarı ilə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu yaradıldı. Həmin ildən başlayaraq İnstitutun Həmkarlar Komitəsi də dövrün tələblərinə cavab verə bilməsi üçün bütün gücünü səfərbər etmişdir.

H.Zeynalov 1964-cü ildə Azərbaycan Dövlət Neft-Kimya İnstitutunda «Əməyin iqtisadiyyatı» ixtisasına daxil olmuşdur. 1966-cı ildə D.Bünyadzadə adına Az.XTİ-tu yaradılarkən «Əməyin iqtisadiyyatı» ixtisası bu İnstituta verilmişdir. Bununla əlaqədar olaraq, 1969-cu ildə Həmid Zeynalovun təhsil aldığı qrup həmin ixtisasını yeni İnstitutda almışdır.

Qeyd etmək olar ki, 1990-cı ildən hal-hazıra kimi Universitetin Həmkarlar İttifaqı Komitəsinə Həmid Zeynalov rəhbərlik edir. Onun təşkilatçılıq bacarığı nəticəsində əvvəlki ictimai quruluşun dağılıb, yenisinin tədricən formalaşmağa

başladığı mürəkkəb mərhələdə Həmkarlar İttifaqı Komitəsi günün tələbləri səviyyəsində özünün fəaliyyətini davam etdirməyə nail ola bilmişdir. Məhz buna görə də professor-müəllim heyəti və tələbə kontingentinin, bir sözlə universitetin bütün əməkdaşlarının sosial-mədəni, ailə-məişət qayğılarına ürəklə yanaşması, qarşıya çıxan problemləri humanistcəsinə həll etmə bacarığı nəzərə alınaraq dəfələrlə yenidən bu sahəyə rəhbərlik etmək Həmid müəllimə həvalə olunmuşdur.

Müasir dövrdə Universitetin Azad Həmkarlar İttifaqı Komitəsi özünün fəaliyyətini əsasən dörd istiqamətdə aparır. Bunlar aşağıdakılardır:

1. Əməkdaşların sosial vəziyyətinin yaxşılaşdırılması. Əməkdaşlara verilən əlavə əmək haqlarının artırılması, əmək və mənzil-məişət məsələlərinin yaxşılaşdırılmasına nəzarət edir;

2. Tədris və əmək intizamının gücləndirilməsinə. Universitetdə tədris işlərinin təkmilləşdirilməsi ilə əlaqədar, əmək intizamının möhkəmləndirilməsinə, istər müəllimlərin və istərsə də digər əməkdaşların əmək intizamına düzgün riayət edilməsinə daim nəzarət edir;

3. Mədəni-kütləvi işlərin təşkili. Belə ki, Azərbaycan Respublikasının Konstitusiya gününün, Dövlət Müstəqilliyinin bərpası gününün, Dünya Azərbaycanlılarının Həmrəyliliyi günü-nün, bundan başqa, xalqımızın adət-ənənlərini özündə əks etdirən Novruz bayramı gününün və bir çox başqa bayram günlərinin, eyni zamanda, universitetin əməkdaşlarının yubileylərinin təntənəli qeyd olunmasında Həmkarlar İttifaqı Komitəsi böyük rol oynamışdır.

4. Həmkarlar İttifaqı Komitəsi əməkdaşların sağlamlığının qorunması və istirpahətinin səmərəli təşkili üçün hər il respublika əhəmiyyətli sanatoriyalara, istirahət evlərinə putyovkalar təşkil edir. Bununla yanaşı universitetin Quba rayonunun Nügədi kəndində yerləşən «İdman-sağlamlıq düşərgəsi»ndə əməkdaşların səmərəli istirahətini təşkil edir.

Həmkarlar İttifaqı Komitəsi rektorluqla birlikdə Ermənistanın Azərbaycana qarşı təcavüzkarlıq siyasəti nəticəsində ata-



baba yurdundan didərgin düşmüş soydaşlarımıza vaxtaşırı maddi yardım göstərməklə özünün mənəvi köməyini əsirgəmir.

Universitetin Həmkarlar İttifaqı Komitəsi Tələbə Həmkarlar Təşkilatı ilə birgə fəaliyyət göstərir və onların işinə köməklik edir.[x]

Həmid müəllim Universitetin Azad Həmkarlar İttifaqı Komitəsinin sədri işləməklə yanaşı uzun müddətdir ki, pedaqoji sahədə uğurla çalışır. Belə ki, o, 1970-ci ildən «Əməyin iqtisadiyyatı» kafedrasının müəllimi, baş müəllimi və dosenti vəzifəsində işləyir. 1979-cu ildə o, namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. Bir ildən sonra ona dosentlik vəzifəsi verilmişdir.

Bütün bunlarla yanaşı, Həmid müəllimin təşkilatçılıq bacarığını xüsusilə qeyd etmək yerində olardı. Onun bu qabiliyyəti nəticəsində 1973-cü ildə Azərb. LKGİ MK-nın xətti ilə Bakı-Alma-Ata-Pavlodar-Arkalı-Karaqanda-Temir-Tau-Daşkənd-Bakı marşrutunun təşviqat qrupuna rəhbərlik etmişdir. Burada Həmid müəllim Azərbaycan, Qazaxıstan və Özbəkistan gəncləri ilə çox saylı görüşlər keçirmişdir.

Bundan başqa, Həmid müəllim 1967-1980-cı illərdə Azərbaycanda kənd təsərrüfatı məhsullarının yığılmasında köməyini əsirgəməmiş və Tələbə Ticarət Dəstələrinə komandirlik etmişdir. Buna görə də universitetin əməkdaşları bizim Həmid müəllimlə indi də fəxr edirlər!

[x] Materiallar «Azərbaycan Dövlət İqtisad Universiteti 70» kitabından götürülmüşdür.

## Bizdən bir söz qalacaq

*(Zərifə xanım Ağahüseyn qızı haqqında qeydlərim)*

Həyatda elə adamlar var ki, onların ömrü çırağa bənzəyir. Özündən çox ətrafına işıq saçır. Onlar üçün ömür kamilliyə gedən yol, Vətən, torpaq, xalq, el-oba naminə fəaliyyət üçün, həyatda öz izini qoymaqdan ötrü bir vasitədir. Belə ömür sahibləri təkcə özləri üçün yaşamırlar. Onların ömründən ətrafdakılara, doğmalara və yaxınlara, dostlara və həmkarlara da pay düşür. Belə ömürlə həm də hər şey üçün narahatçılıq hissi, hamıya gərəklilik qayğısı, daim yaxşılıq etmək, mərhəmət göstərmək istəyi, həyatda ancaq işıqlı tərəfləri görmək vərdişləri yaşanır. Bu cür insanlardan biri də Azərbaycan Radio və Televiziya Verlişləri Şirkətinin «Gənclik və İdman» redaksiyasının şöbə müdiri Zərifə xanım Ağahüseyn qızıdır.

Onunla tanışlığımın tarixi 1990-cı ilə təsadüf edir. Zərifə xanım peşəkarlığı, sadəliyi, səmimiliyi, alicənablığı, nitq mədəniyyəti ilə digər jurnalistlərdən fərqlənir.

Xoşbəxtlikdən Zərifə xanımla qapı-qonşu olmuşam. Onun bir mütəxəssis kimi özünün sənətini dərindən bilməsi və sevməsi, işlədiyi şirkətdə yüksək peşəkarlıq, məsuliyyətlilik və intizamlılıq nümunəsi göstərməsi onu tanıyanlarda, iş yoldaşlarında, dostlarında, yaxınlarında Zərifə xanıma qarşı böyük rəğbət yaratmış və onu sevdirmişdir.

Bəzən yerində deyilən söz qatili cinayətdən, bəd əməlli insanı pislikdən çəkindirir. Zərifə Ağahüseyn qızı Azərbaycan efirindən dediyi kəsərəli sözləri ilə necə yaraya məlhəm qoyur, neçə sınıq qəlbə təsəlli verir. «Gözəl nitq şer kimi ovsunlayır»- deyirlər. «Yuva»sının (Azərbaycan Radiosunun sayılıb-seçilən verlişlərindəndir) hər buraxılışını məlahətli səsi ilə elə çatdırır ki, dinləyici səhər açılar-açılmaz redaksiyanı zəng yağışına tutur. Bu ləyaqətli söz adamının, möcüzəli səs sahibinin özü ilə görüşmək arzusunda olduğunu bildirir. 15 ilə yaxın çalışdığı Azərbaycan Radiosunun efirindən 78 ildə kimlərin səsi gəlməyib-xalqımızın dahilərinin, ustadlarının, sənətkarlarının... Səsini onların səsinə qatmaq, onların açdığı cığırla addımlamaq çətin, məsuliyyətli, həm də şərəflidir. Çətinliyi çiyinlərdə gəzdirib öhdəsindən gəlmək, məsuliyyəti dərk edib dinləyici sevgisi qazanmaq hər adamın işi deyil. Zərifə Ağahüseyn qızı çoxlarının nəyin xatirinəsə aldığı mükafatların sahibi olmasa da, tək «Yuva»sına görə minlərlə ailənin alqışını xeyir-duasını, təşəkkürünü qazanıb.



«Ürəkdən gələn söz ürəklərə yol tapar» - deyib dahi Nizami. Zərifə xanımın dediyi söz ürəyindən gəlir, səmimiyyətindən su içir. Sözünü boş yerə demir. Zamanın nəbzini tutmağı bacarır. Şöbə müdiri işlədiyi «Gənclik və İdman» redaksiyasının auditoriyasının maraqlarını, düşüncələrini efirə cəsarətlə gətirir. «Sənin fikrin», «Qol-qola», «Bəzəmələr» - onun müəllif proqramlarıdır və bu proqramlar üstündə o, dörd övladının üstündə əsdiyi kimi əsim-əsim əsir.

Həyatda, cəmiyyətdə də efirdə olduğu kimidir. Sözlə çox məsuliyyətlə davranır. Zarafatlı anlarda, mübahisəli vaxtlarda dediyi hikmətli bir söz, baməzə bir lətifə, məşhur bir beyt uğurlu sonluq olur belə məqamlara.

Sözə bir sıcaq münasibət qanında-canındadır. Babası – tanınmış sənətkar Əhməd Rumlunun ocağında böyüyən gözəl ziyalımızı sinədən söylədiyi qəzəlləri, şerləri dinləməkdən doymayan Zərifə xanım onları zaman-zaman yaddaşına həkk edib, universitetin filologiya fakültəsində oxuyarkən tanınmış elm xadimlərindən çox şey öyrənib. Mütaliəsi, çalışqanlığı ilə söz sənətinin çətin dünyası ilə ünsiyyətə hazırlaşıb. Hələ tələbə ikən radionun «Natəvan» qızlar klubunun (o vaxtın ən məşhur verilişlərindən biridir) fəal üzvlərindən olub. Sonralar pedaqoji sahədə çalışsa da radio daim onu özünə çəkib. Bu möcuzəli dünyaya yenidən qayıtmaq varmış taleyində. Günlərin bir günü yenidən qayıdıb bu ünvana. Səsinin, sözünün sehrinə minləri, milyonları salmaq üçün... Radioda ürəyinin sözünü daha yaxşı çatdırdığı üçün bu gün özünü xoşbəxt sayır.

Bu gün onun möcuzəli səsini dünya işığından məhrum olan insanlar qəlblərinin gözü ilə görür, duyurlar. Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin studiyasında neçə illərdir ki, fəaliyyət

göstərir. Bu insanları gündəlik informasiya ilə, dünya ədəbiyyatı xəzinəsinin inciləri ilə tanış edir.

Yüzlərlə tələbənin həm də sevimli müəllimidir Zərifə xanım. Azərbaycan Beynəlxalq Universitetində gənclərə nitq mədəniyyəti və dilçilikdən dərs deyir. Doğma dilimizin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə edir. İstedadlı, bacarıqlı tələbə görəndə qayğısını əsirgəmir. Onların radio jurnalisti kimi püxtələşməsinə çalışır. İndi neçə-neçə qəzet, jurnal, radio-televiziya redaksiyalarında onun yetirmələri var.

Ehtiyacı olanlara təmənnasız yardım göstərmək bu xanımın xarakterinə xas olan xüsusiyyətdir. Bir çox cəmiyyətlərin, qeyri-hökumət təşkilatlarının keçirdiyi tədbirlərdə fəal iştirak edir. Kimsəsizlər üçün internatlara, qaçqın düşərgələrinə həm jurnalist, həm insan və həm də ziyalı kimi gedir, burada yaşamağa məhkum olanlara mənəvi dayaq olmağa çalışır.

Bütün bunlara görə Zərifə xanım Əliyevaya da Azərbaycan Qadın Ensiklopediyasında ləyaqətli, tanınmış qadınlarımızla birgə yer ayrılıb.

Radioya qayıdışı mürəkkəb vaxta düşüb. Qarabağ müharibəsi gedirdi, cavanların səsi cəbhə bölgələrindən eşidilirdi. Jurnalist Zərifə, ana Zərifə həmin çağlarda hospitallardan evə yığışmış, hərarətli, isti, ümid dolu sözlərini əsgərlərdən əsirgəmirdi.

İndi bir arzusu var: «Torpaqlarımız azad olsun!» Və onda mikrofon önünə keçib məlahətli, şirin səsi ilə deyəcəyi sevinc dolu müqəddəs sözləri indidən deyir: «Qələbə günün mübarək, ana Vətən!» və inanın ki, bizdən bu söz qalacaq!



## Onun qiymətini ulu Tanrı verib

...Hərdən «kəndçiliyi tutur» onun. Üz-gözünün öyrəşə bilmədiyi bu «üz-gözü boz» şəhərdən çıxıb getməyi gəlir. Hara?! Harası məlumdur - doğulub boya-başa yetdiyi, «hər qara daşına, körpəcə qara quşuna, yazına-qışına Vətən dediyi dost-doğmaca Şəkiyə, qədim-qayım gözəlliklər, incə sənətlər oylağına! Onun axarlı-baxarlı, çeşməli-sulu, nanəli-reyhanlı, cüyürlü-ceyranlı dağlarına sığınmış Baş Zəyzidinə-Vərəzət kəndinə. Orda yenidən budağı-budağa çalmaq. O dağı bu dağa çalmaq» keçir könlündən. Çünki yaxşı bilir ki, haçansa, nə zamansa, «gözlərinə örtərək adaşına dönəcəyi» Vətən torpağı hər vaxt onun yolunu gözləyir. «Ana uşağıyam mən. Özün ol yiyəm, Vətən!» deyəndə də, «üzü qibləyə duranda»da, «dərdlə-ələmlə qolboyun olanda»da, «söz tapmayıb dərd yazanda»da yenə «ümidlərin doğrulacağına» inamı azalmır, çünki «vahid, tək olan üzünə», «həqiqəti,gerçəyi, incisi, dürrü, göyçəyi» saydığı sözünə söykənir.

Haqqında beləcə xasiyyətinə uyğun mehribanlıqla, həzinliklə söhbət açdığım Qiymət xanım Məhərrəmli ilə tanışlığım təsadüfən olub: atam - görkəmli maarif xadimi Mirzə Xosrov Axundzadənin yubileyi münasibətilə keçirilən elmi konfransda iştirak edən Qiymət xanım öz təəssüratlarını işlədiyi «Maarifçi» qəzetində çap etdirmişdi. Sonralar biz müxtəlif görüş və tədbirlərdə rastlaşmış, şer-sənət barədə dostyana söhbətlər etmişdik. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü olan bu xanımın respublika mətbuatında müntəzəm dərc olunan şerləri, elmi, publisistik məqalələri ilə tanış olduqca onun zəngin daxili aləminə, mənəviyyatına, ziyalılığına heyran qalmaya bilmirdim. Nəhayət, Qiymət xanımın «Ürəyimdən nələr keçir» (Bakı, «Elm və həyat» nəşriyyatı, 1996), «Qərib durna» (Sankt-Peterburq, «Leyla» nəşriyyatı, 1999), «Ana, səndən doumadım» (Bakı, «Kür» nəşriyyatı, 2001) şer kitabları mənim zəngin kitabxanamın ən sevimli sakinlərinə çevrildilər. Bu kitabların hər birini oxuduqca, müəllifin zəngin mənəvi dünyasıyla baş-başa qalmaq istəyirsən. Bu kitablarda nələr yoxdur?! Yurd-yuva sevgisi,

Vətən məhəbbəti, ata-anaya, övlada, ömür-gün yoldaşına, ümumiyyətlə götürdükdə isə, insanlığa, yaşadığı dünyaya, gözlə görüb ağlı ilə təxəyyül süzgəcindən keçirdiyi hər bir əşyaya, hadisəyə, predmetə mənəvi bağlılıq, ruhani sevgi və s. və i.a. Bu hisslərin sənətkarlıqla ifadəsi böyük Azərbaycan şairi və dramaturqu Bəxtiyar Vahabzadənin də diqqətini cəlb edib. Xalq şairi Qiymət xanımın şeirləri ilə tanış olduqdan sonra yazırdı: «...Qiymətin şerlərinin üslubu, deyim tərzi, təzəliyi xoşuma gəlir. Mən dəfələrlə yazılarımda dediyim mətləbi burada da təkrar etmək istəyirəm: çox şükür ki, ədəbiyyata yeni gələn gənclər təzə deyim tərzi axtarır, özlərindən əvvəlkiləri təkrar etmək istəmirlər. Qiymətin də şerlərində məhz bu cəhəti təqdir etmək olar.

Qiymət əsas qoşma və gəraylı aşıq formasında yazır. Forma ənənəvi, məzmun yeni! Əlbəttə, bu, çox gözəl başlanğıcdır. Bu bünövrəyə söykənən sənətin yaşarılığına inanmamaq olmaz. Ən mühüm odur ki, bu gənc qələm sahibi uydurmur. Yaşadığını hiss edib, duyduğunu yazır. Deməк, onun ilham qaynağı həyatın özüdür. Bax, bu əsl poeziyanın yoludur. Bu çətin, lakin zəruri yolda gənc şairə uğurlar diləyirəm».

Bu ustad xalq şairimizin Qiymət Məhərrəmli yaradıcılığına verdiyi böyük və layiqli qiymətdir. Qeyd etmək istərdim ki, bu gənc və istedadlı şair xanım barədə tanınmış ziyalılarımız dəyərli sözlər deyiblər və yəqin ki, belə xoş fikirlər hələ çox səslənəcək. Lakin onun əsas qiymətini ulu Tanrı onu yaradarkən verib. Ən yaxşı xüsusiyyətlər, Azərbaycan qadınına, türk qızına məxsus ən gözəl keyfiyyətlər cəmlənib onun simasında. İstər ədəbi mühitdə, istər əməkdaşlıq etdiyi mətbuat orqanlarında, istərsə də işlədiyi Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutu-un əməkdaşları arasında böyük hörmət və nüfuza malik olan bu xanıma həm ədəbi, həm də elmi fəaliyyətində böyük uğurlar arzulayıram. İnanıram ki, «Qiymət poeziyası öz həqiqi qiymənini alacaq və həmişəyaşarlığını qoruyub saxlayacaqdır»!



## Ömrünün ən müdrik çağlarını yaşayan şair-publisist

Əyyub Şəfahət oğlu Əbdüləzimov–Şırlanlı 8 oktyabr 1947-ci ildə Azərbaycanın əzəli və əbədi torpağı olan Şuşanın Şırlan kəndində anadan olmuşdur. Zəhmətkeş və namuslu alimin oğlu olan Əyyub ibtidai məktəbin I-IV siniflərini Şırlan kənd orta məktəbində, V-XI siniflərini isə Ü.Hacıbəyov adına Şuşa şəhər 1saylı orta məktəbində bitirmişdir. 1966-1968-ci illərdə fəhlə işləmiş, 1968-70-ci illərdə Şuşa Pedaqoji Texnikumunu, 1971-76-ci illərdə isə Xankəndi Pedaqoji İnstitutunun filologiya fakültəsini bitirmişdir. 10 il Şuşanın Şırlan kəndində tədris işləri üzrə direktor müavini, dil və ədəbiyyat müəllimi vəzifələrində işləmişdir. 1980-ci ildən 1992-ci ilə kimi (erməni quldurlarının 8 may 1992-ci il tarixdə Şuşanı işğal etdikləri günə kimi) Şuşa şəhərinin ayrı-ayrı məktəblərində müəllim, direktor müavini vəzifəsində çalışmışdır. 1983-cü ildən bu günə kimi Şuşa rayon təhsil şöbəsinin metodisti, məktəblər üzrə inspektoru, təhsil şöbəsinin müdiri kimi vəzifələrdə çalışmışdır. Hazırda Şuşa rayon təhsil şöbəsində məktəb inspektoru vəzifəsini icra edir.

Əmək fəaliyyəti dövrlərində keçmiş SSRİ-nin, Azərbaycan Respublikası Maarif Nazirliyinin, Vilayət və Şuşa rayon maarif şöbələrinin bir sıra fəxri fərmanlarına, diplom və mükafatlarına, 1978-ci ildə isə DQMV Xalq Maarif şöbəsinin «Qabaqcıl maarif xadimi» döş nişanına layiq görülmüşdür.

1992-1993-cü illərdə Ə.Şırlanlı Azərbaycan Respublikası «Təhsil» Cəmiyyətinin «Təhsil» qəzetinin redaktoru olmuşdur. On ildən çoxdur ki, «Təhsil» Cəmiyyəti Şuşa rayon təşkilatının sədridir. 1996-cı ildə Azərbaycan Demokratik Maarifçilik Partiyasının Azərbaycan Milli Elmlər Akademiyasında keçirdiyi «Vətən sənin qeyrətinə söykənir» müsabiqəsinin qalibidir. 1994-cü ildə «Ali kateqoriyalı dil və ədəbiyyat müəllimi», 2000-ci ildə isə «İlin ən yaxşı məktəb inspektoru» adlarına layiq görülmüşdür.

İlk şeri 1961-ci ildə Şuşanın yerli qəzetində çap olunmuşdur. Vətən, xalq, millət yanğısı ilə yaşayan şair-publisist Əyyub «Şırlanlı» təxəllüsü ilə tanınmışdır.

İstedadlı şair Əyyub Şırlanlının yaradıcılığı çoxşaxəlidir. O hər şeydən əvvəl gözəl insan, şair, jurnalist, filoloq, tarixçi və pedaqoq kimi tanınmışdır. Vətən yanğısı ilə ürəyi döyünən ziyalıdır. Bunu 40 ilə yaxın dövrdə respublikamızın və xarici ölkələrin mətbuatlarındakı yazıları, kitabları bir daha sübut edir.

Əyyub müəllim qələmini yalnız xeyirxahlğa işlədən insandır. 1988-1993-cü illərdə qələmlə süngünü bərabər tutan şairin-2000-ci illərdə çap olunmuş «Vətən kişiliyə çağırır bizi», və iki hissəli «Vətən yaraları, Vətən harayı» adlı kitabları onu bir daha da bizlərə yaxından tanıtmışdır. Şairin şair-publisist kimi elmi-publisistik, tarixi məqalələri daha maraqlıdır.

Əyyub müəllim olduqca nikbin, vətənpərvər, insanları gələcəyə ruhlandıran şairdir. Milləti vətənpərvərliyə, düşməndən qisas almağa çağıran şair eyni zamanda dələduzları, rüşvətxorları, xüsusən yaltaqları, torpaq və vətən xainlərini satira atəşinə tutmaqdan yorulmur.

Əyyub Şırlanlı sözün həqiqi mənasında şairdir. Bir kəlmə dindirsən bunun şahidi olarsan. Onun haqqında dəfələrlə radio və televiziyada bir-birindən maraqlı verilişlər səsləndirilibdir.

Əyyub müəllim gözəl tədqiqatçıdır. Vətənini, yurdunu, millətini təkcə respublikamızda yox, ondan çox-çox kənarlarda da tanıtmağa qadir insandır. İndi onu Türkiyədə, Təbrizdə, Moskvada, İspaniyada, Litvada, Belorusiyada, Kemerovskda, Ukraynada, keçmiş SSRİ-nin bir çox şəhərlərində tanıyırlar. O, bunlara öz halal zəhməti hesabına, yuxusuz gecələrdə qələmə aldığı «Vətən yaraları, vətən harayı» ünvanlı yazıları ilə nail olmuşdur.

Ə.Şırlanlı qırx ilə yaxındır toylarda masabəylik eləyir. və təhsil verdiyi yetirmələri ilə fəxr edir. Respublikamızın ayrı-ayrı sənət və peşə adamlarının mətbuat səhifələrində Əyyub müəllim haqqında verdikləri maraqlı yazılar çox sevindiricidir, ürəkaçandır. Onu həmişə düşüncələr aləmində, stol arxasında görmək olar. Ömrünü şam kimi millətinin yolunda əritməyə hazır olan Əyyub müəllim gözəl psixoloqdur.



Əyyub Şırlanlı zəngin tarixi həqiqətlərə əsaslanaraq ermənilərin Azərbaycanda həyata keçirdikləri analoqsuz vəhşiliklərini, soyqırımlarını deportasiyalarını qələmə almış və zaman-zaman çap etmişdir. O, Qarabağ müharibəsi veteranıdır və müharibənin canlı iştirakçısıdır. Əyyub müəllim nikbin bir insan kimi torpaqlarımızın işğaldan azad olacağına və didərgin duşmüş millətimizin öz doğma el-obalarına qayıdacaqlarına inanır.

Biz ömrünün ən müdrik çaglarını yaşayan şair-publisist Əyyub Şırlanlıya yeni-yeni yaradıcılıq uğurları arzulayırıq!

## Bahar oğlu

Mənim Baharlılar nəslinə o qədər də bələdçiliyim yox idi. Yeni Yasamalda qonşu olduqdan sonra mən Məhəmməd müəllimin Baharlılar nəslindən olduğunu anladım. O, çox təşəxxüslü və çox da səmimi bir şəxs idi. Həqiqətən də, onun ümumi görünüşündə də bahar təravəti duyulurdu.

Təsadüf elə gətirdi ki, onun oğlunun da müəllimi oldum. Buna görə də Məhəmməd Baharlı ilə daha yaxından dostluq edə bildim.

Məhəmməd müəllimin «Azərbaycan» qəzetinin 17 noyabr 1995-ci il tarixli etnoqrafik oçerkini oxuduqdan sonra Baharlılar nəslini daha ətraflı öyrəndim.

Məhəmməd Baharlının mə'lumatlarından aydın olur ki, Baharlılar nəsli ensiklopedik bir şəxsiyyətdirlər. Belə şəxsiyyətlər sırasında XVI əsrin məşhur Azərbaycan şairi və dövlət xadimi Məhəmməd Bayram xan Baharlı, XVII əsrin görkəmli şairi və ictimai xadimi Mirzə Vəli Baharlı, XX əsrin tanınmış coğrafiyaşünası və dövlət xadimi Məhəmməd Həsən Baharlını və başqalarını misal göstərmək olar.

Sən demə, Baharlılar nəslinin nümayəndələrindən biri də görkəmli dövlət xadimi, general, mərhum Məhəmməd Nəbi oğlu Əsədov olmuşdur. Hazırda həmin nəslin davamçısı isə yazıçı-jurnalist Məhəmməd Baharlıdır.

**Haşiyə:** Məhəmməd Baharlı (Məhəmməd Əhməd oğlu Əhmədov) 1948-ci il mart ayının 12-də Zəngilan rayonunun Baharlı kəndində dünyaya göz açmışdır. 1965-ci ildə orta məktəbi bitirib, Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə daxil olmuşdur. 1969-cu ildə o, ali təhsilini başa vurub, «Azərbaycan gəncləri» qəzeti redaksiyasında əmək fəaliyyətinə başlamışdır. 1970-ci ildə əskəri xidmətə çağırılmış və 1971-ci ildə ordu sıralarından tərxis olunmuşdur.

1971-ci ildən 1993-cü ilədək «Azərbaycan məktəbi», «Kənd həyatı», «Gənclik», «Molodost» jurnalları və «Təhsil» qəzeti redaksiyalarında şö'bə müdiri, mə'sul katib və baş redaktor vəzifələrində işləmişdir.



1993-cü ilin fevral ayından 2003-cü ilə kimi «Azərbaycan müəllimi» qəzetinin baş redaktoru işləmişdir. O, eyni zamanda «Mozalan» satirik qəzetinin tə'sisçisidir. Dörd kitabın, mindən çox pedaqoji, elmi-metodik, publisist-bədii yazıların müəllifidir. Onun bir neçə xarici ölkə mətbuatında yumorları dərc olunmuşdur.

Onun duzlu danışıqları mənə ruhən qida verir... Necə də səmimi bir insandır. O, bütün varlığı ilə təbiət vurğunu idi. Məhəmməd müəllim adəti üzrə hər axşam səmanı seyrə çıxır. Hər dəfə gəzintidə özünə uyğun bir nəvazişlə yoldaşlara münasibətini bildirərdi. Özü də yumor tədqiqatçısıdır. Duzlu-duzlu hekayələrin müəllifidir, məktəb həyatına dərindən bələd olan bir şəxsdir. Belə ki, qələmə almış olduğu «Çinar pöhrələri», («Yazıcı» nəşriyyatı, 1981),; «Dərs müasirlik tələb edir», («Maarif» nəşriyyatı, 1982); «Yeni səslər», («Yazıçı» nəşriyyatı, 1984); «Gəlin gülək», (yumorlu hekayələr), («Yazıçı» nəşriyyatı, 1985); «Həyat işığı», («Gənclik» nəşriyyatı, 1988); «Məktəbdə pedaqoji işə rəhbərlik», («Maarif» nəşriyyatı, 1988) və sairə yazıları gənclik həyatına bir nəğmə oxuyur, pöhrələrini yaşıllığa qərq edir, insanları şən və hazırcavab olmağa dəvət edir, onları ruhən güldürür.

Məhəmməd müəllimin Azərbaycan pedaqogikası tarixində xüsusi yeri vardır. O, məktəb həyatına xüsusi diqqət yetirər, məktəbdə rəhbərlikdə məs'uliyyətli olmağı məsləhət görərdi. Təsadüfi deyildir ki, Məhəmməd müəllim, pedaqoji fikirin bə'zi məsələlərini özünün əsərlərində açıqlamış və əsl pedaqoq kimi çıxış etmişdir. Belə ki, o, əlyazmalarında pedaqoji kollektivə düzgün rəhbərlikdə onun hər bir üzvünün, hətta şagird kollektivləri üzvlərinin fərdi xüsusiyyətlərini bilib nəzərə almağın çox mühüm əhəmiyyəti olduğunu göstərir və qeyd edir ki, bunsuz nə müəllimlərə, nə də şagirdlərə obyektiv və konkret istiqamət vermək olmaz. Onun «Məktəbdə pedaqoji işə rəhbərlik» («Maarif» nəşriyyatı, 1988) kitabçası bu baxımdan daha maraqlıdır. Müəllif, məktəb həyatında və məktəbə rəhbərlik işində müəllimin fərdi xüsusiyyətinin ən çox iş prosesində üzə çıxmasını göstərir. Müəllimin yaradıcı olmasını, ehkamçılıqdan,

şablonçuluqdan uzaqlaşmasını tövsiyə edir. Onda bu xüsusiyyətlərə görə müəllimlə işləmək çox asan olur. Çünki belə müəllimləri yaşadan bir amal varsa, o da işləmək, işləmək, özü də yaxşı, səmərəli işləməkdir.

Məhəmməd müəllimin pedaqoji fəaliyyət dairəsini insan xarakterində formalizmlə mübarizə, formalizm və pedaqoji iş, şagird təbiəti, şagird sakitliyi, şagird şıltaqlığı, məktəbdə yeni insan tərbiyəsi, xarakter və qabiliyyət, yaradıcılıq meyli, məktəbdə rəhbərlik işinin mühüm sahəsi, məktəb rəhbərlərinin qeyd kitabçası və sair məsələlər əhatə edir. O, qeyd edir ki, tədris müəssisəsi məktəbə yeni qədəm qoyan birinci sinif şagirdləri üçün sanki möcüzələr aləmidir. Elə etmək lazımdır ki, şagirdlər ilk gündən məktəbə və tə'limə bağlansınlar.

Təlim-tərbiyə işinin təkmilləşdirilməsində məktəb rəhbərlərinin üzərinə böyük vəzifə düşür. Onlar böyüməkdə olan nəslin həyata hazırlanmasında, o cümlədən, biliklərə mükəmməl yiyələnməsində, vətənpərvərlik, ideya-siyasi, əxlaqi, hüquqi, estetik tərbiyəsində, ümumiyyətlə gələcək nəslə layiq insanlar yetişdirilməsi işində bilavasitə mə'suliyyət daşıyırlar. Bu sahədə xalq maarifi işçilərinin və qabağçıl maarif xadimlərinin mühüm rolu vardır.

Məhəmməd Baharlı, elmi-pedaqoji fəaliyyətilə yanaşı yumorlu hekayələrin də müəllifidir. Bu baxımdan onun «Gəlin gülək» (Bakı, «Yazıçı», 1985) adlı kitabındakı hekayələrdə gündəlik həyatımızdan və məişətimizdən, adət-ən'ənələrimizdən bəhs olunur. O, ədəbi və pedaqoji fəaliyyət dairəsində «Baharlı» ləqəbi ilə tanınır.

Məhəmməd Baharlının maarifçilik işi vaxtında nəzərə alınıb. O, Azərbaycan SSRİ «Qabaqcıl maarif xadimi» fəxri adına, SSRİ Xalq Maarifi ə'laçısı adına, Respublika Mətbuat fondunun «Dan ulduzu» və Azərbaycan KİVİHİ Respublika Komitəsinin «Qızıl qələm», Azərbaycan Jurnalistlər İttifaqının və «Kirpi» jurnalının mükafatlarına layiq görüşlmüşdür.

Bundan əlavə, Məhəmməd müəllimə SSRİ Maarif Nazirliyi və MAMEİİHİ MK-nın, Azərbaycan SSR Maarif Nazirliyi və MAMEİİHİ Respublika Komitəsinin, Azərbaycan



SSR «Bilik» Cəmiyyətinin, Azərbaycan LKGİ MK-nın və Azərbaycan Respublikası Təhsil Nazirliyinin Fəxri fərmanları verilmişdir.

Hazırda Məhəmməd Baharlı, yazıçılıq və jurnalistlik fəaliyyətini davam etdirərək yaradıcılığını getdikcə genişləndirir. Onun rəhbərlik etdiyi «Azərbaycan müəllimi» qəzeti çox maraqlı məqalələri ilə oxucuların rəğbətini qazanmışdır. Belə ki, qəzetin bir sıra əhəmiyyətli rubrikaları Azərbaycan pedaqogika elminin tanınmış dan ulduzlarından bilavasitə gənc nəslə xəbər verir və onların həyatı və pedaqoji fəaliyyətilə oxucuları tanış edir.

Məhəmməd Baharlının xoşbəxtliyi ondadır ki, o, bahar fəslində anadan olmuşdur. Buna görə də bahar təravətli yazıçı-jurnalistin əməlləri də təravətlidir. Bu yolda Məhəmməd müəllim həyatın enişli-yoxuşlu cığırlarından alnı açıq çıxmışdır.

Biz də Məhəmməd müəllimə can sağlığı, uzun ömür və yaradıcılığının daha da çiçəklənməsini arzulayırıq!

**11.03.2004-cü il.**

## İşin avand olsun, Vidadi müəllim!

İnsan ömrünü bəzən təlatümlü dənizə də bənzədirlər. Onun da qabarmaları, çəkilmələri, qasırğası olur. Dağ yolları kimi onun da enişi-yoxuşu vardır. İnsan ömrünün də ilk baharı və xəzanı olur. Ömür insana Tanrı borcudur, özü də bircə dəfə verilir. Buna görə də gərək bu ömrü elə şərəflə, vicdanla yaşayasan ki, o borcu qaytara biləsən. Belə ki, məqsədin, niyyətin, amalın, gördüyün iş aydın olmalıdır. Bu da işgüzarlıq əlamətidir. Belə işgüzar insanlardan biri də Vidadi Zeynalovdur.

**Vidadi Zeynal oğlu Zeynalov** 1959-cu ildə Yevlax rayonunda anadan olmuşdur. Orta məktəbi bıtirdikdən sonra 1977-ci ildə Məşədi Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun «Mühəndis-iqtisad» fakültəsinə daxil olmuş və 1982-ci ildə İnstitutu müvəffəq qiymətlərlə bitirdikdən sonra təyinatı üzrə Azərbaycan SSR Maliyyə Nazirliyinin Mənzil-Kommunal, avtonəqliyyat, yol nəqliyyatı və rabitəni maliyyələşdirən idarəsinə iqtisadçı vəzifəsinə təyin olunmuşdur.

1987-ci ildə göndəriş vərəqəsi ilə Bakı şəhər Maliyyə İdarəsində Xalq Təsərrüfatını maliyyələşdirən şöbəyə rəis müavini, 1990-cı ildən isə rəis, sonra idarənin rəis müavini təyin edilib. 1995-1999-cu illərdə Bakı Şəhər Maliyyə İdarəsinin rəisi vəzifəsində işləmişdir.

2000-ci ilin may ayından etibarən V.Zeynalov Azərbaycan Dövlər İqtisad Universitetinin İnzibati-Təsərrüfat İşləri üzrə prorektor vəzifəsinə təyin olunmuşdur. Bu məsul vəzifədə işləməyə başladığı qısa müddətdə o, özünü bacarıqlı və işinə məsuliyyətlə yanaşan bir təşkilatçı kimi göstərə bilmişdir. Belə ki, Universitetdə aparılan çoxsahəli yenidənqurma işlərinin icrası məhz Vidadi Zeynalova həvalə edilmişdir. Bunun da nəticəsində o, təcrübəli işi ilə bu məsul vəzifənin öhdəsindən bacarıqla gəldiyini sübuta yetirmişdir.

Beləliklə də, V.Zeynalov 2004-cü ilin fevral ayına kimi həmin vəzifəni ləyaqətlə icra etmişdir.



Bu illərdə inzibati-təsərrüfat bölməsinin qarşısında çox böyük vəzifələr dururdu. Buraya tədris və köməkçi binaların mühafizəsi, universiteti inventarlarla, elektrik avadanlıqları ilə, komputerlərlə, rabitə sistemləri ilə və s. təmin etmək, bunların istilik və elektrik sisteminə, su, qaz, rabitə xidmətlərinə, nəzarəti, əməyin mühafizəsi və texniki təhlükəsizlik, yanğından mühafizə işini yerinə yetirmək, əsaslı və cari təmiri, habelə bir çox başqa sahələr daxil idi. Bu çoxsahəli və mürəkkəb işlərin öhdəsindən gəlmək üçün universitetdə 141 nəfərdən ibarət əməkdaş çalışırdı.

Hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin bazasında 4 tədris binası və 3 tələbə yataqxanası fəaliyyət göstərir. Bütün bunların maddi-texniki bazası getdikcə möhkəmlənir. İndi universitetin güclü maddi-texniki bazası, müasir tipli tədris binaları vardır. Bütün bunları tələb olunan səviyyədə saxlamaq, tədris, elmi-tədqiqat işlərinin yüksək səviyyədə aparılmasına şərait yaratmaq işi məhz inzibati-təsərrüfat bölməsinin üzərinə düşürdü.

Qeyd etmək olar ki, 2000-ci ilin yay və payız aylarında bütün tədris binalarında əsaslı təmir işləri aparılmış, 1 saylı əsaslı binada isə binanın mövcud olduğu 100 il müddətində görülməyən yenidənqurma işləri başa çatdırılmışdır. Mübaliğəsiz demək olar ki, Bakının ən möhtəşəm və yaraşıqlı memarlıq nümunələrindən olan bu bina özünün ilkin görkəmini almışdır. Binada aparılan əsaslı və bərpa işləri buranın respublikanın ən yaraşıqlı tədris ocağına çevrilməsinə imkan vermişdir.

2004-cü il Vidadi Zeynalovun həyatında daha uğurlu və dönüş ili olmuşdur. Belə ki, o, bir tərəfdən namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmiş, digər tərəfdən isə təşkilatçılıq bacarığı onun daha da irəli getməsinə imkan yaratmışdır. Elə buna görə də 2004-cü ilin fevral ayından etibarən Vidadi Zeynalov Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində aparat rəhbəri vəzifəsinə təyin olunmuşdur.

Biz Vidadi Zeynalova böyük uğurlar diləyirik!

## Azərbaycan qadınının simvolu

Mən Aysəba xanımı hələ tələbəlik dövründən tanıyırdım. O, aşağı kursda, mən isə artıq sonuncu kursda oxuyurdum. Yaxşı yadımdadır, Aysəba xanımın və indi onun həyat yoldaşı olan Azərbaycan Dövlət İqtisad Universitetinin tədris hissəsinin rəisi, dos.Əsəd Mirzəyevin şəkilləri həmişə «Şərəf lövhəsi»ndən qoşa asılardı. Onlar əlaçı olmaqla yanaşı, eyni zamanda, universitetin ictimai işlərinin də fəal iştirakçısı idilər. Buna görə də dəfələrlə ADU-nun komsomol və həmkarlar təşkilatları tərəfindən təltifnamələr alardılar.

Tale elə gətirdi ki, Aysəba xanım 1972-ci ildən D.Bünyadzadə adına AzXTİ-nun «Ticarətin iqtisadiyyatı» kafedrasında, sonralar isə bizimlə birgə «Ticarətin təşkili və texnikası» kafedrasında işləməli oldu.

Özünün davranışı, görkəmi, biliyi ilə diqqəti cəlb edən bu gənc xanımın hansı nəslə mənsub olduğu haqda fikir yürütmək o qədər də çətin deyildi.

O, özü haqda danışmağı xoşlamazdı. Lakin bir gün atamgörkəmli pedaqoq-publisist Mirzə Xosrov Axundzadənin pedaqoq-ədəbiyyatşünas, professor Əliyar Qarabaglı ilə dostluğu haqqında söhbəti düşərkən Aysəba xanıma aid olan fikrimdə yanılmadığımı qət etdim. Belə ki, söhbət əsnasında aydın oldu ki, Aysəba xanımın atası bəy nəslindən olan Şəmsi bəy Əlizadə Əliyar Qarabağlı ilə qohum, yaxın dost və eyni kənddən imişlər.

Dövrünün ən qabaqcıl ziyalısı, dərin zəkaya, biliyə malik maarif xadimlərindən biri olan Şəmsi müəllim ərəb-fars dilinin mükəmməl bilicisi olmuşdur. O, Qori seminariyasının Qazax filialında oxumuş və bu zaman Ə.Qarabaglı ilə birlikdə bir sıra görkəmli Azərbaycan yazıçıları, o cümlədən, Səməd Vurgunla yaxından tanış olmuş və dostluq etmişdir. Şəmsi müəllim bəzən də Qazax şer məclislərində iştirak edər və poeziya aləminə qoşulardı. Ş.Əlizadənin bu fəaliyyəti Bakıda APİ-nin və sonralar isə Stalin adına Tiflis Türk Pedaqoji İnstitutunun filologiya fakültələrinin məzunu kimi daha da genişlənmişdir. Onun qabaqcıl iş metodları



respublikada və onun hüdudlarından kənarda yayılmış və tətbiq edilmişdir.

O dövrdə Şəmsi Əlizadə ilə birgə işləmiş, onunla müharibə iştirakçısı olmuş, hazırda müharibə veteranı olan Abdulla Səfərov özünün xatirələrində yazır ki, Şəmsi Əlizadəni öz dövrünün S.Ə.Şirvanisi, H.B.Zərdabisi adlandırırdılar. Biz onunla bərabər işlədiyimizdən qürur duyur və həmişə ona oxşamağa çalışardıq. Heyif ki, o, Böyük Vətən müharibəsindən geri dönmədi.

Aysəba xanımın anası Həcər xanım Əlizadə isə heç də həyat yoldaşından geridə qalmayan, dövrünün açıq fikirli, təhsilli, elmə, maarifə yüksək qiymət verən mötəbər bir qadını idi. O, tarixdə iz qoymuş və tarixi şəxsiyyət olan Qazax-Gürcüstan mahalının müvafiq tarixi bölgələrində Soltanı titulunu daşımış Hacı Əhməd Soltanın oğul nəvəsi Ayan xanımın və kökü Vəkilovlar nəslindən olan Mustafa ağanın oğlu Mədət ağanın qızıdır.

Bəli, bunları yazmaqda məqsədim bir el misalını xatırlatmaqdır: "Ot kökü üstə bitər" və ya "Ağacın budaqları kökündən qidalanır" Aysəba xanım da bunlardan qidalanmış, əsilli-nəsilli ziyalı ailəsində böyümüşdür.

**Haşiyə:** A.Əlizadə 1941-ci ilin baharında (mart ayında) Borçalının təbii gözəlliklər məskəni olan Lecbədin kəndində dünyaya göz açmışdır. 1947-ci ildə öz kəndlərində Əliyar Qarabağlının təsis etdiyi ibtidai məktəbə getmiş, 1958-ci ildə isə Böyük Muğanlı orta məktəbini əla qiymətlərlə bitirmişdir. O, dəfələrlə Gürcüstan Maarif Nazirliyinin tərifnamələrini almışdır.

1961-1966-cı illərdə Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsində oxumuş və oranı müvəffəqiyyətlə bitirmiş, təyinatı üzrə bir il işlədikdən sonra, həyat yoldaşı Əsəd Mirzəyevlə birlikdə 1967-ci ildə Moskva şəhərində təhsil almaq üçün məqsədli aspiranturaya qəbul olmuşlar. Lakin ailə vəziyyəti onun təhsilini müvəqqəti olaraq davam etdirməyə imkan vermir.

Həmin ildən Gürcüstan Respublikasında həyat yoldaşının qoca ata-anasının yanında qalaraq onlara havadar olur və Əsəd müəllimin Moskvada oxumasının maddi yardımçısına çevrilir.

1968-ci ildən pedaqoji fəaliyyətə başlayan Aysəba xanım 1972-ci ildən etibarən namizədlik minimumlarını verməklə aspirantura təhsilini davam etdirir və 1981-ci ilin martın 19-da Kiyev şəhərində Ukrayna Ticarət və İctimai İaşə Elmi Tədqiqat İnstitutunun (Ukr.NİİTOP) Elmi Şurasında «Ticarətdə əmək məhsuldarlığının və əməyin effektivliyinin metodoloji məsələləri» mövzusunda müvəffəqiyyətlə namizədlik dissertasiyasını müdafiə etmiş, iqtisad elmləri namizədi-alimlik dərəcəsini almışdır.

1982-ci ildən «Ticarətin iqtisadiyyatı» və «Ticarətin təşkili və texnikası» kafedralarında müəllim və baş müəllim işləmiş, 1993-cü idən isə Marketinq və ticarət kafedrasının dosentidir.

Bu illər ərzində bakalavr pilləli təhsil sistemində «Ticarətin iqtisadiyyatı», «Ticarətin və istehlak kooperasiyasının iqtisadiyyatı», «Ticarətin təşkili», «Ticarətin idarə edilməsi», «Tələbin öyrənilməsi və proqnozlaşdırılması», «Bazar iqtisadiyyatının əsasları», «Biznesin iqtisadiyyatı», «Sahibkarlıq və sahibkarlıq fəaliyyəti», «Sahibkarlıq və biznes fəaliyyəti», «Marketinqin əsasları», «Reklam təsərrüfatının iqtisadiyyatı» və magistr pilləli təhsil sestemində təhsil alanlar üçün «Bazar iqtisadiyyatının mühüm cəhətləri» və s. fənlər üzrə Azərbaycan və rus dillərində o, mühazirələr söyləmişdir. Bu fənlərin müxtəlifliyi və çoxluğu onun işlədiyi müddətdə nə qədər gərgin əmək sərf etdiyini və hansı bilik səviyyəsinə malik olduğunun bir sübutudur.

Aysəba xanım elmi-metodiki işlərin yerinə yetirilməsində də özünün əməyini əsirgəməmişdir. Belə ki, respublikada ilk dəfə olaraq bakalavr pilləli təhsil sistemi üçün «Reklam təsərrüfatının iqtisa-diyyatı» magistratura dinləyiciləri üçün isə «Bazar iqtisadiyyatının mühüm cəhətləri» fənləri üzrə Azərbaycan və rus dillərində proqram tərtib edib hazırlamışdır.

36 illik pedaqoji əmək fəaliyyətinə malik olan Aysəba xanım müxtəlif ixtisaslar üzrə 8 proqramın, 1 yaddaş kitabçasının, 5 dərs vəsaitinin, 2 cildlik dərsliyin, 60-a yaxın elmi əsər və məqalələrin müəllifi və həmmüəlliflərindəndir. Bir neçə iqtisadi və bədii ədəbiyyatın redaktorudur. Yüzlərlə diplom və buraxılış işlərinin, magistr dissertasiyalarının rəhbəri və namizədlik dissertasiyasının apponenti olmuşdur.



Aysəba xanım hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin «Marketinq və ticarət» kafedrasında doktorluq dissertasiyası üzərində çalışır.

O, elmi-pedaqoji fəaliyyəti ilə yanaşı siyasi və ictimai münasibətlərdə də iştirak etmiş və eyni zamanda, ictimai təşkilatlarda da çalışmışdır. Belə ki, o, ilk əvvəl fəaliyyət göstərdiyi fakültədə bir neçə dəfə ictimai əsaslarla Tələbə Elmi Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır.

Aysəba xanım YAP-ın üzvü olmaqla, Az.DİU-nun YAP idarə heyətinin, «Sevil» Qadınlar Cəmiyyəti idarə heyətinin və habelə YAP-ın Nəsimi və Binəqədi rayonları «Sevil» Qadınlar Cəmiyyətinin üzvüdür. Bunun nəticəsi kimi, Aysəba xanım dəfələrlə efir və mətbuat vasitəslə elmi-siyasi çıxışlar etmiş, türk dünyasının böyük öndəri Heydər Əlirza oğlu Əliyevin şəxsiyyəti və onun fəaliyyəti haqqında yazılar dərc etdirmişdir.

Aysəba xanım Azərbaycanın fəal qadınlarından biri kimi, Azərbaycan Qadınlarının II qurultayının iştirakçısı olmuşdur. Bunun nəticəsində də Aysəba xanımın respublikadakı elmi-pedaqoji və ictimai-siyasi fəaliyyəti nəzərə alınaraq o, bir sıra medal və diplomlarla təltif olunmuşdur. Bunlara XX əsrin Azərbaycan qadınına «Qadın dünyası» xatirə medalını, elmi-pedaqoji və yaradıcılıq fəaliyyətinə görə «Qızıl saz» diplomunu, «XXI əsrin tanınmış xanımı» Beynəlxalq diplomunu, Azərbaycan Respublikası «Simurq» Milli mükafat fondunun 2004-cü baharın uğur çələngi müsabiqəsi laureatının ali dərəcəli «Azərbaycan qadınının simvolu» diplomunu, «Xan qızı Natəvan» mükafatının laureatı diplomunu misal göstərmək olar.

Bütün bu keyfiyyətlərlə yanaşı, Aysəba xanım etibarlı və vəfalı həyat yoldaşı, qayğıkeş ana və sevimli nənədir. İndi onun övladları ata-anasının yolunu davam etdirirlər.

Güclü qələm ustası, jurnalist Xanım Bilal qızının Aysəba xanım haqqında yazdıqlarından sitat gətirmək yerində olardı: «Aysəba xanım ömür-gün yoldaşı Əsəd müəllimin həyatının başlanğıcı, məhəbbətinin özülüdür. Hiss etdim ki, Aysəba xanım ömür-gün yoldaşına qəlb dünyasında son dərəcə ülvidir, pakdır».

Bu gün Əsəd müəllim Aysəba xanımı özünün isti ocağının bahar nəfəsi, həyat çeşməsi kimi dəyərləndirir.[x] Bunu Əsəd müəllimin həyat yoldaşının ülvi məhəbbətinə həsr etdiyi bir şeri ilə fikrimi tamamlamaq istərdim:

*Üç oğulun anasısan,*
*Odlarına yanasısan,*
*Bircə qızın yoxluguna,*
*Qocalıram demə, Gülüm!..*

* * *

*Bağça-bağın qoşa-qoşa,*
*Ömrü vuraq birgə başa,*
*Çox gəzəndə incimədkən,*
*Qocalıram demə, Gülüm!..*

* * *

*Yaşın sənin ötməyibdir,*
*Cavanlığın keçməyibdir,*
*Saçlarına düşən dəndən,*
*Qocalıram demə, Gülüm!..*

* * *

*Məhəbbətin aşıb-daşır,*
*Gözəlliyin şölə saçır,*
*Ərinin sən, kürlüyündən,*
*Qocalıram demə Gülüm!..*

Bax, buna görə də biz Aysəba xanımı «Azərbaycan qadınının simvolu» adlandırmağımız, zənnimizcə yerində olardı.

[x] Bax, «Мир женщины» qəzeti, 8-21 mart, 2002-ci il.



## Qayğıkeş həkim

1941-ci ilin ağır günləri... Hamı hitlerçilərə nifrət yağdırır. Doğrudan da, bu ağır vaxtda orta məktəbi bitirən hər kəsə "fərasətli" deyərdilər.

Bakı 1№-li orta məktəbini qurtaranlar içərisində bəstəboy, xoşsifət və çatmaqaş bir qızın sevinci yerə-göyə sığmırdı. Müharibənin bu dəhşətli günləri qızcığaza da təsir etmişdi. O, həmişə öz-özünə düşünür, hey düşünür... Həkim olub yaralı əsgərləri sağaltmaq onun fikrindən bir an belə çıxmırdı. O da cəbhələrdə su kimi qan axıdan cəsurlarımızla birlikdə vuruşmağı, tezliklə onların köməyinə çatmağı unutmurdu. Əlbəttə, elə ağır günlərdə döyüşçülərə köməklik göstərmək böyük şərəf idi.

Oxucu yəqin ki, haqqında danışacağım bu gənc qızla maraqlanacaqdır. Həmin qızın adı Alya, familyası Xanlarovadır.

Alya döyüşçülərimizin qəhrəmanlıq rəşadətindən sevinərək dərslərindən əsla geri qalmırdı. O, 10 illik təhsilini əla qiymətlərlə başa vurub, 1941-42-ci illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun "Müalicə - profilaktika" şöbəsinə daxil oldu. Həvəslə oxuyan Alyanı İnstitutu qurtaran kimi Fizuli rayonunun Horadiz kəndinə göndərdilər. Kəndin camaatı bu gənc həkimi hərarətlə qarşılamışlar. Tezliklə Xanlarova kənddə öz hörmətini qazandı. Gənc həkim hər bir xəstənin dərindən qayğısına qalır və onlara öz ailə üzvü kimi baxırdı. Axı nə üçün də baxmasın? O da istərdi ki, xalqının adlı-sanlı həkimlərindən biri olub vətəninə sədaqətlə işləsin.

Alya öz sənətini sevirdi. O, hələ uşaqlıqdan tibb işçilərinə rəğbət bəsləyərdi. Atası Rəhim kişi həmişə qızının başını əllərilə oxşayıb deyərdi:

- Qızım, sən hansı sənəti sevirsən?

O cavabında:

-Atacan, o ağ xalatlılar mənə çox xoş gəlir. Görəsən mən də tibb işçisi ola bilərəmmi?

-Olarsan qızım, olarsan...

Atası qızının bu sözlərini buruq arxasında da unutmurdu. O, «Leninneft» Mədənləri İdarəsində qazma ustası idi. Bakının bu böyük mədənində 55 il zəhmət çəkən Rəhim kişi övladının firavan gün keçirməsi üçün buruq ustası kimi ad-san qazanmışdır. Qəhrəman şəhərimizin qara qızılını getdikcə artırmağa çalışır, zəhmət naminə gözünün işıqlısı Alyanı gələcəkdə savadlı etməyi qarşısında məqsəd qoyaraq öz ümidini doğruldurdu.

Doğrudan da, elə də oldu. Rəhim kişi halal zəhmətilə böyütdüyü qızı Alyanı Tibb İnstitutuna qoyduqdan sonra ömrünü artıq başa vurmuşdur. Atasının vəfatı Alyanı çaşdırmamış, onun gələcəyin həkimlik arzusu artıq həqiqətə çevrilmişdir. İndi onu Horadiz kəndinin camaatı qayğıkeş bir həkim kimi tanıyırdılar. Bəli, o, qayğıkeşliyilə də fəxr etməyə bilməzdi.

Alya Xanlarova 1947-ci ildə ailə şəraitinə görə doğma Bakıya qayıdır. Bakıda o, Şəhər Səhiyyə şöbəsində inspektor vəzifəsində işləməyə başlamışdır. Bir il müddətində kollektivin dərin hörmətini qazanan Xanlarovanı Leninqradda Mərkəzi Həkimləri Təkminlləşdirmə İnstitutuna göndərirlər. O, Leninqradda 6 ay müddətində «Bədən tərbiyəsi işində müalicəvi tibbi nəzarət» ixtisası üzrə oxumuşdur. İxtisasını təkmilləşdirdikdən sonra Alya yenidən qara qızıl şəhərinə qayıdır. Alya xanım Bakıda bir neçə müalicə xəstəxanalarında işləyərək zəhmətkeşlərin cansağlığını qorumaqla əlindən gələni əsirgəmirdi. Xanlarova eyni zamanda, şəhərdə Semaşko adına, Caparidze adına və digər uşaq poliklinikalarında, doğum evlərində ciddi işləyərək bədən tərbiyəsi vasitəsilə müalicə işlərini tətbiq etməklə məşğul olmuşdur.

1955-ci ildə Bakı Şəhər Səhiyyə şöbəsinin qərarı ilə həkim Xanlarova Azərbaycan Dövlət Universitetinin «Tibb məntəqəsi»nə göndərilmişdir. O, müdir olduğu gündən müəllim və tələbə kollektivinin rəğbətini qazanmağa çalışmışdır.

1957-ci ildə həkim Xanlarovanın təşəbbüsü ilə tələbələrin səhiyyə və müalicə işlərinin daha da yaxşılaşdırılması üçün ADU-da 25 çarpayılıq «27№-li birləşmiş xəstəxana» və «ambulator şöbəsi» yaradılmışdır. Xəstəxananın baş həkimi Alya Xanlarova təyin olunmuşdur.



Alya xanım işlədiyi ildən başlayaraq öz işinə məsuliyyətlə yanaşmış və kollektivi ilə birlikdə tələbələrin mualicəsi işində mühüm rol oynamışdır. Bunun nəticəsində də xəstəxanada qrip, mədə-bağırsaq və infeksion /keçirici/ xəstəliklərinin qarşısı alınmış və onların azalması faizi aşağı düşmüşdür. Belə ki, 1957-ci ilə nisbətən 1960-cı ildə 17,5 %, 1961-ci ildə 18,5 % və 1962-ci ildə isə 19,8 % yoluxucu xəstəliklər azalmışdır.

Həkim Xanlarovanın təşəbbüsü ilə ADU-nun yeni tələbə yataqxanalarında həkim məntəqələri açılmış və tələbələr arasında sanitariya-gigiyena işlərinin yaxşılaşdırılması üçün geniş səhiyyə – maarif işləri aparılmış, yataqxanalarda, eləcə də fakültələrdə daimi tibbi muhazirələr təşkil olunmuşdu. Belə ki, «Tələbələrin şəxsi gigiyenası», «Yataqxanalarda özünəxidmət qaydaları», «İnfeksion /keçirici/ xəstəliklər» və sair haqqında maraqlı mühazirələr oxunmuşdur.

Bir sözlə, baş həkim Xanlarovanı universitetdə «tələbə Xanlarova» adlandırırdılar. Bu da təsadüfi deyildir. Səbəbi Alya xanımın tələbələrin həm yataqxana və idman həyatında və həm də istirahət evlərində, düşərgələrdə onlarla birgə təmasda olmasıdır. Təkcə bunu misal göstərmək kifayətdir ki, o, tələbələrin 1958-ci ildə «Bakı-Tiflis» və 1960-cı ildə «Bakı-Lənkəran» velosiped yürüşlərinin iştirakçısı olmuşdur. 1962-ci ildə isə ADU-nun idmançı tələbələri ilə Kiyev və Lvov şəhərində keçirilən Universitet tələbə idmançılarının dostluq yarışında iştirak edərək tələbə kollektivi ilə birlikdə qalibçi bir qadın kimi tanındı.

Baş həkim Xanlarova, nəinki öz vəzifəsini layiqincə yerinə yetirmiş, eyni zamanda 1956-cı ildən etibarən Azərbaycan SSR Səhiyyə Nazirliyinin 1№-li xəstəxanasının poliklinikasında növbətçi həkim işləmişdir. Buna görə də ADU-nun birləşmiş xəstəxanasında müalicə olunanlar Alya Xanlarovanın xidmətindən və onun qayğıkeşliyindən çox razı qaldıqlarını bildirmişlər. Onlar öz ürək sözləini xəstəxananın «Şikayət və təkliflər» kitabına yazmışlar. Buna universitetin «Azərbaycan ədəbiyyatı tarixi» kafedrasının dosenti Pənah Xəlilovu, 26 Bakı Komissarları adına rayonun partiya komitəsinin işçisi Verni Qaranı, «Azinmaş»ın mühəndisi Elza Axundovanı və başqalarını misal göstərmək olar.

Beləliklə də, baş həkim Xanlarovadan xəstəxana kollektivinin gələcək işləri haqqında soruşduqda o, belə cavab vermişdi:

-Bizim xəstəxananın əməksevərləri professor-müəllim heyətinin, tələbələrin, eləcə də şəhər zəhmətkeşlərinin sağlamlığı keşiyində əzmkarlıqla durmaqla, gələcəkdə «kommunist əməyi briqadası» adını almaq arzusundadırlar*.

***Bakı, Universitet, 1962-ci il.***

* Qeyd: Məqalə «Azərbaycan qadını» jurnalının 1964-cü il, 2-ci nömrəsində «Sağ ol, Ayla xanım!» başlığı ilə dərc olunmuşdur.



## Onun həyat yolu

O, başını yuxarı qaldırdıqda artıq hava qaralmışdı. Qonşu otaqdakı göz həkimi Rəfiqə Ələsgərova onun yanına gələrək:

\- Bacı, /onlar mehribanlıqdan bir-birini bacı deyə çağırardılar/ artıq iş günü qurtarıb, hazırlaş gedək.

Rəfiqəsi xəstələrin qeyd dəftərçələrini səhmana salıb ayağa qalxdı. Pilləkənlərlə aşağı mərtəbəyə enərək bayıra çıxdılar. Xudahafizləşib ayrıldılar.

Şəhərimizin sakinləri yəqin ki, 3- cü mikrorayonda tikilmiş üç mərtəbəli yaraşıqlı bir binanı görmüşlər. 20 №-li şəhər poliklinikası bu binada yerləşir. Roliklinikada hər gün yüzlərlə xəstəyə sevinc bəxş edilir. Burada qulaq-boğaz-burun həkimi Pakizə Məmmədxanlının da böyük əməyi vardır. O, maraqlı bir həyat yolu keçmişdir.

Pakizə ilk təhsilini Qaryagin rayonunda /indiki Füzuli rayonu/ almışdır. 1925-ci ildə Bakıdakı «Darülməlumat»ın nümunə məktəbinə daxil olub, sonralar isə «Darülməlumat»ın özündə oxumuşdur. Oranı bitirdikdən sonra Xalq Maarif Komissarları Sovetinin təyinatına görə yenidən Qaryagin rayonuna göndərilib rayonun Qoçəhmədli kəndinin 7 illik məktəbində ibtidai məktəb müəlliməsi işləməyə başladı. Həyata ilk dəfə qədəm qoymuş, ata-ana sözlərinin yazılışını öyrənməyə can atan, xalqının körpə balalarına dərs demək ilk vaxtlar gənc Pakizəyə çətin görünürdü. Sonralar o, bu həyata alışdı. Lakin onun arzusu həkim olmaq idi.

1932-ci ildə o, Bakıya qayıdıb, Azərbaycan Dövlət Tibb İnstitutunun «Müalicə» fakültəsinə daxil olmuşdur. 1937-ci ildə oranı bitirib Ağdam rayonunun poliklinikasında həkim işləməyə başlayır. Peşə sevgisinin, ixtisas həvəsinin ilk qığılcımları onun kiçik qəlbində belə parlayıb yandı. Az bir zamanda rayonda yaxşı həkim kimi tanındı. O, 22 il fasiləsiz olaraq əhaliyə tibbi yardım göstərməklə bərabər, həmin müddət ərzində Ağdam rayonunun Tibb məktəbində dərs də demişdir.

Böyük Vətən Müharibəsinin qızğın illəri idi. Pakizə bir qrup həkimlərlə bərabər gecə-gündüz işləmiş, rayonda olan hərbi xəstəxanada cəbhə yaralılarını sistematik olaraq müalicə etmişdir. Müharibənin çətin illərində hərbi xəstəxananın rəisi Nadir Zeynalov, cərrah Qurban İbrahimov, Şamxalov və başqa həkimlərlə birlikdə Pakizə çiyin-çiyinə verərək işləmişlər.

1941-45-ci illərdə o, Ağdamın Boyəhmədli kəndində, Yaxınkənd, Əhmədvar, Şelli, Şıxbabalı, Ağdamkənd, Çəmənli, Güllücə kəndlərinə təhkim olunaraq yatalaq xəstəliyinə qarşı mübarizə aparmışdır. Bu illər ərzində artıq öz sənətini yaxşı bilən istedadlı mütəxəssis kimi yetkinləşmiş Pakizədə öz peşəsinə daha dərindən həvəs artmışdı.

1960-cı ildən etibarən o, Bakıya gəlib Azərbaycan Su Təsərrüfatı Səhiyyə idarəsinin Uşaq poliklinikasında qulaq-boğaz-burun şöbəsində həkim işləmişdir. 1964-cü ilə qədər Bakı 3 №-li şəhər poliklinikasında, həmin ildən ömrünün axırına kimi Nəsimi rayonu 20№-li şəhər poliklinikasında qulaq-boğaz-burun həkimi işləyir. O, bu müddət ərzində kollektivin dərin hörmətini qazanmışdır. Poliklinikanın baş həkimi Rüxsarə Abdullayevə və ilk partiya təşkilat katibi Suğra Həsənova onun işindən həmişə razılıq edirlər. Budur, iş yoldaşlarından göz həkimi Rəfiqə Ələsgərova deyir:

-Pakizə xanım məqsədsiz həyat sürənləri sevmir, öz işində yeni üfüqlər fəth etməyə çalışır, zəhmətkeşlərin sağlamlı-ğını qorumaq üçün əlindən gələni əsirgəmir.

Pakizə xanım 30 illik təcrübəsini gənc həkimlərə öyrədir, yeni işə gələn tibb bacılarına diqqətlə yanaşır. Zərnişan Qədirova, Leyla Usubova, Roza Kovalenko, həkimlərdən Məryəm Mirhadızadə, Natella Baqiyeva və başqaları onun yetirmələrindəndir. Pakizə xanım deyir: «İnsanlara fayda vermək, gənc tibb işçilərinə kömək əlini uzatmaq, onları bir sənət sahibi etmək, bu, əbəttə, daha böyük səadətdir».

Biz Pakizə Məmmədxanovanın işi ilə tanış olmaq üçün şöbəyə daxil olduq. O, Tofiq Əhmədovu müayinə edirdi. Gənc öz razılığını bildirərək deyir:



-Mən ümumiyyətlə, qulaq-boğaz-burun həkimi Pakizə Məmmədxanovadan və göz həkimi Rəfiqə Ələsgərovadan çox razıyam. Onlar müalicə müddətində mənə çox mehriban və diqqətlə yanaşmışlar.

Pakizə xanım işlədiyi müddətdə Azərbaycan SSR Ali məhkəməsinin icraçısı və poliklinikanın yoldaşlıq məhkəməsinin sədri olmuşdur.

Pakizə Məmmədxanovanın uzun müddətli tibb sahəsində olan təcrübəsi nəzərə alınaraq ona dəfələrlə təşəkkürlər verilmişdir.

Beləliklə, Pakizə xanım kimi onunla işləyən əməkdaşların da xeyirxah əməyinə qiymət verən çoxlu sözlər və səmimi təşəkkürlər poliklinikada müalicə olunan xəstələr tərəfindən bildirilmişdir.

Pakizə xanımın həyat yolu bax belə mənalı keçmişdir. Arzu edərdik ki, bütün gənc həkimlər də Pakizə xanım kimi mənalı həyat yolu keçsinlər*.

***10.11.1980-cı il.***

---

* Qeyd: Bu məqalənin mətni «Bakı» qəzetinin 8 dekabr, 1969-cu il tarixli nömrəsində dərc olunmuşdur.

## Gələcəyin filoloqu və müğənnisi

1962-ci ilin aprel ayında ADU-nun filologiya fakültəsində «Şairlər gecəsi» keçirilirdi. Gecənin sonunda fakültə özfəaliyyət kollektivinin çıxışı oldu. Səhnədə ucaboylu qızın ifa etdiyi «Bakı gecələri» mahnısı tamaşaçılara xüsusilə xoş tə'sir bağışladı.

Haqqında bəhs etdiyimiz ADU-nun I kurs tələbəsi İlhamə Quliyevadır. O gündən sonra İlhamə özfəaliyyət ansamblının üzvü seçildi. Bu qızın mahnı həvəskarı olmasının səbəbi vardır. Ona bu həvəs anası Tükəzban İsmayılovadan bəxş edilmişdir. Zənnimizcə adı çəkilən şəxs oxuculara yaxşı tanışdır. O, hazırda M.Maqomayev adına Azərbaycan Dövlət filarmoniyasının solistidir. Bəli, elə ananın da belə qızı olar. İlhamədə musiqiyə həvəs hələ uşaqlıqdan yaranmışdır. O, tez-tez oxuduğu 7 №-li fəhlə-gənclər orta məktəbində şagird dostları arasında çıxış edirdi. İfa etdiyi Səid Rüstəmovun «Sürəyya», özbək xalq mahnısı «Anacan» və s. mahnıları rəfiqələri arasında hörmət qazanmışdır. Bu gənc qız dərsdən sonra piano çalmağı da çox sevirdi. Anası qızının yorğun olmasını görən kimi xoş təbəssümlə:

- Qızım, gəlib bir az dincəl, sonra çalarsan.

O çavabında:

- Anacan, mənə icazə ver, əvvəl çalım, axı həvəsim vardır.

Bu anda anası da qızına qoşulub piano səslədərdilər. Royal arxasında anası İlhaməyə eyni zamanda məlahətli nəfəs ritmlərini öyrədərdi. 1956-cı ildir. Afişalarda yeni yazılan sözlər hər kəsi cəzb edir.

- Sabah Bakı məktəblərinin olimpiadasıdır!

Bu bayram günündə İlhaməyə də məktəblilər qarşısında çıxış etmək nəsib olmuşdur. Onun ifaçılıq bacarığı həmin gündən müəyyənləşdirildi. İlhamənin adı bundan sonra məktəblər arasında tez-tez çəkilirdi.

İlhamə orta məktəbi qurtaran kimi 1962-ci ildə ADU-nun filologiya fakültəsinə daxil oldu. Həmin ilin dekabr ayında respublika ali məktəbləri üzrə bədii özfəaliyyət kollektivlərinə baxış keçirildi. O, ADU-nun «Sevinc» ansamblında məharətlə ifa



etdiyi Bəxtiyar Kərimovun «Sevəydim barı» mahnısı ilə tamaşaçıların rəğbətini qazandı. Buna görə də onun məlahətli səsi baxışda ali məktəblər üzrə Az.HİŞ-i tərəfindən bəyənildi. Bundan sonra İlhamə Azərbaycan Radio və Televiziya verilişləri idarəsinə də'vət olunmuş, «Komsomol nəsli» jurnalı verilişində Ələkbər Tağıyevin «Bakı gecələri» və «Gənclər klubu»nda «Ananın səsi» mahnılarını ifa etmişdir. Budur, qəzetlər yeni xəbər verir: ADU-nun «Sevinc» ansamblı 1963-cü il yanvarın 27-də Moskvaya qastrol səfərinə yola düşəcəkdir. Qeyd etmək olar ki, ansamblın Moskvada verdiyi konsertdə gənc müğənninin ifa etdiyi Bəxtiyar Kərimovun «Sevəydim barı», «Bakı gecələri» və ərəb xalq mahnısı «Mustafa» mahnıları sanki moskvalıların ürəyincə oldu. Gənc müğənniyə alqışların ardı-arası kəsilmirdi.

İlhamə Quliyevanın ifaçılıq məharəti bakılı dostlarını da həddindən artıq sevindirdi. Onun bu qələbəsi Azərbaycan kinostudiyasının «Sovet Azərbaycanı» kino jurnalının 2-ci nömrəsində işıqlandırılmışdır. Təsədüfi deyildir ki, 1963-cü ilin aprel ayında respublikanın əməkdar artisti Tofiq Əhmədovun idarəsilə Azərbaycan Dövlət Radio və Televiziyası estrada orkestrinin konsertində İlhamə İbrahim Topçubaşovun «Qubalı qız» mahnısını məharətlə ifa etmişdir. Elə buna görə də İlhamə özünün gələcəyini ifa etdiyi mahnılarının məlahətli səsi ilə biruzə verirdi. Şübhə etmirik ki, o, gələcəyin filoloqu və əsl müğənnisi olmağa layiqdir.

**Bakı, ADU, 1963-cü il.**

## Ömrün qısa baharı

Şüşa şəhərində çox qısa bir müddətli ömür sürmüş, şərəfli ana olmaq arzusunda yaşamış cavan bir qızın həyatından dəqiqələri hörmətli oxucularımıza çatdırmaq, mənim üçün şərəfli olardı. Həmin qız şuşalı Ramizə Axundovadır. O, cəmi 33 il ömür sürmüşdür. (1932-1965). Bu qız yaşasa idi, bəlkə də ən keyfiyyətli analıq qayğısını həyat ona bəxş edərdi.

Ramizə, həyatının çiçəkləndiyi bir dövründə – 1965-ci ildə vaxtsız vəfat etmişdir. Ramizə Axundova, qısa bir müddət ərzində geniş yaradıcılıq yoluna qədəm qoymaq istəmişdir. Gənc komsomolçu qız 1952-ci ildə qəbul imtahanlarını müvəffəqiyyətlə verib iki illik Ağdam Dövlət Müəllimlər İnstitutuna qəbul olunmuşdur. O, təhsil aldığı müddət ərzində ona dərs keçən müəllimlərin dərin rəğbətini qazanmışdır.

Vaxtı ilə Ramizənin ədəbiyyat müəllimi olmuş, hazırda Azərbaycan SSR EA-nın respublika Əlyazmaları İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru, professor Şamil Cəmşidov indi də qabaqcıl bir tələbəsi kimi onu yad edib xatırlayır. Şamil müəllim söhbət əsnasında belə qeyd etdi:

- Həqiqətən də Ramizə yaxşı bir tələbə kimi xatirəmdən silinmir. Onun ədəbiyyata olduqca həvəsi vardı, hafizəli qız idi. Lakin nə etməli..., amansız xəstəlik onu pedaqoji təhsilini davam etdirməsinə imkan verməmiş və 1953-cü ildən etibarən o, İnstitutdan ayrılmalı olmuşdur.

Ramizə ömrünün axırına kimi Şuşa xəstəxanalarının birində tibb işçisi vəzifəsində çalışmışdır. Qeyd etmək istərdim ki, Ramizə öz şəxsində bir tərbiyəçi kimi də ailədə tanınmışdır. Bundan əlavə onun gözəl əl işləri var idi. O, yaxşı dərzi olmaqla bərabər, toxuduğu tikmələr, naxışlar, tesmalar öz zərifliyi ilə fərqlənirdi. Hazırda onun əl işlərindən biri (naxışlı tikməsi) «Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənətinin Dövlət muzeyi»nə təqdim olunmuşdur.

Ramizə savadlı bir qız idi. O, atası məşhur pedaqoq, şair və tarixçi Mirzə Xosrov Axundzadə – Şaiq təxəllüsündən ərəb



əlifbasını öyrənmiş və atasının əlyazmalarını yeni əlifbaya köçürmüşdür*.

Ramizənin qısa müddətli həyatında mühüm yerlərdən biri onun şerə, poeziyaya dərindən meyl etməsidir. Təsadüfi deyildir ki, onun bir sıra şer və məqaləsi hal-hazıra kimi qalmaqdadır. O, eyni zamanda atası Mirzə Xosrov Şaiq haqqında xatirələr də yazmışdır.

Ramizənin şerləri böyük arzu və ideallarla yaşayan bir gəncin ürək döyüntüsünü əks etdirir. O, yazdığı şerlərində öz ana vətəni olan Şuşaya dərin məhəbbətini bildirir.

Ramizə Axundovanın şerlərində əsas yerlərdən birini onun anaya məhəbbəti, etimadı tutur. Tarixdə elə bir sənətkar tapılmaz ki, ana mövzusuna müraciət etməsin, analıq qayğısından yazmasın. Ana həmişə ona müqəddəs olmuş və müqəddəs olaraq qalır. Bu baxımdan Ramizənin «Şuşa» və «Ana» şerlərində doğma vətəninə məhəbbəti daha dolğun özünü göstərir. O, bu məhəbbəti əsl «ana məhəbbəti» adlandarır. Oxucularımızın marağını artırmaq üçün Ramizə Axundovanın şerlərini aşağıda dərc edirik:

**Ana**

*Ey sevimli ana! Mehriban qadın!*
*Nə qədər qəlbimdə əzizdir adın.*
*Bağrına basaraq, böyütdün bizi,*
*Yatmadın gecəni, bütün gündüzü.*

*Dözdün məharətlə hər bir zəhmətə.*
*Çatdırdın sən bizi bu gün sənətə.*
*Gərəkdir borcunu qaytaram ana,*
*Bu borc ehtiramdır, həm hörmət sənə.*

*Ana dedikdə mən titrəyir qəlbim,*
*Yox olur bir anda kədərim, dərdim*
*Bu adda nə böyük mətanət vardır,*
*Ananı sevməyən sanki nadandır.*

* Hal-hazıra kimi həmin əlyazmalar mənim arxivimdə saxlanılır.

*Doğma vətənim də anadır mənə,*
*Onu da sevirəm sən qədər yenə.*
*Böyütmüş qoynunda igid balalar,*
*Çıxıb azadlığa bizim analar.*

**23.02.1964-cü il.**

**Şuşa**

*Gözəl təbiətli havalı Şuşa,*
*İnsana təbibtək verirsən şəfa.*
*Axır dağlarından sərin suların.*
*Ellərin məskəni olmuş yaylağın.*

*Elə ki çıxırsan «Cıdır düzü»nə,*
*Sevincdən şən vətən gülür üzünə.*
*Yetirmiş bu yerlər dahi alimlər,*
*Bəstəkar, xanəndə, böyük şairlər*

*Böyük Vaqifə də vətənsən Şuşa!*
*İnamla ömrünü o vurmuş başa.*
*Zalımın əli ilə qəlbi dayanmış,*
*Məzarı üstündə büstü ucalmış.*

*Yox, Vaqif ölməmiş, qəlbi döyünür.*
*Qarşımda sanki o, canlı görünür.*
*Baxır vətənin gözəlliyinə,*
*Keçmişdən bir əsər qalmasın belə.*

*Sən mənim sevincim, fərəhim Şuşa!*
*Fəxr edir adınla hər el, hər oba,*
*Canımdan da artıq sevirəm səni,*
*Görəsən sevməyən varmı vətəni?*

*Demirəm qocasan az deyil yaşın.*
*Nələr çəkməyibdir bəlalı başın.*
*Versə də yağılap əziyyət sənə.*
*Qırmadı xalqımın qəlbini yenə.*



Qısa ömrünü başa çatdıran nakam şerlərindən bir misrası mərhumə Ramizənin məzarının baş daşında həkk olunmuşdur:

*Sən xoş arzulardan ilham almısan,*
*Sevimli qızına layla çalmısan.*
*Hər yerdə, anacan, hörmətin vardır,*
*Anası olanlar nə bəxtiyardır!*

Qeyd etmək olar ki, Ramizənin öz sağlığında bir sıra şer və məqalələri yerli mətbuatda dərc olunmuşdur. Budur, «Şuşa kurortu» qəzetinin 5 aprel 1964-cü il tarixli nömrəsi qarşımızdadır. Tibb işçisi Ramizə Axundovanın «Sağlamlıq ən gözəl nemətdir» adlı məqaləsini oxuduqda sanki, həyata daima can atmaq istəyən və özünü həyatda sağlam görmək arzusunda olan bir qızın istəkləri tərənnüm edilir:

-«Həyatımızda nə varsa, hamısı sağlam, təmiz və yaraşıqlı olmalıdır, çünki sağlam və mənəvi saflıq, uzun ömrün rəhnidir».

Nə etmək olar..., fəal komsomolçulardan biri Ramizə Axundova həyatdan tez ayrılmalı oldu. Onun qısa ömrünün baharı çiçəklənmədən məhrum oldu...

**06.08.1984-cü il.**

## Kənd müəllimi

Qarabağ! Doğma yurdumuzun gəlin kimi bəzəkli, gözəl məskəni! Sənin füsunkar təbiətinə baxmaqdan kim doya bilər? Hələ ağ örpəyini açmamış başı qarlı uca dağlarını, yaşıl məxmərdən don geymiş yamaclarını, ilan kimi qıvrılıb gedən çaylarını, gül-çiçəkdən xalı sərmiş düzlərini, bərəkətli tarlalarını seyr etdikcə baxışlar gülür, qəlb titrəyir, xəyal bir quş kimi qol-qanad açır. Təbiətin bütün gözəlliklərini özündə əks etdirən Qarabağ və bu gözəl diyarın səfalı yerlərindən biri də DQMV-nin mərkəzi Xan kəndidir. Şəhərdən 4-5 kilometr aralı Xocalı rayonu yerləşmişdir. Rayonun camaatı Şükür kişinin ailəsinə çoxdan bələddirlər. Şükür kişi övladları ilə fəxr edirdi. O, oğlunun birini – Vaqifi ordu sıralarına yola salmışdı. Digər oğlu Bakir isə hələ orta məktəbi bitirməmişdi. Bakir, məktəbi qurtaran kimi ali məktəbə daxil olmaq arzusunda idi. Budur, ona kənd orta məktəbinin direktoru kamal attestatı təqdim edərək əlini bərk-bərk sıxıb deyir:

-Bakir, sənə müvəffəqiyyətlər arzu edirəm. Ümidvaram ki, ali məktəbi də bitirib kəndimizin mayaklarından biri olacaqsan.

Bu sözlər Bakiri yol boyu düşündürdü. Evə çatdıqda anası oğlunun fikirli olmasını hiss edərək:

-Bakir, sənə nə olub? Dənizdə gəmin batmayıb ki? Tay-tuşların bu gün bayram edir, sən isə…

O, cavabında:

-Ana, görəsən mən də İnstitut tələbəsi olacağammı?

Anası:

-Başına dönüm, fikir etmə, ali məktəbə də daxil olarsan, lakin öz üzərində bundan sonra daha artıq çalış ki, qəbul imtahanları zamanı çətinlik çəkməyəsən.

Həmin gündən etibarən Bakir gecə-gündüz mütaliə edərək iyul ayında sənədlərini Azərbaycan Dövlət Universitetinə göndərdi. Bir neçə gündən sonra o, özü də «Qara qızıl» şəhərinə yola düşəcəkdi. Bakir səhərin açılmasını səbirsizliklə gözləyirdi. Sübhdən qalxıb çamadanını rahatlayaraq bir anlığa belə yola düşməyə tələsirdi. Bakir, tələsmə, avtobusa çatarıq-deyə atası dilləndi. Bu anda pəncərənin yanında durmuş xoşsifət qadın sevincindən yaylığının ucu ilə gözlərini silərək:



-Anan sənə qurban oğul, yaxşı yol!…

Budur, Xan kəndi-Bakı «Zil» avtobusu Xocalı şəhərini arxada qoyur. Bakirin həmyerliləri ona əl etməkdən belə yorulmurdular. Avtobus Qarabağın geniş göy-çəmənlikləri boyunca yan alır. Cavan oğlan düşünür və bir anlığa belə atasının sözlərini təkrar etməkdən doymurdu:

- Oğul, get yaxşı oxu, gələcək sizinlədir, gərək kənd camaatı sənin yeni müvəffəqiyyətlərinlə fəxr edə.

Bakir Məmmədov öz arzusuna çatmışdı. O, sənədlərini S.M.Kirov adına ADU-nin tarix fakültəsinə vermişdi. Qəbul imtahanlarından «əla» və «yaxşı» qiymət alanlar içərisində onun da adı vardır.

Bəli, Bakir gənc nəslin gələcək müəllimi olmasını qarşısına məqsəd qoymuşdur. O, universitetdə oxuyarkən ictimai işlərdə həmişə fəal iştirak etmişdi. II kursun tələbəsi olanda o da respublikamızın başqa gəncləri kimi partiya və hökumətin çağırışına qoşularaq, xam torpaq ölkəsi olan Qazaxıstan Respublikasına getmiş, orada da özünü bacarıqlı bir yoldaş kimi göstərmişdir. Buna görə də Bakir Məmmədov ÜİLKGİ-nın döş nişanı və Aktyubinsk Vilayət Komsomol Komitəsinin Fəxri fərmanına layiq görülmüşdür. Bakir Universitetdə oxuyarkən idmanla da ciddi məşğul olurdu. 4 il dalbadal universitetin ağırlıq qaldıranları arasında çempion adını qazanmışdır.

1961-ci ildə ADU-nun tarix fakültəsini bitirmiş bu gəncin adı Ağdərə rayonunun keçmiş Manikli kəndində böyük hörmətlə çəkilir. Bu təbiidir. Bakir müəllim işgüzarlığı, bacarığı və səyi nəticəsində özünün yaxşı bir müəllim olduğunu kənd camaatı arasında göstərə bilmişdir. O, özünün çalışqanlığı nəticəsində kənddəki onbirillk məktəbin dərs hissə müdiri vəzifəsində işləmişdir.

Budur, Bakir müəllimin xəyalı həqiqətə çevrilmişdir. Axı o, indi kənd müəllimidir.

*Bakı, 1962-ci il*

# İLK GÖRÜŞLƏR



## Bir görüşün tarixçəsi

Ötən il xalqımız özünün böyük oğullarından birinin-görkəmli dövlət xadimi, alim, yazıçı və dramaturq Şıxəli Qurbanovun anadan olmasının 70 illiyini qeyd etdi. Ş.Qurbanov milli adət və ənənələrimizin dirçəldilməsi yolundakı fəaliyyəti ilə hələ sağlığında hər bir azərbaycanlının qəlbində özünə əbədi məhəbbət qazanmışdı. Bu gün vəfatından 30 illik bir müddət keçəndən sonra iftixar hissi ilə xatırlayıram ki, sağlığında bu böyük qəlb sahibi ilə görüşmək səadəti mənə də nəsib olmuşdur. Həmin görüşün qısa tarixçəsi belədir.

1966-cı il idi. Azərbaycanın görkəmli maarifçisi olan atam Mirzə Xosrov Axundzadənin 12 min misradan ibarət «Şerlər məcmuəsi»ni çap etdirmək istəyirdim. Bununla əlaqədar olaraq, köməklik göstərmək məqsədilə o vaxtlar Azərbaycan SSR Ali Sovetinin sədr müavini vəzifəsində işləmiş, atamın keçmiş şagirdi Süleyman Vəzirovun yanına getdim. O, mənə kömək göstəriləcəyini deyib, məni yaxın dostu, o vaxtlar Respublika Dövlət Plan Komitəsinin sədri vəzifsində işləyən Mikayıl Allahverdiyevin sərəncamına göndərdi. M.Allahverdiyev də atamın keçmiş şagirdlərindən idi. «Hökumət evi»nə çatıb Dövlət Plan Komitəsinin yerləşdiyi mərtəbəyə qalxdım. Katibəyə müraciət edib özümü təqdim etdim və gəlməyimi sədrə çatdırmağı xahiş etdim. M.Allahverdiyev məni gözlədiyimdən də artıq bir səmimiyyətlə qəbul etdi. Zəng edib müavini Hilal Əsədovu da yanına çağırdı. Mikayıl müəllim atamın əlyazmasını nəzərdən keçirib mənə qaytardı və dedi:

-Oğlum, Mirzə Xosrovun əlyazmasını heç kimə vermə, vaxt gələr hamısını üzə çıxardarsan. Sonra da əlavə etdi:

- Süleyman Ələsgərov Azərbaycan KP MK-nın katibi Şıxəli Qurbanovdan xahiş edib ki, Mirzə Xosrovun əlyazmasını ona göstərmək üçün sənə imkan yaratsın. Sabah saat 11-də MK-da olarsan. Gəldiyini Ş.Qurbanova çatdırarsan, o, səni qəbul edəcək.

Mən S.Ələsgərovla Ş.Qurbanovun dostluğundan və yaradıcılıq əməkdaşlığından xəbərdar idim. Ertəsi gün deyilən vaxtda MK-ya getdim. Ş.Qurbanov məni kabinetində qəbul etdi. Çox mehribancasına görüşüb hal-əhval tutdu. Doğrusu, özümü həyəcandan tamamilə itirmişdim. Lakin o, utandığımı görüb məni daha səmimiyyətlə söhbətə qoşdu. Atamın «Şerlər məcmuəsi»ni alıb diqqətlə nəzərdən keçirtdi. Əlyazma ilə tanışlığı başa çatdırdıqdan sonra dedi:

-Pərviz, Mirzə Xosrovun əlyazmaları çox qiymətlidir. Darıxma, onların nəşri üçün sənə köməklik edəcəyəm.

Əfsuslar olsun ki, qəfil ölüm Ş.Qurbanova öz vədini yerinə yetirməyə imkan vermədi. Görüşümüzdən bir neçə ay sonra 1967-ci il may ayının 24-də onun alovlu ürəyi qəfildən dayandı, lakin xeyirxah niyyəti həyata keçdi. 1976-cı ildə «Gənclik» nəşriyyatı tərəfindən Mirzə Xosrov Axundzadənin həyat və yaradıcılığına həsr olunmuş «Mənalı həyat» adlı ilk monoqrafiyam, 1993-cü ildə isə «Yazıçı» nəşriyyatı tərəfindən Mirzə Xosrov Şaiqin ədəbi irsi «Ömürdən səhifələr» adı altında çap olunmuşdu*.

*Bakı, 1976-cı il*

* Məqalə «Azərbaycan müəllimi» qəzetinin 27 fevral 1996-cı il tarixli nömrəsindən götürülmüş və qısa redaktə olunmuşdur.



## Şüvəlanda Xəzər sahilinə səyahət

Təbiətin qoynunda yerləşən Xəzər dənizinin öz füsunkar gözəlliyi vardır. Mən indiyə kimi dənizi belə seyrə çıxmamışdım. Dalğalar qabarıqlığını artırdıqca o daha ciddiləşib sanki insanlara özünün qeyrətliyini göstərirdi…

Uzaqdan dəniz qoruyucularının bayraqları yellənir və motorlu qayıqların isə tırıltısı adamı sanki ayıq durmağa çağırırdı…

1990-cı ilin avqust ayında mən dostum və həmkarım, professor Kamal Rzayev və Ələddin Şabanovla birlikdə Şüvəlan bağına bir günlük səyahətə çıxdıq. Ələddin müəllimin Şüvəlanda ata bağı vardır. Bizi o, bağına dəvət etmişdir. Ələddin şəxsi «Jiquli»si ilə bizi bağına apardı. «Jiquli» şütüyə-şütüyə Mərdəkana daxil olub Şüvəlana doğru yan aldı. Biz yol boyu zarafalaşırdıq. Kamal müəllim çox zarafatçıl şəxs idi. O, Ələddinin elmi rəhbəri olmuşdur. Elə buna görə də Ələddin həmin ilin qış fəslində pedaqoji elmlər namizədi alimlik dərəcəsi adını almaq üçün namizədlik dissertasiyanı müdafiə etdi. Bu da əlbəttə, onun elmi rəhbəri Kamal müəllimin böyük əməyinin nəticəsində başa gəlmişdir.

Biz Şüvəlanda Ələddinin ata bağında dadlı-ləzzətli kabab bişirib onun da yanında «narşərabı» qoymuşduq. Tikə kababları dişimizə çəkdikcə elə bil ömrümüzə bir səhifə əlavə olunurdu. Nahardan sonra Xəzər sahilini seyrə çıxdıq. Xəzər necə də gözəldir. Ələddin bizi Şüvəlan dağlarına apardı. Elə bil ki, o, dağları özü yaratmışdır… Demə onun maraqlı adətləri varmış.

Ələddin çox zirək adam idi. Xəzər sahilini biz seyr etdikcə o, dağların üstündən hoppana-hoppana qaya altından su ilanlarının baş tərəfindən tutub bir-bir üzə çıxardaraq «oyunbazlıq» edirdi. Kamal müəllim də qəhqəhə çəkib gülərdi.

Biz gün batanda yenidən Ələddinin ata bağına qayıtdıq. Dincəlmək üçün onun ikinci mərtəbədə yerləşən daxmasına qalxdıq. Daxmanın divarları başdan-ayağa cürbəcür şəkillərlə bəzədilmişdi. Şəkillərin əksəriyyəti velosiped idmanının həyatı ilə

bağlı idi. Bu da təsadüfi deyildir. Ələddin müəllim velosiped idmanı üzrə ustalığa namizəd idi. O, bəzən də çox maraqlı bir səs çıxardaraq dünyada məşhur velosipedçilərin (belə ki, XX əsrin ilk velosipedçisi italiyalı Fausto Koppinin və başqalarının) adlarını ucadan çəkərək özünü bir anlığa onlara bənzədərdi...

O, Avropa sayağı adam idi. Həyatda heç nədən razı qalmazdı. Onun birinci arzusu necə olursa-olsun alimlik adını almaq, ikinci arzusu ad-san, şöhrət sahibi olmaq və üçüncü arzusu isə ata bağının bütün sahəsinə sahib olmaq idi. Elə buna görə də iki mərtəbəli daxmanın birinci mərtəbəsində yaşayan qardaşı ilə bağ bölgüsü üstündə həmişə mübahisələri olardı. Bir gün hətta o, bizi də bu işə cəlb etmişdir ki, ağsaqqallıq edək. Laikn bağın sahəsinin qardaşı ilə ortaq olmağına Ələddin heç cür razılıq vermirdi. Hətta arada elmi rəhbərindən və məndən də incimişdi. Nəhayət ki, Ələddin bağ mübahisəsini 1996-cı ildə həll etdi. Biz də çox sevindik.

Bir sözlə, mənim dostlarımla Şüvəlanda Xəzər sahilinə səyahətimiz çox səmərəli keçdi.

*Bakı, Şüvəlan.*
*15.08. 1994-cü il.*

## Ot kökü üstə bitər

Kamal mənə may ayından söz vermişdi ki, bu dəfə yay istirahətimizi Mərdəkandakı sanatoriyaların birində birlikdə keçirəcəyik. Lakin o, vədinə xilaf çıxıb Mərdəkana məndən xeyli sonra gəldi. Buna baxmayaraq, gec də olsa, onunla bir həftə bir yerdə olduq. Kamal müalicə putyovkasını «Abşeron», mən isə «Günəşli» sanatoriyasına almışdıq. Demək olar ki, sanatoriyaların arasını ancaq iki paralel divar kəsirdi.

Avqust ayının 3-də mən Kamalı soraqlayaraq 5-ci müalicə binasında tapdım. Onun gəlişilə sanatoriyada yeni bir sıçrayış olmuşdu. Kamal «Abşeron» sanatoriyasının 5-ci binasının 314-cü otağında yerləşmişdi. Müalicənin 2-ci günündə onunla görüşüb axşam yeməyindən sonra Xəzər sahilinə səyahətə çıxdıq. Günümüz çox maraqlı keçdi. Kamal Xəzərin ləpələri arasında



daha çox cazibədar görünürdü. Onun baməzəli sifəti vardı. Yeri gələndə o, coşur, bəzən əsəbi halda gülürdü. Onun xasiyyətinə hər kəs uyğunlaşa bilməzdi. Bəzən sirkə kimi elə tündləşirdi ki, hövsələsi olmayan adam ondan üz döndərərdi. Ona görə də onu istəməyənlər də var idi. Ancaq Kamal o kamallardan deyildi. Əksinə Kamal çox sadəlövh, təmiz qəlbli, xoşsifət, yoldaşlığa sədaqətli bir insan idi. Onun qəlbində kin-küdurət deyilən şey yox idi. Bütün bu xasiyyətlər onun əməllərində toplanmışdı. Bu da ona atasından irsən keçmişdir.

**Haşiyə**: Kamalın atası Tağı Rzayev Bakı şəhərinin yuxarı məhəlləsində (köhnə Sovetski küçəsində) dünyaya göz açmışdır. Təbiətcə çox müdrik, ədalətli və prinsipial bir şəxs idi. Heç kimin qarşısında əyilməzdi. Dostluqda da mərd idi.

O, yaşadığı dövrdə müxtəlif vəzifələrdə çalışmışdır. Son iş yeri milis idarəsi idi. Leytenant vəzifəsini daşıyırdı. Lakin o, marksizim-leninizm ideologiyasına qarşı qəti inamsız idi. Buna görə də onun bu daxili dünyagörüşü həmişə narahatçılığına səbəb olurdu. Yoldaşları arasında bu idealogiyanın gec-tez puç olacağı haqqında danışardı.

Bakının Yuxarı Dağlıq məhəlləsinin Ketsxoveli küçəsilə Mirzə Fətəli küçəsinin kəsişdiyi tində ərzaq malları mağazası yerləşirdi. Həmin mağazaya Əli bəy müdirlik edirdi. O, cənubi Azərbaycandan idi. Əli bəy mağazanın divarına Leninin və Stalinin portretlərini səliqə ilə asmışdı.

Bir gün işdən sonra Tağı evinə qayıdarkən haqqında bəhs etdiyimiz mağazaya baş çəkir. Onun kefi də kök idi. Birdən Əli bəyə əsəbi halda bildirir ki, mən sənə deməmişdim ki, portretləri divardan çıxardasan? Bu anda pivə çəlləyinin ağzı açıldı. Müştərilər növbəyə durmuşdu. Tağı irəli çıxaraq satıcının əlindən pivə şlanqını alıb və təkidlə əmr edir ki, hava nasosu ilə pivəni çəlləyin içindən qaldırsın. Eyni zamanda, Əli bəyin nəzərinə çatdırır ki, dağılan pivənin qiymətini artıqlaması ilə ödəyəcəyinə söz verir.

Hörmət ehtiramı olaraq Əli bəy onun bu sifarişini qəbul edir. Bu anda şlanqdan pivə fəvvarə ilə Leninin və Stalinin portretlərinin üzərinə yönəldilərək tamamilə isladılır. Əbəttə, bu

hadisənin şahidləri arasında narazı qalanlar da çox idi. Elə o dəqiqə hadisə barədə DTO-na xəbər verilmiş və həmin gün Tağını gecə yarısı səssiz-küysüz aparmışlar. Onun bu hərəkətləri barədə məhkəmə orqanları istintaq aparmış və nəticədə o, 8 il azadlıqdan məhrum edilmişdi. Buna görə də Kamalın mərdlik nişanıələri (bəzən də şıltaq hərəkətləri) atasından irsən qalmadır. Atalar doğru demişlər «Ot kökü üstə bitər». Bəli, Kamal ömrünün axırına kimi atasının yolu ilə getmişdir.

*Bakı – Mərdəkan.*
*8.08.99-cu il.*

## Professor Kamal

Həqiqətdə o, elmin enişli-yoxuşlu cığırlarını aşa-aşa gəlib professor vəzifəsinədək yüksəlmişdir.

**Haşiyə:** Professor Kamal Rzayev Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının «Bədən tərbiyəsinin tarixi və idarə edilməsi» kafedrasının müdiri vəzifəsində işləmiş, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Azərbaycan Milli Olimpiya Akademiyasının birinci vitse-prezidenti olmuşdur. O, özü də klassik güləş üzrə idman ustasıdır. Onun «Qarabağ müharibəsi haqqında həqiqətlər və uydurmalar» əsəri son dövrün uğurlu nəşrlərindən sayıla bilər.

Müəllif əsəri tarixi-etnoqrafik dəqiqliyi ilə qələmə almış, əsəri yazarkən erməni-azərbaycanlı münaqişəsi ilə əlaqədar nəşr edilmiş 300-dən çox dünya jurnalistlərinin, politoloqlarının, tarixçilərinin əsərlərinə istinad etmiş, dünyada baş verən bütün qaynar nöqtələrin yaranma səbəblərini dərindən təhlil etməyə çalışmışdır. Əsər ön söz əvəzi, 3 fəsil və nəticədən ibarətdir. Qarabağ müharibəsinin başlanması prosesi və onun səbəblərini araşdırarkən müəllif tam aydınlığı ilə göstərir ki, bu müharibə ilk günlərdən böyük siyasi oyunların meydanına çevrilmiş, burada nəinki müxtəlif beynalxalq təşkilatların, eləcə də birbaşa Rusiya və ABŞ-ın maraqları toqquşmuşdur. Ermənistan isə Rusiyanın dəyənəyinə çevrilmişdir.

Professor Kamal Rzayev respublikada təhsil islahatlarına elmi axtarışlarında çox geniş yer vermiş və əsl ziyalı kimi



mübarizə meydanına atılmışdır. Hətta o, əməkdaşlıq etdiyi İdman Akademiyasında köklü islahatlar aparılmasına böyük ehtiyac duyulduğunu bir daha qeyd etmişdir.

Professor Kamal Rzayev elmi axtarışlarında respublikada bədən tərbiyəsi və idman işlərinin yenidən qurulması baxımından, fiziki tərbiyə və idmanın mahiyyətindən və vəzifəsindən, tədris proqramlarının məzmun və formalarının yeniləşdirilməsindən, bədən tərbiyəsi dərslərində fiziki hərəkətlərin təliminin ən yüksək formalarından, uşaq və yeniyetmələrin məcburi üzməyi bacarmaq proqramının həyata keçirilməsi zərurətindən, şagirdlər arasında fiziki tərbiyə üzrə idman-məşğələ formasının gücləndirilməsi zərurətindən, valideyn və uşaqların birgə fiziki tərbiyə və idman məşğələlərində iştirakı proqramının hazırlanmasından, şagirdlərin yay və qış tətilləri dövründə fiziki tərbiyə üzrə xüsusi proqram sənədinin hazırlanmasından, sağlam həyat tərzi və fiziki mədəniyyətin əsasları üzrə nəzəri biliklərin tədrisinə dair kursların yaradılmasından və s. fundamental fikir yürüdür.

Bundan başqa o, bazar iqtisadiyyatı şəraitində bədən tərbiyəsi və idmanın inkişafında menecmentin iqtisadi mexanizminin tərkib hissələrinin işlənib hazırlanmasına dair sanballı dərslik üzərində də iş aparmışdır. Eyni zamanda o, idman sahəsində idarəetmənin formalarını işləyib hazırlamışdır.

Professor Kamal Rzayev ömrünün bircə saatını da boş keçirməzdi. Boş vaxtı olan kimi M.F. Axndov adına Respublika Kitabxanasının Qəzet və Jurnallar şöbəsində məşğul olardı. O, həyatını bədən tərbiyəsinin tarixinə bağlamış və respublikada bədən tərbiyəsinin və idmanın inkişafına dair onlarca məqalələr yazmışdır. Onun yetişdirdiyi aspirantlar müvəffəqiyyətlə özlərinin namizədlik dissertasiyasını müdafiə etmişlər. Buna görə də Kamal müəllimin tələbkarlığı özünə həmişə şərəf gətirmişdir.

Amansız ölüm Kamal muəllimin ürək döyüntüsnü əbədi dayandırdı. 2000-ci il sentyabrın 1-də ilk dərsə qədəm qoyan gündə o, gözünü əbədi qapadı. Kim buna inanardı. Nər kimi bir insan əbədi olaraq dünyasını dəyişdi. Lakin elmi məqalələri, əsərləri və dərslikləri ondan yadigar qaldı...

*Bakı, 02.09.2000-ci il*

## O, öz sənətinin pərəstişkarıdır

*/hüquqşünas-alim haqqında qeydlərim/*

Hüseyn müəllimin humanistliyi məni məcrub etdi ki, onun haqqında bəzi mülahizələrimi qələmə alım. Hüseyn Talıbovla Universitetdə təhsil alarkən tanış idim.

1962-ci ildə fəal təşkilatçı bir tələbə olduğum üçün məni Universitetin Həmkarlar Komitəsinin üzvü seçmişdilər. Bu müddətdə Hüseyn Talıbov da komitənin üzvü idi. O, həm də hüquq fakültəsinin komsomol təşkilatının katibi vəzifəsini yerinə yetirirdi. Hüseyn Talıbov, Universitetin hüquq fakültəsində, mən isə İqtisad Fakültəsində təhsil alırdıq. Elə bizim ünsiyyətimiz də ictimai təşkilatçılıq fəaliyyətimizlə bağlı idi.

Universitetin Həmkarlar Komitəsinin sədri Fəridə xanım Sultanzadə və onun müavini isə Məmmədxan Rəsulov olmuşlar. Hüseyn Talıbov Məmmədxan müəllimlə dostluq edirdi. Məmmədxan huquq fakültəsinin müəllimi idi.

1963-cü ildə hər ikimiz təhsilimizi başa çatdırdıqdan sonra bir-birimizlə bir müddət görüşə bimədik. Lakin Hüseyn Talıbovun sadəliyi və yüksək mədəniyyəti mənim xatirəmdən heç vaxt silinmirdi. Universiteti bitirdikdən sonra o, müxtəlif illərdə Xanlar, Qax və Zaqatala rayonlarının xalq məhkəmələrində xalq hakimi işləmişdir.

Yaşadığım 8-ci mikrorayonda axşamlar vaxtım olduqca yaxınlıqdakı stadionda professor İsmayıl Feyzullabəyli ilə birlikdə gəzintiyə çıxardıq. Bir axşam təsadüfən Hüseyn müəllimlə rastlaşdım. Sən demə o da, 8-ci mikrorayonda yaşadığım binadan bir az aralı 91-ci binada yaşayırmış. Hal-əhval tutduqdan sonra onun iş yerini öyrəndim. 1971-ci ildə Respublika Ali Məhkəməsinə üzv seçilib. 9 il bu sahədəki gərgin əməyi müqabilində 1980-cı ildə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini vəzifəsinə layiq görülüb. Burada da etimadı doğruldan Hüseyn Talıbov beş ildən sonra bir pillə də yüksəlib – sədrin birinci müavini təyin edilib. Nəhayət, 1986-cı ildə Hüseyn Heydər oğlu Talıbov fəaliyyət göstərdiyi məhkəmə orqanları sahəsinin ən yüksək



zirvəsinə qədəm qoymuşdur. Həmin ildən o, Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri seçilmişdir. Hüseyn müəllim düz 6 il bu vəzifəni ləyaqətlə və vicdanla icra etmişdir. Mən tələbə yoldaşım Hüseyn Talıbovun bu yüksək zirvəyə qalxması haqqında Azərbaycan SSR Ali Sovetinin qərarını qəzet səhifələrində oxuduqda nə qədər sevindim. Teleqram vasitəslə Hüseyn müəllimi təbrik etdim*. Bir müddətdən sonra təsadüfən mə-nim ona işim düşdü. Məsələni təfsilatı ilə oxuculara danışmaq istərdim:

Atam Mirzə Xosrov 1960-cı ildə dünyasını dəyişdikdən sonra Şuşa şəhərindəki şəxsi mülkümüz yerli hakimiyyət orqanları tərəfindən qanunsuz olaraq plana salınıb 1964-cü ildə söküldü. Bu da Şuşada rəhbər işdə olan ermənipərəst azərbaycanlı daşnakların fitvası idi. Elə o vaxtdan da Şuşanın əsl sakinləri olan qalalıları məcburi halda köçürürdülər. Onlar DQMV-nin erməni daşnaq rəhbər işçilərinə satılaraq Şuşa rayon ZD Sovetinin sədri vəzifəsində işləyirdilər. Uzun müddətdir ki, onlar əlbir olub Şuşada yaşayıb-yaratmış tarixi şəxsiyyətlərin yaşadıqları mülkləri söküb viranə qoymuşdular. Belə şəxsiyyətlərdən biri də tanınmış pedaqoq, ədəbiyyatşünas və Qarabağın tarixini yazanlardan biri atam Mirzə Xosrov Axundzadə olmuşdur. Mən Qarabağın tarixi abidələrinin dağıdılması haqqında hətta «Ədəbiyyat və incəsənət» qəzetinin 1990-cı il, 12 oktyabr tarixli nömrəsində «Yadigarlar qorunmalıdır» tənqidi məqalə ilə kəskin çıxış etmişəm.

Nəticədə, biz məcburiyyət içində qalıb bir neçə illər Şuşanın Hacı Yusifli məhəlləsindəki dövlətin ixtiyarında olan sınıq-sökük, daxma şəklini almış binada yaşamalı olduq. Demə, bu bina tarzən Sadıqcanın mülkü imiş. Belə gözəl şəxsiyyətin mülkü elə bir vəziyyətə salınmışdı ki, sanki adam dəhşətə gəlirdi. Ailəm 1973-cü ilə kimi həmin binada yaşadıqdan sonra biz mənzil uçrotuna düşdük. Nəhayət, 1973-cü ildən etibarən bizim ailəyə Şuşanın keçmiş Sovetski küçəsi /sonralar 20 Yanvar küçəsi adlandı/ 3 №-li binanın ikinci mərtəbəsində bir otaqlı mənzil verildi. Qeyd etmək istərdim ki, yaşadığımız bir otaqlı mənzil iki dəfə Şuşa rayon ZD Soveti İcraiyyə Komitəsinin rəhbərliyi

* İndiyə kimi teleqramın surətini şəxsi arxivimdə saxlayıram.

tərəfindən satılmış və ailəmiz həmin otaqda yaşamaqdan uzun müddət məhrum edilmişdir. 6 il məhkəmə prosesində olduqdan sonra Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Hüseyn Talıbovun humanistliyi sayəsində 1988-ci ildə mülki sənədlərimizə yenidən baxılmaq üçün iş qovluğumuz Ağdam rayonu Xalq Məhkəməsinə göndərilmişdi.

Ağdam rayon Xalq Məhkəməsinin 1989-cu il 14 aprel tarixli Qətnaməsilə Şuşada yaşadığımız Sovetski küçəsi, bina 3, mənzil 50-nin orderi etibarlı sayılmış və ailəmizin yaşaması üçün otağımızın yenidən qaytarılması qərara alınmışdır. Bu barədə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Hüseyn Talıbovun imzası ilə rayon Xalq Məhkəməsinə və Şuşa rayon XDS İK-nə göndərilən məktubda belə qeyd olunur: P.Axundovun ərizəsi və Ağdam rayon Xalq Məhkəməsinin 1989-cu il, 14 aprel tarixli Qətnaməsinin surətinin icra edilməsi üçün Sizə göndəririk. İcranın nəticəsi barədə Azərbaycan SSR Ali Məhkəməsinə və P.Axundova məlumat verməyinizi xahiş edirik. Nəhayət, bir müddət keçəndən sonra Şuşa rayon ZD Soveti İK-nin sədri Mikayıl Gözəlovun göstərişi ilə əvvəlki otağımızın əvəzində həmin binanın birinci mərtəbəsindəki bir otaqlı mənzil boşaldılaraq bizim ixtiyarımıza verildi. Sevincimizin həddi-hüdudu yox idi. Tez yollandım Şuşa şəhəri Mənzil-İstismar İdarəsinə. Altı ildən artıq idi ki, ev əşyalarımız Mİİ-nin zirzəmisində çürüyürdü. İdarədən əşyalarımızı tələb etdim. Demək olar ki, soyuducuya qədər avadanlıqlarımızı söküb şil-küt etmişdilər. Sağ-salamat nə qalmışdısa onları mənzilimizə gətirtdim.

1990-cı ilin avqust ayından etibarən həyat tərzimizi normaya sala bildim. Mənzili dezinfeksiya etdirdikdən sonra ailəmi Bakıdan gətirməyi qərarlaşdırdım. Çox təəssüf ki, niyyətim baş tutmadı. 1992-ci ilin may ayının 8-də Şuşa erməni işğalçıları tərəfindən zəbt edildi. Çəkdiyim altı illik əməyim də puça çıxdı. Yenidən evsiz-eşiksiz qaldıq. Lakin Hüseyn Talıbovun bir hüquqşünas-alim kimi məhkəmə işlərinə olan obyektiv münasibətləri mənim heç vaxt yadımdan çıxmır. Buna görə də xatirəmdə o, əsl insan və öz sənətinin pərəstişkarı kimi qalmışdır.

*Bakı şəhəri, 1990-cı il.*



## Şair dostumla görüş

1991-ci ilin iyul ayının axırlarında Şuşa şəhərinə mənzilimi almaq üçün getmişdim. Çox çətinliklə ata mülkümüzün əvəzində verilən bir otaqlı hökumət mənzilini 6 il məhkəmə prosesi gedəndən sonra geri aldım. Ev əşyalarımızın bəziləri şəhərin mənzil-istismar idarəsinin zirzəmisində rütubətdən çürümüş, bəziləri isə idarənin işçiləri tərəfindən oğurlanmışdı.

Mən Şuşa rayonu ZD Soveti İcraiyyə Komitəsindən mənzilimizin «orderi»ni alan kimi mənzil-istismar idarəsinə yollanıb salamat qalan ev əşyalarımızı maşın tutub mənzilimizə köçürdüm. Qapıya yeni bağlama qayıtdırıb kilitlətdim.

Həmin günü şair və müəllim dostum İsa Quliyevlə /o, özünə Şuşalı təxəllüsü vermişdir/ Xurşudbanu Natəvanın bağında görüşməli idim. Mən verdiyim vədə əməl edərək təyin etdiyimiz vaxtda həmin yerdə görüşdük. İsa Şuşalı ilə birlikdə «Qala divarları»nın arxa hissəsinə keçib bürc divarının dibində yaşıl otluq içərisində əyləşdik. Biz o qədər mehribanlıqla söhbət edirdik ki, sanki axşamın düşməsini hiss etmədik. Bir də gördük ki, gün batıbdır. Əyləşdiyimiz yer o qədər mənzərəli idi ki, adama sanki ruh verirdi. Biz xeyli ədəbi-bədii mübahisə keçirdik. Yadımdadır, İsa Şuşalı yeni bir «Xarı-bülbül» poemasını yazmışdı. Poemanın bir hissəsi «Şuşa» qəzetində dərc olunmuşdur. O, həmin hissəni mənə oxudu və əlavə etdi ki, gələcəkdə ilk dəfə əlimə qələm verən, ata – ana məhəbbətini mənə öyrədən, sevimli müəllimim Mirzə Xosrov Axundzadəyə həsr olunmuş poema yazmaq fikrindəyəm. Mən ona bu yolda uğurlar arzuladım.

Əfsuslar olsun ki, Şuşanın məqsədsiz erməni dəllallarına verilməsi İsa Şuşalının da yaradıcılıq planlarını geri qoydu.

**Haşiyə:** İsa Şuşalı çox istedadlı şair idi. Mən onu 1945 – 1946-cı illərdə «Uşaq evi»ndə təlim – tərbiyə aldığı dövrlərdən tanıyıram. O, uşaqlıqdan şer yazmaq həvəsində olmuşdur.

Biz I sinifdə oxuyarkən dərsdən sonra «Böyük qurdlar» məhəlləsindəki bağımızda fındıq ağaclarının altında oturub növbəti dərslərimizə hazırlaşardıq. Payız fəslində həyətimiz daha

füsunkar görünərdi. Fındıq ağaclarının iri yarpaqları saralıb xəzəl kimi yerə tökülmüşdü. Yarpaqlar o qədər yığılmışdı ki, sanki yumşaq döşəyi xatırladırdı. Şuşanın ab- havası o qədər saf idi ki, ağacların tökülən yarpaqlarının rəngi də yumurtanın sarısına bənzəyirdi.

Hərdən İsa Şuşalı peyvənd fındıqlardan ovcuna götürüb cibinə tökərək bir-bir dişinə çəkərdi. Fındıq ləpəsi o qədər ləzzətli idi ki, sanki, gənc şairi təbə gətirərdi.

Xülasə, bizim qala divarlarının arxasında şirin söhbətimiz elə bil ki, Şuşada axırıncı görüşümüzdən xəbər verirdi. Elə həmin görüşdən sonra bir daha füsunkar Şuşanı görmək bizə qismət olmadı...

Hazırda İsa Şuşalı qaçqın olaraq Şəki şəhərində, sonralar isə Bakı şəhərinin Mərdəkan qəsəbəsində məskunlaşmışdır. Hərdən onun sevimli müəllimi Mirzə Xosrov Axundzadəyə həsr etdiyi «Daim yaşayacaqsan» və «Bizimləsən, yenə bu gün!» şerlərini oxuduqca şer şair dostumun istedadından və daima həsrətini çəkdiyim sevimli vətənim Şuşadan mənə xəbər verir.

***Bakı, 20.09.94-cü il***



## İsa Dadaş oğlu ilə görüş

Mən onunla çoxdan görüşməli idim. Lakin məqam olmurdu ki, onunla görüşəm. Nəhayət, həmin vaxt gəlib çatdı. 19 avqust 1995-ci il tarixdə İsa ilə Yeni Yasamaldaki mənzi-

limdə görüşdük. Çoxdandır ki, o, muğam oxumurdu. Bunun da əslikar səbəbləri vardı. Şuşa şəhəri erməni qəsbkarları tərəfindən işğal olunandan sonra elə bil İsanın səsi də batmışdı. Bir vaxtlar onun zümzüməli səsi «İsa bulağı»nın, «Səkili bulağı»nın ucsuz-bucaqsız meşələrinə təravət verərdi. Hərdən muğam ustası,qocaman Mürsəl kişi İsanın səsinə qulaq asdıqca onu özünün yurddaşı hesab edərək deyərdi;

-İsa, oğlum, afərin sənə! Vaxt gələcək sən mənim yerimi tutacaqsan... Əfsuslar olsun ki, 107 yaşlı Mürsəl kişini də varidatin üstündə məhv etdilər... Onun səsi əbədi batdı...

İsa hər dəfə oxuduqca ilk əlifba müəllimi Mirzə Xosrovun muğamın oxumaq qaydaları haqqında ona verdiyi məsləhətləri heç zaman unutmazdı. Buna görə də müəllimin məsləhətlərindən ruhlanan İsa Dadaş oğlu muğamın ayrı-ayrı hissələrinə dərindən fikir vermiş və nəticədə muğam və dəstgahların oxunuşunda özünün ustalığını göstərmişdir.

Qərəz... avqustun 19-da dostum İsanın səsini eşitmək üçün yeni mənzilimizə cəmləndik. Biz belə qərara gəlmişdik ki, oğlum Şaiq tarda calacaq, İsa isə oxuyacaqdır. Lakin Şaiq xəstələndiyindən o, muğamları tarsız oxumağa məcbur oldu.

İsa Şuşadan yadigar olaraq qavalını da özü ilə gətirmişdi. O, qəflətən qavalını sol əlinə alıb zəngulə vurmağa başladı.Sən demə ilk əlifba müəllimi Mirzə Xosrov Şaiqin qəzəllərinin bir neçəsini o, əzbər bilirmiş. Buna görə də əvvəlcə İsa öz müəllimi haqqında xatirələrini söylədi, sonra isə «Segah-zabul» və «Segah» muğamlarını oxumağa başladı. Onun məlahətli səsinə qapı qonşular da qulaq asırdı. Demək olar ki, həmin gün musiqi məclisimizin gedişatı bütünlüklə maqnitofon lentinə yazıldı. Bu da bizim ilk görüşümüzün xatirə gününə çevrildi.

***Yeni Yasamal. 20.08.95-ci il.***

## Psixiator Məhəmməd Süleymanın fəryadı

Mən onu 1990-cı ildən tanıyıram. İlk tanışlıqdan deyə biləm ki, o, ruhi-əsəb xəstəliklərini dərindən bilən bir həkim idi. Məhəmmədin eyni zamanda jurnalistlik fəaliyyəti də vardı. Onun həkim-jurnalist olduğunu təfsilatı ilə danışmaq istərdim.

Yaxın dostum Elmar müəllimin oğluna hərbidə xidmət etmək üçün Binəqədi rayonu hərbi komissarlığı çağırış vərəqəsi göndərmişdi.

Ata oğlu üçün xeyli nigarançılıq keçirirdi. O, öz-özünə düşünürdü ki, görəsən, hərbi komissarlıqda elə bir vicdanlı həkim olacaqmı ki, oğlumun xəstəliyini həqiqətən də aşkar edib ortalığa çıxartsın. Lakin eşitmişdi ki, rayonun hərbi komissarlığında Məhəmməd adlı ruhi xəstəliklərə baxan bir nəfər həkim vardır. Elmar müəllim naümid olmayaraq hərbi komissarlığa yollandı. O, həkim Məhəmməd Məhəmmədovu soraqlaşıb tapdı və oğlunun əsəb xəstəliyi barəsində ona müfəssəl məlumat verdi. Məhəmməd həkim valideynin sifətindəki təlaşı duyub onu sakitləşdirməyə çalışaraq demişdi:

- Siz heç də narahat olmayın, yoxlama komissiyası oğlunuzun xəstəliyini müəyyən edib aşkara çıxarmışdır. Onda həqiqətən də ruhi-əsəb xəstəliyi vardır.

Elmar müəllim həkimə öz təşəkkürünü bildirib evinə yollanmışdı.

**Haşiyə:** Məhəmməd Süleyman özünün peşəsini sevən bir həkimdir. O, eyni zamanda həkim-jurnalist kimi xalq təbabətinin inkişaf etdirilməsində, səhiyyənin təşkilində, insanların mənəvi-fiziki sağlamlığının mühafizəsində mühüm rol oynayırdı. Onun «Təbabətin fəryadı» kitabı bu baxımdan diqqətəlayiqdir. Sanki, bu kitab elə bil ki, Məhəmməd Süleymanı təbabətin çatışmazlıqlarının aşkar edilməsinə haraylayır. Kitabı oxuduqca adamın ruhuna, əsəbinə qeyri-adi hərarət bəxş edilir. Onun qopardığı fəryad vətənpərvərlik harayıdır, təbabətimizin dərd-sərinin publisistik ifadəsidir. Onun yazıları həqiqətən də heç kəsin yazılarına bənzəmir, özünəməxsus dəst-xəttə malikdir. O, təbabət aləminə haray salıb fəryad edib deyir ki, ayılın... İnsanların sağlamlığını qoruyun və onlara vicdanla yanaşın. Əks təqdirdə, fəryad qoparıb bütün dünya təbabətinin bilicilərini haraylayıb onlardan imdad diləyəcəyəm!..

*Bakı şəhəri, 1990-cı il.*

## Əziz Şərifin və Almas İldırımın yurddaşı kimi...

Mən onunla 1970-72-ci illərdə Şuşada «Bazar başı» deyilən yerdə tanış olmuşam. O, cılız bir oğlan idi. Nə isə... Şuşa ziyalıları və onların övladları ilə tanış olmağa o, daha çox can atırdı.

1970-ci ilin yay fəsli idi. Mən işlərimi başa çatdıraraq, məzuniyyət götürüb doğma yurdum Şuşaya qayıtdım. Şuşada adətimiz üzrə axşam çağları biz cavanlar «meydan bulağı»nın qarşısına və yaxud da «bazar başı»na (indiki şəhər mədəniyyət evinin qarşısı), ya da Çanaqqala deyilən yerə yığışıb seyrə çıxardıq. Elə həmin anda da Stalin bağının qarşısında ortaboylu, gözlərini bir anda qırpan, qaşları qalın bir cavan oğlan durmuşdu.

Biz bir neçə yoldaş (həkim Mehrab Bayramovun oğlu Zöhrab Bayramov, Zahid* Quliyev və Bakir Məmmədov) söhbət edirdik. Söhbətimiz Şuşanın keçmişindən və gələcəyindən bəhs olunduğuna görə cavan oğlan da bizə qoşuldu. Biz tanış olduq. Həmin oğlanın adı Maarif, familiyası Teymurov idi.

O gündən də biz yoldaşlıq etməyə başladıq. Maarif yoldaşlardan daha çox mənə yaxınlıq edirdi. Demə onun da məqsədi var imiş. O, eşitmişdi ki, mən mahir pedaqoq, şair və Qarabağın tarixini yazan Mirzə Xosrov Axundzadə-Şaiq təxəllüsün oğluyam.

**Haşiyə:** Maarif 1968-1970-ci illərdə Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə yenicə qədəm qoyub elmi işçi vəzifəsində çalışırdı. O, birinci növbədə Qarabağ ziyalılarının, şairlərinin və mədəniyyət işçilərinin arxiv materialları ilə maraqlanmağa başlamışdı. İlk növbədə Qarabağın tarixini yazanlardan birilə – qocaman pedaqoq Həsən İxvanı soraqlaşıb onunla tanış oldu. Hətta Şuşada onunla birlikdə şəkil də

* İndi də mən Zahid Quliyevlə arabir görüşürəm. O, hazırda Azərbaycan Memarlıq və İnşaat Universitetinin baş müəllimi vəzifəsində çalışır. Eyni zamanda, Şuşa «Bilik» cəmiyyətinin sədridir.



çəkdirmişdi. Bir sözlə, Maarif çox zirək oğlan idi. Özünü Şuşanın tanınmış şəxsiyyətlərinin varislərinə bənzədirdi...

* * *

Maarif, Qarabağın füsunkar guşəsi olan Şuşanın həyatına bağlı şəxs idi. Buna görə də, Şuşada yay istirahəti müddətində boş vaxtlarını demək olar ki, mənimlə birlikdə keçirərdi. Onu dəfələrlə Şuşadakı «Böyük qurdlar» məhəlləsində güllü-çiçəkli bağımıza də'vət etmişdim. O, söhbətinin əsasını Qarabağ tarixini qələmə alanlar haqqında, o cümlədən atam Mirzə Xosrovun həyat və fəaliyyəti ilə bağlayırdı.

Nə isə... Kim bilərdi ki, Maarif Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinin direktoru olacaqdır... Düz 20 ilə yaxın bir müddətdir ki, o, bu vəzifəni daşıyır. Hətta 1995-ci ildən Maarifi Respublika Həmkarlar Şurasında şö'bə müdiri vəzifəsinə tanışları də'vət etdi. O, həmin vəzifədə 6 ay işlədi və qərar tutmayıb yenidən köhnə vəzifəsinə qayıtdı.

1987-ci ildən e'tibarən Mirzə Xosrov Axundzadənin Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivində şəxsi fondu yaradılmışdır. Elə buna görə, mən də onun xahişini nəzərə alıb atam Mirzə Xosrovun şəxsi arxivindən elmi materialları və eyni zamanda, 43 illik tədqiqatımla əlaqədar əlyazmalarımın bir hissəsini Azərbaycan Dövlət Ədəbiyyat və İncəsənət Arxivinə təhvil vermişəm və qalan hissəsini isə gələcəkdə təqdim etməyi nəzərdə tutmuşam. Maarif Teymurov (hazırda «Teymur» ləğəbini daşıyır) Əziz Şərifin və Almas İldırımın varisçisi kimi tanınmağa can atır. Akademik Bəkir Nəbiyev bir məqaləsində («Qara dastan», «Azərbaycan» qəzeti, 10.08.94-cü il) Maarif barəsində öz fikirlərini söyləmişdir. Bundan başqa o, görkəmli publisist Əziz Şərifin Moskvadakı bütün şəxsi arxiv materiallarını Ədəbiyyat və İncəsənət Arxivinin fonduna gətirib. Eyni zamanda o, Almas İldırımın «Qara dastan» kitabının tərtibçisi olmuş və kitaba ön söz yazmışdır.

Hazırda Maarif Teymur, Qarabağın görkəmli maarifpərvər ziyalılarının şəxsi fondu üzərində işləmək arzusundadır. Ona bu işdə müvəffəqiyyətlər diləyirik!

***Bakı 29.07.2005-ci il.***

# MUZEYŞÜNASLIQ FƏALİYYƏTİMDƏN QEYDLƏR



## Ali məktəb muzeyləri

Muzeylərimiz xalqın dünyagörüşünün formalaşmasında, keçmiş və müasir mədəni irsin öyrənilməsi və qorunub gələcək nəslə saxlanılmasında mühüm rol oynayırlar. Hələ 1920-ci ilin may ayının 18-də Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun muzeylərin milliləşdirilməsi haqqında imzaladığı dekret respublikamızda bu mədəniyyət ocaqlarının təşkili və fəaliyyəti haqqında əhəmiyyətli bir başlanğıc oldu. İllər keçdikcə respublikamızda muzeyçilik işi təkmilləşmiş, mədəni həyatımızın inkişafının əsas faktorlarından birinə çevrilmişdir. Bu gün muzey işinin maraqlı bir sahəsi də ali və orta ixtisas təhsili müəssisələrində təşkil olunmuş muzeylərin fəaliyyəti ilə bağlıdır. Yenidənqurma şəraitində ali və orta ixtisas təhsili məktəblərində tədris prosesinin gücləndirilməsində muzeylərdən geniş istifadə olunmalıdır. Başqa sözlə, bu mədəniyyət ocaqlarının fəaliyyət dairəsi genişlənməli, təlim-tərbiyə işinin qarşısına qoyulan yeni tələblərə cavab verməlidir.

1987-ci ilin noyabr ayında Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi sistemində ali məktəblərin muzeylərinə rəhbərlik məqsədilə «Elmi-metodiki şura» təşkil olunmuşdur. Şuranın tərkibinə respublikanın ali məktəblərinin 15 muzeyi daxil edilib. Bu muzeylər ali və orta ixtisas təhsili məktəblərinin ideoloji, tədris-elmi və elmi-kütləvi işlərinin sürətləndirilməsində və dövlət tarixi sənədlərinin saxlanılmasında, maddi və mənəvi mədəniyyətimizin qorunmasında artıq xeyli iş görmüşdür. İndi respublikanın ali və orta ixtisas təhsili məktəblərinin muzeyləri professor-müəllim və tələbələr arasında ideoloji işin aparılmasında milli-ideya tərbiyəsinin mərkəzi hesab olunmaqla bərabər, təlim prosesinə də fəal təsir göstərən elmi mərkəzlərə çevrilmişdir. Bu məqsədlə, SSRİ Mədəniyyət Nazirliyinin razılığı ilə hazırda SSRİ Xalq Maarifi Komitəsinin 5 noyabr 1984-cü il əmrinə əsasən ali məktəblərin muzeylərinin «Tipləşdirilmiş Əsasnaməsi» təsdiq edilmişdir. Əsasnaməyə uyğun olaraq ali məktəblərin muzeylərinin əsas vəzifəsi yüksək ixtisaslı və yüksək ideyalı

kadrların hazırlanmasına, tədrisin forma və metodlarının, ideya-tərbiyə və elmi-kütləvi işlərin təkmilləşdirilməsinə yaxından köməklik göstərməkdir.

İndi ali məktəb muzeylərində İnstitut həyatı ilə bağlı sənədlərin aşkara çıxarılmasına, siyasi, iqtisadi, mədəni həyat hadisələrini dolğun əks etdirən materialların toplanmasına, onlardan mühüm tərbiyə vasitəsi kimi istifadə olunmasına daha çox diqqət yetirilir. Respublikanın bir sıra ali məktəblərinin muzeyləri mədəni irsimizin qorunmasında əhəmiyyətli rol oynayırlar.

Ali və orta ixtisas təhsili məktəblərinin partiya və həmkarlar, komsomol təşkilatları rəhbərlik etdikləri İnstitutların muzeylərinin fəaliyyətini təkmilləşdirərək onlara elmi-metodiki rəhbərliyi gücləndirmək məqsədilə təsirli tədbirlər görürlər. Eyni zamanda bu gün ali məktəb muzeyləri tədris işində böyük əhəmiyyət kəsb edir. Belə ki, S.M.Kirov adına ADU-nun «Faydalı qazıntılar», «Təkamül təlimi», «Arxeolgiya və etnoqrafiya» muzeyləri, N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun «Anatomiya» və «Səhiyyə» muzeyləri, M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunun «Tədris və Elmi işlərin hazırlanmasından fraqmentlər» muzeyi, akademik Ə.Ə.Yaqubov adına geoloji kəşfiyyat fakültəsinin «İxtisaslaşdırılmış laboratoriya» muzeyi, S.M.Kirov adına Azərbaycan DBTİ-nin «Bədən tərbiyəsinin tarixi» muzeyi, V.İ.Lenin adına APİ-nin kompleks muzeylərinin müvafiq şöbələri, S.Ağamalıoğlu adına Kirovabad KTİ-nun muzeyi və digər muzeylər tədris işinin səviyyəsinin yüksəldilməsində fərqlənirlər. Xüsusilə, 1919-1922-ci illərdə fəaliyyətdə olan N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun «Anatomiya muzeyi» özünün eksponatları ilə tədris prosesinin təkmilləşdirilməsində böyük rol oynayır. Muzeyin qapısı I və II kurs tələbələrinin, eləcə də müxtəlif ixtisaslar üzrə həkimlərin üzünə həmişə açıqdır. Muzey 10 şöbədən ibarətdir. 5 mindən artıq eksponatı vardır.

S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin «Faydalı qazıntılar», «Təkamül-təlimi» muzeylərinin də tədris işinin yaxşılaşdırılmasında əhəmiyyəti az deyil. Belə ki,



«Təkamül-təlimi» muzeyi 1937-ci ildən fəaliyyət göstərərək, biologiya fakültəsinin «Genetika və darvinizm» kafedrasının nəzdindədir. Muzey, üzvi aləmə hazır yaradılmış varlıqlar kimi baxan idealist və metofizik dünyagörüşlərinin əksinə olaraq, bütün canlıların təkamül prosesində əmələ gəlməsini sübut edən eksponatlarla zəngindir. Muzeyin materialları üzərində həyatın tarixi inkişafının ümumi qanunauyğunluqları bu prosesin hərəkətverici, istiqamətləndirici qüvvəsi olan təbii seçmənin rolunu nümayiş etdirməkdədir. Muzeydə tələbələr təkamül təlimi kursunun müxtəlif mövzularını əyani olaraq öyrənirlər.

ADU-nun «Faydalı qazıntılar» muzeyi 1944-ci ildə akademik Mirəli Qaşqayın təşəbbüsü ilə təşkil olunmuşdur. Muzeyin «Mineralların xüsusiyyətləri», «Dağ süxurları», «SSRİ-nin faydalı qazıntıları» və «Azərbaycan SSR-nin faydalı qazıntıları» bölmələri tədris prosesinə əməli yardım göstərir.

Faydalı qazıntılar muzeyinin yeni elmi sistemlə işlənilmiş material fondu SSRİ-nin və respublikamızın iqtisadiyytında mühüm rol oynayan yeraltı sərvətlər haqqında dolğun məlumat verir. Muzeyin eksponatlarının mötəbərliyi və zənginliyi bundan Azərbaycanın faydalı qazıntıları muzeyinin tədqiqat bazası kimi də istifadə etməyə imkan yaradır.

S.Ağamalıoğlu adına Kirovabad Kənd Təsərrüfatı İnstitutunun «Döyüş və Əmək şöhrəti» kompleks muzeyləri 1985-ci ildə təşkil olunmuşdur. Muzey Gəncə İnqilab Komitəsinin fəaliyyət göstərdiyi binada yerləşir. Hal-hazırda həmin İnstitut muzeyinin ixtisaslı kadrların hazırlanmasında xüsusi rolu vardır. Belə ki, muzeydə tələbə elmi cəmiyyətinin rolu daha geniş işıqlandırılmışdır. Eyni zamanda, 880 nəfər mükafat alan tələbənin adları muzeyin ekspozisiya otağında nümayiş etdirilir. Bundan başqa muzeydə İnstitut yarandığı gündən bu günə kimi əldə olunan elmi nailiyyətlərə üstün yer verilmişdir. Məsələn, akademik F.Məlikovla professor M.Sadıqovun yetişdirdiyi «Dağ merinos cinsi», Azərbaycan SSR EA-nın müxbir üzvü R.Hüseynovun «Barama sortlarının yetişdirilməsi», M.Məmmədəliyevin «Çiyidin təmizlənməsi üçün maşın ixtirası», Z.Verdiyevanın «Zebu cinsinin alınması» və başqa elmi işlər nümayiş olunmuşdur. Lakin yuxarıda

göstərdiyimiz müsbət cəhətlərlə yanaşı, respublika ali və orta ixtisas təhsili məktəblərinin muzey işinin səmərəli təşkili məsələlərində bir sıra ciddi çatışmazlıqlar da vardır. Bunlar aşağıdakılardan ibarətdir:

– Ali və orta ixtisas məktəblərinin muzeylərində keçirilən hər bir tədbir konkretliyi, operativliyi ilə fərqlənməli, maraqlı və cəlbedici olmalıdır. Bu muzeylər spesifik əyani vasitələrlə zənginləşdirilməklə, öz İnstitutlarının elmi-metodiki fəliyyətini əks etdirməklə, onların əldə etdiyi nailiyyətlərinin də tarixini açmalıdır. Muzey əməkdaşları təkcə keçmiş tarixə aid eksponatları əldə etməklə kifayətlənməməli, müasir həyatımızın müxtəlif sənədləri ilə işıqlandırılmasına daha çox diqqət yetirməlidirlər;

– Ali və orta ixtisas təhsili məktəblərinin muzeylərinin maddi-texniki bazasının möhkəmləndirilməsi, onların münasib otaqlarla təmin edilməsi sahəsində də həllini gözləyən çətinliklər çoxdur. Ayrı-ayrı muzeylərdə bəzən qiymətli və nadir eksponatlar nümayiş etdirilmək əvəzinə, üst-istə qalaqlanıb lazımsız inventar kimi bir küncə yığılır, tələb olunan qaydada qorunub saxlanılmır. Bəzən də ictimai əsaslarla təşkil olunan muzeylərə ali məktəb rəhbərliyi etinasız yanaşaraq, bir müddətdən sonra İnstitutlar arasında şöhrət qazanan ekspozisiya zalını yenidən auditoriyaya çevirirlər. Bu da əlbəttə, ancaq mədəniyyət sərvətimizi məhv etmək deməkdir;

– Bir məsələni də qeyd etmək yerinə düşərdi, respublika Ali və Orta İxtisas Təhsili Nazirliyi sistemindəki muzeylərdə ali və orta ixtisas məktəbinə daxil olan hər bir abituriyentin muzeyin ekspozisiya zalında, hünər bayrağı qarşısında İnstitutun şərəfini qoruması barəsində and içib tələbə biletini alması, tələbələrin ideya-siyasi səviyyəsinin gücləndirilməsin-də mühüm amil hesab oluna bilər. Təəssüf ki, bu cür vacib bir məsələyə indiyə kimi fikir verilməmişdir;

– Yenidənqurma şəraitində ali məktəblərin muzey fondlarında ən əlverişli eksponatların toplanılması, mədəni irsimizin qorunub saxlanması işində böyük əhəmiyyət kəsb edir. Zənnimizcə, muzeylərin fondunun tarixi eksponatlar və maraqlı sənədlərlə zənginləşdirilməsində ictimaiyyətin, xüsusilə, ziyalıların köməkliyindən kifayət qədər istifadə edilməlidir.



Ümüdvarıq ki, respublika Ali və Orta İxtisas Təhsili Nazirliyi sistemində təşkil olunan ali məktəb muzeylərinin elmi-metodiki şurası gələcəkdə özünün iş üslubunu səmərəli quracaq və muzeylərin maddi-texniki bazasının təkmilləşdirilməsində mühüm rol oynayacaqdır.

- Hazırda muzeylərin işi ilə əlaqədar respublika ali və orta ixtisas təhsili məktəblərinin muzey işçilərinə metodiki köməklik günün vacib məsələlərindən biridir. Bu baxımdan, SSRİ Xalq Maarifi Komitəsinin ixtisasların bölüşdürülməsinə dair tərtib etdiyi siyahının muzeyşünaslıq elmində yeni bir mərhələ olacağı gözlənilir.

Zənnimizcə, 0527 №-li şifrəyə daxil edilən «Muzeyşünaslıq» ixtisası respublika Ali və Orta İxtisas Təhsili Nazirliyi sistemindəki Elmi-Metodiki Şuranın ixtiyarına verilməli, tələbələr arasında tədris-elmi işlərin intişar tapmasında və ideya-siyasi biliyin aşılanmasında mühüm amil olmalıdır.

***Bakı, 1988-ci il.***

## Mütəxəssis kadrların yetişdirilməsində ali məktəb muzeylərinin rolu

Ölkənin ali məktəblərində muzey kadrlarının hazırlanması problemi 20 il bundan əvvəl başlanılmışdır. Bunun da çox böyük əhəmiyyəti vardır.

Muzeylər, ölkənin başqa sosial-mədəni cəmiyyətlərindən ayrıca olaraq fərqlənir. Qeyd etmək olar ki, 1930-cu illərin axırlarında muzeylər sahəsində mütəxəssislər hazırlanmamışdır. Muzeylər üçün mütəxəssis hazırlığı dedikdə yalnız iki minlik dövlət muzeylərini nəzərdə tutmaq deyil, eyni zamanda xalq təhsili muzeylərini də nəzərə almaq lazımdır. Hazırda Bakı şəhəri üzrə 15 ali və orta ixtisas, 115 orta və 15 texniki-peşə məktəbləri-nin muzeyləri fəaliyyətdədir. Bu muzeylərin məktəblərdə təhsil prosesi səviyyəsinin yüksəldilməsində mühüm rolu vardır. Eyni zamanda ali və orta ixtisas təhsili məktəblərində muzeyşünaslıq pedaqogikasının tərənnüm edilməsində həmin muzeylər mühüm rol oynayırlar. Belə ki, onlar tarixi və mədəni abidələrin mühafizə olunub qorunmasında şagirdlərə və tələbələrə təbliğat vasitəsi sayılır. Buna bir misal gətirmək istərdim. 1988-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun tarixi muzeyinin nəzdində «Tarixi və mədəni abidələrin könüllü mühafizəsi kursu» təşkil edildi. Həmin kursun ilk dəfə 10 nəfər dinləyicisi və müdavimi olmuşdur. Bu kursun açılması respublikada, o cümlədən Bakı şəhərində tarixi və mədəni abidələrin könüllü mühafizəsində çox mühüm rol oynadı. Bundan başqa tələbələr respublikada maddi-mədəni və tarixi abidələrimizin mədəniyyət tariximizdə nə kimi rol oynadığını aydınlaşdıra bilirdilər. Bu məqsədlə aşağıdakı təkliflərimizi irəli sürürük:

-Bizə belə gəlir ki, hazırda fəaliyyətdə olan 15 ali məktəb muzeylərinin nəzdində də «Maddi-mədəni və tarixi abidələrin könüllü mühafizəsi» kursunu təşkil etmək məqsədəuyğundur;

-Tədris prosesinin yüksəldilməsində xalq təhsili muzeyləri-nin rolunun artırılması əsas vəzifələrdən biridir. Belə muzeylər sırasına Bakı Dövlət Universitetinin, M.Əzizbəyov adına Azərbay-can Neft-Kimya İnstitutunun, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun, S.M.Kirov adına Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunun, V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun, S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun muzeyləri daxildir. Həmin muzeylərdən Bakı Dövlət Universitetinin «Faydalı qazıntılar», «Təkamül təlimi» muzeyləri təhsil prosesinin yüksəldilməsində həlledici rol oynayırlar. Belə ki, Bakı Dövlət Universitetində tələbələr arasında bədən tərbiyəsi və idmanın daha səmərəli yollarından biri olan velosiped idman növünün sevdirilməsi məqsədilə 1970-ci ildən etibarən «Velosiped muzeyi» təşkil olunmuşdur. N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun «Anatomiya muze-yi»nin də tədris işinin yüksəldilməsində mühüm əhəmiyyəti vardır. Muzeydə olan eksponatlar dərin bilik verməklə onların tibb sahəsində təcrübəsini artırır;



-Qeyd etmək olar ki, hazırki yenidənqurma şəraitində ölkədə 30 minə yaxın muzeyşünaslıq sahəsində mütəxəssis fəaliyyət göstərir. Bunların hamısı muzey işi sahəsində hazırlıqlıdırlar. Lakin təəssüflər olsun ki, Respublikamızda olan xalq təhsili muzeyləri muzeyşünaslıq sahəsində çox da irəli getməmişlər. Belə ki, təhsilin səviyyəsinin yüksəldilməsində muzey eksponatlarının tərtibat işi lazımi səviyyədə qurulmamışdır.

-Bir məsələni də göstərmək istərdim ki, hazırda Xalq Təhsili Nazirliyinin nəzdində olan muzeylərin işi üzrə Elmi-Metodiki Şura respublikamızın məktəblərində «Muzeyşünaslıq» dərsliyini və yaxud da dərs vəsaitini kollektiv mütəxəssis müəllif-lərlə birlikdə yazıb hazırlamağı nəzərdə tutmuşdur. Bununla əlaqədar olaraq ali təhsil məktəblərində «Muzeyşünaslıq» fənni-nin ali məktəblərin tədris planında nəzərə alınması məqsədə uyğundur. Belə bir dərslikdən muzeyşünaslıq sahəsində mütəxəs-sislərin istifadə etməsi təqdirəlayiq iş ola bilərdi;

- Xalq təhsili məktəblərinin muzey əməkdaşlarının ixtisasının artırılması kursunda iştirakı ali məktəblərdə təhsilin səviyyəsinin yüksəldilməsində mühüm amil sayılır. Təəssüf ki,

hələ indiyə kimi xalq təhsili məktəblərinin muzey rəhbərlərindən bir nəfər də olsun ixtisasını artırma kursunda iştirak etməmişdir;

-Ali məktəblərdə tədris işinin artırılmasında /yəni nəzarət, kurs, elmi və diplom işlərinin yazılmasında/ Xalq Təhsili muzeylərinin böyük rolu vardır. Belə ki, tələbələrin muzey fondundan səmərəli istifadə etməsinə şərait yaradılmaldır. Lakin təəssüflər olsun ki, hazırda fəaliyyətdə olan ali məktəblərdə muzey fondundan tələbələr istifadə etmirlər. Bu işin yerinə yetirilməsi məqsədilə yaxşı olardı ki, hər bir ali məktəblərin muzeyinin nəzdində qabaqcıl tələbələrdən ibarət «İctimai Şura» təşkil olunsun.

- Respublikamızda muzey kadrlarının seçilib yetişdirilməsində Azərbaycan SSR Xalq Təhsili Nazirliyi sistemində yaradılan muzeylərin Elmi-Metodiki Şurasının mühüm əhəmiyyəti vardır. Lakin təəssüflər olsun ki, ali və orta məktəblərin rəhbərliyi bu şuranın iş təcrübəsindən istifadə etmirlər. Belə ki, onlar muzeylərin idarə olunmasında qeyri-münasib şəxslər seçib təyin edirlər. Bunun da nəticəsində muzey işinin səmərəli aparılması ləngiyir.

- Respublikanın xalq təhsili məktəblərinin muzeylərində fondlaşdırma işinin təşkilində də nöqsanlar davam etməkdədir. Belə ki, müşahidələr nəticəsində müəyyən olunmuşdur ki, indiyə kimi ali məktəblərin muzeylərində fondlaşdırma işi aparılmamış və rəsmi inventar jurnalı təşkil edilməmişdir.

Yaxşı olardı ki, xalq təhsili məktəblərinin muzey işçiləri Mədəniyyət Nazirliyinin «Muzey fondlarının uçotu və saxlanılması» haqqındakı «Təlimat»ından istifadə etsinlər.

**Bakı şəhəri, 1995-ci il**



## Xalq təhsili muzeyləri və tədris, təlim-tərbiyə işləri

*(2002-ci il mayın 18-də BDU-da keçirilən Xalq Təhsili Məktəblərinin 2-ci Respublika Elmi-təcrübi konfransındakı çıxışımın mətni)*

Muzey məfhumu dünyada geniş yayılmış və demək olar ki, düşünə bilən hər kəsə aydın olan bir anlayışdır.

Bəşər övladı həmişə, hər zaman öz keçmişini layiqincə qiymətləndirməklə, onu öz maddi və mənəvi yaddaşında əbədi hifz etməyə çalışıb. Təkcə xalqların deyil, hətta ayrı-ayrı şəxsiyyətlərin ömür tarixi zaman-zaman nəsillərə örnək olub. Bu mənada tarixin qaranlıq səhifələrinə çıraq tutan, bələdçilik edən qiymətli sənədlərin toplandığı məbədlərin, muzeylərin rolu əvəzsizdir. Bu müəssisələr tariximizin öyrənilib-öyrədilməsi, mədəni sərvətlərimizin toplanıb qorunması və təbliği ilə bağlı çox vacib iş görür.

Azərbaycanda muzey işinin maraqlı tarixi vardır. Hələ XIX əsrin sonlarında böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin işlədiyi Nehrəm kənd məktəbində ilk dəfə muzey təşkil olunmuşdur. XIX əsrin əvvələrində isə Bakıda Xalq Məktəbləri müdiriyyəti nəzdində «Pedaqoji» muzey fəaliyyət göstərmişdir. Muzeydən əsasən tədris, təlim-tərbiyə işlərində istifadə olunmuşdur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə (1918-1920-ci illər) Bakı şəhərində «İstiqlal muzeyi» təşkil olunmuşdur. Muzey 1919-cu il dekabrın 7-də açılmış və Azərbaycan parlamentinin binasında fəaliyyət göstərmişdir.

1920-ci ilin may ayının 18-də Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun «Muzeylərin milliləşdirilməsi haqqında» imzaladığı Dekret respublikamızda bu mədəniyyət ocaqlarının təşkili və fəaliyyəti haqqında əhəmiyyətli bir başlanğıc oldu.

1978-ci ildən etibarən YUNESKO-nun qərarı ilə may ayının 18-i Ümumdünya miqyasında «Beynəlxalq Muzeylər

Günü» elan olunmuşdur. Buna görə də hər ilin may ayının 18-i «Beynəlxalq muzeylər günü» təntənəli surətdə qeyd olunur. Qəbul olunan dekretdən sonra Azərbaycanda muzeyşünaslıq işi özünün inkşaf vüsətini tapmışdır. Bunun da nəticəsində, Respublikada dövlət muzeyləri ilə yanaşı, Xalq Təhsili muzeyləri də fəaliyyət göstərmişdir. Bununla əlaqədar olaraq 1920-ci ildə Xalq Maarifi Komissarlığı Azərbaycan Dövlət Muzeyinin yaradılması barədə qərar qəbul etmiş və 1921-ci ilin may ayında muzeyin arxeologiya, tarix, etnoqrafiya və təbiət şöbələri ilk tamaşaçılarını qəbul etmişdir.

1936-cı ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunun təşkil olunması ilə əlaqədar olaraq İnstitutun ixtiyarında olan müəssisələrdən birincilik qazananlardan biri də «Əmtəəşünaslıq» muzeyi sayılırdı.

1937-ci ildən hal-hazıra kimi respublikanın ali məktəbləri sırasında Bakı Dövlət Universitetinin «Təkamül təlimi» muzeyi, 1940-cı ildən etibarən respublikada Təhsil Nazirliyinin «Xalq Təhsili muzeyi» və 1944-cü ildən hal-hazıra kimi Bakı Dövlət Universitetinin «Faydalı qazıntılar muzeyi» fəaliyyət göstərir.

Azərbaycanda muzey işinə qayğı və diqqət ölkəmizin başçısı Heydər Əliyevin fəaliyyətində xüsusi yer tutur. Heydər Əliyevi bir şəxsiyyət kimi səciyyələndirən cəhətlərdən biri də onun elm və mədəniyyətə geniş ürəklə qayğı göstərməsidir. O, xalqın əsrlər boyu yaratdığı mənəvi sərvətin, mədəniyyət dəyərlərinin toplanması, qorunması və daha da zənginləşdirilməsi üçün əməyini əsirgəməmişdir.

Bunu əyani surətdə sübuta yetirmək üçün möhtərəm Prezidentimiz Heydər Əliyevin muzeylər haqqında olan kəlamlarını konfrans nümayəndələrinin nəzərinə çatdirmağı muzeylərə olan qayğının bariz nümunəsi hesab etmək olar:

«Güman edirəm ki, muzey... xalqımızın, xüsusən gənc nəslin təlim-tərbiyəsində və mədəniyyətimizin inkişafında öz rolunu oynayacaqdır... Xalqımızın mənəvi saflaşmaq yolunda, müstəqillik yolunda mübarizəsinə kömək edəcəkdir».



1970-ci illərdən başlayaraq respublikamızda müxtəlif profilli muzeylərin yaradılması və fəaliyyət göstərən muzeylərin zənginləşdirilməsi dediklərimizin əyani ifadəsidir.

1980-cı ildə məhz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublikada muzey işinə aid xüsusi qərar qəbul edilmişdir. Bu qərar, muzey şəbəkəsinin inkişafına, muzeylərə rəhbərliyin təkmilləşdirilməsinə geniş imkanlar yaratmışdır. Həmin qərara uyğun olaraq, 1987-ci ildən etibarən, Respublika Təhsil Nazirliyinin aparatı tərkibində ali məktəb muzeylərinin işi üzrə Elmi-Metodiki Şura təşkil olunmuşdur. Həmin elmi mərkəz respublikanın 15 ali orta ixtisas təhsili məktəblərinin muzeylərinə rəhbərlik etmişdir.

Göstərilən dövrlərdən sonra Azərbaycanda muzeyşünaslıq işi getdikcə özünün inkişaf yolunu tapmışdır. Belə ki, 2000-ci ilin mart ayında «Muzeylər haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə minmişdir. Bu da respublikada muzeylərin yaradılması və fəaliyyətinin, muzey fondlarının formalaşdırılması, uçotu və mühafizəsinin təşkilati-hiquqi əsaslarını müəyyən edən və onların sosial-iqtisadi təminatı ilə bağlı münasibətləri tənzimləyən mühüm əhəmiyyətə malik bir sənəddir.

Hazırda respublikada xalq təhsili məktəblərində fəaliyyət göstərən muzeylərin sayı 16-dır. Həmin muzeylərdə çox böyük əhəmiyyətə malik zəngin kolleksiyalar toplanmışdır. Bu muzeylərdə tariximizin, ədəbiyyat və mədəniyyətimizin müxtəlif sahələri və dövrləri işıqlandırılmışdır. Bu da günümüzün maraqlı bir sahəsi xalq təhsili müəssisələrində təşkil olunmuş muzeylərin fəaliyyəti ilə bağlıdır. Belə muzeylərdən biri də Azərbaycan Dövlət İqtisad Universitetinin «Tarix muzeyi»dir. Muzey 1985-ci ildə təşkil olunmuşdur. Muzey üç salondan və 15 bölmədən ibarətdir. Muzeyin fonduna 2000-ə yaxın eksponat daxildir. Muzeydə şəxsi arxivlər fondu, şəxsi əşyalar fondu, elmi əsərlər fondu, audio və video kaset və s. fondları daxildir. Muzeydə muzey fondlarının komplektləşdirilməsi, onların uçota alınması, fondun qorunub saxlanılması və eksponatların elmi cəhətdən işlənib hazırlanması işinə dərindən fikir verilir.

Az.DİU-nun «Tarixi muzeyi» 2001-ci ildən etibarən müstəqil müəssisə hüququna malikdir. Eyni zamanda, muzeyin nümunəvi «Nizamnaməsi» Ədliyyə Nazirliyində qeydiyyatdan keçib təsdiq olunmuşdur.

Qeyd etmək olar ki, Azərbaycan DİU-nun «Tarixi muzeyi» Universitetdə tədris və təlim-tərbiyə işlərinin yerinə yetirilməsində və inkişafında fəal iştirak edir. Bu barədə bir sıra mülahizələrimi sizin nəzərinizə çatdırmaq istərdim. Bunlar aşağıdakılardan ibarətdir:

1. Muzeydə iqtisadi bilikləri yayan «Mədəniyyət Universiteti»nin təşkil olunması məqsədəuyğun sayılmışdır. Burada universitetin tələbə dinləyiciləri üçün mühazirələr təşkil edilməsi, iqtisadiyyat elminə dair məşğələlərin və mədəni tədbirlərin keçirilməsi, sənədli video kaset filmləri göstərilməsi planlaşdırılmışdır:

2. Universitetə qəbul olunan abituryentlərin hər ilin sentyabr ayında muzeyin «Şəhidlər zalı»nda, milli bayrağımız qarşısında universitetin şərəfinin qorunması barəsində and içib tələbə biletini alması məqsədəuyğun hesab olunur;

3. Universitetin muzey fondunun zənginləşdirilməsində iqtisadçıların, iqtisadçı-alimlərin və qabaqcıl tələbələrin iştirakının təşkil olunması nəzərdə tutulmuşdur;

4. Tələbələrin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə fakültə dekanları vasitəsilə ekskursiyaların vaxtaşırı və səmərəli təşkil olunması, xüsusilə də I və II kurs tələbələrinin muzeydə ekskursiya keçmələri zəruri sayılmışdır.

5. Müəllimlərin və magistr tələbələrin elmi tədqiqat işlərinin yerinə yetirilməsilə əlaqədar muzeyin elmi fondunun zənginləşdirilməsi planlaşdırılmışdır;

6. Muzeyin nəzdində iqtisadçıların və iqtisadçı alimlərin «Xeyriyyə fondu»nun təşkil edilməsi zəruri sayılmışdır;

Bir neçə kəlmə də konfransın təşkil olunması barədə fikrimi bildirmək istərdim.

Konfransın keçirilməsi aşağıdakılara əsas verir:



1. Konfransın respublikanın ali məktəblərinin 14 muzeyi, Azərbaycan Milli EA-nın «Arxeologiya və etnoqrafiya» və Azərbaycan «Xalq Təhsili muzeyi» təmsil edir;

2. Konfransın keçirilməsi gənclərin vətənpərvərlik birliyinin bərqərar olunmasında mühüm rol oynayacaqdır;

3. Konfransın keçirilməsi gənclərin milli ideya, siyasi tərbiyəsinin yüksəldilməsinə, onların arasında təlim-tərbiyənin səmərəli təşkilində, eləcə də tədrisin keyfiyyətinin yuksəldilməsində tələbələrin estetik cəhətdən formalaşmasında mühüm əhəmiyyət kəsb edəcəkdir;

4. Konfransın keçirilməsi xalq təhsili muzeylərinin işinin yenidən qurulmasına yaxından köməklik göstərəcəkdir. Belə ki, muzey fondlarının komplektləşdirilməsi, onların uçota alınması, muzeylərin fondunun qorunub saxlanması və eksponatların elmi cəhətdən işlənib hazırlanmasına yeni təkan verəcəkdir.

Qeyd etmək istərdim ki, muzey əməkdaşları xalqımızın maddi, mənəvi sərvətlərinin gələcək nəsillərə çatdırılmasında əvəzsiz xidmət göstərirlər. Mənə belə gəlir ki, muzey əməkdaşlarına dövlət qayğısı vacibdir. Çünki, onlar tariximizin yaddaşını və ulu əcdadlarımızın irsini yaşadıb qoruyur!

***Bakı şəhəri, 18 may, 2002-ci il.***

## Muzeyşünaslıq fəaliyyətimdən qeydlərim

Hələ şagirdlik dövrümdə Şuşada incəsənətə və mədəniyyətə çox həvəsim vardı. Belə ki, 4-cü sinifdən başlayaraq adi sadə karandaşla və sonralar isə akvarel rəngilə şəkillər çəkməyə başladım. Hal-hazıra kimi rəsm dəftərlərimdə çəkdiyim şəkilləri şəxsi arxivimdə saxlayıram.

Mən orta məktəbdə həm yaxşı və əla qiymətlərlə oxuyurdum, həm də bir sənət sahibi olmaq barədə hey düşünürdüm. Bu düşüncələr nəticəsində gah fotoqraf, gah dülgər işilə, gah da rəsm çəkməklə məşğul olurdum. Və nəhayət, birdəfəlik bir sənətlə məşğul olmaq arzusu ilə yaşayırdım. Nəticədə, əsl dərzilik sənətinə yiyələndim. Bu da mənə çox çətinliklə qismət oldu.

Lakin həyatda dinc otura bilmirdim. Ürəyimdə mədəniyyətə və incəsənətə həvəsim getdikcə artırdı. Nədənsə tələbəlik dövrümdən Bakı şəhərinin dövlət muzeylərinə boş vaxtlarımda tez-tez baş çəkməli olurdum. Orada eksponatlara həsrətlə baxdıqca hey düşünərdim…

1960-cı ildə Azərbaycanın tanınmış pedaqoqu, atam Mirzə Xosrov Axundzadə Şuşa şəhərində qəflətən vəfat etdi. Onun vəfatından sonra atamın arxiv sənədlərindən və şəxsi əşyalarından bəzilərini respublikanın 13 dövlət muzeyinə bağışladım. Hal-hazıra kimi bağışladığım arxiv materiallarının rəsmi aktları şəxsi arxivimdə saxlanılır.

1984-cü ildə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin muzeylərin işi üzrə şöbə müdiri Səriyyə xanım İsmayılova «Muzey eksponatlarının toplanılmasında və mədəni-kütləvi tədbirlərin keçirilməsindəki fəal iştirakıma görə» Mədəniyyət Nazirliyinin orqanı olan «Mədəni-maarif işi» jurnalının keçmiş baş redaktoru Müstəcəb müəllimə mənim haqqımda ətraflı material hazırlanıb dərc olunmasına rəsmi göstəriş verdi. Mənim barəmdə jurnalın 1984-cü ilin 3-cü nömrəsində «Nəcib yolun carçısı» başlığında geniş material dərc olundu.



O gündən muzeyşünaslıq işinə daha da rəğbətim artdı. Nəticədə heç kəsin köməyi olmadan muzeyşünaslıq sənətinə yiyələndim. Mənim bu işimdən hal-əhval tutan D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun sabiq rektoru, professor Zeynal Ələkbərov İnstitutun «Tarixi muzeyi»nin yaradılması məqsədilə 1985-ci ilin yanvar ayından etibarən ictimai əsaslarla mənim muzey direktoru vəzifəsinə təyin olunmağıma rəsmi əmr verdi*.

Qeyd etmək istərdim ki, muzeyşünaslıq sahəsində ixtisas sahibi olmadığıma baxmayaraq mən 20 ildir ki, muzeyşünaslıq işində var qüvvəmlə çalışıram. Bunun da nəticəsində bir ilin içərisində keçmiş SSRİ-nin ali məktəblərinin muzeyləri arasında ekspozisiya işinin təşkilinə görə İnstitutumuzun «Tarix muzeyi» 3-cü dərəcəli diploma layiq görülmüş və dəfələrlə fəxri fərman almışdır.

Axırıncı 10 ildə /1986-1996/ mənim zəhmətim daha çox olmuşdur. 1986-cı ildə İnstitutumuzun ləğv olunub Voznesenski adına Leninqrad-Maliyyə İqtisad İnstitutunun Bakı filialına çevrilməsi ilə əlaqədar olaraq İnstitutun muzeyinin də ləğv olunmasına 1987-ci ildən etibarən filialın sabiq direktoru Raqib Quliyevin xüsusi göstərişi ilə muzeyin otaqları auditoriya fonduna daxil edilmişdir. Az bir müddətdən sonra həmin auditortiya da ləğv olundu. Çox müsibətdən sonra muzeyin fondunun qorunub saxlanılmasına İnstitutun tədris binasının 3-cü mərtəbəsində kiçik bir otaqdan ibarət sığınacaq aldım. Həmin sığınacağa muzeyin darmadağın edilən eksponatlarından bir hissəsini və fanerdən hazırlanan lövhələrini birtəhər yerləşdirdim.

Lakin belə müsibətlərimə baxmayaraq özümə söz vermişdim ki, İnstitutun tarixi muzeyini necə olursa-olsun ən yüksək səviyyədə yenidən bərpa edəcəyəm. Nəhayət, 1996-cı ilin oktyabr ayının 4-də Azərbaycan Dövlət İqtisad İnstitutunun «Tarixi muzeyi»nin 2-ci dəfə təntənəli açılışı oldu.

---

* Qeyd: rektor Zeynal Ələkbərovun 1 saylı əmri muzeyin fondunda saxlanılır

Demək olar ki, muzeyin gözəlliyi, yaraşığı və tərtibatı muzeyə gələn qonaqların tam rəğbətini qazana bilmişdi. Hazırda muzey özünün əvvəlki görkəmini almışdır.

Muzeyşünaslıq işində sərf etdiyim əmək mənim həyatımda ən çətin və səmərəli günlərdən biridir.

Öz-özümə düşünürəm ki, nə yaxşı ki, dərrakəli şəxs olub ev əşyalarımızı vaxtında dövlət muzeylərinin fonduna bağışlamışam. 1992-ci ildə ana vətənim Şuşa şəhəri xəyanətin qurbanı oldu... Bunun nəticəsində də, Şuşada fəaliyyətdə olan dövlət muzeylərinin əsaslı fondundan əsər-əlamət qalmadı. Muzeylərdə olan bəzi qiymətli eksponatlar Şuşa muzeylərinin təsadüfi əməkdaşları tərəfindən, əksəriyyəti isə erməni işğalçıları tərəfindən zəbt edildi. Ancaq Şuşanın yadigarı kimi bağışladığım eksponatlar Bakı şəhərinin muzeylərində qorunmaqdadır.

1989-cu ilin noyabr ayından etibarən N.Voznesenski adına Leninqrad MİI-nun yeni direktoru, prof. Fuad Ələsgərovun əmrilə İnstitutun I-ci mərtəbəsində «İqtisadi təhsilin tarixi» muzeyinin yenidən təşkil olunması haqqında qərar qəbul edildi.*

Nəhayət, mənim rektorluğa 30 noyabr 1994-cü il tarixli təqdimatıma əsasən İnstitutun Elmi Şurasının 9 dekabr 1994-cü il tarixli iclasında 18 may Beynəlxalq muzeylər günü münasibətilə «Tarixi muzeyi»n təntənəli açılışının təşkil olunması qərara alındı. Bu məqsədlə İnstitutun rektor əvəzi, professor, Nyu-York Elmlər Akademiyasının həqiqi üzvü İslam Qarayevin şəxsən böyük humanistliyi nəticəsində İnstitutun xüsusi fondundan Respublika Milli Bankı vasitəslə «Ziya» kiçik müəssisəsinin hesabına 6 milyon 562 min manat muzeyin tərtib olunması üçün pul vəsaiti köçürülmüşdü.

Beləliklə də, 1996-cı ilin sentyabr ayına kimi muzeyin yeni eksponatları toplanıldı və həmin ilin oktyabr ayında muzeyin yenidən təntənəli açılışı oldu.

* Direktorluğun 1989-cu il, 210 saylı əmri muzeyin fondunda saxlanılır.



## İqtisad İnstitutunda muzeyin zənginləşdirilməsi problemləri

Azərbaycanda muzey işi XIX əsrin sonunda başlamışdır. Filosof alimlərin tədqiqatlarına istinad edib göstərmək olar ki, XX əsrdə Azərbaycanda muzeyşünaslıq işi daha da təşəkkül tapmış və bunun əsasında bir sıra sahəvi xarakter daşıyan muzeylər meydana gəlmişdir. Həmin dövrdə böyük mütəfəkkir yazıçı və dramaturq Mirzə Cəlil Məmmədquluzadə Naxcıvanın Nehrəm kənd məktəbində ilk muzey təşkil etmişdir. Bakıda xalq məktəbləri müdiriyyətinin nəzdində «Pedaqoji muzey» fəaliyyət göstərmişdir.

XX əsrin əvvəllərində milli demokratik hərəkatın güclənməsi Azərbaycanın tarixinin öyrənilməsinə təkan vermişdir. 1918-ci ildəki erməni-Azərbaycan münaqişələri və bununla əlaqədar olan Azərbaycana qarşı ərazi iddiaları tariximizin daha dərindən öyrənilməsini tələb edirdi. Tarix faktiki materiallara istinad etdiyinə görə muzey yaratmaq zərurəti meydana çıxdı. Bununla əlaqədar Azərbaycan Demokratik Cümhuriyyətinin parlamenti «İstiqlal» muzeyini yaratmışdır.

1920-ci ilin may ayının 18-də Azərbaycan İnqilab Komitəsinin sədri N.Nərimanovun «Muzeylərin milliləşdirilməsi haqqında» imzaladığı dekret respublikamızda bu mədəniyyət ocaqlarının təşkili və fəaliyyəti haqqında əhəmiyyətli bir başlanğıc oldu. Buna görə də hər ilin may ayının 18-i «Beynəlxalq muzeylər günü» təntənəli surətdə qeyd olunur. Hazırda Azərbaycanda muzeyşünaslıq işi getdikcə özünün inkişaf vüsətini tapmışdır. Belə ki, bu yaxınlarda Milli Məclisin Mədəniyyət məsələləri daimi komissiyası daha mühüm bir qanun layihəsini müzakirə etmişdir. Həmin sənəd Azərbaycan Respublikasında muzeylərin yaradılmasının və fəaliyyətinin, muzey fondlarının formalaşdırılması, uçotu və mühafizəsinin təşkilati-hüquqi əsaslarını müəyyən edən və onların sosial-iqtisadi təminatı ilə bağlı münasibətləri tənzimləyən «Muzeylər haqqında» Qanundur. Bu

Qanun Azərbaycan mədəniyyəti sahəsində mühüm əhəmiyyət kəsb edən bir sənəddir.

Məlum mənbələrdən aydın olur ki, hazırda respublikamızda 230 dövlət muzeyi və 40 rəsmi qalereya mövcuddur. Bakı şəhərində isə 126 muzey fəaliyyət göstərir. Ali və orta ixtisas məktəblərində fəaliyyət göstərən muzeylərin sayı isə 15-dir. Həmin muzeylərdə çox böyük əhəmiyyətə malik zəngin kolleksiyalar toplanmışdır. Bu muzeylərdə tariximizin, ədəbiyyat və mədəniyyətimizin müxtəlif sahələri və dövrləri işıqlandırılmışdır.

Müstəqil respublikamızın muzeyləri xalqın dünyagörüşünün formalaşmasında, keçmiş və gələcək nəslin milli qürurunun inkişafında mühüm rol oynayırlar.

İllər keçdikcə respublikamızda muzeyşünaslıq işi təkmilləşmiş, mədəni həyatımızın inkişafının əsas faktorlarından birinə çevrilmişdir. Bu gün muzey işinin maraqlı bir sahəsi ali və orta ixtisas təhsili müəssisələrində təşkil olunmuş muzeylərin fəaliyyəti ilə bağlıdır. Belə muzeylərdən biri də Azərbaycan Dövlər İqtisad İnstitutunun «Tarix muzeyi»dir. Muzey 1985-ci ildən fəaliyyət göstərir. Hazırda muzey 15 bölmədən ibarətdir. Buraya «Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması tarixi», «Azərbaycan Dövlər İqtisad İnstitutunun yaranma tarixindən səhifələr», «İnstitutumuzun rektorları», «İnstitutun elmi nailiyyətləri», «İnstitutun iqtisadçı alimləri», «İnstitutun müharibə və əmək veteranları», «İnstitutun fakültələrinin və kafedralarının fəaliyyəti», «İnstitutun həyatından səhifələr», «İnstitutun idman həyatı», «Yay əmək tədris ilinin gündəliyindən», «Tələbə həyatı», «İnstitutun şəhid tələbələri» bölmələri daxildir. Bu bölmələrdə İnstitutun həyatı ilə bağlı sənədlərin aşkara çıxarılmasına, iqtisadi-mədəni həyat hadisələrini dolğun əks etdirən materialların toplanılmasına, onlardan mühüm tərbiyə vasitəsi kimi istifadə olunmasına daha çox diqqət yetirilir. Bu baxımdan da İnstitutumuzun tarixi muzeyi mədəni irsimizin qorunmasında əhəmiyyətli rol oynayır.

Tarix muzeyində keçirilən hər bir tədbir konkretliyi, operativliyi ilə fərqlənir, maraqlı və cəlbedici olur. Muzey spesifik əyani vasitələrlə zənginləşdirilərək, İnstitutun elmi-metodiki



fəaliyyətini əks etdirməklə, onların əldə etdiyi nailiyyətlərin də tarixini açır. Muzeydə təkcə keçmiş tarixə aid eksponatları əldə etməklə kifayətlənilmir, eyni zamanda müasir həyatımızın müxtəlif sahələrinin də işıqlandırılmasına diqqət yetirilmişdir.

Tarix muzeyi bir sıra sosial funksiyaları: elmi sənədləşdirmə və mühafizə, tədqiqatçılıq, təlim-tərbiyə və tədris işinin keyfiyyətinin yüksəldilməsini və s. yerinə yetirir. Bu işlərin həyata keçirilməsində muzeyin fondundan geniş istifadə olunur.

Muzeyin nəzdində bir sıra fondlaşdırma işi aparılmışdır. Buna arxiv fondu, şəxsi əşyalar fondu, səsyazma fondu, audio və video kaseta fondu, mətbuat fondu, foto-neqativ fondu, elmi əsərlər fondu və sairə daxildir.

Beləliklə də, İnstitutun «Tarix muzeyi»nin gələcək fəaliyyətini təkmilləşdirmək məqsədilə muzeydə aşağıdakı tədbirlərin həayta keçirilməsi nəzərdə tutulmuşdur:

-Ali məktəblərin muzey fondlarında ən əlverişli eksponatların toplanması mədəni irsimizin qorunub saxlanması işində böyük əhəmiyyət kəsb edir. Zənnimizcə, muzey fondunun tarixi eksponatlar və maraqlı sənədlərlə zənginləşdirilməsində ictimaiyyətin, xüsusilə ziyalıların köməyindən kifayət qədər istifadə edilməlidir;

-İnstitutun tarixini öyrənmək məqsədilə yaxşı olardı ki, hər ilin sentyabr ayında yeni tədris ilinin başlanması ilə əlaqədar olaraq «Azərbaycan tarixi» kafedrasının professor-müəllimləri ilk mühazirələrini İnstitutun 70 illik tarixinə həsr etsinlər;

-İnstitutun muzeyi tanınmış iqtisadçı alimlərimizin həyat və fəaliyyətini əks etdirmək baxımından çox mühüm əhəmiyyət kəsb edir. Eyni zamanda tələbələrin ideya tərbiyəsində, onların ideya amalında, tədris işində, mahir pedaqoqların ustalıqlarının təbliğ edilməsində muzey təsiredici vasitədir. Bu baxımdan tələbələrin asudə vaxtlarının səmərəli keçirilməsində fakültələrin dekanlıqlarının vaxtaşırı ekskursiyalar təşkil etmələri, zənnimizcə, vacibdir;

-Elmi-tədqiqat işlərinin yerinə yetirilməsində muzeyin elmi fondunun zənginləşdirilməsinin mühüm əhəmiyyəti vardır. Bu

məqsədlə professor-müəllim və tələbə heyəti muzeyin elmi fondundan səmərəli istifadə etməlidirlər;

-Hazırda muzeydə fondlaşdırma işinin təşkili-yəni muzey fondlarının komplektləşdirilməsi, əşyaların qeydə alınması, təyin edilməsi və elmi təsviri, muzey fondlarının mühafizəsi və s. məsələlərin həlli tarixi muzeyin işinin yerinə yetirilməsi məqsədilə muzey üçün «Muzey Fondunun mühafizəçisi» ştat vahidinin ayrılması məsələsi vacibdir.

-Muzeyin nəzdində iqtisadçıların və iqtisadçı alimlərin Xeyriyyə Fondunun təşkil edilməsi, zənnimizcə məqsədəuyğundur. Bu cür fondun yaradılması muzeyin maddi-texniki bazasının möhkəmləndirilməsinə böyük köməklik göstərə bilər. Bu məqsədlə Dövlət Bankında muzeyin hesablaşma hesabının açılmasına təşəbbüs göstərilməsi vacibdir.

-İnstitutun muzeyinin ali məktəblər arasında dövlət statusunu alması üçün lazımi sənədlərin işlənib hazırlanması və yuxarı təşkilatlar qarşısında məsələ qaldırılması, zənnimizcə muzeyin gələcək fəaliyyətində əhəmiyyətli olardı;

-Muzeyin fəaliyyətində əsas məsələlərdən biri də onun «Nizamnaməsi»nin tərtib olunub hazırlanmasıdır. Bu da muzey fondundan istifadə olunmasında, fondlaşdırma işinin səmərəli aparılmasında və muzey əməkdaşlarının hüquqlarının qorunmasında əsas rol oynayacaqdır;

-Qeyd etmək olar ki, 2000-ci ildə Azərbaycan Dövlət İqtisad İnstitutunun fəaliyyətinin 70 illik yubileyi tamam olur. Bununla əlaqədar olaraq muzey fonduna əsaslanıb «Azərbaycan Dövlət İqtisad İnstitutu-70 ildə» tarixi səlnamə kitabının və eləcə də muzeyin təşkil olunmasının 15 illik fəaliyyətinə dair «Buklet-kitabça»nın yazılıb hazırlanması qarşıda duran əsas vəzifələrdən biridir. Tarixi səlnamənin hazırlanması məqsədilə redaksiya heyətinin siyahısının tərtib olunub İnstitutun Elmi Şurasında təsdiq edilməsi vacibdir;

- İqtisadiyyat elminin tarixi meyarının əbədiləşdirilməsində görkəmli iqtisadçı alimlərimizin çox mühüm rolu vardır. Yubiley tədbirləri ilə əlaqədar yaxşı olardı ki, professor-müəllim heyəti özlərinin «Xatirələri»ni yazıb və şəxsi fondlarını muzeyə təqdim



etsinlər. Bunun da əsasında muzeyin eksponatlarında əks olunan görkəmli iqtisadçı alimlərimizin həyat və fəaliyyətinə aid «Biblioqrafik məlumat» kitabçasının və «Xatirələr» toplusunun hazırlanıb nəşr olunması müasir şəraitdə iqtisadiyyat elminə bir örnək olardı.[x]

x) Məqalə «İqtisad elmləri: nəzəriyyə və praktika» jurnalının (1,2, 2000-ci il) nömrəsindən götürülmüşdür.

## İqtisad Universitetinin tarixi muzeyi

Xalqın mənəvi mədəniyyət sərvətlərinin və sosial hafizəsinin əsl xəzinəsi olan muzeylər Xalq Təhsili məktəblərinin tələbələrinin mənəvi ideya-siyasi, bədii və estetik tərbiyəsində, onların dünyagörüşünün formalaşmasında xüsusi əhəmiyyətə malikdir.

Keçmişini öyrənmədən irəliləməklə bu günümüzə və gələcəyə xeyir vermək mümkün deyil. Tarixi yaddaşın itməsi yüksək mənəviyyatlı şəxsiyyətin formalaşmasına öz mənfi təsirini göstərir. Məhz muzeylər yüksək əxlaqi keyfiyyətlərin və estetik mədəniyyətin mərkəzi kimi əsrlər boyu müxtəlif sahələrdə toplanmış təcrübəni yeni-yeni nəsillərə çatdıraraq insanı mənəvi cəhətdən zənginləşdirir, onu tarixi, elmi, ədəbi və mənəvi irsə hörmət ruhunda tərbiyə edir. Bu mənada milli, maddi, mədəni və mənəvi dəyərlərimizə dərindən yiyələnmək, onu qorumaq və inkişaf etdirmək indiki və gələcək nəsillərin müqəddəs vəzifəsidir.

Hazırda Azərbaycanda muzeyşünaslıq işi getdikcə özünün inkişaf vüsətini tapmışdır. Muzey sərvətlərinin toplanması, onların uçotunun dəqiq aparılması və qorunması dövlət əhəmiyyətli işdir. Xalqın dünənini və bu gününü özündə hifs edib yaşadan, babalarımızın estetik duyumunu, dərin təfəkkürünü əks etdirən hər bir xırda əşya belə göz bəbəyi kimi qorunmalıdır. Axı, belə nümunələr tarixi keçmişimizin qaranlıq səhifələrinin açılmasında mühüm rol oynayır. Muzey sərvətlərinin uçotu və mühafizəsi üzrə təlimat «Muzeylər haqqında» Azərbaycan Respublikasının Qanununda öz əksini tapmışdır. Belə ki, 2001-ci ilin mart ayında «Muzeylər haqqında» Qanunun qüvvəyə minməsi və muzeylərin fəaliyyətinin, muzey fondlarının formalaşması, uçotu və mühafizəsinin təşkilati-hüquqi əsaslarının müəyyən edilməsinə və onların sosial-iqtisadi təminatı ilə bağlı münasibətlərin tənzimlənməsinə geniş şərait yaratmışdır. Bu qanun Azərbaycan mədəniyyəti sahəsində mühüm əhəmiyyət kəsb edən bir sənəddir.



İllər keçdikcə respublikamızda muzeyşünaslıq işi təkmilləşmiş, mədəni həyatımızın inkişafının əsas faktorlarından birinə çevrilmişdir. Bu gün muzey işinin maraqlı bir sahəsi olan Xalq Təhsili məktəblərində təşkil olunmuş muzeylərin fəaliyyəti daha çox nəzərə çarpır.

Bu cəhətdən də respublikamızda ilk təşkil olunmuş iqtisadiyyat elmi sahəsindəki Azərbaycan Dövlət İqtisad Universitetinin «Tarix muzeyi» müstəsna əhəmiyyətə malikdir. Muzey 1985-ci ilin yanvar ayından etibarən fəaliyyət göstərir. Muzey bir sıra sosial funksiyaları yerinə yetirir. Buna elmi sənədləşdirmə, mühafizə, tədqiqatçılıq, təlim-tərbiyə və tədris işinin keyfiyyətinin yüksəldilməsini və b. misal göstərmək olar.

Muzeyin nəzdində bir sıra fondlaşdırma işi aparılmışdır. Buraya arxiv, şəxsi əşyalar, səsyazma, audio və video kaset, mətbuat, fotoneqativ, elmi əsərlər fondları və s. daxildir. Muzeydə universitetin yaranma tarixi, Azərbaycan Demokratik Cümhuriyyətinin yaranma tarixindən səhifələr, rektorların fəaliyyəti haqqında, universitetin sabiq və fəaliyyətdə olan iqtisadçı alimləri, elmi nailiyyətlərimiz haqqında, universitetin idman həyatı və yay əmək tədris ilinin gündəliyi, tələbə gənclərin sağlamlığı keşiyində, həmkarlar təşkilatının fəaliyyəti, universitetin tələbə şəhidləri və sairə bölmələr əks olunmuşdur.

Bazar iqtisadiyyatı şəraitində Azərbaycan Dövlət İqtisad Universitetinin «Tarix muzeyi» və onun filialı qarşısında bir sıra vəzifələr durur. Həmin vəzifələrin həll edilməsi üçün aşağıda irəli sürülən tövsiyələrin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

-Tədris prosesinin gücləndirilməsində muzeyin ekspozisiyasından geniş istifadə olunması. Bu məqsədlə təhsilin səviyyəsinin yüksəldilməsində muzeyin eksponatlarının tərtibat keyfiyyətinin lazımi səviyyəyə çatdırılması;

-Tədris işinin inkişaf etdirilməsində (yəni kurs, elmi, buraxılış və diplom işlərinin yazılmasında) muzeyin əsaslı fondunun böyük rolu vardır. Belə ki, tələbələrin muzeyin elmi fondundan səmərəli istifadə etməsinə lazımi şərait yaradılmışdır. Bunun da nəticəsində tələbələrin elmi dünyagörüşünün artırılmasına zəmin yaradılmışdır.

-Universitetin muzeyində fondlaşdırma işinin təşkilinin günün tələbləri səviyyəsində qurulması planlaşdırılıb. Bunun da yerinə yetirilməsində respublika Mədəniyyət Nazirliyinin «Muzey fondlarının uçotu və saxlanılması» haqqındakı «Təlimat»ından səmərəli istifadə olunacaqdır.

-Universitetin muzeylərində keçirilən hər bir tədbir özünün konkretliyi, operativliyi ilə fərqlənmiş, maraqlı və cəlbedici olmuşdur. Belə ki, muzeyin əməkdaşları təkcə keçmiş tarixə dair eksponatları əldə etməklə kifayətlənməmiş, eləcə də müasir həyatımızın böyük quruculuq işlərinin ən müxtəlif sənədləri ilə işıqlandırılmasına daha çox diqqət yetirmişlər;

-Universitetə qəbul olunan abuturiyentlərin hər ilin sentyabr ayında muzeyin «Universitetin şəhid tələbələri» bölməsi olan zalında milli bayrağımız qarşısında universitetin şərəfinin qorunması barəsində and içib tələbə biletini alması planlaşdırılmışdır. Bu da tələbələrin milli ideya-siyasi və hərbi vətənpərvərlik səviyyəsinin yüksəldilməsində mühüm amil hesab oluna bilər.

-Muzeydə iqtisadi bilikləri yayan Xalq universitetinin təşkil olunması nəzərdə tutulmuşdur. Bunun da nəticəsində, əvvəla, dinləyicilər üçün iqtisadiyyat elminə dair lazımi disputların keçirilməsi və sənədli filmlərin göstərilməsi tələbələrin asudə vaxtından səmərəli istifadə edilməsinə səbəb olardı.

Digər tərəfdən tələbələrin asudə vaxtının səmərəli keçirilməsi məqsədilə fakültə dekanlıqları vasitəslə I və II kurs tələbələrinə vaxtaşırı ekskursiyaların təşkil edilməsi onların təhsil aldıqları müəssisənin yaranma tarixinin öyrənilməsinə zəmin yaradır.

- Elmi-tədqiqat işlərinin yerinə yetirilməsi ilə əlaqədar muzeyin elmi əsərlər fondunun təkmilləşdirilməsi qarşıda duran əsas vəzifələrdən biridir. Bu məqsədlə hazırda muzeydə respublikanın görkəmli iqtisadçı alimlərinin şəxsi fondu zənginləşdirilir. Bu da müəllim və tələbələrin fonddan geniş istifadə etməsinə şərait yaratmışdır.

- Azərbaycan Dövlət İqtisad Universitetinin muzeyinin maddi-texniki bazasının möhkəmləndirilməsi məqsədilə



respublika Milli Bankında muzeyin hesablaşma hesabının açılması məqsədəuyğun hesab edilmişdir. Bunun üçün aşağıdakılar həyata keçiriləcəkdir:

a) iqtisadçıların və iqtisadçı alimlərin «Xeyriyyə fondu»nun təşkil olunması;

b) muzeyin nəzdində turizm şirkətləri ilə ekskursiya müqavilələrinin təşkil edilməsi. Bu məqsədlə də Respublika Gənclər, Turizm və İdman Nazirliyi ilə müvafiq müqavilənin bağlanması nəzərdə tutulmuşdur;

Azərbaycanda arxivşünaslıq işi xalqımızın çoxəsrlik tarixini öyrənmək üçün qiymətli sənədlərin toplandığı və mühafizə olunduğu elmi-tədqiqat mərkəzidir. Bu baxımdan Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasında arxiv işinin təkmilləşdirilməsi haqqında»kı 2 dekabr 2002-ci il tarixli Fərmanı mühüm əhəmiyyət kəsb edir. Bununla əlaqədar olaraq başqa arxiv təşkilatları kimi muzeylərin də arxiv fondu yeni materiallarla daim zənginləşən mühüm bir mənbəyə çevrilmişdir.

Bizim fikrimizcə, Azərbaycan Respublikasının «Mərkəzi Dövlət Ədəbiyyat və İncəsənət Arxivi»nin nəzdində Xalq Təhsili Məktəbləri Muzeylərinin «Arxiv sənədləri bölməsi»nin təşkil olunmasının vaxtı çoxdan çatmışdır.

Qeyd etmək istərdik ki, muzey əməkdaşları xalqımızın maddi, mənəvi sərvətlərinin gələcək nəsillərə çatdırılmasında əvəzsiz xidmət göstərirlər. Bizə belə gəlir ki, muzey əməkdaşlarına dövlət qayğısı zəruridir. Çünki onlar tariximizin yaddaşını və ulu əcdadlarımızın irsini tarixi meyar kimi qoruyub saxlayırlar.

- Muzeyşünaslıq sahəsində Azərbaycan Dövlət İqtisad Universitetinin iş təcrübəsi artıq Xalq Təhsili məktəblərinin muzey əməkdaşlarına məlumdur. Bunun da nəticəsində, muzeyşünaslıq işi universitetdə əsas hədəf nöqtəsinə çevrilmişdir.

Hazırda universitetdə bir sıra muzeylər fəaliyyət göstərir. Bu məqsədlə də, Ali məktəbdə «Kompleks Muzeylər Mərkəzi»nin təşkil olunması məqsədəuyğun sayıla bilər.

## Azərbaycan Dövlət İqtisad Universitetində muzey baxıcılarına veriləcək məlumat

XIX əsrin sonunda, XX əsrin əvvəllərində Azərbaycan sənayesinin inkişafı Bakı şəhərinin mərkəzində yeni inzibati, ictimai və yaşayış binalarının tikintisini təmin etdi. O, dövrün görkəmli memarları öz fəaliyyətlərində yeni müasir Avropa üslubunda yerli memarlıq ənənələrindən istifadə edərək binalar ucaltmağa başladılır. İlk növbədə əsas diqqət Bakı şəhərinin əsas küçəsi olan Nikolayevski (indiki İstiqlaliyyət») küçəsinə yönəldi və burada əsasən inzibati binalar inşa olunmağa başlandı.

1901-ci ilin may ayının 14-də həmin küçədə monumental binalar ucaldılmasının təməl daşı qoyuldu. Bina «Bakı realnı məktəbi» üçün nəzərdə tutulmuşdu. Binanın tikilməsinə 300000 rubl ayrılmışdı. Bu məbləğ o zaman üçün çox böyük rəqəm idi.

Memarlıq üslubuna gəldikdə bina italyan intibah üslubunda qurulmuşdur. Binanın memarı D.D.Buynovun 1900-cü ilin əvvəllərində hazırladığı layihə əsasında təsdiq olunmuş və tikintisinə başlanmışdı. Memar ayrılmış torpağın relyefini nəzərə almalı idi. Belə ki, binanın yarısı düz sahədə yerləşirdi. Sonra küçənin döngəsi və aşağıya doğru enməsi çətinlik yaradırdı. Bu çətinlikdən memar Buynov məharətlə çıxış yolu tapdı.

1906-cı ildə bina tikilib tamamlandı. Bir cərgədə yerləşən əzəmətli binalar «İsmailiyyə» memar İ.K.Plaşkovun, H.Z.Tağıyevin «Qızlar məktəbi» (indiki əlyazmalar İnstitutu-memar Qaslovski), Bakı realnı məktəbi, Bakı şəhər duması (memar Qaslovski), İctimai birliyin yay sarayı (indiki filarmoniya memar Termikelovun layihəsi əsasında tikilmişdir). Sonrakı illərdə İstiqlaliyyət küçəsində Bakı Dövlət Universitetinin binası yerləşirdi. 1966-cı ildən binada Azərbaycan Dövlət İqtisad Universiteti fəaliyyət göstərməyə başlamışdır. 2001-ci ildə Universitetin yubileyi ərəfəsində rektorluq tərəfindən bu elm ocağına bəslənilən qayğı universitet əməkdaşlarının ürəyincə olmuşdur.

Bu onunla izah olunur ki, Universitetin yerləşdiyi bina Azərbaycan xalqının tarixinin ayrılmaz bir səhifəsidir.



Azərbaycan Dövlət İqtisad Universiteti 1930-cu ildən etibarən tam müstəqil İnstituta çevrilmişdir. Azərbaycan SSR Xalq Komissarları Sovetinin «Azərbaycan SSR-də Ali məktəblərin və Orta İxtisas məktəblərinin yenidən qurulması, rayonlaşdırılması və onların müvafiq təsərrüfat orqanları və Xalq Komissarlarına tabe edilməsi haqqında» 400 saylı əmrində Azərbaycanda ali təhsil sisteminin sonrakı inkişaf perspektivləri geniş əks olunmuşdur. Bununla əlaqədar olaraq, Azərbaycan SSR Xalq Komissarları Sovetinin 1930-cu il 18 iyun tarixli 400 saylı əmrinin 4ª bəndinə əsasən Azərbaycan Xalq Komissarları Sovetinin qərarı ilə Azərbaycan Dövlət Universitetinin iqtisad fakültəsinin bazasında Azərbaycan Ticarət-Kooperativ İnstitutu yaradılmışdır. İnstitut 1930-1933-cü illərdə fəaliyyət göstərmiş, 1933-cü ilin əvvəlinə 1936-cı ilin sonuna qədər Azərbaycan Sosial-İqtisad İnstitutu adlanmışdır. Azərbaycan Xalq Komissarları Sovetinin 1936-ci il 30 dekabr tarixli qərarı ilə Azərbaycan-Sosial İqtisad İnstitutunun bazasında, Azərbaycan Sovet Ticarət İnstitutunun birləşdirilməsi ilə K.Marks adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu təşkil olunmuşdur. Bu İnstitut da 1937-ci ildən fəaliyyətə başlamış və müstəqil ali məktəb kimi 1941-ci ilə qədər mövcud olmuşdur.

Böyük Vətən Müharibəsinin başlanmasından sonra ali məktəblərin bir çoxu, o cümlədən, Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu da bağlanmış və 1944-cü ilin axırına qədər yenidən Azərbaycan Dövlət Universitetinin tərkibində iqtisad fakültəsi kimi fəaliyyət göstərmişdir. 1945-ci ildən müstəqilliyini bərpa edən Azərbaycan Xalq Təsərrüfatı İnstitutu öz fəaliyyətini 1959-ci ilə qədər davam etdirmişdir. 1959-cu ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutu müəyyən səbəblər ucbatından ləğv edilərək yenidən Azərbaycan Dövlət Universitetinin tərkibinə verilmişdir.

1966-ci ilin mart ayında Azərbaycan SSR Nazirlər Sovetinin 167 nömrəli qərarı ilə Azərbaycan Xalq Təsərrüfatı İnstitutu yenidən bərpa edildi və 1987-ci ilə kimi fəaliyyət göstərdi.

1987-ci ilin oktyabr ayında İnstitut yenidən bağlanaraq Leninqradın Maliyyə-İqtisad İnstitutunun Bakı filialına çevrildi.

1990-ci il iyulun 26-da Azərbaycan Dövlət İqtisad İnstitutu yaradıldı. Həmin ildən 1992-ci ilə kimi professor Fuad Ələsgərov institutun rektoru vəzifəsində işləmişdir. 2000-ci il iyulun 13-də möhtərəm prezidentimiz Heydər Əliyev təhsil sahəsində aparılan islahatları sürətləndirmək, idarəetmə mexanizminin təkmilləşdirmək haqqında fərman imzalamışdı. Ölkəmizdə təhsilin inkişafına dövlət qayğısının yeni bir təzahürü olan bu fərman təhsil sisteminin müasir tələblər səviyyəsində qurulmasına real zəmin yaradan mühüm tədbirlər nəzərdə tutmuşdu. Bu tədbirlərdən biri də Azərbaycan Dövlət İqtisad İnstitutunun və Bakı Əmtəəşünaslıq Kommersiya İnstitutunun bazasında Azərbaycan Dövlət İqtisad Universitetinin (ADİU) yaradılması idi.

Hazırda Universitetdə 23 fakültədə 15 mindən artıq tələbə bakalavr və magistr pilləli təhsil sisteminə yiyələnir. Onların təhsili ilə 58 kafedrada çalışan 750-ə yaxın professor-müəllim heyəti məşğul olur. Universitetimizdə bir çox xarici aspirantlar və doktorantlar təhsil alırlar.

Universitetin auditoriyaları müasir kompyuterlərlə təchiz edilmiş və lokal şəbəkədə birləşdirilərək Beynəlxalq İnternet Şəbəkəsinə qoşulmuşdur. Dünyanın müxtəlif universitetləri ilə telekörpü yaradılıb və informasiya mübadiləsi aparmaq imkanlarımız artmışdır.

2000-ci ildən 2004-cü ilin fevral ayına kimi akademik Əli Məmməd oğlu Abbasov universitetə rəhbərlik etmişdir. O, 2001-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

2004-cü ilin fevral ayından etibarən akademik Əli Abbasov Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Naziri vəzifəsinə keçdikdən sonra professor Telman Hüseynov rektor vəzifəsinin əvəz edicisi təyin olundu. O, 2004-cü ilin noyabr ayına kimi həmin vəzifəni icra etdi.

3 noyabr 2004-cü il tarixli Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə professor Şəmsəddin Hümmət oğlu Hacıyev Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru təyin olundu.



Qeyd etmək olar ki, rektorluq fəaliyyəti dövründə professor Ş.Hacıyev bir sıra əhəmiyyətli işlər görmüş və universitetdə ciddi struktur dəyişiklikləri aparılmasını planlaşdırmışdır. Belə ki, onun fikrincə universitetdə yüksək ixtisaslı kadrların hazırlanması üçün əlavə tədris yüklərinin aradan qaldırılması zəruri sayılmalıdır. Eyni zamanda, rektorluq universitetin muzeyinin ekspozisiya salonlarının genişləndirilməsi və müasir tələblər səviyyəsinə cavab verməsi üçün lazımi tədbirlərin görülməsini nəzərdə tutmuşdur.

## Universitetin muzeylərinin yaradılması tarixindən məlumat

Azərbaycanda muzey işinin təşkilinə 1920-ci il may ayının 18-də Nəriman Nərimanovun imzaladığı müvafiq dekretdən sonra başlanmışdır. Ötən müddət ərzində mədəni və mənəvi irsimizin qorunması və ictimaiyyətə çatdırılmasında həm də gənc nəslin təlim-tərbiyəsində mühüm rol oynayan muzey şəbəkəsi genişlənmişdir. Belə ki, dövlət miqyasında tarix muzeyi, ev muzeyləri və s. ilə yanaşı, ayrı-ayrı tədris müəssisəsinin fəaliyyətində eksponatları özündə cəmləşdirən muzeylər də təşkil olunmuşdur. Belə muzeylərdən biri də Azərbaycan Dövlət İqtisad Universitetinin «Tarix muzeyi»dir.

Qeyd etmək olar ki, 1936-cı ildən K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu təşkil olunduqdan sonra İnstitutun ixtiyarında olan müəssisələrdən biri də Əmtəəşünaslıq fakültəsinin muzeyi sayılırdı. Həmin muzey öz fəaliyyətini müasir dövrümüzə kimi davam etdirmişdir.

Azərbaycan Dövlət İqtisad Universitetinin «Tarix muzeyi» 1985-ci il yanvar ayının 4-dən etibarən rektorluğun 1 saylı əmri ilə təşkil edilmiş və həmin ilin may ayının 11-də isə muzeyin təntənəli açılışı olmuşdur. 1987-ci ildən D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutu ləğv olunmuş və həmin ildən etibarən institut N.A.Voznesenski adına Leninqrad Maliyyə-İqtisad İnstitutunun Bakı filialına çevrilmişdir. Bununla əlaqədar olaraq, institutun muzeyi də ləğv olunmuşdur. Lakin böyük çətinliklər bahasına muzeyin fondu qorunub saxlanılmışdır. 1989-cu ildə filialın direktorluğunun 201 saylı əmri ilə «İqtisadi tarixin təhsili» adında muzeyin təşkil olunması rəsmi surətdə qərarlaşdırılmışdır.

Nəhayət, 1996-cı ilin oktyabr ayının 4-də «Müəllimlər günü» münasibətilə İnstitutun «Tarix muzeyi»inin ikinci dəfə təntənəli açılışı olmuşdur.

Hazırda muzey 15 bölmədən ibarətdir. Tarixi muzeydə bir sıra sosial funksiyaları – elmi sənədləşdirmə, mühafizə, tədqiqatçılıq, təlim-tərbiyə, tədris işləri və s. yerinə yetirilir. Bu işlərin həyata keçirilməsində muzeyin fondundan geniş istifadə olunur. Azərbaycan Respublikasının «Muzeylər haqqında» Qanununda deyilir:



- Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən muzeylərin fonduna daxil edilmiş muzey əşyaları və kolleksiyaları Azərbaycan xalqının sərvətidir. Bunlara daxil olan sərvətlərdən biri də Universitetimizin «Tarix muzeyi»nin fondudur.

Qeyd etmək olar ki, Universitetin «Tarix muzeyi» 17 ali məktəb muzeylərinin arasında birincilik qazanaraq dövlət qeydiyyatından keçmiş və müstəqil müəssisə statusu hüququnu qazanmışdır. Eyni zamanda, Ali məktəblərə nümunə olaraq muzeyin Nizamnaməsi təsdiq edilmişdir.

## Muzeyşünaslıq fəaliyyətimdən düşündüklərim

Hər necə olursa-olsun, muzeyin rəhbərliyinin uğurlarını gizlətmək, özlərinə rəğbət və imic yaratmaq – bu xəbislikdən başqa bir şey deyildir.

Atalar demişkən: «Xain xəbis olur». Başqa bir məsəl də var: «Yaxşı iş heykəl kimidir, hardan baxsalar görünər». Ona görə də ədaləti meyar götürüb hər kəsə layiq olduğu qiyməti vermək daha yaxşı olardı. O qiyməti biz verməsək də, zaman özü verəcəkdir.

Muzeyşünaslıq özü də dərin və maraqlı bir elmdir. Onunla hər kəs axıradək məşğul ola bilmir. Bu işdə xüsusi istedadın olmaqla, onun incəliklərinə gərək sahib olasan. Mən bu incəliklərə ancaq həyatın enişli-yoxuşdu cığırlarında nail olmuşam. Bəziləri mənə hətta rişxənd də edirdilər. Muzeyşünaslıq təcrübəmə inanmırdılar. Mən də cavabında deyirdim ki, heç tələsməyin, vaxt gələr, mən öz işimlə sizi inandıraram!

Nəhayət, son məqam – 1985-ci ilin may ayının 11-i yetişdi. Muzeyin təntənəli açılışından sonra mənə rişxənd edənlər öz gözlərinə inanmadılar.

İndi artıq düşünürəm ki, mənim 20 illik əməyim itməmişdir. Muzeyimiz eksponatlarla o qədər zəngindir ki, hətta o, ali məktəblər arasında status hüququnu almışdır.

Lakin məni düşündürən digər məsələlər də mövcuddur. Fikirləşirəm ki, görəsən gələcəkdə bu muzeyin vəziyyəti necə olacaqdır?! Məndən sonra bu muzeyə can yandıran bir şəxs meydana çıxacaqmı?! Mənə elə gəlir ki, elə bir qeyrətli adam tapılacaqdır. Muzeyi dağıtmaq yox, ancaq yaşadacaqdır.

Muzey gəncliyimiz və xoş gələcəyimizdir, ideya amalımızdır.

Hər kəs öz xalqını, vətənini və torpağını sevirsə, mütləq onun tarixi ilə maraqlanmalıdır. Onda ancaq o, muzeylərə üz tutmalıdır!

***Bakı şəhəri, may, 2005-ci il***

# MÜLAHİZƏLƏR VƏ NƏSİHƏTLƏR

## Həyatımın bəzi anları və mənəviyyat problemi

Hər kəs öz həyatında çatışmayan anlarını bilməli və ondan ibrət dərsi almalıdır. Mənim də həyatımın bəzi ağır anları olmuşdur. Lakin özümə təsəlli verə bilmişəm. Bu da mənə xeyli köməklik etmişdir.

Uşaqlıq illərindən mən əməksevər olmuşam və ömrümün axır illərinə kimi əməksevərliliyimi unutmamışam. Övladlarımın da əməksevər olmasını həmişə tövsiyə etmişəm. Bunun da nəticəsində həyatda heç nədən ehtiyacım olmamışdır.

Həyatda həmişə prinsipial olmuşam. İşimi elə qurmuşam ki, tabe olduğum idarə rəhbərliyi məndən narazı olmayıbdır. Kimsə mənə haqsızlıq etmişsə, o da Allahın qəzəbinə düçar olmuşdur.

Mən uşaqnan uşaq, böyüknən böyük kimi rəftar etmişəm. Allahdan qorxmuşam. Buna görə də ona dərindən sitayiş etmişəm. Hətta mənim bu işimə görə (yəni dini etiqadıma görə) tələbəlik dövründə məndən üz döndərənlər də olmuşdur. Və nəhayət, gözlədiyim günlər gəlib çıxdı. Bir vaxt ateist olan şəxslər tez donunu dəyişib Məkkəyə Həcc ziyarətinə gedib «Hacı» ləğəbini qazandı. Həmin şəxslər özünü elə göstərirdi ki, elə bil vaxtı ilə dinə qarşı çıxmamışlar. Bax belə ikili sifətdə olan adamlara həmişə nifrətim olmuşdur.

Mənə belə gəlir ki, Həccə getməyin həmişə arzusunda olan, lakin maddi cəhətdən mümkünatı olmayan əsl allahpərəst adamları Allah da üzürlü saya bilər. Belə insanların əqidəsi və dinə münasibəti heç də zülmkar «Hacı»lardan geri qalan deyildir.

Elə adamlar var ki, Həcc ziyarətinə başqa məqsədlə gedir. Bəzən də alver işilə məşğul olur. Bəziləri də pis əməllərinə qarşı tövbə edib etdiyi əməllərini unutmaq üçün Allah-Təala qarşısında səcdə qılıb dilək istəyib.

Əlbəttə, Hacı olmaq hər bir müsəlmanın borcudur, ancaq vacib borclarından biri deyil, hətta şəriətlə ailəsi ehtiyac içində olan adamın xərc-xəsarət töküb Həccə getməsi günah sayılır.



Azərbaycanda «Hacı» məfhumunda təkcə bizim xalqa məxsus olan bir məna da var ki, «Hacı» dedikdə, Zeynalabdin Tağıyev yada düşür. Hacı Zeynalabdin millətin atası, qeyrət mücəssəməsi sayılır. Hacı Zeynalabdin xeyirxahlıq rəmzidir. Onun ruhuna hörmət edənlər bu gün Azərbaycanın, Azərbaycan xalqının düşdüyü vəziyyəti göz önünə gətirməlidirlər. Belə bir vəziyyətin aradan qaldırılmasına əlac tapılması əvəzinə yerli televiziyamız harınlamış xanımlarımızı ekran ulduzuna çevirirlər. Mənə belə gəlir ki, Həcc ziyarətinə gedib-gəlməklə üzdəniraq sənətkarlar özünün sənətkarlıq qüdrətini artıra bilmir.

Vətən hamı üçün o vaxt vətən ola bilər ki, onun ağrı-acısını hamı çəksin. Nazim Hikmət demişkən: «Sən yanmasan, mən yanmasam, o yanmasa, qaranlıqdan işığa çıxmaq olmaz».

Bu gün Azərbaycan televiziyası məhz hamının ürəyini alovlandıran məşələ çevrilmişdir. Lazım gəldikdə əyləncə verlişləri də barıt qoxumalıdır. Çünki böyük sülh istəyən bir dövlət böyük müharibəyə də hazır olmalıdır.

Atəşkəs elan olunsa da ölkə müharibə vəziyyətindədir. Qarşıdakı düşmən millətimizin qanına susamış bir yağıdır. Azərbaycan üçün bundan ağır gün olmayıb və olmayacaq da. Sözün əsl mənasında Azərbaycanın ölüm-dirim məsələsi həll olunur.

Böyük Vətən müharibəsinin ilk şüarı «Hər şey vətən üçün!» idi. İlk əvvəl mətbuat səfərbərliyə alınmışdır. Bütün mətbuat vasitələri xalqın müsəlləh əsgər olmasına, vətənpərvərlik, mərdlik, mübarizlik, igidlik, fədakarlıq kimi ali insani hisslərin kütləvi təbliğinə yönəldilmişdir.

Bəs indi necədir?

Açığını desək indiki televiziya kanallarına baxanda adama elə gəlir ki, Azərbaycan müharibə vəziyyətində olan respublikaya oxşamır. Hər yerdə çal-çağır, kef-damaqdır. Nə torpaq dərdi çəkən var, nə də qaçqın-köçkün dərdi. Televiziya kanalları göbələk kimi artmaqda olan restoranları, şadlıq saraylarını daima təbliğ edirlər. Bizcə, dünyanın heç bir yerində Bakıda olduğu qədər şadlıq evi yoxdur. Gənclərdən soruşanda onların çoxu Azərbaycanın neçə rayonunun adını və nə vaxt işğal olunduğunu deyə bilmir. Bu

biganəliyin əsas səbəbkarı mətbuat və onun ən kütləvi qolu olan televiziyadır. Belə ki, televiziya ekranlarında cəbhə xəttinə, əsgərlərin yanına, qaçqın düşərgələrinə konsert proqramları ilə gedən müğənniləri görmək olmur. Hətta vaxtı ilə cəbhəçilər qarşısında ilk konsertlərini verən müğənnilər də indi restoranlarda, şadlıq evləri arasında qalıb eyş-işrətlə məşğul olurlar*.

Halbuki məhz indiki şəraitdə televiziya kanalları müğənniləri vətənin müdafiəçiləri arasında göstərməyə çalışmalıdırlar. Bunun əksinə olaraq müğənniləri restoran və şadlıq evlərindən kənarlarda (şəxsi sürücüsü və cangüdəni ilə birlikdə) bahalı şəxsi maşınlarında, ya da dəbdəbəli villalarda göstərirlər. Onların nəinki repertuarında, hətta danışıqlarında da «Vətən», «Qarabağ», «Qəhrəmanlıq» sözlərini eşitmək olmur. Maşallah, hamısı da «madonnadır», «primadonnadır», «qızıl şlyagerdir», «pop ulduzdur» və nəmənədir. Günaşırı təzə kliplərinin prezentasiyasını bayram edirlər. Boğazdan yuxarı özünü tərif baş alıb gedir. Göz dəyməsin, hamısı da yaraşdı, yaraşmadı, tutdu-tutmadı, əl tutub oynayırlar. Sanki buna daha doğrusu arvad toyu demək olar.

Heç kəs oynamağın, gülməyin şənlənməyin əleyhinə deyil, söhbət bu gün Qarabağ problemindən, işğal olunmuş torpaq problemindən, qaçqın-köçkün problemindən getməlidir. Bu ən vacib mənəviyyat vəzifəsidir.

***Bakı, Yeni Yasamal. 9.04.2002-ci il.***

---

* Hacı Ağaoğlu – Televiziya və mənəviyyat. «İqtisadiyyat» qəzeti, 17-25may, 2001-ci il.



***Bismillahir-rəhmanir-rəhim!***

## Şərəfli ölümü xatirələrdə yaşatmaq lazımdır!

Məhəmməd peyğəmbərin dediyi kimi insan qəbr evinə qədər elm öyrənməlidir. Odur ki, elm günü-gündən inkişaf edir. Lakin elm nə qədər inkişaf etsə də bir şeyin qarşısında aciz qalacaq. O, da ölümdür. Heç vəchlə elm ölümün qarşısını ala bilməyəcək, insan dünyasını mütləq dəyişib o dünyaya köçməli və Allah-Təalanın hüzuruna qayıtmalıdır.

İnsan bu dünyaya müvvəqqəti sınaq üçün gəlib və nə zamansa axirət dünyasına dönəçəkdir. «Dəryaya qovuşma» məqamının nə zaman çatacağını isə ulu Tanrıdan qeyri kimsə bilmir. Amma yola salınacaq hər gün bizi həmin ana dönmədən yaxınlaşdırır. Bu həqiqət nə qədər «arzuolunmaz», «qorxulu» görünsə də belədir. Onu qəbul edənlər də, etməyənlər də eyni yolla gedib, eyni «körpüdən» keçməli olmuşlar.

Bəziləri ölümdən çox qorxur. Hətta alimlər tanıyıram ki, özlərinin şəxsi fondlarını cür'ət edib müvafiq arxivlərə vaxtında vermək istəmirlər.

Mən muzey işinə dərindən bələd olan bir şəxs kimi bunu gözlərimlə görmüşəm. Onda təəsüflənib öz-özümə sual verirəm ki, məgər sən daimi yaşayacaqsanmı? Əsla yox. Buna görə də həyatda bir məhək daşı kimi şərəfli bir yer tutub nam qoymaq lazımdır.

Eləlari də var ki, (özü də yüksək vəzifəli şəxslərdən) cənazənin yanınca da getməkdən çəkinir və bə'ziləri də cənazə qəbrə endirilərkən mərasimdən kənar qaçır. O, elə hesab edir ki, bu məqamda bəlkə də o da keçinə bilər.

Bəzən də tanıdığım şəxs ehsan yeməyindən çəkinir, düşünür ki, ehsan yesə onu mütləq ölüm gözləyir, dəfn olunan şəxsin ruhu onu özünə cilovlayacaqdır. Amma düşünmür ki, əvvəl-axır onun da belə bir mərasimi olacaqdır.

Ona görə də oxucum, heç vaxt xeyir və şərdən geri qalma. Bacardıqca əliaçıq olub mərhumun ailəsinə yardım et. Vaxt gələr sənin də ailənə yardım edib əvəzini çıxarlar.

**Haşiyə:** Mən Bəxtiyar Sadıqovun «Azərbaycan» qəzetində dərc olunmuş «Ölümdən sonrakı yerlibazlıq» adlı məzmunlu məqaləsini oxuduqdan sonra belə qərara gəldim ki, 1995-ci ilin dekabr ayında yazdığım məqaləmə onun kalamlı sözlərindən də əlavə edim.

Onsuz da bu fani dünyada daimi yaşamaq mümkün deyil. Fikirləş gör ayaqladığın torpaqlarda kimlər yatır. Qoşuna göz dağı çəkdirən məşhur sərkərdələrin, dünya klassiklərinin axır məskəni çox da gen olmayan bir metr dərinlikdə torpaq olub. Görün torpağın nə qədər hökmü vardır. Buna görə də torpağın qədrini bilmək lazımdır. Yadda saxla ki, sən torpağa hörmət etməsən nəticədə torpaq səni incidəcək.

Hələ düşün ki, torpaq səni ağuşuna alandan bir həftə sonra yaşadığın dövrdə işkəncə verdiyin taqsırı olmayan adamların qisasını almaq üçün ruhlar məclisində məhkəmə prosesi başlayacaq. Pis əməllərinə görə səni «xeyriyyəçi ruhlar»ın cəmiyyətinə üzv seçməyəcəklər.

Bəzən deyirlər ki, mən öləndən sonra cəsədimi hara istəyirlər ora atsınlar. Həmin adam düşünmür ki, o dünyaya keçəndən sonra pis əməllərinə görə sənə rahat yatmağa imkan verməyəcəklər. Sorğu-sual o qədər olacaqdır ki, mümkünatın olsa idi ağ kəfəni çırıb yerin üstünə qaçardın. Ruhlar sənə o qədər əzab verəcəkdir ki, sənin bədənində olan əzələlər öz-özünə partlayacaqdır. Bu da torpağa da xeyir verməyəcəkdir. Xeyirxah insanların cəsədi isə çürüdükcə torpağa keyfiyyətli kübrə verəcəkdir.

Ona görə də yaşadığın dövrdə mərdimazarlıq etmə, başqasının malına-dövlətinə göz dikmə, qonşunu incitmə, dostluğa xələl gətirmə, haram mal yemə, oğurluq etmə! Onsuz da həyatının axırında 10 metrəlik ağ çitə bürünüb dar məzarda yerləşəcəksən. Sağ və sol tərəfə çönməyə də imkan verməyəcəklər.

Bəs nə üçün düşünmürsən ki, əldə etdiyin haram mal-dövləti zər-zibanı məzara özünlə apara bilməyəcəksən?



Ölən vaxtı ruhun nə qədər çığırsa da sənə əlac edən olmayacaqdır. İstəyəcəksən ki, var-dövlətini qucaqlayıb məzara gətirəsən yenə də sənə imkan verməyəcəklər. Axırda gözlərin böyüyüb qara daş kimi məzarına zülmət saçaçaq. Bu anda «Əzrail»ə nə çavab verəcəksən? Məşəqqət günün burdan başlayacaqdır.

İnsan dünyasını dəyişəndə var-dövlətini özü ilə apara bilmir. Ölüm anında bəlkə də gözünün qabağına gəlir, lakin əlacsız qalır. Buna görə var-dövlət yığmaq da bir kişilik deyil. Hətta gor evinə, qəbrin içinə küpələrdə qoyulan qızıllar belə əsrlər boyu «xərclənmir». Bu yenidən işıqlı dünyadakılara qismət olur.

Bir məsələni də qeyd etmək istərdim ki, ailə başçısı dünyasını dəyişəndə, əlbəttə, övladlarına az da olsa var-dövlət qoyub getməlidir. Lakin fərli övlad həmin variyyətdən səmərəli istifadə etməlidir. Fərli övlad heç vaxt ata malına göz dikməməlidir. Həmin variyyəti özünə baza hesab edib özü əmək cəbhəsində çalışmalı və özü-özünə variyyət yaratmalıdır. Mən şəxsən heç vaxt ata malına göz dikməmişəm. Öz əməyimlə yaşamışam və həyatda heç kimə baş əyməmişəm.

Bir sözlə, hər iki dünyada insanın karına gələn yalnız onun xeyirxah əməlləridir. Bu barədə Qur'ani-Kərimdə çox geniş və ətraflı danışılıb. Xeyirxah əməllər insanı işıqlı dünyadakıların qəlbində və xatirəsində əbədi yaşadır.

Ölüm hamını birləşdirir. Bəli, doğulandan sonra ayrılan yollar ölüm vasitəslə bir-birinə qovuşur. Hər kəs müxtəlif səbəbdən və müxtəlif yerlərdə dünyalarını dəyişsələr də, o dünyaya eyni qaydada yola salınacaq. Ancaq fərq ehsan süfrəsində, başsağlığına gələnlərin sayında, bir də məzarın üstünün götürülməsində işlədilən materialların qiymətində yarana bilər. Bunlar isə əslində zahiri cəhətlərdir. Mahiyyətcə bütün ölülər bərabərdir. Torpağın soyuq üzü çox qısa zamanda bütün ölənləri eyniləşdirir. Varlı da, kasıb da eyni qiyafətdə məzara sallanılır. Bu zaman heç zahiri fərqə kəfənin daha bahalı materiallardan biçilməsinə belə icazə verilmir.

Beləliklə də, ölüm təkcə yaşa yox, heç vəzifəyə də baxmır. Kimin alnına yazılıbsa, o vaxtda tamam olacaq. Əzrail

adamın canını elə alır ki, nə şəxsin möhürünə, nə yaraşıqlı kabinetinə, nə də bahalı maşınına baxmır.

Mənim fikirimcə, hər kəs anadan olduğu gündə dünyasını dəyişsə idi daha maraqlı olardı. Bu da Allah-Təalanın əmrindən asılıdır. Buna görə də şərəfli ölmək hamısından yaxşıdır. Əgər xeyirxah əməllərin sahibi olmuşsansa «Əzrail»də səndən əl çəkib «mərdimazarlar»ın boğazından yapışacaqdır.

Oxucum, əgər bu sözlərimdən feyziyab olsan, onda məni heç vaxt unutma! Nəsihətlərimi lazım bilsən xatirələrində yaşat!

*Vəssalamu əleykum və rəhmətullahi və bərəkatahu.*

*3.01.1999-cu il.*



## Allahın rəhmi

***Bismillahir-rəhmanir-rəhim***

Müqəddəs kitablarda fəlakət ya zülmətdə baş verir, ya da gecələr. 2000-ci ilin 25 noyabr gecəsi də fəlakət və kütləvi qırğın gecələrinə bərabər idi. Heç bir möcüzə bu möcüzə ilə yarışa bilməzdi. Bakı kimi min illik, yüz-yüz əlli illik binaları olan qədim şəhər 7 bal gücündə olan zəlzələdə dağılmadı. Şəhərlər olub ki, 6-7 bal gücündə zəlzələdə tar-mar olublar. Məsələn, böyük fəlakətə səbəb olmuş İran zəlzələsi 7 bal, məşhur Daşkənd zəlzələsi 5,3 bal, Spitak zəlzələsi 7 bal gücündə olmuşdur.

25 noyabr gecəsi zəlzələsində Azərbaycanda fəlakət qaş ilə göz arasında olub, amma Allahın bir daha bizə rəhmi gəlib.

Allah həqiqətən rəhm edəndir. Qurani – kərimin «Zəlzələ» surəsində yazılıb ki, yer üzü titrəyəndə dəhşətə gəlmiş insanlar göylərə üz tutub «bu nədir?» - deyə soruşurlar.

Noyabr ayının 25-i gecəsi baş verən zəlzələnin qorxusu Bakı və Sumqayıt sakinlərinin başı üzərini elə aldı ki, onlar olmazın vahiməyə düşüb, yeganə əlacı baş götürüb evdən qaçmaqda gördülər.

Mən Yeni Yasamaldakı «Qismət» şadlıq evində olan toy mərasimindən yenicə qayıtmışdım. Təxminən axşam saat 22[20] radələri idi. Məclisdə yeməyə meylim olmadığından şadyanalıq edib mənzilimizə qayıtdım. Paltarımı soyunub yataq paltarına keçdim. Yaşadığım mənzil sahibinin «Banket zalı»ndakı soyuducudan şam yeməyi üçün ərzaq götürdüm. Birdən servanddakı xrustal şüşələrin cingiltili səsləri məni elə bil xəyaldan ayıltdı. Onlar bir-birinə dəyib sanki musiqi çalırdı. Lampədəki çilçıraqların pərləri hərlənməyə başladı. Doqquz mərtəbəli binamızın panelləri qəflətən cırıldayıb vahimə ilə nərildəməyə başladı. Döşəmə sanki ayağımın altından qaçırdı. Həyat yoldaşım Sahibə xanım çarpayıda uzanmışdı. Mən Sahibə xanıma dedim ki, «Tez ol! Tərpən!...» onu yuxudan oyatdım. Bir anda bütün doqquz mərtəbəli bina guruldadı. İnsan qışqırıqlarının xaotik vahiməsi binanın beton-pilləkənlərindən sellənərək üzü aşağı axırdı.

Biz ikimiz də blokun ağzına özümüzü çətinliklə yetirdik. Həyətdə iynə atsan yerə düşməzdi. Qonşular həyəcan içində idi. Küçə vahimələnmiş adamlarla dolu idi, ağız deyəni qulaq eşitmirdi. Xüsusən yaşlı qadınlar ah-vay edirdilər:

Bu nə bəladır, ay Allah… bizə cəza verirsən?… Başqa bir kişi isə belə deyirdi:

- Yəqin torpaqları əldən verdiyimizə görə Allah bizi cəzalandırır.

Zəlzələ ara verdiyinə görə həyat yoldaşım Sahibə xanım tez havanın soyuqluğunu hiss edib 5-ci mərtəbəyə ildırım sürəti ilə qalxaraq bir də gördüm ki, köhnə plaşımı mənə gətirdi. Mən plaşı alıb əynimə geyindim.

Mən, həyat yoldaşım və böyük oğlum Şaiq binamızın arxasındakı «Jiquli» maşınıma sıxlaşıb zəlzələnin davamını gözləyirdik. Kimn başqa yerlərdə bağ evləri vardırsa gücləri çatan yüklərini, xüsusilə də qiymətli zər-zibalarını və daş-qaşlarını götürüb özləri ilə aparırdılar.

Camaat televizordan informasiya məlumatlarını gözləyir, nüfuzlu söz eşitmək istəyir. Televiziya isə başqa havada idi. Mahnı-mahnıya, reklam reklama calanırdı. Başını itirmiş adamlara isə dişləri necə qorumaq məsləhət verilirdi. Gecədən xeyli keçməsinə baxmayaraq mən və Sahibə xanım qərara aldıq ki, bacım Matan xanımın yaşadığı mənzilə gedib onu yoxlayaq. Maşını xoda salıb Nərimanov rayonuna yollandıq. Əliyar Əliyev küçəsinə çatdıqda 65 saylı binanın sakinləri binanın qarşısında cəmləşmişdilər. Kimisi adyala, kimisi isə yorğana bürünüb küçəyə çıxmışdılar.

Mən evdə olan pullarımı – 650 min manatı götürüb köhnə plaşımın qoltuq cibinə qoydum ki, birdən zəlzələ davam edər ailəmiz çaysız-çörəksiz qalardı. Mənim heç ağlıma gəlməzdi ki, qoltuq cibimin tikişi sökülmüşdür. Yaxşı ki, pulları köhnə ağ vərəqə büküb cibimə qoymuşdum. Bir baxtım da orda gətirmişdir ki, sökülən cibimdən pullar bacım Matan xanımın blokunun sahəsinə düşmüşdür. Mən bu hadisəni evə çatanda səhəri günü başa düşdüm. Səhər Matan xanımın telefonuna zəng edib əhvalatı söylədim və dedim ki, bloka yenib sahəyə baxsın, bəlkə də baxtım gətirdi.



Doğrudan da, baxtım var imiş, Matan xanım yenidən mənə zəng edib məlumat verdi ki, pulun tapılıbdır. Necə də sevindim. Elə bilin ki, Allah mənə köməklik etmişdir. Çünki 650 min manat halal pul idi. Mən əmək haqlarımdan yığmışdım.

Bir məsələ də mənə çox maraqlı idi. Atamdan qalan divar saatımız uzun müddətdir ki, işləmirdi. Zəlzələnin gücündən (təsirindən) saatın kəfkiri işləməyə başlamışdır. Bu bir müddət davam etdi.

Artıq binamız titrəmirdi, divarlar da cırıldamırdı. Qəribə romantik bir hiss keçirdik. Ailəmlə mən demək olar ki, iki gün maşınımda gecələməli olduq. Sanki elə bil ki, vahiməli bir kinoya baxmışdıq, hər şey həyatdan uzaq bir tamaşa idi. Təbiət insanları sınağa çəkmişdi.

Alimlər də mətbuatda və televizorda müxtəlif rəqəmlər deyirdilər. Kimi zəlzələnin 7 bal gücündə, kimi 6 bal gücündə olduğunu deyirdi. Nəhayət, çox şükür ki, onlar orta bir məxrəc tapıb 6,5 balın üstündə dayanmışlar.

Allaha şükür olsun ki, üçüncü təkan olmadı. Allahın bizə rəhmi gəldi. Allah rəhimlidir, Allah böyükdür.Allah insana şüur, ağıl, fəhm vermişdir. Elə bir keyfiyytlər vermişdir ki, o təkcə özünü yox, bütün dünyanı, bütün canlıları da qoruyur.

***Vəssalamu əleykum və rəhmətullahi və bərəkatahu.***

***Bakı şəhəri, 30.11.2000-ci il.***

**Haşiyə:** 2000-ci ilin noyabr ayında baş verən dəhşətli zəlzələdən heç bir nəticə çıxartmamışıq və ibrət dərsi də almamışıq. yenə də bildiyimizi edirik. bunu aşağıdakılar bir daha sübut edir:

2002-ci ildən başlayaraq, Bakı şəhərində çoxmərtəbəli hündür binaların təməli qoyulmuşdur. Özü də binalar şəhərin bir çox yerlərində tikilir. Belə binalardan bir neçəsini misal göstərmək kifayət edərdi.

Budur, şəhərin 100 illik tarixə malik «Passaj» üstüörtülü bazarı. Bu bazarın binası şəhərin memarlıq üslubunda tikilmiş

abidəsinə daxil idi. Bir vaxtlar Bakı şəhərinə qonaq gələnlər şəhəri həmin bazar ilə tanıyırdılar. İndi isə, Pasaj bazarının bir hissəsini söküb yerində 18 mərtəbəli bina inşa ediblər. Həmin binaya tamaşa etsəniz, onda görəcəksiniz ki, çoxmərtəbəli bina keçmiş yaşayış binaları ilə heç də uyğun gəlmir. Gendən baxanda elə gəlir ki, bu bina köhnə tikililərə yamaqdır.

Başqa bitr misal. Bakının Yasamal rayonunun Yeni Yasamal sahəsinin mərkəzində 2005-ci ilin mart ayından etibarən 16 mərtəbəli yaşayış binasının inşa olunması artıq şirkət tərəfindən planlaşdırılmışdır. Lakin həmin sahədə qəsəbə sakinləri üçün istirahət zonası salmaq daha məqsədəuyğundur. Onsuz da Yeni Yasamalın yuxarı hissəsində yeni binalar inşa etmək üçün boş sahələr çoxdur. Boş yerlərdə hətta kiçik bir qəsəbə də salmaq olar. Başa düşmək olmur ki, tikinti ilə məşğul olan müvafiq təşkilatlar nə üçün bunu əvvəlcədən planlaşdırmayıblar?! Görünür, mərkəzdən kənar yerlərdə bina inşa etmək onlara sərfəli deyildir. Ona görə də bu iş sakinlərin haqlı narazılıqlarına səbəb olmuşdur.

Əgər Yeni Yasamalın mərkəzində həmin bina inşa olunsa, onda sakinlərin təhzlükəsizliyinə böyük ziyan dəymiş olar. Eyni zamanda, yerin titrəyiş vaxtı sakinlərin açıq sahəyə çıxmasına da imkanları olmayacaqdır.



## Övladlarıma nəsihət

*Həzrəti Əli (ə) oğluna buyurmuşdur:*

*Əziz oğlum, məndən dörd şeyi öyrən, işlədiyin zaman sənə zərər verməyəcək dörd şeyi də ağlında tut: zənginliyin ən üstünü ağıldır; yoxsulluğun ən böyüyü axmaqlıqdır. Qorxulu şeylərin ən qorxulusu özünü bəyənməkdir; nəslin-kökün ən ucası gözəl xasiyyətdir.*

*Əziz oğlum, axmaqla dost olmaqdan çəkin: sənə fayda vermək istərkən zərər yetirər. Xəsislə dost olmaqdan çəkin; o səni ucuz bir şeyə satar. Yalançı ilə dost olmaqdan çəkin; çünki o, ilğıma bənzər, sənə uzağı yaxın göstərər, yaxını isə səndən uzaqlaşdırar.*

Ata nəsihətini dinləyib həyata keçirmək övladın bilavasitə şərəfli borcudur. Bəzən ana uşağını o qədər ərköyün böyüdür ki, uşaq boya-başa çatdıqca elə bilir ki, həyatı həmişə belə olmalıdır. O, ipə-sapa sığmayaraq firavan gün keçirmək istəyir, Eyş-işrətdə olmağa onda həvəs yaranır, bərkə-boşa dözə bilməyir, fiziki əməklə məşğul olmaqdan imtina edir. Buna görə də uşaq böyüdükcə bədəncə zəifləyir və ona valideyn tərəfindən bir iş tapşıranda valideynin üzünə qabararaq ona ağzın əyir və bəzən də barmaq göstərir. Bunu mən həyatımda rast gəldiyim bir nəfər tanış ailə ilə yaxınlıqda görmüşəm. Hər bir övlad ata və ananın üzünə ağ olmamalıdır. Ata və ananı əvəz edən heç bir varlıq yoxdur. Burada mən şair dostum Əjdər Qiyaslının «İtirmə övlad» şerindən misal gətirmək istərdim:

*Yoxdur bir əvəzi ata-ananın,*
*Sənə qəyyum olmaz nə yaxın, nə yad.*
*Yolunda min cürə oda yananın,*
*Ata zəhmətini itirmə övlad!*
*Silib həyatından dumanı, çəni,*
*Çəməndə gül kimi bitirib səni.*
*Böyüdüb ərsəyə gətirib səni,*
*Ata zəhmətini itirmə övlad!*
*Yolunda mərdanə sinə gəribdi,*
*Həmişə işıqlı yol göstəribdi.*
*Ömrünü, gününü sənə veribdi,*
*Ata zəhmətini itirmə övlad!*

***8.02.2002-ci il.***

## Ata-ana haqqı

*Ata-ananın qulluğunda durmaqla Allahın hüzuruna yetiş, bunu etsən həm həcc və ümrə ziyarəti, həm də müqəddəs cihad etmiş olarsan.*
*Məhəmməd Peyğəmbər (S)*

Bizə düşən Rəbbimizin əmrlərinə boyun əyib valideyn haqqı kimi bir günahla Allahın (s.s) hüzuruna getməməyə çalışmaqdır. Onları incitməmək, onlara dua etmək və bu mübarək Ramazan ayında onların duasını qazanmaqdır.

«Rəbbin yalnız ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara itaət edib, nəvaziş göstərməyi və onlarla gözəl davranmağı) buyurmuşdur. Əgər onların birisi və ya hər ikisi sənin yanında (yaşayıb) qocalığın ən düşgün çağlarına yetərlərsə, onlara «uf» belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış» («əl-İsra» surəsi).

Ata-ananın övladı Allaha (s.s) qarşı üsyana məcbur etməsindən başqa heç bir davranış övladın üzərindən ata-ana haqqını götürə bilməz. Onlara kobud münasibət bəsləyib dil və hərəkətlərlə pislik etmək olmaz. Qurani-Kərimdə və Peyğəmbərimizin (s.ə.s) hədislərində bizlərə ata-anamıza ancaq yaxşılıq etmək əmr olunmuşdur. Valideynlərə qarşı itaətsizlik Allaha (s.s) qarşı itaətsizlik, onların üz döndərməsinə səbəb olan şeylər də Allahın (s.s) bizlərdən üz döndərməsinə səbəb olan şeylərdir. Övlad, valideynləri kafir belə olsa, onlara qarşı borcunu mütləq yerinə yetirməlidir. Peyğəmbərlərimiz (s.ə.s) ata-ananı incitməyin haram və böyük günah olduğunu bildirmişdir.

Bizə düşən Rəbbimizin əmrlərinə boyun əyib valideyn haqqı kimi bir günahla Allahın (s.s) hüzuruna getməməyə çalışmaqdır. Onları incitməmək, onlara dua etmək və bu mübarək Ramazan ayında onların duasını qazanmaqdır. Gəlin ruzimizin qaynağı olan valideynlərimizi incitməyək. Başımızı ayaqları altına qoyub onlardan halallıq istəyək. Onlara qarşı üzərimizdə olan borcumuzu həssaslıqla yerinə yetirək. Başımızı analarımızın ayaqları altına qoyaraq orada cənnətimizi görək.



## Ər evin tacıdır...

*(Bəzi mülahizələrim)*

Müdriklərin «Ər ailənin tacıdır» sözü dünənin evi üçün də mütləq meyar idi, bu günün, sabahın evi üçün də mütləq meyardır.

Ər təkcə məişət yararlısı olan «ev adamı»deyil, evin mənəvi dirəyi, ailənin özülüdür. Xalq şairimiz Mirvarid Dilbazi gözəl demişdir: «Kişisiz vətəni düşmən ayaqlar!».

Ər hər şeydən əvvəl kişidir! Ərə hörmət evə, xalqın mənəviyyatına və nəticə etibarilə Vətənə hörmət deməkdir. Odlar yurdunda ərə hörmət ailə mədəniyyətinin başında gəlir.

Təəssüf ki... bəzi ailələrdə «kişi tacı» ayaqlar altına atılır. Ər-arvad arasında heç nədən konfliktlər baş verir. Kişini bəzən arvadı övladları qarşısında hörmətdən salmağa çalışır. Bu da uşaqların tərbiyəsinə mənfi təsir edir, ailədə hərcmərclik yaradır, nəticədə uşaqları düzgün yoldan yayındırır. Buna görə də bu yazını qələmə alanda Məmməd Aslanın «Ər evin tacıdır...» şeri yadıma düşdü və mülahizələrimi həmin şerlə bitirməli oldum:

*Ay evin xanımı, arxa dur ona,*
*Bir nəslə arxaydı dünən bu kişi.*
*Assan, baş əyməzdi şaha, sultana,*
*İndi qorxa-qorxa dinən bu kişi.*

*Onsuz heç nə idin, əfsanə idin,*
*Şəminə dolanan pərvanə idin,*
*Sən onun eşqindən divanə idin,*
*Məcnun bu kişiydi, Sənan bu kişi!*

*Dünən igidlərlə meydan açardı,*
*Mənliyi tapdansa, qana qaçardı,*
*Ətrafa nur səpər, işıq saçardı,*
*Birdən çıraq kimi sönən bu kişi*

*Haçansa oynayar, insafda haqdı,*
*Görərsən vicdanın ayağa qalxdı.*
*Kimə pənahlansın yaşın bu vaxtı,*
*Taleyi tərsinə çönən bu kişi.*

*Onun qolu iflic, sənin vicdanın,*
*Dənizlər qatışsa, durulmaz qanın,*
*Səndə vəfasını gördü cahanın,*
*Cəbrindən bucağa sinən bu kişi.*

*Sənə «xanım «dedim qəbahətim var,*
*Məni bağışlasın xanım-xatınlar,*
*Sənin caynağında el içində xar,*
*Qəfil dönəlgəsi dönən bu kişi.*

*Ər gözdən salınsa bir evdə əgər,*
*O evin başına fəlakət çökər.*
*Dinsə, hər əzası dad-aman çəkər,*
*Çarmıxa çəkilib mənən bu kişi.*

***22.01.1992-ci il***



## Muğam ifaçılığına xələl gətirmək olmaz

Azərbaycan musiqisinin dunyada şöhrət tapdığı hazırki dövrdə ifaçılıq məharəti ciddi əhəmiyyət kəsb edir. Xalqımızın musiqi tarixində fəxri yer tutan Cabbar Qaryağdıoğlu, Şəkili Ələsgər, Mirzə Əli Aşiq, Seyid Şuşinski, Hacı Hüsü, Məşədi İsi, Molla Bəli, Məşədi Dadaş, Sadıqcan, İslam Abdullayev, Bülbül, Xan Şuşinski və sair sənətkarların məharətlə ifa etdikləri muğam hələlik heç bir müğənniyə nəsib olmamışdır.

Muğamı hərə istədiyi kimi oxuya bilməz. O ya tam oxunmalı, yaxud da hansı hissə və şöbələr ifa edilərsə, adları bildirilməlidir. Belə olarsa, zil səsli müğənnilərin üzərinə böyük məsuliyyət düşər. Onda onlar özlərinə tələbkarlıqla yanaşarlar. O sənətkar xoşbəxtdir ki, xalqın zövqünü oxşayır, onun emosiyalarına təsir edib, qəlbinə yol tapır. Müğənni bu səadətə nail olmaq istəyirsə, daim üzərində çalışmalı, ıfaçılığını canlandırmalıdır.

Təəssüf ki, respublika televiziyası verilişlərində təsadüfi müğənnilər hələ də çıxış edirlər. Kiminsə xatirinə ekranda göstərilirlər. Bu da gözəl muğamlarımıza xələl gətirir. Qəzəllər çox hallarda muğamın səciyyəsinə uyğun seçilmir. Bəzən şux, mubariz ruhlu muğamlarda bədbin və yaxud da qəmgin qəzəllərdən istifadə olunur. Belə ifaçılar əslində dinləyicini mənəvi cəhətdən bərk yorur, incidir və əzab verir.

Bir məsələyə toxunmaq istərdik. Bəzi müğənnilərimiz qəzəl və mahnıları digər ifaçıların səsindən, necə deyərlər, «surətin» çıxarır. Eyni zamanda, bir sıra müğənnilər keçmiş qəzəlləri başqasından təkrar ifa edir. Bu da həmin qəzəllərin hüdudsuz təkrarı nəticəsində «çeynənmiş» vəziyyətini alır. Yaxşı olardı ki, müğənnilərimiz ifa etdikləri muğama uyğun olaraq müvafiq yeni qəzəllər seçsinlər.

«Xaric oxumaq xanəndə üçün bağışlanılmaz nöqsandır» kəlamını xatırlatmaq yerində olardı. Doğrudan da, hazırda bəzi müğənnilər səsi olmadan muğamı «təhqir»edib səhnəyə çıxırlar. Eyni zamanda, belələri muğamı xaric oxuyurlar. Atalar demişkən, «bacarmırsansa, çıxma meydana», məgər başqa sənət öyrənmək

qəbahətdir? Elə gərək müğənni olasan? Belələri istedadlı müğənnilərimizə xələl gətirir. Başa düşmək olmur ki, təsadüfi adamları televiziya ekranına necə buraxırlar? Deyəsən, buna da tanışlıq lazımdır.

Professor Arif Məmmədovun «Səs abidələrimizi qoruyaq» adlı məqaləsi də /«Ədəbiyyat və incəsənət» qəzeti, 20 yanvar 1984/ diqqəti cəlb edir. O, öz məqaləsində səsi olmayan xanəndələrin «lya» kökündə oxumaqlarını təhqir edir. Lakin vokal sənətində istər muğamlar, istərsə də mahnılar ya «si», ya da «do» kökündə oxunur. Heç kəsə icazə verilmir ki, sənətdə özbaşınalıq etsin. Əgər belədirsə, onda musiqi məktəbləri nə üçündür? Konservatoriyada vokal şöbəsi kimə lazımdır? Məgər hamı tarın kökünü dəyişdirib «segahı», «cahargah»ı istədiyi pərdədə oxuyarsa, onda nə olar? Sadəcə olaraq, hərc-mərclik yaranar. Məgər belədirsə, gözəl səsləri olmuş Bülbül, Xan Şuşinski və Şövkət Ələkbərova ilə səsi olmayanlar arasında nə fərqi olar? Məhz bizim muğamları gözəl, həm də məlahətli səsi olan, xanəndələr oxumamalıdır? Biz heç də A.Məmmədovun dediyini inkar edə bilmərik ki, xanəndə əruz vəznini dərindən öyrənməli, bilməli, oxuduğu muğamla bir məcrada birləşdirməyə çalışmalıdır. Qəzəlin, ədəbi mətnin musiqidə rolu doğrudan da, böyükdür. Lakin xanəndəlik sənətində əsas şərt səs sayılır. Azərbaycan muğamlarını dərindən bilən Cabbar Qaryağdıoğlu konservatoriyada tələbə qəbul edərkən səsi olmayan, lakin zor ilə xanəndə olmaq istəyən tələbələrə deyərdi:

-«Oxumaq üçün səs lazımdır. Musiqi savadın yoxdursa öyrənərsən, lakin xanəndə olmaq üçün səsin olsun».

Böyük sənətkar haqlıdır. Cabbar Qaryağdıoğlunun fikrinə şərik çıxan böyük dirijor və bəstəkarımız mayestro Niyazi də təkcə muğamları kamil bilməklə kifayətlənməyərək, muğamları tamam-dəstgah, oxumağı xanəndələrdən tələb edərək yazmışdır:

-«Muğamın sadəcə olaraq quruluşunu öyrənməklə iş bitmir... Onu tamam-dəstgah, kompleks halında bilmək lazımdır». Şübhəsiz bunun üçün də birinci növbədə səs lazımdır.

A.Məmmədovun məqaləsində muğam ifaçılığında H.Hüseynovun güşəxanlığından, şirin gəzişmələrindən, bənzərsiz



xırdalıqlarından, ustad boğazından söhbət açır. Bizim mülahizəmizlə xanəndədə deyilən müsbət cəhətlərlə yanaşı, zəngulәsiz «lya» kökünə çatan səs vardır. Bundan əlavə, müəllif H.Hüseynovu «pəsxan xanəndə» adlandırır. Doğrudan da, H.Hüseynovda pəsxanlıq əlamətləri daha çoxdur. Bundan başqa pəsxan xanəndələr sırasında biz Zülfü Adıgözəlovu, Haşım Kələntərlini, İldırım Həsənovu, Əbülfət Əliyev kimi məşhur xanəndələri yad etməliyik.

Məsələ muğamları kamil bilməklə bitmir. Belə ki, xanəndənin ən azı iki oktava səsi, cəh-cəhli zəngulәsi olmalıdır. Müasir dövrdə respublikamızda Arif Babayev, Qədir Rüstəmov, Canəli Əkbərov, Qəndab Quliyeva və başqaları kimi gözəl səsli xanəndələrimiz vardır. Əlbəttə, muğam və təsnifləri onların ifasında eşitdikcə hər kəsdə fərəh hissi oyanır. Qısa desək, biz yalnız gözəl səslərin tərəfdarıyıq.

Bir sözlə, bizə belə gəlir ki, musiqi, həkimlik və müəllimlik sənətinə xələl gətirmək keçmiş adamların dilincə desək, haramdır. Onda həmin sənətkar öz şagirdini bataqlığa yuvarlatmış olar.

***Bakı, 13.02.1984-cü il.***

## Ailə xoşbəxtliyini daima qorumaq lazımdır

Çox təəssüf ki, ailə quranların heç də hamısı qoşa qarıya bilmir. Bəzilərinin yolları çox tez ayrılır, əksər hallarda ortada körpələr naümid qalır. Qeyd etmək olar ki, boşanma xoşagəlməz hadisədir. Ən dəhşətlisi isə budur ki, çanaq körpə başında çatlayır. Bu dünyaya xoşbəxtlik üçün gələn günahsız uşaq atalı-analı ikən yetimə çevrilir. Ər-arvad arasında dedi-qoduluq, dava-dalaş körpənin bağrını yarır. Körpə boynu bükük, nisgilli böyüyür, çox vaxt qaradinməz olur. Bəzən iki ev arasında qalır, səhhəti və tərbiyəsi pozulur.

Doğrudur, adamın həyat yolu həmişə hamar olmur, ailədə ciddi konfliktlər də yaranır, dolanışıq sahəsində çətin problemlər də ortaya çıxır. Ancaq mənə belə gəlir ki, ortada uşaq varsa, çətinliklər necə olursa-olsun qarşılıqlı güzəştlə aradan qaldırılmalıdır. Axı uzun illər körpəsi olmaq üçün həsrətində olanlar, körpə üçün ətək-ətək pul tökənlər, qurban deyənlər, nəzir verənlər vardır. Bəzən bircə körpənin yoxluğu iki gənci biri-birindən ayrılmağa vadar edir, od-ocaqlarının sönməsinə səbəb olur. Yaxud da əksinə-qızın anasının (yəni oğlanın qaynanası) deyingən olması səbəbindən körpə uşağı olmasına baxmayaraq iki gənc ayrılmağa məcbur olur. Buna həyatımda rastlaşdığım bir hadisəni misal göstərmək istərdim:

- Mən yaxın dostumun evində qonaq idim. Olduğum müddət ərzində maraqlı bir hadisənin şahidi oldum. Dostumun ailə həyatında nə isə bir sıra çatışmazlıqlar hiss olunurdu. Onun həyat yoldaşının anası /yəni dostumun qaynanası/ onların ailə səadətinə xələl gətirərək ər-arvad arasında çaxnaşma salmışdı. Hətta iş o yerə gəlib çatmışdı ki, ər-arvad ayrılmaq qərarına gəlmişdi. Şahidi olduğum hadisələr mənə çox pis təsir etmişdir. Ona görə də məndə ətraflı təəssürat yaranaraq, nəhayət, həmin hadisəni qələmə almaq qərarına gəldim.

* * *

O, ilk həyatının gülşəni olan Xuramana etiqad edib ona böyük ümid bəsləyirdi. Hətta həyat yoldaşının doğum evində nə



əzab çəkdiyini gözlərinin qarşısına gətirirdi. Onların ilk arzuları demək olar ki, həqiqətə çevrilmişdi.

Təəssüf ki, həyatda heç özün də hiss etmədən elə bir dəyişiklik olur ki, özün-özünə inana bilmirsən. Məsələn, öz həyat yoldaşına qarşı duran və öz balasının qeydinə qalmayan anaların faciəsi... Bəli, Fətəlinin ailəsində də belə hadisə baş vermişdir. 1980-cı ilin bahar bayramında ilk dəfə nəvəsinin üzünü görən, Fatmanisə onların ailəsinə böyük bir təşviş salmışdır. Qeyd etmək istərdim ki, elə bir ailə tapılmaz ki, orada narazılıq olmasın. Lakin yaxşı ailə başçısının bu narazılıqdan sui-istifadə etməsi düzgün deyildir. Bu da nəticədə ailənin dağılmasına səbəb ola bilər. Atalardan qalma bir məsəl var: - «Ailə dağıtmaq asandır, lakin onu yenidən birləşdirmək çox çətindir» və yaxud da belə bir misal var: «Binanı sökmək asandır, onu tikmək həddindən çox çətindir». Bu baxımdan da Fətəlinin qaynanası Fatmanisənin hərəkəti bağışlanılmazdır.

Fətəli qaynanasının onlara ilk təşrif buyurmasına çox şad olmuşdu və belə güman edirdi ki, qaynanası Fatmanisə onların xatirini istədiyindən gəlmişdir. Buna görə də həmin axşam Fətəlinin sevinci yerə-göyə sığmırdı.

Fatmanisə bacısı Tamaşanı da özü ilə gətirmişdir. Fətəlinin anası Dürnisə xala həmin axşamı ən əziz xörəyi sayılan «şüyüdlü plov» bişirmişdir. Qonaqlar doyunca yemişlər və «Novruz bayramı»nı yeznənin evində qarşılamışlar. Demək olar ki, səhərə yaxın yatmışlar. Bütün gecə də vaxtlarını /21 mart axşamı/ meyvə quruları ilə, şirniyyatla keçirmişlər...

* * *

Fətəlinin həyat yoldaşı Xuraman qaynanası Dürnisə ilə birgə yaşadığından hərdən onların arasında narazılıqlar da olardı. Dürnisə xala bu narazılığı heç vaxt söz etməyərək şəxsən Fətəlinin xatirinə dəyməsin deyə, Xuramana dəfələrlə öyüd-nəsihət vermişdir. Dürnisə xala və böyük qızı Xanbikə fikirləşirdilər ki, Xuraman hələ cavandır və eyni zamanda zəmanə qızı deyildir. Gec-tez Xuraman bizi başa düşəcəkdir.

Fətəlinin böyük bacısı Xanbikə çox məsləhətkeş qadın idi. O, həmişə Fətəliyə xəlvətdə tapşırardı:

-Fətəli, birdən Xuramanın xatirinə dəyərsən ha, ondan sonra sizin evə bir daha ayaq basmaram.

Fətəli də o qədər həyat yoldaşını çox istəyirdi ki, onun adi bir süstlüyü Fətəlini narahat edərdi..., o dəqiqə Xuramanın könlünü alardı. Bəzən Xuramanın qaynanası Dürnisə xalaya olan kobudluğu da nəzərə alınmırdı. Çünki, Xuramanın təkcə anası qalmışdır. O da qızına soyuqqanlıqla yanaşırdı. Atası isə müharibədə həlak olmuşdur. Doğrusu, bir tərəfdən də Xuramanın da taqsırı yox idi. Onun Əhmədli qəsəbəsində cəmi bir otağı var idi. Həmin otaqda o, həyat yoldaşı, qaynanası, kiçik qaynı və kiçik baldızı ilə birlikdə yaşayırdılar. Əlbəttə, belə şəraitdə ailə içərisində narazılıq da olacaqdır.

Fətəli çox təvazökar, ləyaqətli və çox da qayğıkeş idi. Atasının vaxtsız vəfatı onu belə bir vəziyyətə salmışdı. Neyləmək olar, gərək hər bir çətinliyə dözəsən. O, kiçik yaşlı qardaş və bacısını boynundan ata bilməzdi ki, onda qohum – qonşu onu taqsırkar edərdi. Deməк bütün narazılıqlar buradan doğurdu. Cavan gəlin Xuramanın da səbr kasası dolaraq hərdən qaynanası Dürnisə xalaya əsəbiliklə cavab verərdi. Buna baxmayaraq, Xuraman insafı əldən verməzdi. O, səhvini başa düşər və qaynanası Dürnisədən üzr istəyərdi:

-Dürnisə xala, məni bağışla, səhvim olubdur, mən bir tərəfdən tənha qızam, məni yola verin. O dəqiqə ağlamağa başlardı. Bunun cavabında Fətəli deyərdi:

-Xuraman, ömrümüz nə qədər var, mən səni heç kimin yanında başı aşağı etməyəcəyəm, nə qədər ki, qüvvəm var, sənin namusunu qoruyacağam və çalışacağam ki, sənin heç bir şeydən korluğun olmasın.

Doğrudan da, Fətəli və Xuraman bir-birilərini həddən artıq istəyirdilər. Bəzən Fətəli işdən yorğun gəldikdə və yaxud da elmlə məşğul olduğu vaxtlar Fətəlinin sifəti çox ciddiləşərdi. O dəqiqə Xuraman onun könlünü alaraq deyərdi:

-Fətican, nə işin var, ver köməklik edim.

Fətəli hiss edirdi ki, Xuraman onun yorğunluğunu istəmir, onu həmişə və hər saat gülərüzlü görmək istəyir. Elə həmin



vaxtda Xuramanın incə və mülayim səsini eşitcək onun bütün yorğunluğu çıxardı.

Onların həyat yolu bax belə keçərdi. Hər ikisi eyni vaxtda işdən çıxardılar ki, bir az təbiəti seyr etsinlər. Birdən elə olurdu ki, onlar axşam saat $21^{00}$-ə kimi gəzinti keçirərdilər. Xuramanın qaynanası onların evə gec gəlməsinə görə bir qədər deyinərdi. Fətəli və Xuraman bu anda bir-birilərinin üzünə baxaraq gülümsərdilər. Sonralar Dürnisə xala onların işdən gec qayıtmalarına etina etməyərək adətkeş olmuşdur.

Beləliklə də, otağın darısqal olması və Fətəlinin anasının, bacısının və qardaşının onunla birgə yaşaması, doğrusu Xuramanı təngə gətirmişdi. O, bütün iztirablarını ürəyində çəkirdi. Elə buna görə də onun anası Fatmanisə xala ailə həyatı qurduqları müddət ərzində /yəni 4 ildə/ birinci dəfə idi ki, həmin mənzilə ayaq basırdı. Sən demə, Fatmanisə bu işdən xəbərdar idi. Ona görə də o, qızı Xuramanı Fətəlidən ayırmaq məqsədilə gəlmişdi. Belə həyat tərzinə Fatmanisə heç də razı deyildi...

Fətəli, mart ayının 22-də axşam saat $20^{00}$ radələrində yaxın dostu ilə görüşəcəyinə söz verdiyindən əsəbi halda evdən çıxdı. Fatmanisə gecə xörəyini yeyib mehribanlıq şəraitində dincəlməyə başladı. Bir saatdan sonra Fətəli də evə qayıtdı. Lakin Fatmanisə qızının yaşayış şəraitindən Fətəliyə narazılıq edirdi. Onun axırıncı kəlməsi bu oldu ki, «ancaq boşanmaq lazımdır!». Elə bu sözü eşitcək Fətəlinin bütün əzələləri titrəməyə başladı. Səhəri Fətəli işə getməli idi. O, qaynanasının gəlməsinə görə idarəyə tez baş çəkib qayıtmaq qərarına gəlmişdi. Fətəli qaynanasına dedi ki, siz çayınızı için, mən bir saatdan sonra qayıdacağam...

Fətəli işdən qayıdanda nə görsə yaxşıdır? O, otağa daxil olanda qaynanasını, həyat yoldaşını və iki yaşlı qızını evdə görmədi. Anası Dürnisədən soruşduqda o dedi:

-Fətəli, qaynanan Xuramanı və qızını götürüb evdən köçdülər. Fatmanisə arvad dedi ki, daha bir də bu otağa qayıtmayacağıq...

Qaynananın bu ədalətsiz hərəkəti nəticəsində Fətəli ilə Xuraman məhkəmə yolu ilə boşanmağa məcbur oldular.

* * *

Mən həyatımda belə faktlarla çox rastlaşmışam. Ona görə də ayrılmağa heç də tələsmək lazım deyildir. Belə olduğu halda taleyin sənə bəxş etdiyi şirin nemətin – övlad payının qədrini nə üçün bilməyəsən?

Bir də ki, istər qadın, istərsə də kişi üçün təklikdə uşaq böyütmək o qədər də asan iş deyildir. Çünki, ailədə ata və ananın hərəsinin öz yeri və vəzifəsi vardır. Necə deyərlər, onlar övladın qoşa qanadıdırlar.

**Başqa bir misal:** cavan dul qadının ailə həyatında çaşqınlıq əmələ gəlmişdir. Qadının həyat yoldaşı uzun sürən xəstəlik nəticəsində dünyasını dəyişmişdir. Qadın çox qamətli, gözəl olaraq sifətindən nur yağırdı. Onun hər baxışı sanki adama elə bil dünyanı bəxş edirdi. Qadının iki körpə balası həyat yoldaşından yadigar qalmışdır. Uşağı olmasına baxmayaraq ona bir neçə yerdən elçi gəlmişdi. Qadın isə ikinci dəfə ərə getmək istəmirdi. Buna baxmayaraq, valideynləri məcburiyyət qarşısında qalıb qızını dilə tutaraq ərə getməsini xahiş edirlər. Nəticədə, təmtəraqlı toy məclisi qurularaq qadın ikinci dəfə ərə verilir.

Oxucularda maraq yaratmaq məqsədilə qadının yeni həyat tərzindən ətraflı açıqlama vermək istərdim:

-Tahir bəyin qızı Sevilin həyat tərzi çox təmtəraqlı keçmiş və o, heç vaxt heç kimə baş əyməmişdir. Lakin Sevilin heç vaxt bəxti gətirməmişdir. Həyat yoldaşı Fərid bəy 28 yaşında böyrək xəstəliyindən vəfat etmişdir.

Sevil ərindən sonra özünü el arasında qeyrət sarıdan qorumuş və yolunu heç vaxt azmamışdır. İş belə gətirdi ki, valideynləri onu cavan olduğuna görə ikinci dəfə həyat qurmağa icazə vermişlər. Lakin cavan dul qadının bəxti bu dəfə də gətirmədi. Ona böyük təm-təraqla elçi gəldi. Ruslan bəy Sevil xanımdan ötəri az qala özünü dənizə tullamaq istərdi. O qədər ona vurulmşdur ki, gecə-gündüz onun həsrətindən mey-huş olmuşdur.

... Doğrudan da, qadının da görkəminə və duruşuna söz ola bilməzdi... Qara çatma qaşları, şivə gözlərinə sanki yaraşıq verirdi. Onun hər duruşu Ruslana yeni təravət bəxş edirdi. Buna görə də kişinin oğlunun bəxti gətirmişdir.



Digər tərəfdən də Ruslan qadının variyyətinə vurulmuşdur. O, düşünürdü ki, iki oğlun anasını saxlamaq, əlbəttə, ana üçün ağırdır. Mənim ona sahib olmağım ana üçün xoşbəxtlik olardı. Sevil də bunun nəticəsində də evində olan varidatını mənə peşkəş verəcəkdir.

Elə bu münvalla da necə olursa-olsun Ruslan Sevilə qismət olmağa can atmışdır. Buna görə də o, ad-san qazanmış qohum-əqrəbasından istifadə etməyi düşünürdü.

Onun birdən yadına düşür ki, respublikada çox hörmətə malik olan dayısı Məhəmməd bəyi elçiliyə göndərmək lazımdır. Fikirləşdiyi kimi də edir... Dərhal dayısıgilə yollanıb əhvalatı təfsilatı ilə dayısına söyləyir. Məhəmməd bəy bu xəbərdən çox məmnun olub elçiliyə hazırlaşacağını bildirir.

Bir həftədən sonra Məhəmməd bəy yaxın adamlarını və qohum-əqrabalarını, eləcə də bir neçə hörmətli ağsaqqalları başına toplayıb Sevilə təmtəraqla elçiliyə getmişlər.

Lakin nə etməli, Ruslan Sevilə olan məhəbbətində özünü doğrultmadı. Sevil 2-ci dəfə ərə gedəndə elə düşünürdü ki, artıq o, xoşbəxt və firavan həyat quracaqdır. Onun ilk sevgilisi Fərid bəy dünyasını dəyişəndən sonra Sevil nə qədər sıxıntılar keçirmişdir. İki oğlu hələ kiçik yaşlı idi. Birinin 4 yaşı, digərinin isə 3 yaşı vardı. Əlbəttə, uşaqlara ata nəvazişi, qayğısı göstərmək vacib idi. Bu da Ruslana qismət oldu. Təəssüf ki, o, gül balaların qayğısına qala bilmədi. Tezliklə Sevilin könlünə dəydi. Sevil yavaş-yavaş ondan soyumağa başladı...Bunun da axırı məhkəmə yolu ilə ayrılmaqla nəticələndi...

Bəli, hər ailənin öz qanunları vardır. Qız da, qadın da özlərinin ismətini qorumalıdırlar. Əgər ailəni kiçik bir dövlətə bənzədiriksə, deməli onun böyükdən kiçiyə hər bir üzvünün hüquqları və vəzifələri də mövcuddur.

***Bakı şəhəri, 20.12.94-cü il.***

## Saf məhəbbət haqqında şəxsi düşüncələrim

M.F.Axundov adına Respublika kitabxanasında o qədər kitablarla məşğul idim ki, bir də başımı qaldıranda mənə elə gəldi ki, qarşımda əyləşən adamlar tavandan hoppanırlar. Bu anda gözlərimi ovuşdurdum. Baxdım gördüm ki, oxucular öz yerlərində oturmuşlar.

-Əşi, sənə nə olub-deyə öz-özümü danladım. Az işləsənə, dünyanın axırı deyil ki... İnstitutda iş, kitabxanada iş və eyni zamanda evdə iş. Gecə kitab, gündüz kitab. Bəs nə zaman yaşayacaqsan? Bəs nə zaman insanlarla münasibət yaradacaqsan? Nə zaman duyacaqsan?.. Sən ki, hər şeydən çox onları sevirsən. Deyəsən özün də hiss etmədən yavaş-yavaş kitab adamı olmağa başlayırsan. Yox belə olmaz!.. Bu anda xalq şairi Səməd Vurğunun sözləri yadıma düşdü:

*Eşqisiz yaşayan donuq bir insan,*
*İçini qurd yemiş boş bir ağacdır.*
*Əsrlər dolaşır dəyişir zaman,*
*Məhəbbət əbədi bir ehtiyacdır.*

Bəli, saf məhəbbət və təmiz ailə eşqi hər bir kəsə lazımdır. Lakin onu bəzi maneələrdən qorumaq gərəkdir və o gözəl arzuya nail olmaq lazımdır. Əfsuslar olsun ki, hazırki gənclərimizin bir qismi düzgün ailə bünövrəsi yarada bilmirlər. Buna görə də yüz ölçüb, bir biçmək lazımdır. Dəfələrlə fikirləşib həqiqi ürək sirdaşı tapmaq gərəkdir.

Buna görə də aqillərin dediyi kimi əsl insan odur ki, öz əqidəsində möhkəm, prinsipial olmağı və məqsədinə çatmağı bacarsın. Başqa sözlə desək, «Generallıq iddiasında olmayan əsgər ən pis əsgərdir». Böyük sərkərdə Suvorovun bu məşhur kəlamı tükənməz enerji sahibi olan gənclərimizin həyat meyarı olmalıdır.

*10.10.1962-ci il.*



## Paxıllıq haqqında bəzi mülahizələrim

İnsanın özünə qənim çıxan, məninə, mənliyinə, şəninə, şərəfinə, əqidəsinə, amalına, bütövlükdə varlığına heçlik gətirən qəddar bir düşmən varsa, o da paxıllıqdır. Paxıllıq xain ürəklərdə qərar tutur, qanda dolanır, gözlərdə parıldayır. Yurdlar boşaldır, evlər yıxır, diləklər göynədir paxıllıq.

Ulu Tanrı zaman-zaman çox şeyi əlimizdən aldısa, təkcə paxıllığımıza toxunmadı, bizi sınağa çəkdi, nəyə qadir, nələrə sahib olmasaq da paxıllıq haqq tərəzimizi əydi, götürmədi, qonşunu inəkli, qardaşı ağ köynəkli görən nankorlar dünyadan əl götürdü, şirin yuxulardan gen durdu, gah qonşusuna, gah da doğma qardaşına cəhənnəm toru qurdu. Ölüncə paxıllığı, müxənnətliyini itilədi, axırda cəhənnəm yuvasına qərq oldu...

Həyatımda az görməmişəm paxıl adamları. Hətta paxıllıq heyvanlar arasında da mövcuddur. Canavarlar bir sürünün axırına çıxmayınca geri çəkilmir.

Paxıllar paxıllıq kəməndinə kimləri salmayıb. Dünya var olandan, paxıllıq qatı da açılıb, halal çörəyinə güvənənləri, el təəssübü çəkənləri, elm öyrənib ad qazananları gözümüz götürməyib, ürəyimiz istəməyib.

Mən həyatımda rast gəldiyim bir faktı xatırlatmaq istərdim:

- Uzun illərdən bəri qonşuluq edən bir ailədə (onların ailə başçısına bəd əməllərinə görə el arasında «Keçəl Həmzə» deyərdilər) səmimi qonşusuna qarşı kin-küdurət əlamətləri yaranmışdı. Bu nədən əmələ gəlmişdir.

Sən demə, qonşu dissertasiya müdafiə etmiş, alimlik dərəcəsi almışdır. Bundan başqa qonşusu keyfiyyətli iş göstəricisinə görə Çexoslovakiyaya turist səfərinə göndərilmişdir. Bu əlamətləri «Keçəl Həmzə»nin və onun arvadının gözü götürməmiş və nəticədə, qonşusuna qarşı ədavət yaratmağa başlamışlar. Nəticədə isə, mehriban qonşu nə qədər əziyyət çəkməli olmuşdur.

Bir-birimizə qəbir qazıya-qazıya, dağ çəkə-çəkə boyumuz paxıllıqdan boy alıb, əqidəmiz, idrakımız, mənliyimiz paxıllığımıza meyillənib, yad insanlara da paxıllığımız tutub, onların inkişafı-

na, tərəqqisinə dodaq büzüb özümüzə çəkilməklə pis əməllərlə nəfəs almışıq! Elə buna görədir ki, bir zamanlar saqqal vergisi verib, meşələrdə yarı vəhşi yaşayanlar indi dünyaya meydan oxuyur, özümüzü qula, nemətlərimizi hazır loxmaya döndərib feyziyab olurlar! Bəli, paxıllıq türklüyümüzü zaman-zaman geri atıb, köləliyimizi artırıb, səsimizi içimizdə boğub, gözümüzü kölgəli eləyib!

Paxıllıq kənd-kənd gəzib, şəhər-şəhər dolanıb, evdən-evə soxulub, ara vurub, ev yıxıb, qəm verib, dərd artırıb. Deyirlər paxılın qarnı doymaz! Amma onu bilirəm ki, saf adamların qəlbini qarnındın tez doydurur paxıllıq! Paxıllıq vaxtsız əcəl qədər dəhşətlidir! Mənə elə gəlir ki, məcburi ölüm də, dərd də, ələm də paxıllıqdan yol alır! Hətta məzar daşları arasında da paxıllar vurnuxur, gözləri təmtəraqlı yaslarda böyüyür paxılların.

Bir vaxtlar kim əlinə daş götürürdü, dərhal milisə zəng vurub, qoymayın, ev tikir, - deyib hay-həşir salırdılar, anonimçi paxıllar isə mərkəzə saysız-hesabsız məktublar göndərirdilər, kəndi, rayonu alt-üst eləyirdilər. Nəticədə isə, ən çox ziyan çəkənlər sadə adamlar olurdular.

El arasında belə bir məsəl var:

«Dişin ağrıyır çək qurtar, qonşun pisdir köç qurtar».

Buna misal olaraq yenə «Keçəl Həmzə»nin qonşusuun ikinci mərdimazarlığından danışmaq istərdim:

- O, mehriban qonşusundan rayonun Xalq Nəzarət Komitəsinə anonim məktub yazıb qeyd edir ki, guya qonşusu rüşvət alır və rüşvətin nəticəsində Bakı bağlarından ən yaxşısını alıb, bağda saray tikdirmişdir.

Lakin yoxlama nəticəsində müəyyən olunmuşdur ki, bu yazılanlar tamamilə yalandır və rüşvət alan isə elə «Keçəl Həmzə»nin özüdür.

Qəribədir, cavanlar arasında paxıllara qarşı inam hissi güclü olurdu. Buna görə də bə'zən nəinki «kor qız», heç dünya gözəli də xoşbəxt olmurdu.

Yenə də «Keçəl Həmzə»nin paxıllığının 3-cü epizodundan söz açmaq istərdim:



- Günlərin bir günü (yay fəslində) «Keçəl Həmzə» ailəlikçə rayona alver etmək üçün gedir. Səhərisi günorta vaxtı küləkli bir havada hardansa onun eyvanına (balkonuna) od düşür və eyvandakı köhnə maşın şini alışmağa başlayır. Yaxşı ki, mehriban qonşusu yanğını öz eyvanından görür. Həmin saat mehriban qonşu çox çətinliklə balkonun yuxarı hissəsinə qalxıb alovu söndürür. Lakin bu xeyirxahlığın müqabilində «Keçəl Həmzə» rayondan gələndən sonra bir axşamcağı mehriban qonşusunu həyətdə olan yığıncağa dəvət edib ona araq stəkanında xırda nazik şüşə qırıntısı verib ona xətər yetirmək istəyirmiş. Yaxşı ki, qonşusu bunu əvvəlcədən başa düşmüşdür.

Baxın görün paxıllığın nəticəsi necə də eybəcərdir.

- Ömrüm boyu paxıllara nifrət bəsləmişəm, ona görə ki, onların bəd əməlləri barədə çox eşitmişəm, çirkinmişəm!

Paxıl adamlar bir qayda olaraq, qonşu ilə bəhsə girməkdən zövq alırlar. Qonşu maşın aldımı, maşın almaq həvəsinə düşür, bahalı paltar geyindimi, dişi bağırsağını kəsir, «pah atonnan» deyib dizinə döyür. Paxıllar görmüşəm ki, qonşusunun maşın yoluna mıx düzüb, dayanacaqda gecə yarısı qonşusunun şəxsi maşınını alışdırmaq üçün qaranlıqda maşının altına əski dolanmış çomaq qoyub tüstülədib. Lakin xoşbəxtlikdən əsən külək çomağın alışmasına mane olub və nəticədə maşın salamat qalıb.

Yalnız onu demək kifayətdir ki, paxıllıq olmayan yerdə tamahkarlıq həddini aşmaz! Paxıllıq bütün çirkin əməllərin həm açarı, həm də qıfılıdır! Paxıllıq xainlikdir. Xainlik olmayanda paxıllıq da olmaz!

Hərdən özümlə sorğu-suala girişirəm: görəsən niyə paxıllıqda birincilər sırasında gedirik, niyə anamız bizi paxıl doğub, xain böyüdüb? Biz də bütün dərslərdən «kafi» qiymət alsaq da, paxıllıq dərsindən yalnız ə'la alırıq! Bu milli fəlakət qədər sərt, düzəlməz və əzablıdır!

Yenə də mədəni qonşunun bədəməl qonşusu barədə misal çəkmək istərdim:

«Keçəl Həmzə» özünün şəxsi maşını olmasına baxmayaraq, qonşusunun aldığı təzə maşının görkəmini və rəngini gözü

götürmür. Onu içəridən elə bir ilan vurur. O, uşaqlarına öyrədir ki, qonşunun təzə maşınını şil-küt etmək məqamıdır.

Belə ki, qonşusu maşını blokun qarşısına qoyub evinə gedir. Yarım saatın müddətində onun uşaqları qonşusunun maşınını bir neçə yerdən ucu iti dəmirlə deşirlər. Bu məsələ uzanaraq hətta «Keçəl Həmzə» milis bölməsinə də'vət olunur. Lakin bəd əməl qonşu milis işçilərindən özünə «tanış» tapıb törətdiyi xəyanətdən yaxasını asanlıqla qurtarır.

Bir sözlə, «Keçəl Həmzə» xeyirxah qonşusunu çox böyük ziyana salır. Hətta başqalarının əlilə bir gecə qonşusunun maşınının qabaq şüşəsini küt alətlə sındırtdırıb çilik-çilik edir. Ancaq onun ürəyi soyumur ki, soyumur. Ardı-arası kəsilmədən özünün xainliyindən əl çəkmir.

Nəticədə, Allah-Təalanın ona qəzəbi tutur. Bir gün «Keçəl Həmzə»ni sancı tutur və xəstəxanaya düşməli olur. Həkimlər onun böyrəyinin birini çıxardırlar. Onun əlaltıları deyir ki, bəd əməlinə körə Allahın sənə qəzəbi tutub. Xeyirxah qonşuna qarşı etdiyin pisliyin cəsasını almısan.

Hər gün, hər yerdə paxıllarla qarşılaşır, onların tənəsilə nəfəs alırıq. Gözəl yaşıllıq düzəldən, zir-zibildən qonşuların canını qurtaran şəxsə yenə də paxıllıq ediblər. Onun bu xeyirxahlığının əvəzində xiyabana çevrilən bağçanı yenidən zibilliyə çevirən xəyanətkar qonşular paxıllığın nəticəsində bu işi tutmuşlar.

Bir sözlə, harada insan övladı var, orada paxıllıq məngənəsində sıxılır, ürəyimizi yad nəfəs, soyuq münasibətlə yükləyirik. Alimə də paxıllığımız tutur, dilənçiyə də, yaxını da görmək istəmirik, uzağı da, gözəl gülüşə, qəşəng baxışa da paxıllıq edənlərimiz var. Elə bil Tanrının qəzəbinə düçar olmuşuq.

Görün iş nə yerə çatıb ki, bacı bacının yaxşı guzəranını, baldız yeznənin ad qazanmasını gözü götürmür.

Həyatımda millətimizə baş ucalığı, şərəf-şan gətirən simalar, şəxsiyyətlər görmüşəm, fəqət sonralar mə'lum olub ki, həmin dahilərin bə'zilərinin içində paxıllıq tikan bitirib.

Nə isə... Paxıllıqla bağlı mülahizələrimi bildirərək ürəyimi boşaltdım! Bir arzu ilə ayrılmaq istəyirəm: gün o gün olsun ki, bütün ürəklər paxıllıqdan silinsin, diləklər gül açsın, arzular saflaşsın, könüllər birləşsin!



Bir də əziz oxuculara onu demək istərdim ki, paxıl deyib elə bütün millətimizi məzəmmət etmək fikrində deyiləm. Şükürlər olsun ki, nə çoxdur adıynan çağırılan igidlərimiz, ərənlərimiz! Xalqının, vətəninin, torpağının, ana və bacılarının qeyrətini çəkən ər oğullarımız. Biz belələri ilə fəxr edirik!

***28.01.1994-cü il.***

## Mailovun teatr binasının faciəli yanması

Yazılan məxəzlərdən bəlli olur ki, Bakı şəhərindəki M.F.Axundov adına Opera və Balet teatrı üçün tikilən binanın tarixi çox maraqlı olmuşdur.

1910-cu ildə Bakıya məşhur bir xanəndə gəlir, səsinin ahəngi, gözəlliyi və qəşəngliyi Bakı milyonçularının diqqətini özünə cəlb edir. Milyonçu Mailovun böyük qardaşı bu xanıma bərk əludə olur, ona əlindən gələn hörməti edir və onu zər-qaşla məftun edir.

Xanəndə xanım Bakının Birja küçəsində, Rəsulov və Amadovun mülkləri ilə üzbəüz, Kamerçeski məktəbinin dal tərəfində yerləşən Sirkdə, gah da Krasnovodsk (Səməd Vurğun) küçəsi ilə Malakan küçəsinin küncündəki «Kazino» klubunda konsertlər verirdi. Qastrol başa çatanda xanəndə xanımın şərəfinə kazinoda təntənəli vida ziyafəti düzəltmişdilər.

Söhbət zamanı xanımdan soruşurlar:

- Bizim şəhərə bir də qonaq olarsınız?

Xanım cavab verir ki:

- Yəqin ki, heç vaxt. Bunun da səbəbini Sizə aydınlaşdıra bilərəm. Çünki mən Sirkdə, xırda salonlarda oxumağa adət etməmişəm. Sizin bu gözəl, zəngin Bakıda, səxavətli cəngavərlər yaşayan böyük şəhərdə münasib bir opera binası yoxdur ki, müğənni iste'dadını, məharətini göstərə bilsin.

Mailov xəbər alır:

- Xanım, bir də Bakıya nə vaxt qayıda bilərsiniz?

Müğənni xanım cavab verir:

- Bir ildən sonra.

Mailov xanıma bildirir ki, qismət olsa, bir ilə kimi bizim şəhərdə münasib bina tikilər və onu Siz özünüz açarsınız.

Bu minvalla onlar və'dələşir. Mailov opera binasının layihələşdirilməsini arxitektor Babayevə tapşırır və ona göstəriş verir ki, bina çox gözəl olmalıdır.



Hacı Zeynalabdin Tağıyev bu əhvalatı eşidir və Mailovla rastlaşanda, söhbət əsnasında deyir ki, mən inana bilmirəm ki, o boyda binanı bir ilə necə tikdirib başa çatdıracaqsan?

Mailov gülümsəyib deyir: «Hacı, gəl mərcləşək. Əgər bina bir ilə hazır olmasa, mən onu başa çatdırıb verərəm sənə, olar səninki və xərcini mən çəkərəm. Yox, əgər başa çatdırsam, çəkdiyim xərci sən ödəyərsən, bina qalar mənə».

Razılaşırlar. Doğrudan da, binanı bir il əvəzinə 8 aya tikib başa çatdırırlar.

Mailov xanəndə xanıma teleqram vurur, o da Bakıya gəlir və operanın açılışında oxuyur. Xanəndə xanım ariyanı qurtaranda başına pul yağdırırlar. Səhnə başdan-başa gül-çiçək içində idi...

Mailov xanıma puldan düzəldilmiş böyük bir «çələng» göndərir. Bu barədə şəhərdə uzun-uzadı söhbət getmişdir...

Bax, həmin bu tarixi binanın ömrü 1985-ci ilin aprel ayının 17-də başa çatdı. Yə'ni 74 ildən sonra opera binasına yanğın düşdü. Demək olar ki, binanın ləmpə hissəsi (bu da ən gözəl və me'marlıq cəhətdən daha cazibədar idi) tamamilə yanıb külə dönmüşdür.

Onu da qeyd edim ki, hökumətin qəbul etdiyi qərara uyğun olaraq milli opera musiqimizin banisi, bəstəkar Üzeyir Hacıbəyovun anadan olmasının 100 illik yubileyi münasibətilə, M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet teatrının binası yenidən milli ornament üslubunda əsaslı tə'mir olunub başa çatdırılmaq üzrə idi. Binanın tə'mirinə hökumətimiz tərəfindən milyonlarla vəsait sərf edilmiş və hətta xaricdən sənətkarlar da operanın tə'mirinə cəlb olunmuşdur. Əfsuslar olsun ki, Üzeyir Hacıbəyovun təntənəli yubiley gecəsi bu binada keçirilə bilmədi. Opera və balet teatrının binası adi bir ehtiyatsızlıq və mə'suliyyətsizlik üzündən faciəli surətdə yandı.

Hal-hazırda bina ikinci dəfə yenidən əsaslı tə'mir olunmuşdur.

Opera və balet teatrı 1988-ci ilin yanvar ayının 2-də əsaslı bərpadan sonra yenidən tamaşaçılarının üzünə açılmışdır. İlk tamaşa Üzeyir Hacıbəyovun «Leyli və Məcnun» operası ilə başlanmışdır.

# BİR DİVİZİYANIN KEÇDİYİ YOL



## 223-cü Belqrad diviziyasının mübarizəsinin hünər salnaməsi

Şimali Qafqazın, Kubanın ucsuz-bucaqsız çölləri ilə irəlilədikcə, Ukraynanın alman-faşist əsarətindən xilas edilmiş şəhərlərinin və kəndlərinin xarabalıqlarından keçdikcə, gözlərimiz qarşısında açılan mənzərələr bizə bir daha aydın olaraq göstərir ki, sovet ordusu alman faşistləri ilə mübarizədə nə qədər nəcib və yüksək tarixi bir vəzifəni yerinə yetirmişdir. Böyük Vətən Müharibəsi illərində sovet ordusunun tərkibində onlarca milli diviziya və hissə düşmənə qarşı vuruşmalarda misilsiz hünər göstərmişdir.

223-cü atıcı diviziya, alman faşist işğalçılarının Şimali Qafqazda və Kubanda ağlasığmaz cinayətlər, zülm və haqsızlıqlar etdiklərinin şahidi olmuşlar. Onlar sovet adamlarının saysız-hesabsız cəsədlərini, əziyyətlə öldürülmüş qocaların, uşaqların və qadınların meyitlərini öz gözləri ilə görmüşlər. Almanlar şəhərlərə od vurub yandırmış, bütün mədəniyyət ocaqlarını, ictimai binaları, məktəbləri, kitabxanaları, teatrları, klubları və xəstəxanaları partladıb dağıtmış və yandırıb yerlə yeksan etmişlər. Əsgərlərin qüdrətli zərbələri altında məğlubiyyətə düçar olan düşmən geri çəkilərkən, sovet vətəndaşlarını qırmaq üçün hər bir alçaq vasitəyə əl atmış, müntəzəm surətdə əhalinin içdiyi suyu zəhərləmiş və sovet vətəndaşlarına olmazın divan tutmuşdur. Yalnız təkcə Georgevskidə bu yolla 3000-dən artıq adam zəhərlənmişdir.

Həmin diviziya Ukraynada alman cəlladları tərəfindən törədilən vəhşilikləri öz gözləri ilə görmüşdür. Onlar qəhrəmanlıqla vuruşa-vuruşa Qafqazın 4 min kvadrat kilometrlik ərazisinin, 50-dən çox yaşayış məntəqəsinin düşməndən təmizlənməsində mərdlik, rəşadət nümunəsi göstərmişlər. Sonralar «Səhra» 2-ci və 3-cü Ukrayna cəbhələrində müvəffəqiy-yətli döyüşlər keçirmiş, Azərbaycan döyüşçüləri məşhur Yassı-Kişinyov əməliyyatında da fərqlənmişlər. Dunay çayını keçən diviziyanın sürətli hücumu

Rumıniyanın Kostanta limanının və Bolqarıstanın Şumen şəhərinin süqutuna şərait yaratmışdır.

1944-cü ilin sentyabrın 29-da Bolqarıstan-Yuqoslaviya sərhədini keçən 223-cü atıcı diviziya almanları Serbiyanın Vrajoqrants şəhərindən çıxarmışdır. Yuqoslaviya paytaxtının azad edilməsinə görə 223-cü atıcı diviziya «Belqrad diviziyası» fəxri adı almışdır.

Alman faşistləri geri çəkilərkən, sovet torpaqlarına yüzlərlə və minlərlə öz əsgər və zabitlərinin murdar meyitlərini qoyub getmişlər. Almanlar sovet ordusunun qüdrətli zərbələri altında geri çəkilirdilər. Lakin Ukrayna torpaqları yanırdısa da, Ukrayna almanlardan amansız intiqam və qisas alırdı.

Xalqın apardığı bu müqəddəs amansız azadlıq müharibəsində Azərbaycan xalqının mərd oğulları qəhrəmancasına vuruşurdular. Onların göstərdiyi qəhrəmanlığı sayıb qurtarmaq mümkün deyil. 223-cü atıcı diviziyanın mətanət, şücaət və zəfər qazanmaq məharətlərini əks etdirən yüzlərlə cəsur döyüşçüləri misal göstərmək olar:

**Ələsgər Ramazan oğlu Qasımov** – 1901-ci ildə Naxçıvanın Bulqan kəndində anadan olmuşdur. 1921-ci ildə Naxçıvandan orduya çağırılmış və Bakıda Ə.Qarayev adına hərbi məktəbdə təhsil almağa göndərilmişdir. Hələ hərbi məktəbdə oxuyarkən o, dəfələrlə mədənlərdə yanğın törədən təxribatçılara, Ağdam və Göyçay rayonlarında fəaliyyət göstərən quldur dəstələrinə qarşı əməliyyatların fəal iştirakçısı olmuşdur.

1923-cü ildə hərbi məktəbi bitirən Ələsgər Qasımov Naxçıvanda yerləşən hərbi hissələrin birinə vzvod komandiri göndərilir. 1929-cu ildə Zaqafqaziya Kommunist Universitetini fərqlənmə diplomu ilə bitirən Ə.Qasımov ali məktəblərdə dərs demək hüququ qazanır. 1937-ci ilin fevral ayından avqust ayına kimi ADU-da tədris işləri üzrə prorektor və eyni zamanda, APİ-nin «Siyasi iqtisad» kafedrasının müdiri vəzifəsində işləmişdir.

1940-cı ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda siyasi iqtisad fənnindən dərs deyən Ə.Qasımov, eyni zamanda, Ali Kənd Təsərrüfatı məktəbində «Siyasi iqtisad» kafedrasının müdiri vəzifəsində işləmişdir.



Böyük Vətən Müharibəsi başlananda Ə.Qasımov könüllü cəbhəyə gedir və 1942-ci ilin aprelində təşkil olunan 223-cü atıcı diviziyasına siyasi şöbə rəisinin müavini təyin olunur. Odlu-alovlu döyüşlərdə Ə.Qasımovun apardığı təbliğat azərbaycanlı döyüşçülərinin Şimali Qafqazda və I, II və III Ukrayna cəbhələrində göstərdikləri misilsiz şücaətlərin əsasını təşkil edir. Ə.Qasımovun Azərbaycan döyüşçüləri adından Azərbaycan KP MK-ya, Respublika Ali Sovetinin Rəyasət Heyətinə və Xalq Komissarları Sovetinə göndərdiyi məktubunda həmyerlilərimizin Mozdok altında, Kubanda, Ukraynada, Dnepr çayının keçilməsində, Cənubi Buq və Dnestrdəki vuruşlarda böyük igidlik və cəsurluğundan ətraflı bəhs olunur. Onun bu məktubu güclü əks-səda doğurmuşdur. Həmin il «Azərnəşr» mayor Ə.Qasımovun «Bir diviziyanın işi və adamları» adlı kitabını çapdan buraxır. Azərbaycan KP MK və Respublika hökuməti adından 223-cü atıcı diviziyanın siyasi şöbəsinin rəis müavini Ə.Qasımova göndərilmiş məktubda oxuyuruq:

- «Azərbaycan xalqı Sizin diviziyanın müvəffəqiyyəti ilə fəxr edir. Sevindiricidir ki, Sizin diviziya Azərbaycan torpaqlarında təşkil olunmuş və öz simasını mərdliklə qoruyub saxlamışdır. Sizin məktub diviziya döyüşçülərinin fikir və düşüncələrini əks etdirir. Arxa cəbhə üçün əsl nümunəyə çevrilir».

1942-ci ilin dekabrında İşşerskidə başlanan döyüşü 1943-cü ilin mart ayında 223-cü atıcı diviziya qələbə ilə bitirdi və şimali Qafqaz azad edildi. Ə.Qasımovun başçılıq etdiyi diviziya Georgevski şəhərini, Kubanı, Krasnaya Armeyskini azad etdi. Belqraddan, Polşadan, Almaniyadan sonra o, Breslova getdi və müharibənin sonuna kimi orada döyüşdü.

Faşist Almaniyası üzərindəki tarixi qələbədən sonra milyonlarla sovet adamı kimi mayor Ə.Qasımov da dinc quruculuq işinə qayıtdı.

1963-cü ildə doktorluq dissertasiyası müdafiə etmədən Ə.Qasımova professor adı verilmişdir. 1964-cü ildən o, Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsinin dekanı vəzifəsində işləmişdir. 1964-cü ildən ömrünün axırına kimi

Azərbaycan Xalq Təsərrüfatı İnstiutunda «Siyasi iqtisad» kafedrasına rəhbərlik etmişdir.

Professor Ə.Qasımovun yarım əsrlik elmi-pedaqoji fəaliyyəti dövründə o, siyasi iqtisadın aktual problemləri üzrə bir sıra orijinal əsərlərin müəllifi olmuşdur.

Vətən və xalq qarşısındakı xidmətlərinə görə Ə.Qasımov «Qırmızı Əmək Bayrağı», «Birinci dərəcəli vətən müharibəsi» ordenlərinə, «Qafqazın müdafiəsinə görə», «Əmək igidliyinə görə» medallarına, Azərbaycan SSR Ali Sovetinin və Respublika Ali və Orta İxtsias Təhsili Nazirliyinin Fəxri Fərmanına layiq görülmüşdür. O, 1985-ci ildə Bakıda vəfat etmişdir.

Bir qəhrəman kimi həlak olmuş, sədaqətli insan, diviziyanın siyasi şöbəsinin işçisi olan **Xəlil Manaf oğlu Fazilov** – dəfələrlə öz şəxsi nümunəsi ilə döyüşçüləri və komandirləri ruhlandırmış, daim döyüşən hissələrimizin ön sıralarında çarpışmış, azad edilən yerlərdə sovet adamlarının normal həyatının qurulmasına köməklik göstərmişdir. Hələ Şimali Qafqazda gedən döyüşlər zamanı Fazilov hökumətimz tərəfindən mükafatlandırılmışdır. O, Xarkov vilayətinin İzmeyev rayonunda «Borki» sovxozu yanında gedən vuruşmalarda fəal iştirak etmişdir.

«Borki» sovxozu yanında gedən vuruşmalar zamanı almanlar mövqelər üzərinə xeyli tank göndərmişdi. Bunların içərisində «Pələng» tipli tanklar da vardı. Vəziyyət son dərəcə gərginləşmişdi. Bu zaman ön atəş xəttində olan Fazilov özünü dəmir iradəyə malik bir komandir kimi göstərmiş, tank vuran topları ilə birlikdə almanların üzərinə hücuma keçmişdir. Nəticədə, almanların əks-hücumu dəf edilmiş, düşmən böyük tələfata düçar olmuş və diviziyanın bölmələri «Borski» sovxozunu ələ keçirib oradaca möhkəmlənmişlər.

Mədən fəhləsi olan mayor **Baxış Mehdiyevin** döyüş həyatı vətənə fədakarlıq və sədaqət nümunələri ilə doludur. Düşmənin açdığı şiddətli top, minaatan və pulemyot atəşinə baxmayaraq, onun polku Dnepr çayını keçərək çayın sağ sahilində hərbi əməliyyat meydanı tutmaq üçün tapşırıq almışdı. Beləliklə, Mehdiyev Dneprin sol sahilindəki meşəlikdən və kolluqdan istifadə edərək, gizli olaraq bütün polkun sahildə toplanmasını



təşkil edə bildi. O, qüvvətli kəşfiyyat təşkil edərək düşmənin müdafiəsindəki zəif yerləri aşkara çıxardı və şiddətli bir hücum zərbəsi ilə almanların müqavimətini qırıb, bütün polku dəmiryoluna çıxardı.

**Zabit Məmmədhüseyn Aşurov** – istedadlı bir komandir kimi diviziyada şöhrət qazanmışdır. Bir az əvvəl onun bölməsi böyük yaşayış məntəqəsi olan Lazovaya kəndini ələ keçirmək üçün tapşırıq almışdı. Aşurovun başçılıq etdiyi döyüşçülərə kəndə bir neçə kilometr qalmış almanlar şiddətli atəş açdılar. Lakin artıq gec idi. Bölmə xırda dəstələrlə müxtəlif cinahlardan kəndə girərək almanları kənddən qovub çıxardılar. Bu döyüş əməliyyatı o qədər sürətlə və məharətlə keçirilmişdir ki, düşmən müqavimət göstərməyə macal tapmayaraq, silahlarını döyüş meydanında tökərək baş götürüb qaçmışdır.

**Komandir Məhərrəm Həsən oğlu Ağayev** – cəsur bir zabit kimi hissələrdə şöhrət qazanmışdır. O, öz döyüş xidmətlərinə görə «Qızıl ulduz» ordeni ilə təltif edilmişdir. Bir dəfə zabit Ağayev öz döyüşçülərini Dnepr çayının sağ sahilində üzərlərinə əks-hücum edən almanlara qarşı döyüşə apardı. Hitlerçilər 8 dəfə əks-hücuma keçərək döyüşçüləri geri oturtmaq istədilərsə də, lakin hər dəfə özləri sarsıdıcı zərbələr alaraq, insan və texnika cəhətdən böyük tələfata düçar olub geri çəkildilər. Ağayev bütün silah növlərinin qarşılıqlı əlaqəsini düzgün təşkil edərək, qəflətən şiddətli hücuma keçməklə düşmənin müdafiə xəttini yarmış və demək olar ki, düşmənin çiynində yeni atəş hüduduna girərək, döyüşün müqəddəratını vətənin naminə həll etmişdir. Ağayev dayanmadan hücumu inkişaf etdirərək az itki ilə dəmiryol xəttini tutmağa müvəffəq olmuşdur. Beləliklə, düşmən Dneprin sağ sahilindəki ən mühüm rabitə yollarından birini əldən verməyə məcbur oldu.

**Baş leytenant Əli Hürmət oğlu Əliyev** – 223-cü Qırmızı bayraqlı Belqrad diviziyasının 1041-ci alayının komsomol komitəsinin katibi, sonralar isə siyasi şöbənin rəisinin komsomol işi üzrə köməkçisi vəzifələrində işləmişdir.

O, Qroznı-Georgevski şəhərlərinin azadlığı uğrunda vuruşmuşdur. Kursk-Dauqa şəhərlərindən Dnepr çayını keçərkən

«Aul» məntəqəsində desant olmuşdur. Onun dəstəsi burada qoşunlara yol açaraq Dnepropetrovsk şəhərini azad edib Kirovoqrad vuruşlarında da iştirak etmişlər. Burada onların vuruş nöqtəsi Verblyuşka qəsəbəsi olmuşdur. Bundan sonra qoşunlar Yassa-Kişinyov tərəfə keçmişlər.

Dinc quruculuq dövründə Əli Hürmət oğlu Əliyev Azərbaycan müharibə veteranları Rəyasət Heyətinin Bakı şöbəsinin məsul katibinin müavini vəzifəsini icra etmişdir.

O, «Qızıl ulduz» ordeninə, «İgidliyə görə» və s. medallarla təltif olunmuşdur. Ümumiyyətlə, Əli Əliyevin 20-yə qədər orden və medalı vardır. Eyni zamanda, Əli Əliyev SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanına layiq görülmüşdür.

223-cü atıcı diviziyada azərbaycanlı zabitlər arasında öz qəhrəmanlıqları ilə şöhrət qazanan yoldaşlar saysız-hesabsız olduğuna görə, onların hər birinin igidliyi haqqında müfəssəl danışmağa imkan yoxdur.

1-ci batalyonun komissarı «Sovet döyüşçüsü» diviziya qəzetinin məsul katibi, 3-cü Ukrayna «Sovet döyüşçüsü» ümumqoşun qəzetinin redaktoru olmuş Əbil Yusifov, kapitan Hacıağa İsa oğlu, baş leytenant Məmməd Əli oğlu Şabanov, qubalı kapitan Xosrov Vahabzadə, gəncəli Nəcəf Əminbəyli, Əhməd Vəkilov, Səməd Məmmədov, Ağırlı, Dilman Şadlinski, İsa Məcid oğlu Məmmədov, Ağalar Məmməd oğlu və bir çox başqaları öz qəhrəmanlıqları ilə diviziyada şöhrət qazanmışlar.

Azərbaycanlı döyüşçülər açıq və örtülü səngərlərdə şiddətli hücum ərəfəsində ərizə yazaraq kommunist partiyası sıralarına qəbul edilmələrini xahiş etmişlər. Buna görə də diviziyanın partiya təşkilatlarının 70 faizini azərbaycanlı döyüşçülər təşkil edirdi.

Diviziyada hər bir azərbaycanlının qəhrəmanlığı onun doğma Azərbaycana, böyük vətəninə olan hədsiz məhəbbətinin parlaq bir ifadəsi idi. Həmyerlilərimizin qəhrəmanlığını faşistlər belə etiraf etməyə məcbur olmuşlar.

223-cü atıcı diviziyasının siyasi şöbəsi tərəfindən 1944-cü ilin yanvar ayında Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinə göndərilən məktubda qeyd edilir ki, almanlar dəfələrlə müvəqqəti olaraq işğal etdikləri rayonların əhalisinə həyasızcasına məlumat vermişlər ki, onlar xüsusilə «qarayanız döyüşçülərlə» daha amansız rəftar edir, onlara daha müdhiş divan tuturlar. Almanların söylədiyinə görə, bu «qarayanız döyüşçülər» əsla qorxu hissləri bilməyərək irəliləyir, onların qabağını nə mina, nə top güllələri və nə də qumbaralarla saxlamaq olmur.



Hazırda 223-cü Belqrad diviziyasının sağ qalan veteranları ağır müharibə illərində diviziyanın keçdiyi yoldan şirin-şirin söhbət açırlar. Biz onların çıxışlarını oxuduqca, cəsurların sifətində sanki müharibənin törətdiyi təlatümlər hiss olunur. Onların həyat yolunda azğın alman faşistlərinin törətdikləri cinayətlər silinməz iz buraxmışdır.

Böyük Vətən Müharibəsində 30 ay fasiləsiz döyüş yolu keçmiş 223-cü atıcı diviziya 400-dən çox yaşayış məntəqəsini, o cümlədən 19 şəhəri azğın hitlerçilərdən təmizləmiş, 45 mindən artıq faşisti məhv etmiş, düşmənin 43500 əsgərini əsir almışlar. Minlərlə igid döyüşçü vətənin etimadını qazanaraq, yüksək mükafata layiq görülmüşlər. Bunlara diviziyanın siyasi şöbə rəisinin müavini vəzifəsində çalışmış Əbdül Rəcəbəvu, 818-ci topçular polkunda diviziya komandirinin müavini vəzifəsində çalışmış Cəlal Həsənovu, əlahiddə batalyon komandirinin siyasi işlər üzrə müavini olmuş Nəcməddin Mayılovu, 818-ci polkda artilleriya texnikası xidmətinin rəisi vəzifəsində işləmiş Nikolay Xamilonovu, diviziya komandirinin müavini olmuş Salman Şükürovu, batareya komandiri Sultan Ələkbərovu, topçu Əbdül Zeynalovu, diviziya prokuroru olmuş Ağaqulu Qurbanovu, 1039-cu sanitar rotasında starşina olmuş Ocaqqulu Ocaqverdiyevi və başqa yoldaşları nümunə göstərmək olar.

223-cü Belqrad diviziyasının mübariz işini və onun şanlı döyüşçülərini qardaş Ukrayna xalqı heç vaxt unutmamış, qanlı döyüşlərdə onların qəhrəmanlığını xalqlar arasında dostluq rəmzinə çevirmişlər.

Azərbaycanda yaradılmış 223-cü Belqrad diviziyasının döyüşçüləri ruslar, ukraynalılar və başqa millətlərlə əl-ələ verərək hitlerçilərə sarsıdıcı zərbələr endirmiş, ordunun hünər və şöhrət salnaməsinə qəhrəmanlıq səhifələri yazmış və yurdumuzun şöhrətini artırmışlar.

223-cü Belqrad diviziyasının silahdaşlarının keçdiyi şərəfli qəhrəmanlıq yolu gənclərimizə bir örnəkdir. Hazırda torpaqlarımızın bütövlüyü uğrunda mübarizə aparan gənc əsgərlərimiz özlərinin sayıqlıqlarını daha da möhkəmləndirirlər. Tariximizin gələcək nəsillərə düzgün və dəqiq çatdırılması yolunda gənclərin üzərinə böyük məsuliyyət düşür. Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin parlaq xatirələri xalqımızın diqqət mərkəzindədir. Bununla da, özlərinin inqilabi keçmişini öyrənmək və keçmişinə hörmət etmək bilavasitə gənclərin vətəndaşlıq borcu sayılır.

İstiqlal sədası kimi ərsəyə qalxıb kənd və şəhərlərimizin, igidlərin alınmaz qalaya çevirdikləri səngərlərin üzərlərində əzəmətlə gurlayan Qarabağ harayı təkcə qələbəmizin qəhrəmanlıq himni kimi qalmayacaq, bu böyük döyüş günlərinin solmaz şöhrətini əsrdən-əsrə müjdə aparacaq, canı-qanı, son nəfəsi bahasına vətən hüdudlarını düşməndən təmizləyən igidlərimizin ölməz adlarını xalqın döyüş və qəhrəmanlıq salnaməsinə əbədi həkk edəcəkdir. Nə qədər ki, torpaqlarımız yağı düşməndən azad olub əvvəlki rahatlığına qovuşmayıb, bu haray da səmadan boylanan günəş kimi vətən hüdudlarının üzərindən əskik olmayacaqdır.

Düşmən son aqibətinə – məğlubiyyətinə yaxınlaşmaqdadır. Qələbəmiz uzaqda deyil. Yaxınlaşmaqda olan məğlubiyyət erməni faşistlərini yaralı canavar kimi daha da azğınlaşdırır, onlar rüsvayçı aqibətindən və son cəzadan canlarını xilas etmək üçün döyüş meydanına yeni-yeni canlı qüvvə, hərbi texnika cəmləşdirirlər. Lakin heç bir qüvvə bu son intiqamın qarşısını ala bilməyəcəkdir*.

* Qeyd: Məqalə «Azərbaycan ordusu» qəzetinin 5-10 aprel, 2001-ci il tarixli nömrələrinlə dərc olunmuşdur.

# QARABAĞ TORPAQLARI UĞRUNDA MÜBARİZƏDƏ KEÇİLƏN YOL

## Dağlıq Qarabağ və onun ətrafındakı hadisələr

Bu gün Şuşanın füsunkar təbiəti adamı vəcdə gətirir. İndi erməni millətçiləri və ekstremistləri bu şəhərin füsunkar təbiətinə göz dikmişlər. Dəniz səviyyəsindən 1800m yüksəklikdə olan Şuşa, Cıdır düzü, Topxana meşəsi neçə-neçə adama şəfa verib, yenidən həyata qaytarıb. Dünyada Xarıbülbül çiçəyi bu torpaqda bitir. Bu çiçəyin məskəninə əl vuranlar nağıllarda deyildiyi kimi, Xaribülbülün ah-naləsinə düçar olmuşlar. İndi də bu qiymətli təbii iqlimə malik olan yerə qatı erməni millətçiləri və ekstremistləri gözlərini dikmişlər. 1988-ci ilin fevral ayından başlanan Dağlıq Qarabağ və onun ətrafındakı hadisələr respublikamızın bütün zəhmətkeşlərində, o cümlədən biz ziyalılarda da hiddət və qəzəb doğurmuşdur. Görün iş nə yerə gəlib çıxmışdır ki, erməni millətçiləri Azərbaycanın mədəniyyət mərkəzi sayılan Şuşa şəhərinin tarixi-təbiət muzeyinə – Topxana meşəsinə xəyanət əli uzatmışlar. Əlbəttə, bu işdə müqəssir olanlar layiqli cəzasını almalıdırlar. Qafqazın gözü olan Şuşa şəhərini məgər belə vəziyyətə salmaq olarmı? İnsanlığını itirənlər, qayda-qanuna tabe olmayanlar haqqında nə üçün vaxtında ciddi tədbir görülməmişdir? Axı ölkədə təbiəti mühafizə ümumxalq işidir. Çox maraqlıdır ki, erməni ekstremistləri indiyədək cəza almamışlar.

Şuşa uzun illərdən bəridir ki, Azərbaycan xalqının rəşadət və qəhrəmanlıq rəmzi olmuşdur. Bu, ilk növbədə Ağaməhəmməd şah Qacarın Şuşaya hücumu ilə əlaqədardır. Necə olur ki, şah Qacar Şuşanı 33 gün mühasirədə saxladığı bir vaxtda Şuşadan bəhrələnən erməni milləti Şuşanı müdafiə etməmişdir? Belə olduqda, bəs onlar bizim Şuşanın füsunkar təbiətindən hansı pay istəyirlər? Özünün gözəl ənənələri və humanistliyi ilə fərqlənən Azərbaycan xalqı erməni millətçilərinin fitnəkar niyyətlərinə, qərəzçiliyinə, özbaşnalığına, azğınlığına dözə bilməz. Bunlara son qoyulmalıdır. SSRİ Ali Soveti Rəyasət Heyətinin 18 iyul 1988-ci il tarixli qərarında deyilir: «SSRİ Ali Sovetinin Rəyasət Heyəti belə bir qərar qəbul edərkən SSRİ Konstitusiyasının bu



müddəasını (78-ci maddə) əsas tutur ki, «müttəfiq respublikanın ərazisi onun icazəsi olmadan dəyişdirilə bilməz». Lakin belə bir qərarın ziddinə olaraq Dağlıq Qarabağın rəhbər orqanları, o cümlədən başda H.Poqosyan olmaqla özlərinin millətçilik prinsiplərindən əl çəkməmişlər.

On gündən artıqdır ki, xalqımızın namuslu, qeyrətli oğlanları və qızları, ümumən bütün azərbay-canlılar Lenin meydanına toplaşır. Dağlıq Qarabağ və onun ətrafında vəziyyətin sabitləşməsinə hər vasitə ilə mane olmağa çalışanların hərəkətini pisləyən sözlər söyləyir, təkliflər verir, tələblər irəli sürürlər. Xalq qanuni haqqını, sakitlik, əmin-amanlıq tələb edir. Xalq Aqanbekyanı, Balayanı, Poqosyanı, Manuçarovu, Barseqyanı və başqa millətçiləri cəzalandırmaq tələbini irəli sürür.

Belə bir vaxtda Gürcüstanın böyük demokrat yazıçısı İlya Çavçavadzenin aşağıdakı fikrini yada salmamaq qəbahət olardı:

- Məgər ermənilərin səpələnməsi bizim ürəyimizcədir? Allah-Təala onlara güc və bacarıq versin ki, tərk edib getdikləri yerdə birləşsinlər. Amma qoy özgə varına göz dikməsinlər, bizi öz varımızdan məhrum etməyə can atmasınlar…

*Mən sənə pay versəm, sən özün məgər,*

*Mənə gülməzmisən? gülməsən əgər,*

*Mənə mənim babam gülər, lağ eylər,*

*Babəkim Davidə borclu deyil ki?*

Xalq şairimiz Bəxtiyar Vahabzadənin bu misraları tariximizdən xəbər verir. Biz heç vaxt gözəl Qarabağın səfalı güşəsi olan Topxana meşəsini itirə bilmərik. Qoy erməni millətçiləri bilsinlər ki, torpaqdan heç vaxt pay olmaz.

Yeri gəlmişkən qeyd edək ki, xalqın istəyinə, arzusuna, qanuni tələblərinə vaxtında baxılmalıdır. Lakin bu gün deməliyik ki, çox vaxt yalan vədlərlə, fırıldaq niyyətlərlə də üzləşirik. Sözünü açıq, həqiqəti üzə deyənlər, haqqı, ədaləti tələb edənlər nədənsə sonralar əziyyətlərlə qarşılaşırlar. Xalqa düz söz lazımdır.

Məhz ona görə də yüksək vəzifəsi olub, lakin əqidəsi olmayanlara adamların inamı qat-qat azalıbdır. Nümayişçilərin haqlı tələblərinə şübhəmiz olmadan tələbələrimizə deyirik: Bu çətin günlərdə təmkinli olun, haqlı tələblərinizin yerinə yetirilməsinə qanunu pozmadan çalışın və təhsilinizi də unutmayın*.

* Qeyd: Məqalənin mətni «İqtisadçı» qəzetinin 30 noyabr 1988-ji il tarixli nömrəsindən götürülmüş və qısa redaktə olunmuşdur.



## «Qanlı yanvar» faciəsindən qeydlərim

20 yanvar 1990-cı il! Xalqın qəlbində silinməz izlər buraxan və qəhrəmanlıq mübarizəsi kimi yaşayan «Qara yanvar»... Həmin müdhiş gecədə rus ordusunun təcavüzü nəticəsində neçə-neçə oğul və qızlarımız şəhid olmuş, müstəqil Azərbaycanın tarixində öz adlarını həmişəlik tarixə həkk etmişlər.

Xalqımız hər il bu faciəni dərin hüznlə yad edir, ağrılı-acılı yanvar günlərini təkrarən anır. Xususi olaraq, qisas məqsədilə göndərilmiş ordunun tərkibi çox «məharətlə» müəyyənləşdirilmişdir. Onlara məhz kütləvi ixtişaşlarla dolu bir şəhərə getdikləri, ruslara və rus əsgərlərinə nifrətdən aşıb-daşan, təpədən-dırnağa qədər silahlanmış adamlarla qarşılaşacaqları əvvəlcədən deyilmişdir. Elə buna görə də tərpənənlərin, küçədə gözə dəyənlərin hamısı güllələnirdi. Hətta dəsmal üçün cibinə əl atana əlini oradan çıxarmağa macal verilmir, al qanına boyayırdılar.

Çürümüş kommunist rejimini nəyin bahasına olursa-olsun saxlamağa çalışan imperiya az qala bütün hərb maşınını işə salaraq, öz milli azadlığı və istiqlaliyyəti, torpaqlarının müdafiəsi uğrunda mübarizəyə qalxmış xalqımıza divan tutmaq üçün həmin gecə Azərbaycana qarşı açıq silahlı təcavüzə başladı. Bakının küçə və meydanları günahsız insanların qanına boyandı. Bu, tarixdə dövlətin öz vətəndaşlarına qarşı görünməmiş vəhşiliyi idi.

Bəli, can üstə olan sovet imperiyası xalqımızın tarixinə ən faciəli bir səhifə yazdı. Lakin 20 yanvar qırğını Azərbaycan xalqının iradəsini, azadlıq eşqini söndürə bilmədi. 20 yanvar nə qədər dəhşətli bir gün olsa da, eyni zamanda şərəfli bir qəhrəmanlıq səhifəsinə çevrildi.

O müdhiş gecəni xatırlamaq, ağrı-acısını təkrar-təkrar yaşamaq, danışmaq, o gecəni görmüş hər bir adam üçün çox ağırdır. O ağrı-acı canımızda əbədi yer tapıb.

Keçdiyimiz küçələrdə birinci gözə dəyən evlərin üstündəki qara parçalardan hazırlanmış bayraqlar idi. Bütün şəhər bir günün içində qara bayraqlara bürünmüşdü. Həlak olanların əksəriyyəti kasıb-kusubların, ziyalıların, xalqın halal oğullarının övladları idi.

O günlər heç kəs heç bir iş görmək istəmirdi, saatlarla oturub gördüklərini, eşitdiklərini götür-qoy etməkdən başqa çarələri yox idi. Qanlı gecənin xofu şəhərin üstündən bir kabus kimi asılmışdı. Üstü pulemyotlu ağır tankları görəndə hamı üzünü çevirirdi. Bizim uşaqlar eyvana çıxıb ekstremistlərə əl ilə hədə-qorxu gəlirdilər. Yaşadığımız 8-ci mikrorayondakı 32 saylı bina keçmiş Lenin prospektinə (sonradan Azadlıq prospekti adlandırıldı) baxırdı. Dinc əhalimizi gülləbaran edən rus işğalçı tankları keçmiş Kirov qəsəbəsindən yol boyu aram-aram irəliləyərək binalardan boylanan cavanlara hədəf nöqtəsini müəyyənləşdirirdilər. Ortancıl oğlum Sadiq az qalmışdı ki, işğalçıların qurbanı olsun.

Mən prospektdən keçən işğalçı tanklara nifrətlə baxıb hətta onların seriya nömrələrini də dəftərçəmə qeyd etmişdim. Siyahımda aşağıdakılar vardır.

**İşğalçı tankların nömrələri:**

| | | | |
|---|---|---|---|
| **23** | **212** | **229** | **258** |
| **42** | **215** | **230** | **324** |
| **46** | **221** | **248** | **702** |
| **136** | **222** | **251** | **738** |
| **138** | **225** | **252** | **770** |
| **151** | **227** | **256** | **772** |

## Yenidənqurmanın matəm günləri

Həyatımda mən müharibənin dəhşətini eşitmişdim, lakin dəhşətini görməmişdim. Nəhayət, bunu da gördüm.

Heç adamın ağlına gəlməzdi ki, sovet hakimiyyəti qurulan gündən 70 il keçdikdən sonra Şərqin qapısı sayılan Bakı şəhərində vətəndaş müharibəsi başlasın.

1990-cı il yanvar ayının 20-si gecə saat $12^{00}$-dən sonra yaşadığımız 8-ci mikrorayonda çox uğursuz həyəcan siqnalı eşitdik. Sonra arabir avtomatlardan və qoşa lülə tüfənglərindən atəş səsləri mikrorayonun səmasına yayılmağa başladı.

Mən adətim üzrə həmişə yataqda çox oyaq yatıram. Bayırda baş verən hər hansı bir hadisənin səsinə tez ayılıram. Həmin gün də gecənin atəş səslərinə tez ayılıb pəncərənin kiçik gözünü açıb həyəcan siqnalının cansıxıcı uğultusunu eşitdim.



Həyəcandan özümü saxlaya bilmədim. Bu anda həyəcan fitinin səsinə kiçik oğlum Xaliq də ayıldı. İndi təsəvvürümə gətirirəm ki, müharibənin dəhşəti günahsız uşaqlarımıza necə tə'sir edə bilər...

Yanvarın 20-də radioda SSRİ Ali Sovetinin Rəyasət Heyətinin «Bakı şəhərində fövqəladə vəziyyət yaradılması haqqında» qəbul etdiyi qərarı oxundu. Əlbəttə,bu qərar «Şərqin qapısı» sayılan Bakıya o qədər də əlverişli deyildi. Belə bir əmrin verilməsi bütün Azərbaycan xalqını sarsıtmaq demək idi. Elə həmin gündən də (yə'ni, yanvarın 20-dən axşam saat $23^{00}$-dan səhər saat 6-ya kimi) qadağan saatı elan edildi. Yanvarın 20-dən 21-nə qədəm qoyulan gecədə yaşadığımız 8-ci mikrorayonun Xutor deyilən sahəsində (K.Marksın abidəsinə yaxın yerdə) ağır tanklardan ara vermədən dinc əhaliyə avtomatlardan atəş açılırdı. Biz gecəni səhərə kimi yata bilmədik. Səhər tezdən Xəzər dənizində gəmilərin aramsız uğultulu matəm fitini verməsi sanki adamı özündən asılı olmayaraq kövrəldir və nə isə baş verdiyini bildirirdi. Rusiyadan gətirilən tanklar Kirov qəsəbəsinə üz tutaraq yaşadığımız binanın Lenin prospektində mə'nasız atəşlər açıb yatanları hərdən hürküdürdü. Heç başa düşmək olmurdu ki, SSRİ Ali Soveti müstəqil Respublikaya bağışlanılmaz bir cinayəti tətbiq etmişdir. Suveren (müstəqil) respublikanın hökümətinin razılığı olmadan özbaşına işğalçı qoşunlarının Bakıya buraxılması respublikanın əhalisinin dəh-şətli qırğınına səbəb olmuşdur. Bu məsələ Azərbaycan SSRİ Ali Soveti Rəyasət Heyətnin sədri Elmira Qafarovanın radio ilə xalqa müraciətində bir daha öz əksini tapmışdır. Belə işğalçılıq qərarının nəticəsində Bakının müxtəlif rayonlarında (məs., Əzizbəyov, 26 Bakı komissarı, Oktyabr, Nəsimi və s.) 1000 nəfərə kimi dinc əhalidən və Xalq cəbhəsinin üzvlərindən fəlakətə düçar olanlar və yüzlərlə ağır yaralanlar vardır. sovet ordusunun və SSRİ Daxili İşlər Nazirliyinin işğalçı qoşunlarının bu terrorçuluq hərəkətlərini nə ilə bağışlamaq olar? Əlbəttə, həlak olanların qanları itməyəcəkdir. Gec-tez axıdılan qanların əvəzi çıxarılacaq...

1990-cı ilin yanvarın 20-23-ü arası respublikamız üzrə «matəm günü» e'lan edilmişdir. Bakının yaşayış binalarının eyvanlarının qarşısına qara bayraqlar asılmışdır. Bu günlərdə hər

bir ailə matəm içində idi. Necə də dəhşətli günlərimiz keçir. Xalqımız sülhün keşiyində durduğu bir zamanda, sovet hökumətinin rəhbəri M.S.Qorbaçov erməni millətçilərinin və daşnakların törətdiyi cinayətlərinin üstünü ört-basdır etmək məqsədilə uşaqlarımızı, cavanlarımızı və qocalarımızı qırmızı qana boyamaqdan necə də həzz almışdır.

Bəli, bu gün matəm günüdür... Yanvar ayının 20-də «Qanlı şənbə günü»ndə rus şovinist əskərləri (əlbəttə onların arasında erməni terrorçuları vardır) tərəfindən gülləbaran edilmiş yüzlərlə uşaqlarımızın, gənclərimizin, və qocalarımızın dəfn mərasimi günüdür. 22 yanvar səhər saat 10.00-da bütün Azərbaycan xalqı Bakının möhtəşəm «Azadlıq» meydanına tərəf axışırdılar. Hamının əlində gül dəstələri vardı. Hər kəs istəyirdi ki, şəhid olanların cənazəsi üstünə gül-çiçək töksün. Meydanda demək olar ki, təqribən bir milyona yaxın insan olardı. Respublika rəhbərliyinin xalqla həmrə'y olmaması və eyni zamanda rəhbərliyin Qarabağda əmin-amanlığı bərqərar edə bilməməsi nəticəsində vəziyyət kəskinləşmişdir. Baş vermiş böhrandan belə nəticə çıxarmaq olar ki, Bakı şəhərində fövqəl'adə vəziyyət ləğv olunmalı, işğalçı qoşunlar şəhərdən çıxmalı, vəziyyətə respublikanın daxili işlər orqanları cəlb edilməlidir. Eyni zamanda, suveren (müstəqil) respublika kimi DQMV-də yurd salmış erməni ekstremistləri Xankəndindən qovulmalı, onlara cinayət işi açılmalı və Muxtar Vilayətdə azərbaycanlıların say tərkibi artırılmalıdır. Bu da vəziyyətdən çıxış yolu ola bilərdi.

20 yanvar «Qanlı şənbə» hadisələrinə, Sov.İKP MK tərəfindən siyasi qiymət verilməli və bu işdə təqsiirkar şəxslər cinayət mə'suliyyətinə cəlb olunmalıdır. Zənnimizcə, terrorçu sovet zabitlərinin bu cəllad xarakterli hərəkətləri «Qanlı yanvar» tarixinin səhifəsindən heç vaxt silinməyəcəkdir!*

**Bakı şəhəri, 23.01.1990-cı il.**

* Qeyd: Məqalə qısaldılmış halda «Azərbaycan müəllimi» qəzetinin 20-26 yanvar, 2000-ci il tarixli nömrəsində dərc olunmuşdur.



## Əsrin faciəsi – Xocalı soyqırımı

*(Universitetdə keçirilən təntənəli yığıncaqdakı çıxışımın mətni)*

Təqvimimizə qara hərflərlə yazılmış 26 fevral – əsrin qan yaddaşı olan Xocalı faciəsindən 13 il keçir. Bu hadisəni xatırlamamaq mümkün deyil. 1988-ci ildən etibarən erməni təcavüzkarlarının Azərbaycana basqını nəticəsində onlarla şəhər, rayon və kəndimiz talandı, zəbt olundu, işğal edilən ərazilərimizdən ən acınacaqlı vəziyyətə düşəni isə Xocalı oldu. Analoqu olmayan bu faciə nəticəsində bəşər tarixində misli görünməmiş dəhşətlər törədildi. Onun ağrı-acıları, bütün Azərbaycan xalqına bəllidir. Bu dəhşətli soyqrım barədə hər bir azərbaycanlı kifayət qədər məlumata malikdir.

1992-ci ilin fevral ayının 25-də, saat 22 radələrində Ermənistan Respublikasının silahlı qüvvələri ilə MDV qoşunlarının Xankəndində yerləşən 336-cı motoatıcı alayının şəxsi heyəti və hərbi texnikasının birgə hücumu başlanmışdır. Döyüş əməliyyatına ümumi rəhbərlik 366-cı alayın komandiri, polkovnik Zarviqarovun razılığı ilə mayor Nabokix və mayor Ohanyan tərəfindən həyata keçirilmişdir. Hücum nəticəsində Xocalı şəhəri yandırılmış, dinc əhalinin bir hissəsi qırılmış, bir hissəsi girov götürülmüşdür. İstintaq nəticəsində müəyyən edilmişdir ki, erməni quldurları xüsusi amansızlıqla, vəhşicəsinə 613 nəfəri öldürmüş, 421 nəfəri yaralamış, 500 nəfəri girov götürmüşlər. Qanlı faciə nəticəsində 120 nəfər Xocalı sakini itkin düşmüşdür.

Bir sözlə, bu gün artıq bəllidir ki, Xocalı faciəsinin baş verməsində kimlər günahkardırlar. Bu bir tarixdir. Lakin tarixi saxtalaşdırmaq olmaz. Böyük şəxsiyyət olan Mustafa Kamal Atatürk deyirdi ki: «Tarixi yazmaq, tarixi yaratmaq əhəmiyyətlidir. Bu gün yalan yazsaq, sabah peşman olarıq».

Elə buna görə də, xalqımızın soyqırımı tarixi həqiqətdir. Xocalı faciəsi yaddaşlarımızın unudulmaz tarixidir. Qan yaddaşımız olan Xocalıya ilk hücum 1991-ci il aprelin 2-də olmuşdur. Həmin ilin iyulun 26-da Xocalı aeroportuna yeni hücum oldu. Bundan sonra, yəni sentyabrın 24-də ermənilər Xocalıya

gedən magistral qaz xəttini sıradan çıxardılar. Xocalının ağır, qara günləri də bu vaxtdan başladı. Şəhər mühasirəyə alınaraq ətraf aləmdən təcrid olundu. Oktyabrın 7-də Bakı ilə olan əlaqələr tamamilə kəsildi. Oktyabrın 28-də isə Xacalının son ümid yolu Əsgəran idi ki, bu yol da bağlandı. Bununla da xocalıların hər yerdən ümid yolu kəsildi və Xocalı mühasirəyə alındı. Nəticədə, ağır gününü yaşayan Xocalı kömək ümidi ilə yaşaya-yaşaya öz faciəsi ilə üzləşdi. 1992-ci ilin fevralın əvvəllərindən başlanan atəşlər Xocalının sükutuna o qədər də ara vermədi. Fevralın 14-də şəhər üzük qaşı kimi mühasirəyə alınaraq, şiddətli atəşə tutuldu. Fevralın 18-də Xocalı müdafiəçiləri tərəfindən uğurlu «Qaz kontoru» əməliyyatı keçirilsə də, yaranmış şəraiti dəyişmək mümkün olmadı.

Xocalı şəhər prokuroru A.Atakişiyev fevralın 25-də Bakıya MK-ya və AzTV-nin «24 saat» proqramına növbəti teleqramını göndərir. Teleqramda deyilir:

«Xocalı rayonu artıq əldən gedir, Xocalı gedərsə, DQMV ermənilərin olacaq. Hazırda Xocalıda 7 min əhali yaşayır, əgər Siz bizə kömək etməsəniz, 4 illik zəhmət hədər gedəcək. Biz Sizdən təxirəsalınmaz kömək gözləyirik. Xocalı Azərbaycanın taleyini həll edir».

Ancaq nə fayda? Qan ağlayan Xocalıya bacarıqsız rəhbərlər heç səs də vermədilər. Fevralın 26-da Xankəndi və Əsgəran istiqamətindən güclü atəşə tutulan Xocalı dörd bir tərəfdən 366-cı alayın hərbi texnikasının iştirakı ilə hücuma məruz qaldı. Aeroportun müdafiəsi zamanı 150 nəfər həlak oldu, evlər yerlə-yeksan edildi. Beləliklə, Dağlıq Qarabağda sonuncu azərbaycanlı yaşayış məskənlərindən biri olan Xocalı yer üzündən silindi.

Xocalı kartından istifadə edərək hakimiyyətə gələn cəbhəçi «bəy»lər cəbhədə dönüş yaratmaq əvəzinə Şuşa və Laçını da döyüşsüz ermənilərə verdilər. Tarixdən bəllidir ki, Azərbaycanın alınmaz qalası olan Şuşanı Ağa Məhəmməd şah Qacar 33 gün mühasirədə saxladı, lakin ala bilmədi. Sonra o, xəyanət nəticəsində Şuşaya daxil oldu. Şuşanı Abbas Mirzənin İran ordusu 48 gün mühasirədə saxladı, lakin təslim edə bilmədi.



Xəyanətin qurbanı olan Şuşa 1992-ci ilin may ayının 8-də 3 gün ərzində ermənilərin əlinə keçdi.

Dənizdən dənizə böyük Ermənistan dövləti yaratmaq xülyası ilə yaşayan ermənilər təkcə Azərbaycan əhalisinə deyil eyni zamanda Türkiyənin 6 vilayətinə, Gürcüstanın azərbaycanlılar və Məhsəti türkləri yaşayan Savaxeti və digər bölgələrinə, habelə Şimali Qafqazda Armavirə və bütöv Krasnodar vilayətinə də göz dikmişlər.

Qüdrətli hökmdar Əmir Teymur demişdir: «Mən ermənilərin tamam kökünü kəsmədim ki, gələcək nəsil mənə lənətlər yağdırmasın, qoy insanlar onların kim olduğunu öz gözləri ilə görsünlər».

**26.02.2005-cü il.**

# KİTABLAR ALƏMİNDƏ



## Görkəmli şəxsiyyətlərin kitablar haqqında kəlamları

F.Volter: «Yaxşı bir kitabı oxuyub qurtaranda, elə bil ki, əziz dostundan ayrılırsan».

Aristotel: «Kitab o zaman yaxşıdır ki, onun müəllifi yazmalı olduğunun hamısını yazsın, necə lazımdırsa, elə yazsın».

R.Dekart: «Yaxşı kitabları oxumaq keçmişin ən yaxşı adamları ilə söhbət etmək deməkdir. Bu həm də elə bir söhbətdir ki, o adamlar bizə yalnız ən gözəl fikirlərini deyirlər».

V.Şekspir: «Kitablar mənim üçün tacdan qiymətlidir».

C.Darvin: «Səyahət etmək həvəsini məndə ilk dəfə kitablar oyatdı. Əxlaqlar üzərində müşahidə aparmağa da mən kitab oxuyandan sonra başladım».

Tsiseron: «Kitabsız ev ürəksiz bədən kimidir».

A.Puşkin: «İnsanın təsir anı birdir, kitabların təsiri isə çoxlu və hərtərəflidir».

L.Tolstoy: «Hər gün ən gözəl ağıllılarla söhbət etməkdən qiymətli nə ola bilər?!».

C.Bayron: «Bir damla mürəkkəb milyonların fikrini oyatmaq üçün kifayətdir».

M.Şoloxov: «Bəşər düşüncəsinin və təcrübəsinin saysız xəzinələri min illər ərzində toplanaraq sözdə əbədi yaşayır».

V.Dal: «Qəpiklər manat əmələ gətirdiyi kimi, oxumaq da bilik əmələ gətirir».



## Bir daha terminlər haqqında

Təkmilləşdirilmiş terminlərin olması dilimizin inkişafında yaradıcı rol oynayır. Bu baxımdan «Kommunist» qəzetinin 15 yanvar 1975-ci il tarixli nömrəsində filologiya elmləri namizədi Məmməd Qasımovun «Terminlər haqqında bir neçə söz» mövzusundakı məqaləsinin xüsusi əhəmiyyəti vardır. Bu məqalə nəinki bizi, eyni zamanda bütün müəllimləri və başqa peşə sahiblərini də sevindirmişdir.

Qeyd etmək olar ki, dilimizdəki terminlərin rolunu müəllif hər tərəfli göstərmişdir. Müasir dövrdə terminlərsiz insanlar öz fikrini ifadə edə bilməz, başqaları isə onu yaxşı başa düşməz. Bu da, nəticədə mühərizələrin, məruzələrin dinləyicilərə yaxşı çatdırılmamasına səbəb olar. Bu səbəbdən də terminlərin təkmilləşdirilməsi ən zəruri məsələdir.

Hazırkı şəraitdə iqtisadiyyatın, mədəniyyətin, texnikanın sürətli inkişafı ilə əlaqədar olaraq düzgün tələffüz edilməyən terminlər təkmilləşdirilməli, əvəz edilməli və dilimizin inkişafı ilə əlaqələndirilməlidir. Bu sahədə olan qüsurlar haqqında müəllif, öz məqaləsində ətraflı danışmışdır. Göstərilən qüsurlarla tamamilə razılaşmaq olar. Ümumiyyətlə, xalq təsərrüfatının ayrı-ayrı sahələrinə aid ədəbiyyatda, məqalələrdə və mühazirələrdə işlədilən terminlərdə bu özünü daha cox biruzə verir.

Xalq təsərrüfatının əsas sahələrindən biri olan ticarət sahəsində Azərbaycan və rus dillərində hər il külli miqdarda ədəbiyyat nəşr edilir, ali və orta ixtisas məktəblərində, texnikumlarda mühazirələr oxunur, müxtəlif konfrans və müşavirələrdə müəllimlər, ticarət təşkilatlarının rəhbərləri cıxış və məruzə edirlər. Bu yığıncaqlarda bəzən terminlər düzgün ifadə olunmur, məfhum haqqında müxtəlif sözlər işlədilir və ayrı-ayrı fikirlər eyni terminlərlə ifadə edilir. Nəticədə isə fikir təhrif olunur. Eyni zamanda, ticarət sahəsinə aid olan dərsliklərdə, monoqrafiyalarda, qəzetlərdə olan məqalələrdə, hətta cap edilmiş lüğətlərdə də bəzi terminlər düzgün işlədilmir. Bunları daha da aydınlaşdırmaq ücün

bir necə misal göstərmək kifayətdir. Məsələn, «postavka tovar» azərbaycanca «mal tədarükü» yazılır. Halbuki bu, «mal vermək» şəklində yazılmalıdır. «Tədarük» sözü rusca «zaqotovka» deməkdir. «Tədarükcü» sözü isə «mal vermək» sözü ilə əvəz edilməlidir. Başqa bir misal. Rus dilində «spros» sözü azərbaycanca «tələbat» termini ilə yazılır. Lakin həmin söz «tələb» şəklində tələffüz edilməlidir, çünki «tələbat» sözü rusca «potrebnost» deməkdir. Misallardan görünür ki, bu məfhumlar ayrı-ayrı mənanı verir.

Tələbat canlı orqanizmin həyat fəaliyyəti prosesindən hər hansı bir şeyə olan ehtiyacdır. İnsan tələbatı bir-birindən fərqli və eyni zamanda bir-birini şərtləndirən iki müxtəlif növə maddi və mənəvi tələbata ayrılır. Əmtəə istehsalının mürəkkəb iqtisadi kateqoriyalarından biri də əhalinin istehlak /və yaxud alıcılıq/ tələbidir. İstehlak tələbi adamların tələbatını və onların pul gəlirinin vəhdətini, daxili ziddiyyətlərini və qarşılıqlı əlaqələrini əks etdirir.

Sosialist əmtəə istehsalı şəraitində də əhalinin tələbatı ödəmə qabiliyyətli tələb formasında təzahür edir. Buna görə də ödəmə qabiliyyətli «tələb» ilə «tələbat» sözlərini eyniləşdirmək olmaz. Onlar başqa-başqa anlayışlardır.

Rus dilində «xolodilnik» sözü «buzxana» sözünü əvəz edir. Lakin bu söz «soyuducu» deyilməlidir. «Ticarət şəbəkəsi» «ticarət şəbəkələri» termini ilə ifadə edilir. «Pərakəndə ticarət şəbəkəsi» «pərakəndə satış ticarət şəbəkəsi», «pərakəndə ticarət təşkilatı» «pərakəndə satış ticarət təşkilatı», «ticarət təşkilatı» «ticarət idarəsi», «topdan ticarət təşkilatı» «topdan satış ticarət təşkilatı» terminləri ilə düzgün olmayaraq əvəz edilir.

Qeyd etmək olar ki, mətbuatda, məsələn, «Kommunist», «Bakı» və başqa qəzetlərdə öz mənasını ifadə etməyən terminlərə də rast gəlmək olur. Misal üçün «stellaj» sözü Azərbaycan dilində «stellaj» terminində işlədilir. Halbuki, bu söz «tərəcə» məhfumunda işlədilməlidir. «Optovaya torqovaya baza» məfhumu bəzi ədəbiyyatlarda «topdan satış ticarət bazası» terminində rast gəlinir. Bu termin «topdan ticarət bazası» yazılmalıdır. Çünki, pərakəndə və topdan ticarətdə «alış» və «satış» prosesinin hər



ikisi aparılır. Ona görə də «pərakəndə ticarət» və «topdan ticarət» məfhumunun qəbul olunması bizcə məqsədəuyğundur.

Rus dilində «fond otdaçi» sözü isə «fonddan alınan» «fonddan verilən» «fonddan tutulan» və s. müxtəlif terminlərində işlədilir. Son zamanlarda həmin söz «fond verimi» termini kimi tələffüz edilir. Bu da zənnimizcə, daha təkmilləşdirilmiş termin sayılmalıdır.

Məlumat guşəsində Oktyabr rayon Ticarət İdarəsi, 26 Bakı Komissarı adına Yeyinti Ticarət İdarəsi və sairə yazılır. Lakin bunlar «idarə» yox «təşkilat» yazılmalıdır. Yəni, Oktyabr rayon Pərakəndə Ticarət Təşkilatı və 26 Bakı Komissarları adına Pərakəndə Ticarət Təşkilatı yazılmalıdır.

Elm və texnikanın sürətlə inkişafı ilə əlaqədar olaraq, texniki tərəqqi öz vüsətini tapmışdır. Bu da yeni terminlərin yaradılmasının zəruriyyətini irəli sürür.

Zənnimizcə, 1967-ci ildə Azərbaycan SSR EA-nın nəşriyyatı tərəfindən buraxılmış «İqtisadiyyat terminləri lüğəti» yenidən işlənib təkmilləşdirilməli və yuxarıda göstərdiyimiz terminlər də nəzərə alınmalıdır. Bu baxımdan 1973-cü ildə ali məktəblərin iqtisad fakültələri üçün ruscadan Azərbaycan dilinə tərcümə olunmuş «Ticarətin təşkili və texnikası» dərsliyinin böyük əhəmiyyəti vardır. Oxuculara təqdim edilən dərslikdə bəzi ticarət terminləri ilk dəfə ədəbi dilimizdə sistemə salınıb formalaşdırılmışdır.

***6.01.1975-ci il.***

## İblisin qurbanları

Hazırda yenidənqurma şəraitində keçmişin qalıqlarının ortaya çıxardılıb ifşa edilməsi ədəbi tənqidin qarşısında duran mühüm vəzifədir. Yenidənqurma, ədəbi mühitimizdə hələ əsasən nəzəri, ideoloji və təşkilati səviyyədə gerçəkləşibdir.

Yenidənqurmanın gedişində biz inkişafımızda baş vermiş ziddiyyətləri aradan qaldırmaq üçün var qüvvəmizi sərf etməliyik. Cəmiyyətimizin həyatının bütün sahələrində inqilabi surətdə yenidənqurma xəttinin həyata keçirildiyi aşkarlıq dövründə müxtəlif ziddiyyətli obrazlarla qarşılaşıb ruhdan düşməməliyik. Belə ki, dinc quruculuq şəraitimizdə DQMV-də baş verən hadisələrdən nəticə çıxarmaq olar ki, ölkəmizdə keçmişin qalıqlarına biganə qalanlar hələ də vardır. Heç nədən qan tökmək istəyən fitnəkar ünsürlər dinc quruculuğumuza maneçilik törədərək qardaş Zaqafqaziya xalqlarının beynəlmiləl dostluğuna xələl gətirmək istəyirlər.

Bizə belə gəlir ki, çörəyi, diləyi vahid ailədə birləşən Zaqafqaziya xalqları arasında ixtişaş salan daşnakçı unsürlər gec-tez beynəlmiləlçi millətimiz qarşısında cavab verməli olacaqlar. Buna görə də belə azğınlaşmış «tiplər» ədəbi tənqiddə öz yerini tutmalıdır. Bütün bu faktlar onu tələb edir ki, müasir dövrdə respublikamızda çalışan nəşriyyat işçilərinin, jurnalistlərin qarşısında mühüm vəzifə qoyulmuşdur. Bu da «müasir antipodları» qələmə alıb onların iç üzünü açıb göstərməkdir. Bu baxımdan SSRİ Yazıçılar və Jurnalistlər İttifaqlarının üzvü, yazıçı İsa Hümmətovun «Şeytanın qurbanları» romanı yerində səslənir.

Özünün məzmunlu povestləri və hekayələri ilə geniş oxucu kütləsinə tanış olan müəllifin qələmə aldığı bu romanın mövzusu ədəbiyyatımızda çox az toxunulan bir mövzudan – nəşriyyat, poliqrafiya sahəsində çalışan jurnalistlərin və texniki işçilərin həyatından bəhs olunur. Müəllif, əsərin məğzini həyat təcrübəsindən götürmüş və özünün tam məqsədinə nail olmuşdur.

Azərbaycanda nəşriyyat işinin yeni mərhələyə qalxması, nəşriyyatlarımızda düzgün planlaşdırmanın aparılması, kadrların



seçilib tərbiyə edilməsi böyük əhəmiyyət kəsb edir. Belə ki, görüləcək işləri istiqamətləndirmək, yaradıcı kollektivlərin, poliqrafiya işçilərinin, kitabların təbliği və satışı ilə məşğul olanların hamısının səylərinin birləşdirilməsi sahəsində bir sıra çatışmamazlıqlar vardır.

Nəşriyyat redaksiyalarında vaxtını hədər keçirib, dedi-qodu ilə, anonim məktublar yazmaqla məşğul olan antipodlar hazırda da öz əksini tapır. Buna görə də öz işinə məsuliyyətli yanaşmayan təsadüfi korrektor və redaktor işçiləri kitabların tərtibində və buraxılmasında ciddi qüsurlara yol verirlər. Keyfiyyətsiz buraxılan kitablar isə oxucuların hədsiz narazılığına səbəb olur.

Bu baxımdan, yazıçı İ.Hümmətovun «Şeytanın qurbanları» romanı çox səciyyəvidir. Qeyd etmək istərdik ki, romanın adını biz «İblisin qurbanları» təsadüfən adlandırmamışıq. Romana belə adın verilməsi əlbəttə, əsərin əhəmiyyətini və romanda əks olunan mənfi ünsürlərə qarşı oxucuların nifrətini daha da artırır.

Doğrudan da, romanı hər kəs oxuduqda keçmişin bir sıra tör-töküntülərinə qarşı şəxsən adamda, nifrət hissi oyadır. Paxıllıq, riyakarlıq, ürəyi kinlilik, acgözlük əsərdə ətraflı verilmiş və belə xəstəliyə tutulanlar kəskin surətdə ifşa olunur.

Digər tərəfdən də əsərdə aşkarlıq tam nəzərə alınmaqla indiyə kimi həll olunası məsələlərə toxunulmayan və üstündən yan keçən nəşriyyat işçiləri romanda iştirak edən obrazlar surətində tənqid edilib aşkara çıxarılır.

Əsərdə bir sıra müxtəlif obrazlar vardır ki, bunlar da yaxşının-pisə, düzgünün-fırıldaqçıya, xeyirin-şərə qarşı qoyulması ilə nəticələnir.

Romanda əsas qəhrəman İlham obrazı daha qabarıq şəkildə verilmişdir. İlham universitetin jurnalistika fakültəsini bitirdikdən sonra nəşriyyat sahəsində işləməyə başlamış və korrektorluqdan redaktorluğadək yüksəlmişdir.

Müəllif romanda saf məhəbbətdən və saf ailə həyatından söz açır. Onun ilk sevgisi Yeganə adlı qızla başlayır. Doğrudur, hər iki gənc müxtəlif ixtisaslara malik olsalar da, onlarda əqidə birliyi möhkəm hünər göstərir. Yeganə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu bitirib, İlham isə jurnalistdir. İlham Gülşən

adlı qızla ailə qurur, lakin ilk «sevirəm» sözünü bir-birinə demiş Yeganəni o, heç vaxt unuda bilmir, ona həyatda daim xoşbəxtlik arzulayır.

Müəllif əsərdə bir sıra zərb-məsəllərə, atalar sözlərinə və aforizmlərə istinad edib istədiyi tiplərin iç üzünü açıb göstərir. Məsələn, Tüğyan Mayıl ilə Adışirinin saxta dostluğunu atalar sözləri ilə büruzə verir. O, burada Tüğyanın müasir nəşriyyat tiplərindən olmasını bir daha sübuta yetirir.

Hazırda respublikamızın nəşriyyat sistemindəki çatışmazlıqlar kadrların düzgün seçilməməsindən irəli gəlir. Buna görə də buraxılan kitabların xeyli keyfiyyət qüsurları nəzərə çarpır. Digər tərəfdən müasir şəraitimizdə tələb olunan bəzi keyfiyyətli əsərlərin müəlliflərinin əlyazmaları səbəbsiz olaraq illərlə nəşriyyat redaksiyalarında yatıb qalır. Bu baxımdan müəllif hər addımda nəşriyyat sistemində xalqın mənəvi sərvətinin taleyini tapdayanları kəskin tənqid edir. Redaksiyalarda öz iş vaxtını hədər keçirən və işə can yandıranlara maneçilik törədən, dedi-qodu ilə daima məşğul olub gününü keçirən Bibixanımlara, Tüğyanlara və başqalarına qarşı barışmazlıq edir. Tüğyan Mayıl obrazında yazıçı işə mane olan, böhtançılıqla və əliəyriliklə məşğul olan şəxslərin iç üzünü açıb göstərir. Bu baxımdan da romanda kadrların seçilməsi, yerləşdirilməsi və tərbiyə olunması çox kəskin qoyulur.

Əsərdə təkcə nəşriyyat işçiləri deyil, sanki özünün işlədiyi ali məktəbdə, idarədə, müəssisədə, fabrikdə və zavodda gənc kadrlara olan qayğıdan bir daha bəhs olunur. Ölkəmizdə kadr siyasətinin yenidən qurulması məsələsi geniş sosial-iqtisadi səpkidə, keçmişin ibrət dərsləri nəzərə alınmaqla araşdırılır. Buna görə də yazıçı İsa Hummətovun «İblisin qurbanları» romanı günün tələbindən irəli gələn məsələlərlə ayaqlaşır. Respublikamızın nəşriyyat redaksiyalarında keçmişdən kök salmış Tüğyan Mayıl kimi əyintilərə qarşı kəskin mübarizə aparılır və illərdən bəri yığılıb-qalmış çirkin əməllərin üstü açılıb ifşa edilir.

***Bakı şəhəri, 16.03.88-ci il.***



## İdeologiyamız və tarixi taleyimiz

Professor Nizaməddin Şəmsizadənin 1996-cı ildə «Sabah» nəşriyyatı tərəfindən çapdan çıxmış **«Azərbaycan ideologiyası»** kitabının müqəddiməsində belə bir fikir diqqəti cəlb edir: *«Tarixi şəxsiyyətlər olmasaydı, böyük hadisələr də baş verməzdi və onda tarixin gedişatını da təyin etmək olmazdı. Beləliklə, tarix həmişə şəxsiyyətlərə möhtacdır»*. Bəli, mən də onun bu fikrinə tamamilə şərikəm. Deyərdim ki, belə şəxsiyyətlərdən biri də məhz professor N.Şəmsizadədir. Onunla kim yaxınlıq etsə narahat ürəyində xalq düşüncəsi, xalq taleyini tarixən doğru məcraya salmaq təşnəsi ilə rastlaşar. O, kitab da doğru olaraq Azərbaycan ideologiyasının təşəkkülünü coğrafi deyil, siyasi, məfkurəvi Azərbaycan anlamı ilə izah edir. Bu tarixən perspektiv bir başlancığdır.

N.Şəmsizadə, Azərbaycan ideologiyasının təşəkkülünü izlərkən Azərbaycan tarixçilik elminin ən müasir nailiyyətlərinə bədii-elmi düşüncəmizin, fikir tariximizin ölməz saxlancı olan mifik təfəkkürümüzə müraciət edir. Qədim inancları, məfkurə cərəyanlarını və tarixi hərəkatları ümumiləşdirən müəllif islama qədərki və müsəlman dövrü kimi iki böyük tarixi mərhələni səciyyələndirir. Doğru olaraq göstərir ki, islamdan sonrakı bütün türk yürüşləri İslam bayrağı altında keçib. O, qədrşünaslıq edib diqqətlə Azərbaycan, rus və dünya alimlərinin əsərlərinə müraciət etmiş, Azərbaycan ideologiyasının mənşəyində, xalq vəhtətində ailə kultunun başlanğıc olduğunu göstərmişdir.

N.Şəmsizadə, Azərbaycan idelogiyasını həm də Azərbaycan ərazisində xalqın təşəkkülündə iştirak etmiş tayfaların tarixi həyatının ictimai təkamülü haqqında təbii inamlara söykənən fikir forması kimi meydana çıxmasında görür. Eyni zamanda, Azərbaycan ideologiyasını Şərqin ən qədim və mükəmməl fəlsəfi – dini təlimi olan zərdüştizmin, habelə digər təriqətlərin konseptual qaynağında görür.

Əsərin **«Azərbaycan dövlətçiliyi»** adlanan ikinci fəsli bu vaxtadək yazılmamış orijinal tədqiqatdır. Müəllifin fikrincə

Azərbaycan ideologiyası azərbaycanşünaslığın, Azərbaycan dövlətçiliyi isə ideologiyanın tərkib hissəsidir. Hər bir xalqda dövlətçiliyin özünəməxsus tarixi və ictimai xüsusiyyətləri vardır. Buna görə də müəllif bu günə kimi Azərbaycan dövlətçilik tarixinin yazılmamasına təəssüf edir. Halbuki xalqın, ölkənin dövlətçilik tarixini təsəvvür etmədən onun ideologiyasını yaratmaq, istiqlalına nail olmaq mümkün deyil.

Türk xalqları içərisində dövlətçilik ənənələri ən qədim olan Azərbaycan xalqıdır. Çünki türk xalqları tarixində ən qədim dövlət Azərbaycanda yaranıb. Buna parlaq misal Azərbaycanda ilk mərkəzləşmiş dövlət olan Manna idi. Bu ilk dövlət quruluşu, həm də ilk şəhər dövləti idi.

Hazırda Azərbaycan xalqı milli dövlətçiliyin bərpası dövrünü yaşayır. Bu baxımdan da dövlətçilik ənənələrini və perspektivlərini müəllif aşkar edir. O göstərir ki, Azərbaycan xalqının ən böyük düşməni «haralısan?» sualını verəndir. Bu da xalqımızın milli birliyini korlayıb bizi batağlığa doğru sürükləyən tayfa psixologiyasından gəlir. Biz gərək erməni faşizminin fitnə-fəsadını heç vaxt unutmayaq, bu məqsədlə milli birliyimizi möhkəmləndirək.

Əsərdə müəllif üç təməl nəzəriyyəsi irəli sürür. Azərbaycan ideologiyasının təməlində türkçülük, islamçılıq və azərbaycançılığın dayandığını qeyd edir. O, göstərir ki, bu üç təməl tarixən eyni vəhdətdə olub, xalq bu vəhdəti həyat tərzində, düşüncəsində, arzusunda, nəğməsində, bayatısında – bir sözlə ictimai bədii təfəkküründə qoruyub saxlayıb, qırılmağa, ayrılmağa qoymayıb. Müəllif haqlı olaraq yazır: **«Türkçülük Azərbaycan xalqının milli idealı-məfkurəsidir»**. Bu gen və qan məhəbbəti ilahi bir hissdir: *«Nuru tanrıdan, imanı Qurandan, qüdrəti torpaqdan gəlir. Bir sözlə, türkçülükdə islamın vəhdəti Ulu Peyğənbər Məhəmməd Əleyhüssəlamdan başlanır»*.

Bizcə diqqəti cəlb edən digər qənaət budur ki, ərazi bütövlüyü və xalqın bütövlüyünü təmin etmək Azərbaycan ideologiyasının milli, idealı, məfkurəsidir. Müəllifin fikrincə, azərbaycançılıq milli istiqlal hərəkatının nəticəsidir. Bu da yalnız Azərbaycana məhəbbət deyil, onun dünyadakı milli, tarixi-siyasi, iqtisadi, əxlaqi, dini mövqe və mahiyyətini əks etdirən ictimai şüur formasıdır, o bütövlükdə cəmiyyətin maddi və mənəvi həyat tərzini ifadə edir.



N. Şəmsizadə, haqlı olaraq belə nəticəyə gəlir ki, məfkurəçilik azərbaycançılıq ideologiyasının sosioloji aspektini təyin edir. Bu da bizim əsas milli-siyasi xəttimizdir. Möhkəm məfkurə olmadan kütləni orta məxrəcə gətirmək mümkün deyil.

Kitabın dördüncü fəsli **«Milli ideologiya və mədəniyyət»** adlanır. Müəllif burada mədəniyyətin bədii-sosioloji mahiyyətini açır, milli mədəniyyətimizin aktual problemlərini yeni bir yöndən vərəqləyir. Mədəniyyətdə millilik və bəşəriliyin dialektikasından ətraflı bəhs edir. O, burada Homerdən, Firdovsidən, Nizamidən, Şekspirdən, Bethovendən, Baxdan, Üzeyir Hacıbəyovdan və başqalarından misallar gətirir, milli mədəniyyətdə Şərq-Qərb dəyərlərinin milli-tarixi mühitini formalaşdırmaq üçün əhəmiyyətini təyin edir. Xalq ədəbiyyatı və folklor üstündə köklənmiş, mif qaynağından su içmiş milli mədəniyyət milli ideologiyanın ideya mənbələrindən biridir. Çünki, xalq psixologiyası ən geniş sürətdə bədii mədəniyyətdə təcəssüm tapır.

N.Şəmsizadə, bu qiymətli kitabında bir vətəndaş və ziyalı kimi gələcək nəsillərin taleyini düşünərək Azərbaycana məhəbbət hissini milli əxlaqın əsası kimi izah edir.

Təsadüfi deyil ki, kitab **«Bizdən sonra gələnlər»** adlanır, cəmiyyəti təhlil edən mənalı bir bitməzlik ideyası ilə tamamlanır.

Bununla da, kitabının Vətənnaməyə çevrilməsini arzulayan müəllif onu gələcəyə ünvanlayır, təkcə keçmişlə yox, daha çox gələcəklə yaşamağı niyyət kimi irəli sürür. Bu müqəddəs niyyətdir.

«Azərbaycan ideologiyası» kitabında milli ideologiya konsepsiyamızı formalaşdıran tarixi-fəlsəfi, siyasi və mədəni-mənəvi əsaslarla bərabər iqtisadi zəmində ümumiləşdirilir. Kitabın sonunda türk, rus və ingilis dillərində verilən dolğun «Xülasə»də professor N.Şəmsizadə, sanki kitabda əhatə etməyə imkan tapmadığı konsentual tezisləri müxtəsər ümumiləşdirir. Bir iqtisadçı kimi deyə bilərəm ki, Azərbaycan ideologiyasının tərkib hissələri, prinsipləri ilə bərabər onun iqtisadi əsasları barəsində

müəllifin fikirləri milli tarixi-taleyimiz və dövlətçiliyimizin təşəkkülü baxımından ciddi perspektivə malikdir. Azərbaycanı xammal ixrac edən ölkədən, hazır məhsul istehsal edən ölkəyə çevirmək, regional iqtisadi zonalar yaratmaq, absurd təsərrüfat sistemindən xilas üçün icra hakimiyyəti strukturlarını ləğv etmək, milli sərvət üzərində sərt dövlət nəzarəti qoymaq, torpaq kadastrı yaratmaq, torpağı toxunulmaz mülkiyyətin əsas növü elan etmək, müəssisələri modelləşdirmək, iri korporasiyalar yaratmaq, dövlət mülkiyyətini onun real dəyərindən aşağı satılmasını qadağan edən qanun qəbul etmək «Azərbaycan ideologiyası» kitabında əsas iqtisadi istiqamətlər kimi müəyyənləşdirilir. Müəllif doğru deyir: *«iqtisadi islahatlar ayrı-ayrı klanların deyil, ümumilli marağın qorunmasına yönəldilməlidir*»* /s.97/

*9.02.1997-ci il.*

* Qeyd: Məqalə «Tarix həmişə şəxsiyyətlərə möhtacdır» başlığında «Naxçıvan» qəzetinin 19 fevral, 1997-ci il tarixli nömrəsində dərc olunmuşdur.



## «İgidin ürəyi haçalı olar» romanı haqqında mülahizələrim

Professor İsmayıl Feyzullabəyli görkəmli iqtisadçı alim, mahir pedaqoq olaraq və bədii-publisistik yazıları ilə kütlə qarşısında rəğbət qazanan bir şəxsdir. Onun indiyə kimi 26 adda və 200-ə qədər elmi və publisistik yazıları dərc edilmişdir. 1995-ci ildən başlayaraq «Tahirə» adlı ilk oçerki çap olunmuş və qırx ildən sonra isə «Məlahət» adlı kitabçası işıq üzü görmüşdür.

Hacı İsmayıl Feyzullabəyli hələ 30-cu illərdən başlayaraq daim həyatda baş verən hadisələri izləmiş, özünün söylədiyi kimi, bütün təfsilatı ilə onları qələmə almağa cəhd göstərmiş, lakin bir sıra maneələr ona maneçilik yaratmışdır.

İsmayıl müəllimin 3 hissədən ibarət olan 1-ci kitabı **«Fani dünyanın laməzhəbləri»** adında Azərbaycan «Bilik» - Maarifçilik cəmiyyəti tərəfindən 1997-ci ildə nəşr olunmuşdur. Kitabın bu adı daşıması təsadüfi deyildir. Burada müəllif gəncliyin keçdiyi ağır mübarizə yollarını, yüksək keyfiyyətlərini, onların əsl fədakarlıq və daxili aləminin rəşadətini ümumiləşdirmişdir. Bu kitab İsmayıl müəllimin canlı müşahidələrinin nəticəsidir. 1-ci kitabda 20-ci illərin zadəgan ailəsində dünyaya gəlmiş bir gəncin təqiblərindən, hədə-qorxularından, sərt maneələrindən, çəkinmədən əzablı yollarda püxtələşməsi, mətinləşməsi, təsvir edilir, onun ətrafında erməni-türk münasibətləri, araya fitnə-fəsad salan erməni-rus liderlərinin türk millətinə qarşı haqsızlıqları cərəyan edir. Kitabda məhəbbət macəraları da verilmişdir. Bu da kitabın keyfiyyətini bir daha artırır. Maraqlı epizodlardan biri də kitabda dünyanın görkəmli dühaları olan Şillerin, M.Ş.Vazehin, Şekspirin, H.Cavidin, Nizami Gəncəvinin, Əbdi bəy Şirazinin, Veronun, N.Tusinin kəlamlarından epiqraflarının verilməsidir. Məsələn, Mirzə Şəfi Vazehin aşağıdakı kəlamı məni həyatdan səmərəli istifadə etməyə daha da ruhlandırdı.

-«Həyat əta deyil, bilməlisən ki, hər addım atdıqca məzara yaxınlaşırsan, həyatda naümid və bədbin olma, ondan səmərəli istifadə et».

İsmayıl müəllimin 1-ci kitabı haqqında sözümü yekunlaşdırıb öz fikirimi bildirmək istərdim.

- «İgidin ürəyi haçalı olar» romanının adı «Fani dünyanın laməzhəbləri» adında olsa idi, daha məqsədəuyğun sayılardı.

İkinci kitab «Yol ayrıcında» adlanır. Bu kitab «İgidin ürəyi haçalı olar» romanın 2-ci hissəsidir. Romanın bu hissəsi də fakti-ki, həyati və tarixi materiallarla əsaslandırılmışdır. İsmayıl müəllim klassik Azərbaycan nəsrinin ənənələrinə söykənərək tarixi faktları bədii formada qələmə almışdır.

Kitabda ülvi və romantik məhəbbət macəraları çox dolğun təsvir olunur və oxucunun gözləri önündə canlanır. Belə ki, igid türk oğlu ilə erməni qızının nakam talelərindən də söhbət açılır.

İsmayıl müəllimin bu tarixi romanı da canlı müşahidənin, qüvvətli təəssüratın bilavasitə bədii ifadəsidir. Müəllif qələmə aldığı materialı diqqətlə öyrənmiş, lakin fakt və sənədlərin əsiri olmamış, ayrı-ayrı faktların deyil, zamanın böyük həqiqətinin bədii ifadəsinə cəhd göstərmişdir. Əsərin əsas xüsusiyyətlərindən birini dövrün yetişdirdiyi mübariz, dönməz insanların təsviri təşkil edir. Bu insan əsərin baş qəhrəmanı İsmətdir. O, öz dövrünün tarixi ictimai şəraitinin yetişdirdiyi mübariz böhranlı, enişli-yoxuşlu inkişaf yolunu keçmişdir. İsmət haqsızlığa tab gətirməyən laməzhəbləri, erməni daşnaqlarının alçaq sifətlərini heç bir təqiblərdən, zorakılıqlardan qorxmadan açıb göstərən mübariz bir insan obrazıdır.

İsmayıl müəllimin təsvir etdiyi obrazlar biri digərinə bənzəmir. Onların daxili aləmini açıb göstərir və o, öz bədii qələminə söykənərək onları bir-birindən fərqləndirir, Xarakterlərini, acı münasibətlərini, hərəkətlərini real tarixi faktlarla etik formada açıqlayır. Qəhrəmanının həyat tərzi o qədər keşmə-keşlidir ki, onu dövrün çətin imtahanları ilə üzləşdirir. Xalqının gələcəyi yolunda hər cür əzaba qatlaşmağa məcbur edir və bundan mənəvi güc alır, bütün mərhumiyyətlərə dözür.



Bir sözlə, professor İsmayıl Feyzullabəylinin romanı ideya məzmunu, ictimai pafosu və həm də üslüb, quruluş və forma zənginliyi ilə heç kimi təkrar etmir və heç kəsə bənzəmir.

***Bakı şəhəri, 9.11.2001-ci il.***

## «Bulağ»ın 19 illik ömür yolu

1964-cü ildən başlayaraq Azərbaycanın görkəmli pedaqoqu, ədəbiyyatşünası və Qarabağın tarixini yazanların axırıncı müəllifi atam Mirzə Xorov Axundzadənin həyat və fəaliyyətini tədqiq etməyə başladım. İlk elmi məqaləm 1964-cü ildə «Ədəbiyyat və incəsənət» qəzetində «Xosrov Şaiq» başlığı ilə dərc olunmuşdur. Məqaləmin dərc olunmasında yazıçı Əlfi Qasımovun və redaksiyanın şöbə müdiri Əkbər Ağayevin köməkliyi çox olmuşdur.

Məqaləmin çıxması mənim yaradıcılığıma nə qədər müsbət təsir bağışladı. Demək olar ki, bundan sonra Mirzə Xosrov Axundzadənin həyat və yaradıcılığını tədqiq etməyə və onun şerlərinin əlyazmasını araşdırmağa başladım. İlk əvvəl Xosrov Şaiqin (ədəbiyyat aləmində Mirzə Xosrov, «Şaiq» təxəllüsünü daşıyırdı) 300-ə qədər bayatısını ərəb əlifbasından kiril əlifbasına keçirməli oldum.

Mən atam Mirzə Xosrovun pedaqoji və ədəbi irsini araşdırmaqla yanaşı arabir radionun müvafiq redaksiyalarına onunla bağlı məqalələr təqdim edib radio verlişlərində çıxış edərdim. Belə verlişlərdən biri də «Bulaq» radio proqramıdır.

1970-ci ildən başlayaraq efir həyatında «Bulağ»ın çox böyük rolu olmuşdur. 1973-cü ildən «Bulağ»a mətnlər yazmağa başlayan peşəkar jurnalist İntiqam Mehdizadə 1974-cü ildən onun bilavasitə redaktoru təyin olundu. «Bulaq dədə» obrazının yaradılmasında İ.Mehdizadənin rolu danılmazdır. Belə ki, dinləyici təsəvvüründə bir ağsaqqallıq, nurani qoca fitvasında yer tutması, elimizin saz-söz sənətinə yaxından bələd olan, verilişlərin yazılıb ortaya çıxmasında bilavasitə qeyrət göstərən müəllifin böyük xidməti olub.

«Bulaq» verilişlərində müxtəlif məzmun obyekti seçilərək regionçuluqdan kənar yazılar özünü bilavasitə büruzə verirdi. Eyni zamanda Azərbaycan folklorundan nümunələr dinləyicilərə aşılanırdı.



«Bulaq» proqramının tərtibində axtarışlar aparmaq, ilkinliyinə xələl gətirmədən həm də yeni məzmun, forma, kompozisiya, rəngarəngliyinə nail olmaq, verilişin regional əhatə dairəsini daha da genişləndirmək nəzərdə tutulurdu.

Nəhayət, çoxdan gözlədiyimiz bir məsələni İntiqam Mehdizadə həll edə bildi. «Marallı qoca dağlar» kitabı onun uzun illik əməyinin bəhrəsidir. Bu kitabda İntiqam bir nasir kimi çıxış edir. Oxucu isə bu kitabı bir naşirçinin məhsulu kimi qəbul edir.

Kitabın əsasını müəllifin folklor materialları və xüsusi sənətkarlıqla işlədiyi ayrı-ayrı bitkin kompozisiyalar təşkil edir. Burada onun zaman-zaman el içindən topladığı qatı açılmamış onlarla orijinal folklor inciləri, məmləkətimizin hər bölgəsindən bu çağacan məlum olmayan, ancaq adları folklor tariximizə düşməyə haqqı olan saysız-hesabsız el sənətkarlarının adları cəmləşib.

Beləliklə qeyd etmək olar ki, İntiqam Mehdizadə jurnalist ömrünün on doqquz ilini «Bulaq» radio verlişinə həsr etmişdir. Onun redaktor olduğu «Bulaq»ın suyu həmişə şəffaf olmuş və radio dinləyicilərinə şəfa verərək sağlam, gümrah olmağı diləmişdir.

Sizə «Bulağ»ın suyundan içib sağlam həyat diləyirik istəklilərim!

*5.07.2004-cü il.*

# ƏMƏK CƏBHƏSİNDƏ



## Bir briqadanın iş təcrübəsindən

Təbiətin bütün gözəlliklərini özündə əks etdirən Qarabağ və bu gözəl diyarın ən səfalı guşəsi olan Şuşa insanı məftun edir, xəyalını çox uzaqlara aparır. Çünki bu yerlərin hər daşı, hər qarış torpağı xalqımızın həyatında baş vermiş bir çox tarixi hadisələrin şahididir. Buna görə də Qarabağın əmək adamları da tarixi şəhərin tarixi övladlarıdır. Onlar hey qurub yaradır, ancaq yorulmurlar. Axı nə üçün də yorulsunlar? Məgər bu gözəl bir diyarda heç yorulmaq olardımı?

-Yox, - deyə bunu sarışın saçlı bir qızın baxışlı arzularından hiss edirdim. Həmin qız briqada başçısı Nuridə Rüstəmovadır. Bu qızı Şuşa məişət xidməti kombinatında tanımayan az tapılar. O, 9 ildir ki, dəzgah arxasında çalışırdı. Doğrudan da çəkilən əməyin bəhrəsi itmir. Onu həm də «kommunist əməyi briqadası»nin sədri kimi də tanıyırdılar. Bu briqadanın işgüzar kollektivinin əksəriyyəti orta məktəbi bitirən gənclərdir.

Məişət xidməti kombinatının ilk partiya təşkilatı katibi İdris Abbasov briqadanın başçısını göstərib deyir:

-Siz Nuridə Rüstəmovadan yazın, maşallah olsun, od parçasıdır, özü də zərbəçidir.

Nuridə kombinata hələ orta məktəbdə oxuyarkən gəlmişdir. İlk dövrlər ona istehsalat çətin görünürdü. Ancaq işə həvəs onu qabaqcıllar sırasına çıxartdı. Artıq o, kombinatın ən bacarıqlı toxucu qızlarından biridir. Onun əlindən çıxan məhsulun keyfiyyətinə söz ola bilməzdi. Hazırda Nuridənin başçılıq etdiyi briqadanın 33 nəfər üzvü vardır. Briqada öhdəsinə götürdükləri 1964-cü il istehsalat planını dekabr ayının 5-də artıqlaması ilə /yəni, 110%/ yerinə yetirmişdir.

Biz sexi gəzdikcə Nuridə kimi bacarıqlı, öz işini bilən qızlarla görüşürük. Bu qızlar elə bil böyük diqqət və nəzəri bilik tələb edən toxuculuq işini çoxdan bilirmişlər. Amma belə deyildir. Hər birinin cəmi 3-4 il iş stajı vardır. Belə ki, briqadanın üzvlərindən Firuzə Adıgözəlova, Səkinə Abbasova, Rəna Məhərrəmova və başqaları öz əməksevərlikləri ilə fərqlənirdilər.

Məişət xidməti kombiatında əmək məhsuldarlığı 3% yüksəlmiş məhsulun maya dəyəri xeyli aşağı salınmışdır. Onu da qeyd etməliyəm ki, bu il kombinat əl əməyini xeyli yüngülləşdirmiş, toxuculuq dəzgahları tamamilə mexanikləşdirilmiş, kombinata 10 ədəd yeni mexaniki dəzgahlar gətirilmişdir ki, bu da məhsulun keyfiyyətli olmasına və ağır işlərin aradan qaldırılmasına köməklik göstərmişdir. Briqadada olan qızlar istər istehsal plan tapşırıqlarının yerinə yetirilməsində, istərsə də ictimai işlərdə fərqlənirlər. Məsələn, Nuridənin təşəbbüsü ilə bu il bir neçə sənaye şəhərlərinə ekskursiyalar təşkil edilmişdir ki, bu da fəhlələrin istehsalata hərtərəfli yiyələnməsinə səbəb olmuşdur. Eləcə də kommunist əməyi briqadası istər müdiriyyətin, istərsə də ilk partiya təşkilatı qarşısında bir neçə tələblər qoymuşdur ki, bunun nəticəsində də kombinatın ümumi işində olan nöqsanların aradan qaldırılmasına köməklik göstərilmişdir. Müdiriyyət kombinatın həmkalar təşkilatının ümumi yığıncağında briqada başçısının vaxtaşırı məruzəsini dinləmiş, göstərilən tənqidi vaxtında aradan qaldırmışlar.

Nuridə hələ gənc kommunistdir. Onun işdə olan nailiyyətlərini nəzərə alaraq kombinat ilk partiya təşkilatı və Şuşa Rayon Partiya Komitəsi onu 1956-cı ildən etibarən Sov.İKP-nın üzvü sıralarına qəbul etmişdir. O, hazırda briqada üzvlərinə iş metodlarını təkmilləşdirməyi öyrədir. Briqadanın əsas iş metodu «hər kəs hamı üçün, hamı hər kəs üçün» şüarıdır.

Nuridə Rüstəmovanın briqadası həmişə çalışır ki, hasil etdikləri mal keyfiyyətli və əla növlü olsun. Briqada buna görə də 1964-cü ilin öhdəçilik planlarını vaxtından əvvəl yerinə yetirdikləri üçün DQMV-nin həmkarlar təşkilatı tərəfindən Fərqlənmə diplomu ilə mükafatlandırılmışdır.

Nuridə və onun briqadası yaxşı işləmək, istehsalat tapşırıqlarını artıqlaması ilə yerinə yetirməklə kifayətlənməyərək təhsillərini də artırmağa vaxt tapırlar. Briqada üzvləri ali təhsil almağa hazırlaşırlar.

Nuridə həyətdə, məhəllədə, küçədə orta məktəb yoldaşları ilə tez-tez rastlaşır. O, bir anlığa 1958-ci ildə qurtardığı Şuşa fəhlə-gənclər orta məktəbini xatırlayır. Məktəbin direktoru Allahverdi



Nağıyev Nuridə kimi qabaqcıl əmək mübarizləri ilə fəxr edib, iftixar hissilə deyir:

-İndi mən özümü xoşbəxt hiss edirəm, çünki mənim Nuridə kimi əmək qəhrəmanlarım vardır. Rüstəmovanın gələcəyi işıqlıdır. Mən onu dəzgah arxasında gördükdə, sevincimin həddi-hüdudu olmayır. Çünki onun adı bizim məktəblə bağlıdır.

Nuridə sıravi fəhlə işlədiyi illərə təəssüf etmir, ali məktəb bitirmək böyük səadətdir deyir. Buna gec-tez mən də müvəffəq olacağam. Ancaq etiraf etməliyəm ki, istehsalatda alın təri ilə qazanılan təcrübə də bir məktəb yoludur. Mən doğma kombinatımızdakı fəhlə ailəsinin sıravi üzvü olmağımla fəxr edirəm.

Rüstəmovanın briqadası siyasi biliklərini artırmaq üçün «Siyasi bilikləri yayan» dərnəklərdə iştirak edirlər. Eyni zamanda, kombinatda «Qadınlar şurası» fəaliyyət göstərirdi. Onun sədri Tərlan Şamxalovadır. Mən Qadınlar Şurasının hansı məsələlərlə maraqlandığını soruşdum. Şura qadınların təsərrüfatda və ictimai həyatda fəal iştirak etmələrinə, üzərlərinə düşən öhdəlikləri yerinə yetirmələrinə, qadınların milli əxlaqi ruhunda yetişdirilməsinə köməklik göstərir.

Kombinatda «Partiya dövlət nəzarət qrupu» da fəaliyyət göstərir. Qrupda sədr müavini Ağca Paşayeva istehsal edilən malların keyfiyyətsiz olmasına və israfçılığa qarşı mübarizə aparır. Kombinatda ilk partiya təşkilatı katibi Zəminə Həsənova kimi qızlar da vardır ki, onlar həm ictimai işlərdə, həm də istehsalatda qabaqcıllar sırasındadır.

Hazırda Nuridə Rüstəmova DQMV-tin patiya komitəsinin plenumunun və Sənaye kombinatı ilk partiya təşklatı bürosunun üzvüdür. Bir sözlə, Nuridə Rüstəmovanın isehsalatda əməyi çoxdur. Onun rəhbərlik etdiyi briqadanın iş təcrübəsi başqa briqadalara nümunədir. Ümidvarıq ki, briqada qarşısında duran məqsədlərə nail olacaqdır.

*Şuşa, 27. 02. 64-cü il*

## Tələbə inşaatı – həyat məktəbidir

Hər il ölkəmizin bütün ali və orta ixtisas məktəbləri tələbələrinin bir qismi yay tətilini inşaat sahələrində keçirirlər. Onlar müxtəlif tikintilərdə, yol çəkilişində, bəndlərin qurulmasında, pambıq sahələrinin suvarılması üçün su kəmərlərinin çəkilişində və sairədə iştirak edirlər.

Tələbə – inşaat dəstələri tələbə gənclərin siyasi, əmək və mənəvi tərbiyəsinin səmərəli formasıdır. Bunun sayəsində tələbələr inşaat işində bərkdən-boşdan çıxır, istehsalat vərdişlərinə hərtərəfli yiyələnirlər.

Yay tətilinin üçüncü əmək semestri İnstitutumuzun komsomolçuları üçün də böyük şərəf olmuşdur. D.Bünyadzadə adına Azərbaycan XTİ-nun Ticarət-iqtisad fakültəsinin 37 nəfər tələbəsi 1974-cü ilin iyun ayının 25-nə kimi Bərdə rayonunun I saylı Qarabağ Tikinti İdarəsinin inşaat sahələrində tikinti-quraşdırma işi aparmışlar. Tələbə inşaat dəstəmiz dörd istehsalat briqadasından ibarət idi. Kollektivimiz tikinti idarəsinin Azərbaycan, M.Qorki, Həzi Aslanov, 26 Bakı Komissarı adına və başqa kolxozlarda, tutçuluq-ipəkçilik sovxozunda Qarabağ kanallarına beton tökməklə və pambıq sahələrinə su kəməri çəkməklə məşğul olmuşlar.

Tələbə inşaat dəstəmiz Ümumittifaq Tələbə İnşaat Dəstəsinin Nizamnaməsinə uyğun işləmiş və dövlətə 48 min manatlıq xeyir vermişlər. Hər bir briqada öz aralarında yarış təşkil etmişdir. Bu da tələbələrin daha məhsuldar və yaradıcılıqla işləməsinə kömək etmişdir. Komsomolçu gənclərimiz özlərinin işinə məsuliyyətlə yanaşmış, təhsildə və əmək cəhbəsində yeni-yeni müvəffəqiyyətlər qazanmaqla cavab verməyə çalışmışlar.

Tələbə inşaat dəstəmiz rayonda dörd dəfə iməcilik keçirmişdir. İyulun 13-də keçirilən Ümumittifaq iməciliyində tələbə inşaatçılarımız da fəal iştirak etmişlər. Onların səyi nəticəsində Qaqarin şəhərinin fonduna 200 manat pul keçirilmişdir. İyul ayının 20 və 27-də isə Bərdə rayonunun 4№-li orta məktəbinin tikintisində iştirak etmişik. Bundan başqa avqust ayının 1-də Ümumittifaq zərbəçi əmək günü münasibətilə keçirilən



iməcilikdə isə tikinti dəstəmiz yenə də Qaqarin şəhərinin fonduna 139 manatlıq pul köçürmüşdür.

Tələbə inşaat dəstəmizin əmək cəhbəsində özünü fəal inşaatçı kimi göstərən üzvlərindən Abbas Qənbərovun, Vaqif Mikayılovun, Əhməd Hüseynovun, Etibar Hacıyevin, Camal Süleymanovun, Gülhəsən Həsənovun, Məmmədsadıq Əliyevin, Rahib Ağayevin və başqalarının adlarını iftixar hissi ilə çəkmək olar.

Tələbə inşaatçılar istirahət vaxtlarından da səmərəli istifadə etməyə çalışırdılar. Axşamlar adət üzrə hamı bir yerə toplaşıb şənlik edirdi. Axı, mənalı istirahət etmədən səmərəli işləmək də olmaz. Hər kəs gün ərzində gördüyü işindən və qarşısında duran vəzifədən söhbət açır, onların şən qəhqəhələri ətrafı bürüyürdü. Musiqi səsi dalğa-dalğa hər yana yayılıb gecənin lal sükutunu pozurdu. Quş qanadlı, kövrək nəğmə sədaları əməyin romantikasından xəbər verirdi. Qeyd etmək olar ki, tələbə inşaat dəstəmiz bütün çətinliklərə baxmayaraq əzmlə işləmiş və öhdəsinə düşən planın yerinə yetirilməsinə var qüvvəsi ilə çalışmışdır. Lakin bütün bunlara baxmayaraq inşaat dəstəmiz bir sıra çətinliklərlə qarşılaşmışlar. Belə ki, onlar materiallar ilə təchiz olunmaq sarıdan, mexanizimlərin çatışmamazlığından çətinliklər çəkmiş və onlar xüsusi geyim forması ilə təmin olunmamışlar. Tikinti-quraşdarma sahəsində boş dayanma halları olmuşdur. Bu da əlbəttə, ümumi iş prosesimizə təsir edirdi.

İkincisi, qarşımızda duran çətinliklərdən biri də inşaat briqada üzvlərinin yerinə yitirəcəyi işin ixtisas profilinə uyğun olmamasıdır. Hətta inşaat işimizin sürətlə getməsində Bərdə rayonunun Qarabağ Tikinti İdarəsinin işçiləri də çətinlik çəkirdilər. Biz iş gedişatımızda uzun müddət keyfiyyətli beton tökmək işinin metodlarını öyrənməli olduq. Bu da vaxtımızın səmərəsiz keçməsinə səbəb olurdu. Yaxşı olardı ki, gələcəkdə tələbələr öz ixtisaslarının profilinə uyğun işə cəlb olunsunlar.

Üçüncü, işimizə təsir edən amillərdən biri də tələbələrin mədəni-məişət şəraitinin yaxşı təşkil olunmamasıdır. Bəzən tikinti-quraşdırma sahəsində yeməyin olmaması üzündən iş prosesi

dayanmalı olurdu. Əlbəttə, əlaqədar təşkilatlar gələcəkdə bunu nəzərə alsalar daha yaxşı olardı.

Tələbə inşaat dəstəmizin rəhbərliyi və briqadirləri Bərdə rayonunun partiya, komsomol təşkilatları ilə, o cümlədən rayonun «Kommunizm yolu» qəzetinin redaksiya əməkdaşları ilə sıx əlaqə saxlamış və lazımi məsləhətləri almışlar. İnşaat dəstəmizin üzvləri rayon qəzetində dəfələrlə maraqlı məqalələrlə çıxış etmişlər.

Bir sözlə, 1974-cü ilin yay əmək semestri fakültəmizin komsomolçuları üçün böyük həyat məktəbi oldu. Artıq iyul-avqust ayları arxada qalmışdır. Bərdənin Qaratəpə düzü bu qaynar həyat üçün qəribsəyəcək və onun əvəzində auditoriyaların pəncərələrini cingildədəckdir...Tələbə şıltaqlığı dəhliz boyu dalğa-dalğa yayılmaqdadır...İndi isə quş qanadlı, kövrək nəğmə sədaları gənc inşaatçılarımızın təhsilindən xəbər alır:

*Ulduzlar da bu axşam səndən danışdı,*
*Ay da pəncərənizdə yandı, alışdı.*

Doğrudan da, adama elə gəlir ki, ulduzlar da briqadamızın işindən danışır. Həm fiziki, həm də zehni əmək meydanında müvəffəqiyyətlər qazanan bu günün gənclərindən söhbət açır. Onları yeni-yeni əmək qələbələrinə səsləyir*.

***13.09.1974-cü il.***

* Qeyd: Məqalə Bərdə rayonunun «Kommunizm yolu» qəzetinin 1974-cü lin sentyabr ayı nömrəsində dərc olunmuşdur.



## Əsl məktəb istehsalatdır

Ölkəmizdə xalq təsərrüfatının, elm və texnikanın sürətli inkişafı, maarif və mədəniyyətin yüksəlişi ali təhsilli mütəxəssislər yetişdirilməsi işini daim təkmilləşdirməyi tələb edir. Partiyanın XXV qurultayında bu mühüm məsələyə xüsusi diqqət verilmiş, onun zəruriliyi ətraflı göstərilmişdir.

Yaxşı mütəxəssis olmaq, dərin biliyə yiyələnmək üçün nəzəri biliklərin təcrübədə təkmilləşməsi mühüm rol oynayır. Axı, nəzəri bilik təcrübə ilə əlaqələndirildikdə, yaxşı nəticə verir. Bu həm də tələbələrdə əmək vərdişləri və gələcəkdə yaxşı işləmələri üçün müəyyən qədər zəmin yaradır.

İnstitutumuzda bu sahəyə xüsusi diqqət verilir. Hər il son kurs tələbələri diplom müdafiəsi ərəfəsində respublikamızın idarə, müəssisə və təşkilatlarında istehsalat təcrübəsi keçirlər, nəzəri biliklərini təcrübə ilə əlaqələndirirlər. Əmtəəşünaslıq fakültəsinin 832-882-ci qrup tələbələri Bakı, Kirovabad, Şəki, Lənkəran, Bərdə, Tovuz, Şamxor, İliç rayonlarında istehsalat təcrübəsində olmuşdur.

Tələbələrin istehsalat təcrübəsinin səmərəli keçirilməsi üçün Ticarətin təşkili və texnikası kafedrasının müəllimləri faydalı iş üsulundan bacarıqla istifadə etmişlər. Onlar vaxtlı-vaxtında obyektlərdə olmuş, istehsalat təcrübəsinin geniş işi ilə maraqlanmışlar. Yoxlamaların nəticələrinə əsasən deməliyəm ki, istehsalat təcrübəsi keçirilən yerlərdə – Şəki, Kirovabad, Şamxor, Tovuz və İliç rayonlarında proqram üzrə nəzərdə tutulan təcrübə işi layiqincə həyata keçirilmişdir. Həmin obyektlərdə tələbələrə hər cür qayğı göstərilmişdir.

Təəssüf ki, Kürdəmir rayon istehlak cəmiyyətində tələbələrin istehsalat təcrübəsinə laqeyd münasibət göstərmişlər. Beləliklə də, ilk iki ayda təcrübə işi ləng getmişdir. Nəhayət, bu barədə həmin təşkilatın rəhbərliyinə müraciət edildikdən sonra, burada vəziyyət lazımi qaydaya salınmışdır.

Bəli, əsl məktəb istehsalatdır. Əbəs yerə deməyiblər ki, hər şey təcrübədə, istehsalatda qazanılır. Bu baxımdan kafedramızın professor-müəllimləri tələbələrin istehsalat təcrübəsinin günün tələbləri səviyyəsində keçməsinə xüsusi diqqət vermişlər*.

* Qeyd: məqalə «İqtisadçı» qəzetinin 7 aprel 1978-ci il tarixli nömrəsində dərc olunmuşdur.

# SATİRİK YAZILAR

## Yenə də barışdılar...

*(3 pərdəli 5 şəkilli komediya)*

*Müəllifi və quruluşçu rejissoru Pərviz Axundovdur*

### I pərdə

Əhvalat vaqe olur 19 dekabr 1965-ci il, bazar günü Bakının 8-ci kilometr qəsəbəsində, metro işçiləri evi, № 2-də. Həmin gün Ocaqqulu kişinin arvadı, onun balaca baldızı və qaynı kef çəkmək üçün böyük qaynı Canəli müəllimin evinə qonaqlığa gedirlər. Qapı açılır... Bu anda Canəli müəllimin «istəkli» qonşusu Murtuz dayının arvadı Səringül qonaqları qarşılayır:

- Xoş gəlmisiniz, şəfa gətiribsiz, keçin içəri, Canəli müəllim bu saat gələr.

Zərnişan xanım:

- Xoş gününüz, ay bacı. Canəli qardaş hara gedibdir?

Səringül:

- Gələr, gələr, keçin əyləşin.

Qonaqlar əyləşirlər. Elə bu anda evin qarşısında bir «Volqa» avtomaşını dayanır. Avtomaşından Canəli dayının iri gövdəsi görünür. O, bir tay ağ unu dalına alaraq, nəfəsini dərə-dərə ikinci mərtəbəyə qalxmağa başlayır. Hamını sevinc hissi bürüyür. Ocaqqulu kişi arıq gövdəsilə irəli atılaraq Canəli dayının təngnəfəs olmasını görüb, onun çiynindəki un tayını alıb yerə qoyur və səmimi bir dost kimi əl verib görüşürlər. Sonra onu məclisə dəvət edirlər. Məclis daha da şənlənir. Evin qırağında «nərd oyunu» başlayır. Birinci, Ocaqqulu kişinin üstünlüyü ilə qurtararaq Canəli dayını məğlub edir. O, pərt bir halda:

- Eybi yox, qoy qarnım dolsun, bəlkə də mən səni altımda əzişdirdim. O, elə bil ki, yuxu görürdü.

Süfrə açılır. Dairəvi stolun üstündə yarım litrlik «Moskovski» arağı gözə çarpır. Bir tərəfində turşuya qoyulmuş istiotlu şoraba-kələm və tərəvəz bitkiləri vardır. Ortalığa çini nimçələrdə bozbaş gətirilir. Bir azdan ara qızışır. Araq badələri elə şaqqıldayır ki, sanki, xanımların da iştahını artırırdı.



Bu anda Canəli sözə başlayır:

- Ay, Ocaqqulu qardaş, mən səni görməyimə çox şad oldum. Bu badəni qaldıraq bizim xanımların və eləcə də bu dostluğumuzun sağlığına. Sağ olun, var olun, bülbül olun, an-caq dəmir qəfəsdə olmayın.

Badələr bir saniyə çəkməmiş boşalır. Canəli dayının və Ocaqqulu kişinin gözləri necə də qıvraqlaşmışdı. Hər ikisi bir göy istiotu kobud barmaqları ilə burunlarına bir dərman kimi çəkirlər. Beş dəqiqəlik fasilədən sonra yenidən badələrin «cik-cik» səslərini işə salırlar. Bu dəfə də ürək sağlıqları deyilir. Nahar qurtarana yaxın qapı taqqataraq döyülməyə başlayır. Qapıdan içəri uzunboy, arıq sifət, enli kürək, sanki gözlərindən arağın nəş'əsi yağan qaraqabaq Murtuz müəllim daxil olur.

*(1-ci pərdənin sonu)*

### II pərdə

Hamı bir dəqiqəliyə ayağa qalxıb onunla görüşürlər. O, deyir:

- Əziz qonaqlarım, yolunuzu çoxdan gözləyirdim. Gəlməyinizə çox şadam. Ancaq bu məclisdə arvadımın iştirak etməməsi məni darıxdırır. Siz ondan inciməyin. Hökumət işini buraxmaq olmaz.

Bu anda Canəli dayı aram verməyib yeni badəni dolduraraq Murtuz müəllimə tərəf uzadır. O, badəni bir nəfəsə qurtumladır. Ocaqqulu kişi sözə başlayır.

- Murtuz müəllim, bu gördüyünüz süfrəni hörmət etdiyimiz Canəli dayıya həsr etmişik. İndi isə sənin kəramətini gözləyirik.

Canəli dayı:

- Əziz qonaqlarım, düzünü desəm, mən sizi qonaqlığa dəvət etməmişəm. Mən belə plan tutmuşdum ki, mənim istedadlı və canlara dəyən dayım İslamın evində görüşməliydik. Lakin siz mənim boğazıma düşmüsünüz.

Ocaqqulu kişi:

- Mən heç nə bilmirəm, sənin adın Canəli dayıdır, İslam deyildir ki? Zəhmət çək, süfrəmizi qızışdır.

Bu sözə Murtuz müəllim çox pərt olaraq bədbin bir halda, əli cibində qapıya tərəf yönəldi. Bir neçə dəqiqədən sonra Murtuz müəllim əlində bir «inək dondurması» (yə'ni konservası) içəri daxil oldu. Bu hayda camaatın nəzər-diqqətini cəlb edən Murtuz müəllim nə isə Ocaqqulu kişiyə ürək ağrısı verdi:

- Bazar günündə bizim xarabada ət də tapmaq çətindir. Gərək məni bağışlayasınız.

Canəli dayı:

- Eybi yox, hələlik mərhum «inək dondurması»nı qırağa qoyub rəqsə başlayaq.

Bu anda Murtuz müəllimin nəş'əsi qalxaraq otaqda iki par-par parıldayan gümüş oymaqları barmağına taxıb dingildəməyə başladı. Ocaqqulu kişi nə cür həvəslənmişdisə Murtuz müəllimə «talkat» vurub onun incə barmaqcıqlarını qopardaraq öz «yekəpər» barmaqlarına keçirib nəlbəki çinisində gözəl musiqi səsi dinləndirdi. Azərbaycan oyun havalarının sədası ətrafı bürümüşdü. Oyunun qızğın vaxtında Murtuz müəllimin ürəyi nə isə pis vururdu. Bir anlığa Murtuz müəllim aradan çıxıb harasa qaçdı. Bu lap tündü təpən adamlara bənzəyirdi. Qonaqlar bu işə özləri də məəttəl qalmışdılar. Bu qüsursuz vaxtdan istifadə edən Səringül xanım süfrəyə xoş ətri adamı gendən dəm hala salan «şam kababı»nı ortalığa qoydu. Elə bu anlarda da yarım litrlik «Moskovski» arağı kababa xususi gözəllik verirdi. Qədəhlər Ocaqqulu kişinin sağlığı ilə qaldırıldı. O, belə dedi:

- Canəli qardaş, heç ürəyini qısma, lap buz kimi saxla. Bir zaman gələr, mən də bir yeni «kvartira» alaram, sənin bu xəcalətindən çıxaram.

- Mən heç də sizə böyük bir qonaqlıq verməmişəm. Buna bizlərdə «nəxünək» deyərlər.

Elə bu anda möhtərəm Murtuz müəllim içəri elə atıldı ki, qonaqlar az qala huşlarını itirəcəkdilər. Hamının rəngi divar rənginə bənzəyirdi. Özünə ürək-dirək verən Murtuz müəllim mızıldandı:



- Ay səni pir olasan, hardan gəlirsən? Bizi lap nigaran qoymuşdun.

Canəli dayı:

- Tələsik getməkdə məqsədim o idi ki, arvadım Tapmacanı işdən gətirəm. Lakin xeyli deyişdikdən sonra hələ yenə də onu özümlə gətirə bilmədim. Ancaq ümidvaram ki, indilərdə gələcək.

Murtuz müəllim:

- Bizi səksəndirdiyin üçün ştraf olaraq, bir badə də qaldırmalı olacaqsan.

Canəli müəllim ağzını turşudaraq əvvəl özünü ağır tutmaq məqsədilə arağa altdan yuxarı boylandı və sonra dodağının şirin suyunu axıdaraq qədəhi ağzına tərəf çəkdi. Canəli müəllimin kefi heç durulmurdu. Ona elə bil ki, yuxuda nə isə demişdilər. O, belə təklif etdi ki, çox hörmət etdiyim Şərəfnisə bacıma əziyyət versəmdə yaxşı olar ki, «məxməri» çayla bizi sevindirsin. Bu anda gözlərindən sanki qığılcım sıçrayan Ocaqqulu kişini elə bil ildırım vurdu. O, kobud səslə:

- Canəli lələm, biz məxməri çay içmirik, bizə «ağ çay» lazımdır.

Canəli müəllimin doğrudan da fikirləşdiyi xəyallar getdikcə həqiqətə çevrilirdi. O, əlacsız və sərsəm halda yenidən qapıya yönəldi və hiss etmirdi ki, özünü hara aparır. Bir neçə dəqiqədən sonra yenidən Canəli müəllim təngənəfəs əlində yarım litrlik araqla içəri daxil oldu. Məclis qızışdı. Hərə yüz-yüz damağa çaxdı. Elə bu vaxt çoxdan həsrətin çəkdiyi, Canəli müəllimin sevimli arvadı Tapmaca xanım qonaqların bütünlüklə nəzər-diqqətini özünə cəlb etdi.

***(2-ci pərdənin sonu)***

***Bakı şəhəri. 20.12.1965-ci il***

## «Elm» pioner düşərgəsində maraqlı əhvalatlar

1984-cü ilin iyun ayının 8-i günü başqa valideynlər kimi bizim də ailəmizdə şən əhval-ruhiyyə yaranmışdır. İki oğlumuz – Şaiq və Sadiq Mərdəkan qəsəbəsindəki «Elm» pioner düşərgəsində yay istirahətini keçirməli idilər.

Uşaqlarımızın sağlamlıq haqqında arayışı olmadığına görə hələlik düşərgəyə qəbul olunmadı. Buna görə də onları iyun ayının 10-da düşərgəyə aparmalı olduq. «Elm» pioner düşərgəsinin rəisi Mütəllim Rəcəbov bizi ədəb-ərkanla qəbul etdi və uşaqlarımıza lazım olan şəraitin yaradılmasına söz verdi. Şaiq və Sadiq 3-cü dəstəyə qəbul olundu. Həmin dəstənin baş dəstə rəhbəri və tərbiyəçisi Tanya Ələkbərova və onun köməkçisi Oktay təyin olunmuşdu.

Biz arxayın evimizə qayıtmalı olduq. Bir həftədən sonra yenidən düşərgəyə gəldik. Düşərgənin qapısından içəri girərkən bizə bildirdilər ki, uşaqlardan biri yıxılmışdır. Bizi Mütəllim müəllim söhbətə tutub dedi ki, «əşi, uşaq yıxıla-yıxıla böyüməlidir, fikir etməyin»...

Doğrudan da, ortancıl oğlum Sadiq xeyli qan itimişdir. Pioner baş dəstə rəhbərinin məsuliyyətsizliyinə baxmayaraq biz uşağa davranış qaydalarını başa salıb geri qayıtdıq.

Pioner düşərgəsində uşaqlarımız 14 gündən artıq idi ki, yaşayırdılar. Lakin növbəti həftədə biz düşərgədə olanda uşaqlarımızı tanımadıq. Demə, onlar üç həftəyə yaxın idi ki, çimizdirilməmişlər. Uşaqlar o qədər çirklənmişdilər ki, doğrudan da, bizdə təəccüb doğurdu.

Onu da qeyd edim ki, pioner düşərgəsində valideynlərə uşaqlarının yatacaq yerlərinə baxıb maraqlanmağa icazə vermirdilər. Uşaqların belə vəziyyəti məni məcbur etdi ki, icazəsiz olaraq onların yatacaq yerləri ilə maraqlanım. Mən 3-cü dəstənin yatacaq korpusunda oldum. Otaqda elə bir vəziyyət vardı ki, az qaldım ki, uşaqları həmin gün geri qaytarım. Çarpayının üstündə



nə qədər qum olsa yaxşıdır. Prostina nimdaş ağdan olaraq yarısı yox idi. Çirkli balışa üz çəkilməmişdi, əl-üz dəsmalı çatışmırdı. Dəstə rəhbəri Oktay mənim narazılığımı bilib tez uşaqlarımızın yatacaq yerlərini səliqə- sahmana saldı və söz verdi ki, uşaqları bu gün çimizdirəcəyəm.

Çox maraqlıdır ki, uşaqlarımızın başqa narazılıqları da vardı. Onlar mənə məlumat verdi ki, xörəklərindən dəfələrlə milçək çıxır və xörək paylayanlar məcbur edirlər ki, onlar xörəyi milçəklə yesinlər. Bu məsələlər barəsində baş dəstə rəhbəri Tanyaya etirazımı bildirəndə o, cavab verdi ki, mən uşaqlara cavabdeh deyiləm. Nəhayət, Mütəllim müəllim telefonla mənə bildirdi ki, gəlib həmin yoldaşların işlərinə məsuliyyətsiz yanaşmalarını müzakirə edib, onlara ciddi tədbir görəcəyəm, arxayın ola bilərsiniz.

Qeyd etmək olar ki, pioner düşərgəsində uşaqların yeməklərinə fikir verilmir, uşaqlar yalavac qalırlar. Amma işçilər uşaqların yeməyinin hesabına özlərinə yaxşı fikir verirlər, vaxtlı-vaxtında yatır və əla xörəklərdən özlərinə sifariş verirdilər.

Bir sözlə, «Elm» pioner düşərgəsində uşaqlarımız günlərini səmərəli keçirə bilmədilər, kor-peşman evə qayıtdılar...Ancaq biz burada «çox maraqlı əhvalatları»n şahidi olduq. Ona görə də məcbur olub uşaqlarımızı iki gün vaxtından əvvəl evə qaytardıq*.

***5.07.1984-cü il***

---

* Qeyd: Məqalə qısaldılmış halda «Belə də qayğı olar?» başlığı ilə «Bakı» qəzetinin 6 avqust 1984-cü il tarixli nömrəsində dərc olunmuşdur.

## Yeni Yasamalın «yeni dərdləri»...

Bakının gələcək ab-havası ilə seçiləcək qəsəbələrindən biri də Oktyabr rayonunun Yeni Yasamal sahəsidir. Həmin sahədə bir sıra doqquzmərtəbəli binalar inşa edilib sakinlərin ixtiyarına verilmişdir.

Bizi maraqlandıran da Yeni Yasamalın yeni sakinlərinin yaşayış tərzi idi. Sanki yaşayış sahəsinə daxil olduqda sakinlər necə də həvəslə təzə mənzillərini yenidən təmir edirdilər.

Qeyrətli sakinlərdən eləlləri vardır ki, saatlarla binanın həndəvərində olan zibilləri təmizləyib yaşıllıq salırlar. Bax belə şəxslərə təşəkkür etmək yerində olardı. Elə sakinlər də vardır ki, həyətə zibil tökməkdən, binanın zirzəmilərinin qapısının bağlanmasını sındırmaqdan bilavasitə «ləzzət» alırdılar. Buna görə də blokların avtomat-zibil boruları ağzınacan zibillə dolu qalmış və aşağıya doğru zibillər axmırdı. Blokların bəzilərində liftdən istifadə olunmur. Deyilənə görə, həmin blokların liftinin istifadəyə verilməmişdən motoru yanmışdır.

Qəsəbənin təzə mənzillərində daimi yaşamaq üçün otaqlarının bir çox həll olunası problemləri vardır. Belə problemlərdən bir neçəsini Yeni Yasamal sahəsində istifadəyə verilmiş 6-cı binanın misalında göstərmək kifayət edərdi.

Bina 1990-cı ildən etibarən istifadəyə verilmişdir. Binanın xarici görünüşünə nəzər yetirdikdə adam binada yaşamağa sanki can atır. Nə fayda, binanın otaqlarını gəzdikdə isə adam təssüflənir... Necə də mənzilləri keyfiyyətsiz tikiblər. Doqquzmərtəbəli beton otaqların döşəməsinə heç olmazsa adi taxtadan «qara döşəmə»də salmayıblar. Ancaq bu mənzillərdə insan taleyi həll olunur. Otaqların eyvana açılan qapılarından və pəncərələrindən elə külək şıdırğı hiss olunur ki, soyuq havada adam burada, sanki sətəlcəm olar. Qış vaxtı mənzillərdə keçə ayaqqabı ilə və əlcəklə əylənmək lazım gəlir. Bu səbəbdən də Yeni Yasamalın yeni dərdləri daha böyükdür.

Bu yaxınlarda (yəni 1991-ci ilin fevral ayının 15-də) 6-cı binanın həndəvərində faciəli bir hadisənin şahidi olduq. Xeyli vaxt idi ki, Yeni Yasamalın sakinləri su həsrəti çəkirdilər. Sahənin 19№-li mənzil-istismar idarəsinin işçiləri sakinlərə bildirdi ki, Yasamalın ümumi su verən mərkəzi kəməri partlamışdır. Dağılan su 6-cı binanın arxa hissəsindəki ümumi kanalizasiya borusu vasitəslə sürətlə axırdı. Bunun da əsas səbəbi binanın arxasındakı ümumi magistral yolunda yerləşən lyukun ağzının açıq olması nəticəsində onun içərisinə daş və torpaq doldurulmasıydı. Nəticədə isə, su öz axarını itirmiş və yolunu azıb lyukdan yüksək təzyiqlə yuxarı qalxmağa başlamışdır. Bunun da nəticəsində qalxan su binanın arxasına doğru çox iti sürətlə axmağa başlamış və binanın hava üçün nəzərdə tutulan deşiklərindən və bünövrəsindən binanın zirzəmisinə dolmuşdu. Demək olar ki, bir saat müddətində 6-cı binanın bloklarının zirzəmisi su ilə dolmuşdur.



Hal-hazırda binanın zirzəmilərində üfunətli bir vəziyyət yaranmışdır. Rütubətin iyindən adam özünü itirir. Zirzəmilərin keyfiyyətsiz sementdən vurulan döşəməsi dağılmış və bünövrədən azı 30 sm aşağı düşmüşdür. Lakin 6-cı binanın 4-cü blokunun sakinlərindən bir nəfər həmin blokun zirzəmisini öhdəsinə götürmüş və zirzəmini bir il müddətində təmizləyib səliqə-sahman yaratmışdır. Sanki zirzəmiyə daxil olan özünü adi otaqda hiss edirdi.

Gəlin, binada baş verən faciədən sonrakı vəziyyətə baxaq. Bizə belə gəlir ki, zirzəmidə yaranan rütubətin və üfunətin nəticəsində yay aylarında binanın sakinləri milçək və ağcaqanadın əlindən cana gələcəklər. Eyni zamanda 6-cı binanın arxa və qabaq hissəsindəki torpaq və asfalt döşəməsi tamam batmışdır. Sakinlərdən biri binanın arxa hissəsində böyük zəhmət bahasına bir sıra ağac əkib yaşıllıq salmışdır. Yerin quruluşu suyun təsirindən öz vəziyyətini dəyişdiyinə görə əkilən ağaclar da sıradan çıxmışdır.

İndi belə söz-söhbət gedir ki, binanın bünövrəsi düzgün qoyulmadığına görə bir neçə ilə sakinlər köçürüləcəkdir. Doğrudan da, 6-cı binanın qarşısında və arxasında salınan torpaq və asfalt döşəməsi tamamilə çıxdaşdır. Hələlik binanın özülündən tam xəbərdar deyilik...

Sual olunur: Bakı şəhər XD Soveti İcraiyyə Komitəsinin xüsusi komissiyası binanı təhvil alan vaxtı məgər onların bu işdən xəbəri olmamışdırmı?

Hazırda 6-cı binanın bloklarının zibil yığılan mənbəyinin divarları və pilləkənləri artıq öz müvazinət vəziyyətini itirmişdir. Uzağı bir ildən sonra blokların ağzı uçmaq təhlükəsindədir. Bizə belə gəlir ki, baş verən faciənin səbəbləri öyrənilməli və qarşısı təcili alınmalıdır.

Bakı şəhəri Baş Tikinti və Baş Su Kəmərləri İdarələrinin rəhbərləri Yeni Yasamaldakı 6-cı binanın bünövrəsində bir daha təhlükənin yaranmasına yol verməməlidirlər. Bunun üçün aşağıdakıların həyata keçirilməsi yaxşı olardı:

1.Yazılı məlumatlardan aydın olmuşdur ki, Yeni Yasamal sahəsində zərərli kimyəvi tullantıların nəticəsində zibil yığınacaqlarında 100-ə qədər radiasiya şüaları aşkar edilmişdir. Buna görə də zibillərin xüsusi ayrılmış yerlərə yığılıb vaxtında tullanılmasına nəzarət gücləndirilməlidir;

2.Binanın arxa hissəsindəki hündür torpaqlığın qarşısına betondan və yaxud da daşdan hasar çəkilməlidir;

3.Binanın arxa hissəsindəki bağçanın torpaq layını azı yarım metrə kimi qaldırmaq lazımdır ki, yuxarıdan gələn sel və yaxud su mənbəyi binanın zirzəmisini bir daha basmasın;

4.Binanın arxa hissəsindəki ümumi əsas magistral yolunun sağ kənarı boyunca əlavə suların axması üçün ensiz arxın çəkilib ümumi su kanalizasiyası lyukuna birləşdirilməsi vacibdir;

5.Binanın gələcək taleyinin qorunması naminə çıxdaş zirzəmilərinə yenidən sement döşəmə salınmalı /özü də keyfiyyətlə/ və zirzəmilərin təhlükədən xilas edilməsi üçün dəmir qapılarının ağzı qıfılla bağlanılmalıdır. Qıfılın açarları zirzəminin məsuliyyətini çəkən şəxsə təhvil verilməlidir;

6.Yeni Yasamalın sanitar vəziyyətinin qorunması və sakinlərin yaşayış tərzinin yaxşılaşdırılması üçün müxtəlif peşə sahiblərindən ibarət «İctimai-nəzarət şurası» təşkil olunmalıdır. Ayda bir dəfədən az olmayaraq mənzil-istismar sahəsinin əməkdaşlarının və ictimai şuranın birgə gördükləri iş müzakirə edilməlidir. Bunun nəticəsində də Oktyabr rayonu Mənzil-



Təsərrüfatı İdarəsi tərəfindən yeni binalarda yaşayan sakinlərin nümunəvi əməyini müzakirə edib işıqlandırmalıdırlar;

7.Binanın zirzəmisindəki su, kanalizasiya və istilik boruları yenidən nəzərdən keçirilib sahmana salınmalıdır.

Əgər göstərdiklərimiz nəzərdən qaçırılsa, Yeni Yasamalın sakinlərinin vəziyyəti daha da ağırlaşacaqdır. Bu da yeni fəlakətə gətirib çıxaracaqdır*.

**Haşiyə**: Xeyirxah qonşulardan biri lifti qorumaq məqsədilə 4-cü blokun sakinlərinə özünün müraciətini də yazıb blokun birinci mərtəbəsində liftin divarına yapışdırmışdır. Müraciətin mətni aşağıdakı məzmunda idi:

**4-cü blokun sakinlərinə**

Hörmətli sakinlər!

Lifti təmiz saxlayın! Tumun qabıqlarını liftə tökməyin. Yadda saxlayın ki, zibil yığını sizin sağlamlığınıza ziyan gətirir.

Liftlə çıxmaq istəyirsiniz, lakin liftə xidmət etmək istəmirsiniz. Buna görə də liftin hissələri tez-tez sıradan çıxır.

İkincisi, zibilinizi binanın arxasına tökməyin! Yaxşı olar ki, zibilinizi yığıb uşaqlarınıza verin, aparıb müvafiq sahəyə tullasın.

Əgər sağlam həyat qurmaq istəyirsinizsə, təmizliyə riayət edin! Təkcə mənzilinizi təmiz saxlamaqla iş bitmir. Tulladığınız zibildə olan mikroblar havadan Sizə və uşaqlarınıza ziyan vurur.

Bizə belə gəlir ki, bu yazıdan sonra hər bir ailə özünə nəticə çıxaracaqdır.

Hörmətlə,

**Yeni Yasamalın sakini.**

***24.03.1991-ci il***

---

* Qeyd: Məqalə «Bakı» qəzetinin 9 aprel 1991-ci il tarixli nömrəsində dərc olunmuşdur.

## Balası, bir yaxın gəl...

Əhvalat bir rayonun mədəniyyət idarəsində baş verib. İdarənin kadrlar üzrə şöbəsinin müdiri Nazlı xanım çox özündən razı idi. Niyə də razı olmasın?...

**Haşiyə:** Nazlı xanımın sifəti adamı özünə cəlb edirdi. Enli kürəyi, yoğun bədəni pambıq sifətinə yaraşıq verirdi. Yeriyəndə sanki elə bil yer tərpənirdi. Ona görə də onun adı da özünə layiq idi. Elə bil ki, düşünüb ona ad vermişlər. Doğrudan da naz-nazı idi. İdarənin rəisi Hüseynqulunu da bihuş etmişdi. O, bu baxımdan ipi əldən vermişdi. Nazlı xanımın sözünü yerə sala bilmirdi. Buna görə də Nazlı xanım bəzən Hüseyinqulunun göstərişlərini yerinə yetirmirdi.

Bir gün Hüseynqulunu tanıyanlardan biri Ədalət bəy /yuxarı təşkilatda işləyirdi/ yaxın dostunun oğlunun iş yerini rayonun mərkəzinə köçürməyi ondan xahiş etmişdi.

Hüseynqulu onun xahişini qəbul etmiş və Nazlı xanıma göstəriş vermişdir ki, Ədalətin xahişini yerinə yetirsin.

Lakin Nazlı xanım bundan coşaraq az qalmışdı ki, Hüseynqulunu didib yesin. O, bu işin qanunsuz olduğunu söyləmiş və dostunun oğlu Şamili get-gələ salmağa başlamışdı.

Nəticə o yerə çatmışdı ki, Ədalət bəy bu məsələdən xəbər tutmuş və çox əsəbi halda telefonla Hüseynqulu ilə danışmışdır. Hüseynqulu yenidən Nazlı xanıma xəbərdarlıq etmişdi.

**Haşiyə:** Ədalət bəy yuxarı təşkilatların birində kadrlar üzrə baş təlimatçı vəzifəsində işləyirdi. O, doğrudan da çox səmimi bir insan olaraq dostluqda sədaqətli idi. Dost yolunda canından keçərdi.

Əlqərəz, bir sıra çətinliklərdən sonra Nazlı xanımın köpun yatırtdılar. O, elə yumşalmışdı ki, heç əvvəlki adama bənzəmirdi. Xasiyyəti tamamilə dəyişmişdi.

1994-cü ilin sentyabr ayının 12-də Ədalət dostuna zəng edib bildirdi ki, oğlu Şamili rayon mədəniyyət idarəsinə göndərə bilər. Artıq onun işi həll olunmuşdur.



Şamil mədəniyyət idarəsinə daxil olanda Nazlı xanımdan çox ehtiyat edirdi ki, o, bir də onu pərt edə bilər. Lakin xoşbəxtlikdən belə olmadı. Hüseynqulu zəng edib Nazlı xanımın nəzərinə çatdırdı ki, Şamilin işini düzəltsin-yəni onu işlədiyi musiqi məktəbindən xahiş olunan musiqi məktəbinə köçürülməsi üçün göndəriş versin. Buna görə də Şamili onun şöbəsinə göndərdi.

Nazlı xanım Şamili bu dəfə çox yaxşı qarşıladı. O, bir anda ayağa durub ona dedi:

-Balası, bir yaxın gəl, artıq səni istədiyin musiqi məktəbinə müəllimliyə göndərirəm. Arxayın ola bilərsən.

Bu sözü eşitcək Şamilin rəngi özünə gəldi. Hətta o, sevindiyindən evə qayıdarkən yolda dilənçiyə 50 manat nəzir pulu da vermişdi...

**Bakı şəhəri, 13.09.94-cü il**

## «Çoban Əhməd»in əhvalatları…

Təzə binaya köçəndən nədənsə gördüklərimi, eşitdiklərimi və rastlaşdığım bəzi baməzə adamların həyat tərzini qələmə almağa məndə həvəs daha da artmışdı. Bu da mənim dincliyimdən və fikirlərimin cəm olmasından irəli gəlirdi. Belə baməzə tanışlarımdan biri də «çoban Əhməd» idi.

**Haşiyə:** Əhmədə «çoban» təxəllüsü haradan peyda olmuşdu?

-Kiçik oğlum Xaliq yeni mənzilimizdə həmişə mənimlə qalırdı. O da dəfələrlə tanış olduğum baməzə şəxslə mənimlə birlikdə qarşılaşmış və onun macəralı hərəkətlərini görüb diqqətlə izləyirmiş.

Bir gün Xaliq, mənə üz tutub dedi:

-Ata, tanış olduğun kişidə çox qəribə xasiyyət var. O, lap çobana oxşayır. Bəlkə ona «çoban» deyək.

Mən götür-qoy edəndən sonra qərara aldım ki, Əhmədə «çoban» təxəllüsü versək daha məqsədəuyğundur.

Həmin gündən tanışımı «çoban Əhməd» adlandırdıq.

- İlk baxışdan onunla tanışlıqda həddən artıq o, «obrazovannıy çelovek» kimi bizə görsənirdi. Bir müddət dostluq etdikdən sonra onda «qiyamət və gülməli hərəkətləri»in şahidi olduq. Demə Əhməddə doğrudan da çatışmamazlıqlar var imiş.

- Əhməd axşamlar yaşadığımız binanın həndəvərinə çıxıb özü üçün seyr edərdi. O, həm də özü xasiyyətli adamlar axtarıb həmsöhbət olmaq fikrində idi. Axşamlar «ziyarətə» çıxanda Əhməd kiçik yaşlı /5 yaşı var idi/ qızını da özü ilə aparardı. O, qızın əlinə başı toppuzlu iri bir çoban çomağı verib, guya özünü düşmənlərdən qoruyarmış.

Bir dəfə mən axşamdan xeyli keçmiş böyük bacım Matangildən evimizə qayıdarkən «çoban Əhmədlə» qarşılaşdım. Gördüm ki, o, əyninə nimdaş bir paltar geyib səmanı kiçik yaşlı qızı ilə seyrə çıxıbdır. Soyuq və küləkli hava idi. Uşaq sanki soyuqdan büzüşmüş və Əhmədin qılçalarına sığınmışdı. Bir yandan uşağın əlindəki ucu «toppuzlu» çomaq və digər tərəfdən



də əynindəki keşişlərdəkinə bənzər mundiri uşağı sanki, boğaza gətirmişdi. O, altdan-altdan atasına boylanıb hərdən ona tərs-tərs baxırdı.

Mən «çoban Əhmədə» sual verib dedim ki, Əhməd bəy, nə üçün belə bir soyuqda qız uşağına zülm edirsən? Onun əlindəki çomaq nədən ötəridir?

O, mənə cavabında:

-Mən havamı dəyişirəm, uşağın əlindəki çomaq isə «qancıq itləri» vurmaq üçündür. Ehtiyat edirəm ki, itlər məni həyatdan məhrum edə…

«Çoban Əhməd» həqiqətən də həyatda özünü çox qorxaq bir insan kimi biruzə verirdi. Ailəsində də onun hörməti itmişdi. Elə buna görə də o, ömrünü tez bada verdi…

***Bakı şəhəri, Yeni Yasamal,***
***03.01.1994-cü il***

## «Bakılılar» sanatoriyasından qeydlərim...

### 1.Hamam... nə hamam...

Bakıda çox hamamlar görmüşük. Lakin haqqında bəhs edəcəyim hamamla rastlaşmamışdıq. Əvvəlcə bir haşiyə çıxmaq istərdim.

Artıq ikinci ildir ki, Cavad bəy Mərdəkandakı «Bakılılar» (buna «Qaranquş» da deyirlər) sanatoriyasında müalicə olunurdu. Demək olardı ki, sanatoriyanın müalicə şöbələrinin işi pis deyildi. Şöbələrin əməkdaşları canıdildən çalışırdılar. Onların işinə söz ola bilməz... Lakin məsələnin digər tərəfi çox maraqlıdır... Sanatoriyanın böyük bir yeməkxanası vardır. İnsafla desək, yeməkxanada müalicə olunanlara gündə üç dəfə keyfiyyətli xörəklər verilirdi. Hətta bəzən də istirahətçilərin sifarişləri də nəzərə alınırdı. Bu da əlbəttə, yeməkxananın müdiri Mirvari xanımın səmərəli fəaliyyəti nəticəsində olmuşdur. Lakin Milvari xanım xəstələrə mədəni xidmətində bəzi maneələrə rast gəlirdi. Bunun da əsas səbəbi birinci növbədə yeməkxananın hava tənzimləyicisinin olmaması idi.

Günün hansı vaxtı içəri girəndə sanki adam özünü köhnə hamamda hiss edirdi. İndi təsəvvürünüzə gətirin ki, xəstələrin vəziyyəti nə haldadır... Səhər, nahar və şam yeməyində özünlə gərək mütləq nimdaş parça aparasan ki, yeməyi həzm etdikcə, bədənindən su kimi axan tərini silib özünü yelləyəsən, yoxsa nəfəsin dayanar.

Hələ bunu demirəm. Müalicə edən həkimlər üçün yeməkxananın daxilində bir kiçik otaq ayrılıb ki, onlara xörək verilsin. Otaq nə otaq... Sanki içəri girəndə adamı «heyran qoyur»... Yazıq həkimlər, gör nə çəkirsiniz... Otaqda yemək üçün gərək «mayka və tumanla» oturasan. Bu da həkim etikasına yaraşan iş deyil...

Xəstələrin və həkimlərin çıxılmaz vəziyyətini görən Mirvari xanım yeməkxananın qab-qacaq yuyulan sahəsindəki pəncərənin yuxarı hissəsində xeyli müddətdir ki, yerləşdirilən köhnə hava tənzimləyicisini nəhayət təmir etdirib qismən olsa da yeməkxananın salonunun havasını nizamlaşdırmışdır. Lakin hava



tənzimləyicisi çox köhnə olduğundan elə bir səs salırdı ki, sanki yeməkxanada əsəbi xəstələrin əsəblərini tarıma çəkirdi.

Nəhayət, Mirvari xanım xəstələrin çıxılmaz vəziyyətini hiss edib yeməkxanaya 2 ədəd ayaq üstə duran, xaricdə istehsal olunmuş hava tənzimləyicisi aldırmışdı. Bundan sonra xəstələr özünə gəlməyə başladılar və Mirvari xanıma təşəkkürlərini bildirdilər...

*Bakı-Mərdəkan, 08.08.1997-ci il.*

## Könlü sağlamlıq istəyən «Qaranquşa» gəlsin...

Doğrusu, Cavad bəy bu sanatoriyanı özünə doğma sayırdı. Sanatoriyanın sahəsi böyük, orta səviyyədə də yaşıllığı vardır.

Sanatoriyanın müalicə otağına daxil olduqda sanki əvvəlcə şöbə müdiri Xanlar Əliyevlə rastlaşırsan. O, öz «sənətinin vurğunudur». Bəzən saatlarnan onun qəbuluna düşmək mümkün olmur. O, hey çalışır..., gah çilingərlik, gah elektrik işilə və bəzən də dülgərliklə də məşğul olurdu. Onun çox vaxtını almaq heç «insaf da yol verməzdi». Danışdıranda bir az əsəbi halda, qısa şəkildə adama cavab verərdi:

-Əşi, görmürsən ki, əlimdə dəmir-dümürlə məşğulam, hətta çilingər yerində də işləyirəm. Belə də şöbə müdirliyi olar?...

Doğrudan da, Xanlar bəyin iş otağı əsl «iş adamı»nın otağına bənzəyirdi... Yazı stolunun üstündə nə desən var idi. O, bir dəqiqə də «dinclik» bilmirdi. Xəstələr də onu hər tərəfdən narahat edirdi. O da əsəbi xəstələrlə yarı zarafat, yarı ciddi davranırdı. Birdə ki, Xanlar həkimin əvvəlcədən onun acığı gəldiyi məsələləri açıqlamaqdan qətiyyən xoşu gəlməzdi. Belə xəstələri görmək də istəməzdi... Ancaq onun xəstələrə belə bir kəlamı Cavad bəyin yaddaşında qalmışdır!

-Könlü sağlamlıq istəyən «Qaranquş»a gəlsin...?

*Mərdəkan, avqust, 1997-ci il.*

## «Qara siçovul»un sərgüzəştləri...

Cavad bəy «Qaranquş» sanatoriyasının 1-ci mərtəbəsindəki 114№-li otaqda məskunlaşmışdı. Otaq ilk dəfə ona verildikdə çox sevindi ki, əsəbləri artıq sakit olacaqdır. Lakin bir gecə qalmaqla otaqda hər şey aydın oldu. Nə görsə yaxşıdır, çox «zərif, qara siçovul». «Tifil heyvan» heç imkan vermirdi Cavad bəyi yatmağa, onun əsəblərini yenidən tarıma çəkirdi.

İndi də müalicə qaldı bir kənarda, Cavad bəy başladı siçovullarla mübarizə aparmağa, otaqda çatışmayanları aradan qaldırmağa və nəhayət yüngül də olsa təmirlə məşğul olmağa. O, bir tərəfdən boş butulkaları sındırıb şüşə qırıntısı yığıb siçovulun yuvasına tökür, digər tərəfdən də siçovulun çıxdığı yuvanı tutmaq üçün sement axtarmağa məcbur olurdu.

Deməк olar ki, «qara siçovullar» gecələr «rəqsə» çıxırdılar... Otağın pəncərələrinin pərdələrini aşağıdan yuxarıya doğru dartıb «vağzalı» havasını oynayırdılar...

Bax bu toy-büsatı gördükcə xəstənin xəstəliyi tamam ləğv olunurdu. Bu da «əsl sanatoriya müalicəsi» idi.

*Mərdəkan, avqust, 1997-ci il.*



## Hind toyuqlarının fəryadı

Yetim Hüseyn yaşayış tərzini hər vəch ilə yaxşılaşdırmağa çalışırdı. Bu məqsədlə bir tərəfdən o, kiçik alverlə, digər tərəfdən kiçik təsərrüfatla və bir tərəfdən isə şəxsi maşınına «taksi» markası yapışdırıb məhəllədə sərnişin daşımaqla məşğul olurdu.

Yetim Hüseyn o qədər ac idi ki, o, üç tərəfli qazancdan gözü doymurdu, istəyirdi ki, dördüncü bir qazanc yerini də «kəşf» etsin. Çox götür-qoy etdikdən sonra nəhayət, fikrinə nail ola bildi. Bu da ən sadə qazanc yolu olan «oğurluq» idi.

Demək olar ki, Yetim Hüseyn gecəni yatmayaraq bəzən səhərə kimi asan və gəlirli bir qazanc yolu olan oğurluğun metodlarını axtarıb-arayırdı.

Bu məqsədlə yaşadığı məhəllədəki qonşularının hal-əhvalını öyrənir və özünə hal əhli tapmağa çalışırdı. Eyni zamanda tanıdığı qonşuları müxtəlif qruplara bölərək onları əsas hədəf nöqtəsinə yönəltməyə çalışırdı. Buna da nəhayət, nail oldu. O dəqiqə barmağını dilinin altına qoyub dişləmiş və öz-özünə demişdir:

-Bax, mən havayı Yetim Hüseyn ləqəbi almamışam. Mənə halal olsun..., necə də istedadlı adamam, Məni doğan ananın qarnı yansın ki, mən boyda «zırpı kişi»ni boya-başa çatdırıb öz qonşusuna düşmən qazandırmışdır...

Eybi yoxdur... bu da bir «qəhrəmanlıqdır». Bu boyda camaat Qarabağ torpağını ala bilmədi, mən isə bir saatın içində ən dəhşətli oğurluq sahəsini hədəfə alaraq qonşunun 1000 dollarlıq əşyasını oğurlatdırdım və əşyalardan özümə pay düşəni aldım. O, özündən razı halda belə deyirdi:

Sənə halal olsun ay Yetim Hüseyn!

Ancaq Yetim Hüseynin indiyə kimi törətdiyi cinayətlər hələ bir yana qalsın, onun ən dəhşətli cinayətlərindən biri də qonşunun «hind toyuqları»nu çox faciəli surətdə oğurlamasıdır. O, toyuğu çətinliklə ələ keçirdiyindən toyuqlar az qalmışdı ki, onun gözün çıxartsın... Bunun nəticəsində Yetim Hüseyn acığını

toyuqların tükünü yolmaqla çıxmışdır. Toyuqlar tüklərini gördükcə fəryad salıb çığırırmışlar.

İndi Yetim Hüseyn növbəti cinayətə hazırlaşmaq üçün plan tərtib edir. Bu dəfə deyəsən onun özü «tələ»yə düşəcək...

# TƏBİƏTİ SEYR EDƏRKƏN

## Qış fəslinin şıltaqlığı

Təbiətin maraqlı hadisələri vardır. Heç inanmaq olmur ki, qış fəslinin bir ayı bahar xarakterli keçsin. 1986-cı ilin qış fəsli çox maraqlı keçmişdi. Deməк olar ki, qışdan bir ay keçməsinə baxmayaraq hələ də qışın nəfəsi duyulmurdu.

Bakı əhalisi yeni ili təmtəraqla qarşılamış, lakin yeni ilin daxil olması qış fəslinin nişanəsi ilə uyğun olmamışdı. Hələ bu vaxta kimi Bakıda qar yağmamışdı. Çox maraqlıdır ki, ağaclar artıq tumurcuqlamışdı. Bir aydan artıqdı ki, havanın temperaturu müsbət nəticəni göstərirdi. Adam sanki, özünü bahar fəslində hiss edirdi.

Nə etmək olar…, təbiətin qüvvəsinə min şükür, özü bilən yaxşıdır, bəlkə də belə məsləhət imiş…

Qeyd edə bilərəm ki, həmin ilin mart ayının 19 və 20-si müddətində fəsillər arasında çox böyük çaxnaşma getdi. Bu ərəfədə qış fəsli öz yerini yaz fəslinə vermək istəmirdi. Yaz fəsli isə özünü qış fəslinin yerinə salmaq istəyirdi. Bu anda fəsillər arasında mübarizə başladı. Qış fəslinin dəlicəsinə yaz fəslinin üzərinə cumması nəticəsində onların elə bir cansıxıcı hərəkəti – daha doğrusu ölüm-dirim mübarizəsinə çevrildi. Qış ilə yazın əlbəyaxa olmalarından təbiətdə şiddətli yağışlı-soyuqlu külək baş verdi. Bu hadisə demək olar ki, iki sutka davam etdi. Nəhayət isə yaz fəsli qışa qalib gəlib onun yerinə keçdi.

…O gündən başlayaraq ağaclar dit verməyə (yəni tumurcuqlamağa) başladı…



## Bayram şənliyi

Bizim ailədə ortancıl və kiçik oğlanlarım Sadiq və Xaliq Novruz bayramında xüsusilə fərqlənmişlər. Elə həmin anda onlar tonqal başından sevinə-sevinə yaşadığımız binanın qarşısına yüyürürdülər. Sadiq və Xaliq nədənsə evə tələsirdilər. Aralarında nə isə maraqlı məsələ həll olunmuşdu. Bu anda qapı döyüldü. Qapı açılan kimi onlar mənə tərəf irəliləyib dedilər:

-Ata, bizə icazə ver gedək qonşuların qapısına torba ataq, bu gün ilaxır çərşənbəni uşaqlar bayram edirlər. Onlar bir-birinə pıçıldaşırdılar ki, görək kimin torbası dolacaqdır?

Mən və həyat yoldaşım Sahibə xanım uşaqlarımızın sevincini gördükdə nə qədər ürəyimiz ruhlandı. Axı bir vaxt biz də uşaq olmuşuq. Novruz bayramında nələr etməmişik. O vaxtlar (yəni uşaqlıq illərimizdə) Şuşada Böyük qurdlar məhəlləsində qaya başı deyilən yerdən partlağan çubuqlardan şələ yığıb çırpı hazırlayardıq. Məhəlləmizin bayram tonqalları arasında yarış gedərdi. Kimin tonqalında şiddətli partlayış olardısa, o, qalib gəlmiş hesab edilərdi. Ona görə də, övladlarımızın bu təşəbbüsü bizi bir anlığa gənclik illərimizə qaytarmışdı...

## Gəl-gəl, a yaz günləri

1988-ci ilin mart ayının 21-də artıq Novruz bayramı öz qədəmini azəri torpağına basmışdı... Bayram şənliyi sanki ətrafı bürümüşdü. Bayram axşamı-yəni martın 20-si günü 8-ci mikrorayonda yaşayan sakinlər arasında böyük şənlik, sevinc və gümrahlıq hiss olunurdu. Kimisi taxta yığır, kimisi torba hazırlayır..., xülasə ki, hərə bayrama bir yeniliklə daxil olmaq istəyirdi. Budur, axşam saat $20^{00}$ radələri idi. Mikrorayonumuzun meydançasında /32№-li yaşayış binasının qarşısındakı meydança/ məhəllənin dəcəl uşaqları haradansa tikinti sahələrindən taxtaları çırpışdırıb təxminən 4 metr hündürlükdə tonqal yandırmaq üçün hazırlamışlar. Birdən meydançadakı alov mikrorayonun sahəsini bir anlığa işığa qərq etdi. Tonqal ətrafında kimi baxtını sınayır, kimisi fit verir, kimisi isə yüksəkdən «ura» deyirdi. Hətta bayram tonqalının yandırılmasını daha yüksəkdən car çəkmək məqsədilə dəcəl uşaqlardan idman pistoletində fişəng açan və partladan da var idi. Adama elə gəlirdi ki, meydançada beşaçılan səsi gəlir.

... Artıq bahar fəslinin füsünkar gözəlliyi öz təravətini bəxş etmişdir... Təbiətdə necə də dəyişikliklər baş vermişdir... hər kəsin sifətində şadlıq, gümrahlıq hiss olunurdu. Tonqal başında uşaqların mahnı sədaları eşidilirdi:

*Gəl-gəl, a yaz günləri,*
*İlin əziz günləri!*



## Ömür-gün qonşularımız

Şəxsi mülkümüz Sayalı xalanın yaşadığı binaya qonşu idi. Biz «Böyük qurdlar» məhəlləsinin sakinləri idik. Daşdan hörülmüş çəpərimiz Sayalı xalanın həyətinə demək olar ki, həmsərhəd idi.

**Haşiyə:** «Bizim yaxın qonşumuz Sayalı xalanın iki oğlu var idi. Böyük oğlunun adı Kamal, kiçik oğlunun adı isə Camal idi. Kamal yaxşı qarmon çalardı. Sayalı xalanın həyat yoldaşı Əyyub kişi Böyük Vətən müharibəsindən qayıtmadığına görə uşaqlar ata nəvazişinə həsrət qalmışdılar. Buna görə də Camal ərköyün böyümüş «şıltaq uşaq» idi.»

Novruz bayramını qonşularımız xüsusilə təmtəraqlı keçirərdilər. Bayramda məhəllə uşaqları «Çiling-ağac», «Dirə-döymə», «Atlan – düş» oyunları ilə özlərini göstərərdi. Camal da «çiling-ağac» oyununun həvəskarı idi. Camal həmişə ağacı sol əli ilə tutub «çilingi» qaldırardı. Mən onunla dostluq edirdim. Atam Mirzə Xosrov Camala bəzən ata nəvazişi göstərərdi.

Mirzə Xosrov Sayalının övladlarına ilk əlifbanı öyrətmişdi. Camal tez-tez bizim bağa gələr və bağçamızdan qızıl gül dərərdi. Bəzən də o fındıq «oğurluğuna» gələrdi. O vaxtdan neçə illər keçdi... Sayalının uşaqları böyüyüb boya-başa çatdı. Dövran belə gətirdi ki, biz Bakının 8-ci mikrorayonunda yenə də Camalın ailəsi ilə qonşu olduq. Hərdən Camal ilə salamlaşıb və bəzən də görüşürdük. Onun mülayim xasiyyəti yenə də sifətində və hərəkətlərində qalmışdı.

Camal diş həkimi idi. Onun əlinin qabiliyyətinə söz ola bilməzdi. 8-ci mikrorayonun bəzi binalarında Camalın sənətkarlığı həkk olunmuşdu. «Diş həkimi Həsənov Camal Əyyub oğlunun qəbul saatları». Bu sözlər sanki, birinci növbədə mənim diqqətimi cəlb edirdi. Çünki biz ömür-gün qonşuları idik.

## Qışın oğlan çağı...

***(Göydən bərəkət yağan və bolluq gətirən qar haqqında düşündüklərim)***

Yazın yaraşığı gül-çiçək olduğu kimi, qış fəslinin də yaraşığı bəyaz qardır. O, qar ki, həmişə gözləsək də, nədənsə «gözlənilmədən» yağır. Bizə müəyyən qayğı ilə çətinliklər gətirməklə yanaşı, sevinc də bəxş edir. Amma yaratdığı çətinliklərə baxmayaraq bir neçə saatda hər tərəfi dümağ örpəyə bürüyən qar hamını sevindirir.

Qar elimizin çörəyi olan taxılı şaxtadan qoruyan «isti yorğan», çayları və bulaqları «mayalandıran» etibarlı mənbə, torpağın qüdrətini artıran rütubətdir.

**1 dekabr, 2002-ci il.** Azərbaycanın bütün rayonlarında, o cümlədən əsas sənaye mərkəzləri Bakı, Gəncə şəhərlərində, eləcə də Naxçıvan MR-da havalar kəskin surətdə dəyişmiş, yaşayış üçün mürəkkəb bir şərait yaranmışdır. Bakı ilə Gəncə arasında hava nəqliyyatı vasitəsilə gediş – gəliş kəsilmiş və yollar müvəqqəti olaraq bağlanmışdır. Avtomabil nəqliyyatı yollarında da böyük çətinliklər yaranmışdır. Binalarda istilik sistemi dayanmışdır. Onsuz da bu il istilik verilmə tarixi gecikdirilmişdir.

Onu da qeyd etməliyəm ki, Ramazan bayramına artıq 5 gün qalmış Yeni Yasamalın yaşayış binalarına istilik verildi. Hansı ki, istilik batareyaları həmişə noyabr ayının 15-dən sonra işə düşərdi.

**9 dekabr 2002-ci il.** Axşamdan xeyli keçmiş havanın temperaturu aşağı düşmüş və xəzri küləyinin gücü şiddətlənmişdir. Nəticədə səhərə qədər güclü qar yağmışdır. Yollar qar örtükləri ilə bağlanmışdır, sanki torpağın üst qatı donmuşdur. İnsanlar bir tərəfdən sevinir, digər tərəfdən də pərişan hal keçirirdilər. Hamı çaşıb qalmışdı. Çünki, 20 ilə yaxın müddətdir ki, Bakıda belə güclü qar görünməmişdir. Yasamal qəsəbəsinin bəzi yerlərində qarın qalınlığı 50 sm-ə çatmışdır. Bakıda əlaqədar təşkilatlar da belə qarlı günlərə hazırlıqlı deyildirlər. Elə buna görə də yollar



bərbad vəziyyətə düşmüşdür.Adamlar düşünürdülər ki, necə etsinlər ki, həyatları normal keçsin. Qarın əlindən giley-güzar eləmək əbəs işdir. Ellərimizə, obalarımıza gələn bu qar xoş müdəçidir.

**10 dekabr. 2002-ci il.** Universitetimizin 5-ci tədris binasında günorta saat $13^{30}$-da dərsim olmalı idi. Çox çətinliklə də olsa məsuliyyətimi dərk edib «28 may» metro stansiyasından çıxıb piyada «Azadlıq» prospekti üzrə üzü yuxarı qalxmalı oldum. Lakin yolları qar topaları bağladığına görə dərslər müvəqqəti olaraq kəsilmişdi. Ona görə də məcbur olub geri qayıtmalı oldum. Yol boyu aşağı düşdükcə maraqlı mənzərələrlə qarşılaşırdım. Uşaqlar və gənclər dəstə-dəstə küçələrə, bağ-bağçaya axışırdılar. Onlar qartopu «yarışı»na çıxmışdılar. Qar onları bir intizardan qurtarmışdı. «28 may» metro stansiyasından yuxarı gül satılan mağazanın qarşısındakı bağçada mağazanın əməkdaşı qar toplusundan «krokodil» formasında «qar qız» müqəvvası düzəltmiş və müqəvvaya rəssam-tərtibatçı kimi lazımi bəzək vermişdi. «Azadlıq» prospektindən keçən cavan oğlan və qızlara həmin müqəvva o qədər müsbət təsir bağışlamışdı ki, onlar özlərinin aparatları ilə müqəvvanın yanında həvəslə şəkil də çəkdirirdilər. Bu müqəvvanın görkəmi, bəzək-düzəyi mənə də çox xoş gəldiyindən küçədə 10 dəqiqə dayanıb bəzədilmiş Qarqızı seyr etdim.

Bütün bunlar onu sübut edirdi ki, qışın oğlan çağı çox sürətlə gəlib qapımızı döymüşdür. Nə etməli? Şaxtalı qış fəsli vaxtından qabaq özünü yetirmişdir. Hamıya sevinc, ölkəmizə bolluq gətirən qar həm də o deməkdir ki, bərəkətli torpaqlarımızın məhsuldarlığı növbəti ildə bir qədər də artacaq və xalqın güzəranı daha da yaxşılaşacaqdır. Beləliklə də, təknəmizdə çörək, süfrəmizdə nemətlər bollaşacaqdır...

**19 dekabr, 2002-ci il.** Gözəl payız axşamı... eyvana çıxıb sanki səmanı bir neçə dəqiqəlik seyr etdim. Dumanlı sakit hava o qədər mənə yaxşı təsir bağışlamışdı ki, özümü bir anlığa Şuşada hiss etdim. Elə bilirdim ki, Şuşanın küçələrini seyrə çıxmışam. Doğrudan da, Yeni Yasamalın ab-havası, dağlarının görkəmi cüzi də olsa bir tərəfdən Şuşanı xatırladır...

**20 dekabr, 2002-ci il.** İşdən gec çıxmağıma baxmayaraq adətim üzrə eyvana çıxmalı oldum. Yenə də sakit dumanlı hava...

Doğrudan da hər bir fəslin öz gözəlliyi vardır. Payızın da yaraşığı dumanlı-çiskinli havadır. Əlbəttə, belə sakit havanın olması insan sağlamlığının rəhnidir. Mən belə havanın vurğunuyam. Payız vaxtı Şuşada olanda yaşadığım binanın taxtapuçuna iri yağış damlaları düşdükcə sanki özümü behiştdə hiss edərdim. Damcıların səsi musiqi ritminə bənzəyirdi. Buna bənzər Yeni Yasamaldakı mənzilimizin eyvanındakı işıq projektorunun dəmirinə yağış damcıları düşdükcə necə də heyranedici səs alınırdı.

Mənə belə gəlir ki, insan təbiəti sevməli, hər fəslin gözəlliyini hiss etməli və ondan istifadə etməyi bacarmalıdır. Yoxsa yeyib-yatmaqla iş bitmir. Çox yemək adamı az yeməkdən məhrum edir. Bunun nəticəsində də insanın ürəyi zəifləyir və nəticədə təngənəfəs olur. Eyni zamanda, çox yatmaq da ziyandır. İnsan daim hərəkət etməli və fiziki əməklə məşğul olmalıdır. Əks halda, bədənin bütün əzələləri kütləşir və necə deyərlər»ölü vəziyyətinə düşür. Bütün bunları mən 65 illik həyat təcrübəmdə müşayiət etmişəm.

**21 dekabr, 2002-ci il.** Çox sərt və dəhşətli hava... Bu təsadüfi deyildir... Payız artıq öz yerini qışa təhvil verməlidir... Ona görə də «çaxnaşma» başlamışdı. Çovğunlu qar yağırdı, yollar yenidən qarla örtülmüşdü. Küləyin ardı-arası kəsilmirdi... Havanın temperaturu həddindən artıq aşağı düşmüşdü. Bu gün payızın axırıncı axşamı idi. Gecə saat $24^{00}$-dən sonra payız öz əməllərindən peşmançılıq çəkərək yerini qışa təhvil verəcəkdir. Ona görə də coşmaq əbəs yerədir. Onsuz da ömrünün axır məqamıdır.

Əlvida payız... 22 gündür sən bizə gün verib işıq vermədin... Gələn ilin sentyabrında görüşənədək...

*22.12.2002.-ci il.*



## Dəllək Avtandil

Doğrusu, mən indiyə kimi üzümü dəlləyə vurdurmamışdım. Ona görə də dəlləyin ülgücündən ehtiyat edirdim.

1986-cı ilin mart ayının 21-də Qarabağın fəxri, ana vətənim Şuşaya 3-4 günlüyə səfərdə oldum. Novruz bayramını Şuşada keçirməyin ayrı ləzzəti vardır. Sanki, baharın təravəti adama ruh verirdi... Səma necə də adamı özünə cəlb edirdi. Belə bir gündə gözəl Şuşada olmaq necə də fərəhlidir.

Şuşaya gələn gündən iki gün keçmişdi. Artıq sifətimdə tük görünürdü. Bir iş var idi ki, indiyə kimi saqqalıma dəllək əli dəyməmişdi.

Çoxdandır ki, qohumları, tanışları görmürdüm. Bazar başında qaynım Teymur ilə görüşdüm. O, sifətimə baxıb mənə bildirdi:

-Pərviz müəllim, bu gün saqqalını vurdurmalısan, özü də mənim hesabıma. O, mənə əlavə etdi ki, mənim yaxşı bir dəlləyim vardır. Onun adı Avtandildir, gedək onun yanına, tapşırım sənin üzünü ürəyin istədiyi kimi qırxsın.

Dəllək, nə dəllək..., sizə necə təsəvvür etsəm yaxşıdır?

Bazar başındakı bərbərxanaya girən kimi orta boylu, xoşsifət, göy-göz bir kişi bizi doğrudan da ürəyimiz istədiyi kimi qarşıladı.

Teymur dəlləyə məni kamal-ehtiramla təqdim etdi. O, məni kresloda oturdub yaxama təmiz yuyulmuş, daha doğrusu qatı açılmamış ağ parça sərdi. Necə də təmiz idi.

Doğrusu, mən Bakı şəhərində rastlaşdığım bərbərxanalarda da belə təmiz ağ parça görməmişdim. Buna görə də demək Avtandil öz sənətinə layiq adam idi. Necə də o, mənə ürəkdən qulluq edirdi... Bunun da bəzi səbəbləri var idi.

-Əvvəla, qaynım Teymurun əliaçıqlığına söz ola bilməzdi. O, əvvəlcədən dəlləyə keçmiş pulla bir manat əvəzinə 2 manat təqdim etdi:

-İkincisi, Teymurun hörməti dəlləklərin yanında birə-on qat artmışdır. Buna görə də Avtandil bildirdi ki, Teymurun yeznəsi

Bakıdan təşrif gətirmişdir. Əlbəttə, o, öz qabiliyyətini göstərməlidir…

Dəllək Avtandil, sizi inandırıram ki, mənə elə qulluq etdi ki, mən onun xidmətindən xəcalət çəkdim. Demək olar ki, bir saata yaxın saqqalıma qulluq olundu. Bu müddətdə Avtandil qaynımla zarafatlaşıb, arabir mənim hal-əhvalımı xəbər alırdı.

O, gah bığ yerimi, gah xət yerimi düzəldir, gah da üzümü massaj edirdi. Deyə bilərəm ki, onun barmaqları üzümə toxunduqca, sanki mənə ruh verirdi.

Bax, Avtandil belə sənəkarlardan idi. O, öz xidmətindən ləzzət alırdı.

# QƏZETLƏRDƏN SƏTİRLƏR

## Tarixi və mədəni abidəmizin ziyarətgahında

Leninqrad MİI-nin Bakı filialının «Kommersiya» fakültəsi həmkarlar təşkiliatının təşəbbüsü ilə bir qrup professor-müəllim heyəti və laborantlar «Atəşgah» Dövlət Tarixi-Memarlıq qoruğunda ekskursiyada olmuşlar. «Atəşgah» ilə əlaqədar təəssüratımı oxuculara bildirmək istəyirəm.

Abşeronda ağ nefti ilə çoxdan məşhur olan Suraxanı kəndində, Bakının indiki Orcanikidzeneft mədənləri rayonunun lap gur yerində sadə, eyni zamanda, memarlıq cəhətdən orijinal bir tikili vardır. Bu Atəşgahdır – təbii qazların çıxdığı əbədi sönməz alov yerində hindlilərin XVII-XVIII əsrlərdə əmələ gəlmiş atəşgah məbədidir. İnsanlar bu alova hələ qədimdən böyük ehtiramla yanaşmışlar. Bəlkə, indiki hind ibadətgahının vaxtılə dini bunkerlərdə hakim olan atəşpərəstlərin, zərdüştlərin qədim atəşgahlarının yerində durur.

XVII-XVIII əsrlərdə Azərbaycanla Hindistan arasında qızğın ticarət gedirdi, ticarət karvanlarının arxasınca ilahi atəşlərin yanına hindlilər-brəhmən və siqxlər gəlmişlər. Onlar burada, uzaq Xəzər dənizinin sahilində öz ibadətgahlarını yaratmışlar. XVIII əsrdə ibadətgahının ətrafında, bir-birinin yanında ibadətxana, yaşayış hücrələri, karvansaray tikdirmişdir.

Həyətin ortasında əsas ibadətgah darvazası olan səcdəgahın girdə qübbəli kiçik binası ucalır. Portal-darvazanın üstündə Abşeronda ənənəvi olan qonaq otağı «balaxana» yerləşir.

Yeni memarlıq ənənələri əsasında tikilmiş Atəşgahda qədim səcdəgahların və Hindistanın bəzi məbədlərinin cizgiləri də vardır. İbadətgahın üstündəki ən qədim tarixi göstərən yazı 1713-cü ilə aiddir.

Uzaq Hindistandan gəlmiş adamlar daşda özləri barədə xatirə – hind hərfləri danaqar və qurmurlar barədə oyma yazıları qoyub getmişlər. Məbədin girişi formulları, şerlər (şloklar) və ayrı-ayrı ibarələr şəklində olan 16 yazısında qədim hind dili sanskrit görünür.



Biz Atəşgahda olarkən bütün bunlar barədə ətraflı məlumata yiyələndik.

İnstitutun muzeyinin nəzdində fəaliyyət göstərən İctimai peşələr fakültəsinin «Tarixi və mədəni abidələrin mühafizəsi» kursunun dinləyiciləri də ekskursiyada olmuşlar*.

---

* Qeyd: Məqalə «İqtisadçı» qəzetinin 21 aprel 1989-cu il tarixli nömrəsində dərc olunmuşdur.

## Hörmətli redaksiya!

«Azərbaycan» jurnalının 1997-ci ilin 5,6,7-ci nömrələrində dərc etdiyiniz yazıçı Bayram Bayramovun «Cıdır düzü» romanının birinci hissəsini böyük həvəslə oxudum. Romanda elm və mədəniyyət mərkəzi sayılan Şuşa haqqında geniş məlumat verilir. Maraqlı burasıdır ki, romanı oxuyarkən xəyalən Şuşanı gəzirsən. Yazıçı hadisələri inkişaf etdirərək məkana xüsusi diqqət vermişdir. Bazarbaşı, Hamamqabağı, Çanaqqala, Dövtələb, Cıdır düzü bütün şuşalılar kimi bizə də doğmadır. Hiss olunur ki, yazıçı bu romanı uzun müşahidələrdən sonra yazmışdır. Tanış küçələr, dar döngələr, qartallı yalçın qayalar, Daşaltı çayının həzin səsi, təbiətin əsrarəngsiz gözəllikləri göz önündə canlanır. Romanda ən çox xoşa gələn təbiətin təsviridir. Eyni zamanda, şuşalılara xas həyat tərzi, adətlər, yayda istirahət edənlərin gəlməsi ilə baş verən dəyişikliklər olduğu kimi təsvir olunmuşdur.

Romanda iki ailə arasındakı münasibətlər də maraqla oxunur.

Yaxşı olar ki, yazıçı Bayram Bayramov romanın sonrakı fəsillərində Şuşanın keçmişinə aid olan tarixi faktlardan istifadə etsin. Eyni zamanda da, romanın realist-bədii dəyərini artırmaq məqsədilə Şuşada yaşayıb-yaratmış, yerli əhalinin dərin rəğbətini qazanmış adamların surətlərini əks etdirsin.

***Hörmətlə:*** ***/Pərviz Axundov/***

***27.11.1977-ci il.***



## Qeydinə qalanı hayıf ki, yoxdur...

Hörmətli redaksiya!

«Ədəbiyyat və incəsənt» qəzetinin 22 may 1987-ci il tarixli nömrəsindəki «Satira, yumor» guşəsində İsa Quliyevin «Yoxdur» satirik şeri çox yerində dərc olunmuşdur. Doğrudan da Şuşa şəhəri respublikamızın kurort şəhərlərindən biri olduğuna baxmayaraq şəhərdə sosial-quruculuq işləri ləng aparılır. Bu məsələ barəsində Azərbaycan KP MK-nın aprel /1987-ci il/ Plenumunun materiallarında göstərilmişdir:

-...sosial məsələlərin həllində yerli Xalq Deputatları Sovetlərinin rolu aşağı səviyyədə qalır, onlara verilmiş geniş hüquqlardan zəif istifadə olunur.

... Yenidənqurma bir çox yerli Sovetlərə əslində hələ gedib çatmamışdır, onlar güclü irəliləyişin, necə deyərlər, arxasınca sürünürlər.

...Şuşa... və bir çox başqa rayon Sovetlərinin İcraiyyə Komitələri vacib abadlaşdırma məsələləri ilə, sosial sahənin inkişafı ilə illərlə məşğul olmurlar...

Bununla əlaqədar olaraq qeyd etmək istərdim ki, Şuşa şəhərinin gözəl istirahət guşəsi sayılan «İsa bulağı»nın yolları hələ indiyə kimi çalalı, çuxurlu vəziyyətdə qalır. Doğrudan da, adı-sanı respublikada məşhur olan bu şəfa ocağının qeydinə qalanı yoxdur.

Hələ mən Şuşada tarixi abidə sənədi kimi yadigar qalan şəhər bulaqlarından söhbət açmaq istəmirəm. Yalnız onu deyə bilərəm ki, tarixi şəhərin 17 məhəlləsinin 17 bulağından ancaq bir neçəsinin nümunəsi qalmışdır. Lakin həmin bulaqların üzünə baxanda adam xəcalət çəkir. Sanki bulaqlar «dil açıb su diləyir». Şəhərin mərkəzində yerləşən Xurşud Banu Natəvanın bulağının da vəziyyəti ağırdır. Bulaq su həsrətindən tez-tez xəstələnir... Bunlar bir yana qalsın, heç olmazsa «göz yaşı axıdan», şəfa suyu ilə dərdlərə dərman olan «İsa bulağı»nın qayğısına qalınsa, bəlkə də şəhər bulaqlarının «acınacaqlı vəziyyəti» müvəqqəti olsa da yaddan çıxar.

Əlbəttə, bizə belə gəlir ki, «İsa bulağı»nın sahəsinin sahmana salınmasında və natəmizliyin aradan qaldırılmasında Şuşa rayon XD Soveti İcrayyə komitəsinin məsul işçiləri tezliklə tədbir görsələr yaxşı olardı. Əks təqdirdə, Şuşanın qonaqları qarşısında başı aşağı olarlar...

***Hörmətlə:*** ***/Pərviz Axundov/***

***12.06.1987-ci il.***



## Tükənməz səbrimizə təsəlli olardı...

Hörmətli redaksiya!

«Aydınlıq» qəzetinin 28 dekabr 1990-cı il tarixli nömrəsində M.Ə.Rəsulzadə adına BDU-nun tarix fakültəsində daimi fəaliyyət göstərən «Dəyirmi stol» iştirakçılarının Azərbaycan SSR Ali Sovetinə müraciətini oxuduqdan sonra mən nə qədər həyəcanlandım. Səbr kasam dolduğuna görə Sizin qəzetə özümün şəxsi mülahizələrimi yazmağa məcbur oldum.

Doğrudan da, 1920-ci ilin aprel ayının 28-də Azərbaycanın qanuni hökumətinin (AXC) devrilməsi yalnız xarici hərbi müdaxilə və təcavüz nəticəsində mümkün olmuşdur.

28 aprel təcavüzkarlıq çevrilişi nəticəsində Azərbaycan xalqı amansız terrora və zorakılığa məruz qalmış, XI Qızıl ordu hissələri tərəfindən xarici müdaxiləyə qarşı kütləvi xalq hərəkatının yatırılması prosesində on minlərlə günahsız adam həlak olmuşdur. Buna görə də «28 aprel hadisəsi»nə siyasi qiymət verilməsinin vaxtı çatmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti kimi biz başa düşməmişik və əksinə, onun şərəfinə 70 il bayram etmişik. Və əlavə də onun adını respublikamızın bir sıra yerlərində əbədiləş-dirmişik. Hətta Bakı metrosunun stansiyalarının birinə «28 aprel», digər yerinə isə «XI Qızıl ordu meydanı» adlarını qoymuşuq.

Mənə belə gəlir ki, «28 aprel» stansiyasının adının dəyişdirilməsinin vaxtı çatmışdır. Həmin stansiyanın «Dəmir yolu vağzalı» adlandırılması məqsədəuyğun olardı. Çox vaxt Bakı şəhərinə gələn qonaqlarımız dəmir yolu vağzalına gedən metrostansiyanı aydınlaşdıra bilmirlər. Bunun da nəticəsində bəzən qatara gecikənlər çox təəssüflənirlər... Ölkənin Moskva, Kiyev və başqa şəhərlərində də «Vağzal» metrostansiyaları vardır. Bu barədə həmin şəhərlərin təcrübəsindən istifadə etmək lazımdır. Digər metrostansiyanın, yəni «XI Qızıl Ordu meydanı»na «20 yanvar meydanı» adının verilməsi məqsədəuyğundur.

Nə vaxta kimi biz fırıldaqçı stepanların adlarını əbədiləşdirib qoruyacağıq? Nə vaxta kimi Azərbaycan respublikamızda

həyasızcasına torpaq iddiasında olan Poqosyan, Manuçarov, Balayan və başqa terrorçular doğma yurdumuzda bizə ağalıq edəcəkdir? İrəvanda bir nəfər azərbaycanlı yaşamadığı halda respublikamızın ərazisində görün neçə yüz erməni yaşayır. Hətta onlardan bir sırası özlərini maskalandırmaq üçün Azərbaycan familiyasına keçiblər. Amma biz bundan ibrət dərsi almırıq. Bir məsələni də qeyd etmək yerində olardı ki, hazırkı vaxtda Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Stepanakert şəhəri vilayət mərkəzi kimi özünün hüququnu itirmişdir. Buna görə də Stepanakert, Şuşa və Xocalı şəhərlərinin müstəqil şəhər kimi Azərbaycanın tərkibində qalması daha məqsədəuyğundur.

Dağlıq Qarabağ Muxtar Vilayəti isə vilayət statusu kimi birdəfəlik ləğv olunmalıdır. Buna da əsas vardır. Bir halda ki, Ermənistan Respublikasından didərgin düşən 200 minlik azərbaycanlıya muxtariyyət verilmədiyi halda, Azərbaycan Respublikasının ərazisinə tamamilə aid olan Dağlıq Qarabağda yaşayan ermənilərə nə üçün muxtariyyət verilməlidir. Onsuz da Azərbaycan respublikamız ərazisində yaşayan müxtəlif millətlər bir məfhumda birləşdirilmişlər.

Üçüncü, Pənah xanın nəslindən yadigar qalan «Xan kəndi» Stepanakert şəhəri adlanır. Heç biz bundan narahat olmuruq. Lakin bunun əksinə olaraq erməni millətçiləri doğma torpağımızda bizə atəş açırlar, bizi vəhşicəsinə qırırlar, bizi öz yurdumuzdan da qovub çıxarmağa çalışırlar. Əllərində əlacı olsa, deyərlər ki, Bakı və Gəncə şəhərlərini də onların əcdadları tikdiriblər. Nə vaxta kimi Şuşamızı (Pənahabadı), Göy gölü asudə gəzib seyr edə bilməyəcəyik.

Mənim fikirmcə, tezliklə Azərbaycan Respublikası Ali Sovetinin növbəti sessiyalarının birində Stepanakert şəhərinin adının dəyişdirilib «Xan kəndi» qoyulması məsələsinə baxılsa xalqın ürəyindən olardı. Bu da erməni terrorçularının azğınlaşmış fəaliyyətinin qarşısının alınmasına müsbət təsir edərdi.



Daha doğrusu, «Böyük Ermənistan imperiyası» iddiasında olan erməni daşnaklarına yeni bir zərbə olardı. Bu da, tükənməz səbrimizə heç olmazsa təsəlli verərdi.·

***Hörmətlə:*** ***/Pərviz Axundov/***

***14.03. 1991-ci il.***

· Qeyd: Redaksiyadan xahiş edirəm ki, qonorarımı respublikanın yetim uşaqların fonduna keçirəsiniz.

## Midhət Cavanşiri axtarıram

*«Naxçıvan» qəzetinin baş redaktoru Rizvan Cəbiyev cənablarına*

Hörmətli baş redaktor!

Qəzetinizin 1994-cü ilin 26-cı sayında «Mirzə Cəlilin nəvə-nəticələri ilə görüşlər» məqaləsini oxuyub tanış oldum. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sədr müavinləri ilə Cəlil Məmmədquluzadənin Tehran şəhərində yaşayan nəvəsi Midhət Ənvər oğlu Cavanşirin görüşləri çox fərəhləndiricidir.

Mirzə Cəlilin mühacirətdə yaşayan nəslinin axtarılıb ortaya çıxarılmasında Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru, filologiya elmləri namizədi İsa Həbibbəylinin mühüm rolu olduğu artıq bizə bəllidir.

Qeyd etmək istərdim ki, 1918-ci illərdə Şuşada Mirzə Cəlilin övladları Ənvərə və Midhətə və onun yaxın qohumu Teymur Kəngərliyə ilk «Əlifba»nı öyrətmək üçün məşhur Azərbaycan pedaqoqu Mirzə Xosrov Axundzadəni evinə dəvət edir. Mirzə Xosrovun yaxşı bir pedaqoq olmasını məşhur təbib Kərim bəy Mehmandarov Mirzə Cəlilə vaxtında söyləmişdir. Elə həmin gündən etibarən Kərim bəy Mirzə Xosrovu Mirzə Cəlillə və onun həyat yoldaşı Həmidə xanımla tanış etmişdir. Onlar Mirzə Xosrovun pedaqoji üsullarını bəyənmiş və uşaqlarına «Əlifba»nı öyrətməsini ondan xahiş etmişlər.

1919-cu ildə Həmidə xanım Mirzə Cəlilin «Ölülər» və «Anamın kitabı» əsərinin əlyazmasını oxumuş və əsərlər o qədər onda təəssürat yaratmışdır ki, hətta uşaqlarının ilk «Əlifba müəllimi» Mirzə Xosrov Axundzadənin dəst-xətti yaxşı olduğuna görə, əlyazmanın üzünün köçürməsini ondan xahiş etmişdir.

Xosrov müəllim Həmidə xanımın xahişini yerinə yetirərək «Ölülər» və «Anamın kitabı» əlyazmalarının üzünü köçürmüş və ona təqdim etmişdir. Həmin əlyazmalar Azərbaycan Respublikası EA Əlyazmaları İnstitutunun fondunda indiyə kimi qorunub saxlanılır. Bu barədə Həmidə xanımın «Cəlil Məmmədquluzadə haqqında xatirələrim»də də qeyd olunmuşdur.



Mən hətta Mirzə Cəlil Məmmədquluzadənin xatirəsini əziz tutmaq məqsədilə vaxtı ilə Mirzə Xosrovun şəxsi mülkündə qorunan, Şuşada tarixi bir eksponat sayılan «Qarabağ» xalçasının 1985-ci ildə Mirzə Cəlilin ev muzeyinə təhvil vermişəm. 1918-ci ildə Mirzə Cəlil və Mirzə Xosrov /Şaiq təxəllüs/ həmin xalçanın üzərində əyləşib ədəbi mübahisələr etmişlər.

Atam Mirzə Xosrov Şaiq Mirzə Cəlil Məmmədquluzadə haqqında ətraflı xatirələr yazıb yadigar qoymuşdur. Həmin xatirələr toplusu 1993-cü ildə «Yazıçı» nəşiriyyatı tərəfindən «Ömürdən səhifələr» adlı əsərləri külliyyatı çapdan çıxmışdır.

Bütün bunları yazmaqda məqsədim odur ki, mən Mirzə Xosrov Axundzadənin həyat və yaradıcılığının 30 illik tədqiqatçısı kimi Mirzə Cəlilin nəvəsi Midhət Ənvər oğlu Cavanşirlə görüşmək arzusundayam. Əgər mənə belə bir şərait yaradılsa əlbəttə, mənim həyatımda və yaradıcılığımda çox əhəmiyyətli bir mərhələ baş verərdi. Eyni zamanda, Mirzə Cəlil ocağına həsr olunmuş Naxçıvan televiziyasının çəkdiyi «Nəslin davamı» adlanan sənədli filmin quruluşunda bəzi əlavələrin edilməsində bəlkə də mənim də köməkliyim olardı.

Ümidvaram ki, arzularımın həyata keçirilməsinə köməklik göstərəcəksiniz*.

***Hörmətlə:*** ***/Pərviz Axundbəyli/***

***4.10.1994-cü il.***

* Qeyd: Məktub-müraciət «Naxçıvan» qəzetinin 20 oktyabr 1994-cü il tarixli nömrəsində dərc olunmuşdur.

## Arzunuz gerçək olsun...

Hörmətli Aqil Abbas!

«Ədalət» qəzetinin 8 yanvar 1994-cü il tarixli nömrəsinin I-ci səhifəsində «Güləbətin» firması milli ordumuzun əsgərlərindən və ya komandirlərindən üç rəngli bayrağımızın Şuşa şəhərinə daxil olub şəhərə sancacaq ilk şəxsinə 20 milyon rubl məbləğində pul mükafatı veriləcəyini bildirmişdir. Çox sağ olsun həmin müəssisənin rəhbərliyi və kollektivi.

Lakin yaxşı olardı ki, müəssisələrinin adını indidən «Xarıbülbül» qoyaydılar. Yəqin ki, üç rəngli bayrağımız Cıdır düzünün ən yüksək zirvəsində dalğalanacaqdır. Həmin zirvədə də ancaq Xarıbülbül çiçəyi bitir.

Sizdən xahiş edirəm ki, bu qısa yazımı qəzetinizdə olduğu kimi dərc edəsiniz.

*Hörmətlə:* *Pərviz Axundbəyli*

*11.01.1994-cü il.*



## Soy kökümüz haqqında qısa məlumat

Atam Mirzə Xosrov Axundzadənin şifahi danışıqlarından mənə məlumdur ki, nəslimizin soy kökü yəni, ata tərəfimiz Bəhmən Mirzə Qacarın nəslindən irəli gəlir.

Bəhmən Mirzə Qacar (1808-1884) – İran şahzadəsi, Qacar sülaləsinin üçüncü hökmdarı (1834-1848) Məhəmməd şahın qardaşıdır. Qardaşı ilə münasibəti pozulduğu üçün İrandan mühacirət edib Şuşada sakin olmuş və ömrünün sonuna kimi orada yaşamışdır. Məzarı Bərdə qəbiristanlığındadır.[x]

Hərb tariximizin tədqiqatçısı polkovnik-leytenant Şəmistan Nəzirli Bəhmən Mirzə Qacarın oğlu general Əmənulla Xan Mirzə Qacar haqqında müfəssəl məlumat vermişdir. Onun yazdıqlarından aydın olur ki, şahzadə general Əmənulla Xan Mirzə Qacar Şuşada anadan olmuşdur. O, məşhur Azərbaycan sərkərdəsi şahzadə Abbas Mirzənin nəvəsi, Bəhmən Mirzə Qacarın oğludur.

General-mayor Əmənulla Xan Qacar 1918-1920-ci illərdə dörd general qardaşı ilə birgə milli Azərbaycan ordusunun yaranmasında əvəzsiz xidmət göstərmişlər.

1937-ci ildə Əmənulla Xan Qacar Tehranda vəfat etmişdir. Onun nəslindən olan çoxsaylı hərbçilər 1920-1930-cu illərdə bolşevik-daşnaklar tərəfindən güllələnmişlər.[xx]

Digər soy-kökümüz Azad bəy Vəzirovlar sülaləsi ilə əlaqədardır. Azad bəyin 4 oğlu və 3 qızı olmuşdur. Oğlanlarının dördü və iki qızı çoxdan vəfat etmişdir. Üçüncü qızı Gülrux Vəzirova isə 2004-cü ilin avqust ayında 84 yaşında vəfat etmişdir.

Oğlanlarından böyüyü Musa və ortancılı isə Süleyman idi. Süleyman Vəzirov Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatı laureatı, Əməkdar Elm və Texnika xadimi, Respublikanın neft sənayesinin görkəmli təşkilatçılarından biri kimi tanınmışdır.

---

[x] Məlumatlar Həmidə xanım Məmmədquluzadənin «Mirzə Cəlil haqqında xatirələri»ndən götürülmüşdür.

[xx] «Azərbaycan» qəzeti, 8 yanvar, 1999-cu il.

**Haşiyə:** Süleyman Azad bəy oğlu Vəzirov (1910-1973) Şuşa şəhərində anadan olmuşdur. Atası Azad bəy (1864-1920) Peterburqda hərbi təhsil almış və ona xüsusi göstərişlə polkovnik rütbəsi verilmişdir. Anası Zəhra xanım Şuşada məşhur həkim Kərim bəy Mehmandarovun və Şahzadə Zari Qacarın xanımının qızı idi. Onlar imtiyazlı şəraitdə yaşamışlar. Uşaqları alman mürəbbiyəsinin tərbiyəsi altında böyümüşlər. Başqa dövlətli ailələrlə birlikdə «Mineral sular» istirahət yerində dincələrdilər.

Qaynanasının dediyinə görə Yeni ildə və Novruz bayramında ailəli qadınlar Peterburqdan Süleymanın əmisi məşhur sahibkar və mühəndis Fərrux bəy Vəzirovdan (1862-1920) karton şəbəkəsi ilə bəzədilmiş təntənəli ziyafət alardılar. Evdə Şuşadan və Bakıdan adlı-sanlı və qabaqcıl adamlar olardı.

Gənc Süleyman əmisi general Səməd bəy Mehmandarovun söhbətlərini yadında saxlayardı. Hətta onun Port-Arturun müdafiəsi uğrunda döyüşlərdə əldə etdiyi məşhur «Qızıl xəncər» mükafatını görmüşdür.

Kərim bəy Mehmandarov Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanımla dostluq edərdi.

Eyni zamanda, atam Mirzə Xosrov da Kərim bəy Mehmandarovla və digər mütəfəkkir şəxslərlə ədəbi əlaqələr yaratmışdı.

Bu barədə Süleyman Vəzirov özünün xatirələrində yazır:

-Mirzə Xosrov ilə mənim ilk tanışlığım 1918-ci ildə Şuşa şəhərində olmuşdur. Həmin ildə babamız həkim Kərim bəy Mehmandarovun məsləhəti ilə Mirzə Xosrov müəllim Azərbaycan dilinin yazısından təhsil vermək üçün bizə dəvət olunmuşdur.

1923-1924 və 1926-cı illərdə, yay tətili dövründə, məni Bakıdan Şuşaya yola saldılar. Mirzə Xosrov müəllim mənimlə, kiçik qardaşım İsa ilə, əmim oğlu Əsəd Rüstəmbəyovla və İsgəndər Tağıyevlə məşğul olmuşdur.

Nəslimizin üçüncü bir soy kökü Əhməd bəy Cavanşirlər sülaləsidir. Həmidə xanım Əhməd bəyin qızıdır.

Əhməd bəy Cavanşir 1848-ci ildə Peterburqda hərbi məktəb bitirib, altı il rus ordusunda xidmət etdikdən sonra 1854-cü



ildə ordudan tərxis olunub indiki Ağcabədi rayonunun Kəhrizli kəndinə qayıtmış və ömrünün 50 ilini burada yaşamışdır.[x]

Həmidə xanım – (1873-1955) Ağdam şəhərinin Kəhrizli kəndində anadan olmuşdur. O, heç bir rəsmi məktəbdə təhsil almamışdır. Ancaq şəxsi mütaliə yolu ilə özünün savadını, biliyini artırıb, zəmanəsinin qabaqcıl ziyalılarından biri olmuşdur.

Həmidə xanımın ilk həyat yoldaşı İbrahim bəy Davatdarov (1851-1902) olmuşdur. İ.Davatdarov indiki Bərdə rayonunun Ərəblər kəndində doğulmuşdu və özünün ictimai mənşəyi etibarı ilə zadəgan nəslinə mənsub idi. İbrahim bəy vəfat edərkən Həmidə xanımın iki övladı – qızı Mina (1890-1923), oğlu Müzəffər (1900-1959) var idi.

1902-ci ildə ərini, bir il sonra isə atasını itirən Həmidə xanım Kəhrizlidə yaşayaraq atasının mülkünü idarə edib uşaqlarını böyütmüşdür. 1905-ci ildə o, Tiflisdə Cəlil Məmmədquluzadə ilə tanış olub, 1907-ci il iyunun 15-də ona ərə getmişdir. Cəlil Məmmədquluzadə Həmidə xanımla 25 il ailə həyatı sürmüşdür. Bu çətin günlərdə o, ərinin əməl dostu, sirdaşı, köməkçisi olmuş və Mirzə Cəlilin dediyi kimi, ona «iki oğul-Ənvər və Midhəti bəxş etmişdir.[xx]

Süleymanın böyük qardaşı Musa Vəzirov özünün xatirələrində belə qeyd edir:

- «Şərq ədəbiyyatında, tarix və filologiyada xeyli bilik mənbəyinə malik olan Mirzə Xosrov Axundzadə bizə daha çox yüksək səviyyədə bilik verərək şərq klassiklərinin əsərlərinin qiymətləndirilməsini bizə öyrədərdi.

Bizimlə bərabər, yəni xalam Məhbubə xanım Mahmudbəyova, böyük bacım Xeyransa xanım, mən və qardaşım Süleyman Vəzirov Mirzə Xosrov, Həmidə xanımın birinci ərindən olan Müzəffər Davatdarovla, eləcə də Mirzə Cəlil Məmmədquluzadənin qızı Münəvvər xanımla və oğlanları Ənvər və Midhətlə məşğul olardı. Həmin vaxt Mirzə Cəlil demişdir:

---

[x] Məlumatlar Həmidə Məmmədquluzadənin «Mirzə Cəlil haqqında xatirələrim»dən götürülmüşdür.

[xx] Məlumatlar Abbas Zamanovun «Həmidə xanım Məmmədquluzadə və onun xatirələri haqqında» məqaləsindən götürülmüşdür.

- «Bu müəllim daha yaxşı pedaqoqdur, onun gözəl müəllimlik metodu vardır».

Mirzə Xosrovun pedaqoji metodları və onun dəsti-xətti Həmidə xanımın çox xoşuna gəlmişdir. Buna görə də o, Mirzə Cəlilin yazıb qurtardığı «Ölülər» və «Anamın kitabı» pyeslərinin üzünü köçürüb ona verməsini Mirzə Xosrovdan xahiş etmişdir.

1919-cu ilin fevral ayının sonunda Mirzə Xosrov həmin pyeslərin üzünü köçürüb Həmidə xanıma təqdim etmişdir. Hazırda həmin əlyazmalar Azərbaycan Milli EA-nın Respublika Əlyazmaları İnstitutunun əsaslı fondunda saxlanılır*.

* Həmidə Məmmədquluzadə – «Mirzə Cəlil haqqında xatirələrim», B., Azərnəşr 1967, səh.85-86



## Şərhlər

1. **Molla Sadıq İmanxan oğlu Mühaşiq** – (Mirzə Xosrovun ulu babasıdır). Onun Şuşada mədrəsəsi var idi, eyni zamanda şairliklə də məşğul olmuşdur. Molla Sadığın təqribən 80-a yaxın yaşı var idi. Fars dilini mükəmməl bilirdi. Cavanlıq dövründə gözəl səsə malik idi. Buna görə də xanəndəlik etmişdir. Mehdiqulu xanın qızı Xurşud Banu Bəyimin dərgahında güzəran keçirmişdir.

Molla Sadiq 1310-cu ilin cəmadi-əs-sani ayında (yeni tarixlə 1892-ci ildə) Şuşada vəfat etmişdir.

2. **Molla Zeynalabdin Molla Sadıq oğlu Sağəri** (Mirzə Xosrovun babasıdır). 1791-ci ildə Şuşada anadan olmuşdur. Şuşada mədrəsəsi var idi, eyni zamanda, şairliklə də məşğul olmuşdur. Fars dilində yazdığı şerlər əsasında iki «Divan»ı var idi. Əlyazmasının üzünü 1846-cı ildə katib Kərbəlayi Nəsrulla Kərbəlayi Musa oğlu Mərəndi-Mərənd şəhərində köçürmüşdür.

Molla Zeynalabdin Sağəri 1854-cü ildə Şuşada Böyük qurdlar məhəlləsində ildırım zərbəsindən vəfat etmişdir.

3. **Mirzə Əli Aşiq Molla Zeynalabdin oğlu Axundzadə** – Mirzə Xosrovun atasıdır. 1846-cı ildə Şuşanın Böyük Qurdlar məhəlləsində doğulmuşdur. Şair, müəllim, musiqişünas, xanəndə və gözəl xəttat adı ilə tanınan Mirzə Əli Aşiq Qarabağ əhli arasında layiqli bir yer tutmuşdur. Mirzə Əlinin Şuşanın Seyidli məhəlləsindəki məsciddə mədrəsəsi var idi. Onun əlyazmalarının bir qismi Azərbaycan Milli EA-nın Respublika Əlyazmaları İnstitutunda qorunub saxlanılır.

Mirzə Əli Aşiq 1903-cü ildə Şuşada vəfat etmişdir.

4. **Mirzə Xosrov Mirzə Əli oğlu Axundzadə-Şaiq təxəllüs**-1889-cu il, iyun ayının 13-də Şuşada doğulmuş və yaşayıb-yaratmışdır. O, 50 il pedaqoji fəaliyyətlə məşğul olmuş, 54 il isə ədəbi yaradıcılıq keçirmiş, Qarabağın tarixini yazan axırıncı müəlliflərdən biridir. Onun şəxsi arxivində 364 səhifəlik "Divan»"ı və xalq təbabətinə dair yazıları vardır.

İlk dəfə M.X.Axundzadənin pedaqoji fəaliyyətinə və ədəbi yaradıcılığına dair "Mənalı həyat" ("Gənclik", 1976) kitabçası nəşr olunmuşdur.

Bundan başqa, onun «Ömürdən səhifələr» ədəbi toplusu (Yazıçı, 1993) və «Pedaqoji mülahizə və təcrübələrim» ("Maarif, 2000) əlyazmaları çapdan buraxılmışdır.

M.X.Axundzadənin həmin əlyazmaları Azərbaycan Milli EA-nın Respublika Əlyazmaları İnstitutunda qorunub saxlanılır. Bununla yanaşı, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Dövlət Ədəbiyyat və İncəsənət və Dövlət Səsyazmalar arxivlərində onun fondu təşkil olunmuşdur.

M.X.Axundzadə 1960-cı il may ayının 10-da Şuşada vəfat etmişdir.

**5. Mirzə Süleyman ibn Mirzə Əli ibn Molla Kəlbəli Qarabaği** – (Mirzə Xosrovun böyük qardaşıdır) 1866-cı ildə Şuşa şəhərində anadan olmuşdur. Həlim, xoşrəftar, düz qamətli bir şəxs idi. Məşğuliyyəti müəllimlikdir. Bir sıra şerləri də vardır. Şerlərini klassik üslubda, Azərbaycan və fars dillərində yazmışdır.

M.S.Axundzadə 1947-ci ildə Tərtər rayonunda vəfat etmişdir.

**6. Mirzə Məhəmməd Məşədi Bayram oğlu Qarabaği** (Mirzə Xosrovun əmisi oğludur). Təxəllüsü Katibdir. 1833-cü ildə Şuşada doğulmuşdur. Onun əsas sənəti müəllimlik və şer demək idi. İki min beytə qədər şeri məlumdur. Şerlərinin çoxu həcv idi. Sadəlövh bir kişi idi, hər nə desəydilər inanardı. Şuşanın Çuxur məhəlləsindəndir.

M.M.Qarabaği 1888-ci ildə Şuşada vəfat etmişdir.

**7. Məşədi Dadaş Kəlbəlayı İsmayıl oğlu Qasımzadə.** (Mirzə Xosrovun dayısıdır)-Xalçaçılıqla məşğul olmuşdur. 1930-cu ildə Şuşada vəfat etmişdir.

**8. Xuduş Məşədi Dadaş oğlu İsmayılov** – (Mirzə Xosrovun dayısı oğludur və həm də qaynıdır) – 40 il pedaqoji sahədə çalışmışdır. "Şərəf nişanı»" ordeni ilə təltif olunmuşdur.

**9. Zümrüd Məşədi Dadaş qızı İsmayılova (Axundzadə).** (Mirzə Xosrovun həyat yoldaşıdır). 1905-ci ildə Şuşa şəhərində anadan olmuş və 1940-cı ildə vəfat etmişdir.



# MÜNDƏRİCAT


| | Səh. |
|---|---|
| Şuşa həsrətli Pərviz | 3 |
| Ön söz | 4 |
| Müəllifdən | 9 |
| **Adət və ənənələrimiz** | |
| Müqəddəs Ramazan bayramı haqqında qeydlərim | 12 |
| Müqəddəs Qurban bayramı haqqında qeydlərim | 15 |
| Novruz bayramı və adət-ənənələrimiz haqqında qeydlərim | 18 |
| **Şuşa haqqında mülahizələrim** | |
| Novruzlu Şuşa həsrəti | 29 |
| Hardasan, ay Şuşa?! | 31 |
| Yadigarlar qorunmalıdır | 36 |
| Şuşa haqqında düşüncələrim | 43 |
| Şuşadan yadigar | 48 |
| **Xatirələr və memuarlar** | |
| Həyat səhifələrimdən xatirələrim | 51 |
| Universitet həyatımdan xatirələrim | 68 |
| Kiyev xatirələrim | 72 |
| Çexoslovakiya Respublikasına turist səfərim haqqında | 75 |
| Atam Mirzə Xosrov-Şaiq haqqında şəxsi xatirələrim | 79 |
| Ədəbiyyat aləminə ilk addımım | 83 |
| Atam Mirzə Xosrovun həyat və yaradıcılığına həsr etdiyim monoqrafiyam haqqında | 85 |
| Dissertasiya işim haqqında | 87 |
| **Klassik irsimizdən** | |
| Mirzə Əli Aşiq Axundzadə | 90 |
| Mirzə Xosrov Şaiq Axundzadə | 99 |
| Mirzə Xosrov Şaiqin Mir Möhsün Nəvvab haqqında tədqiqat xarakterli xatirələri | 107 |
| Səməd Vurğunun Xosrov Şaiqlə görüşü | 114 |
| Mirzə Xosrovun Əliağa Vahidlə ədəbi əlaqələri | 117 |
| **Görkəmli elm və mədəniyyət xadimlərimiz** | |
| Akademik Mehdi Mehdizadə haqqında xatirələrim | 121 |
| Akademik Ziya Bünyadov haqqında xatirələrim | 124 |
| Akademik Püstəxanım Əzizbəyova haqqında xatirələrim | 127 |
| Akademik Cəmil Quliyev haqqında qeydlərim | 129 |
| Rusiya Federasiyası Kommermiya Elmlər Akademiyasının ilk azərbaycanlı akademiki | 132 |

Həyat səhifələrimlə bağlı bir alimin ömür yolu 135
Vətən torpağının övladı 140
Şərəfli həyat yolu 142
Pedaqogika elminin fədaisi 147
Təhsil islahatları zamanın tələbidir 151
Xəlil Rza Ulutürk haqqında xatirələrim 156
Əliyar Qarabağlı haqqında xatirələrim 159
Bacarıqlı yurd başçısı Qəşəm Aslanov haqqında xatirələrim 161
Milli mədəniyyətimizin carçısı – Güllü xanım! 164

**Musiqi və sənət adamlarımız**

Bülbülü xatırlayarkən 173
Sevimli bəstəkar Üzeyir Hacıbəyovun iş otağında görüş 177
Bəstəkarla ikinci görüş 179
Mirzə Xosrov Şaiqin qəzəllərinin ilk ifaçılarından biri 181
Mirzə Xosrov və Azərbaycan musiqiçiləri 184
Şuşa şəhərinin «Tarixi muzeyi»ndən qeydlərim 187

**Müasirlərimiz**

Qarabağ – maarif səmasının parlaq ulduzu 191
Qocaman alim, qayğıkeş müəllim 200
Humanist insan və müdrik ağsaqqal 204
İqtisadçı alim 209
Mən onunla fəxr edirəm 213
Qayğıkeş insan, peşəkar təşkilatçı 216
Mənalı ömür 220
Müəllimlik şərəfli peşədir 223
Qarabağın «Qızıl qələm»li jurnalisti 225
Tədqiqatçı-alim və jurnalist 228
Mənalı həyat yolu 230
Bizim Həmid müəllim 240
Bizdən bir söz qalacaq 243
Onun qiymətini ulu Tanrı verib 246
Ömrünün ən müdrik çağlarını yaşayan şair-publisist 248
Bahar oğlu 251
İşin avand olsun, Vtdadi müəllim! 255
Azərbaycan qadınının simvolu 257
Qayğıkeş həkim 262
Onun həyat yolu 266
Gələcəyin filoloqu və müğənnisi 269
Ömrün qısa baharı 271



Kənd müəllimi 275

**İlk görüşlər**

Bir görüşün tarixçəsi 278
Şüvəlanda Xəzər sahilinə səyahət 280
O, öz sənətinin pərəstişkarıdır 285
Şair dostumla görüş 288
İsa Dadaş oğlu ilə görüş 290
Psixiator Məhəmməd Süleymanın fəryadı 291
Əziz Şərifin və Almas İldırımın yurddaşı kimi 293

**Muzeyşünaslıq fəaliyyətimdən qeyddlərim**

Ali məktəb muzeyləri 296
Mütəxəssis kadrların yetişdirilməsində ali məktəb muzeylərinin rolu 301
Xalq təhsili muzeyləri və tədris, təlim-tərbiyə işləri 304
Muzeyşünaslıq fəaliyyətimdən qeydlərim 309
İqtisad İnstiutunda muzeyin zənginləşdirilməsi problemləri 312
İqtisad Universitetinin tarixi muzeyi 317
Azərbaycan Dövlət İqtisad Universitetində muzey baxıcılarına veriləcək məlumat 321
Universitetdə muzeylərin yaradılması tarixindən məlumat 325
Muzeyşünaslıq fəaliyyətimdən düşündüklərim 327

**Mülahizələr və nəsihətlər**

Həyatımın bəzi anları və mənəviyyat problemləri 329
Şərəfli ölümü həyatda yaşatmaq lazımdır 332
Allahın rəhmi 336
Övladlarıma nəsihət 340
Ata-ana haqqı 341
Ər evin tacıdır 342
Muğam ifaçılığına xələl gətirmək olmaz 344
Ailə xoşbəxtliyini daim qorumaq lazımdır 347
Saf məhəbbət haqqında şəxsi düşüncələrim 353
Paxıllıq haqqında bəzi mülahizələrim 354
Mailovun teatr binasının faciəli yanması 359

**Bir diviziyanın keçdiyi yol**

223-cü Belqrad diviziyasının mübarizəsinin hünər salnaməsi 362

**Qarabağ torpaqları uğrunda mübarizədə keçilən yol**

Dağlıq Qarabağ və onun ətrafındakı hadisələr 371
«Qanlı yanvar» faciəsindən qeydlərim 374
Əsrin faciəsi – Xocalı soyqırımı 378

**Kitablar aləmində**

Görkəmli şəxsiyyətlərin kitablar haqqında kəlamları 382
Bir daha terminlər haqqında 384
İblisin qurbanları 387
İdeologiyamız və tarixi taleyimiz 390
«İgidin ürəyi haçalı olar» romanı haqqında mülahizələrim 394
Bulağın 19 illik ömür yolu 397

**Əmək cəbhəsində**

Bir briqadanın iş təcrübəsindən 400
Tələbə inşaatı – həyat məktəbidir 403
Əsl məktəb istehsalatdır 406

**Satirik yazılar**

Yenə də barışdılar... 409
«Elm» pioner düşərgəsində maraqlı əhvalatlar 413
Yeni Yasamalın «yeni dərd»ləri... 415
Balası, bir yaxın gəl... 419
«Çoban Əhməd»in əhvalatları... 421
«Bakılılar» sanatoriyasından qeydlərim 423
Hind toyuqlarının fəryadı 423

**Təbiəti seyr edərkən**

Qış fəslinin şıltaqlığı 429
Bayram şənliyi 430
Gəl-gəl, a yaz günləri 431
Ömür-gün qonşularımız 432
Qışın oğlan çağı 433
Dəllək Aftandil 436

**Qəzetlərdən sətirlər**

Tarixi və mədəni abidələrimizin ziyarətgahında 439
Hörmətli redaksiya! 441
Qeydinə qalanı hayıf ki, yoxdur... 442
Tükənməz səbrimizə təsəlli olardı... 444
Midhət Cavanşiri axtarıram 447
Arzunuz gerçək olsun... 449

♥ ♥ ♥

Soy kökümüz haqqında qısa məlumat 450

**Kompyüter dizaynı:** *Ruhiyyə Barat qızı*
**Korrektor:** *Nazim Şirinov*

Yığılmağa verilmiş: 04.03.2005
Çapa imzalanmış: 14.06.2005
Kağız formatı: 84x108 1/32
Ofset kağızı: № 1
Şərti ç/v 28,75
Sifariş: 11
Tirajı: 500

*Qiymməti müqavilə ilə*
*Kitab «Bəstəkar» Nəşriyyat-Poliqraiya*
*Mərkəzində hazır diopozitivlərdən çap edilmişdir.*
*Bakı şəhəri, M.Muxtarov 6.*

8 m.





**Pərviz Mirzə Xosrov oğlu Axundbəyli-1938-ci ildə Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1963-cü ildə Azərbaycan Dövlət Universitetinin "İqtisadiyyat" fakultəsini bitirmişdir. 1967-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetinin "Marketinq və ticarət" kafedrasının dosentidir. 1981-ci ildə Kiyev şəhərində namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir.**

**Onun iqtisadiyyata aid 60 çap vərəqi həcmində elmi əsərləri və ali məktəb muzeylərinin işinə həsr edilmiş 8 çap vərəqi həcmində məqaləsi çap olunmuşdur.**

**"Mənalı həyat" ("Gənclik"1976) monoqrafiyasının müəllifi, "Ömürdən səhifələr" ("Yazıçı"1992) və "Pedaqoji mülahiz və təcrübələrim" ("Maarif"2000) kitablarının tərtibçisi və "Ön sözün" müəlliflərindən biridir.**

**Pedaqoji fəaliyyəti ilə yanaşı 1985-ci ildən Azərbaycan Dövləl İqtisad Universitetinin "Tarix muzeyi"nin direktoru vəzifəsində çalışır.**